AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
M. FÜZULİ adına ƏLYAZMALAR İNSTİTUTU

FİLOLOGİYA MƏSƏLƏLƏRİ

№ 10

Toplu Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən rəsmi qeydiyyata alınmışdır (Filologiya elmləri bölməsi, №13).

Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Mətbu nəşrlərin reyestrinə daxil edilmişdir. Reyestr №3222.

«Elm və təhsil»
Bakı – 2018

Jurnalın təsisçiləri: Azərbaycan Milli Elmlər Akademiyası
Əlyazmalar İnstitutu və «Elm və təhsil» nəşriyyatı

REDAKSİYA HEYƏTİ: akademik İsa Həbibbəyli, akademik Vasim Məmmədəliyev, akademik Teymur Kərimli, akademik Möhsün Nağısoylu, akademik Nizami Cəfərov, AMEA-nın müxbir üzvü, f.ü.e.d., prof. Əbülfəz Quliyev, f.ü.e.d., prof. Vilayət Əliyev, f.ü.e.d., prof. Fəxrəddin Veysəlli, f.ü.e.d., prof. Qəzənfər Kazımov, f.ü.e.d., prof. Rüfət Rüstəmov, f.ü.e.d., prof. Nadir Məmmədli, f.ü.e.d., prof. İsmayıl Məmmədli, f.ü.e.d., prof. Məsud Mahmudov, f.ü.e.d., prof. Nizami Xudiyev, f.ü.e.d., prof. Sevil Mehdiyeva, f.ü.e.d., prof. Buludxan Xəlilov, f.ü.e.d., prof. İlham Tahirov, f.ü.e.d., prof. Əzizxan Tanrıverdiyev, f.ü.e.d., prof. Mübariz Yusifov, f.ü.e.d., prof. Qəzənfər Paşayev, f.ü.e.d., prof. Əbülfəz Rəcəbli, f.ü.e.d., prof. Cəlil Nağıyev, f.ü.e d., prof. Kamilə Vəliyeva, f.ü.e.d., prof. Azadə Musayeva, f.ü.e.d. Paşa Kərimov, f.ü.f.d., dos. Nəzakət Məmmədli

Buraxılışa məsul: akademik Teymur Kərimli
Rəyçi: filologiya elmləri doktoru, professor Nadir Məmmədli

Filologiya məsələləri. Bakı, 2018, № 10

ISSN 2224-9257

© ”Elm və təhsil” nəşriyyatı, 2018

www. filologiyameseleleri. net

PƏRVİZ İSMAYILOV
filologiya üzrə fəlsəfə doktoru, dosent
AMEA-nın Nəsimi adına Dilçilik İnstitutu
perviz.ismayilov@gmail.com

YAZILI ABİDƏLƏRDƏ ŞƏXS ADLARI

Açar sözlər: yazılı abidə, onomastika, antroponim, toponim, etnonim, memorativ, deskriptiv, dezedrativ.
Key words: written monument, onomastics, antroponym, toponym, ethnonym, memorative, descriptive, desedrative.
Ключевые слова: письменный источник, ономастика, антропоним, топоним, этноним, меморативный, дескриптивный, дезедративный.

Türk dillərinə aid yazılı abidələrin leksik korpusu pratürk dilinin lüğət fondunu müəyyənləşdirmək üçün olduqca əhəmiyyətli materialdır. Həmin materialın xronoloji ardıcıllıqla toplanması və qeydə alınmasına dair bu günə qədər xeyli işlər görülmüşdür. Abidələrin əksər hissəsini əhatə edən qədim türk lüğətində toplanmış sözlər qeydə alınmış, bu və ya digər cəhətdən nizama salınmışdır. Qeyd edilən lüğətin mənbələr haqqındakı bölməsində istifadə edilmiş abidələr haqqında müfəssəl məlumat verilir. Bu məlumatla tanışlıqdan aydın olur ki, lüğətin tərtibi prosesində Orxon-Yenisey abidələri, Altay abidələri (bura müxtəlif maddi-mədəniyyət əşyaları üzərindəki yazılar da daxildir), Mahmud Kaşğarinin lüğəti, uyğur yazıları, Kutadqu-bilik və xeyli sayda başqa mənbələrdən sözlərin toplanması və qeydə alınması işləri görülmüşdür. Bu baxımdan lüğət qədim türk sözlərinin əsas korpusunu əhatə edən ən vacib mənbələrdən biridir **[1].** Adı çəkilən lüğətə türk dillərinin qədim onomastik vahidləri də daxil edilmişdir. Bu vahidlərin lüğətdən seçilib çıxarılması və qədim türk onomastikonu kimi nəşr olunması da xüsusi adların öyrənilməsi üçün yeni bir töhfə ola bilər. Türk dillərinin qədim onomastikası türkoloqların diqqət mərkəzində olan linqvistik tədqiqat abidələrindən biridir. Bu sahədə S.J.Malovun, İ.A.Batmanovun, S.Q.Klaştornının, L.Qumilyovun, T Canuzakov, H.N.Orkunun, Ə.Rəcəbovun, D.M.Nasilovun və başqalarının dəyərli tədqiqat işləri vardır. Son dövrlərdə qədim türk onomastikasına aid Azərbaycanda bir sıra fundamental tədqiqat işləri yerinə yetirilmişdir. Ə.Tanrıverdinin antroponimlərlə bağlı araşdırmaları isə xüsusi yanaşma metodu ilə seçilir və daha çox yazılı abidənin əhatə olunması baxımından diqqət cəlb edir **[2].**

Qeyd etmək lazımdır ki, ayrı-ayrı abidələrin onomastik layının öyrənilməsinə aid bir sıra tədqiqatlar mövcuddur. Əgər ümumi türkologiya nöqteyi-nəzərindən məsələyə yanaşsaq, müxtəlif türkdilli dövlətlərdə belə araşdırmaların aparılmasını nəzərə almağın əhəmiyyətini aşkar hiss etmək olar. Fikrimizcə, qədim türk onomastikasına dair xüsusi biblioqrafiyanın hazırlanması da türkologiyanın praktik, aktual məsələlərindən biridir. Əgər keçmiş SSRİ-yə daxil olan türkdilli dövlətlərin müstəqillik qazanması milli dillərin, eləcə də milli mədəniyyətin öyrənilməsinə güclü pozitiv təkan vermişdirsə, türkoloji tədqiqatların mərkəzləşdirilməsi, əlaqələndirilməsi, eləcə də əməkdaşlığın qurulması istiqamətində fəaliyyət kifayət qədər ürəkaçan deyildir. Bu məsələdə əsas çatışmazlıq görülmüş işlərin yayılması, onların əldə olunub istifadə edilməsi ilə bağlıdır. Bununla belə, qədim türk onomastikası, o cümlədən də şəxs adları ilə bağlı tədqiqatların əhatə dairəsini genişləndirməyə, daha çox yazılı abidəni əhatə etməyə ciddi ehtiyac hiss olunmaqdadır. Bu cür tədqiqatlardan biri də ayrı-ayrı yazılı abidələrin onomastik qatı ilə bağlı araşdırmaların şərhini vermək, onları bir araya toplamaqdır. Şübhəsiz ki, qədim türk onomastikasına dair fundamental işlərdə yerinə yetirilmiş və keçmiş tədqiqatlara istinadlar verilir. Zənnimizcə, bu istinadlar əsasında ilkin biblioqrafiyanın yaradılması mümkündür. Eyni zamanda əldə olan mənbələr əsasında da müəyyən şərh və məlumatları əhatə edəcək məqalələrin yazılması da vacibdir. Bu yazıda bir neçə tədqiqat işi barədə məlumatları bir yerə toplamaq, onlara münasibət bildirmək məqsədini qarşımızda qoymuşuq.

V.U.Maxpirov 1980-ci ildə XI əsr yazılı abidəsi olan "Divani-lüət-ittürk" əsərində xüsusi adlar mövzusunda namizədlik dissertasiyası yazmışdır **[3.6].** Qeyd edək ki, tədqiqatçının elmi rəhbəri N.A.Baskakov, rəsmi opponenti T.Canuzakov türk dillərinin qədim onomastikasını öyrənmək sahəsində tanınmış türkoloqlar olmuşdur. Tədqqiatın elmi sambalının hesab edirəm ki, bir göstəricisi də budur. Adı çəkilən dissertasiya giriş, 4 fəsil, nəticə, ədəbiyyat və əlavədən ibarət olmuşdur. Əlavədə xüsusi adların (antroponim, etnonim və toponim) siyahısı verilmişdir. Qabaqcadan qeyd edək ki, yazılı abidələrin hər birinin onomastikonun tərtib edilməsi əhəmiyyətli və aktual məsələdir. Belə siyahılar müqayisəli təhlil aparmaq işini xeyli dərəcədə asanlaşdırır.

Dissertasiyanın birinci fəsli "Divan"dakı antroponimlərə, ikinci fəsli etnonimlərə, üçüncü fəsli toponimlərə həsr olunmuş, dördüncü fəsil isə xüsusi adların formalaşmasının struktur-qramamtik xüsusiyyətlərini əhatə etmişdir. M.Kaşğarlının lüğətindəki xüsusi adların tərkibi bircinsli deyildir və əsas hissəsini türk mənşəli adlar (70 %) təşkil edir. Digər hissə ərəb və fars mənşəli antroponimlərdir. Ərəb və fars antroponimlərinin lüğətdə yer alması türk xalqlarının ərəb və farslarla qarşılıqlı əlaqələrinin güclü olduğunu təsdiqləyir. V.U.Maxpirov göstərir ki, XI əsrdə ərəb mədəniy-

yətinin türk xalqlarına təsiri güclü olduğundan, türklərdə uşaqların ərəb adları ilə adlandırılnması halları çox müşahidə olunur **[3, səh. 6].** Biz bu qənaətdəyik ki, türklərin ərəb adlarını daşımasında İslamın həlledici rolu vardır və dini təsir əsrlər getdikcə qüvvətlənmişdir. Orta əsrlərdə və sonrakı dövrlərdə də ərəb adlarının say çoxluğu qeydə alınır. Fikrimizcə, adlarda milliləşmə XX əsrin ortalarından başlanmış və əsrin sonlarında güclənmişdir. Bu faktın Azərbaycan antroponim sistemi üçün doğruluğunu qəbul etmək olar. Təbii ki, faktın tam təsdiqi xüsusi araşdırma və hesablamalar tələb edir.

V.Maxpirov tədqiqatında M.Kaşğarlının "Divan"ında qarışıq adların qeydə alındığını da göstərmişdir. Qarışıq adlar mürəkkəbliyi ilə seçilir. Ümumi adın komponentləri arasında həm ərəb, həm də türk mənşəli komponentlər olur. Məsələn, Mizaməddin İsrafil Toğan Tekin, Muhəmməd Cakir Tonca Xan. Strukturca adın dörd komponentdən ibarət olması onun mürəkkəbliyinə və qədim türk antroponim sisteminin normalarından bir qədər kənara çıxdığını təsdiq edir. Biz belə hesab edirik ki, qədim türk antroponim sistemi üçün nümunə kimi verilmiş adların "Toğan Tekin", "Tonca Xan" komponentləri daha böyük maraq doğurur.

M.Kaşğarlının lüğətində qeydə alınan türk mənşəli adların əsas qismindən "ay", "alp", "aysa", "azak", "kaban /qaban", "gün" və s. appeyativlər iştirak edir. V.Maxpirov lüğətdəki antroponimləri motivləşmə mənbəyinə görə 3 qrupa bölmüşdür: 1) İthaf adlar (memorativlər); 2) Təsviri adlar (Deskritivlər); 3) Arzu adlar (dezederativlər) **[3, səh. 9-10].** Müəllif belə hesab edir ki, memorativlər ən qədim adlar sisteminə daxil olub, işıq və ulduz kultu ilə bağlıdır. Bu baxımdan tərkibində "ay" və "gün" komponenti olan antroponimlər daha geniş qat təşkil edir. M.Kaşğarinin lüğətində "Ay" qadın adı, XI əsrə aid başqa abidə - "Kutadqu bilik"də "Ay-Toldı", "Gün Toğdı" adları vardır. Tərkibində heyvan və quş adları olan antroponimlər də xüsusi qrup təşkil edir. Məsələn: Tonğa Xan, Boğra Qara Xan, Arslan xan və s. Daha sadə adlar tərkiblidir və adi adamların adlarını bildirir. Məsələn: As-qul qadın, Kapan - kişi adı, Turumtay, Toğrul və s. qəbilə və tayfa adları əsasında formalaşan (Komuk / Kumuk; kay); qohumlu terminləri ilə düzələnlər (Abi, Bekm, İnal öz və s.) **[3, səh. 8-9].**

Təsviri adlar fərdin müxtəlif müsbət keyfiyyətləri ilə bağlı formalaşır. Məsələn: Alp Aya (alp - qəhrəman, aya-ən yaxşı), Biliye Bek (müdrik bəy), İnanc Bek (inanılmış / inanılan / etibarlı bəy), Öndülmüş (tərifləmiş, mədh edilmiş), Yavlac Sarıc (Yavlac - möhkəm, sərt və ya yavlac - pis). Fikrimizcə, bu adların formalaşma xüsusiyyətlərini daha dərindən təhlil etmək lazım gəlir.

Burada advermə ənənəsi nəzərə alınmalıdır. Məsələn, “Alp Aya” adında birinci və ya ikinci komponentin ilkinci olma ehtimalı vardır. Ola bilsin ki, qədim advermə ənənəsində əvvəl bir komponentli ad verilmiş,

sonra ona ikinci komponent əlavə edilmişdir. Bu mülahizəni təsdiq edən cəhətlərdən biri odur ki, qədim türk adları sırasında çoxkomponentlər arasında titul və rütbə bildirən söz də qeydə alınır. Şübhəsiz ki, ad verilən zaman fərdin müvafiq titulu olmamış, o, sonralar bu titulu almışdır. Titul verildikdən sonra ad ikikomponentli və ya ikisözlü antroponimə çevrilmişdir. Dezideativlərdə adı verənin arzu və istəkləri yer alır. Məsələn, Bektur adında bek "möhkəm, sərt" mənasında izah olunarsa, ad "möhkəm dur" anlamında olacaqdır.

V.Maxpirovun fikrinə görə, "Beklen" adının mənası "bəy ol" kimi izahlanmalıdır. Biz belə hesab edirik ki, bu ad "bəkləmək" felindən düzəltmə ola bilər və "gözlənilən / bəklənilən" mənasını daşıyır. V.Maxpirov Azak sözünü "son" mənasında qəbul edir və onu daha uşaq istəmiyənlərin arzusu kimi yozur **[3, səh. 10].**

Təbii ki, haqqında söhbət gedən dissertasiyanın avtoreferatında izah və şərhlər, nümunələr kifayət qədər deyildir və dissertasiyanın tam mətni ilə tanış olmaq əhəmiyyətlidir. Onu da qeyd edək ki, M.Kaşğarlinin əsərində xüsusi adların yalnız V.Maxpirov tərəfindən öyrənilməsini demək olmaz. Bu qiymətli yazılı abidənin onomastikasına dair digər tədqiqat işləri sərf-nəzər edilməlidir. Məsələn, Ə.Tanrıverdi yazır: "Divan"dakı antroponimləri aşağıdakı istiqamətlər üzrə tədqiq etməyi məqbul hesab edirik: "Divan"dakı antroponimlərin tədqiqi tarixi; Mahmud Kaşğari türk antroponimikasının ilk tədqiqatçısı kimi; "Dədə Qorqud kitabı" və "Divani lüğət-it-türk"dəki sözlərin müasir Azərbaycan dilində mühafizə olunması; "Dədə Qorqud kitabı" və "Divani lüğət-it-türk"də işlənən etnonim və antroponimlərin oxşarlığı; "Divan" və Orxon-Yenisey abidələrindəki antroponimlərin müqayisəsi; "Divan"da antroponim və apelyativ kimi işlənən vahidlər; "Divan"da işlənən antroponimlərin leksik-semantik qrupları; "Divan"da işlənən antroponimlərin quruluşu və antroponimik modellər" **[2, səh. 328-329].**

A.A.Baronov qırğız qəhrəmanlıq eposu "Manas"da olan antroponimlərin tədqiqinə dair həsr etdiyi namizədlik dissertasiyasını 1988-ci ildə Alma-Atada müdafiə etmişdir **[4].** Bu dissertasiya giriş, üç fəsil, nəticə və ədəbiyat siyahısından ibarət olmuşdur. Müəllif "Manas" eposunda qeydə alınan antroponimlərin siyahısını əlavə kimi verməmişdir. Tədqiqat işinin birinci fəslində "Manas" eposundakı real adlar homogen və hetromen olmaqla, 2 qrupa bölünməklə tədqiq edilmişdir. Real adlar anlayış adın türk dillərinin və başqa dillərin (iran, monqol, ərəb) antroponimiyasında qeydə alınmanı ifadə edir. Türk dillərindən (qırğız dilindən) olan real adlar çoxluq təşkil edir. Bu adlar 3 qrupa ayrılmışdır: 1) Müasir qırğız dilində işlənənlər; 2) Müasir qırğız dilində olmayanlar; 3) İstifadədən çıxmış, arxaikləşmiş adlar. Birinci qrupa Akbala, Sarıbay, Berdibay, Kara, Koyçuman və s.; ikinci qrupa Abak, Baykan, Botpay, Koxeoy və s.; üçüncü qrupa Adıq xan, Barak xan, Xan Bequş və s. adlar daxil edilmişdir **[4, səh. 4-5].** Göründüyü kimi, verilən

qruplardan üçüncüsündə iki komponentdən, daha doğrusu, iki sözdən ibarət olan adlar üstünlük təşkil edir.

A.Boronoun tədqiqatında türk-monqol, türk-iraq, türk-ərəb hetromen adları da öyrənilir ki, burada türk komponenti maraq doğurur. Müəllifin dissertasiyanın II fəsli folklor adlarına həsr edilmişdir. Burada türk, monqol, iran, ərəb xalqlarının folklorundan olan adlar araşdırılır. Müəllif bir çox türk xalqlarının folklorunda qeydə alınan adları ayrıca qrupda birləşdirmişdir. Bu qrupa Ay xan // Ayqan, Kekay xan // Keqey xan, Kara xan, Aqay xan, Kün xan, Kebek, Toluk Kebek, Toştuk, Ak xan və s. adlar daxildir. Bu qrupda real antroponim sstemində yer alan Noqoy, Aqış, Bolot, Jamqırçı, Janıbek, Ediqe, Kambar xan, Karaç, Kanalı, Karlığac kimi adlar da vardır **[4, səh. 11].** Ə.Tanrıverdi "Manas" dastanının antroponimlərinin tədqiqi ilə bağlı aşağıdakı istiqamətlər üzrə araşdırmalar aparmışdır: "Türkiyə türkcəsinə çevrilmiş "Manas"da antroponimlərin transkripsiyasına dair; "Manas"da işlənən antroponimlərin "Orxon-Yenisey abidələri" və "Kitabi-Dədə Qorqud"dakı antroponimlərlə müqayisəsi; "Manas"dakı antroponimlərin poetik xüsusiyyətləri; "Manas"da ərəb və fars mənşəli antroponimlər; "Manas"da antroponim, həm də apelyativ kimi işlənən vahidlər; Qədim türk mənbələrində yaşayan şəxs adları "Manas"da işlənən antroponimlərin leksik-semantik qrupları; "Manas"dakı antroponimlərin quruluşu və antroponimik modellər" **[2, səh. 299-300].**

Nəzərdən keçirilmiş iki tədqiqat işində öyrənilən antroponimlərin müxtəlif aspektlərdən müsadisəsi üçün kifayət qədər material vardır. Bir də qeyd edək ki, bu cür tədqiqat işləri çoxsaylıdır və onların hamısı haqqında məlumat toplamaq asan deyildir. Əlbəttə, Sovet dövründə yerinə yetirilmiş işlərin, müdafiə edilmiş dissertasiyaların özlərini və ən azı avtoreferatlarını axtarıb tapmaq mümkündürsə, müstəqillik dövründə ayrı-ayrı türkdilli respublikalarda, eləcə də Rusiyada görülmüş işlərlə tanış olmaq müəyyən çətinlik törədir. Buna baxmayaraq, türk dillərinin qədim onomastik qatının kompleks şəkildə öyrənilməsi üçün bu cür işlərdəki materialları araya-ərsəyə gətirmək vacibdir.

Türk dillərinin qədim onomastikasının tədqiqinin bir istiqaməti də yazılı abidələrin onomastik vahidlərini həm ayrı-ayrılıqda, həm də müqayisəli şəkildə öyrənməkdir. Bu cəhət professor Ə.Tanrıverdinin monoqrafiyası hesab edirik ki, bu günə olan qiymətli əsərlərdən biridir.

"Filologiya elmləri doktoru, professor Əzizxan Tanrıverdinin "Qədim türk mənbələrində yaşayan şəxs adları" kitabı son dərəcə maraqlı tədqiqat əsəridir. Müəllif burada Orxon-Yenisey abidələri, "Dədə Qorqud kitabı", "Manas", Mahmud Kaşğarinin "Divani lüğət-it-türk" əsəri, Balasağunlu Yusif Xas Hacibin "Kutadqu bilik" poeması, özbəklərin məşhur "Alpamış" dastanı, erməni hərfləri ilə yazılmış polovets mətnləri və XVII əsrə aid "Dəftəri-müfəssəli-əyaləti Tiflis" sənədində işlədilmiş 800 şəxs adını saf-çürük etmiş,

tarixi-linqvistik baxımdan onların izahını vermişdir. Bu adlar arasında cüzi yer tutan ərəb-fars mənşəli şəxs adlarını da nəzərdən qaçırmamışdır. Ə.Tanrıverdi tədqiqata 1500 illik tarixi olan əski göytürk yazılı abidələrindən başlamış, burada işlənmiş adları "Kitabi Dədə Qorqud"dakı adlarla müqayisə etmiş, onların leksik-semantik qruplarını, quruluşunu, antroponimik modellərini müəyyənləşdirmişdir. Orxon-Yenisey abidələrindəki adların müasir qazax, qırğız, özbək, tatar, türkmən, çuvaş və Azərbaycan dillərində yaşadığını elmi faktlarla, dəlillərlə sübut etmişdir" **[5, səh. 4].**

Ümumiyətlə, antroponimlərin yazılı abidələrin materialları əsasında çoxplanlı və çoxtərəfli tədqiqatı ilə bağlı belə nəticəyə gəlirik ki, bu tipli araşdırma üçün ilk növbədə mövcud elmi işlər, faktlar, elmi-nəzəri müddəalar ümumiləşdirilməlidir.

Ədəbiyyat

1. Древнетюркский словарь. Ленинград, Наука, 1969, 676 с.
2. Ə.Tanrıverdi. qədim türk mənbələrində yaşayan şəxs adları. Bakı, Nurlan, 2009, 442 s.
3. Махпиров В.У. Собственные имена в памятнике XI в «Дивану лугат-ит-турк» Махмуда Кашгарского: Автореф….. дис… канд. филол. н. Алма-Ата, 1980, 30 стр.
4 .Боронов А.А. Антропонимы в киргизском героической эпосе «Манас»: Автореф. дис. …. канд. филол. Н. Алма-Ата, 1988, 20 с.
5. R.Əskər. Türklərin masaüstü kitabı // Ə.Tanrıverdi. Qədim türk mənbələrində yaşayan şəxs adları. Bakı, Nurlan, 2009, səh. 3-9.

P.Ismailov

Proper names in written monuments

Summary

In the article with the purpose of elaboration of theoretical bases and methods of complex investigation of ancient Turkish anthroponyms is settled the problem of interpretation of onomastic layer fixed in different monuments. In the article have been considered and generalized the principles of classification registered in two dissertation works dedicated to onomastic units in "Divan" by Mahmud Gashgari and antroponyms in the dastan "Manas".

Personal names used in written monuments are ancient base of these onomastic units. The research reveals that such names can be model in

accordance with their components which are their part. By modeling thematic meaning of a component is accepted as differentiating sign. Comparative analysis of revealed models is held on base of various materials of written monuments.

П.Исмайлов

Собственные имена в письменных источниках

Резюме

В статье с целью выработки теоретических основ и методики комплексного изучения древнетюркских антропонимов поставлена проблема интерпретации ономастического пласта, зафиксированного в разных источниках. В статье рассматриваются и обобщаются принципы классификации, извлечённые из двух диссертаций, посвященных ономастическим единицам в «Диване» МахмудаКашгари и антропонимам в дастане «Манас».

Личные имена использованные в письменных памятниках являются древним пластом этих ономастических единиц. Исследование показывает, что такие имена можно моделировать по компонентам входящих в их состав. При моделировании тематическое значение компонента принимается как дифференцирующим признаком. Проводится сравнительный анализ выявленных моделей на основе материалов различных письменных памятников.

Rəyçi: **Qara Məşədiyev**
Filologiya üzrə elmlər doktoru, professor

LEYLA MAHMUDOVA
BDU-nun dosenti
mahmudova.1969@mail.ru

MÜASİR FARS DİLİNDƏ TAMAMLIQ BUDAQ CÜMLƏLI TABELİ MÜRƏKKƏB CÜMLƏLƏRİN NÖVLƏRİ

Açar sözlər: tabeli mürəkkəb cümlələr, mübtəda budaq cümləsi, analitik tipli mübtəda budaq cümləsi, sintetik tipli mübtəda budaq cümləsi, mürəkkəb cümlələr, baş cümlə, budaq cümlə
Ключевые слова: сложные предложения, сложноподчиненные предложения, сложноподчиненные предложения с придаточными подлежащее, аналитические придаточные предложения, синтетические придаточные предложения, главное предложение, придаточное предложение.
Key words: complex sentences, subject clause, subordinate clause, analytic subject, synthetic subject, complex sentences with a subordinate clauses, principal clause.

Cümlə qrammatik şəxs, zaman və şəkil kateqoriyalarına və bununla əlaqədar olaraq, modallıq kateqoriyasına malik olan sintaktik strukturdur.

Cümlənin məzmunundakı məlumatın gerçəkliyə münasibəti şəxs, zaman və şəkil formaları ilə ifadə olunur. Qrammatik şəxs, zaman və şəkil kateqoriyaları predikativlik anlayışında birləşir.

Mürəkkəb cümlə bitmiş bir fikri bildirməklə, eyni zamanda, bitmiş fikri bildirən cümlələrin mexaniki məcmuyundan ibarətdir. Mürəkkəb cümlənin tərifində əsas məqsəd onun tərkib hissələrini təşkil edən sadə cümlələri, ya da onların müstəqilliyini nəzərə çarpdırmaq deyil, bəlkə sadə cümlələrin birləşərək mürəkkəb bir sintaktik vahid olduğunu göstərməkdir (1,322).

Tabeli mürəkkəb cümlənin cox zəngin semantik və quruluş xüsusiyyətlərini onun ayrı-ayrı budaq cümlələrində öz əksini tapır. Yəni hər bir budaq cümlə üçün səciyyəvi olan xüsusiyyətlər bütünlükdə tabeli mürəkkəb cümlənin fərqləndirici əlamətlərini təşkil edir. Tabeli mürəkkəb cümlə sadə cümlədən böyük vahid olub, bir neçə sadə cümləni əhatə etdiyi üçün sadə cümlənin hər bir üzvü tabeli mürəkkəb cümlədə genişlənib sadə cümlə səviyyəsinə qalxır. Deməli, sadə cümlə söz və ya söz birləşmələrindən t\şkil olunduğu halda, tabeli mürəkkəb cümlə bütövlükdə sadə cümlələrdən qurulur.

Hər bir budaq cümlənin səciyyəvi qrammatik xüsusiyyətləri və intonasiyası vardır. Lakin budaq cümlə baş cümlədən müəyyən mənada asılı olduğu üçün o, tabeli mürəkkəb cümlənin bir hissəsi və onun üçün də tabeli mürəkkəb cümlədə ifadə olunan fikrin elementi hesab edilir. Məsələyə bu

cəhətdən yanaşdıqda budaq cümlədə ifadə olunan fikrin tam müstəqil liyini qəbul etmək olmaz. Yoxsa bu, budaq cümlənin baş cümləyə bağlılığının inkarı demək olardı və baş cümlənin, ümumiyyətlə isə tabeli mürəkkəb cümlənin işlənməsinə ehtiyac qalmazdı. Hər halda budaq cümlədə ifadə olunan fikrin müstəqilliyini sadə cümlədəkinə bərabər tutmaq olmaz (2,394).

Müasir fars dilində işlənən tabeli mürəkkəb cümlələri budaq cümlələrinə görə aşağıdakı kimi təsnif edilir:

I.mübtəda budaq cümləsi
II.xəbər budaq cümləsi
III.Tamamlıq budaq cümləsi
IV.Təyin budaq cümləsi
V.Zərflik budaq cümlələri
1.zaman budaq cümləsi
2.yer budaq cümləsi
3.kəmiyyət budaq cümləsi
4. səbəb budaq cümləsi
5.məqsəd budaq cümləsi
6.tərz budaq cümləsi
7.nəticə budaq cümləsi
8.müqayisə budaq cümləsi
9.şərt budaq cümləsi
VI.Qarşılıq-güzəşt budaq cümləsi (3, 136)

Tamamlıq budaq cümləsi baş cümlənin əsasən feli xəbərini tamamlamağa xidmət edir və tamamlığın suallarına cavab olur. Bir sözlə, baş cümlədəki xəbərin tamamlığı olur.

Tamamlıq budaq cümləsi fars dilində ən çox işlənən budaq cümlə növlərindəndir.

Belə cümlələrdə budaq cümlə baş cümlədən sonra gəlir və "که" bağlayıcısı ilə baş cümləyə bağlanır:

نوح به پسرش گفت که باید با من بیایی.

(Nuh be pesərəş qoft ke bayəd ba mən biyayi)

Nuh oğluna dedi ki, mənimlə gəlməlisən.

Bu tamamlıq budaq cümləli tabeli mürəkkəb cümlədə نوح به پسرش گفت baş cümlə, باید با من بیایی isə budaq cümlədir. Baş və budaq cümlə که bağlayıcısı ilə əlaqələndirilmişdir.

Müasir fars dilində baş və budaq cümlə arasında işlənən "که" bağlayıcısının ixtisara düşməsi hallarına çox təsadüf olunur. Bu hala baş cümləsinin xəbərlərinin nitq ifadə edən fellərlə

خواهش کردن (xaheş kərdən) xahiş etmək

سپردن (sepordən) tapşırmaq

فرمودن (fərmudən) buyurmaq, demək, əmr vermək
گفتن (qoftən) demək
ifadə olunduğu tamamlıq budaq cümlələrində rast gəlinir.

Beləki, xəbəri bu tip fellərlə ifadə olunan budaq cümlələrdə özgə nitq olduğu kimi saxlanıldığı üçün budaq cümlə vasitəsiz nitq vəzifəsini daşıyır. Məsələn:

خدا به نوح فرمود درخت ساج بنشاند.
(xoda be nuh fərmud deraxt-e sac beneşanəd)
Allah Nuha əmr etdi tik ağacı əksin.

هرچه به تو گفته اند باید بکنی. (hər çe be to qofteənd bayəd bekoni) Sənə nə deyiblərsə, etməlisən.

Budaq cümlənin zamanı çox vaxt baş cümləyə nisbətən anlaşılır. Baş cümlənin zamanı danışan və dinləyən üçün söhbət gedən vaxta nisbətən müəyyən edilirsə, budaq cümlənin zamanı baş cümlənin zamanı ilə münasibətdə müəyyənləşir. Tamamlıq budaq cümləli tabeli mürəkkəb cümlələrdə həm baş, həm də budaq cümlənin xəbərləri felin xəbər şəklinin bütün zamanları və şəkilləri ilə ifadə olunur. Lakin bəzi fellərin semantikasından asılı olaraq, budaq cümlənin xəbəri ancaq müəyyən formalarda olur.

Baş cümlənin xəbəri meyl, arzu, xahiş, tələb və s. bu kimi məfhumları bildirən fellər olarsa, budaq cümlənin xəbəri həmişə iltizam şəklinin indiki zamanı (aorist) formasında işlənir. Məsələn:

دوستم خواهش می کند که فردا به خانه ی آن ها بروم. (dustəm xaheş mikonəd ke fərda be xane-ye anha berəvəm)
Dostum xahiş edir ki, sabah onlara gedim.

نوح به پسران و دختران خود فرمود که با او به کشتی سوار شوند.
(Nuh be pesəran və doxtəran-e xod fərmud ke ba u be kəşti səvar şəvənd)
Nuh oğlanlarına və qızlarına dedi ki, onunla birlikdə gəmiyə minsinlər.

میل دارم در باره ی این حادثه با شما صحبت بکنم.
(meyl darəm dər bare-ye in hadese ba şoma sohbət bekonəm)
Arzu edirəm ki, bu hadisə haqqında sizinlə danışam.

مردم انتظار داشتند که نوح آن ها را هم با خود ببرد.
(mərdom entezar daştənd ke Nuh anha ra həm ba xod bebərəd)
Adamlar ümid etdilər ki, Nuh onları da özü ilə aparar.

Tamamlıqlar vasitəsiz və vasitəli olmaq üzrə iki yerə ayrıldığı kimi, tamamlıq budaq cümlələrini də vasitəsiz və vasitəli tamamlıq budaq cümlələrinə ayırmaq olar.

Tamamlıq budaq cümləsinin baş cümlənin vasitəli və ya vasitəsiz tamamlığı kimi çıxış etməsi baş cümlədəki xəbərin növündən asılıdır. Baş cümlənin xəbəri təsirsiz fellə ifadə olunursa, tamamlıq budaq cümləsi vasitəli olacaqdır.

Əksinə, baş cümlənin xəbəri təsirli olarsa, tamamlıq budaq cümləsi vasitəsiz olur.

نوح به خدا گفت که من از غرق شدن می ترسم .

(Nuh be xoda qoft ke mən əz ğərğ şodən mitərsəm)

Nuh Allaha dedi ki, mən batmaqdan qorxuram.

نوح می دانست که آنها چهل سال هلاک نخواهند شد.

(Nuh midanest ke anha çehel sal həlak nəxahənd şod)

Nuh bilirdi ki, onlar qırx il həlak olmayacaqlar.

این حکایت به ما نشان می دهد که کشتی نوح چگونه خلاص یافته است.

(in hekayət be ma neşan midəhəd ke kəşti-ye Nuh çequne xelas yafte əst)

Bu hekayə bizə Nuhun gəmisinin necə xilas olduğunu göstərir

(hərfən: bu hekayə bizə göstərir ki, Nuhun gəmisi necə xilas olmuşdur).

شکی نیست که پسر نوح در این زمان توی کشتی نبود.

(şəkki nist ke pesər-e Nuh dər in zəman tu-ye kəşti nəbud)

Şübhəsiz ki, (hərfən: şübhə yoxdur ki)

Nuhun oğlu o vaxt gəmidə deyildi.

Bu hekayə bizə Nuhun gəmisinin necə xilas olduğunu göstərir

(hərfən: bu hekayə bizə göstərir ki, Nuhun gəmisi necə xilas olmuşdur).

شکی نیست که پسر نوح در این زمان توی کشتی نبود.

(şəkki nist ke pesər-e Nuh dər in zəman tu-ye kəşti nəbud)

Şübhəsiz ki, (hərfən: şübhə yoxdur ki)

Nuhun oğlu o vaxt gəmidə deyildi.

کم مانده بود که نوح خودش هم هلاک شود.

(kəm mande bud ke Nuh xodəş həm həlak şəvəd)

Az qalmışdı ki, Nuh özü də həlak olsun.

Yuxarıdakı birinci üç cümlədə tamamlıq budaq cümləsi vasitəsiz, dördüncü və beşinci cümlələrdəki budaq cümlələr isə vasitəli tamamlıq budaq cümlələridir.

Fars dilində vasitəsiz tamamlıq budaq cümləsi daha çox yayılmışdır.

Vasitəsiz tamamlıq budaq cümləsi چی (çi) , چی را (çi ra), چه (çe), چه را (çe ra),چه چیز را (çe çiz ra) suallarına cavab verir.

خدا به نوح فرمود که درخت را ببرد و کشتی درست کند.

(xoda be nuh fərmud ke derəxt ra beborəd və kəşti dorost konəd)

Allah Nuha əmr etdi ki, ağacı kəssin və gəmi düzəltsin.

Vasitəli tamamlıq budaq cümləsi بچه؟ از چه؟ برای چه؟ suallarına cavab verir.

احتمال می رود که او از این سفر راضی خواهد ماند.

(Ehtemal mirəvəd ke u əz in səfər razi xahəd mand)

Güman etmək olar ki, o, bu səfərdən razı qalacaq.

Ədəbiyyat

1.Ə.Abdullayev. Müasir Azərbaycan dilində tabeli mürəkkəb cümlələr. Bakı, 1964.
2.M.Şirəliyev, N.Mehdiyev. Müasir Azərbaycan dili. Bakı, 1981.
3.حمد شفائی. انواع جملات مرکب وابسته در فارسی معاصر. تهران ،ا ۱۳۵۱
4.Azərbaycan dilinin sintaksisinə dair tədqiqlər. Bakı, 1963.
5.افسانه ها. باهتمام صبحی. تهران، ۱۳۲۳
6. به آذین. مهمان این آقایان. تهران، ۱۳۶۹
7.صادق هدایت. حاجی آقا. تهران، ۱۳۳۵

L.Mahmudova

The conjunctions in the complex sentences with subordinate subject in modern persian language

Summary

The article is dedicated to the complex sentences with a subject clause, which is one of the types of complex sentences with a subordinate clauses in modern Persian language.

The article points out that there are two types of subject clauses in modern Persian language: analytic subject clause and syntetich subject clause.

The sentences involved into the research can be used differently.İn this case only the syntactical structure of the sentence, not the meaning is changed. Such sentences are called syntactical synonyms.

Also while observing this phenomenon both in Persian and Azerbaijani languages it becomes evident that they differ the members of the synonymic pair differ slightly. However they still constitute syntactic synonymy.

The analytic subject clause appeares when principal clause douses not have a subject clause performs this function.

The syntetic subject clause comes with principal clause which has its own subject but this subject is incomplete and may difficult to be recognized.

The article deals with some sintaxiale spesiality of persian words on the azerbaijani language.

Which are actuel problems on contemporary linguisties. The functional features bof the simple sentence in modern persian language and azerbaijan language. Itts role and importence in the fiction and spoken language are considered in this article.

The article speaks about some aspects of contemporary linguists – scientifics.

Л.Махмудова

Разновидности сложноподчиненных предложений с придаточным предложением дополнение в современном персидском языке

Резюме

Статья посвящена придаточному предложению дополнение который является одним из видов сложноподчиненных предложений в современном персидском языке.

В статье указывается на то что в современном персидском языке существуют два вида придаточных предложений дополнение: аналитический и синтетический.

Такие средства служат возникновению привлеченные в исследовании могут быть использованы по-разному. При этом меняется только синтаксическая структура предложений а не их смысл. Более того исследование этого явления в персидском и азербайджанском языках показало что члены синонемических пар лишь незначидельно отличаются друг от друга.

Однако такие предложения в любом случае создают синтаксическую синонимию.

В аналитическом виде придаточных предложений дополнение в главном предложении подлежащее отсутствует и придаточное предложение вступает в роли дополнение главного предложения.

В синтетическом виде придаточных предложений подлежащее главного предложения выражается местоимениями и требует уточнения.

В статье указывается некоторые синтаксические особенности персидского языка. Изучается актуальные проблемы современной лингвистики в обоих языках.

Исследуется актуальные вопросы цель и задачи и практические значения придаточных предложений в современном персидском языке.

Rəyçi: **Nigar Musayeva**
Filologiya elmləri namizədi, dosent

SƏYYARƏ HEYDƏROVA
Bakı Avrasiya Univerisiteti
sayyara@mail.ru

FRANSIZ DİLİNDƏKİ MƏNSUBİYYƏT ƏVƏZLİKLƏRİNİN TƏDRİSİNƏ DAİR

Açar sözlər: ünsiyyət vasitəsi, milli auditoriya üçün müasir dərsliklər, tipik səhvlər, innovativ təlim metodları, kreativ çalışmalar, müasir təlim texnologiyaları.
Ключевые слова: Современные учебники для типичных ошибок, инновационные методы обучения, креативная работа, современных технологий обучения, средством общения, национальной аудитории.
Key words: Typical errors, innovative teaching methods, modern educational technology, creative work, the national audience for books, modern means of communication.

Xarisi dillərin tədrisi prosesində dilin digər aspektləri ilə yanaşı qrammatikanın tədrisinə də xüsisi önəm vermək zəruridir. Əks – təqdirdə dildən ünsiyyət vasitəsi kimi istifadə etmək qeyri-mümkün olardı.. Qrammatik materialın tədrisi o vaxt müsbət nəticə verir ki, dilöyrənənlər onu şüurlu surətdə qavrasınlar, müsahibləri ilə fikir mübadiləsi yürütdükdə, danışıq aktının reallaşması prosesində ondan səmərli istifadə edə bilsinlər, onu yerli-yerində işlətməyi bacarsınlar. Dilin digər aspektləri kimi qrammatikanın da innovativ təlim metodları ilə tədris edilməsi müasir dövrün tələbidir. Tədris prosesində öyrənilən hər bir qrammatik material həmin paraqrafda olan mətndə, dialoqlarda, situasiyalarda, müxtəlif tipli kreativ çalışmalarda təqdim olunmalıdır. Milli auditoriya üçün nəzərdə tutulan müasir dərsliklərin, qrammatika kitablarının, dərs vəsaitlərinin innovativ metodlara istinad .olunaraq yazılması, materialın ən vacib hissələrinin disklərdə səsləndirilməsi zəruridir. Lakin bütün qrammatik qaydaları dərhal praktikada tətbiq etmək o qədər də asan bir proses deyil. Məsələn, fransız dilinin tədrisi zamanı dilöyrənənlər üçün çətinlik törədən qrammatik materiallardan biri də mənsubiyyət əvəzliklərinin ünsiyyət prosesində işlədilməsidir.

Mənsubiyyət əvəzlikləri isimləri əvəz edir. Bu əvəzliklər müstəqil sözlərdir, onlar müxtəlif cümlə üzvləri funksiyasında işlənə bilir. Mənsubiyyət əvəzlikləri əvəz etdikləri isimlərlə cinsə və kəmiyyətə görə uzlaşır.

Məs: Mais je crois être en droit de penser que rarement sans doute, depuis que la Jüstice est rendue dans le monde, une situation de femme

fut aussi atroce que **la mienne**. (Guy Des Cars. La révoltée). Et qui, ayant quelque mémoire des hauts faits accomplis par l`un **des nôtres**, pourrait oublier le nom de celui qui a triomphé, il y a un certain nombre d`années déjà, ...(Guy Des Cars. La révoltée)

Mənsubiyyət əvəzliklərinin aşağıdakı formaları var.

Kişi cinsində

Təkdə	Cəmdə
le mien - mənimki (özümünki) le tien - sənin ki (özününki) le sien - onunki (özününki) le nôtre - bizimki (özümüzünki) le vôtre - sizinki (özünüzünki) le leur - onlarınkı (özlərininki)	les miens - mənimkilər (özümünkilər) les tiens - sənin kilər (özününkilər) les siens - onunkilar (özününkilər) les nôtres - bizimkilər (özümüzünkilər) les vôtres - sizinkilər (özünüzünkilər)les leurs - onlarınkılar (özlərininkilər)

Qadın cinsində

Təkdə	Cəmdə
la mienne - mənimki (özümünki) la tienne - sənin ki (özününki) la sienne - onunki (özününki)la nôtre - bizimki (özümüzünki) la vôtre - sizinki (özünüzünki)la leur - onlarınkı (özlərininki)	les miennes - mənimkilər (özümünkilər) les tiennes - sənin kilər (özününkilər) les siennes - onunkilər (özününkilər) les nôtres - bizimkilər (özümüzünkilər) les vôtres - sizinkilər (özünüzünkilər) les leurs - onlarınkilar (özlərininkilər)

Mənsubiyyət əvəzlikləri müəyyən artikllərlə, işarə, mənsubiyyət determinativləri ilə işlənən isimləri əvəz edir. Bu əvəzliklər ilə əvəz olunan isim ya mətndə iştirak edir və ya həmin isim kontekst əsasında təsəvvür olunur. (1,37) Məs: Tu sais qu`on a commencé à fusiller **les nôtres** (J. Laffitte, Rose France)

Il me fit une légère inclination de tête, alluma son cigare **au mien**, me remercia d`un autre signe de tête, puis se mit à fumer avec l`apparence d`un très vif plaisir (P. Mérimée.Carmen)/

Hər bir qrammatik materialın tədrisi prosesində, öncə müəllim həmin materialın ana dilində olan qarşılığını dilöyrənənlərin hafizəsində canlandırır. . O, fransız dilində olan materialı ana dilindəki ilə qarşılıqlı-müqayisəli şəkildə, sadə, anlaşıqlı dildə tədris etsə, hər iki dildə onların

oxşar və fərqli xüsusiyyətlərini üzə çıxarsa izah etdiyi material daha yaxşı mənimsənilə bilər.

Məs: - Est –ce **ton manuel de français**? - Bu sənin **fransız dili dərsliyindir** ?

- Oui, c`est **le mien**. Bəli,bu **mənimkidir** (mənim fransız dili dərsliyimdir). -
Est-ce **ta nouvelle veste**? Bu **sənin təzə gödəkçəndir**?

- Oui, c`est **la mienne.**

Bəli, **mənimkidir** (mənim təzə gödəkçəmdir)

- Est-ce que ce ne sont pas **vos cahiers**?- Bunlar **sizin dəftərləriniz** deyilmi?
- Non, ce sont **les vôtres**.

- Xeyr, bunlar sizinkilərdir.(sizin dəftərlərinizdir).
- Est - ce **son sac** ? Bu onun çantasıdır?

- Oui, c`est **le sien**. Bəli, onunkudur (onun çantasıdır).

İzah olunan qrammatik materialın mənimsənilməsi, möhkəmləndirilməsi və qiymətləndirilməsi üçün dilöyrənənlərin həmin materialı hansı səviyyədə qavradıqlarını yoxlama prosesində müəllim son dərəcə diqqətli olmalı, onların həm şifahi, həm də yazılı nitqdə etdikləri səhvləri müəyyənlşdirməlidir..Daha sonra o həmin səhvləri qruplaşdırmalı, tipik səhvləri doğuran səbəbləri araşdırmalı və onların aradan qaldırılması yollarının tapılması yönümündə iş aparmalıdır. Müəllim tipik səhvlərə biganə qalmamalı və onları səbrlə aradan qaldırmağı bacarmalıdır. İşlədiyimiz bir çox illərin təcrübəsi, bu sahədə apardığımız araşdırmalar göstərir ki, dilöyrənənlər mənsubiyyət əvəzliklərinin dildə işlədilməsi prosesində əsasən aşağıdakı tipik səhvlərə yol verirlər:

•Mənsubiyyət əvəzliklərinin nə məqsədlə işləndiyini və onların işlənmə məqamlarını müəyyənləşdirə bilmirlər.

•Mənsubiyyət əvəzliklərini mənsubiyyət determinativləri ilə eyniləşdirir, onların arasında fərq olmadığını düşünürlər.

• Qeyri - müəyyən isimləri də mənsubiyyət əvəzlikləri ilə əvəz edirlər.
• Mənsubiyyət əvəzliklərini əvəz olunan isimlərlə cinsə və kəmiyyətə görə uzlaşdırdıqda müəyyən səhvlərə yol verirlər.

Mənsubiyyət əvəzlikləri işlənən cümlələri tərcümə etməkdə çətinlik çəkirlər.

Bütün bu tipik səhvləri müəllim dilöyrənənlərə fərdi yanaşmaqla, mərhələli şəkildə aradan qaldırmağa səy göstərməlidir. O, bir dahaonlara həmin tipik səhvlərlə əlaqədar olaraq izah etməlidir ki, mənsubiyyət əvəzlikləri dildə təkrarlara yol verməmək, üslubi cəhətdən cümlənin yığcam olması, onun üslubi xüsusiyyətlərini, dilin daxili zənginliyini qorumaq məqsədi ilə işlədilir. Buna görə də onların dildə işlədilməsi zəruridir. Bu çətinliyi aradan qaldırmaq üçün müəllim dərsliklərdə olan və yaxud özünün tərtib etdiyi müxtəlif tipli çalışmalardan istifadə edilə bilər

Azərbaycan dilindən fərqli olaraq fransız dilində mənsubiyyət kateqoriyası yoxdur, mənsubiyyət anlayışı var. Mənsubiyyət determinativləri də mənsubiyyət əvəzlikləri kimi mənsubiyyət anlayışı ifadə edir. Mənsubiyyət determinativləri köməkçi sözlərdir, onlar dildə müstəqil işlənmir, yalnız isimlərlə və yaxud substantivləşmiş sözlərlə işlənir. Mənsubiyyət determinativləri də birinci, ikinci və üçüncü şəxsin təkində və cəmində işlənir. Bu determinativlər sahib şəxslə, şəxsə və kəmiyyətə görə, mənsub şəxs və ya əşya ilə cinsə və kəmiyyətə görə uzlaşır (3, 30).

Həmin çətinliyin aradan qaldırılması üçün müəllim bu iki dil faktının oxşar və fərqli xüsusiyyətlərini bir daha müqaisə edir. O, innovativ təlim metodlarından istifadə edərək həmin grammatik materialı bir daha konkret nümunələrdə, dilöyrənənlərin fəal iştirakı ilə dialoqlarda, situasiyalarda işlətməklə izah edir.

Digər çətinlikləri də aradan qaldırmaq üçün dilöyrənənlərə hər çətinliyə müvafiq izahatlar verilir, həmin çətinliklərin aradan qaldırılmasına xidmət edən müxtəlif tipli kreativ çalışmalar yerinə yetirilir. Məsələn, tələbələr ilk çalışmalarda hər bir çətinliyi aradan qaldırmaq üçün mətn və ya dialoqlarda verilən həmin əvəzliklərin işlədilməsini əsaslandırırlar. Sonrakı çalışmalarda onlar buraxılmış nöqtələrin yerində müvafiq mənsubiyyət əvəzliklərini işlədirlər, onları əvəz olunan isimlərlə cinsə və kəmiyyətə görə uzlaşdırırlar. Daha sonra dilöyrənənlər hər çətinliyə aid ayrı-ayrılıqda həm şifahi, həm də yazılı, fransız dilindən ana dilinə və ana dilindən fransız dilinə tərcümələr edirlər. Bir daha qeyd edirik ki, çalışmalar əvvəlcə hər bir çətinliyə aid verilsə də, sonrakı mərhələlərdə isə onlara bir neçə çətinliyi aradan qaldırmağa xidmət edən müxtəlif tipli çalışmalar verilir. Onlar tədris olunan yeni qrammatik materialı işlətməklə müxtəlif mövzularda mətnlər, dialoqlar, situasiyalar qururlar.

İstər qrammatik materialın ilkin izahı, istərsə də çətinliklərin aradan qaldırılması prosesində innovativ təlim metodlarından istifadə etməklə yanaşı, müasir təlim texnologiyalarından istifadə etmək çox yaxşı nəticələr verir. Dilöyrənənlər CD –də yazılmış mətnlərdə, dialoqlarda mənsubiyyət əvəzliklərinin işlənməsini əsaslandırır və ya mətnlərdə, dialoqlarda məntiqi vurğu ilə tələf füz olunan müəyyən isimləri bu əvəzliklərlə əvəz edirlər. Digər çalışmalarda 2-3 nəfərlik yarımqruplara bölünmüş t dilöyrənənlər bir mətni iki dəfə dinləyirlər, mətnin ümumi məzmunun başa düşürlər və mənsubiyyət əvəzliklərini işlətməklə mətnə uyğun dialoqlar, situasiyalar qururlar.Bu da onların həmin qrammatik qaydaları daha dərindən mənimsəməsinə səbəb olur. Hər bir dərsin sonunda dilöyrənənlərin fəal iştirakı ilə ümumiləşdirmələrin aparılması və nəticələrin çıxarılması tövsiyyə olunur..

Yuxarıda deyilənlərdən belə qənatə gəlmək olar ki, fransız dilində olan mənsubiyyət əvəzliklərinin həm ilkin, həm də dilöyrənənlərin tipik səhvlərini aradan qaldırmaq məqsədi ilə izahı zamanı inovativ təlim

metodlarından, müasir təlim texnologiyalarindan səmərəli istifadə etməklə, hər bir müəllim öz şəxsi təcrübəsindən yararlanaraq tədris etsə müsbət nəticələrə nail ola bilər. Bu metod və vasitələrdən səmərəli istifadə edə bilən hər bir müəllim dilöyrənənlərin həmin qrammatik materialı ünsiyyət prosesində sərbəst işlətmələrinə, həm yeni, həm də əvvəllər öyrəndikləri leksik və qrammatik materialları təkrarlamalarına şərait yaradır, dilöyrənənlərin rabitəli nitqə yiyələnmələrinə kömək edir, yaradıcı təfəkkürlərini, yaradıcılıq qabiliyyətlərini inkişaf etdirir, onları mühakimə yürütmək vərdişlərinə alışdırır. Qrammatik mayerialin öyrənilməsinə belə yanaşma tərzi ünsiyyət prosesində psixoloji baryerin aradan qaldırılmasına səbəb olur.

Ədəbiyyat

1.Quliyeva M. Ə. , Fransız dilinin qrammatikası, Bakı 1979
2.İsmayılov B.B., Fransız dilinin qrammatikası (praktik kurs),Bakı,2000.
3.Nəcəfova S.C., Müasir Azərbaycan dilində mənsubiyyət kateqoriyası və fransız dilində mənsubiyyət anlayıçının ifadə vasitələri, metodik vəsait, Bakı, Mütərcim nəş., 2006, 46 s.
4.Nəcəfova S.C., Qrammatik materialın tədrisi prosesində kommunikativ metodun tətbiqi, "Azərbaycanda xarici dillər" elmi-metodik və ictimai-publisistik jurnal № 1,2011, s.43-46.
5.Цетлин В.С.,Методика преподавания французского яэыка Москва, Изд. АПНР., 1050
6. Гак В.Г.,Теоретическая грамматика французского яэыка, Морфология, Москва, Высшая школа, 1979.
7.Андреевская – Левенстерн Л.С, Методика преподавания французского яэыка в среднем школе Москва, « Просвещение»,1983
8. Steinberq N.M., Qrammaire française, Moscou, 1966v. 1.
9.Y. Delatour, D. Jennepin, M.Léon-Dufour,A. MattléB.Teyssier, Qrammaire du français, Hachette F.L.E. , Paris, 1991
10.Maïa Grégoire, Odile Thiévénaz, Qrammaire progressive du français, CLE international, Paris, 2013.

С.Гейдарова

О преподавании притяжательных местоимений французского языка

Резюме

В статье представлена информация о притяжательных местоимениях французского языка и методике их преподавания. При изучении

притяжательных местоимений, опираясь на родной язык, рекомендуется использовать сравнительно-сопоставительный метод. Средства выражения этих местоимений на родном языке представлены на конкретных примерах. Далее группируются типичные ошибки обучающихся по этой теме. Исследуются причины, порождающие эти типичные ошибки. Указываются пути решения этих проблем. В процессе объяснения притяжательных местоимений и во избежание ошибок рекомендуется использовать современные обучающие технологии, инновативные обучающие методы. Такой подход в изучении грамматического материала прививает у обучающихся способность свободно выражать свое мнение. Наряду с этим развивает их творческие способности и способствует преодолению психологического барьера.

S.Heydarova

About teaching possessive pronouns in French language

Summary

The given article deals with information about possessive pronouns in French language and their teaching methods. While learning possessive pronouns, it is recommended to use the comparative method to be based on native language. Means of expression of these pronouns on native language are represented on the concrete examples.Further, typical mistakes of the learners on this topic are grouped. The reasons that generate these typical mistakes are being investigated and the ways for solving these problems are being indicated. In the process of possessive pronouns' explanation and in order to avoid mistakes it is recommended the usage of modern teaching technologies and innovative teaching methods. Such an approach in the study of grammatical material instills in learners the ability to freely express their opinions. Along with this, it develops their creative abilities and contributes to overcoming the psychological barrier.

Rəyçi: Sevda Rzayeva
Filologiya üzrə fəlsəfə doktoru, dosent

KÖNÜL SƏMƏDOVA
Filologiya üzrə fəlsəfə doktoru, dosent,
Azərbaycan Dövlət Pedaqoji Universiteti
samedovakonul74@mail.ru

AZƏRBAYCAN DİLİNİN ŞİMAL QRUPU DİALEKTLƏRİNDƏ ƏVƏZLİYİN MƏNA NÖVLƏRİ VƏ QIPÇAQ ELEMENTLƏRİ

Açar sözlər: Azərbaycan dili, dialektlər, əvəzliklər, qıpçaq elementləri.
Ключевые слова: Азербайджанский язык, диалекты, личные местоимения, элементы Кыпчака,
Key words: Azerbaijani language, dialects, Kipchak elements, personal pronouns

Əvəzlik müstəqil bir nitq hissəsi olmaqla ən qədim dövrlərə aiddir. Müxtəlif türk dillərində əvəzlik termini müxtəlif adlarla adlanmışdır. *Aderlik*-qaqauz dilində, *ecimdik*-qazax dilində, *almaşla*-qaraçay-balkar dilində, *tatooç*-qırgəz dilində, *almaşlak*-tatar dilində, *at ornu*-Tuva dilində, *çalışma*- türkmən dilində *adil, zamir*-türk dilində, *olmoş* –özbək dilində, *almaş*-uyğur dilində adlandırılmışdır. Əvəzlik haqqinda türkologiyada yetərincə qədər tədqiqat işləri aparılmışdır. Türkoloq A. Borovkov əvəzlik haqqında qeyd etmişdir ki, ”-Əvəzliklər ancaq əlaqədə, nitqdə müəyyən məzmun aldığından qrammatik cəhətdən müstəqil nitq hissəsi hesab edilə bilməz. Sonraki fikirlərin də isə dediyini təkzib edir. Belə ki əvəzliyin təyin rolunda çıxış etdikdə bu və ya digər əlamətləri ilə sifəti xatırladır və bəzən də ona yaxınlaşır. lakin bu yaxınlaşma əvəzliklərin müstəqil bir nitq hissəsi olmasını təkzib etmir. Çünki bu nitq hissəsinin sabit semantik məzmunun, morfoloji xüsusiyyətləri və. s vardır. [1, s.150]

Əvəzliyin müxtəlif məna qrupları də vardır ki bu qruplar haqqında da dilçilər arasında müxtəlif fikirlər də mövcud olmuşdur. Uzun müddət bir çox türk dillərində şəxs sonluqları ilə müstəqil şəxs əvəzlikləri uyğunlaşdırılmışdır. Azərbaycan dilinə aid son əsərlərdə əvəzliklər mənalarına görə beş qrupa bölünmüşdür.

1) şəxs
2) işarə
3) sual
4) qeyri-müəyyən
5) təyini əvəzliklər.

Bu bölgü müxtəlif türk dillərində bəzilərində səkkiz, bəzilərində yeddi növə bölünmüşdür. Lakin Azərbaycan dilində yuxarıda qeyd etdiyimiz kimi beş növə bölünür.

İşarə əvəzlikləri.

İşarə əvəzlikləri dildə qədim formalardan hesab olunur. Bu əvəzliklər heç bir nitq hissəsini əvəz etmədən ona işarə edir. bu və ya digər cəhətdən aydınlaşdırma, müəyyənləşdirmə vəzifəsi daşıyır. Çox geniş tətbiq sahəsinə malik olan bu əvəzliklər müxtəlif şəkilçilər qəbul edib, yeni formalar da yarada bilir. [1, s.156]

Əvəzliyin bu növünü həm sifətə həm də zərfə oxşadan bir çox dilçilər olmuşdur. Əslində əvəzliyin bu növü nə zərfi nədəki sifətlə eyni deyildir.

Oğuz qrupu türk dillərində işarə əvəzliyin məna növləri ədəbi dildə olduğu kimidir. lakin Qıpçaq elementəri ilə zəngin olan Şimal qrupu dialektlərində tamamilə fərqlidir. *Ho, o, bu, havı, helə, habu-habı, həblə, habra, hao, hunda, havında, honda, hələ, hələsi* və s. kimi əvəzliklərlə işlədilir. Məs. *Havı bizim Muğanlı kəndinə qızın razılı alındıxdan sora böyük elçilixdan sora nişan ediylər. Qıza üzüh taxıf behliyiylərki(ad eləmək)da havı qız bizimdi. Havı adətə bizlərdə bəlgə diyilir. Toy qavağı alıç-veriş də ediylər. Oğlan qız öyünə 70-100 kilo arasında ət, bir meşux un, pesox, yağ, qənt və. s veriylər. Honun parçasını boynuna büküydülər. Mal-qara, ovara, kəlçə mülkənədən gələn vaxtı dəvət qutarardı. Soram holara, yimax-içmax veriliy.* [2, s. 34-39]

Göstərilən bu əvəzliklər Şimal qrupu dialektləri ilə qonşu olan Dərbənd Tabasaran şivələrin dilində də eynidir. Şimal qrupu dialektlərinə xas olan *ho* işarə əvəzliyi türkmən dilinin sakar dialektində də təsadüf olunur. [3, s.19] Yuxarida qeyd etdiyimiz kimi - Şimal qrupu dialektlərində işarə əvəzlikləri dialekt və şivələrimizdə ədəbi dilə nisbətən müxtəlif şəkillərdə özünü göstərir.

Bura sözü ha hissəciyi ilə birləşərkən bura sözündəki u saiti ixtisar olunmuş və *habra* forması yaranmışdır. Dərbənd və Şimal qrupu dialektlərində müşahidə olunan həblə işarə əvəzliyi də ha hissəciyinin *ha+-belə=həbelə=həblə* formlarından əmələ gəmişdir. Göründüyü kimi, belə sözündəki önsıra saitinin təsiri ilə *ha* dəyişərək *hə* şəklini almış, *həblə* olmuşdur. Bu haqda dilçilərdən H. Mirzəzadə, Ə. Dəmirçizadə də yazıb göstərmişlər ki, *ha* və *belə* müxtəlif türkdilli tayfalara məxsus olan eyni mənaya malik sözlərdəndir. İki sözün *–ha* və *belə* sözlərinin çarpazlaşması nəticəsində həmin mürəkkəb işarə əvəzliyi-*həblə* yaranmışdır. [4, s.185] Buradan da belə nəticə çixarmaq olar ki, dilimizin tarixinin müəyyən dövründə işarə məzmunu bildirən müstəqil *ha* sözündən də istifadə olunmuşdur və tarixən mövcud olmuş bu fakt dialekt və şivələrimizin şimal qrupunda saxlanılmışdır. [5, s.93]

Beləliklə, istər *habu*, istərsə də *habı*, *həblə, hao* əvəzlikləri işarə bildirən iki sözün calaqlanması, birləşməsi kimi baxılmalıdır. işarə əvəzliklərinin belə calaqlanması iki əvəzliyin birləşərək, bir mürəkkəb əvəzlik kimi

işlənməsi türk dillərində geniş yayılmış hadisələrdəndır. yenə misal olaraq. *Horada maraxlı olan hodu ki, oğlan adamları gələndə qız öyünün vəkili adətə görə darvazanı bağlıyardı.* [2, s. 504] *Mürəkgan kolu həvlə uzanıf, gidif horda köh çalıy. Qırxa düçən uşaa aparıf hora, birimiz kolun o başinnən hərriyif getirif hordan o birimizə veriyix.* [6, s. 246]

Bundan başqa dialektlərdə işarə əvəzliyinin *–ncik, -nci* şəklçiləri ilə əmələ gələn formaları, *odua, budua, odırana, budurana, bıtana, otana* formalarına rast gəlinib. bu da müxtəlif dialektlərdə rast gəlinir. Bunlardan özbək dilində də *onək, bunək* formaları da işlədilmişdir.

İşarə əvəzliyinin Şimal qrupu dialektlərində hallanması da maraqlı fonetik xüsusiyyətləri ilə seçilir.

İşarə əvəzlikləri ədəbi dildə olduğu kimi

yiyəlik halda –un, -u, *(honun, habunun, habların,)*

yönlük halda –a, -ə. *(hona, habuna, hauna, hablara, helelərinə,)*

təsirlik halda –ı, -i, *(honu, habunu, hauni, havlar, həblələri//həblələri.)*

yerlik halda. -də-da, *(honda, havında, habunda, holarda-havlarda.)*

çıxışlıq halda. –dan, -dən *(honnan, unnan, habunnan, holardan, havlardan, haulardan)* və s. formalırında işlədilir. Məs. *Hunu götürüf uşagin qırxını töküylər, çimdiriylər, par-partalını, beşiyin her şeyini hunuynən yüyülər. Ho sudan hunu çıxardana qeder yağış yağıydi. Qəbz quşunin elcey kimi yuvası oliy. Həvlə baxdıqca baxıysen. Hunu neter tikiy biliysen.... Habırdan habrası yumburu. Hunun içində bala veriy.* [6, s. 250]

Yiyəlik əvəzlikləri

Şimal qrupu dialektlərində konkret əvəzliklərin üzərinə *-ki* şəkilçisi artırmaqla düzəlir. *Məninki, səninki, honunki-holarınki, havlarınki, helələrininki və*. s (Zaq, Qax). Amma bir çox dilçilər yiyəlik əvəzliyinin işarə əvəzliyinn tərkibində verirlər. Məs. *Holarınki qız evindən gəlini götürüncəyədehdi. Ho qavlar holarınkıdı. Səninki ho çölün qırağındakı yerlərdi. Helelərinki hemmeşə yaxşı olur.*

Təyini və Qayıdış əvəzliyi

Bu əvəzliklər də cümlə daxilində heç bir nitq hissəsini əvəz etmədən əşyanı bu və ya digər cəhətdən təyin edir və eyni zamanda heç bir əlamət, keyfiyyət bildirmir. Bu əvəzliklər mənsubiyyət, müəyyənlik, uyğunluq və. s bildirir. [1, s.161]

Şimal qrupu dialektlərində ən ox rastlaşdığımız təyini əvəzliklər bunlardır. hər bütün. eyni, hər – və bunların fonetik dəyişmiş formaları *hərhar, bütün- butun, eyni-əyni* formalarda işlədilir.

Müasir türk və qaqauz dillərində də qayıdış anlayışı *kendi* sözünə mənsubiyyət şəkilçilərinin əlavə edilməsi ilə yaranır. *kendim, kendisi, kendimiz* vəs. [1, s.162]

Gəndi sözü öz sözü ilə yanaşı olaraq Dədə Qorquddan başlamış ta XX əsrin əvvəllərinə kimi klassiklərimizin əsərlərində işlənmişdir. Bundan əlavə, bu sözə türk dillərinin qədim abidələrində də tez-tez rast gəlmək mümkündür. Mahmud Kaşğaridə *kendü* [7, s.127-128] şəklində bu sözə təsadüf edilir. Müasir dövrdə *kendi* şəklində bu sözü özündə saxlayan türk dilidir. İlisu şivəsində əvəzliyin birinci və ikinci şəxsində mənsubiyyətli qayıdış mənası müvafiq şəxs əvəzliklərinin təkrarı ilə ikinci komponentin yönlük halda işlənmə formasından istifadə edilərək.

I şəxs təkdə. *Men-mağa, (mən mənə özümə)*

Men *özü-menin* özü. *Sen özü-senin özü* şəklində ifadə olunan əvəzliklər *özüm, özün* mənalarını ifadə edir.

Qax rayonunun İlisu şivəsində *öz-özümə* ifadəsi *men-mağa, öz-özünə isə sen-sağa* şəklində işlənir. [8, s.48] məs. *Mən mağa diyirem ki, sen nimağa ho uşağı Urusyete buraxdın getdi.* (Qax.)

Şimal qrupu dialekt və şivələrində eləcə də Dərbənd dialektində müşahidə olunan maraqlı və tarixi xüsusiyyətlərdən biri qayıdış əvəzliyinin şəxs əvəzlikləri ilə ifadə olunan formasıdır. Daha doğrusu, hal şəkilçiləri qəbul etmiş şəxs əvəzliyi kimi işlənilir. Məs. *Diməsön səni də öldürəcağam. məni də*. Buradakı *məni* sözü özümü mənasında işlədilmişdir. Bu da Zaqatala –Qax şivəsində bu gün də işlədilir. Bu formaya "Kitabi Dədə-Qorqud" dastanlarında, Xətainin, Fizulinin dilində də rast gəlmək olur. Demək, *mən mənə* tipli forma qədim zamanlarda dilimizdə işlədilmişdir. Hətta. demək lazımdır ki, *öz-özünə, öz-özümə, mən-özümə* tipli formadan daha əvvəldir. Heç də təsadüfü deyildir ki, əvəzliklərin tədqiqi ilə məşğul olan alimlər qayıdış əvəzliyinin *öz-özümə, mən –özümə* formasına nisbətən mən mənə *(mən mağa)* forması daha qədimdir. [9, s.268]

Sual əvəzlikləri.

A. İ. Zaretski sual əvəzliklərinə belə tərif verir: "Danışanın nitqində deyil, dinləyicinin cavabında konkretləşən əvəzliklərə sual əvəzlikləri deyilir". [10, s.51]

Şimal qrupu dialektlərində sual əvəzliklərinin müxtəlif növlərinə təsadüf olunur. Məs. *nə?, kim?, hası?, haçax? havax?, hancarı?, həncəri?, həncirə?, həngisi? nimiyyə?, nağariiisən?, niimia?, narda?, nardan?, hancarı? nicə?* və s..

A. Hüseynov sual əvəzliklərinin bəzilərinin təhlilini apararkən *haçax? haçağ?, həncəri?* sual əvəzliklərinin köklərində ilk ünsürün sual əvəzliyi – ikinci tərəfin ikinci koponentin isə *"cax-cağ" "car+ı"* vaxt bildirdiyini qeyd etmişdir. Fikrimizcə A. Hüseynov doğru qeyd etmişdir. Bu sual əvəzliklərinin zaman məzmunlu olmağı da göz qabağındadır. O, qeyd edir ki, qeyri -əvəzlik sözlərdən olub, sual əvəzliyinə məxsus sual intonasiyanın bu komponentlərin birləşib bir vahid kimi işlənməyə başladığı

dövrdən bəri söz tərkibinin axırına –“ikinci komponentin “sonuna keçib işlənməsi ilə morfoloji sadələşmə prosesi tamamlanmış olur. [1, s.49-50]

Əzizim, sini-sini,
Doldur ver sini-sini.
Mən ki, səni sövüyəm
Niynirəm özgəsini? [6, s. 278-293]

Qeyri – müəyyən əvəzliklər. *onda-hunda.*

Qeyri- müəyyən əvəzliklərin çox vaxt inkar və təyin əvəzlikləri ilə qarışdırılır. Qeyri-müəyyən əvəzliklərin əksəriyyəti sual əvəzliklərindən *(kim?, nə?)* əmələ gəlir. Belə ki, mənsubiyyət şəkilçiləri ilə işlənən sual əvəzlikləri qeyri-müəyyənlik yaradır. Bu hal isə sözünün iştirakı ilə də mümkündür. Məs. kimi, kimisi, kimsə, kim isə, nəsə, nə isə, və s.

İnkar əvəzlikləri.

Bu əvəzliklər türk dillərinin bəzisində müstəqil məna qrupu kimi ayrılmayaraq, qeyri-müəyyən əvəzliklərin daxilində qeyri-müəyyən inkar əvəzlikləri adi altında səciyyələndirilir. N. K. Dimitriyevə görə, əvvəllər bu əvəzliklər olmamış və son zamanlarda meydana çıxan hadisə olduğundan çox zəif inkişaf etmişdir. [1, s.164] Şimal qrupu türk dillərində işlənən inkar əvəzliklərinə *heç kəs -heşkəs,, heç hansı –heçhasıı, heç nə -heşnə, heç bir kes* və. s kimi fonetik dəyişmələrlə Şimal qrupu dialektlərində işlənir.

Ədəbiyyat

1. Fərhad Zeynalov, Türk dillərinin müqayisəli qrammatikası. I hissə. Bakı, “M. B. M” nəşriyyatı, 2008.
2. Zümrüd Məsimova, Zaqatala folklor örnəkləri. I cild, Bakı, “Sabah” 2017.
3. Гульнар Менглиева, Сахарский диалект туркменского языка. АКД, Ашхабад, 1964.
4. Hadi Mirzəzadə, Azərbaycan dilinin morfologiyası. Bakı, 1962.
5. F. D. AŞNİN. d. bax dərbənd dialekti.
6. Ləman Vaqifqızı. Şəki folklor örnəkləri. II kitab. Bakı 2014, “Elm və təhsil”.
7. Mahmud Kaşğari “Divani lüğat-it türk ” tərcüməsi, çevirən Besim Atalay, Cilt I, Ankara, 1939, Cilt II, Ankara, 1940, Cilt III, Ankara, 1941.
8. Azər Hüseynov, Azərbaycan dialektologiyası (dərs vəsaiti). APİ. Bakı, 1979,
9. К. Э. Майтинская, Местоимения в языках разных систем. Москва, 1969.
10. Mahirə Hüseynova. Aşıq və el şairlərinin üslubu morfologiyası. Afpoliqraf. Bakı 2017.

K.Samedova

Personal pronouns are used in the North group dialects and accent words of Azerbaijani language and Kipchak elements in them

Summary

The pronunciation of personal pronouns in dialects and poems is as same as in literary language. Pronoun refers to the most ancient times as an independent part of speech. The term "pronoun" in various Turkish languages has been termed different names. (Aderlik)- in Gagauz language, (ecimdik) in Kazakh language, (almaşla) - in Karachay-Balkar language, (atatooç)- in the Kyrgyz language, (almaşlak) in Tatar language and etc. Many research studies have been carried out in turkology about pronouns. Personal pronouns have a distinctive characteristic in the Azerbaijani North Group dialects and the Kipchak group languages. For example, ancient form of words (manqa, sanqa, onqa) is observed both in Turkic written monuments (mənğa) and modern Turkic languages. Accusative, instrumentative and prepositive cases of personal pronouns in the North group dialects and accent of Azerbaijani language are used as same as in literary language.

К.Самедова

Личные местоимения, которые используются в диалектах Северной группы и акцент азербайджанского языка и элементов Кипчака в них

Резюме

Произношение личных местоимений в диалектах и акцентах так же, как и в литературном языке. Местоимение относится к самым древним временам как самостоятельная часть речи. Термин «местоимение» на разных турецких языках назывался разными именами. (Aderlik)- - на гагаузском языке, (ecimdik) на казахском языке, (almaşla) - на карачаево-балкарском языке, (atatooç)- на киргизском языке, (almaşlak) на татарском языке и т. д. Было проведено много исследований в тюркологии о местоимениях. Личные местоимения имеют отличительную характеристику на диалектах азербайджанской северной группы и языках группы Кипчак. Например, древняя форма слов (manqa, sanqa, onqa) наблюдается как в тюркских письменных памятниках (mənğa), так и в современных тюркских языках. Винительные, творительные и предложные падежи личных местоимений в диалектах Северной группы и акценты азербайджанского языка используются так же, как и в литературном языке.

Rəyçi: **Mahirə Hüseynova**
Filologiya üzrə elmlər doktoru, professor

YEGANƏ QƏHRƏMANOVA
ADPU
filologiya üzrə fəlsəfə doktoru, dosent
yegane.qehremanova.1976@mail.ru

AZƏRBAYCAN DİLİNİN DİALEKT VƏ ŞİVƏLƏRİNDƏ HAL KATEQORİYASI

Açar sözlər: Azərbaycan dili, kateqoriya, hal kateqoriyası, adlıq hal, əvəzlənmə
Key words: Azerbaijani language, category, category of cases, nominative case, substitution
Ключевые слова: азербайджанский язык, категория , категория падежа, именительный падеж, замена.

Azərbaycan dilinin morfoloji sistemində özünəməxsus yeri olan hal kateqoriyası həm ədəbi dilimizdə, həm də dialekt və şivələrimizdə xüsusi inkişaf yolu keçmiş, tarixən bir sıra səciyyəvi cəhətlər qazanmışdır. Bu tarixi inkişaf prosesində özünü göstərən bir sıra innovativ xüsusiyyətlər ədəbi dildə hal kateqoriyasının qrammatik funksiyalılığını şərtləndirmiş olsa da, dialekt və şivələrimizdə bu kateqoriyaya aid qədim elementlər də özünü qoruyub saxlaya bilmişdir. Azərbaycan ərazisində tarixən məskun olan türk etnosunun qədim tarixi elementləri öz dilində qoruyub saxlaması, hətta ədəbi dildə qorunmayan dil faktlarının dialektlərdə özünü əks etdirməsi dilimizin qədim tarixi qatlarına dair lazımı faktları araşdırmağa da imkan yaradır. Son dövrlərə qədər Azərbaycan ərazisinə türklərin gəlmə olması, yerli qeyri-türk etnosları ilə qaynayıb qarışması nəticəsində Azərbaycan dilinin formalaşması faktlarının əksini sübut edən son araşdırmalar göstərir ki, türk etnosları Azərbaycan ərazisinin ən qədim və ilkin sakinləridir və "tarixən dünyanın bir çox yerlərinə yayılmış türk tayfalarının həm Şərqə, həm də Qərbə gedən yolların qovşağında olan Azərbaycan ərazisində çox qədimlərdən məskun ola bilməsi fikrində şübhəli və elmə zidd heç bir şey yoxdur". (4, səh.14) Bu ərazidə məskunlaşan türk tayfaları tarixən formalaşdırdıqları Azərbaycan ədəbi dilini inkişaf etdirdikcə bir sıra dil faktları ya ədəbiləşə bilməmiş, ya da ədəbilik səciyəsini itirərək dialekt-şivə elementinə çevrilmişdir. Tədqiqatlar sübut edir ki, tarixən "məhəlli dialektlərin formalaşmasında ekstralinqvistik amillər mühüm rol oynamışdır. İqtisadi həyat birliyinin zəifliyi, müxtəlif inzibati bölgülər, təbii-coğrafi sədlər ayrı-ayrı dil vahidlərinin məhdud ərazilərdə işlənməsi üçün şərait yaradır. Qədim tayfa dillərinin bəzi əlamətləri və innovasiya faktı kimi sonralar meydana çıxan bir sıra xüsusiyyətlər məhəlli dialektlərin əlamətləri kimi müəyyənləşir. Ədəbi dil normalarının sabitləşməsi isə ayrı-ayrı

qrammatik əlamətlərin dialektal təbiətini daha aydın göstərir." (4, səh.148) Bu baxımdan Azərbaycan dili dialekt və şivələrində özünü göstərən qrammatik kateqoriyaların, o cümlədən hal kateqoriyasının araşdırılması bir sıra tarixi faktların üzə çıxarılması baxımından əhəmiyyətlidir. Son dövrlərə qədər "dialektoloji tədqiqatlarda təsviri dialektologiyanın hüdudlarından kənara çıxılmamış, hal şəkilçilərinin mövqeyi, mikroarealı nümunələr əsasında şərh olunmaqla kifayətlənilmişdir. Halların mənşəyi, semantikası, hallarln formalaşmasında tarixi inkişafın izləri, hal və mənsubiyyət kateqoriyalarının əlaqəsi, bitişdirici samitlər, ikiqat hallanmanın izləri, alət hal istisna olmaqla, digər arxaik hal formaları, hal izoqlosslarının xarakteri və innovasiyaların müəyyənləşdirilməsi və s. kimi mühüm məsələlər tədqiqatlarda az işıqlandırılmışdır." (M.M.səh.9-10) Bu istiqamətdə boşluğu aradan doldurmaq baxımından E.Əzizovun "Azərbaycan dilinin tarixi dialektologiyası" əsəri xüsusi rol oynasa da, hələ də üzə çıxarılmamış dialekt və şivə faktları qalmaqdadır.

Azərbaycan dilinin dialetkt-şivə materiallarının tədqiqi göstərir ki, hal kateqoriyası ilə bağlı ayrı-ayrı bölgələrimizin dilində xeyli ədəbi dildən fərqli xüsusiyyətlər müşahidə olunur. Bu xüsusiyyətləri ismin halları üzrə nəzərdən keçirək:

Adlıq hal dialekt və şivələrimizdə ədəbi dilə uyğun işlənməklə xüsusi fərqlilik yaratmır. İndiyəqədərki dialektoloji mənbələrdə bu halın heç bir morfoloji əlamət qəbul etmədən işləndiyi göstərilir.

Yiyəlik hal dialekt və şivələrimizdə ən çox fərqli xüsusiyyətlər kəsb edən, özünəməxsus tarixi cəhətləri qoruyub saxlayan hallardan biridir. M.Şirəliyev bu halı dialekt və şivələrimizdə işlənməsinə görə iki qrupa ayırır:

1) Damaq və dodaq ahənginə əsasən dördvariantlı yiyəlik hal şəkilçiləri: -ın, -in, -un, -ün (samitlə bitənlərdə), -nın, -nin, -nun, -nün (saitlə bitənlərdə). Bu qrupa Qazax, Qarabağ, Ağdam, Gəncə, Şəki, Naxçıvan dialektləri və Zaqatala-Qax, Muğan şivələri daxildir.

2) Yalnız dodaq saitli şəkilçilərlə ifadə olunan yiyəlik hal şəkilçiləri: -ın, -ün (samitlə bitənlərdə), -nun, -nün (saitlə bitənlərdə).

Bu qrup dialektlərə Quba, Bakı, Şamaxı dialektləri və Mərəzə, İsmayıllı rayon şivələri daxildir. (9, səh.131)

Dialektoloji tədqiqatlar göstərir ki, ədəbi dildən fərqli olaraq bir sıra dialekt və şivələrimizdə yiyəlik və təsirlik hallar dördvariantlı yox, ikivariantlıdır. "Nuxa dialektində II şəxs təkin yönlük halında bir qalın variantlı, yiyəlik və təsirlik hallarda isə iki qalın (dodaqlanan və dodaqlanmayan) variantlı şəkilçi işlənir; məs: yiyəlik və təsirlik hallarda: əlu (K.) //əlı (İ.) // elıŋın, elıŋı (A. G.) çusu (O., K.) //çusuŋun, çusunu (B., G); Yönlük halda: beliŋa (A., G.); çusa (K) // çusuŋa (Bil.) və s." (7, səh.65)

Yiyəlik halın sağur nun (ŋ) variantlı şəkilçisinə həm qədim türk yazılı abidələrində, həm klassiklərimizin yaradıcılığında, həm də qədim və müasir türk dillərində çox rast gəlinir. Məs;

Saçıŋ qaranquşundan yüzün nuri göründü.
(Nəsimi)

O gündən bərlü muni sevər oldum,
Taŋrinüŋ buyruği belə olupdur.
(Füzuıi)

Maraqlıdır ki, Nuxa dialektində müəyyən kəndlərin danışığında yiyəlik və təsirlik hallar bir-biri ilə eyni olur, yəni eyni formal əlamət qəbul edir. Bu hallar yalnız konteksdə ayırd edilə bilir. Bunu Şəki rayonun bir sıra kəndlərində müşahidə etmək mümkündür. Məs: ”Dəhrə (dəhrənin) sapı çıxıtdı; - Tezdənnən dəhrə (dəhrəni) götrüf getdim dağa (O)”. (6, səh.86)

Maraqlıdır ki, Dərbənd dialektinin Vəlikənd və Padar şivələrində də “isimlər yiyəlik halda –ı, -i, -u, -ü (-nı, -ni, -nu, -nü) şəkilçilərini qəbul edib işlənir.məs: - Süti içinə dügi tükəduğ; - Qulpi oleydi qalğani (V); -Bir aslanı səsi gələdi; - Qoyunu dərisinbaşına keçirədü.”(2, səh.49)

Şəki şivələrində n samiti ilə bitən sözlərdə yiyəlik hal şəkilçisin düşməsinə, kökün son saitinin uzanmasına da rast gəlinir. Məs: Seyva:n altına əməlli bax. Akademik M.Şirəliyev mənsubiyyət kateqoriyasının analitik-sintetik dialektal şəklindən danışarkən bu formandan tarixən çox qədim formalaşma prosesinin qalığı kimi bəhs edir və Şimal-qərb (Zaqatala-Qax) şivələrində çox fəal olduğunu vurğulayaraq aşağıdakı nümunələri göstərir:

Menin qöz-:-meni qöz (mənim gözüm)
Senin qöz-:-seni qöz (sənin gözün)
Honun qöz-:- honu qöz (onun gözü)” (9, səh.40)

Maraqlıdır ki, bu nümunələrdə göstərilən şəxs əvəzlikləri müasir ədəbi dilimizdən fərqli olaraq yiyəlik halda -im yox, -in şəkilçisi qəbul etmişdir. Zaqatala və Qaxla qonşu olan Şəki dialektində isə eyni vəziyyətdə mən şəxs əvəzliyinin “mə:m qonax” formasında işlənməklə daha bir fonetik variantlılıq yaratdığının şahidi oluruq.

A.Hüseynov Quba və Bakı şivələrində isimlərin yiyəlik halda dodaq saitli iki variantlı (nun, -nün), təsirlik halda isə birvariantlı (-i) şəkilçi qəbul etdiyini göstərir. “Qərb ləhcəsində, xüsusən Qazax və Ayrım şivələrində təsirlik halda saitlə bitən isimlərdən sonra, indi “bitişdirici” kimi tanınan “-y” samiti ilə işlənir. Bu, qədim əlamətdir. Məs: qapıyı, çuxuyu, küçüyü, dəviyi və s.” (5, səh.37)

“Dərbənd dialektinin Rükəl, Xuçni, Zil, Xulipənci və Darvaq kənd şivələrində də arxa sıra saitli isimlər -un (-nun), önsıra saitli isimlər isə -ün, (-nün) şəkilçisini qəbul edib işlənir; məs:- Adamların gələn vəxdidi (Dar); -Dəhrənin ağzı sındı (Rük); -Almanın rəngi qirmizidi (Z).

Birvariantlı –in (-nin) yiyəlik hal şəkilçisi Marağa kənd şivəsində müşahidə edilir; məs: Düginin daşın təmizdə; Çupanin səsi gələdi." (2, səh.49)

Azərbaycan dilinin XVIII əsrə qədərki yazılı materialların dilində "y" bitişdiricisinin "n" bitişdiricisi ilə müvazi işləndiyini, bəzi hallarda hətta üstün mövqedə olduğunu göstərən K.Bəşirov yazır ki, " sonradan "y" ünsürü işləklikdən, demək olar ki, qalaraq tək-tək sözlərdə (suyu, nəyi) və Azərbaycan dilinin Qərb qrupu dialektlərində işlənməklə məhdudlaşmışdır. Qazax, Borçalı şivələrində təsirlik halın işlənməsi müasir türk ədəbi dilindəkinə uyğun gəlir: atayı, babayı, bacıyı, kişiyi və s.

"N" əvəzinə "y" səsartımına Azərbaycan dilinin bir çox keçid şivələrində rast gəlinir. Məsələn, Cəbrayıl rayonunun Böyük Mərcanlı, Ovuslu, Sofulu, Bakının hökməli, Qobu, Güzdək kəndləri üçün də bu, xarakterik haldır: quzuyu, baltıyı, dəhriyi, qəpiyi, usduyu, ütüyü və s." (3, səh. 111)

Azərbaycan dilində və onun şivələrində hallanmanın oğuz tipinə uyğun olduğunu söyləyən M.Məmmədli ədəbi dillə şivələr arasındakı fərqləri qədim hal formalarının əlamətləri kimi təqdim edərək yazır ki, "Azərbaycan dili şivələrinin qərb qrupunda yiyəlik halda velyar ŋ səsinin işlənməsi qədim türk dilinin xüsusiyyəti kimi oğuz və qıpçaq-uyğur hallanma tipinin tərkib hissəsidir. Təsirlik halda y ünsürünün mövcudluğu oğuz tipi, üçüncü şəxs tək mənsubiyyət şəkilçili isimlərin təsirlik halında –n şəkilçisi, yerlik və çıxışlıq hallarda t ünsürünün işlənməsi hər iki hallanma sistemi üçün səciyyəvidir." (8, səh.12)

Azərbaycan dilində ismin təsirlik halında –yı şəkilçisinin oğuz elementlərinin güclü oldüğü bölgələrdə qorunub saxlandığını deyən E.Əzizov bu xüsusiyyətin cənub qrupu dialektləri üçün səciyyəvi olmadığını, Qazax, Borçalı, Tovuz, Şəmkir, Daşkəsən, Gədəbəy, Göygöl, goranboy şivələrində daha geniş yayıldığını göstərir. Müəllifə görə, "-yı, -yi, -yu, -yü şəkilçisi Azərbaycan dilinin Basarkeçər, Çənbərək, Karvansaray, Böyük Qarakilsə, Zəngibasar şivələri üçün də səciyyəvidir" (4, səh. 151)

XIX əsrə qədər Azərbaycan ədəbi dilində -nı, -ni, -nu, -nü şəkilçiləri ilə parallel işlənən

-yı, -yi şəkilçisi həm qədim yazılı abidələrimizdə və klassiklərimizin əsərlərində, həm də müasir türk dillərində işləkdir. Məsələn;

Dəmir qapı Dərvənddəki dəmir qapıyı dəpüb alan.
(Kitabi-Dədə Qorqud)

Məsəldir, kəndi düşən ağlamaz der,
Axan dəryayı kimsə bağlamaz der.
"Dastani-Əhməd Hərami"

Şimdi olacaxnəsnəyi sən tanlaya qoma,
Bu gecə dəxi həm yenə fərda gecəsidir.
(Qazi Bürhanəddin)

Səndədir şol gənci-pünhan, gəzmə hər viranəyi,
Dəngizə dal, ondan istə ey könül dürdanəyi.
(Nəsimi)

Qeyd edək ki, digər türk dillərində təsirlik halın –ı, -nı, -yı variantları ilə yanaşı, çox müxtəlif formalarına rast gəlinir. K.Bəşirov bu halın türk dillərində -no, -di, -do, -ti, -si, -şi, -vi, -li, -xi, -zi və digər formaların mövcud olduğunu göstərərək yazır ki, "türkmən dilində təsirlik hal saiti dodaq ahənginə uyğun 4 deyil, damaq ahənginə uyğun 2 variantlıdır: sakqalını, gözini. Bəzi Azərbaycan dialektlərində də bu hal mövcuddur: yerı, ato:vı, nənö:zi, dostu:zi (Naxçıvan, Muğan və Göyçay şıvələri)." (3, səh.110)

Azərbaycan və türk dillərinin dialektlərində də bu qaydanın mövcudluğunu göstərən müəllif türki, atami, buğdani, balami, bobanı, bacuvi kimi misallar verərək bu qaydanın Azərbaycan dilinin Bakı, Təbriz, Dərbənd, Quba, Lənkəran, Basqal və s., türk dilinin Rizə, Trapezund, Qars və s. şivələrinə xas olduğunu yazır. (3, səh.110)

Maraqlıdır ki, qədim türk və uyğur yazılı abidələrinin dilində, M.Kaşğarlının "Divan"ında rast gəlinən –ığ, -ig, -ğ, -g təsirlik hal şəkilçisi Azərbaycan dilinin Ayrım şivəsində özünü qoruyub saxlamaqdadır. Burada üçüncü şəxs mənsubiyyət şəkilçisindən sonra təsirlik halda işlənən –ık, -uk şəkilçisi qədim dil faktının müəyyən fonetik dəyişməyə məruz qalmış derivatıdır. Göründüyü kimi, tədqiqatçılardan Q.Aydarovun müasir türk illərindən heç birində

Saxlanmadığını (1, səh.154) göstərdiyi bu şəkilçinin B.Sadıqov tərəfindən tapılıb aşkara çıxarılması və Azərbaycan dilinin ən qədim şivələrindən olan Ayrım şivəsində qorunub saxlanması dilimizin qədimliyinin və zənginliyinin daha bir ifadəsidir. Qeyd edək ki, -ık şəkilçisinə Qədim türk yazılı abidələrində və Ayrım şivəsində yiyəlik hal şəkilçisi kimi də təsadüf olunur.

Türkmən dilindən başqa bütün oğuz qrupu türk dillərində yönlük halın əsas ifadə vasitəsi olan –a, -ə, -ya, -yə şəkilçisi də dialekt və şivələrimizdə müəyyən fərqli xüsusiyyətlərə malikdir. Yönlük halın bir sıra digər halların əvəzində işlənməsi ilə yanaşı söz köklərindəki açıq sairləri qapalılaşdırma imkanı da vardır. Ədəbi dilimizdə "a", "ə" saiti ilə bitən sözlərin tələffüz zamanı qapalılaşmasına səbəb olan -a,-ə şəkilçisi Cəlilabad, Dərbənd, Bakı, Lənkəran, Lerik şivələrində samitlə bitən sözlərin son saitinin qalın olmasına baxmayaraq, incə variantda söz köklərinə qoşula bilir. Məs: lampiyə, bobiyə (Bakı), arvadə, quyyə (Cəlilabad) odınə, zəvodə (Lerik) və s.

Azərbaycan dili şivələrində -a, -ə şəkilçisinin daha çox qıpçaq elementi kimi izah olunan –ka, -qa, -ğa formasına da rast gəlinir.Bu şəkilçi variantı əsasən şəxs əvəzlikləri ilə işlənərək manqa//manğa//mənqə kimi müxtəlif formalarda özünü göstərir.

Ayrı-ayrı türk dilləri və dialektlərində -da, ta, -de, -te, - za, -ze, -la, -lo, -lö, -sa, -so-, -na,-nö və s. fonetik variantlılıqda özünü göstərən yerlik hal, eləcə də -tan, -tən, daŋ, -dəŋ, -lan,-lən və s. variantlarda öünü göstərən yerlik və çıxışlıq hallarla yanaşı, dilalekt və şivələrimizdə alətlik- birgəlik halın mövcudluğu da göstərilir. Müasir dövrdə türk dillərinin bir çoxunda mövcud olan, dilimizin dialekt və şivələri üçün arxaik hal forması hesab edilən alət halın –nan, -nən, -ınan, -ynan formalarına Ordubad, Tovuz, Şəki, Şəmkir kimi dialektlərində rast gəlinməsi qədim birlə qoşmasının qalığı olan bu şəkilçinin qazandığı keyfiyyətlərdən xəbər verir. Məs:Qazağa haravıynən gedərdim. (Tovuz) Divarı maleynən yaxşıca hamarra. (Ağdam) Atasiynən getdilər (Ordubad) və s.

Azərbaycan dilinin dialekt və şivələrində hal kateqoriyasına aid müəyyən faktların araşdırılması bir daha sübut edir ki, bu kateqoriya tarixxən çox zəngin inkişaf yolu keçmiş, müasir ədəbi dilimizdə qoruya bilmədiyi xüsusiyyətlərini dialekt və şivələrimizdə saxlamış, bununla da bir sıra tarixi-kateqorial problemlərin düzgün araşdırılmasına şərait yaratmışdır.

İstifadə olunmuş ədəbiyyat:

1. Айдаров Г. Язык орхонский рамятников дгевнетюркской письменности VIII века.Алма-Ата:Изд-во «Наука» Каз.ССР, 1971
2. Azərbaycan dilinin Dərbənd dialekti. AMEA Nəsimi adına Dilçilik İnstitutu. Bakı, Elm, 2009
3. Bəşirov K. Türk dillərinin müqayisəsi: Oğuz qrupu türk dillərində morfoloji kateqoriyalar. Bakı, Elm və təhsil, 2018
4. Əzizov E. Azərbaycan dilinin tarixi dialektologiyası. Bakı, Elm və təhsil, 2016
5. Hüseynov A.Azərbaycan dialektologiyası. Bakı, APİ-nin nəşr.1979
6. İslamov M. Azərbaycan dilinin Nuxa dialekti. Azərbaycan SSR EA-nın nəşriyyatı. Bakı, 1968
7. İslamov M. Nuxa dialektinin morfoloji xüsusiyyətləri. Azərbaycan SSR EA-nın Xəbərləri.İctimai elmlər seriyası, 1960, № 1
8. Məmmədli M. Azərbaycan dili şivələrində ismin qrammatik kateqoriyaları. Bakı,Elm, 2003
9. Şirəliyev M. Azərbaycan dialektologiyasının əsasları.Bakı, Şərq-Qərb, 2008

Yagana Gahramanova Gurbat

The category of case in dialects and accents of the Azerbaijani language
Sammary

The category of case that has an important position in the morphological system of the Azerbaijani language has gone through a special development path both in our literary language and in our dialects and accents. In this historical development process, the category of case has gained some innovative features. A number of interesting facts about this category have been preserved in modern dialects and languages of our language. Nominative case in dialects, also in literary language does not have any morphological features. In the cases of genitive and accusative the symptoms of dialectic became more self-evident. These cases are handled differently in from the literary language, and on the other hand, they can replace a number of other cases. The suffixes of these cases had preserved archaic deaf (velyar) ŋ consonant in some accents. Dative, Instrumentative, Prepositive cases attract attention with multifarious morphological features, inclining to closed vowels, and functional diversity. In our literary language there are met two variants forms of the four-variant suffixes, and the four-variant forms of two-variant suffixes. The postpositive case that doesn't exist in modern literary language, is also examined in dialects and accents.

Егяна Кахраманова Курбат

Категория падежа в диалектах и акцентах
азербайджанского языка
Резюме

Категория падежа, которая занимает важное место в морфологической системе азербайджанского языка, прошла особый путь развития как на нашем литературном языке, так и на наших диалектах и акцентах. В этом историческом процессе развития Категория падежа приобрела некоторые инновационные функции. Ряд интересных фактов об этой категории сохранились в современных диалектах и языках нашего языка. Именительный падеж на диалектах, также в литературном языке, не имеет морфологических особенностей. В случаях родительного и винительного падежах симптомов диалектика стала более очевидной. Эти падежи обрабатываются по-разному с литературного

языка, а с другой стороны, они могут заменить ряд других падежах**.** Суффиксы этих падежах сохранили архаичный глухой (велярный) η согласный в некоторых акцентах. Дательные, творительный , предложный падежи привлекают внимание многообразными морфологическими особенностями, склонными к закрытым гласным и функциональным разнообразием. В нашем литературном языке встречаются две формы форм четырехвариантных суффиксов и четырех вариантные формы двухвариантных суффиксов. Положительный падеж, который не выходит на современном литературном языке, также рассматривается в диалектах и акцентах.

Rəyçi: Vilayət Əliyev
Filologiya üzrə elmlər doktoru, professor

AFAQ ƏSGƏROVA
Azərbaycan Texniki Universiteti
Filologiya üzrə fəlsəfə doktoru, dosent
afaq-turk@mail.ru

MƏDƏNİ NİTQƏ VERİLƏN ƏSAS TƏLƏBLƏR VƏ ONLARIN TƏDRİSİ MƏSƏLƏSİ

Açar sözlər : ədəbi dil, mədəni nitq, düzgünlük, intonasiya, tələffüz, vurğu.
Key words: literary language , cultural speech, honesty, intonation, pronunciation, syllable.
Ключевые слова : литературный язык, культурная речь, принцип точности, интонация, произношение, слог.

Nitq mədəniyyəti fənni dilçiliyin tətbiqi sahələrindən biri kimi son illər öyrənilməsi və öyrədilməsi baxımından aktuallığını qoruyur.Məlumdur ki, fənnin tədrisində əsas məqsəd natiq yetişdirmək deyil, dilimizin hər bir daşıyıcısının, xüsusən də, savadlı nümayəndələrinin bu dilin qrammatik imkanlarından maksimum dərəcədə istifadə etməklə mədəni nitqə yiyələnmək bacarığını aşılamaqdır. Gözəl danışmaq üçün ilk növbədə bizim zəngin qrammatikaya , lüğət tərkibinə malik olan dilimiz var. Bunu əsrlərdən süzülən ədəbi dil abidələrimiz təsdiqləyir . Bu mənbələr incə duyğuların lirik təsvirini , elmi-fəlsəfi düşüncələrin ifadəsini , ictimai qanunauyğunluqları əks etdirən ədəbi nitq nümunələridir. Bu zəngin imkanlara bələd olmaq ,onları dəyərləndirmək , nitqdə istifadə etmək bacarığına yiyələnmək gözəl danışmağın ikinci əsas şərtidir. Məhz bu ikinci şərtin formalaşmasinda nitq mədəniyyəti fənni özünün nəzəri və tətbiqi araşdırmaları ilə tələbələrimizə kömək edir.Dilçi mütəxəssislər gözəl nitqdən bəhs edərkən bir çox xüsusiyyətlərin vacib olduğunu, etalon səciyyə daşıdığını əsaslandırır. Bu xüsusiyyətlər nəzəri mənbələrdə mədəni nitqin əsas keyfiyyətləri və ya mədəni nitqə verilən tələblər kimi sadalanır. Bunlar düzgünlük, dəqiqlik, aydınlıq, təmizlik, ifadəlilik, yığcamlıq, sadəlik, orijinallıq, münasiblik və s. keyfiyyətlərdir.Bunlar əslində bir-biri ilə bağlılığı olan, birinin nitqdə zəif olması digər bir keyfiyyətin də pozulmasına səbəb olan əlamətləri ortaya çıxarır. Məsələn, düzgünlüyün leksik əlamətlərində yanlışlıq olduğu zaman nitqin dəqiqliyi prinsipi də zəifləmiş olur və nəticədə fikrin ifadəsində anlaşılmazlıq yaranır, bununla da mədəni nitqin aydınlığına xələl gəlmiş olur. Bunların izahını verərkən tələbələrə aydın olsun deyə bədii mətnlərdən və ya cümlələr qurmaqla mədəni nitqi pozan əlamətləri nəzərə çatdırmaq lazımdır.

Mədəni nitqin əsas şərtlərindən olan düzgünlük dilin fonetik, leksik və qrammatik normaları ilə ölçülür. Nitqdə fonetik cəhətdən yanlış tələffüz

əsasən dialekt-şivə təsiri ilə yanaşı həm də orfoepik qaydalara nabələdlikdən irəli gəlir. Tədris zamanı xüsusilə vurğulanmalıdır ki, ədəbi dildə danışarkən dialekt –şivə elementlərindən maksimum dərəcədə az istifadə etməyə çalışmaq lazımdır. Bu ünsürlər yalnız bədii üslubda işlənərkən ədəbi dil normaları pozulmur. Məsələn,

Heydər baba, ildırımlar şaxanda,
Çaylar, sular şaqqıldayıb axanda ,
Qızlar ona səf bağlayıb baxanda,
Salam olsun şövkətüzə, elüzə
Mənim də bir adım gəlsin dilüzə..

Göründüyü kimi,ulu Şəhriyarın bu məşhur misralarında acı həsrət, vüqarlı dağ və insanların şirin ləhcəsi ilə bütövləşərək obrazlılığın sərhədlərini aşmış və nəticədə bədii üslubun unudulmaz incisi yaranmışdır. Biz bu nitqdə düzgünlük normalarının pozulmasından bəhs edə bilmərik.

Qeyd etmək lazımdır ki, nitqin bu keyfiyyətində forma ilə yanaşı mövzunun da dəqiqliyi, düzgünlüyü şərtdir. Məsələn,

"*Dünyanın ən böyük dənizi olan Xəzər duzlu və neft qoxan suyu ilə səciyyəvidir* "- cümləsində göl əvəzinə dəniz sözünün işlənməsi həm dəqiqlik, həm də düzgünlük tələbinin pozulmasına səbəb olmuşdur. Ona görə də , mədəni danışmağa çalışan haqqında bəhs etdiyi mövzunu ətraflı , düzgün öyrənməklə yanaşı, fikrini dəqiq ifadə etmək üçün ən uyğun sözlərin seçilməsinə də səy göstərməlidir. Bunun üçün dilimizin lüğət tərkibinə dərindən yiyələnmək vacibdir.Bu sadalanan xüsusiyyətlər nəzərə alındıqda dolayisiyla mədəni nitqin əsas tələblərindən olan aydınlıq da gözlənilmiş olur. Qeyd edək ki, nitqin sadə və aydın olması bütün zamanlarda söz sahiblərinin , dil təəssübkeşlərinin , ziyalı xadimlərimizin diqqət mərkəzində olmuşdur. Hələ XIX əsrdə ədəbiyyat, dilçilik sahəsində müstəsna rolu olan böyük mütəfəkkirimiz Mirzə Fətəli Axundzadə özünün əlifba və dil islahatlarında xalqa - onun ziyalı kəsiminə müraciətlə bacardıqca əcnəbi jarqonlardan, bər-bəzəkli, təmtəraqlı cumlələrdən, yersiz uzunçuluqdan kənar sadə və xalqın anlayacağı dildə danışmağı israrla vurğulayır, asan anlaşılan, aydın nitqi məsləhət görürdü:

"...təvəqqe edirəm ki, sən də mənim kimi adəmi türki dilində -adam yazasan ,töxmi-toxum, cifti-cüt, müqəyyədi- muğayat, övrəti- arvad , qaidəni-qayda və habelə özgə əlfazı ki, xəvass və avamın istemalında müştərəkdir." (2, səh.150)

Dilin və nitqin milli saflığına , sadəliyinə yönələn bu tənqidi fikirlər bütün dövrlərdə sözə dəyər verən , dilimizin təəssübkeşliyini çəkən düşüncə sahiblərini narahat edib. Müasir dilçilikdə də nitqin aydınlığını, sadəliyini şərtləndirən əsas əlamətlər olaraq aşağıdakılar nəzərdə tutulur:

mövzu haqqında ətraflı məlumat toplamaq;
həmin məlumatların sistemləşdirilməsi ;

əsas fikri ifadə edən sözlərin məntiqi vurğu ilə deyilməsi ;

mənası aydın olmayan termin və ya neologizm xarakterli sözlərin izahı və nəhayət mövzuya və nitqin söyləndiyi auditoriyaya uyğun intonasiya seçmək və s. ;

Ümumilikdə, sadalanan və qəbul edilən bu əsas keyfiyyətlərlə yanaşı N.Abdullayev nitqin aydınlığı məsələsində diksiyanı xüsusi vurğulayır :

"Aydın və oxunaqlı xətt yazılı nitqin asan anlaşılmasına nə dərəcədə şərait yaradırsa , düzgün diksiya da şifahi nitqin başa düşülməsini, qavranılmasını o dərəcədə təmin edir.Diksiyanın pozulması səbəblərindən biri danışıq və ya oxu zamanı nəfəsin düzgün tənzim olunmamasıdır" .(1, səh.35) Doğrudan da, bəzən mühazirəçinin söylədiyi cümlələri sintaqmlarına uyğun nəfəsalma və pauza elementləri ilə qura bilməməsi nəinki fikrinin qeyri-deqiq anlaşılmasına hətta dinləyənin vaxtsız darıxmasına səbəb olur. Natiq söyləyəcəyi fikrə uyğun cümləni qurarkən artıq nəfəsini cumlə üzvlərinin ifadə vasitələrinə , feli tərkiblərə, həmcins üzvlərə uyğun olaraq bölməyi bacarmalıdır ki, ciyərlərdən gələn hava axını bütün cümlə intonasiyasını tamamlaya bilsin. Məsələn , *Maşın kəndə çatanda hava qaralmış, camaat evlərinə çəkilmiş, kəndi əsrarəngiz bir sakitlik bürümüşdü* - burada həm feli bağlama tərkibi ,həm də sadə cümlələr arasında pauza və nəfəsalma aktı keçirilməlidir ki, düzgün cumlə intonasiyası tamamlana bilsin. Mədəni nitqin ümdə keyfiyyətlərindən biri də yığcamlıqdır. Fikrimizcə , əgər hər hansı bir natiq mənaca dəqiq, qrammatik cəhətdən düzgün, ifadə baxımından aydın və bütün bunlarla yanaşı həm də yığcam danışırsa deməli o, ən uğurlu nitqi qurmaq bacarığına sahibdir. Əslində uzun-uzadı danışmaq fikri daha ətraflı çatdırmaq demək deyil .Bunun ən bariz nümunəsi atalar sözü və hikmətli kəlamlardır ki, burada ən dərin və geniş mənalar qısa bir cümlədə ifadə olunur. Məsələn, *Abad kənd tüstüsündən bəlli olar ; dost dar gündə tanınar ; el gücü , sel gücü və s.*

Kamil bir palançı olsa da insan, yaxşıdır yarımçıq papaqçılıqdan" aforizminin müəllifi dahi N.Gəncəvi yazırdı :

Sözun də su kimi lətafəti var ,
Hər sözü az demək daha xoş olar.
Bir inci saflığı varsa da suda ,
Artıq içiləndə dərd verir su da.
Inci tək sözlər seç, az danış az din,
Qoy az sözlərinlə dünya bəzənsin.

- bu qiymətli misralarda filosof şair yığcam amma mənalı danışmağın nə qədər əhəmiyyətli olduğunu ən gözəl şəkildə təsvir etmişdir.

XIX əsrin ziyalı-alimlərindən olan M. Nəvvab isə "Nəsihətnamə" əsərində dil, nitq məsələlərinə ətraflı şəkildə toxunmuş - ,, bacardıqca qısa və mənalı danış ,əks halda danışmasan yaxşıdır" -deyərək , sözə dəyər verən

insanlara az sözlə böyük mənalar ,mövzular çatdırmaq bacarığının mükəmməlliyindən bəhs edir .

” Nitqdə ifadəlilik, emosionallıq müxtəlif vasitələrin köməyi ilə yaranır. Bura daxildir: intonasiya- vurğu , pauza, ritm, leksik vahidlər- sinonim, antonim, frazeoloji birləşmələr, məcazlar, paremilər, ritorik fiqurlar,hərəkətlər və s bu kimi vasitələrin köməyi ilə natiq ən incə mətləbləri dinləyiciyə uğurla çatdıra bilir.” (1, səh.61) Xüsusi ilə , bədii nitqdə söylənən hər hansı nitq parçasını intonasiyasız təqdim etmək qeyri-mümkündür. Çünki ədəbiyyatımızda elə bədii parçalar var ki, onların ifadəsində intonasiyanın bütün imkanlarını maksimum dərəcədə nəzərə almaq vacibdir. Bu zaman müəllim öz şagirdləri və tələbələri qarşısında bir natiq qədər qüsursuz olmalıdır. Unudulmaz şairimiz Mikayıl Müşfiqin “Yenə o bağ olaydı ” şeirinin oxusunda olduğu kimi..

Yenə o bağ olaydı, yenə yığışaraq siz
O bağa köçəydiniz.
Biz də muradımızca fələkdən kam alaydıq,
Sizə qonşu olaydıq.
Yenə o bağ olaydı, səni tez-tez görəydim,
Qələmə söz verəydim.
Hər gün bir yeni nəğmə, hər gün bir yeni ilham,
Yazaydım səhər axşam.
Arzuya bax ,sevgilim , tellərindən incəmi ?
Söylə ürəyincəmi ?

Bu emosional şeiri oxuyarkən müəllim bütün imkanlarından istifadə etməlidir ki, gözəl formanı dinləyiciyə çatdıra bilsin və məqsədinə nail olsun. “Müəllimin nitqi izahedici xarakter daşımalıdır, çünki bu nitqin əsas məqsədi öyrətməkdir. Müəllimin nitqi cəlbedici və intonasiya baxımından zəngin olmalıdır, ona görə ki, intonasiya kasıblığı nitqin təsirini azaldır. (4, səh.25) İfadəliliyin əsas vasitələrindən biri də vurğudur. “ Dildə vurğunun xüsusi rolu vardır. Vurğunun yerini dəyişdirməklə eyni bir səs kompleksində və cümlədə müxtəlif mənalar ifadə etmək olur. Vurğunun yerini düzgün müəyyən etmək ədəbi tələffüz üçün son dərəcədə əhəmiyyətlidir ”. (3,səh.104) Vurğu intonasiyanın əsas ünsürüdür və qrammatikamızda heca, söz və həyəcanlı vurğu kimi növləri var. Hər üç növün özünəməxsus mövqeyi vardır. Həyəcanlı vurğu cümlədə birbaşa hiss, həyəcanla bağlıdır. Heca və söz vurğusu isə həm fonetik və qrammatik mənaya xidmət edir, həm də tələffüzdə forma gözəlliyi yaradır. Bu vurğuların yeri dəyişdikdə sözün və cümlənin mənası dəyişə bilir və anlaşılmazlıq yaranır. Xüsusi ilə dilimizdə heca vurğusu dəyişməklə mənası dəyişən onlarla söz vardır ki, bunların tədrisi və mənimsənilməsi, nitq vərdişinə çevrilməsi gərəklidir.

Məsələn, b`əzən –bəz`ən; d`imdik-dimd`ik ; vurm`a-v`urma; g`örməmiş-görməm`iş ; sat`irik- satir`ik ; qrafi`k- qra`fik və s. Adi danışıqda “ *Yenə*

g`örməmiş danışdı* – cümləsinin " *Yenə görməm`iş danışdı " kimi tələffüzünün yaratdığı qeyri-etik mənzərə bir mütəxəssisin sinta`ksis, kafe`dra, liri`ka deməsi qədər zərərlidir.

"Qüsurlu vurğu ilə bağlı yaranan qeyri-adilik dərhal nəzərə çarpır. Bu, nitqin gözəlliyinə xələl gətirir, təsir gücünü azaldır, dinləyənin diqqətini söhbətdən yayındırır və nəticədə nəzərdə tutulan fikir, məqsəd dinləyiciyə istənilən səviyyədə çatmır". (1, səh. 66)

Nəzərə almaq lazımdir ki, bədii əsərlərin oxusunda , xüsusilə şeirlərin ifadəli oxusunda bütün vurğuların yerində və düzgün işlənməsi ideya və mövzunun dəqiq və təsirli çatdırılmasında önəmli mövqe tutur. Böyük şairimiz Səməd Vurğunun məşhur "Azərbaycan" şeiri başdan başa intonasiya və vurğunun hakim olduğu mükəmməl poeziya nümunəsidir . Bu şeirin bəndlərinin hər bir sözündə vurğunun demək olar ki, bütün növləri – heca , məntiqi , həyəcanlı vurğu işlənmiş və nəticədə əvəzsiz ifadə tərzi yaranmışdır:

El bilir ki, sən mənimsən
Yurdum , yuvam məskənimsən
Anam doğma vətənimsən
Ayrılarmı könül candan ?
Azərbaycan , Azərbaycan !

Qiraətçi bilməlidir ki, bu bənddə həmqafiyə sözlərin sonunda işlənən şəxs şəkilçiləri və sual ədatı -mı vurğu qəbul etmir. Ümumiyyətlə , bədii nümunələrin oxusunda əldə edilən uğur mövzunu tədris edən müəllimlərin və natiqlərin bacarığından asılıdır. Çünki , doğrudan da, ədəbi tələffüzün ən çətin və ümdə göstəricilərindən biri məhz düzgün vurğudur . Dilimizdə vurğunun yeri əsasən sabit olsa da , vurğu qəbul etməyən şəkilçilərin olması onun yerdəyişməsinə səbəb olur. Buna görə də , danışana öyrətmək lazımdır ki, esl Azərbaycan sözlərində vurğunun yeri sabit olsa da mövcud şəkilçilərlə bu mövqe dəyişmiş olur. Alınma sözlərdə isə ilk və orta hecalarda da vurğu müşahidə olunur ki, bu müxtəlifliyi sadələşdirmək və düzgün vurğunu müəyyən etmək üçün asan üsullardan biri də sözdəki bütün hecalara vurğu salmaq , qulağa doğru gələn tələffüzün düzgün vurğu olduğuna qənaət gətirməkdir. Fikrimizcə, bu , vurğu haqqında nəzəri məlumatı zəif olan və tələffüzdə yanlışlığa yol verən danışanlar üçün ən asan və məqsədəuyğun üsuldur. Ümumiyyətlə , qeyd etmək lazimdır ki, nitq prosesində ifadəliliyə xidmət edən bütün bu elementlər qismən nəzərə alınarsa danışan mövzu və auditoriyasından asılı olmayaraq məqsədinə nail ola bilər. Çünki, ifadəli nitq natiqin öz nitqinə əminliyidir , mövzunu dərindən mənimsəməsi, hadisələri hiss etməsi , məna və məzmunun səmimiyyətinə inanması və dolayısıyla dinləyəni də inandırmasıdır. Belə ki, hər hansı bir üslubda –istər publisistik məzmunlu ,istərsə də bədii və ya elmi bir yeniliyi , dramatik bir hadisəni ya da lirik bir parçanın təhlilini söyləyən

məruzəçi onu uyğun bir intonasiya seçmədən , duyğusuz, soyuq bir diksiya ilə söylərsə, həmin nitqin təkcə ifadəlilik deyil, həm də səmimilik keyfiyyəti pozulmuş olar. Nəticədə natiq auditoriyanı heç bir halda özünə cəlb edə bilməz. Məhz buna görə də, mədəni nitqin bütün keyfiyyətləri ayrılıqda təsnif, təhlil olunduğu qədər bir-birinə təsiri və əlaqəsi baxımından da izahı maraqlıdır. Qeyd edək ki, nitq prosesi olduqca mürəkkəb bir aktdır. Bu aktın fizioloji, sosioloji və linqvistik tərəfləri ta qədimlərdən- antik dövrdən bu günümüzədək öyrənilmiş və öyrənilməkdədir. Mədəni nitq isə bu aktın ən yüksək səviyyəsidir. Dilimizdə bu səviyyənin yaranması, qorunması və dinamik inkişafda bütün keyfiyyətlərinin kompleks təşkilinə nail olmaq, zəmin yaratmaq ustadların, natiqlərin, dilçi mütəxəssislərin hər zaman diqqət mərkəzində olmuşdur. Bu gün də qədim və zəngin dilimizin imkanlarından istifadə edərək, yüksək keyfiyyətlərə malik mədəni nitq vərdişlərinə yiyələnmək müasir Azərbaycan ritorikasının aktual məsələsidir.

Ədəbiyyat

1. Abdullayev N. itq mədəniyyətinin əsasları Bakı-2014
2. Axundzadə M.F. “Əsərləri” II cild Bakı -2005
3. Qurbanov A. Azərbaycan ədəbi dili.Bakı- 2010
4. Həsənova S. Nitq mədəniyyəti və üslubiyyat.Bakı-2015

А.Аскерова

Основные требования к культурной речи и вопросы их преподавания

Резюме

В последние годы культура речи изучается как одна из областей лингвистики. Известно, что основная цель преподавания предмета – это не является воспитание оратора, а использование максимальной возможности нашего языка, способствующий развитию культурной речи. Одним из основных условий культурной речи является точный и правильный стиль выражения. Точность в культурной речи измеряется фонетическими, лексическими и грамматическими нормами языка. Фраза - неверная интерпретация речи, в дополнение к эффекту диалектики, также возникает из-за неправильного принятия правил орфоэпии. По этой причине, помимо тщательного и точного изучения предмета, о котором говорится, нужно приложить усилия, чтобы выбрать наиболее подходящие слова, для выражения своих мыслей.

Одним из главных качеств культурной речи является выразительность. Его основными элементами являются акцент, интонация и тон. Независимо от предмета темы, если элементы частично будут учтены, то спикер легко может привлечь внимание слушателей и достичь своей цели.Приобретение высококачественных культурных навыков является актуальным вопросом современной Азербайджанской риторики.

A.Asgarova

Basic requirements for cultural speech and their teaching

Sammary

In recent years, the culture of speech has been studied as one of the fields of linguistics.

It is known that, the main purpose of teaching the subject is not the education of the speaker, but the use of the maximum possibility of our language, which contributes to the development of cultural speech.

One of the main conditions of a cultural speech is the precise and correct style of expression. Accuracy in cultural speech is measured by phonetic, lexical and grammatical norms of language. The phrase - an incorrect interpretation of speech, in addition to the effect of dialectics, also arises from the incorrect adoption of the rules of orthoepy. For this reason, in addition to a careful and accurate study of the subject of which it is said, efforts must be made to select the most appropriate words to express their thoughts.One of the main qualities of a cultural speech is expressiveness. Its main elements are accent, intonation and tone. Regardless of the subject matter, if the elements are partially taken into account, the speaker can easily attract the listeners' attention and achieve their aim.

The acquisition of high-quality cultural skills is an urgent issue of modern

Rəyçi: Gülşən İmanova
Filologiya üzrə fəlsəfə doktoru, dosent

İRADƏ KƏRİMOVA
BDU
filologiya üzrə fəlsəfə doktoru
k.ramiz.n@gmail.com

KEYFİYYƏTSİZ DUBLYAJ ƏN YAXŞI FİLMLƏRİ GÖZDƏN SALIR
(Dublyaj filmlərinin Azərbaycan dilinə tərcuməsində və səsləndirilməsində ədəbi dil normalarının pozulması problemləri)

Açar sözlər: Azərbaycan ədəbi dilinin normaları, problemlər, tərcümə, dublyaj filmləri, sinxron səsləndirmə
Ключевые слова: Нормы Азербайджанского литературного языка, проблемы, перевод, дублированные фильмы, синхронное озвучивание
Key words: litrerary language norms Azerbaijany**,** problems, translating, dubbing" in films, simultaneonsly sounding

Hər bir xalqın mənəvi sərvətləri sırasında həmin xalqın ana dilinin heç bir dəyərlə müqayisəyə gəlməyən müstəsna əhəmiyyəti vardır. Ana dili xalqın varlığını təmin edən ən dəyərli amildir. Xalq bütün maddi və mənəvi sərvətlərini, hətta torpaqlarını itirib yalnız dilini saxlasa, öz varlığını qoruyub saxlaya bilər. Lakin, tarixin dəfələrlə sübut etdiyi kimi, bütün sərvətlərini saxlayıb, dilini itirən xalq məhvə məhkumdur. Ana dili yalnız sadəcə ünsiyyət vasitəsi deyil, xalqın dünyagörüşünün, düşüncə tərzinin, ümumən mənəvi varlığının ifadə vasitəsidir. Buna görə də müasir beynəlxalq inteqrasiya şəraitində ana dilimizin qorunması, əsas mənəvi dəyər kimi onun toxunulmazlığının və işləkliyinin təmin edilməsi bir millət və dövlət olaraq bizim ən başlıca vəzifəmizdir.

Azərbaycan torpağı bizim maddi vətənimiz olduğu kimi, Azərbaycan dilimiz mənəvi vətənimizdir və ana dilimizin vətənimiz qədər müqəddəsliyini hər bir azərbaycanlının bilməsi vacibdir. Onların qorunmasının vacibliyini hər bir azərbaycanlı dərk etməli və bunun uğrunda mübarizə aparmalıdır.

Azərbaycan ədəbi dilinin normalarının pozulması, sadəcə olaraq, linqvistik qaydaların yox, həm də dövlət qanununun pozulmasıdır və ona saymazyana yanaşanlar yalnız ictimai rəy qarşısında deyil, həm də qanunvericilik normaları qarşısında məsuliyyət daşımalıdırlar. Qanuna hörmətlə yanaşmaq isə hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğunun ən mühüm amillərindən biridir.

Müasir Azərbaycan ədəbi dilinə düzgün riayət olunmasında televiziya kanallarının rolu olduqca böyükdür. Təqdim olunan verilişlərdə, xüsusən də bədii filmlərdəki dublyajlarda bu cəhət özünü daha çox büruzə verir. Televiziyakanallarında dublyaj filmlərinin fəaliyyəti ədəbi dilimizin inkişafına, təkmilləşdirilməsinə xidmət etməlidir.

Dublyaj filmlərinin Azərbaycan Televiziyasında 1966-cı ildən nümayiş etdirilməyə başlandığı ilk vaxtlar keyfiyyətsiz olmasına baxmayaraq, doğma dilimizdə olduğu üçün tamaşaçıları sevindirdi. Əlbəttə ki, rus dilini və xarici dilləri bilməyən və ya zəif bilən tamaşaçılar bunu daha çox alqışladılar.

Ulu öndərimiz Heydər Əliyevin 2001-ci il 18 iyun tarixli "Dövlət dilinin tətbiqinintəkmilləşdirilməsi tədbirləri haqqında" Sərəncamı ölkə telemə-kanında filmlərin dublyajını sürətləndirdi. Bu sərəncam bütün sahələrdə olduğu kimi, dublyaj filmlərinin fəaliyyətində də böyük dəyişikliklər yaratdı. Xarici filmlərin tamaşaçılara doğma dilimizdə qüsursuz çatdırılması əsas vəzifəyə - çevrildi. Xarici filmlərin dublyajına geniş yer verildi və Azərbaycan Milli - Teleradio Şurasının ciddi nəzarəti altında bütün telekanallarda yayımlanan filmlərin milli dilimizdə nümayiş etdirilməsi özünü doğrultmağa başladı. Lakin bəzi telekanallarda dublyaj olunmuş filmlərin səviyyəsiz səsləndirməsi insanların əsəblərini yerindən oynatdı.. Bir sözlə, çox vaxt bəsit filmlərin dublyajı, səviyyəsiz üsulla dublyaj edilmiş filmlərin nümayiş etdiriməsinə üstünlük verilirdi. Axı ən gözəl filmin bütün məziyyətləri, kompozisiyası səviyyəsiz dublyaja qurban gedə bilər. Qeyd etmək lazımdır ki, xarici filmləri doğma - dilimizə tərcümə edərək yenidən bizə təqdim edən dublyaj sənəti kinonun ayrılmaz bir qoludur.

Dublyaj filmlərində fəaliyyət göstərən aktyorların məsuliyyəti, Azərbaycan ədəbi dilinin orfoepiya qanunlarına riayət edərək səsləndirməsi bu prosesdə dublyajın tırcüməsi qədər önəmlidir. Çünki səsləndirilən hər bir əcnəbi obrazın xarakterini qavrayaraq duyğularını, hisslərini tamaşaçıya çatdırmaq aktyordan xüsusi məharət tələb edir. Buna görə də qüsursuz dublyaj aktyor qrupunun düzgün seçilməsini tələb edən əsas şərtlərdən biridir.

Xalqımızın ümummilli lideri ulu öndərimiz Heydər Əliyev Azərbaycan ədəbi dil normalarına riayət olunmasının vacibliyini qeyd edərək yazır:"...Ədəbi dil məsələsi hələ əsrin əvvəlindən ictimai-siyasi mübarizənin tərkib hissəsi olmuşdur...Mətbuat ana dili, ədəbi dil uğrunda mübarizənin önündə gedirdi...Ədəbi dil normasının müəyyənləşməsində bütün görkəmli ziyalılar iştirak edirdilər...

...Kino və televiziya ekranlarında Azərbaycan dilinə dublyaj edilmiş xarici filmlərə nadir hallarda rast gəlmək olar, dublyaj edilmiş ekran əsərlərinin tərcümə səviyyəsi isə olduqca aşağıdır"("Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı. 18 iyun 2001, səh.43-44).

Respublikamızın Prezidenti Cənab İlham Əliyevinin "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı haqqında" Sərəncamınıda dublyaj filmlərinin yarıtmaz və sönük olması oz əksini tapmışdır. Burada qeyd olunur ki, dövlət dilimizin tətbiqi sahəsində bir sıra problemlər özünü qabarıq şəkildə büruzə verir. ...Radio və televiziya kanallarında ədəbi dil

normalarının pozulması adi hal almışdır....Dublyaj edilən filmlərin, xarici dillərdən çevrilən elmi, bədii və publisistik əsərlərin tərcüməsi bir qayda olaraq yüksək estetik tələblərə cavab vermir, onlar sönük və yarıtmazdır, dilimizin hüdudsuz ifadə imkanları ilə müqayisə edilməyəcək qədər aşağı səviyyədədir...(Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. 23 may 2012, səh.79-80).

Məlum olduğu kimi, bütün inkişaf etmiş ölkələrdə telekanallarda, kinoteatrlarda yayımlanan filmlər yerli dildə nümayiş etdirilir.. Azərbaycanda da demək olar ki, bütün filmlər doğma dilimizdə səsləndirilir. Lakin təəssüflər olsun ki, səsləndirmələr çox süni, Azərbaycan ədəbi dilinin orfoepiya qanunlarına riayət edilmədən, səviyyəsiz şəkildə ekrana verilir. Elə cümlələr, elə sözlər var ki, düzgün tərcümə olunmur, çox qarışıq və anlaşılmaz olduğundan Azərbaycan dilində səslənməsinə baxmayaraq, heç nə başa düşmək olmur. Müşahidələr göstərir ki, belə dublyaj filmləri rus və xarici dilləri bilməyən, savadı az olan insanlara xoş gəlir.

Keyfiyyətli dublyaj təkcə tərcüməçidən asılı deyil, eyni zamanda həmin filmi səsləndirən aktyorlardan çox asılıdır. Çünki filmin tərcüməsi işin yarısıdırsa, səsləndirmə o biri yarısıdır. Dublyaj filminin tam keyfiyyətli olması üçün bunlar vacibdir və əlbəttə ki, işin maddi tərəfi də nəzərə alınaraq tərcüməçi və aktyorlar yüksək qiymətləndirilməlidir.

Məsələ bundadır ki, hətta dili bilməyənlər də tərcümə ilə məşğul olurlar. Tərcüməçi də, aktyor da kino dilini bilməlidir. Qeyri-peşəkar tərcüməçilər və aktyorlar kino dilindən istifadə etməyi bacarmır. Nəticədə ən yaxşı xarici filmləri gözdən salan və zəngin Azərbaycan ədəbi dilimizi düzgün təqdim etməyən keyfiyyətsiz dublyaj filmlərinin ekranlarda nümayiş etdirilməsi insanları narahat edir.

Azərbaycan Milli Elmlər Akademiyasının Nəsimi adına Dilçilik İnstitutu televiziya verilişlərində ədəbi dil normalarına riayət olunması ilə bağlı növbəti monitorinqlərə mart ayında başlanacağı barədə xəbər verib. Bu barədə "Report"a açıqlamasında Dilçilik İnstitutunun Monitorinq şöbəsinin müdiri Sevinc Əliyeva deyib. (Ədəbi dil normalarına riayət olunması ilə bağlı monitorinqlər başlayır. Gunun sesi.info. 01 fevral 2018).

25 iyun 2015-ci ildə keçirilən "Dil və Tərcümə sahəsinin problemləri" adlı müzakirədə Televiziya ekranlarında gedən filmlər barədə dəyərli tənqidi fikirlər səsləndi. Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Tərcümə Mərkəzinin direktoru Afaq Məsud dedi ki, bizdə dublyaj filmlərinin səviyyəsi çox aşağıdır. Şərq filmlərinin dublyaj təcrübəsi isə çox yaxşıdır. Hind, İran filmləri rus dilindən tərcümə olunub və əksəriyyətini yazıçılar, dili bilən adamlar edib. Ancaq amerikan, fransız filmlərinin uyğun tərcümə variantını azərbaycanca tapmaq mümkün deyil.

Çünki o dildəki ifadələrin adekvat variantı bizdə yoxdur. O filmlərdə olan replikaların, səhnələrin tərcüməsi bizim dildə maraqsız alınır. Bu da təkcə tərcüməçilərin günahı deyil, dilin reaksiyasıdır. Amerikan ingiliscəsinə bizim dilimizin reaksiyası çox kütdür. Onu da deyim ki, hələ qarşıda tərcümə modelinin hazırlanması problemi də durur. Bunun üçün də yaxşı lüğətlər lazımdır. Elə lüğətlər ki, axtardığımız sözləri onlarda tapa bilək.

Elmi-Bədii Şuranın üzvü, Xalq Artisti, rejissor Ramiz Mirzəyev bildirdi ki, bizim dilimizə yaxın olan türk dilinin dublyajına baxanda görürsən ki, burda avropa mətnlərindən tərcümə çox rahat qəbul edilir.

Müzakirədə qeyd olundu ki, söhbət qeyri-peşəkar tərcümədən gedir. Filmlərin mətni də qeyri-peşəkarcasına tərcümə edildiyinə görə uğurlu alınmır.. Təxminən 1970-ci illərdə bizim dublyajımızla türklərin dublyajı müqayisə oluna bilməzdi. Bizim dublyaj məktəbimiz olub. Dublyajın peşəkarlığı nədir? Əvvəla bu işə peşəkarlar cəlb olunmalıdır. Digər tərəfdən, bir var "ukladka" ilə dublyaj, yəni dodaq dublyajı, bir də var tərcümə olunmuş mətn. Əgər elə deyilsə, dublyaj kadrarxası səslə veriləcəksə, onu emosional etmək olmaz. Onu sakit, emosiyasız təqdim etmək lazımdır. Hətta çalışmaq lazımdır ki, orijinal səs az da olsa, eşidilsin. Yəni biz dublyajın işini xeyli yüngülləşdirə bilərik. Dublyajın təşkil edilməsi məsələsinə isə ayrıca baxılmalıdır. Tərcümə Mərkəz bu işdə öz köməyini belə göstərə bilər ki, tərcümə olunan dublyaj mətnlərinin redaktəsini, yaxud sifarişlər əsasında bu işi öz mütəxəssislərinin, bədii tərcümə ustalarının köməyi ilə həyata keçirsin, ən optimal yol bu ola bilər.

Sonda Afaq Məsud bildirdi ki, dil və tərcümə sahəsində yaşanan problemlər o qədər şaxəli və fərqlidir ki, bu məsələlərin ayırd edilməsi və həlli yollarının araşdırılması bir iclasın işi deyil. Biz bu səbəbdən Şuranın iclaslarını sahələr üzrə, işçi qrupları ilə keçirməliyik. Təhsil və dərslik məsələləri ilə əlaqədar bir işçi qrupu, kino dublyaj məsələsi ilə ayrı bir qrup, tərcümə təhsilinin təşkili ilə bağlı digər qrup yaratmalıyıq. İşçi qruplar işləməli, ümumi iclaslarda yekun qərarlar qəbul edilməlidir. İclasımızın gedişatı bunu bir daha sübut etdi ki, Şuranın üzvləri düzgün seçilib. Burda əyləşən hər bir kəsin ölkənin mənəvi-maarifçi durumunun tərəqqisi, dil və tərcümə sahəsinin təkmilləşməsi üçün dediyi fikirlər, irəli sürdüyü təkliflər bizim üçün dəyərlidir. Hər birinizə ürəkdən təşəkkür edir, iş birliyimizin uğurlu nəticələr verəcəyinə inanıram.

15 fevral 2014-cü ildə Azərbaycan kinoteatrlarında nümayiş etdirilən bütün filmlərin dövlət dilinə çevrilməsi haqqında qərar verilmişdi. Qərara görə 5 iyul 2011-ci ildən etibarən kinoteatrlarda nümayiş olunan bütün filmlər Azərbaycan dilinə dublyaj olunmuş versiyada verilməli idi. Mədəniyyət və Turizm Nazirliyinin qərarına əsasən kinoteatrlar filmi Azərbaycan dilində istənilən formada nümayiş etdirə bilərlər və bu üsulların

seçilməsi kinoteatrların öz işidir. Amma dublyaj zamanı savadlı tərcüməçilərdən və peşəkar aktyorlardan istifadə edilməlidir. Bu qərarın nə dərəcədə icra olunub-olunmadığını öyrənmək üçün bir neçə yoxlama aparıldı və monitorinqlər keçirildi. Belə bir nəticəyə gəlmək olar ki, qərarın üstündən üç ildən çox keçməsinə baxmayaraq, buna əməl edən yoxdur.

Mədəniyyət və Turizm Nazirliyinin kinematoqrafiya şöbəsinin sektor müdiri Yusif Şeyxov xarici filmlərin Azərbaycan dilinə tərcümə olunmadan nümayiş etdirilməsinə münasibət bildirərək deyib ki, kinoteatrlar filmlərin Azərbaycan dilində tərcümə olunması qərarına bir ay riayət etdilər: "Bu yaxınlarda Mədəniyyət və Turizm Nazirliyinin imzası ilə bütün kinoteatrlara xəbərdarlıq məktubu göndərilib. Kino haqda artıq Ədliyyə Nazirliyi ilə razılaşdırılmış yeni qanun var. O qanunda cümlə-cümlə yazılır ki, kinoteatrlarda göstərilən filmlər Azərbaycan dilinə tərcümə olunmalıdır. Bizim tərəfimizdən kinoteatrlarda yoxlamalar aparılır, xəbərdarlıq da edilib".

Prezident Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyev dövlət qəzeti "Azərbaycan" qəzetinin 2009-cu il 2 oktyabr sayında "Azərbaycanın efir məkanı: problemlər və vəzifələr" sərlövhəli məqalə ilə çıxış edərək yazırdı: "...Xarici ölkələrin istehsal etdiyi filmlərin dublyajında problemlər qalmaqdadır. Məlum olduğu kimi, dublyajın keyfiyyəti peşəkar aktyorların, yaxşı nitq qabiliyyəti olan şəxslərin cəlb edilməsindən birbaşa asılıdır. Azərbaycanda hər televiziya kanalının öz dublyaj studiyası fəaliyyət göstərir. İstisna deyil ki, bu və ya digər səbəblərdən dublyaja peşəkarların cəlb edilməsi problemə çevrilir. Buna görə də, bədii, sənədli, cizgi filmlərinin mərkəzləşdirilmiş qaydada, peşəkar səviyyədə dublyajına ehtiyac yaranmışdır" ("Azərbaycan" qəzeti, 2 oktyabr 2009).

Hind filmlərinin populyar olduğu bir neçə il əvvəl onları dublyaj edən telekanallarımızı tamaşaçı izlədikdə nəinki kanalı dəyişir, hətta həmin filmə qarşı marağı da azalırdı. Son dönəmlər isə dilini əzbər bildiyimiz türk filmləri – İbrahim Tatlısəsin, Hülya Avşarın, Şabanın filmləri əcaib formada tərcümə olunur. Bəzi hallarda isə əsas qəhrəmanların (adlarını qeyd etdiyim) öz səsləri türk dilində verilərək, digər personajların ifadələrinin dublyaj edildiyinin şahidi oluruq. Vaxtilə sevə-sevə izlədiyimiz həmin filmlər bu cür tərcümələrdən sonra tamaşaçıda sözün əsl mənasında ikrah hissi oyadır. Nəticədə insanlar həmin filmlərə türk kanallarında, yaxud da başqa vasitələrlə baxmağı üstün tuturlar (Bizdə filmlərin tərcüməsi niyə yaxşı alınmır? Gənc ailə.az.19 iyul 2017).

Dublyaj sənəti kinonuzun bir qolu kimi tamaşaçıların mənəvi tələbatlarını ödəyir. Amma Azərbaycanda dublyaj olunan filmlərə tamaşaçı baxmaq istəmir. Tamaşaçı həmin filmi rus və ya türk dilində seyr etməyə daha çox üstünlük verir.

Dublyajı çox zaman hər telekanal özü etdiiyinə görə onlar üçün peşəkarlıq məsələsi bir o qədər də önəmli olmur. Peşəkar tərcüməçiyə ayrılan pulun miqdarı da çox az olur. Bu səbəbdən də, haqlı olaraq, heç bir peşəkar tərcüməçi belə qiymətlə razılaşmaq istəmir. Nəticədə Azərbaycan ədəbi dil normalarına riayət edilməyən bərbad, səviyyəsiz dublyajlar baş alıb gedir.

Hazırda nümayiş etdirilən dublyaj filmlərinin keyfiyyətsiz olması səbəblərindən biri də bu filmlərin sinxron səsləndirilməsi deyil, diktor tərəfindən səsləndirilməsidir. Sinxron səsləndirmə isə əsil dublyaj deyil. Çünki sinxron tərcümədə bir diktor və ya aktyor bir neçə rolu səsləndirirsə, səsini dəyişməli olur və səviyyəsiz səslənmə alınır. Belə səslənmə filmi gözdən salır və baxımsız edir. Əsl dublyajda isə ən kiçik rollara da müxtəlif aktyorlar cəlb olunmalıdır.

Telekanallar hər iki dili mükəmməl bilən və Azərbaycan ədəbi dil normalarının qanunlarına düzgün riayət etməyi bacaran savadlı, peşəkar tərcüməçilərə keyfiyyətli dublyaj mətni sifariş versələr və aktyorlar da öz işlərini layiqincə yerinə yetirsələr, gözəl dublyaj nümunələri ərsəyə gələ bilər və yəqin ki bu problem öz həllini tapar.

Ədəbiyyat

1.“Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında”Azərbaycan Respublikası Prezidentinin Fərmanı. “Azərbaycan” qəzeti, 19 iyun 2001.
2.“Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı haqqında” Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. Bakı, 23 may 2012.
3.Azərbaycanın efir məkanı: problemlər və vəzifələr. “Azərbaycan” qəzeti, 2 oktyabr 2009.
4.Bizdə filmlərin tərcüməsi niyə yaxşı alınmır? Gənc ailə.az.19 iyul 2017.
5.Öz dilimizdə keyfiyyətli dublyaj niyə alınmır. Texno Trend. 2016.
6.Ədəbi dil normalarına riayət olunması ilə bağlı monitorinqlər başlayır. Gunun sesi.info. 01 fevral 2018.
7.Telekanallarda dublyaj işi: kəmiyyət keyfiyyəti üstələyir.“Mədəniyyət”qəzeti, 18.08.2010.

И.Керимова

Некачественное дублирование умаляет достоинства самых хороших фильмов (проблемы нарушения норм литературного языка при переводе дублируемых фильмов на азербайджанский язык)

Резюме

В статье исследуются проблемы нарушения норм азербайджанского литературного языка при переводе и озвучивании дублированных фильмов. Рассматривается вопрос о том, что одна из причин низкого

качества дубляжа фильмов заключается не только в синхронном переводе, но и в озвучании их одним и тем же человеком, т.е. диктором. Ф А также отмечается, что синхронное озвучивание не настоящий дубляж.В статье освещается отношение Великого Вождя Гейдара Алиева и и его достойного преемника Ильхама Алиева к дублированным фильмам.В заключение отмечается, что наши телеканалы должны заказать качественные дублируемые тексты вполне грамотным, профессиональным переводчикам, хорошо вдадеющим обоими языками и нормами азербайджанского литературного языка. При этом актеры, озвучивающие дублируемые тексты, должны хорошо знать свое дело. Только при таких обстоятельствах могут быть созданы прекрасные тексты для дубляжа.

İ.Karimova

A bad guality dubbing-in lose prestige the best films (The problems of the striking out of literary language norms in the translating and sounding to the Azerbaijan language of dubbing-in films)

Summary

The problems of the striking out of literary language norms in the translating and sounding to the Azerbaijan language of dubbing-in films researches in this article. One of the main reason of bad-guality dubbing –in films not only simultaneous interpeting is not original dubbing –in.

The great leader Heydar Aliyev''s and his decently successor Ilham Aliyev"s attitude to the dubbing-in films are lighting up in this article.

Of the result noticed that if our TV- channals ordered the high guality dubbing–in films to the educated translator, who know both languages perfectly and who can observe to the Azerbaijany literary languages norms, the actors who sounded the dubbing –in films, they will do it wery properly, the new films can be produced and may be all of the problems will find their their solving.

Rəyçi: Cavanşir Muradov
Filologiya üzrə fəlsəfə doktoru, dosent

SEVƏR ORUCOVA
Filologiya üzrə fəlsəfə doktoru
ADİU "Xarici dillər" kafedrası
seva_o@ mail.ru

XALİD HÜSEYNİNİN ƏSƏRLƏRİNDƏ İSTIFADƏ EDİLMİŞ SİFƏTLƏRƏ DAİR

Açar sözlər: müxtəlif dillərin leksikası, bədii əsərlər, sadə sifətlər, dünya ədəbiyyatı, düzəltmə sifətlər, mürəkkəb sifətlər, müxtəlif nitq hissələri
Key words: lexicon of different languages, fictions, simple adjectives, world literature, derivative adjectives, complex adjectives, different parts of speech
Ключевые слова: лексика разных языков, художественная литература, простое прилагательное, сложное прилагательное, разные части речи

Artıq bildiyimiz kimi sifət nitq hissəsi olaraq əşyanın əlamət və keyfiyyətini bildirir. Bədii əsərlərdə istifadə edilən sifətlər əsasən bədii təsvir vasitələri kimi işlədilərək yazıçı tərəfindən nəql edilən hadisələrin gözəlliyini, rəngarəngliyini daha da artıraraq ona daha dolğun məzmun qazandırır.

Fikir versək, görərik ki, yazıçılar müəyyən hadisələri təsvir edərkən, qəhrəmanların daxili dünyalarını, hiss və emosiyalarını göstərərkən daha çox sifətlərdən istifadə etmişlərsə, bu oxucuda əsərə qarşı daha çox marağa səbəb olur və hadisələri, onlarda yer alan qəhrəmanların real həyatlarını özlüyündə yaşamağa imkan yaradır.

Əvvəllər də qeyd olunduğu kimi, dil mürəkkəb tarixi-ictimai bir hadisə olduğundan, zaman keçdikcə iqtisadiyyat, insanların həyat şəraiti dəyişdiyindən dilin tərkibinə müxtəlif, rəngarəng söz birləşmələri və sözlər daxil olur. Eləcə də bu xüsusiyyət özünü müxtəlif dillərin leksikasına yenicə daxil olan sifətlərlə bir daha sübut edir.

Bu nitq hissəsini digər nitq hissələrindən fərqləndirəcək xüsusi şəkli əlamətlər olmadığından, əksər hallarda onu yalnız daxili məzmununa əsasən digər nitq hissələrindən ayırmaq olur. Bu xüsusiyyəti əlbəttə ki, əsas olaraq sadə sifətlərə aid edə bilərik. M. Hüseynzadə Azərbaycan dilində sadə sifətləri həmçinin ″əsli sifətlər ″ adlandıraraq, onları başlıca olaraq 3 yerə ayırırdı: "1) keyfiyyət bildirən; 2) əlamət bildirən; 3) rəng bildirənlər [1, s.65].

O. Musayev ″İngilis dilinin qrammatikası″ kitabında müasir Azərbaycan dilində olduğu kimi, ingilis dilində də sifətlərin məna baxımından iki qrupa bölündüyünü qeyd edərək, onları əsli və nisbi sifətlər kimi təsnif edirdi [2, s.44]. Həm ana dilimizdə, həm də ingilis dilində çoxlu sayda əsli sifətlər vardır ki, onlar məna baxımından əşyaların formasını, rəngini, fiziki keyfiyyətlərini (Az. dilində: yaxşı, pis, yaşıl və s.; ing. dilində: bad, good,

red, large və s.), eləcə də canlılara məxsus əlaməti və əqli xüsusiyyətlərini (Az. dilində: gözəl, böyük və s. ; ing. dilində: thin, beautiful və s.) bildirir.

Məhşur əfqan əsilli, ABŞ vətəndaşı Xalid Hüseyninin əsərləri müasir dünya ədəbiyyatında çox geniş oxucu kütləsinə maikdir. Yazıçının ilk qələmə aldığı "Çərpələnguçuran" romanı təkcə öz süjet xətti, məzmunu ilə deyil, eyni zamanda sifətləri ilə oxucunu özünə cəlb edir və bu sifətlər qəhrəmanların mənəvi dünyasını, onların çətin müharibə şəraitində, iğtişaşlar işində yaşadıqları iztirab və əziyyətləri daha da dolğun və ətraflı təsvirinə şərait yaradır. Əvvəlcə gəlin əsərdə yer alan əsli sifətlərə diqqət yetirək. Elə romanın ilk cümləsində əsli sifət yer almaqdadır:

I became what I am today at the age of twelve, on a frigid overcast day in the winter 1975 (The Kite Runner)[s1] Əslində bu ilk cümlədə əsli sifət olan *frigid (soyuq, şaxtalı)* bədii təsvir vasitəsi olan epitet kimi işlənilir.

Maraqlısı budur ki, X. Hüseyninin əsərlərində bir sıra, tərkibində bir neçə sadə sifətlərin işləndiyi cümlələr üstünlük təşkil edir. Məsələn, *When Nana saw the bowl, her face flushed red and her upper lip shivered, and her eyes, both lazy one and the good, settled on Mariam in a flat, unblinking way.*(A Thousand Splendid Suns) [s3]. İlk *red(qırmızı)* sifəti rəng bildirən sadə sifətdirrsə, *lazy (tənbəl), good (yaxşı)* isə əlamət bildirən sifətdir. Bəzən eyni əsli sifətlər bəzən əlamət, bəzən də keyfiyyət ifadə edə bilir. Bunu ayırd etmək əksər vaxtlarda çaşqınlığa səbəb ola bilir. Belə hallara M.Hüseynzadə tərəfindən çox gözəl aydınlıq gətirilir: "*Gözəl adamdır.* cümləsində *gözəl* sözü adamın zahiri əlamətlərini (zahiri görünüşünü) bildirirsə, əlamət bildirən sifət olur. *Gözəl* sözü adamın daxili əlamətlərini, yəni xasiyyət və əxlaqını bildirirsə, keyfiyyət bildirən sifət olur [1, s.65]. Dilçi alimin bu fikirlərini əsas götürməklə bir daha yuxarıdakı cümlədəki *lazy* və *good* sifətlərinin əlamət bildirdiyi sifətlər olması özünün təsdiqini tapır. Belə ki, bu sifətlər şəxsin bəzi fiziki xüsusiyətlərini göstərərək onun gözlərinin zahiri xüsusiyyətlərini özündə ehtiva edir.

Dünya şöhrətli yazıçının əsərlərində tərkibində həmcins üzvlü sifətlərin yer aldığı cümlələr üstünlük təşkil edir. Buna bir sıra nümunələri misal gətirmək olar. Məsələn, *"I can still see Hassan up on that tree, sunlight flickering through the leaves on his almost perfectly round face, a face like a Chinese doll chiseled from hardwood: his flat, broad nose and slanting, narrow eyes like bamboo leaves, eyes that looked, depending on the light, gold, green, even* sapphire *(The kite runner)[s. 3].* (Round (girdə), *flat* (düz), *broad* (geniş), *light (işıqlı), gold (qızılı), green (yaşıl), narrow (dar).* Gördüyümüz kimi eyni cümlə tərkibində müəllif məharətlə həm rəng, həm də keyfiyyət bildirən sifətlərdən istifadə etmişdir.

"Nisbi sifətlər əşyaya xas olan əlamət və keyfiyyətləri birbaşa, bilavasitə deyil, bilvasitə, dolayı yolla ifadə edir. Məsələn, wooden door,

woolen gloves dedikdə, biz qapının ağacdan qayrıldığını, əlcəyin isə yundan toxunduğunu, bilvasitə bildirərək, yəni həmin əşyaların xas olduğu əlamət başqa bir əşya (ağac, yun) vasitəsilə ifadə edilir, bildirilir" [2, s.49]. O.Musayevin nisbi adlandırdığı sifətləri M. Hüseynzadə sadəcə olaraq düzəltmə sifətlər adlandırır [1,s.67].

Amma ingilis dilində sözdüzəldici şəkilçilər vasitəsilə düzələn bu sifətləri əsli sifətlərdən fərqləndirən bir sıra xüsusiyyətlər vardır . Bunlara sadalananları aid etmək olar: Onlar əsli sifətlərdən fərqli olaraq xüsusi suffikslər və prefikslər vasitəsilə düzəlir, dərəcə kateqoriyasına malik deyillər [s49-50]. Bir də belə sifətlərə əsli sifətlərdən fərqli olaraq *–ly* şəkilçisi əlavə etməklə zərf düzəltmək olmur. İngilis dilində həm sifət (*-ish)*, həm isim(*-ful*, *-less*, *-y, -al, -ic, -en, -ical* və s.), hətta isimdən və feldən sifət düzəltməklə əlamət bildirən, yaxud feldən sifət düzəltməklə hərəkətə meyllilik ifadə edən (*-able (ible))* suffikslər vardır.

Belə sifətlərə X. Hüsseyninin əsərlərində də rast gəlmək olur: *It happened on a damp, overcast day in the spring of 1959, she said, the twenty-sixth year of King Zahir Shah' s mostly uneventful forty-year reign* (A Thousand Splendid Suns) [s.11]. Bu cümlədəki *uneventful* sifəti *sakit, iğtişaşsız* mənası verərək, göründüyü kimi həm ön şəkilçisi (prefiks) *-un*, həm də suffiksin *-ful* köməyi ilə yaranaraq əlamət ifadə edir. Eləcə də yazıçının əsərlərində digər başqa düzəltmə şəkilçilərin vasitəsilə yaranan digər nisbi sifətlərə də rast gəlmək olur. Məsələn, *In 1933, the yearBaba was born and the year Zahir Shah began his forty-year reign of Afganistan, two brothers, young men from a wealthy and reputable family in Kabul, got behind the wheel of their farther's Ford roadster.* (The Kite Runner) [s.23].

Bu cümlədə *wealthy* sözü *–y* sözdüzəldici şəkilçisi ilə düzələrək, ana dilimizə *zəngin* kimi tərcümə edilir. Maraqlısı odur ki, artıq yuxarıda da qeyd etdiyimiz kimi bu sifət nisbi sifət olmasına baxmayaraq dərəcə kateqoriyasına malikdir. Belə ki, biz asanlıqla bu sifəti müqayisə dərəcəsi olaraq *wealthier (daha zəngin)* olaraq dəyişə bilərik. Eləcə də eyni sifət üstünlük dərəcəsinin şəkilcisini də qəbul edə bilir (*the wealthiest)*.

Sözdüzəldici şəkilçilər olmaqla *–ing* və *-ed* şəkilçilərinin də linqvistik xüsusiyyətləri çox maraqlıdı. Belə ki, *-ing* şəkilçisi ilə düzələn sifətlər əşyanın xarakterik xüsusiyyətılərini bildirirsə, *-ed* isə insana xas olan xüsusiyyəti bildirir. Məsələn, elə yazıçının əsərlərinə müraciət edək:

His face was still lean and handsome but not fair-skinned any longer; his brow had a weathered look to it, sunburned, like his neck, the brow of a traveler at the end of a long and wearying journey.(Thousand of splendid suns) [s.323]

Here was Baba and his best friend and business partner, Rahim Khan, standing outside our house, neither one smiling- I am a baby in that

photograph and Baba is holding me, looking tired and grim (The kite runner)[s.5]

Göründüyü kimi əgər ilk cümlədə *wearying (yorucu)* mənasını verərək əşyaya (səyahət) aid olaraq, onu xarakterizə edirsə, *tired* isə insana aid edilərək *yorğun görünmək* mənasını verir.

Ümumilikdə nəzər yetirsək, görə bilərik ki, Xalid Hüseyninin öz mövzu rəngarəngliyi və lüğət tərkibinin zənginliyi ilə diqqəti çəkən romanlarında nisbi sifətlərin sayı əsli sifətlərdən çoxluq təşkil edərək, hadisələri daha ətraflı təsvirinə şərait yaradaraq oxucunun marağına səbəb olur. Bu da ingilis dili öyrəncilərini öyrəndikləri xarici dili lüğətlərini araşdırmaqla, bu sifətləri əzbərləməklə onların lüğət ehtiyatlarının artmasına şərait yaradır.

Quruluşuna görə üçüncü yerdə duran və yaranmasıyla diqqəti çəkən digər sifətlər isə mürəkkəb sifətlərdir. Bu sifətlər adətən iki sözdən ibarət olur. Eyni zamanda **sifət+isim+ed** birləşməsi də mürəkkəb sifətlərə aiddir. Bəzən belə sifətlərin ya bitişik, ya da ayrı yazılan formalarına da rast gəlmək olur. Azərbaycan dilində olduğu kimi buradakı iki ayrı-ayrı söz əvvəlki məzmunların əsasında yeni məzmun ifadə edən bir söz kimi işlnir, hətta bunlar iki müxtəlif nitq hissəsindən əmələ gəldikdə belə, bir vurğu altında işlənir. İndi bu nümunələrə yazıçının əsərlərində nəzər yetirək:

In it, Mariam saw her own face first, the arcless, unshapely eyebrows, the flat hair, the eyes, mirthless green and set so closely together that one might mistake her for being cross-eyed (çəp gözlü)(Thousand of splendid suns)[s.53].

He was a stocky man, with a sharp, weather-roughened face.

Mürəkkəb sifətlərdən biri də iki sözdən ibarət olan və tərkibində əsasən rəng adların yer aldığı birləşmələrdir:

His nails were yellow-brown, like the inside of rotting apple (Thousand of splendid suns)[s. 53) (sarı-qəhvəyi) *Little yellow-and-black (sarı və qara) bumblebees dangled from a sunflower, and they crinkled and squeaked when squeezed.(Thousand of splendid suns)[s.288].*

Göründüyü kimi dünya şöhrətli yazıçı Xalid Hüseyni öz əsərlərində məharətlə nitq hissələrindən biri olan sifətlərdən geniş istifadə etmişdir. Bunu məqalədən verilən nümunələr bir daha sübut edir.

Ədəbiyyat

1. Müasir Azərbaycan dili.Morfolgiya. Bakı: Şərq-Qərb, 2007
2. Musayev O. İngilis dilinin qrammatikası. Maarif, 1996

Mənbələr

1. Khaled Hosseini. The Kite Runner. Bloomsbury, 2014
2. Khaled Hosseini. A Thousand Splendid Suns, Bloomsbury, 2014

С. Оруджева

О прилагательных использвенных в произведениях Халида Гусейни

Резюме

В данном статье рассматривается прилагательные в произведениях всемирное известного писателья Халида Гусейни. В результате расследования можно обнаружить что в произведениях, особенно в романах этого писателья он мог умело использовалть структурное разнобразное прилагательное.Использование этих прилагательных помогает сделать произведении еще более живом и интересном.

В этой статье перечислены некоторые прилагательные разных структуров. Даюшимся примерами можно легко видеть что романах производные прилагательные использиваеться больше чем простые. Такие прилагательные образуются с помощью различных словообразовательных суффиксов. В составе производных прилагательных есть суффикс или приставка.

Как уже мы знаем, по значению английские прилагательные делятся на два вида – качественные и относительные. Качественные прилагательные обозначают качества предмета прямо. В отличие от относительных, они могут быть выражены в большей или меньшей степени и поэтому имеют степени сравнения.

S.Orujova

About the adjectives used in the works of Khaled Hosseini

Summary

The information about the adjectives of the works of the world famous writer Khaled Hosseini is given in the article. As a result of the research it is found out that in his works, especially in the novels the writer could use different structural adjectives. The use of these adjectives can make the works more lively and interesting.

In the article there are adjectives of different forms. With the help of given examples it is easy to see that derivative adjectives are used more than simple ones. Such adjectives are formed with the help of different word forming suffixes. There are suffixes and prefixes in the content of derivative adjectives.

As we already know, English adjectives are classified into two types, for its meaning- Qualitative and relative ones. Qualitative adjectives mean quality of an object directly. In comparison from relative ones, they may be expressed to a greater or less level and that's why they have degrees of comparison.

Rəyçi: Xavər Hacıyeva
Filologiya üzrə fəlsəfə doktoru, dosent

SEVİL ƏLİYEVA
Filologiya üzrə fəlsəfə doktoru
ADNSU
sevil.aliyeva.72@mail.ru

TƏTBİQİ TERMİNOLOGİYANIN AKTUAL PROBLEMLƏRİ: TERMİNOLOJİ NORMA VƏ STANDARTLAR

Açar sözlər: terminologiya, tətbiqi dilçilik, norma, terminoloji standart, terminoloji sistem.
Ключевые слова: терминология, прикладная лингвистика, нормы, терминологический стандарт, терминологическая система.
Keywords: terminology, applied linguistics, norms, terminological standards, terminological system.

Müasir dövrdə terminologiyanın nəzəri problemləri ilə yanaşı aktual olan terminoloji standartların müəyyən olunması tətbiqi dilçiliyin problem məsələlərindəndir. Tətbiqi terminologiya terminlərin toplanması – terminoloji leksikoqrafiya, praktikada tətbiq olunan terminlərin xüsusi prinsip və meyarlar nəzərə alınmaqla qəbul olunmuş standarta uyğunlaşdırılması, termin və termin sistemlərinin unifikasiyası, terminlərin redaktəsi, terminlərin tərcüməsi, terminlərin verilənlər bazasının - termin bankının yaradılması kimi mühüm məsələləri əhatə edir. Praktik terminoloji fəaliyyət terminlərin optimallaşdırılması və normaya uyğunlaşdırılması kimi qarşılıqlı əlaqədə olan iki mühüm istiqaməti əhatə edir. Uyğun, anlayışı hərtərəfli əks etdirə bilən terminlər seçilir, bu variantlar normativ nəşrlərdə əksini taparaq sənəddə təsdiqini tapır.

XX əsrin sonlarında dünyada terminlərin müəyyən olunması ilə bağlı prinsiplər və onlar qarşısında qoyulan tələbləri əks etdirən 20 mindən artıq milli və beynəlxalq standart qeydə alınmışdır. Terminoloji standartlarda nəzərdə tutulan tələblərin əksəriyyətinə əməl olunması zəruri tələb olsa da, bəziləri tövsiyə xarakteri daşıyır. Bu məqamlarda dilin səciyyəvi xüsusiyyətləri də nəzərə alınmalıdır.

Terminologiya və konkret sahələr üzrə termin yaradıcılığı ilə bağlı məsələlərin tədqiqi həm dilin lüğət tərkibinin xüsusi sahəsi kimi, həm də müxtəlif elmi istiqamət və fəaliyyət sahələrinin işıqlandırılmasında mühüm göstərici kimi xüsusi aktuallıq kəsb edir. Elmin müxtəlif sahələri ilə bağlı ədəbiyyatda terminlər artıq leksik normada təsdiqini tapmış, qəbul olunmuş dil vahidi kimi işlənir, linqvistik tədqiqatlarda isə bu vahidlər həm dil vahidi kimi, həm də artıq praktikada tətbiqi ilə bağlı qarşıya çıxan məsələlərin həlli baxımından, dilin ümumi qanunlarına və normaya uyğunluğu baxımından

təhlil olunur, mümkün inkişaf perspektivləri araşdırılır. Terminologiyanın aid olduğu və fəal şəkildə istifadə olunduğu elm sahələrinin inkişafında xüsusi rol oynadığının, nəzəri baxımdan müəyyən elmi istiqamətlərin sonrakı inkişafına müəyyən qədər təkan və istiqamət verdiyinin, düzgün ifadə olunmuş terminin problemin tam açılmasına və hərtərəfli şəkildə əks olunmasına şərait yaratdığının artıq tədqiqatlar vasitəsilə təsdiqini tapdığını nəzərə alsaq, termin yaradıcılığında praktik məsələlərin diqqət mərkəzində saxlanmasının nə qədər zəruri olduğu meydana çıxar.

Qarşısında dayanan vəzifələri reallaşdırmağa qadir olan terminologiya, D.S. Lottenin də qeyd etdiyi kimi, "yalnız terminlərin siyahısını deyil, müəyyən elmi dünyagörüşünü əks etdirən anlayışlar sisteminin semioloji ifadəsini əks etdirməlidir" [1, 38]. Bütün bu tələblər terminyaratma prosesində insan amilinin – şüurlu müdaxilənin mühüm əhəmiyyət kəsb etdiyini bir daha təsdiq edir. Təcrübə göstərir ki, xüsusi standartlara uyğunlaşdırılmadan, mütəxəssis müdaxiləsi olmadan yaradılan terminlər praktikada həm ifadə, həm anlaşılma planında artıq vaxt itkisinə, anlaşılmazlığa, hətta səhvlərə gətirib çıxarır.

Terminlərin meydana çıxmasında mənbə rolu oynayan xüsusi leksik və qrammatik vasitələrin seçim meyarının hər bir dil üçün, eləcə də beynəlxalq səviyyədə terminyaratma üçün müəyyən olunması xüsusi standartların formalaşması ilə nəticələnir. Terminyaratma prosesində elmi-texniki tərəqqinin katalizator rolu oynadığını nəzərə alaraq demək olar ki, müxtəlif dillər üçün terminyaratma və ya "hazır" şəkildə mənimsəmə bu amillə birbaşa bağlıdır. Elmi-texniki tərəqqi bütün sahələrə yeni baxış və multidistiplinar yanaşmanın vacibliyini şərtləndirdiyindən yeni anlayış və realiləri meydana çıxması ilə terminoloji norma və standartlar da fərqli istiqamətin formalaşması ilə nəticələnir.

Termin yaradıcılığı ümumilikdə söz yaradıcılığı prosesində olduğu kimi, iki təzad təşkil edən prosesi əks etdirir: dilin inkişafında daxili qanunauyğunluqlara əsaslanan, canlı danışığın tələblərinə uyğunlaşan, təbii inkişaf, illərlə formalaşan qaydalar və möhkəmlənmiş sistemin tələbinə uyğun istiqamət və leksik normalaşma prosesində müasir tələblərə uyğunlaşma meyilləri. Bu prosesdə mövcud prinsip və qaydalardan asılı olaraq müxtəlif tarixi dövrlərdə fərqli tendensiyalar müşahidə olunur. Bəzi hallarda müxtəlif sahələrlə bağlı terminoloji leksikanın formalaşma xüsusiyyətləri ümumilikdə leksik səviyyədəki inkişaf və dəyişmələri üstələyir, fərqli inkişaf istiqaməti meydana çıxır. Elm və texnikanın inkişaf səviyyəsindən, qloballaşma dövründə beynəlxalq əlaqələrin sıxlaşmasından asılı olaraq bu tendensiyada da yüksəliş müşahidə olunur. Bu yanaşma termin yaradıcılığı prosesi qarşısında daha ciddi və ənənəvi qaydalardan fərqli tələblərin qoyulmasını aktuallaşdırır.

Termin statusu qazanan sözlərin təbiətində bu tələblərlə bağlı bəzən təzadların müşahidə olunması məhz onların daşımalı olduğu semantik yükün ağırlığı ilə bağlı olur. Terminlər həm dilin təbiətinə və funksiyalarına, həm də ünsiyyət prosesinin tələblərinə cavab verməklə yanaşı, zamanın nəbzini də tutmalıdır. XX əsrin ortalarında terminlərə ədəbi dilin lüğət tərkibinin "ətraf" çevrəsinə daxil olan söz qrupu kimi yanaşma meyili də onun özünəməxsus təbiətindən irəli gəlirdi. Hətta bəzi səciyyəvi xüsusiyyətləri terminlər barədə xüsusi – müstəqil elm sahəsi kimi danışmağın mümkünlüyü fikrinin formalaşmasına belə səbəb olmuşdu. Bir sıra dilçilər terminlər qarşısında qoyulan tələblərə ədəbi dil normasından kənara çıxma səbəbi kimi yanaşırdılar. Terminoloji norma anlayışı dilin müxtəlif yaruslarını və tətbiqi sahələrini əhatə etməsi ilə diqqəti cəlb edir. Bu anlayış orfoqrafik, orfoepik, leksik, qrammatik, frazeoloji və üslubi normaları, sözyaratma qanunauyğunluqlarını əhatə edir.

Ümumilikdə ədəbi dil normaları ilə terminlər qarşısında qoyulan tələbləri fərqləndirmək lazımdır. V.P. Danilenko terminologiya sahəsində normanın səciyyəvi xüsusiyyətlərindən danışarkən qeyd edir ki, "Termin yaradıcılığında ədəbi dilin ümumi qanunauyğunluqlarını əsas götürdükdə sözyaratmanın və sözün işlənmə xüsusiyyətlərinin terminologiya üçün səciyyəvi olan cəhətlərini diqqət mərkəzində saxlamaq lazımdır – məhz bu səbəbdən o (terminlər – S.Ə.), ədəbi dil normasının professional variantı kimi qiymətləndirilməlidir" [2, 32].

Dil norması və terminlər üçün nəzərdə tutulan standartlar xüsusi funksional əlamətlər də nəzərə alınmaqla termin yaradıcılığında mühüm məsələlərdəndir. Bu prinsiplər variant seçimində həlledici amil kimi çıxış edir. Dil sahəsində yeniliklər, eləcə də termin yaradıcılığı xüsusi funksional göstəricilərdən birbaşa asılıdır. Bundan başqa, terminlər dil daşıyıcıları tərəfindən də müqavimətə məruz qalır.

Terminologiya yalnız bir elm sahəsi ilə deyil, elmi təfəkkürün müxtəlif istiqamətlərinin əks olunduğu mürəkkəb anlayışlar sistemidir. "Anlayışlar sistemi xüsusi bilik sahəsi və ya fəaliyyət sisteminin məntiqi modelini, terminlər sistemi isə bu sahənin linqvistik modelini əks etdirir" [3, 20]**.** Termin yaradıcılığı prosesində bu anlayışlar sisteminin məna yükü, ifadə etdiyi incəliklərlə yanaşı, terminin praktik baxımdan istifadəyə yararlılıq dərəcəsi də nəzərə alınmalıdır. Terminlərin standartlaşdırılması və unifikasiyası şüurlu seçimə əsaslandığından və planlı şəkildə aparıldığından dilə insan amilinin təsiri daha qabarıq şəkildə özünü büruzə verir. Terminlər sistemi digər leksik vahidlərdən fərqli olaraq "süni" təbiəti ilə seçilir. Termin yaradıcılığında insan amilini – şüurlu müdaxilə və bu yanaşmadan doğan nəticəni nəzərə almaq zəruridir.

Leksik vahidlərin normalaşması prosesi təbii seçim əsasında baş verir, dil daşıyıcıları tərəfindən qəbul olunan vahidlər norma statusu qazanır.

Leksik layın bir hissəsini təşkil edən terminoloji vahidlərin normalaşma prosesində fərqli məqamlar diqqəti cəlb edir: ümumilikdə aid olduğu sistemdən fərqli olaraq, termin əvvəlcə norma kimi qəbul olunur – müəyyən lüğətdə qeydə alınır, daha sonra "seçim" mərhələsinə qədəm qoyur. Bəzi hallarda belə terminlərin sonrakı taleyi uğurlu olmur – istifadəçilər tərəfindən qəbul olunmayan vahidin əvəzinə daha uyğun hesab olunan variant təklif olunaraq işlədilir və möhkəmlənir. Məhz bu baxımdan ümumilikdə dil norması ilə terminoloji vahidlərin normalaşması modelində fərqli məqamlar müşahidə olunur.

Termin yaradıcılığı dildə həyatda baş verənlərə ən çevik reaksiyanın öz əksini tapdığı sahələrdəndir. Istənilən elm sahəsində meydana gələn yeniliklər bu anlayışları ifadə edən terminlərin yaranması ilə müşayiət olunur.

Terminlərin dinamik təbiətə malik olması onların mütəmadi olaraq nəzarətdə saxlanılması, uyğun olmayan terminlərin əvəzlənməsi imkanını verir. Məhz bu xüsusiyyət terminlərin nəinki konkret dillərdə, hətta müəyyən təşkilatların nəzarəti ilə beynəlxalq səviyyədə standartlaşdırılması və müzakirəsini, eləcə də ümumi tələblərin irəli sürülməsini mümkün edir. Bu isə davamlı olaraq elm və texnikanın inkişafı ilə müşayiət olunan yeniliklərin terminlərdə əks olunması, daha konkret variantların meydana çıxması ilə nəticələnir. Terminoloji standartlar təxminən hər beş ildə bir dəfə yenidən nəzərdən keçirilir.

Beynəlxalq terminlər sistemi və standartların müəyyən olunması və bu standartlara uyğunlaşma təqdirəlayiq məsələ olsa da, milli terminlər sisteminin yaradılması, milli terminoloji standartın təsdiq olunaraq işlək və praktik səviyyəyə gətirilməsi, tətbiq xüsusiyyətlərinin müəyyənləşməsi vacib məsələlərdəndir.

Termin yaradıcılığında müəyyən olunmuş, işlək prinsiplərin mövcudluğu, xüsusi tələblər sisteminin (vahidlik – təkmənalılıq, sistemlilik, qısalıq, derivativlik, linqvistik düzgünlük, millilik), terminin dəyərləndirilməsi ilə bağlı ölçülərin nəzərə alınması terminoloji normanın formalaşmasının başlıca şərtlərindəndir.

Standarta uyğun termin məntiqi-linqvistik tələblərə də cavab verməlidir. Təbii ki, bu tələblərin hamısına cavab verən terminlərin formalaşması çətin və xüsusi yanaşma tələb edən prosesdir.

Terminin standartlaşdırılması prosesində mühüm əhəmiyyət kəsb edən amillərdən biri də terminlərin işləklik və yayğınlıq dərəcəsidir. Dilçilikdə terminin statusu və səciyyəvi xüsusiyyətləri ilə bağlı mövcud iki başlıca istiqamətdən birinə görə, terminlər ədəbi dilin digər sözlərinə qarşı qoyularaq xüsusi söz qrupları kimi təqdim olunur: "Söhbət terminin leksik və ya sintaktik əlaqələrindən gedirsə, o söz kimi qəbul olunur, əgər anlayışla

əlaqəsi nəzərdə tutulursa, anlamı sözə qarşı qoyularaq ümumi mənadan fərqli, xüsusi anlayış kimi dərk olunur" [4, 83].

Terminləri xüsusi, məhdud mənaya malik olması ilə seçilən, əşyanın adı və ya anlayışın ifadə vasitəsi kimitəkmənalılığa meyil edən sözlər kimi səciyyələndirən A.A. Reformatskiyə görə, "elmdə, texnikada, siyasət və diplomatiyada bu vacibdir" [5, 115].

Ənənəvi olaraq, terminlər üçün müəyyən tələblər irəli sürülür, bu tələblər onları digər söz qruplarından fərqləndirir. Terminlər bir sıra tələblərə cavab verməli – subyektiv yanaşma və baxışdan, çoxmənalılıqdan uzaq olmalı, struktur baxımdan qeyri-müəyyənlik və anlaşılmazlıq yaratmamalıdır. Terminologiyada təkmənalılığın öz-özünə meydana çıxmadığını, terminoloji leksikanı yaradan və onun üzərində işləyən insanların əməyinin nəticəsi olduğunu qeyd edən D.S. Lottenin fikrincə, terminlər təkmənalılıq, konkretlik, sistematiklik, kontekstdən asılı olmamaq kimi bir sıra xüsusiyyətlərə malik olmalı və bu tələblərə mütləq cavab verməlidir [6, 88].

"Bütün terminlərin ortaq xüsusiyyəti gerçəkliyin əşya və hadisələrini ciddi şəkildə məntiqə söykənərək ifadə etməsidir" [7, 72] – yazan B.N.Qolovinin fikrincə, terminlərin əsaslı şəkildə tədqiqi onların qısalıq, təkmənalılıq və dəqiqlik kimi xüsusiyyətlərə malik olması iddiasını şübhə altında qoyur. Polisemiyanın təbii və qaçılmaz hadisə olduğunu yazan müəllif terminləri funksional prosesdə - mətndə öyrənməyin zəruri olduğunu vurğulayır [8, 15]. Termin nə qədər yüksək işlənmə dərəcəsinə və dil daşıyıcıları tərəfindən anlaşılmaya malikdirsə, dildə sabitləşərək möhkəmlənmə imkanları da o qədər çoxdur. D.S. Lotte termin qarşısında qoyulan tələblərdən danışmaqla (dəqiqlik, birmənalılıq, müəyyəlik, ekspressiv-emosional çalarların olmaması) əslində terminoloji normanın əsasını qoymuşdur. Terminyaratma prosesində bu funksiyanı yerinə yetirəcək sözün nəzərdə tutulan məna yükünü özündə birləşdirərək normaya çevrilməsi, yəni terminlərlə bağlı standartın tələblərinə cavab verməsi başlıca şərt hesab olunur.

Termin yaradıcılığı prosesi xüsusi modellər çərçivəsində reallaşdığından insan amilinin birbaşa müdaxiləsi bu prosesdə koqnitiv istiqamətin dildaxili qanunauyğunluqlarla tənzimlənən amili üstələməsinə səbəb olur. Bu modellər müəyyən xüsusiyyətlərinə görə ümumilikdə dil normasının formalaşması prosesi ilə uyğunluq təşkil etsə də, termin yaradıcılığına məxsus səciyyəvi mərhələ və keçidlərə malik olması ilə diqqəti cəlb edir. Norma anlayışı universal fəlsəfi kateqoriya olaraq obyektiv mövcudluğun bütün istiqamətlərini əhatə etdiyi kimi, öz qanunauyğunluqları ilə idarə olunan mürəkkəb sistemə malik dildən də yan keçmir, həm ümumilikdə dildə, həm də nitq prosesində xüsusi qaydalara əməl olunmasını nəzərdə tutur. Norma – dil vahidlərinin kodlaşdırılmasının nəticəsidir. Dildaxili amillərin, eləcə də sosial, etnik, psixoloji və bu kimi müxtəlif amillərin təsiri nəticəsində meydana çıxan və

dilin bütün yaruslarında müşahidə olunan variativlik pərakəndəlik və çaşqınlıq yarada biləcəyindən kodlaşdırma nəticəsində vahid, bütün dil daşıyıcıları tərəfindən əməl edilməsi vacib olan qaydalarla tənzimlənir. Dilin tarixən istifadə olunan və mövcud olan ənənələrinə əsaslanan kodlaşdırma məqsədyönlü fəaliyyət olmaqla, dilin tətbiqini asanlaşdırmağa xidmət edir. Bir tərəfdən dil sisteminə, digər tərəfdən dil praktikasına əsaslanan norma konservativ olmaqla yanaşı, dinamik səciyyə daşıyaraq dəyişkən xarakterə malik olması ilə də diqqəti cəlb edir – zaman keçdikcə bir dövr üçün norma hesab olunan variant digəri ilə əvəz oluna bilir. Normalaşma prosesi şüurlu yanaşma və aktiv müdaxilə ilə müşayiət olunduğundan linqvistik ədəbiyyatda "kodlaşdırma" və "normalaşma" terminləri bəzən sinonim kimi, bəzi hallarda isə biri digərinin tərkib hissəsi olaraq təqdim olunur: "Praktikada "normalaşma" ... adətən "standartlaşdırma" adlandırılır (sözün geniş mənasında dövlət standartının müəyyən olunması, terminoloji sistemin qaydaya salınması, rəsmi adlandırma və s.)" [9, 34]. Normalaşma prosesində dil faktı elmi baxımdan əsaslandırılmış şəkildə - müəyyən prinsiplər nəzərə alınmaqla "seçilir". Bu seçim, təbii ki, həm də spontan şəkildə, dildaxili qanunauyğunluqların nəticəsi kimi ortaya çıxır. Lakin şüurlu seçim zamanı diqqət mərkəzində saxlanılan xüsusi əlamət və göstəricilər mövcuddur ki, bunlardan dil vahidinin dilin strukturuna uyğunluğu, ünsiyyət prosesində yüksək tezliyə malik olması, ictimaiyyət tərəfindən qəbul olunması kimi amilləri göstərmək olar. Ortologiyanın tədqiqat obyekti olan norma və kodlaşdırma məsələləri dilin tətbiqi ilə bağlı problemlərdəndir və bu baxımdan bir çox cəhətlərinə görə terminoloji norma və standartlara tətbiq olunan prinsiplərlə ümumi və ortaq xüsusiyyətlərə malikdir.

Terminlərin unifikasiyası prosesi terminoloji vahidlərin sistemləşdirilməsində mühüm əhəmiyyətə malikdir. Unifikasiya və seçim nəticəsində terminlər sistemində hər bir terminin öz yeri olmaqla yanaşı, müəyyən mənada çoxmənalılıq və variantlılıq kimi terminoloji meyarları pozan halların qarşısı alınır. Sözsüz ki, bu prosesdə yalnız dilçiliyin deyil, məntiq, standartlaşdırma kimi elmi istiqamətlərin nailiyyətlərindən də istifadə olunur.

Artıq terminlərin yalnız milli standartlar üzrə deyil, beynəlxalq standartlara uyğunlaşdırılması ilə bağlı xüsusi tədbirlər həyata keçirilir. Beynəlmiləl səciyyəli terminlərin xüsusi qaydalara cavab verməsi və müxtəlif dillərdə uyğunlaşdırılması dilin digər tətbiqi məsələlərinin nəzərə alınması zərurətini meydana çıxarır. Bu baxımdan hər bir dil üçün işlək transliterasiya cədvəllərinin hazırlanması da dilin digər tətbiqi məsələlərinin həllində yardımçı element ola bilər. Bu zaman konkret dilin qanunauyğunluqları, dilin tipoloji quruluşu, fonetik qaydaları nəzərə alınmaqla bunların beynəlxalq standartlara uyğunluq dərəcəsi müəyyən olunmalıdır.

Termin yaradıcılığında xüsusi çəkisi ilə seçilən və ayrıca istiqamət olan tərcümə məsələləri də xüsusilə diqqət mərkəzində saxlanılmalıdır.

Alınma terminlərin dildə ümumi mədəni göstəricilərlə uyğunlaşması, termin səciyyəli leksikanın təhlilində bu funksiyanı yerinə yetirən frazeoloji birləşmələrin təbiətinin, adi leksik vahid və termin səciyyəli söz kimi frazeologizmlərin fərqli xüsusiyyətləri, yaranma şərtlərinin araşdırılması da terminşünaslığın tətbiqi problemlərindəndir. Terminlərin tərcüməsi prosesində ənənəvi terminyaratma modellərindən fərqli olaraq, bir sıra amillər – etnik, mental, psixoloji, sosial göstəricilər nəzərə alınmalı, terminin mənbə dildə ifadə etdiyi məna yükünün tərcümə prosesində saxlanma imkanları, qarşılığı olmayan – ekvivalentsiz terminlərin tərcüməsi – realilər məsələsi nəzərə alınmalıdır. Bəzən realilərlə bağlı terminlərin tərcüməsində terminlər qarşısında qoyulan tələb və prinsiplərin qorunması xüsusilə çətinlik yaradır, bu isə milli və beynəlxalq standartlara uyğunlaşma ilə bağlı müxtəlif problemlərin meydana çıxnmasına səbəb olur.

Terminin linqvistik baxımdan təhlili – dildə mövcud qanunlara cavab verməsi və funksional baxımdan məqsədəuyğunluğu nəzərə alınmaqla yanaşı, terminoloji leksikaya həm də terminlərin qiymətləndirilməsində tələb olunan kompleks baxış bucağından yanaşmaq lazımdır. Dildə terminlər sisteminin formalaşması və inkişafı ilə bağlı qanunauyğunluqları araşdıran terminologiya dilçiliklə yanaşı, informasiya nəzəriyyəsi, məntiq, elmşünaslıq, fəlsəfə kimi müxtəlif elm sahələrinin kəsişməsində formalaşan və onların tədqiqat istiqamətlərindənyararlanmaqla davamlı şəkildə inkişaf edən xüsusi sahədir. Dildə mövcud olan terminlər sistemi və bu sistemin arxasında dayanan xüsusi biliklərin strukturunun araşdırılması müasir terminşünaslıq qarşısında dayanan aktual məsələlərdəndir.

Son dövrlərdə terminşünaslıqda koqnitiv yanaşmanın geniş yayılması bir sıra məsələlərə yeni baxış bucağından yanaşmaq imkanı yaratmışdır. Termin və onun ifadə etdiyi anlayış arasındakı əlaqə, terminin koqnitiv mənasının ən azı nominativ məna qədər əhəmiyyətli olmasının nəzərdə saxlanılması, termin yaradıcılığına dinamik proses kimi yanaşma, istənilən sahə ilə bağlıtəfəkkür tərzinin istiqamət və meyillərininformalaşma xüsusiyyətləri, ənənə və mövcud dəyərlərin professional leksikanın formalaşmasına təsiri kimi xüsusiyyətlərin, terminlərin dərketmə və ünsiyyət prosesinin mürəkkəb qarşılıqlı təsirə malik prosesin nəticəsi olaraq səciyyələndirilməsi bu sahəyə koqnitiv yanaşmanın tətbiqi sayəsində mümkün ola bilər. Terminlərə ənənəvi olaraq yalnız elmi məzmun ifadə edən vahid kimi deyil, daxili məzmununda gündəlik həyatdan, təcrübədən doğan proses və anlayışların ifadə olunduğu və dildəki digər sözlər kimi ədəbi dilin bərabərhüquqlu "elementi" olaraq yanaşılması bu söz qruplarının ifadə imkanlarını müəyyən etməyə şərait yaratmaqla yanaşı, elmin həyatın bütün sahələrinə nüfuz etdiyi müasir qloballaşma dövrünün tələbləri ilə ayaqlaşmaq baxımından da məqsədəuyğundur. Ümumiyyətlə koqnitiv dilçilikdə olduğu kimi, koqnitiv terminşünaslıqda da antro-

posentrizm aparıcı metodoloji prinsip kimi qəbul olunur. Bu metodun tələbinə əsasən, terminlər ayrılıqda götürülmüş, təcrid olunmuş şəkildə deyil, insanın professional həyatında, fəaliyyətində, təfəkküründə rolu nəzərə alınmaqla tədqiq olunur. Bu tipli araşdırmalarda terminlər istifadə olunduğu diskursun səciyyəsindən asılı olaraq təhlil olunur. Belə yanaşma terminlərin geniş mədəni kontekstdə araşdırılmasına şərait yaradır. S.V.Qrinyovun qeyd etdiyi kimi, terminlərin koqnitiv baxımdan araşdırılması "yalnız elmi təfəkkürün inkişaf xüsusiyyətlərini deyil, ... həm də bütövlükdə insan sivilizasiyası və mədəniyyətinin inkişaf yollarını öyrənmək" imkanı yaradır [10, 33].

Müasir terminşünaslıq yalnız dil vahidinin – terminin təsviri planda təqdim olunması və ya lüğətlərdə əks olunması ilə kifayətlənmir, onların elmi istiqamətlə bağlı poliparadiqmal xüsusiyyətlərinin izah olunması ilə bağlı araşdırmalara üstünlük verir. Terminlərə fərqli yanaşma onların adi-ümumişlək sözlərdən abstraktlaşma və məntiqi yük baxımından fərqli tərəflərini müəyyən etməyə imkan verir. Bu məntiqdən yanaşdıqda elmin müasir inkişaf səviyyəsində koqnitivterminşünaslığın inkişafı təbii görünür. Müxtəlif elmlərin nailiyyətlərindən bəhrələnməklə terminşünaslıq müasir qloballaşma dövründə insanların dəyişən koqnitiv-kommunikativ tələblərinə uyğun olaraq termin yaradıcılığı sahəsində müşahidə olunan proseslərin inkişaf meyillərini müəyyən etmək imkanı verir. Termin seçimində dil vahidinin daşıdığı məna yükünün "əhatəsi" nəzərə alınmalı, nəzərdə tutulan mənanı ifadə etmə imkanları, mövcud tələb, norma və qaydalara uyğunluq dərəcəsi nəzərə alınmalıdır.

Ədəbiyyat

1. Лотте Д.С. Как работать над терминологией: Основы и методы. М., 1968.
2. Даниленко В.П. Лингвистическиетребования к стандартизуемой терминологии // Терминология и норма (О языке терминологических стандартов). М., 1972, с. 5-32.
3. Лейчик В. М. Применение системного подхода для анализа терминосистем // Терминоведение и профессиональная лингводидактика. –Вып. 1. – М., 1993. – С. 19–30.)
4. Суперанская А.В., Подольская Н.В., Васильева Н.В. Общаятерминология: Вопросытеории. − М.: Наука, 1989. – 246 с.
5. Реформатский А.А. Введение в языковедение. − М.: АспектПресс, 2008. – 536 с.).
6. Лотте Д.С. Основы построения научно-технической терминологии // Вопросы теории и методики. – М.: Изд-во АН СССР, 1961. – 160 с., s. 88

7. Головин Б.Н. Введение в языкознание. − Москва: Высшаяшкола, 1983. − 232 с
8. Головин Б.Н. Роль терминологии в научном и учебном общении // Термин и слово. – Горький: Изд-во ГГУ им. Н.И.Лобачевского, 1979. – С.14-23.)
9. Скворцов Л.И. Теоретические основы культуры речи. С. 34. М., 1980
10. Гринев, С. В. Терминоведение на пороге третьего тысячелетия // Научно-техническая терминология. М., 2000. Вып. 1. С. 31–34.

S.G. Aliyeva

Actual problems of applied terminology: terminological norms and standards

Summary

This article covers terminological norms and standards being one of the actual problems of applied terminology. At present, determination of terminological standards, as well as theoretical problems of terms, is one of the main problems in applied linguistics. Collection of terms, terminological lexicography, unification of terms and term systems, editing of terms, translation of terms, forming term database can be considered the principle characteristics and standards in applied terminology. However, practical terminology covers two main broad trends: optimization of terms and meeting the standards. Although the majority of requirements taken into consideration in terminological standards are very important, some of them advisable character. In this case, one must consider specific characteristics of the language. In scientific literature, terms are investigated as language units and analyzed in accordance with norms and language rules. Since terminology plays an important role in the development of scientific branches, it gives impetus and direction to the theoretical development of certain scientific trends. In the formation of terms, it is very important to take into consideration practical issues as the "scope" of the burden of the language, the ability to express the intended meaning, and the degree of compliance with existing requirements, norms and rules.

Севиль Алиева

Актуальные проблемы прикладной терминологии: терминологические нормы и стандарты

Резюме

В этой статье рассматривается терминологические нормы и стандарты которые являются одной из актуальных проблем прикладной терминологии. В настоящее время определение терминологических стандартов, а также теоретических проблем терминов является одной из основных проблем прикладной лингвистики. Сбор терминов, терминологическая лексикография, унификация терминов и терминальных систем, редактирование терминов, перевод терминов, формирование базы терминов могут считатся основными характеристиками и стандартами в прикладной терминологии. Однако практическая терминология охватывает две основные широкие направления: оптимизация терминов и соответствие стандартам. Хотя большинство требований, принятых во внимание в терминологических стандартах очень важны, а некоторые из них являются целесообразными. В этом случае необходимо учитывать специфические характеристики языка. В научной литературе термины исследуются как языковые единицы и анализируются в соответствии с нормами и языковыми правилами. Поскольку терминология играет важную роль в развитии научных отраслей, она дает импульс и направление к теоретическому развитию определенных научных направлений. При формировании терминов очень важно учитывать практические вопросы как «объем» бремени языка, способность выражать смысл и степень соответствия существующим требованиям, нормам и правилам.

Rəyçi: Rəhimə Məmmədova
Filologiya üzrə fəlsəfə doktoru, dosent

ФАРАХ МАМЕДОВА
Доктор философии по филологическим наукам
E- mail: mamedova_farah86@mail.ru
Бакинский государственный университет

НАСТОЯЩЕЕ И ПРОШЕДШЕЕ ВРЕМЯ В СОВРЕМЕННОМ АНГЛИЙСКОМ ЯЗЫКЕ

Ключевые слова: настоящее время, современный, действие, значения, форма, язык, актуальный, привычки, выражение, употребление
Açar sözlər: İndiki zaman, müasir, hərəkət, məna, forma, dil, aktual, vərdiş, ifadə, istifadə.
Key words: Present Simple, modern, action, meaning, form, langauge, actual, habits, expression, using

В современном английском языке временных форм гораздо больше, чем в современном русском языке. Так, в английском языке имеется 4 формы настоящего времени: the Present Indefinite, the Present Continuous, the Present Perfect, the Present Perfect Continuous.

Значения в The Present Indefinite (Simple) соотносятся с неактуальным настоящим в русском языке.

1. *Present Simple* употребляется, когда ***сообщают о привычках*** или *обычаях.*

- The Muslims do not eat pork. - Мусульмане не едят свинину.
- My father never wears a tie. — Мой отец (никогда) не носит галстук.

2. Present Simple употребляется, когда ***действие*** или ***умение имеет характеристику:***

- My sister swims very well. — Моя сестра очень хорошо плавает.
- Our teacher speaks good English. - Наша учительница хорошо говорит по- английски.
- My brother east too many sweets. - Мой брат ест слишком много конфет.

3. *Present Simple* употребляется, когда о человеке ***сообщаются*** какие- либо ***сведения:***

- Tom lives in London. - Том живет в Лондоне.
- He works in a restaurant and collects butterflies. - Он работает в ресторане и коллекционирует бабочек.
- Ann studies at Harvard. - Анн учится в Гарварде.

4. *Present Simple* употребляется в тех случаях, когда выражается

мнение, отношении: ,

- I love you! - Я тебя люблю!
- I hate cold. - Я ненавижу холод.
- I don't like jazz. - Я не люблю джаз.

5. Present Simple употребляется, если ***сообщающей объективные*** или ***общеизвестные факты:***

- The sun sets in the west. - Солнце садится на западе.
- There are about 300 children in the school. - В школе учится 300 человек.
- It's hot today. - Сегодня жарко.
- This car belongs to our neighbours. - Эта машина принадлежит нашим соседям. = Эго машина наших соседей.

В основном значения в The Present continuous соотносимы со значениями актуального настоящего в русском языке и обозначают действие в настоящем .совершающееся в момент речи.

1. *Present Continuous* употрсбляться для обозначения ***действии, происходящего в момент речи,*** при этом могут употребляться или подразумеваться слова *now. at the moment, currently, still.*

сейчас



- Из песни: We **are sailing**, **We are sailing**... - Мы идем под парусами...
- Be quiet! I **am talking** on the phone. - Потише, пожалуйста! Я говорю по телефону.
- Hurry up! We **are** all **waiting** for you! - Побыстрее, пожалуйста. Все тебя ждут!
- - Whan **is** he **doing** ? - Что он (сейчас) делает?
- -He **is watching** television - Он смотрит телевизор.

2. *Present Continuous* может употребляться для обозначения ***процесса*** или - ***временного состояния,*** имеющего ***характеристику:***

- He is **not playing** well today. - Сегодня он играет плохо.
- The children **are growing up** *fast.* - Дети растут быстро.
- The car **is not working** *property.* - Машина работает плохо.

3. Present Continuous может ***выражать процесс*** или ***ситуацию, ограниченную во времени:***

- My brother **is saving** money for a bike. - Мой брат (сейчас) копит деньги на велосипед.
- I **am learning** to drive.- Я (сейчас) учусь водить машину.

• My father **is working now** at our embassy in Paris. Мой отец сейчас работает в нашем посольстве в Париже.

• What is your daughter **going these days**? - Чем сейчас занимается ваша дочь?

• She **is looking for** a new job.= Она сейчас ищет новую работу.

4. Если говорят об ***изучении*** какого-либо ***предмета*** в школе или университете, то обычно употребляют *Present Continuous:*

• I'**m studying** English. - Я изучаю английский.

• She'**s studying** law at Harward. - Я изучаю право в Гарварде.

В этом случае изучение учебного предмета рассматривается как процесс, офаниченный во времени.

5. *Present Continuous* употребляется ***для описания поведения, характера*** или ***привычек*** человека, при этом часто употребляются слова *always* и constantly:

• My sister **is** *always* **helping** someone. - Моя сестра вечно кому-ни будь помогает.

• My brother **is** *always* **telling** funny stories. - Мой брат всегда рассказывает смешные истории.

• Зачастую в этих предложениях звучит критика, самокритика или раздражение:

• I **am** always **losing** my keys . Я вечно теряю свои ключи.

• Our teacher **is** *constantly* **complaining.** - Наша учительница пост-оя-нно жалуется.

The Present Perfect, как правило переводится па русский язык формами прошедшего времени, при этом имеется в виду действие, уже совершившееся к моменту речи, но имеющее связь с настоящим.

1. *Present Perfect* употребляется ***при определении присутствии*** или ***отсутствия*** человека в каком-то месте, при этом часто употребляются *слова: recently, just, today, already, yet. so far, this week, this month, this year:*

• Max has recently arrived from Paris. — Макс недавно приехал из Парижа.

• Он здесь.

• Is Tom at home? - Том дома?

• No, he has just gone to the stadium. - Нет, он только что ушел на стадион.

• - Have you seen Lena? - Вы Лену не видели? / Ты Лену не видел(а)?

• No, I haven't seen her today. - Нет, я ее сейчас не видел(а).

• The school is empty. - В школе никого нет.

- Everybody has gone home. - Все ушли домой.
- - Has Natasha come yet? - Наташа уже пришла?
- Yes, she has already arrived. - Да, она уже пришла.
- Max hasn't arrived yet. - Макс еще не вернулся / не пришел / не приехал.
- They dodn't live here any more. - Они тут больше не живут.
- They have moved into a new apartment. - Они переехали на другую

2. *Present Perfect* у потребляется, когда ***результат*** какого-либо действия ***очевиден*** или он ***подчеркивается*** говорящим:

- Look! **Our** neighbours **have bought** a new car. - Смотри, наши соседи купили новую машину.
- Look! They **have just got married.** - Смотри, они только что поженились.
- Look! They **taxi has already arrived.** - Смотри, такси уже пришло!
- All the quests have arrived. They are sitting in the garden. Все гости приехали.
- Они сидят в саду.
- - Are they still having lunch? - Они все еще обедают.
- - No, **they've just finished.** - Нет, они уже закончили (только что).
- Don't buy the tickets. **I've bought** them. — Не надо покупать билеты. Я уже их купил (а).
- **I've just baked** an apple pie. Would you like a piece.? - Я только что яблочный пирог. Хочешь кусочек?
- Someone **has switched** on the TV. - Кто-то выключил гелевизор (слышу).
- С глаголами ***begin, start, finish***:
- The match has started. - Матч начался. (Он идет).

3. ***Present Perfect*** употребляется ***для обозначения событии*** или ***действий, имеющих важные последствия.*** Последствия эти могут быть как приятные, гак и неприятные:

- Please have gone up. - Цены выросли. (Все стало дороже).
- I **have lost** my purse. - Я потеряла кошелек. (А в нем были все мои деньги).
- My sister **has broken** all the cups. - Моя сестра разбила все чашки. (Теперь не из чего пить).
- The company **has gone** bankrupt. - Эта компания **обанкротилась.**
- (Сотрудники остались без работы).

4. *Present Perfect* употребляется ***для обозначения результата*** **каких-либо** ***сложных*** или ***длительных усилий*** или ***отсутствия*** **такого** *результата* при этом часто > потребляются слова ***cu lust, today*** и ***finally***:

- **I have passed** my exams at last. - Я наконец сдал все экзамены.
- "Spartak" has won today. - «Спартак» сегодня выиграл.
- I **have finally finished** this work. - Я наконец закончил эту работу.
- I **haven't passed** my driving test. - Мне не удалось сдать экзамен на (водительские) права.

5. Present Perfect употребляется *при объяснении причины* какого-либо явления:

- - You've got a nice tan, Natasha! - Наташа, у тебя такой хороший загар!

- I**'ve been to** the Crimea. - Я была в Крыму.

- - You hair looks nice! - У тебя хорошая прическа!

- I **have just been to** the hairdresser's. - ***Я*** только что ходила в парикмахерскую.

6. *Present Perfect активно* ***используется в языке средств массовой информации.***

- The prime Minister **has said**... - - Премьер-министр сказал, что...
- The strikes have started in Wales. В Уэльсе начались забастовки.

7. *Present Perfect* употребляется, когда *сообщают* о каких-то достижениях, *результатах, опыте***.** при этом могу т использоваться слова *a lot, once, twice, several times, before:*

- My friend **has traveled a lot.** - Мой друг много путешествовал,
- He **has been** to England twice. - Он дважды ездил в Англию.
- Hy **has** also **been** to Egypt. - Он был и в Египте.
- He **has ridden** a camel there. - Он там катался на **верблюде.**
- She **has won** Wimbledon **several times. - Ей несколько раз удавалось выигать** Уимблдонский турнир.
- I have seen this picture **before.** - Я видела эту картину раньше.

8. *Present Perfect* также употребляется, **когда в предложении** сообщается о каком-то опыте, оценке этого опыта и при этом ***используются следующие выражения:***

this / that / it / is **the first** / **second** / **third** / **fourth time ...**

this / that / it / is the best / worst / finest / most interesting ...

Примеры:

- This is the first time I've heard this song. - Я впервые услышал эту песню.

• That's the third time you've done this mistake. - Ты уже третий раз делаешь эту ошибку.

• He is **the most interesting** person I**'ve ever met. -** Он самый интересный человек из тех, с кем довелось встречаться.

9. *Present Perfect* употребляется, когда *выясняют наличие* какого-либо *опыта, достижений,* при этом часто употребляются слова *ever* и *before:*

• **Have** you **ever tasted** kvas**? -** Ты когда-нибудь пробовал(а) квас?

• **Have** you **ever been** to Siberia? **-** Ты когда-нибудь бывал(а) в Сибири? / Вы когда-нибудь бывали в Сибири.

• **Have** you **ever been** to England **before? -** Ты когда-нибудь раньше бывал(а) в Англии? / Вы когда-нибудь ездили в Англию?

• **Have** you **seen** this film **before. -** Ты раньше видел этот фильм?

• **Have** you **seen the** Kremlin? **-** А ты видел(а) Кремль? / А вы видели Кремль?

10. *Present Perfect* употребляется, когда сообщают о том**,** *что не удалось / не довелось сделать, не удалось / не пришлось где-то побывать,* при этом ммч реблякчеи слова *never, so far, before:*

• He has **never flown** on an airplane. -Он никогда **не летел на самолете.**

• I've **never travelled** abroad. – Я никогда не **бывал (а) за границей.**

• **She hasn't been** to Lngland **so far.** - Она пока еще не бывала в Англии.

• **She hasn't** done it **so far. -** Ей пока не удалось этого сделать.


• I've **never** been here **before .-** Я никогда здесь раньше не бывал.

11. Present Perfect употребляется, ***для обозначения действии*** или ***состояния, начавшегося в прошлом и длящегося по настоящее время***, при : этом употребляются слова *for, since, always*, а также вопрос с *How long? Значения соотносится с актуальным настоящим в русском языке.*

• My grandmother **has had** this umbrella **for 50 years. -** Моя бабушка иол» этим зонтиком уже 50 лет.

•

Графически это выглядит так:



пользовалась и пользуется Еще несколько примеров:

- I’**ve been** here **since morning**. - Я сижу тут с утра.
- We’ve been friends **since school**. - Мы дружим со школы.
- I **have not seen** him **for a long time**. - Я давно его не видел.
- I’**ve always loved** dogs. - Я всегда любил собак (и люблю их до сих пор).
- **How long have** you **worked** here? - Вы здесь давно работаете?
- I **have lived** here **all my life.** - Я живу тут всю свою жизнь.

The Present Perfect Continuous обозначают действие, начавшееся в прошлом и продолжающееся до момента речи, как бы подводя итог их длительности.

В основном значения их соотносимы со значениями актуально го настоящего в русском языке.

How long have you been studying Spanish ? (Сколько времени ты учишь испанский язык?)

How long have you been waiting? (Вы давно ждете?)

I have been living here all my life (Я живу тут всю мою жизнь

Литература

1. Грамматика русского языка, ч . I ,М., “Наука” 1980 г.с 25-45
2. И.П.Крылова, Е.В.Крылова, М, “Просвещение”Грамматика английского языка, 1986, с 63-75
3. А.Чехов, рассказы (Москва, 1976) с 24-84
4. Современная газетная периодика (Известия)

F. Məmmədova

Müasir ingilis dilində Indiki və keçmiş zamanlar

Xülasə

Müasir ingilis dilində zaman formaları müasir Rus dili ilə müqayisədə daha çoxdur. Beləliklə, ingilis dilində İndik zamanın 4 forması mövcuddur: Müasir İngilis dilində İndiki zamanın 4 zaman forması var. İndiki zaman, İndiki davamedici, İndiki Bitmiş, İndiki bitmiş davamedici zaman. Məqalə müasir ingilis dilində Indiki və keçmiş zamanlar formasından behs edir.

Həmin zaman formaları müxtəlif məna çalarlarını özündə cəmləşdirir. Rus dili ilə müqayisədə İngilis dilində zaman formaları eynən indiki zaman da olduğu kimi keçmiş zaman da fərqlənir.

Keçmiş zaman, keçmiş davamedici, keçmiş bitmiş, keçmiş bitmiş davam edici. Fe'llərin semantik mənası kompleks və müxtəlif olmaqla yanaşı zamanlar kateqoriyası ilə əlaqəli olmuşdur. Bu məqalə də nümunələr məhz həm rus həm də ingilis dillərində qarşılıqlı olaraq verilmişdir.

F.Memedova

Present and past tense in modern English

Summary

In modern English, the time forms are much larger than in modern Russian. So, in English there are 4 forms of the present time: the Present Indefinite, the Present Continuous, the Present Perfect, the Present Perfect Continuous. Present and past tense in modern English.

The semantics meaning of verbs, both in the present and in the past, is complex and diverse. Being connected with the category of the form. The present forms can express the actual present, correlated with the real moment of speech. The quantitative terms express both the permanent action and the abstract, all these values are timeless in nature.

Many cases of portable use forms of the present tense. İn English there are 4 forms of the Past time: the Past Indefinite, the Past Continuous, the Past Perfect, the Past Perfect Continuous. In this article there are a lot of samples comparing the Present and Past simple both in Russian and English

Rəyçi: **Bella Musayeva**
Filologiya üzrə elmlər doktoru, profeesor

MİNAXANIM HACIYEVA
Filologiya üzrə fəlsəfə doktoru
ADU
lehrerin81@mail.ru

KONSEPTUAL SISTEM VƏ ONUN DAŞIYICILARI

Açar sözlər: konseptual sistem, koqnitiv baza, koqnitiv inqilab, universal predmet kodu (U.P.K.), translyator
Keywords: conceptual system, cognitive base, cognitive revolution, universal subject code, compiler
Ключевые слова: концептуальная система, когнитивная база, когнитивная революция, универсальный предметный код, транслятор

Müasir dilçiliyin inkişafı ilə əlaqədar dil artıq birmənalı şəkildə nəzərdən keçirilmir. Tədqiqatlarda o, yeni paradiqmlar daxilində, əsasən, iştirakçıların tutduğu mövqe, danışıq fəaliyyəti, mental reprezentasiya baxımından araşdırılır. Danışıq fəaliyyəti idraki və kommunikativ tələbatdan doğan fikirlərin ifadəsi və qəbulu prosesidir. Bu, ünsiyyət iştirakçısına doğru yönəlmiş aktiv, məqsədyönlü təsirdir. Danışıq fəaliyyətinin tərkib hissələrindən biri olan dil millətin mədəniyyətini əks etdirən verbal vasitədir. Nəzərə çatdırmaq lazımdır ki, yalnız dili bilməklə bu vacib vəzifəni icra etmək mümkün deyil. Dil və onun qaydaları kommunikasiya prosesində aparıcı rola malik olsalar da, fəaliyyətin tam icrası üçün yetərli hesab olunmur, çünki danışıq təkcə qrammatik qaydalar və ya leksik tərkib hesabına başa gəlmir. Məsələn, elə L.V.Şerba "Глокая куздра штеко будланула бокра и курдачит бокренка" ifadəsi ilə hansısa dildə danışmaq üçün qrammatik qaydaların, düzgün sintaqmların, leksik zənginliyin yetərsizliyini sübut etmişdir (6:74). "Qrammatika məna sferasına düşmək üçün üzərindən tullanılan tramplindir" (6). Qrammatika, leksika, sintaqmatika məhz danışığın semantikasına xidmət edir. Ünsiyyət zamanı isə ön plana həmin bu qaydalarla idarə olunan formadan çox məzmun çəkilir. Hətta körpəlikdən müəyyən dil biliklərinə yiyələnən insan bu unikal səriştəni qrammatik qaydaları bilmədən belə, gerçəkləşdirir. Lakin həyat fəaliyyətinin sonrakı dövrlərində dil-nitq dixotomiyasının qarşılıqlı təsiri təkzibedilməz bir fakt kimi özünü aydın şəkildə büruzə verir. Ayrı-ayrılıqda dil və danışıq oppozisiyası tamamilə bir-birindən asılı olmayan, məxsusi parametrlərlə təqdim olunsa da, nəticədə ümumi danışıq fəaliyyətinin ayrılmaz vahidləri hesab olunur. "Dil və danışığın ayrılmaz vəhdət təşkil etməsi insanın koqnitiv-kommunikativ fəaliyyətində müəyyən olunur" (6). Burada koqnitiv-kommunikativ vəhdət ayrılmaz bir bütövü xatırladır. N.İ.Jinkin öz izahatında danışığa qədər olan yolu belə işıqlandırmışdı: "Dil ilə danışıq mürəkkəb

strukturlu, bir-birili ilə əlaqədar informatik sistem kimi nəzərdən keçirilməlidir.... İntellektdən dil sahəsinə, danışığa, yəni mənanın kodlaşdığı yerə yol gedir. Dil intellektdən reallığa olan yolu nizama salır... intellekt isə dillə danışığı idarə edir" (6). Koqnitiv baza vasitəsilə avtomatik şəkildə öz vəzifəsini icra edən intellekt əyaniləşərək, qarşılıqlı ünsiyyət prosesinin tam strukturunu yaratmış olur. Burada koqnitiv əhatədə həyata keçirilən hər bir təhlilin nəticəsi dilin köməyilə kodlaşdırılır.

R.O.Yakobson dil-danışıq oppozisiyasını kod-mesaj qarşılaşdırması kimi izah etmişdi. Ünsiyyət prosesində kodlaşmanın köməyilə informasiya daşıyıcıları mesajları lazımi ünvanlarına çatdırır. Əyaniləşmiş kod intellekt ilə nitqin qovuşduğu yerdir. Mesaj kodun məhsulu və ya reallığı deyil, kodlaşma mesajın bir koddan digər koda ötürülməsidir. Resipientin bu kodu alıb dekodlaşdırması isə ünsiyyət prosesinin sonrakı gedişatı üçün ilkin mərhələlər qədər vacib hesab olunur. Klassik psixologiyada mövcud obyektin təhlili prosesi qavrama adlanır. Bu prosesdə qavrama təfəkkür və yaddaş ilə birgə fəaliyyət göstərir. Bu prosesin düzgün gedişatı psixologiyada "perseptiv-minemik-fikir prosesi" kimi qiymətləndirilir. Danışıq qədər danışığın qəbulu da göründüyü kimi asan proses deyil. N.İ.Jinkin qəbul prosesini də maraqlı şəkildə izah etmişdir: "insanın sözü tanıması və deyiləni anlaması mürəkkəb informasiya prosesinin sonuncu mərhələsidir" (6:93). Burada xüsusi obraz yaddaşı vardır. O, formalaşır, yığılır və qəbul sahəsinə yeni informasiya daşıyıcı olan obyekt düşdüyü zaman ortaya çıxır. Deməli, qəbuletmə özü həm obyektdən, həm də uzunmüddətli yaddaşdan asılı olur. Bu kodlaşma - dekodlaşma sayəsində isə həyat hərəkətdə olur. İstər informasiyaların ötürülməsi, istərsə də qəbulu prosesi koqnitiv strukturun əsas göstəriciləridir. Hər iki prosesdə mövcud olan konseptual sistem subyektlərin fərdiliyinə əsaslanaraq, özünü fərqli tərzdə nümayiş etdirir.

Böyük filosof V.fon Humboldtun da vurğuladığı kimi, dil insan ruhunun əsas fəaliyyətidir və o, özündə insanin məişətini və düşüncəsini əks etdirir. Məhz dil insani düşüncə və ağıl barədə tam təsəvvür yarada bilir. "...dili əşyaların mənasını göstərmək və ya ünsiyyət vasitəsi kimi funksiya ilə məhdudlaşdırmaq yetərli deyil, böyük diqqətlə onun daxili vəziyyəti ilə fəaliyyəti arasındakı qarşılıqlı təsir prosesini də nəzərə almaq lazımdır" (5:90). Burada dünya görüşü, sosial mühit, elmi biliklər, ümumi maraqlar kimi bir sıra amillər xüsusilə vacibdir. İnsanın mental qabiliyyəti ilə bağlı olan hər bir göstərici isə dilin koqnitiv funksiyası sayəsində həyata keçir. Bu baxımdan dilin malik olduğu funksiyalar arasında koqnitiv funksiya böyük əhəmiyyət kəsb edir. Koqnitiv funksiya insanın mental qabiliyyəti ilə bağlı olan sahədə baş verir. Bu funksiya işə düşdüyü zaman insanların bilikləri üzə çıxır, çünki dil şüurun real praktikasıdır (9:29). Bu funksiya sayəsində konkret, məqsədyönlü danışıq aktları reallaşır və həmin danışıq aktları

vasitəsilə qarşılıqlı anlaşma prosesi baş tutur. İnsanın koqnitiv qabiliyyəti dildə əks olunur və bu da yalnız biliklər sayəsində formalaşdırılır. Bir növ dilin koqnitiv funksiyası insanın daxili dünyasını, intellekt və zehnini hərtərəfli şəkildə əks etdirir (12). "Danışan insan elə düşünən insandır." B.Y.Normanın bu iddiasına görə koqnitiv funksiya kommunikativ funksiya ilə sıx bağlıdır (11). Bunlara nəzərən demək olar ki, koqnitiv tərəfin araşdırılması ünsiyyətin əsas meyarlarının tədqiqi deməkdir. Bu koqnitiv göstəricilərin araşdırılıb üzə çıxarılması isə koqnitiv nəzəriyyənin qarşısına qoyulan məqsədlərdən biridir. Danışıq vasitəsilə meydana çıxan koqnitiv kodların oxunması isə beynin meyarlarının aşkarlanması deməkdir. Əvvəllər insan intellekti, düşüncənin qanunauyğunluqları ilə məntiq, fəlsəfə, fiziologiya, psixologiya kimi elmlər məşğul olurdu. Hətta fəlsəfədə idraki nəzəriyyə ilə məşğul olub, qnoseologiya kimi adlanan xüsusi bölmə də vardır. Lakin bütün bu sahələrin mövcudluğuna baxmayaraq, koqnitiv dilçilik sanki bu kimi problemlərin araşdırılmasında öz yeni dəsti-xətini nümayiş etdirdi. Ç. Müller koqnitivliyin yaranma tarixini 1950-ci ildə informasiya nəzəriyyəsi simpoziumu ilə əlaqələndirir. Həmin dövrlərdə belə bir fikir formalaşdı ki, insanın intellektual prosesləri "insani düşüncənin universal qaydaları" ilə əlaqələndirilə bilməz (10:22), çünki insan əksər intellektual tapşırıqları vakuumda və ya ağ vərəqdə deyil, mövcud biliklərə əsaslanaraq yerinə yetirir. Koqnitivistlərin ideyalarına görə, insan qəbul etdiyi danışıq aktlarını öz koqnisiyasında mövcud olan informasiya çoxluğuna uyğunlaşdırır və beləcə yeni mənalar yaratmış olur. Koqnitivizmdə insan informasiyanı emaledici bir sistem kimi, insani davranış isə insanın daxili vəziyyətinin təsviri və izahı kimi nəzərdən keçirilir. Qəbul və istehsal prosesi, ifadələrin ötürülməsi, emalı, yadda saxlanması və s. bu kimi hadisələrdə mərkəzi rol dilə məxsus olduğu üçün koqnitivistlər üçün o, araşdırma dairəsinin mərkəzi nöqtəsinə çevrilmişdi. Beləlilkə, insan koqnisiyasının tədqiqinə xidmət edən hər bir vahid ön plana çıxarıldı və "koqnitiv inqilab"ın yaranmasına təkan oldu (C.Bruner, C.Müller, J.Piaje, Q.Saymon və b.). Məşhur linqvist N. Xomskiy koqnitiv inqilabı insani davranışda beyin, şüur və düşüncənin vəziyyəti ilə əlaqələndirmişdi. Ümumilikdə biliklər və informasiyalarla bağlı olan proseslər koqnitivlik və ya koqnisiya adlanır. Koqnitivistikada əsasən insan koqnisiyası, mental reprezentasiyası, strategiyası və s. bu kimi hallara xüsusi diqqət ayrılır. Koqnitiv linqvistika koqnitivizmin bir hissəsidir. Onun obyekti insani şüur, düşüncə, mental proseslər və bunlarla bağlı olan vəziyyətlərdir. Biliklərlə bağlı olan informasiyalar çoxluğu isə koqnitiv və ya intelektual biliklər kimi adlandırılır. Koqnitivizmin əsas prinsipi fəaliyyətdə olan insanın vəziyyətinə görə müəyyənləşir. Bu əsasən informasiyaların istehsalı, qəbulu prosesində düşünmə fəaliyyətinə uyğun olaraq sxemlərin, proqramların, planların, strategiyaların yaranması ilə əlaqədardır.

Koqnitiv nəzəriyyə sahəsindəki tədqiqatlar göstərir ki, bu sahə öz ampulasında bir neçə istiqaməti birləşdirir: koqnitiv psixologiya, mədəni antropologiya, süni intellekt, fəlsəfi neyrologiya, linqvistika və s. Ümumilikdə koqnitologiyanın predmeti insan biliyinin təşkili və funksionallaşmasıdır. Bu isə süni intellekt adı kimi tanınan mühəndislik sahəsinin inkişafı nəticəsində daha da qloballaşdı. Əsasən koqnitiv linqvistika öz mənbəyini koqnitiv psixologiyadan götürmüş və bu səbəbdən sıx-sıx onun məvhumlarından istifadə etmişdir (konseptuallıq, koqnitiuv modellər və s.). Bundan əlavə koqnitiv linqvistikanın başqa sahələrdən də götürdüyü bir sıra terminlər də mövcuddur: bilik, düşüncə, konseptual sistem, koqnisiya, koqnitiv baza, mental reprezentasiya, dünya görüşü, milli-mədəni əhatə və s. Bir sıra məvhumlar da var ki, onlar koqnitiv linqvistika üçün vacib əhəmiyyətə malikdir. Məsələn, düşüncə - beyin tərəfindən təşkil olunur. Düşüncənin nəticəsi isə fikirdir. Düşüncə informasiyaların alınması, emalı və təşkili üsuludur; Bilik - insanın ictimai əlaqələrindəki, düşünmə fəaliyyətindəki məhsuludur; Dərketmənin struktur elementləri isə hiss, emosiya, yaddaş, düşünmə və digər fenomenlərdir. Bu struktur daxilində yaddaşın mövqeyi xüsusi əlamətlərlə fərqlənir. Yaddaşın funksional fəaliyyəti isə bir sıra operativ vahidlər vasitəsilə xarakterizə olunur:

Freymlər (stereotip situasiyalar);

Konseptlər (sözlərdən tutulmuş bütün mənaların cəmi);

Geştaltlar (dünya fraqmentləri) və s.

Yaddaşın xarakteristikası ilə bağlı İ.A. Zimnyayanın verdiyi fikirlər bu baxımdan xüsusilə diqqət cəlb edir: "Yaddaş əsas nitq mexanizmlərindən biridir. O, insanın intellektual fəaliyyətinin ümumfunksional mexanizmidir... Yaddaş yadda saxlamanı, yadda saxlanılanın qorunmasını, insanın keçmiş təcrübəsi nəticəsində qazandıqlarının yenidən bərpasını və istifadəsini özündə birləşdirən mürəkkəb psixi prosesdir... İnformasiya qəbulunda anlamanın adekvatlığı və dərinliyi informasiyanı qəbul edən şəxsin yaddaşındakı biliklərin tamlığından, sistemliliyindən və struktur cəhətlərindən asılıdır. İnformasiyanı verən zaman isə yaddaş söyləmin leksik rəngarəngliyini, məzmun dərinliyini və çoxplanlı olmasını təmin edir" (7). Bu cür mexanizmin işə düşməsi isə freym, konsept, geştalt kimi vahidlərin sayəsində həyata keçir. Bunlar sanki yaddaşın köməkçiləri rolunu icra edirlər. Həmin operativ vahidlər hər hansı bir faktın xatırlana bilməsi üçün özlərinə həvalə olunmuş vəzifələri yerinə yetirirlər. Nəyisə xatırlamaqda çətinlik çəkən şəxs əksər zamanlar gözlərinin önündə lazımi situasiyanı və ya hər hansı bir fraqmenti canlandırmaqla yaddaşında olan informasiyanı əldə edə bilir. Koqnitiv linqvistikada yaddaş xüsusi konseptlər vasitəsilə idarə olunur. XX əsrin sonlarına yaxın linqvistlər belə bir bir fikir irəli sürdülər ki, dil daşıyıcısı eyni zamanda konseptual sistemin daşıyıcısı da hesab olunur. Həmin bu

konseptual sistem dünya tablosunu təsvir edir. Bu isə hər bir şəxsin dünyanı özünəməxsus tərzdə dərk etdiyi konseptual təsəvvürlərə bənzəyir. Hər bir kəsdə mövcud olan ilkin konseptlər digər konseptlərin yaranmasına şərait yaradır. Bəzən konsepti leksik mənayla eyniləşdirirlər. Lakin əslində konsept leksik mənadan daha genişdir. Konsept bir növ sözlər və gerçəkliklər arasında əlaqə rolunu oynayır. Onlar xalq yaddaşının daşıyıcılarıdır. Konsept mürəkkəb struktura malikdir. Bir tərəfdən bu, anlamla bağlı olan hər bir şeyi özündə ehtiva edir, digər tərəfdən isə mədəniyyətlə əlaqəli olub, etimoloji faktları əks etdirir. Koqnitiv linqvistikanın konseptlərlə bağlı olan hissəsi dünya görüşü ilə əlaqələndirilir. İnsan təcrübələrə yiyələndikcə, əldə etdiklərini məntiqi şəkildə müəyyən konseptlərlə çalaşdırır və nəticədə dünya görüşünə əsaslanan konseptual sistemi yaradır. Dünya görüşü insan düşüncəsinin reallığıdır. İnsan düşüncəsində xarici aləmin hadisə və predmetləri daxili təsəvvür formasında olur. A.N.Leontyevə görə, təsəvvür edilmiş dünya perseptiv tablo deyil, qəbul olunmuşların emalı nəticəsində yaranmış obrazdır (8). Hər bir yeni informasiya subyektdə mövcud olan struktura uyğun yerləşdirilir. Belə desək, dünyanın obrazı subyektin fəaliyyətini tənzimləyir. Hər bir subyektdə eyni dünya biliyi fərqli şəkildə təzahür edir. Fərqli təzahür formaları ilə seçilən dünya görüşünün formalaşmasına isə bir sıra amillər təsir edir: dil, adət-ənənə, təbiət, landşaftlar, tərbiyə, təhsil və s. Lakin mürəkkəb xarakterə malik olan bu mexanizm gündəlik həyatımızda sadə bir prosesi xatırladır. Danışan nəyi isə düşünür, daha sonra səslər vasitəsilə düşündüyünün bir qismini ifadə edir. Lakin bu ifadələr vasitəsilə yerinə yetirilən hərəkətlər sözün əsl mənasında, dünyanı idarə edir, Ünsiyyət prosesinin baş tutması iki və ya daha çox subyekt arasında mümkündür. Danışanın göndərdiyi informasiya resipient tərəfindən eşidilir və dərk edilir. Bu proses kodlaşma-dekodlaşma nəticəsində və müəyyən vacib şərtlərin mövcudluğu şəraitində baş tutur. Bu mürəkkəb sistem N.J.Jinkinin verdiyi universal predmet kod vasitəsilə idarə olunur. Bəs U.P.K. nədir? Burada daxili nitq işlənir ki, o da hərfi və səsli siqnallar və təsəvvürlərdən keçmiş sensorlara əsasən daxili kontroldan xaricə keçirilir (6). Bu zaman ilk öncə məlumat daxili nitqdən işarəvi koda çevrilir. Bununla da mətn, yəni denotat yaranır. N.İ.Jinkin danışıqda universal predmet kodu (U.P.K.) dil vahidlərinin ierarxiyası hesab edir. Onun fikrinə əsasən, bu U.P.K.-nin ümumi forması belədir: nədən danışmaq- obyekt, onun haqqında nə danışmaq-məzmun, niyə danışmaq-motiv, kimə danışmaq-istiqamət, son məqam- nəticə. Danışığın mexanizmini təhlil edərək, o, semantik inteqrasiyanın birinci mərhələsini söz formalarının yaranışı, ikinci mərhələsini sözlərin birləşdirmə üsulu, yəni konstruksiya, üçüncünü isə ifadənin mənası adlandırırdı. Beləliklə, qrammatik qaydalar leksikaya tətbiq edilərək, U.P.K.-nın köməkliyi ilə mənaya malik olur. Jinkinə görə, insan fikrini ifadə edərkən, fonem, heca, söz, cümlə kifayət etmir. Bura səs

tonunun qalxıb-düşməsi, qışqırıq, pıçıltı, intonasiya, mimika və jestlər də əlavə edilməlidir. Bu baxımdan konseptlər də həmin universal predmet kodun vahidləri ilə kodlaşırlar. Konsept təsəvvür kimi yaranır və tədricən hissi obrazdan düşünülmüş obraza çevrilir (10: 60). Məsələn, soyuq obrazı "qorxu" konseptinə əsaslanır. Ona görə də rus dilində qorxu ilə bağlı ifadələr bu cür səslənir: дрожать от страхи, мороз по коже продирает, дрожь пробегает по спине və s. Konseptlər düzüm baxımından "sıralı" olur:

əsas (aktual) əlamət;

əlavə (passiv, tarixi) əlamət;

daxili forma (13:21)

Əsas əlamət- mədəniyyət daşıyıcılarının hər birinə məlumdur;

Əlavə əlamət-ayrı-ayrı subyektlərin mədəniyyəti ilə bağlıdır;

Daxili forma- əksər mədəniyyət daşıyıcıları üçün konseptin bir hissəsi sayılmır, yalnız onun mədəni elementlərini müəyyənləşdirici xarakterə malikdir.

Əsasən konseptlərin ierarxiq düzülüşü ilə idarə olunan koqnitiv baza eksplisit və implisit informasiyaların mübadiləsində özünü fərqli şəkildə təzahür etdirir. Xüsusilə dilin implisit tərəfi insan xarakterinin ən sirli xüsusiyyətlərindən biri kimi götürülür. Bu həm də linqvistik olmayan məzmunun ekonomik təsvir vasitəsidir. Bu dixotomiya dil ilə düşüncə arasında baş vermiş bağlılıq sayəsində meydana gəlir. İlk dəfə implisit proseslərlə bağlı fikirlərə qərb psixologiyasında rast gəlinmişdir. 1954-ci ildə C.S.Bruner və R.Taqiuri implisit nəzəriyyə fikrini irəli sürmüş, daha sonralar isə bu nəzəriyyə işlənib genişləndirilmişdir. Son dövrlərdə çox maraqlı empirik fikirlər irəli sürülmüş, sosial davranış gah implisitlik, gah da şüuraltı köklərlə əlaqələndirilmişdir.

Hər hansı bir mətn implisitlik üçün xüsusi koqnitiv baza yaradır. Dinləyici həmin koqnitiv bazadan verilmiş informasiyaların təhlili prosesində istifadə edir. Bütün deyilmiş ifadələrdə informativ xarakter daşıyan və açar rolunu oynayan leksik vahidlər olur. Bunlar leksik vahidlərin invariantlarıdır. Bu tip leksik vahid rolunda çıxış edən elementlərdən bəziləri tamamlayıcı-implisit informasiya daşıyıcılarıdır. Məsələn, Berlin-Almaniyanın paytaxtı, II dünya müharibəsinin əsas mərkəzlərindən olub.

Tamamlayıcı informasiyalar dəqiqlləşdirici informasiyalardan fərqlənir. Belə informasiyalar artıq mətnin digər vahidlərində implisit olaraq verilmiş vahidlərdir. Deməli dəqiqləşdirici informasiyalar resipient üçün heç bir yenilik daşımır. Məsələn, professor Kamal Abdullanın "Diçiliyə səyahət" kitabında iki qəhrəmanın, Əhməd və Zalxanın adı çəkilsə də, müəllif həmişə onların adını çəkərkən, səyahətinin əsas qəhrəmanları olduğunu dəqiqləşdirir (1).

Bunlardan əlavə təkrar informasiya kimi verilmiş vahidlərərə də rast gəlmək mümkündür. Belə leksik vahidlər çox vaxt siyasətçilərin, natiqlərin ifadələrində daha sıx istifadə olunur. Bu lazımi informasiyanın gücünün artırılmasına xidmət edir. Məsələn, müsahbələrinin birində ulu öndər H.Əliyev belə bir

fikir söyləmişdi: "Mən ümumiyyətcə sülhsevər adamam. İstəyirəm həmişə insanlar arasında sülh olsun." Bu nitqdə ötürülmüş təkrar informasiya sayəsində göndərilmiş mesaj xüsusilə vurğulanır və diqqət cəlb edir.

Nəhayət hər bir mətndə "0" informasiyalar daşıyan leksik vahidlərə də rast gəlinir. Bunlar ünsiyyət prosesinin "neytral zonası" kimi qeyd olunur. Bu kimi vahidlər qabaqcadan hazırlanmamış şifahi nitqdə özünü daha qabarıq göstərir. Belə danışıq formalarına əsasən adi salamlaşma dialoqunda rast olunur. Bu kimi "neytral zona"ya malik measjlar xüsusi intensiya və illokutiv gücə malik olmur. Onlar sadəcə dilin fatik funksiyasını möhkəmləndirmək üçün gərəkli olan prosedurdur.

Hər bir implisit informasiyanın kommunikativ komponentlər içərisində mənbəyi olur. Bunlardan bəzilərinə misal semantik presuppozisiya, konvensional implikatur, propozisiya və s. kimi elementləri göstərmək olar. Psixoloji nöqteyi-nəzərdən implisit və eksplisit informasiyalar şüurda özünü fərqli tərzdə göstərir. Şüurlu formada nəyinsə yadda saxlanılması eksplisit yaddaşda, qeyri-şüuri yadda saxlama isə implisit yaddaşda özünə yer edir. İnsan əksər zamanlar bəzi informasiyaları məqsədyönlü şəkildə yadda saxlamaq məcburiyyətində olur. Biz bu kimi informasiyaları eksplisit yaddaşımıza toplayıb, mütəmadi ondan istifadə edirik. Bu yaddaş deklarativ yaddaş kimi də adlandırılır. Onun köməyilə şüurlu şəkildə nə isə xatırlana və ya izah edilə bilir. İmplisit yaddaş isə eksplisit yaddaşın funksiyalarından fərqlidir. Bu yaddaş forması həm qeyri-ixtiyari, həm də əvvəlcədən planlaşdırılmamış formada olan yaddaşdır. Məsələn, topa vurulan zərbə, tosterə çörəklərin yığılması və s. Biz bunu şüurlu olaraq xatırlamırıq, sadəcə götürüb edirik. Bu yaddaş insan davranışına ən çox təsir edən növdür. Jinkinin də qeyd etdiyi kimi, daxili nitq standart qrammatik qaydalara və leksik əlifbalara belə malik deyil. Bu, danışan tərəfindən tanınan subyektiv dildir. Bu dil vasitəçidir. Daha doğrusu, vacib translyatordur. İmplisit yaddaşla ortaya çıxan fikirlər öz növbəsində implisit xarakter daşıyır və daha sonra mövcud implisit yaddaşa uyğun olaraq dekodlaşdırıla bilir. Əgər bu dixotomiya bir tərəfdən hər bir dilin rəngarəngliyi, gözəlliyidirsə, digər tərəfdən kommunikativ anlaşılmazlığı yaradan amil də hesab olunur. Bu baxmdan həm implisit, həm də eksplisit yaddaş koqnitiv bazanın inteqrasiyaedici faktorlarıdır. Hər iki indiqatorun vasitəsilə müəyyən informasiyalar həm kodlaşdırıla, həm də dekodlaşdırıla bilir. Bu yaddaş elementlərinin sayəsində dövriyyəyə girən konseptual sistem özünü ötürülmüş mesajlarda aşkar şəkildə təzahür etdirir.

Ədəbiyyat sıyahısı:

1. Abdulla K. Dilçiliyə səyahət. Dilçi olmayanlar üçün dilçilik. Bakı, 2010.
2. Məmmədov A. Dilçiliyin müasir problemləri. Bakı, 2006.

3. Məmmədov A., Məmmədov M. Diskurs təhlilinin koqnitiv perspektivləri. Bakı: Çaşıoğlu, 2010.
4. Veysəlli F.Y. Koqnitiv dilçilik: əsas anlayışları və perspektivləri. Studia Philologica.VII. Bakı, 2015.
5. Гумбольдт В. О различении строения человеческих языков и его влиянии на духовное развитие человеческого рода // Звегинцев В.А. История языкознания XIX-XX вв. в очерках и извлечениях. Ч. 1. М.: Просвещение, 1964.
6. Жинкин Н.И. Речь как проводник информации. М.: Наука, 1982.
7. Зимняя И.А. Психология обучения иностранном языкам в школе. М. 1991.
8. Леонтьев А.А. Язык, речь, речевая деятельность. М., 1969.
9. Маркс К., Энгельс Ф. Сочинения. Т.3. 1846.
10. Маслов Ю.С. Введение в языкознание. М., 1975.
11. Норман Б.Ю. Основы языкознания. Минск, 1996.
12. Словарь социолингвистических терминов. М.: Российская академия наук. Институт языкознания. Ответственный редактор: доктор филологических наук В.Ю. Михальченко. 2006
13. Степанов Ю.С. Константы. Словарь русской культуры. М., 1997.

M.Hadshiyeva

Conceptual system and its carriers

Summary

Speech activity is one of the components of human behavior. This complex process is made possible by the use of linguistic units on both sides. In general, encoding and decoding of information is realized on the basis of existing language functions. Cognitive function plays a special role in these processes. Cognition is subjective in nature. That's why these roles are based on the conceptual system of each. Concepts are based on individual associations. Concepts are based on individual associations and are present in the form of images.

From this point of view, concepts are transformed into images in accordance with the units of the universal subject code.

The main features of the conceptual system can be clearly seen in implicit forms of speech acts.

М.Гаджиева

Концептуальная система и ее носители

Резюме

Речевая деятельность является одним из компонентов человеческого поведения. Этот сложный процесс становится возможным благодаря использованию языковых единиц с обеих сторон. В общем, кодирование и декодирование информации реализуется на основе существующих языковых функций. Когнитивная функция играет особую роль в этих процессах. Когнитивность имеет субъективный характер.

Вот почему эти роли основаны на концептуальной системе каждого. Концепции основаны на индивидуальных ассоциации и присутствуют в виде изображения.

С этой точки зрения концепции преобразуются в образы в соответствии с единицами универсального предметного кода. Основные особенности концептуальной системы могут быть четко видны в неявных формах речевых актов.

Rəyçi: **Seyfəl Həsənov**
Filologiya üzrə elmlər doktoru, professor

.

NİGAR AĞAYEVA
Bakı Slavyan Universiteti
nigaraghayeva09@gmail.com

İNGİLİS DİLİNDƏ ALINMA FRAZEOLOJİ BİRLƏŞMƏLƏR

Açar sözlər: ingilis dili, Azərbaycan dili, frazeologiya, frazeoloji birləşmələr, alınma sözlər.
Ключевые слова: английский язык, азербайджанский язык, фразеология, фразеологические единицы, заимствование.
Key words: the English language, the Azerbaijan language, phraseology, phraseological units, loan words.

Dildə işlənən sözlər kimi, bütövlükdə bir məna ifadə edən sabit birləşmələr də dilin zənginləşməsində böyük rol oynayır. Bəzən müəyyən fikrin ifadəsi üçün tək bit sözdən deyil, vəhdət təşkil etmiş sözlər qrupundan istifadə olunur. Dildəki sabit söz birləşmələri, ifadə və ibarələrdən bəhs edən dilçilik şöbəsi frazeologiya adlanır. Frazeologiyanın məqsədi frazeoloji vahidlərin dildə mövqeyini müəyyənləşdirmək, onların müvafiq prinsiplərə əsasən təsnifini vermək, üslubi xüsusiyyətlərini aydınlaşdırmaq, yaranma və inkişaf yollarını aşkar etməkdən ibarətdir. [234]

Frazeologizmlər müəyyən ictimai mühitin, bu və ya başqa dövrün məhsulu olub, dilin daşıyıcılarının həyat və məişət şəraitinin dəyişməsi ilə əlaqədar olaraq dəyişir, təkmilləşir, sabitləşir, və nəhayət yaddaşda möhkəm kök salır. Hər bir dildə, o cümlədən xarici dillərdə lazımi səviyyədə danışmaqdan ötrü, dilin başqa aspektləri ilə yanaşı, onun frazeoloji tərkibini də mükəmməl bilmək lazımdır.

Fikrin ifadəsində nitqin tərkib hissəsini təşkil edən iki və daha artıq sözlərin birləşməsindən ibarət olub, komponentləri sintaktik və semantik cəhətdən parçalanmayan, quruluşca sərbəst sərbəst söz birləşmələrinə oxşayan dildə hazır şəkildə mövcud olan konstruksiyalara frazeologizmlər deyilir. Frazologizmlərin ayrı-ayrı dillərdə yeri və mövqeyinin, daxili məna quruluşunun və xarici strukturunun müəyyənləşdirilməsi, tərcümə olunma imkanlarının öyrənilməsi, işlənmə xüsusiyyətlərinin və istifadə edilmə sahələrinin təhlili nəzəri və praktik cəhətdən aktuallığa malikdir.

Başqa dillərdən alınma frazologizmlər ingilis dilində böyük rol oynayır. Müasir dövrümüzdə elə bir dil yoxdur ki, onun lüğət tərkibində alinma frazeologizmlərə rast gəlinməsin. Bir dildən başqa bir dilə keçən, müxtəlif xalqların bir-biri ilə sıx əlaqəsi, əmək fəaliyyəti, elm və incəsənətin inkişafı nəticəsində əmələ gələn frazeologizmlər beynəlxalq frazeologizmlər

adlanır. İngilis dilinin frazeologizmləri sırasına fransız, ispan, italyan, alman, ərəb, çin dillərəndən alınmış frazeologizmlər də daxildir.

İngilis dilindəki bəzi frazeologizmlər latın dilindən fransız dilinə, fransız dilindən də ingilis dilinə keçən frazeologizmlərdir. Məsələn: Homer sometimes nods "hər kəs səhv edə bilər", "səhvsiz insan yoxdur"; at the Greak Calends "heç vaxt"; to pass under the yoke "məğlubiyyətlə barışmaq"; a word is enough to the wise "arifə bir işarə" .

Fransız yazıçılarının əsərlərinin bir çoxu ingilis dilinə tərcümə olunmuşdur. Onlara misal olaraq Fransua Rable, Jan Batist Moler, Latonten və başqalarının əsərlərini göstərmək olar ki, bu əsərlərdəki frazeologizmlərin bir qismi ingilis dilinin lüğət fonduna daxil olmuşdur. Fransız dilindən alınan frazeologizmlər: to burn the candle at both ends "ömrünü puç etmək"; to cultivate one's garden "öz işi ilə məşğul olmaq"; to leap to the eye "diqqəti özünə cəlb etmək"; let us return to our muttons "söhbətimizə qayıdaq"; place of arms "müharibə meydanı", "əməliyyat meydanı"; to pull the devil by the tail "ehtiyac içində olmaq", "yoxsulluq çəkmək", "ağır vəziyyətdə olmaq"; pure and simple "ümumiyyətlə", "şübhəsiz", "əlbəttə"; castles in Spain "xam xəyal".

İngilis dilindəki frazeologizmlərin bəziləri qədim fransız dilindən götürülmüşdür. Məsələn: to cry havoc " dağıtmaq", "güclü zərbə endirmək", to curry favour with somebody "yaltaqlanmaq", a bird in the hand is worth two in the bush " soğan olsun nağd olsun", look not a gift horse in the mouth "bəy verən atın dişinə baxmazlar".

Alman dilindən ingilis dilinin lüğət tərkibinə daxil olmuş frazeologizmlər: speech is silvern, silence is golden "danışmaq gümüşdürsə susmaq qızıldır"; storm and stress " iztirablı günlər"; between hammer and anvil "od ilə su arasında", the mailed fist "hərbi güc"; storm and stress " gərginlik". Holland dilindən alınmış frazeologizm: Forlorn hope "son ümid". Çin dilindən alınma frazeologizm: to lose face "etibarını itirmək" , "nüfuzunu itirmək".

Müasir ingilis dilində yalnız bir neçə ispan dilindən alınmış frazeologizmlər var. Məsələn: the fifth column "beşinci kolon", "düşmənin gizli köməkçiləri"(bu frazeologizm İspaniyada vətəndaş müharibəsi dovründə yaranmışdır. Madridi azad edən faşist Mola əhaliyə onun şəhərdə beş kolonunun, yəni beş gizli köməkçi dəstələrinin olduğunu bildirmişdi), war to the knife "yaşamaq üçün deyil, ölüm üçün mübarizə"(bu frazeologizm qubernator Saraqosun fransızların təslim olma tələbinə Palafoksun verdiyi cavab ilə bağlı yaranmışdır) Migel de Servantesin əsərlərindən tərcümə olunmuş bəzi frazeologizmlər də ingilis dilinin frazeolgizmlər sırasına daxil olmuşdur.

Ərəb bədii ədəbiyyatından alınmış frazeologizmlər, əsasən, "Min bir gecə" nağıllarından tercümə edilmiş frazeologizmlərdir. Məsələn: Alladin's lamp "Ələddinin sehirli çırağı". Bu nağıldan rub the lamp "arzularını

asanlıqla həyata keçirmək" frazeologizmi ingilis dilinin lüğət tərkibinə daxil olmuşdur.

Alnaschar`s dream "boş xəyallar", "boş arzular" (Alnaşar bütün pullarını şüşədən olan mallara sərf edir, onları bir səbətə yığır və ümid edir ki, bir gün varlanacaq. Lakin Alnaşeri öz gələcək arvadına hirsləndiyi zaman bu səbətə əli ilə zərbə endirir və səbətdəki bütün şüşələr qırılır); The old man of the sea "zəhlətökən insan", "əlçəkməyən insan" (dəniz səyyahı Sindibad heç cürə öz yaxasını bir qocadan qurtara bilmirdi); An open Sesand "bir şeyi əldə etməyin asan və tez yolu" ("Əli baba və qırx quldur" nağılında istifadə olunan bu sehirli söz vasitəsi ilə quldurların mağarasının qapısını açmaq mümkün idi). [57]

İngilis frazeologizmlərinin çoxu İngiltərəyə ABŞ-dan gətirilmişdir. Bunların sırasına aşağıdakı frazeologizmləri aid etmək olar: bread-and-butter letter "təşəkkür məktubu", cut no ice "əhəmiyyət olmamaq; a hard row to hoe "çətin tapşırıq", "çətin iş"; in the soup "çətin vəziyyətdə"; to make a monkey out of somebody "bir kəsi ələ salmaq"; to make the fur fly "səs-küy salmaq","dava salmaq"; on the level "vicdanlı", "namuslu"; spill the beans "ağızdan qaçırtmaq", "sirri vermək"; strike oil "uğur qazanmaq"; to take back seat "çəkinmək", "gözdən itmək"; have a good time "yaxşı vaxt keçirmək"; you bet! "əmin olun"; do one's level best "əlindən gələni etmək"; fly off the handle "özündən çıxmaq", "hirslənmək"; paddle one's own canoe "öz yolu ilə getmək", "heç kimdən asılı olmamaq".

İngilis dili frazeologizmlərinin müəyyən bir qismini ingilis ədəbiyyatından götürülmüş frazeologizmlər təşkil edir. Onların əksəriyyəti görkəmli yazıçı V.Şekspirin əsərlərindən alınmış frazeologizmlərdir. Yazıçı öz əsərlərində bədii məqsəddən asılı olaraq həm ümumxalq dilinə məxsus olan frazeologizmlər, həm də bir sıra hallarda sonralar ingilis ədəbi dilində özünə möhkəm yer tutmuş obrazlı ifadələr, frazeoloji birləşmələr yaratmışdır. Ingilis dilində geniş yayılmış bu frazeologizmlər şekspirizmlər adlandırılır. Onlara misal olaraq aşağıdakı frazeologizmləri göstərmək olar:

"Macbeth"; To make assurance double sure "daha etibarlı olmaq üçün" ;the milk of human kindness "mərhəmət"; to screw one`s courage to the sticking place "cəsarət etmək", "ürəklənmək"; at one feel swoop "bir dəqiqədə"; pride of place " lovğalıq"; to cudgel one`s brains "baş sındırmaq".

"Hamlet"; The observed of all observers "diqqət mərkəzi"; to do yeoman service "vaxtında yardım göstərmək"; to shuffle off (this mortal cail) "fani dünyanı tərk etmək", "ölmək" germane to the matter "mətləbə keçin"; a towering passion "qəzəb"; in the mind`s eye " xəyalən"; to the top of one`s bent "doyunca", "ürəyin istədiyi qədər".

"Othello"; The green-eyed monster "qısqanclıq"; the seam side "xoşagəlməyən tərəf", "bir şeyin iç üzü"; to wear one`s heart upon one`s sleeve "öz hisslərini göstərmək", (~ ürəyiaçıq); the pity of it! "çox heyf! ".

"King Henry IV"; The wish is father to the thought "arzudan istək doğar"; to eat one out of house and home "bir kəsin hesabına yaşamaqla onu iflasa uğratmaq".

İstifadə olunmuş ədəbiyyat:

1. Babayev A. Dilçiliyə giriş. Bakı, 1992. S. 234
2. Bayramov H. Azərbaycan dili frazeologiyasının əsasları. Bakı, 1978. s. 5-6
3. Babayev A. Dilçiliyə giriş. Bakı, 1992 s.77
4. Vəliyeva N. Azərbaycanca-ingiliscə- rusca frazeoloji lüğət. Bakı, 2006.
5. Амосова Н. Н. Основы английской фразеологии. Л.,1963
6. Arnold İ. V. The engilish word. M-L., 1966
7. Кунин А. В. Фразеология современного английского языка, М.,1972. 57

Н.Агаева

Заимствования фразеологических единиц

Резюме

В статье рассматриваются заимствования фразеологических единиц с других языков, которые используются на английском языке. Словарь языка обогащен не только словами, но и фразеологическими единицами. Фразеологические единицы - это группы слов, которые невозможно сделать в процессе речи, они существуют на языке как готовые единицы. Они составлены в специальных словарях. Точно так же, как слова фразеологические единицы выражают единое понятие и используются в предложении одной его части. Фразеологические единицы играют значительную роль в словаре языка. Рассмотрение происхождения фразеологических единиц способствует лучшему пониманию фразеологического значения. Согласно их происхождению, все фразеологические единицы можно разделить на две большие группы: родные и заимствованные. Заимствованные фразы становятся неотъемлемой частью ежедневного дискурса с нюансами образных коннотаций и выражают мир мыслей ораторов, когда они его воспринимают. В повседневном дискурсе они присутствуют и значимы, а иногда и как объединение их происхождения, а иногда они

модифицируются разными условиями и ораторами, которые используют их в разных культурах и разных сферах. Расследование проводилось на основе материалов азербайджанского и английского языков. Кроме того, был приведен ряд примеров, касающихся этих вопросов.

N.Aghaeva

Borrowed phraseological units in English

Summary

The article deals with the borrowing phraseological units from other languages that are used in English. The vocabulary of a language is enriched not only by words but also by phraseologicalunits. Phraseological units are word-groups that cannot be made in the process of speech,they exist in the language as ready-made units. They are compiled in special dictionaries. The same as words phraseological units express a single notion and are used in a sentenceas one part of it. Phraseological units play a significant role in the vocabulary of the language. The consideration of the origin of phraseological units contributes to a better understanding of phraseological meaning. According to their origin all phraseological units may be divided into two big groups: native and borrowed. Borrowed phrases become an integral part of the daily discourse with the nuances of the figurative connotations and expressing the world of the speakers' thoughts as they perceive it. In everyday discourse they are present and meaningful, and sometimes they as the unification of their origin, and sometimes they are modified by different conditions and speakers that use them with different cultures and different backgrounds. The investigation has been carried out on the basis of the materials of Azerbaijani and English languages. There have also been given a number of examples concerning these issues.

Rəyçi: **Aygun İsayeva**
Filologiya üzrə fəlsəfə doktoru, dosent

TƏRLAN ƏLİYEVA
ADPU-nun Ağcabədi filialı
tarlanaliyeva77@gmail.com

AZƏRBAYCAN DİLİNİN MORFOLOGİYASININ ÖYRƏNİLMƏSİNDƏ TARİXİİKOMENTARIYALARIN ROLU

Açar sözlər: morfologiya, morfem, dilçilik, kök, şəkilçi, leksika
Key words: morphology, morphem, linguistics, root, suffix, lexics
Ключевые слова: морфология, морфем, лингвистика, корень, суффикс, лексика

The article deals with the study of the Russian language in the conditions of a certain social environment. Based on various facts, the author tries to prove that the modern language environment in Azerbaijan is sufficiently favorable for studying a foreign language. Various ways of deepening knowledge among students in the field of the Russian language are shown. Among them are those related to the use of bilingualism. This is the joint conduct of classes in the Russian and Azerbaijani sectors, the organization of the Olympics, as well as staging various scenes.

Also, the article deals with the mutual positive effects of the Azerbaijani and Russian languages and the development of historical processes in the conditions of bilingualism.

Teacher dialogues should be built so that they can be characterized by the nature of the game. Such game tasks are freely available in the classroom and create a positive mood in students.

The teacher should use tactical methods when using games related to the lesson. Classroom and game-based exercises have a positive effect on the course process and on students.

Rəyçi: Nərmin Musabəyova
Filologiya elmləri namizədi, dosent

NİGAR RƏHMANOVA
Azərbaycan dillər Universiteti
rahmanova.nigar@gmail.com

FUNKSİONAL ÜSLUBİYYATIN ƏSAS XÜSUSİYYƏTLƏRİ

Açar sözlər: üslub, üslubiyyat, funksional üslubiyyat, elmi üslub, bədii üslub, üslubi marker, üslubi relevantlıq
Keywords: stylistic, styles, functional stylistics, scientific style, artistic style, stylistic marker, stylistic relevance
Ключевые слова: стили, стилистика, функциональные стили, научный стиль, художественный стиль, стилистический маркер, стилистическая релевантность

Müasir dilçilik nəzəriyyəsində **üslubiyyat**, **üslub**, **funksional üslub** və **funksional üslubiyyat** terminlərindən istifadə olunur. Bu terminlərin hər biri ayrıca bir anlayışı bildirir. Lakin tədqiqatçılar bəzən onların eyni mənada işlənməsini də qeyd edirlər. Funksional üslub ideyası ənənəvi dilçilikdəki **üslub** anlayışından sonra istifadə edilmişdir. Bu da üslubun məhz dil vasitələrinin istifadə olunması xüsusiyyətləri, bir qədər də dəqiq desək, bu vasitələrin funksionallığı ilə bağlı anlayış olmasından irəli gəlir. Dil vasitlərinin funksionallığı olmadan üslub yoxdur. Üslub anlayışının izahında da bu cəhəti aşkar müşahidə etmək olur. "Üslub - dil vasitələrini seçmə, seçilən vahidləri əlaqələndirib birləşdirmə baxımından səciyyələnən dil növüdü"[1, s.297]. Tərifdən göründüyü kimi, dil vahidlərini seçmə ayrılıqda üslubu formalaşdırmır. Üslub üçün seçilən vahidlərin birləşdirilib işlədilməsi vacib şərtdir. Üslub yalnız bununla fərqlənə bilmir. Aydındır ki, kifayət qədər dil vasitələrini seçib onları birləşdirməklə sintaktik səviyyə vahidlərini, daha doğrusu predikativ vahidləri qurmaq və bir-birinin ardınca düzmək olar. Belə bir toplu üslubu ayırmaq üçün tam əsas vermir. Üslubun seçilməsi üçün mətnin mövcudluğu əsas şərtdir. Deməli, üslub yalnız mətn çərçivəsində reallaşır. Başqa bir cəhət də ondan ibarətdir ki, üslubun formalaşması qanunauyğunluğa əsaslanır. Yəni dil vahidlərinin seçimindəki qanunauyğunluq aşkara çıxarılmalıdır. Əks təqdirdə seçmənin özünün nə olduğu aydınlaşmır. "Dilçilikdə üslub ünsiyyətin müxtəlif sahələrində işlədilən ifadə vasitələri sistemi deməkdir"[2, s.5]. Bu tərifdə də natamamlıq özünü göstərir. Ünsiyyətin fərqli sferalarında işlədilən ifadə vasitələri sistem təşkil edir. Dil ünsiyyət funksiyasını yerinə yetirdikdə ifadə vasitələrinin bir-biri ilə əlaqəsi zəruri şərtdir. Əks təqdirdə nisbi bitkin fikrin düzəlməsi mümkün deyildir. Lakin biz üslubu əsaslandırmaq üçün mütləq onun qarşılaşdırılacağı sistem idə müəyyənləşdirməliyik. Deməli üslub ikidən az

olmayanı əhatə etməlidir. Mütləq bir üslub digəri ilə qarşılaşdırılmalıdır. Funksional üslub problem idə buradan irəli gəlir. Elmi üslub, bədii üslub və ya epistolyar üslub bir-biri ilə müqayisədə ayrı-ayrı sistem statusu ala bilir. Deməli üslublar mütləq diferensiallaşdırılmalıdır. V.Vinoqradova görə, dilin üslubiyyatı, nitqin üslubiyyatı və bədii ədəbiyyatın üslubiyyatı vardır [3, s.5-10]. Bu fikir linqvistikada aparıcı mövqe tutmuş və üslubiyyat daim bu əsas üzərində inkişaf etdirilmişdir. Təbii ki, müasir ədəbiyyatda V.V.Vinoqradovun ayırdığı üç üslubiyyatın bir qədər fərqli şəkillərdəki yozumları ilə rastlaşırıq. Üslubiyyat dil sisteminin ayrı-ayrı elementlərinin, müxtəlif yarımsistemlərinin və bütövlükdə dil sisteminin özünün funksionallığını öyrənir. Üslubiyyata aid tədqiqatlar bir-biri ilə kəsişən, bir-birinə toxunan hər birinin öz məsələləri və kateqoriyaları olan üç fərqli istiqamət üzrə aparılır: 1) nitq üslubiyyatı; dilin ictimai işlənməsinin müxtəlif növlərinin tədqiqi; 2) ədəbi dil üslubları; 3) dil üslubiyyatı və ya struktur üslubiyyat. Bu bölgüdə "bədii ədəbiyyatın üslubiyyatı" öz yerini almamışdır. Bunun müqabilində "ədəbi dil üslubları" qeyd olunur. Bədii ədəbiyyatla bağlı üslub isə ədəbi dil üslubiyyatında "bədii üslub" adını alır və üslubların funksional təsnifinin bir qolu kimi ayrılır. Funksional üslub ümumxalq dili sisteminə bir alt sistem kimi daxil olmuş, cəmiyyət tərəfindən qəbul edilmiş, tarixən formalaşmış və müxtəlif ifadə formaları (morfemlər, sözlər, cümlə tipləri, tələffüz formaları və s.) və onların seçimi ilə səciyyələnən yazı və ya danışıq manerasıdır. Üslubiyyatı - **yazmaq manerası** və **danışmaq manerası**nı öyrənən sahə kimi də ayırmağı qəbul etməyən tədqiqatçılar belə hesab edirlər ki, üslub nitqin spesifik formasıdır. Bu nitqdə linqvistik işarələrin, eləcə də nitqi yaradanın düşüncə tərzinin formaları öz yerini alır. Bu nitqdə ifadə edənin ifadə olunana münasibəti də üzdə olur [4, s.69]. Qeyd olunan göstəricilər ədəbi dilin üslublarının diferensiasiyasının əsasında durur.

M.M.Mixaylov üslubiyyatı beş yerə ayırmaq fikrini irəli sürmüşdür: 1) ümumi üslubiyyat; 2) xüsusi üslubiyyat; 3) dilin üslubiyyatı; 4) nitqin üslubiyyatı; 5) praktik üslubiyyat. Müəllifin fikrinə görə, ümumi üslubiyyat nitq fəaliyyətidir və bütün dillərə aiddir. Xüsusi üslubiyyat isə yalnız konkret bir dilə aid olur [5, s.10-11]. Üslubiyyatın bütün dillər üçün ümumi olan nəzəri məsələləri vardır. Məsələn, üslubi fiqurlar və üslubi markerlərlə bağlı müxtəlif aspektli məsələlər bütün dillər üçün eyni səciyyəlidir və burada ümumi cəhətlər çoxdur. Üslubi fiqurların, antonimlərin, sinonimlərin, omonimlərin, qoşa sözlərin bədii üslubda işlənməsi məsələləri də ümumi xarakterli problemdir. Eyni zamanda, üslubun konkret dillərlə bağlı məsələləri də müəyyən çoxluq təşkil edir. Bu baxımdan üslubiyyatı ümumi və xüsusi olmaqla iki bölməyə ayırmaq mümkündür. Digər tərəfdən, dilin üslubiyyatı, nitqin üslubiyyatı, praktik üslubiyyat kimi bölgü qrupları ümumi və xüsusi üslubiyyatla eyni sırada yer ala bilmir. Çünki bölgü meyarları

fərqlidir. Yəni bir halda meyar bütün dillər üçün ortaq problemdən gedirsə, başqa halda meyar nitqin üslubiyyatı ilə bağlıdır. Nitq üslubiyyatının özünün ümumi və xüsusi tərəfləri olacaqdır. Funksional üslubların diferensiasiyası da ümumi problemdir. Bir dil üçün mümkün funksional üslublar başqa bir dilin də funksional üslublarıdır. Epistolyar üslub Azərbaycan dilində də, rus dilində də, ingilis dilində də vardır. Elmi, publisistik, rəsmi üslublar haqqında da eyni sözləri demək olar.

Üslubiyyatda ən çox elmi mübahisə obyekti funksional üslublarla əlaqədar meydana çıxır. Burada fikir müxtəlifliyi həmişə müşahidə olunur. Məsələn A.I.Yefimovun fikrinə görə, altı funksional üslub vardır: 1) bədii-bellestrik; 2) ictimai-publisistik; 3) elmi üslub; 4) istehsal-texniki üslub; 5) rəsmi sənədlərin üslubu; 6) epistolyar üslub [6, s.65-66].

V.V.Vinoqradov isə beş üslubu ayırır: 1) gündəlik məişət üslubu; 2) gündəlik əməli-rəsmi üslub; 3) elmi üslub; 4) publisitik üslub; 5) bədii-ballestrik üslub[3, 6]. Azərbaycan dilçisi Ə.Dəmirçizadə üç üslubu - bədii, elmi və ictimai-siyasi üslublarını ayırmışdır[7, s.31].

Istinad edilən üç alimin fikirlərindəki fərqlilik funksional üslubların sayı və növlərinə münasibətdə yekdil rəyin olmadığını təsdiq edir. Onu da nəzərə almaq lazımdır ki, bu fikirlər müxtəlif vaxtlarda irəli sürülmüşdür. Təbii ki, üslubiyyata dair ilk tədqiqat işlərində irəli sürülən fikir və mülahizələr, nəzəri elmi müddəalar sonralar təkmilləşdirilmişdir. Bu cəhət üslub adlarına münasibətdə də aşkar görünür. Məsələn, **bədii-ballestrik üslub** termini sonralar **bədii üslub** ilə əvəz edilmişdir. V.Vinoqradovun təsnifindəki adlarda istifadə olunmuş **gündəlik** sözü sonralar çıxarılmışdır.

Şübhəsiz ki, ədəbi dilin müxtəlif funksional üslubları vardır. Azərbaycan ədəbi dilinin aşağıdakı funksional üslubları qeyd olunur: 1) bədii üslub; 2) publisistik üslub; 3) elmi üslub; 4) rəsmi-işgüzar üslub; 5) məişət üslubu) 6) epistolyar üslub. Hazırda elm və texnikanın inkişafı nəticəsində yeni ünsiyyət məkanı və vasitəsi insanların ixtiyarına verilmişdir. Internet vasitəsilə ünsiyyət prosesinin fərqli ifadə vasitələri, informasiyanın ötürülməsi imkanlarının dəyişməsi, ünsiyyət prosesində zaman fasilələrində fərqlilik daha bir üslubu - internet üslubunu ayırmağa əsas vermişdir. Internet dili olduğu kimi, internet üslubu da vardır. Hər bir funksional üslubun öz təyinediciləri vardır.

Funksional üslubların növlərini təyin edərkən müxtəlif meyarların əsas götürməsi də müşahidə olunur. Məsələn V.Vinoqradov gündəlik-əməli-məişət üslubundan bəhs edərkən dilin ünsiyyət funksiyasını əsas götürmüşdür. Onun fikrinə görə elmi üslub və gündəlik -əməli-rəsmi üslub üçün məlumat funksiyası vacibdir, publisistik və bədii üslubda isə təsir funksiyası nəzərə alınır. Üslublara ayırma məsələsinə bu yöndən yanaşma başqa aspektləri əhatə edir. Bütün hallarda həm ünsiyyət, həm təsir, həm də

məlumatın ötürülməsi məqsədləri mövcuddur. Doğrudur, təsir funksiyası bədii üslub üçün çox vacibdir. Çünki müəllif yaratdığı əsərin oxucuya təsir göstərməsinə əhəmiyyət verməlidir. Əks təqdirdə bədii əsər nəzərdə tutduğu məqsədi yerinə yetirə bilmir.

Funksional üslubların təsnifi zamanı əsas və köməkçi meyarlardan istifadə edilir. Ictimai funksiya, sosial diferensiasiya əsas təyinedici meyar kimi götürülür. Ünsiyyətin yolları, və ünsiyyət növləri əlavə fakultativ meyarlara aid edilir.

Bədii üslub bədii əsərlərin (poeziya, nəsr, dramaturgiya) dili əsasında formalaşmışdır. Bədii üslubun əsas əlamətləri obrazlılıq, ekspressivlik, emosionallıq hesab olunur. Bədii əsərin əsas məqsədi adresata emosional təsiri maksimallaşdırmaqdır. Bədii əsəri müəllif yaradır. Hər bir müəllifin fərdi üslubu əsərin dilinə təsir göstərir. Bu baxımdan bədii üslub alt üslublara bölünür. Alt üslublar həm mətnlərin təsnifinə görə, həm də fərdi üslubla qarşılıqlı təsir əsasında yaranır. Hər bir müəllif yaratdığı əsərdə dil vasitələrindən özünəməxsus şəkildə istifadə edir, onun fikri ifadə və təlqin etmək, hadisələri nəql etmək tərzi fərqli şəkildə üzə çıxır. Folklor nümunələri, dastan və nağıllar, eposlar da özünəməxsus üslubi keyfiyyətlərə malik olur. Fikrin obrazlı ifadəsi sözün əsas mənasının hüdudlarından kənara çıxaraq əlavə çalar və semantika ilə yüklənməsi sayəsində əldə olunur. Obrazlı, emosional - ekspressiv nəqletmə ritorik fiqurlardan, məcazlardan istifadə etmək yolu ilə əldə olunur.

Bədii ədəbiyyatda istifadə olunan üslubi fiqurlar müxtəlif və rəngarəngdir. Fikrin obrazlı ifadəsi üçün ən geniş istifadə olunan vasitə müxtəlif səviyyələrdə metaforikləşdirmənin tətbiqidir. Metaforikləşmənin gücü ilə bədii əsərlərdə müxtəlif situasiyalar yaradılır.

Sözün həm müstəqim, həm də köçürmə mənası olur ki, məcazilik sonuncu mənaya aid edilir. Məna mürəkkəb münasibətlər sistemidir. Metaforik məna sözün nominativ mənası əsasında inkişaf edərək yeni əlavə mənalar qazanmasıdır. Lakin bu yeni mənalar həmişə ilkin məna ilə əlaqədar olur.

Məcaz söz və ya ifadənin başqa, qeyri-müstəqim mənada işlənməsi yolu ilə yaradılan bədii ifadə vasitəsidir. Hər hansı əlamətinə görə bir-birinə oxşayan iki hadisənin qarşı-qarşıya qoyulması bədii mətnlərdə çox rast gəlinən hadisədir. Məcazlardan istifadə etməklə yazıçı yeni-yeni ifadələr yaradır, sözlərə yeni mənalar verir, bədii dili zənginləşdirir.

Bədii ədəbiyyatda istifadə olunan məcaz formaları müxtəlifdir. Metafor, metanimiya, mübaliğə, antiteza, allüziya, oksimiron, xiazm və s. Üslubi fiqurları vardır. Bu üslubi fiqurlar fərdi üslublarda müxtəlif tezliklərlə işlənir. Ayrı-ayrı müəlliflər bu və ya digər üslubi fiqurlar üstünlük verirlər. Bu cəhət müəlliflərin fərdi üslublarının təyinində əhəmiyyətli rol oynayır.

Ritorikada nitq formasının üç səviyyəsi vardır: 1) məqsəd - ideyanın və mövzunun seçilməsi; 2) kompozisiya- ideyaların düzülüş ardıcıllığı; 3) üslubi - ritorik fiqurlardan istifadə. Hər bir janra xas forma üslubu təyin edir. Leksik səviyyəli üslubi relevant elementlər kimi, arxaik və köhnəlmiş sözləri də ayırmaq mümkündür. Belə sözlərin işlədilmə səbəbi əsərin aid olduğu dövrün danışıq, dil xüsusiyyətlərinin canlandırılmasıdır.

Sözün leksik-semantik təbiəti lüğət tərkibindəki sözlərin semantik yaxınlığa və ziddiyyətə, eləcə də fonetik cildin eyniliyi semantikasının fərqliliyinə görə qruplara bölünür. Sinonim, antonim və omonimlər də mətn daxilində üslubi funksiyalar yaradır. Antonimlər mətndə daha çox yanaşı işləndikdə və ya eyni kontekst daxilində olduqda üslubi cəhətdən aktivləşirlər. Frazeoloji vahidlərin işlədilməsi də üslubla bağlılığa malikdir. Qeyd edilənlər üslubun leksik səviyyəli vasitələridir. Üslubun fonetik və qrafik vasitələri də vardır. Məsələn, Den Braun «Da Vinçi» şifrəsi əsərində ayırmadan, kursivdən üslubi fiqur kimi istifadə etmişdir. Müəllif bir sıra adları əsərdə kursivlə vermişdir. Bu da həmin adların əhəmiyyətli olduğunu göstərir. Eyni zamanda kursivlə verilmə oxucunun bu və ya digər ada ilk dəfə rast gəldiyi yerə qayıtmaq imkanını artırır. Yazıçı Elçinin bəzi əsərlərində abzasların şəxs adları ilə başlanmasına üstünlük verilməsi müşahidə edilir. Müəllif bununla oxucunun diqqətini əsərin müəyyən bir yerində konkret personajın üzərində cəmləşdirməyi vacib sayır.

Onu da qeyd edək ki, mətn dilçiliyinin inkişafı ilə təkrarların üslubi fiqur kimi rolunun daha dərindən öyrənilməsinə diqqəti artırmışdır. Cümlə daxilindəki leksik təkrarları yaradan sözlər bir-birinə nəzərən müxtəlif cür yerləşə bilər. Belə yerləşmədən asılı olaraq təkrarın iki növünü ayırmaq mümkündür: kontakt və distant təkrarlar. Kontakt təkrar zamanı təkrarlanan vahidlər bilavasitə bir-birinin ardınca işlənir. Distant təkrarlarda isə ardıcıl işlənmə deyil, bir-birindən uzaqda yerləşmə əsasdır.

Cümlədən böyük mətndə leksik təkrarları yerləşmə yerinə görə dörd qrupa ayırırlar: 1) anafora - təkrar olunan sözün ardıcıl gələn cümlələrin əvvəlində işlənməsi; 2) epifora - təkrar olunan sözün ardıcıl gələn cümlələrin sonunda işlənməsi; 3) anadiplosis - təkrar olunan sözün birinci cümlənin sonunda, ikinci cümlənin isə əvvəlində işlənməsi; 4) simploka- - ardıcıl gələn cümlələrin eyni sözlə başlanması və başqa eyni bir sözlə bitməsi.

Müasir üslubiyyatda həm üslubi fiqurlar, həm də üslubi relevant elementlərin müəyyənləşdirilməsi ilə bağlı tədqiqatlara geniş yer verilir. Hazırda üslubi markerlərin müəyyənləşdirilməsi aktual məsələlərdən biri kimi üzdədir.

Publisistik üslub, ilk növbədə qəzet, jurnal, sonralar radio, televiziya ilə bağlı meydana çıxmışdır. Hazırda mitinq dili, müxtəlif yığıncaqlarda istifadə olunan dil də publisistik üsluba aid edilir. Publisistika daha çox kütləvi

informasiya vasitələri ilə bağlıdır. Kütləvi informasiya vasitələrində istifadə olunan materiallar da janr bölgüsünə malikdir. Janrlara bölgü publisistik üslubun da alt üslublarını formalaşdırır. Məqalə, müsahibə, reportaj, xəbərlər publisistik üslubun müxtəlif alt üslublar kimi fəaliyyət göstərir. Publisistik üslubun əsas əlamətlərindən biri onun geniş kütlə üçün nəzərdə tutulması ilə bağlıdır. Bu tipli yazılarda oxucunun fon biliklərinə çox istinad edilmir. Publisistik material hər dəfə yeni olduğu kimi, informasiyanın ardıcıl və yığcam şəkildə verilməsi ilə səciyyələnir. Publisistik üslubda da qrafik vahidlərin üslubi relevant element kimi işlədilməsi özünü göstərir. Publisistikada şriftin böyüdülməsi, kursivlə verilməsi və digər ayırma və seçdirmələrdən istifadə həm də müəllif üslubi ilə bağlı olan haldır.

Kommunikasiyanın cərəyan etdiyi müxtəlif sosial sferalar, onların özünəməxsus cəhətlərinin nəzərə alınması ümumən sosial spesifiklik kimi götürülür. Hər bir konkret funksional üsluba uyğun gələn dil-ifadə vasitələrinin, səviyyə vahidlərinin linqvistik spesifikliyi üslubların tədqiqində rolu böyükdür. Müasir tədqiqatlarda üslubun sosial baxımdan araşdırılmasına kəskin ehtiyac hiss olunur. Funksional üslublarla bağlı aktual məsələlərdən biri də altüslubların müəyyənləşdirilməsidir. Linqvistik spesifikliyin nisbətən kiçik, daha doğrusu, mikrosferada özünü göstərməsi altüslubun təyin edilməsinə əsas verir. Akademik elmi üslub, populyar elmi üslub və tədris-metodik üslublar altüslublardır. Onların bir-birindən fərqləndirilməsi spesifik və üslubi relevant elementləri müəyyənləşdirməyi tələb edir. Elmi üslub elmi əsərlərin, dərsliklərin, monoqrafiyaların dilidir. Əsas əlaməti məntiqilik, ardıcıllıq, terminlərin olmasıdır. Elmi üslubun əsas xüsusiyyəti izah olunan və tədqiqat obyekti olan anlayışın açılması vacib şərtdir. Elmi yazıların da əsasən iki istiqamətdə hazırlanması qəbul edilmişdir. Bunlardan biri sırf elmi tədqiqat istiqamətidir. Bu tipli məqalə və monoqrafiyalarda tədqiqat daha elmi şəkildə şərhini tapır. Elmi monoqrafiyanın müəllifi fon biliklərini aydınlaşdırmağa az əhəmiyyət verir. Sahənin məlum anlayışlarını onların izahlarını vermədən istifadə edir. Tədris məqsədli elmi üslubda isə fon bilikləri nəzərə alınır, sahənin məlum anlayışlarının izah və tərifləri də yer ayrılır. Bu baxımdan tədris elmi üslubu sırf elmi üslubdan nisbi sadəliyi ilə fərqlənir. Təbii ki, burada da fərdi üslubun təsiri özünü göstərir. Onu da qeyd etmək lazımdır ki, elmi üslubun elmi-populyar mətnlərə aid olan üçüncü bir forması da vardır. Bu formanın yaranma səbəbi elmi materialın kütləvi oxucu üçün hazırlanması ilə əlaqədardır. Qeyd olunan cəhətə görə bəzi tədqiqatçılar elmi-populyar materialların üslubunun publisistik üsluba yaxın olmasını qeyd edirlər. Lakin elmi-populyar materialların leksikasında kifayət qədər terminlərin olması bu üslubun daha çox elmi üslubun alt üslubu və yarım üslubu olmasını iddia etməyə əsas verir.

Beləliklə, tədqiqat göstərir ki, funksional üslubiyyatın öyrəndiyi və tədqiq etdiyi məsələlər dairəsi genişdir. Bu məsələlərin elmi-nəzəri həlli ilk növbədə üslubiyyatın əsas anlayışlarını dəqiq təyin etməyi, üslubların diferensiasiyasını düzgün və dəqiq meyarlar üzrə aparmağı aktuallaşdırır.

Ədəbiyyat

1. Adilov M.İ., Verdiyeva Z.N., Ağayeva F.M. İzahlı dilçilik terminləri. Bakı: Maarif, 1989, 364 s.
2.Azərbaycan bədii dilinin üslubiyyaıtı (oçerklər), Bakı: Elm, 1970, 188 s.
3.Виноградов В.В. Проблемы русской стилистики. Москва: Высшая школа, 1981, стр.319
4.Гиро П. Разделы и направления стилистики и их проблематика // Новое в зарубежной лингвистике. Москва: Прогресс, 1980, с.35-69.
5.Михайлов М.М. Практическая стилистика и ее требования к речи// «Русский язык в школе». Москва: 1965, № 1, с.8-15.
6.Ефимов А.И. Стилистика художественной речи. Москва: Изд-во МГУ, 1961. стр.248
7.Dəmirçizadə Ə. Azərbaycan dilinin üslubiyyatı. Bakı: Azərtədrisnəşr, 1962, 272 s.

Н.Рахманова

Ключевые вопросы функционального стиля

Резюме

Основные проблемы в статье изучаются в контексте современных лингвистических исследований. Рассмотрены различия в определении функциональных стилей, классификация стилей. Предпринимаются попытки выявить некоторые специфические проблемы, связанные с отдельными функциональными стилями. Лингвистика азербайджанской лингвистики определяет условия и субтитры подстилающих подразделений, а также анализируются некоторые элементы, связанные со стилями и стилистическими маркерами. Особое внимание уделяется особенностям некоторых функциональных стилей, в том числе художественных, научных и публицистических стилей.

В художественной литературе используются разные формы метафоры. Существуют стилистические фигуры. Стилистические фигуры в различных стилях разрабатываются индивидуально. Отдельные авторы предпочитают различные стилистические фигуры. Эта особенность индивидуальных стилей авторов играет важную роль.

N.Rahmanowa

The main problems of the functional stylistics

Summary

The main problems are studied in the context of modern linguistic research in this article. Defining functional styles, different classification of the styles are rewieved in this article. Some special problems related to functional styles are tried to discover separately.

In Azerbaijan linguistics the conditions and causes of separation of understyle is defined, stylistic relevant elements and some points related to stylistic markers are analyzed. Some functional styles, as well as, specific peculiarities of scientific, artistic and journalistic styles are focused on the center.

Literary metaphors used in different forms. Metafor, chiasmus, etc, literally, to antithesize. There are stylistic pieces. This style is used with different frequencies in pieces and individual style. Some writers prefer this and other stylistic pieces. This aspect plays a significant role in the determination of individual style of the author.

Rəyçi: Şəmsinur Aslanova
Filologiya üzrə fəlsəfə doktoru, dosent

İLAHƏ QULİYEVA
AzTU
İlahə.@.mail.ru.

AZƏRBAYCAN-BÖYÜK BRİTANİYA ƏDƏBİ ƏLAQƏLƏRİNDƏ DİL AMİLİNİN ROLU VƏ ƏHƏMİYYƏTİ

AÇAR SÖZLƏR: Azərbaycan, Böyük Britaniya, ədəbi əlaqələr,dil am Mili, inkişaf, fonetika, leksika
KEY WORDS: Azerbaycan,Great Britain,litteratur relation,factor language,-development
КЛЮЧЕВЫЕСЛОВА:Азербайджан, Велико ритания,литературные связи,языковой фактор, развития, фонетика, лексика

Azərbaycan-Böyük Britaniya ədəbi əlaqələrində dil amili böyük rol oynayır. Orijinaldan tərcümə işinin əsasında ingilis dilini bilmək, qrammatikaya, fonetika və leksikaya dair kitab və dərsliklər, dərs vəsaitləri, tədqiqatlar, lüğətlər və dilçiliyin leksikoqrafiya sahəsi durur. Bu baxımdan Z.Verdiyeva, H.Nağıyeva, S.Babayev, M.Qarayeva, V.Ərəbov, B.Hüseynov, İ.Rəhimov, R.Qayıbova, X.Əhmədova, O.Musayev (Türksevər), T.Abbasquliyev, E.Hacıyev, A.Abbasov, Ə.Hacıyev və başqa ingilis dili mütəxəssislərin və pedaqoqların fəaliyyəti təqdirəlayiqdir.İngilis dili Britaniya adasının istilaları nəticəsində yaranmışdır. İşğalçılar Avropanın şimal sahilləri boyu ərazilərdə məskunlaşmışdı. İlk istilalar min beş yüz il bundan əvvəl anqllar tərəfindən həyata keçirilmişdi. Anqllar İngilis kanalını (La Manş) keçən german tayfalarının üzvləri idi. Sonradan Britaniyaya daha iki tayfanın üzvləri keçdi. Bunlar saksonlar və yutlar idi. Bu qruplar Britaniyada bir neçə min il yaşayan keltlərlə qarşılaşdı. Keltlər və işğalçılar arasında müharibə başladı. Bu savaşlarda keltlərin böyük əksəriyyəti öldü, ya da qula çevrildi. Bəziləri sonradan Uels adlandırılan yerlərə köçdü. Uzun illər ərzində saksonlar, anqllar və yutların danışdığı dillərin qarışığı nəticəsində anqlosaks, ya da qədim ingilis dili təşəkkül tapmışdır.İngilis dilinin qədim formasında olan yazı nümunələrini indi yalnız bəzi ekspertlər oxuya bilir. Bu dövrdən bir neçə yazı nümunəsi qalmışdır. Bu, qəhrəman krala həsr olunmuş “Beovulf” poemasıdır. Tədqiqatçılar poemanın VII-VIII əsrlərə aid olduğunu bildirirlər. Poemanın müəllifinin kim olduğu məlum deyil. Təxminən min yüz il bundan əvvəl Britaniya yenidən, bu dəfə şimaldan vikinqlər tərəfindən istila edilir. Danimarka, Norveç və başqa şimal ölkələrindən gələn vikinqlər ticarət yollarmı genişləndirmək və qul bazarları tapmaq istəyirdi. Onlar bəzi bölgələrdə güclənərək, müvəqqəti bazalar yaratmışdılar. Lakin sonradan bu bazaların bir hissəsi gücləndirilib daimi

məskunlaşma məntəqələrinə çevrilmişdi. Vikinqlər Britaniyada da məskunlaşmışdı. İngilis dilində bu gün mövcud olan bir sıra sözlər vikinqlərdən alınmışdır. Məsələn, “sky”(səma), “leg”(ayaq), “egg” (yumurta), “crawl”(sürünmək), “lift”(qaldırmaq) və “take”(götürmək) kimi sözlər şimal xalqlarının qədim dillərindən gəlir.1066-cı ildə isə Britaniya daha bir istilaya məruz qalmışdı. Tarixdə bu NormanİşğalIarı adlanır. Bu işğallara İşğalçı Vilhelm başçılıq edirdi. Normanlar Fransanınşimalında Normandiyadan çıxmışdılar. Onlar Britaniyanın hökmdarları olmuş vəbir neçə yüz il ərzində fransızca danışmışlar. O zaman ən mühüm dillərdən birihesab edilən fransız dilində savadlı adamlar danışırdı. Adi insanların dili isəəvvəlki kim qədim ingilis dili olaraq qalırdı. Qədim ingilis dilində fransız dilindənbir çox söz götürülüb. Məsələn, “damage” (zərər), “prison” (həbsxana) və“marriage” (evlilik) kimi sözlər ingilis dilinə fransız dilindən gəlib. İngilis dilindəqanunlar və hökumətə aid bir sıra sözlər də normanların danışdığı fransız dilindəngəlib. Bu sözlərə “jury” (jüri), “parliament” (parlament) və “justice” (ədalət, ədliyyə)kimi sözləri göstərmək olar. Norman hökmdarlarının istifadə etdiyi fransız dilisəkkiz yüz il bundan əvvəl insanların danışdığı ingilis dilinə böyük təsir göstərib. Ekspertlər dilin tarixində bu dövrü Orta ingilis dili adlandırırlar. Zaman keçdikcənormanlar artıq əsl fransız dilində danışa bilmirdilər. Onların işlətdiyi dil fransız vəorta ingilis dilinin qarışığından ibarət idi. Orta ingilis dili müasir ingilis dilinə oxşayır, lakin onu indi başa düşmək çox çətindir. O dövrdən bir çox yazılı abidə qalmışdır. Lakin həmin dövr ingilis ədəbi dilinin ən görkəmli əsəri 1400-cü illərdə Londonda yaşamış şair Ceffri Çoser tərəfindən yazılmış mənzum “Kenterberri hekayələri” hesab edilir. Əsər Kenterberri şəhərinə səfər edən müxtəlif insanların dilindən söylənilən şeirlər toplusu şəklində yazılıb. İngilis dili mütəxəssisləri Ceffri Çoseri ingilis dilində yazan ilk ən böyük şair adlandırırlar. Onlar Çoserin "Kenterberri hekayələri"nin o dövr Britaniyada yaşayan insanların həyatının əsl mənzərəsini yarada bildiyini deyirlər. Sonrakı dövrlər Orta ingilis dili inkişaf edərək müasir ingilis dilinə çevrilir. Renessans böyük sənətkarların yaradıcılığına, o cümlədən zənginləşmiş ingilis dilinin yeni dövrünə yol açdı. Şekspir dünya Renessansının zirvəsi olmaqla, həm də müasir ingilis ədəbi dilinin lüğətini formalaşdırdı.Son bir əsrdə, xüsusən müasir dövrümüzdə ingilis dili siyasi danışıqlar və biznes dilinə çevrilib. Əsas elmi və tibbi araşdırmalar da ingilis dilində aparılır. Beynəlxalq razılaşmalara əsasən, təyyarələrdə işləyən bələdçilər ingilis dilini bilməlidir. Cənubi Amerika və Avropa məktəblərində ən çox tədris olunan dil ingilis dilidir. Filippində və Yaponiyada uşaqlar ingilis dilini ən kiçik yaşlarından öyrənməyə başlayırlar. İngilis dili Britaniya, Kanada, Birləşmiş Ştatlar, Avstraliya və Cənubi Afrika daxil olmaqla, yetmiş beşdən çox ölkənin rəsmi dilidir. Müxtəlif dillərin danışıldığı ölkələrdə insanların bir-biri ilə

ünsiyyətini təmin etmək üçün çox vaxt ingilis dili rəsmi dövlət dili kimi çıxış edir. Hindistan buna yaxşı misaldır. İyirmi dörd müxtəlif dilin hər birində bir milyondan artıq insanın danışdığı bu ölkədə ingilis dili hamı üçün ümumi dildir.Bu baxımdan analitik və sintetik dil xüsusiyyətlərini ehtiva edən ingilis dilinin bzi qrammatik özəllikləri var.İngilis dili dövründə əsasən sintetik dil olan ingilis dili, orta dövrdə əsasən analitik dilə çevrilmişdir, digər sözlə, ingilis dilində sözün analitik forması yaranmışdır.Sözün analitik forması nədir? Sözün analitik forması onun (sözün) elə bir şəkilidir ki, o distant vəziyyətində işlənən iki və daha artıq komponentdən ibarət olur. Bunlardan biri tərkibin nominativ mənasını, qalanı, yaxud qalanları həmin tərkibə xas olan qrammatik mənaları ifadə edir. Məsələn:am / is / are reaidng, have / has read, shall/ will read, shall/ will have been reading, have/ has been invited və s.Bu tərkiblərin hamısı müasir ingilis dilində işlənməkdə olan analitik formalardır. Burada açıq kursivlə verilmiş komponentlər tərkibin qrammatik mənalarını, qara kursivlə verilənlər isə onların nominativ mənasını bildirir.Hər bir dildə, o cümlədən müasir ingilis dilində işlədilən sintetik və analitik formalar bir-birilə qarşılıqlı əlaqədə olur və bir vəhdət təşkil edir. Həmin əlaqə və vəhdət bir tərəfdən bu formaların dildəki funksiyası baxımından, digər tərəfdən də onların mənşəyi baxımından nəzərə çarpır.Dildəki funksiya baxımından analitik və sintetik formalar arasındakı əlaqələr qrammatik mənaların makro sahəsində müşahidə edilir. Yəni eyni bir qrammatik kateqoriya bir mikro sahədə sintetik, digərində isə analitik forma ilə ifadə edilir. Buna misal olaraq müasir ingilis dilində feilin zaman kateqoriyasını göstərmək olar. Bu kateqoriya feilin keçmiş qeyri-müəyyən zaman formasında sintetik, gələcək zamanın qeyri-müəyyən formasında isə analitik vasitə ilə ifadə edilir: I invited. I shall invite.İngilis dilində sintetik vasitələrin, xüsusən – `s şəkilçisinin getdikcə daha genuş miqyasda işləndiyini bəzi ingilis dilçiləri də etiraf etməkdədir. Məsələn, müasir ingilis dilçilərindən olan Çarlz Barber özünün 1964-cü ildə nəşr etdirdiyi “Linguistic Change in Present-day English” (“Bugünkü ingilis dilində linqvistik dəyişiklik”) adlı kitabında (33) qeyd edir ki, müasir ingilis dilində -`s şəkilçisi getdikcə daha geniş miqyasda işlədilir. O yazır: “Bu halda -`s şəkilçisi of sözönünü əvəz edir ki, bu da dilin analitizmdən sintetizmə doğru inkişafı deməkdir” (14, XIX).Cəmi yarım əsr bundan öncə çap edilmiş dərsliklərdə iddia edilirdi ki, -`s yiyəlik hal şəkilçisi ancaq canlı varlıqları bildirən isimlərlə işlədilir, cansız varlıqları bildirən isimlərdə isimlər arasında mövcud olan yiyəlik, sahiblik əlaqəsi of sözönü ilə, digər sözlə, analitik vasitə ilə ifadə edilir. Müşahidələr göstərir ki, müasir dövrdə ingilis dili haqqında bu hökm öz aktuallığını itirməkdədir. Bu gün -`s şəkilçisi eyni olaraq həm canlı, həm də cansız isimlərlə işlənir, biz the cover of the book dediyimiz kimi the book`s cover də deyə bilərik.

Beləliklə, aydın olur ki, qədim dövrdə əsasən sintetik dil olan ingilis dili orta dövrdə analitikləşmiş və əsasən analitik dil kimi formalaşmışdır. Müasir dövrdə isə ingilis dilinin morfoloji inkişafı yenidən sintetikliyə doğru istiqamət almışdır. Bakıda nəşr olunmuş "A Practical Grammar of Contemporary English" ("Müasir ingilis dilinin praktik qrammatikası") kitabında oxuyuruq:"Languages have different morphological structure and accordingly they are divided into various groupsç as synthetic languages, agglutinative languages, analytical languages, etc.

Bununla bərabər, eposlar xalqların mənəvi qüdrətini əks etdirən mükəmməl sənət abidələridir. Ümummilli lider Heydər Əliyev müstəqil dövlətin milli ideologiyasını yaratdı – azərbaycançılıq təlimini dövlətçilik ideologiyasına çevirdi" (56). Azərbaycan diasporunu formalaşdıran dünya azərbaycanlılarının birinci qurultayındakı (10 noyabr 2001) tarixi nitqində Ulu Öndər demişdir: "...hər bir insan üçün milli mənsubiyyəti onun qürur mənbəyidir. Həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!" (64, 72).Bildiyimiz kimi, müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. "Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı, Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq" (64, 88). Müstəqil Azərbaycanın ideoloji əsaslarını onun ideologiyası formalaşdırır. Böyük rəhbər Heydər Əliyev bütün mədəniyyətimizi, tariximizi, etnoqrafiyamızı, çoxəsrlik adət-ənənələrimizi, klassik yazılı və şifahi ədəbiyyatımızı, nəhayət, ana dilimizi azərbaycançılığın təməlinə gətirdi, onun izahına yönəltdi. Onun azərbaycançılıq təlimi "xalqın milli varlığını müəyyən edən başlıca amildənz" ana dilinə – Azərbaycan dilinə münasibətdən başlanır: "İnkişaf etmiş zəngin dil mədəniyyətinə sahib olan xalq əyilməzdir". Ona görə də xalqımıza ulu babalardan miras qalan bu ən qiymətli milli sərvəti hər bir Azərbaycan övladı göz bəbəyi kimi qorumalı, daim qayğı ilə əhatə etməlidir. Bu, onun vətəndaşlıq borcudur.

Ədəbiyyat

1.Xəlilli Ş:"Azərbaycan-İngilis ədəbi əlaqələri".Bakı.1984.
2.Xanım Zairova:"Azərbaycan və Qərb ədəbi əlaqələrinin izi ilə" Bakı.2017.Mərkəzin "Dünya ədəbiyyatı"toplusu.
3."Azərbaycan-Böyük Britaniya poeziya gecəsi"London.2018
4.Sevinc Həmzəliyeva;"Azərbaycan-İngilis ədəbi əlaqələri və bədii tərcümə.Bakı.2001.

И.Кулиева

Языковой фактор в сфере литературных связей между Азербайджаном и Велико Британией

Резюме

В статье рассматривается языковой фактор в межкультурных отношениях,а также в сфере литературных связей между Азербайджаном и Велико Британией.В статье анализируется некоторые важные этапы литературные связи Азербайджаном и Велико Британией, подробно рассказывается об истории литературных связей между Азербайджанм и Велико Британией.

В статье также анализируется некоторые термины художесТвенного характера Английского происхождение их роль и значение в терминологической системе Азербайджанского языка. В данной статье исследуется роль и значение в коммуникации междукультурных связи,-изучается истории развития литературных связей между АзерБайджаном Британией, рассмсатривается мысли и выссказивание литераведов и учёных-лингвистов высокого ранга.

I.Kulieva

Literatural relation between English and Azerbaijani

Summary

The article speaks about the mutual relations between English and Azerbaijani,analyses literatural relations between and Azerbaijani analyses and Great Britai in contemporary phase,also investigates borrowings of English origin,gives exemples some words of English origin in native language.

The history of English and Azerbaijan literatural relation go to the middle centuries.Most of the Azerbaijani poets and writers,sientists and investigators presented the English literature to Azerbaijany people,they also translated the works of Sheakespeare the contemporary writers to Azerbaijani at the different stages of the history.

English people also is acquainted withAzerbaijan literature and literatural language relations have devellopeted time by time.

Rəyçi: Nuriyyə Rzayeva
Filologiya üzrə fəlsəfə doktoru,dosent.

ŞƏRAFƏT ƏLİYEVA
ŞƏFİQƏ ƏLİYEVA
AzTU
Şərafət,şəfiqə.@.mail.ru.

İNGİLİS DİLİNDƏ FRANSIZ MƏNŞƏLİ ALINMA SÖZLƏRİN SİNONİMLİYİ

Açar sözləri.sinonimlər, normanlar, paralellik, alınma söz, arxaikləşmə
Key words.synonyms, normans, parallelism, borrowings, archaisation
Ключевые слова.сунонимы, норманны, параллелизм, архаизация

Normalın istilasından sonra fransız dili ingilis dilinin lüğət tərkibinə böyük təsir göstərdi. Orta ingilis dili dövründe fransız dilindən alınmış sözlərin miqdarı ondan əvvəl və ya sonrakı dövrdə digər dillərdən alınmış sözlərdən müqayisə olunmaz dərəcədə çoxdur. Nəticə etibarı ilə ingilis dilinin lüğət tərkibində german mənşəli sözlərin sayı kəskin şəkildə azaldı və onlarfransız mənşəli leksik təbəqə ilə əvəzləndi.

Hazırda ingilis dilinin lüğət tərkibinin yarısını fransız mənşəli alınma təbəqə təşkil edirki bu da norman təsirinin olduqca böyük olduğunun nəticəsidir. Fransız dilindən ingilis dilinə böyük miqdarda söz alınmasına səbəb 10-13cü əsrlərdə normanların ingiltərədə siyasi hökmranlığı və fransız dilinin parlamentdə məhkəmədə kilsədə məktəbdə və kral sarayında hakim mövqeyi idi. Bir çox fransız sözləri ingilis dilinin leksikasına 13 və 14-cü yüzilliklərin ikinci yarısında daxil olmuşlar.

Fransız sözlərinin ingilis dilinə axını 14-cü yüzilliyin ikinci yarısında özünün kulminasiya zirvəsinə çatmışdır.

Məhkəmə işlərinin fransız dilində aparılması nəticəsində ingilis dilində çoxlu hüquq terminləri özünə yer etmişdir və bu gün də ingilis dilində həmin terminlərdən istifadə olunur.

Orta əsrlərdə tez-tez aparılan müharibələr ordunun fransız dilində danışan şəxslərin komandanlığı altında olması sayəsində ingilis dilinin lüğət tərkibinə çoxlu miqdarda hərbi terminlər daxil olmuşdur. Fransız dilinin təsiri nəticəsində ingilis dilinin lüğət tərkibinə çoxlu sayda dini moda bəzək qiymətli daş-qaş kulinariya balıq adları ət çərəz meyvə fransız dilindən alınmış gündəlik məişət əşyaları və s. ilə bağlı söz və ifadələr alınmışdır. Fransız dilindən alınmış sözlər arasında çoxlu miqdarda isimlər fellər sifətlər digər nitq hissələridə vardır İngillis dilinin lüğət tərkibinə daxil olmuş fransız mənşəli sözlər ingilis dilinin semantik inkişafına boş təsir göstərmiş bu dildə sinonimliyin və digər semantik hadisələrin meydana çıxmasına təsir

göstərmişdir. Xüsusilə ingilis və fransız sözləri arasındakı bir çox dilçilərin diqqətini cəlb etmişdir.

Dilçi Derokinyi Orta İngilis dili mətnlərindəki ingilis-fransız sinonimliyini üslubi baxımdan dəyərləndirir. İngilis dilində sinonimliyin xüsusilə geniş yayılmasının səbəbi ingilis dilinə eyni məfhumu bildirən yüzlərlə sözlərin daxil olmasıdır.

Göstərildiyinə görə ingilis dilində fransız mənşəli sinonimlər dilin bir çox səviyyələrində - ümumxalq ədəbi elmi üslublarında rast gəlinir.
rise-mount
ask-question
goodness-virtue
fast-firm
fire-flame
fear-terror
holy-sacred
time-age
Bu sinonim cütlərindəilk söz ingilis ikinci sğz isə fransız mənşəlidir. Fransız mənşəli alınmaların təsiri altında bir çox ingilis sözləri dildən sıxışdırılmış və arxaikləşmişdir. Misal üçün fransız mənşəli **army** (ordu) anglosakson dilində işlənmış üç doğma sözü dildən çıxarmışdır:**here** (the warrying body) **field** (the travelling body) və neytral semantikalı **werod**. **Fri wig sige** sözləri əvəzinə ingilis **peace war vistory** sözləri işlənməyə başlanmışdır. **Warror** sözü isə anglo-sakson mənşəli **cempe** sözünü sıxışdırıb çıxarmışdır.
Qədim ingilis dilindəki **vitenagemot** fransız mənşəli **parliament** ilə əvəz olunmuşdur.
İngilis mənşəli cynelic cyne-stol cyne-helm cyne-gierd aşağıdakı fransız sözləri ilə əvəzlənmişdir: royal throne diadem spectre.

Dryhten və **frea** eyni mənalı **prince** fransız sözü illə əvəz olunsa da ingilis mənşəli **lord** qorunub qalmışdır. Fransız mənşəli **people** və **nation** qədim ingilis dilindəki **theod** sözünü əvəz etmişdir.

Qədim ingilis mənşəli **sacn** fransız mənşəli **case** və **suit** ilə əvəzlənmişdir. Norman işğalından sonra ingilis dili bədii ədəbiyyatda özünə yer etdiyi zaman fransız dilindən xeyli sözlər alınmışdır. Onların çoxu doğma sözləri əvəz etmişdir: ancestor fore-elders əvəzinə əcdad beauty gözəllik conscience invit şüur library book hoard kitabxana treasure goldhoard xəzinə agriculture earth-tilth kənd təsərrüfatı residence vanstead qərargah astronomy starcroaft astronomiya və s.

Norman işğalından sonra ingilis dilində bəzən fransız sözü dildən çıxmış lakin bunula yanaşı onun təsiri altında arxaikləşmiş doğma söz də istifadədən çıxmışdır.

Bəzən ədəbi dildən çıxmış ingilis sözü dialektlərdə mühafizə olunmuşdur. Misal üçün qədim ingilis dilindəkin **eam** fransız mənşəli **uncle** ilə əvəzlənmişdir lakin **eam** şotland dialektində hələdə işlənməkdədir. Qədim ingilis dilindəki **ander** fransız dilinə məxsus **envy** həsəd aparmaq qısqanmaq ilə əvəzlənmiş və hətta eyni kökdən olan **anaig** sifət və **andian** fel sözləri də istifadədən çıxmışdır.

Qədim ingilis dilindəki **blead** fransız dilindən alınma **flover** ilə yanaşı işlənmiş və bu paralellik 13-cü əsrədək davam etmişdir. 13-cü əsrdən sonra **bleo** gül sözü yalnız diaklektlərdə **blee** şəklində işlənməkdə davam etmişdir. Aşağıdakı qədim ingilis sözləri də fransız fransız alınmaları ilə əvəz olunmuşdur:

eldu-age, adl-disease, lof-praise, lyft-air, wuldor-glory, earm-poor, slithe-cruel, gecynde-natural, wlitig-beautiful və s.

Gördüyümüz kimi doğma sözlərin arxaikləşməsi onun törəmələrinin də istifadədən çıxamsına yol aşmışdır.

Bir çox doğma ingilis felləri də fransız alınmaları ilə əvəz olunmuşdur:

andettan confess boynuna almaq etiraf etmək beorgan-preserve qorumaq buldan-defend müdafiə etmək belifan-remain qalmaq.

Fransız dilindən alınma sözlərin bir çoxu ingilis sözləri ilə sinonimlik cərgəsi təşkil etmiş və onlar arasında üslubi çalarlıq fərqi ortaya çıxmışdır: town-city, work-labour, body-corps, ghost-spirit, room- chamber, begin-commence, end-finish.

Isim və sifətlər arasında belə sinonimlik sıralar müçahidə edilir: foe-enemy düşmən home-domicile ev homely-domestic unlikely-improbable bold-courageous.

Fransız almanları çox zaman incə üslubi çalarlıqlar ifadə edir: wish-desire, luck-fortune, bloom-flower, bough-branch, folk-people, deed-act, fredoom-liberty, speech-language, beg-pray, heal-cure.

Qədim ingilis dilində qorxu mənnasında **stench** sözü işlənmişdir. Orta ingilis dili dövründə onu naməlum mənşəli **smell** sözü əvəz etmişdir. Eyni zamanda ingilis dilində fransız mənşli **aroma odour və scent** sözləridə daxil olmuşdur. Hazırda **smell** sinonimik tərkibin aparıcı üzvüdür digər üzvlır isə müəyyən müsbət və mənfi assosiasiyalarla bağlın olaraq işlənir. Məsələn stench pis qoxu mənasıdır.

Sinonimik tərkibinin ingilis mənşəli üzvləri çox zaman konkretdir onların sinonimik fransız cütləri isə nisbətən mücərrəd xarakter daşıyır:

freedon-librty frindship-amity happiness-felicity depth-profundity love-charity.

Bir çox hallarda alınma fransız sözü doğma sözü az işlək sinonimə çevirmişdir:

beautiful-fair gözəl valley-dale divide-cleave tremble-quake joyous-blithe forestry-voordcraft mirrov-looking-glass.

Bəzi sinonimlər üç dildə-ingilis fransız latın dillərində olduğunu görürük ki bunu misalların köməyi ilə göstərmək olar.

Beləliklə ingilis dilində leksik sinonimliyin inkişafında fransız dilinin təsiri böyük rol oynamışdır və nəticə etibarı ilə ingilis dilində üslubi baxımdan fərqlənən geniş ingilis-fransız sinonimliyi meydana çıxmışdır. Bu üslubi çalaqların dildə kommunikativ önəm daşıması zəngin ifadə xüsusiyyətlərinə malik olması həmin bəhsin tədqiqinin aktuallığını qoruyub saxlayır.

Ədəbiyyat

1 Serjeantson M.A.History of Foregion words in Engilish. London, 1937
2 Skeat W.Principles of Engilish Etymology. London, 1949.
3 Smith R.The English language. New-York, 1982

А.Шафига,
А.Шарафат

Французские синонимия заимствований в английском языке

Резюме

Французские заимствования в английском языке являя большим источником стилистической дифференциации англо-французских лексических параллелов. Изучение данной синонимии имеет практическое значение в английской лексикологии.Данная статья посвящена категории числа имен существительных в современном английском языке.синнимия.Известно, что категория числа является одним из основных морфологических признаков имени существительных. Она четко выделяется существительное на фоне других частей, поскольку число в английском языке регулярно выражается морфологически лишь в существительном. В данной статье не только приведены примеры из работ многих лингвистов, а также анализированы средства выражения категории числа, имен существительных в современном английском языке.

A.Shafiga,
A.Sharafatte

The Synonymy of the French borrowings in the English language

Summary

This article has been dedicated to the category of number of nouns in Modern English. It is known that the category of number is one of the main morfhological categories of the noun. It clearly differentiates the noun from other parts of speech as the category of number only in nouns is regularly expressed morphologically. Not ondy the examples from the works of some linguists have been given, but also the means of the expreension of the categorqy of number of nouns in Modern English have been analysed in this article.

The article deals with specific cases of phraseological units into the native language. Phraseology is one of the independent branch of the lingustics that study phrasological system of the language. It must be expressed not only by one word but also by the combination of several words in phraseological structure. Phraseological units fill the gaps in the lexical system of the language so in some cases they are considered as the only maning that give the names of things, processes,cases,situations and so on.

Rəyçi: Yusif Suleymanov
Filologiya üzrə fəlsəfə doktoru,dosent.

.

XALİDƏ ZEYNALOVA
KÖNÜL MƏMMƏDOVA
AzTU
xalidə-könül.@.mail.ru.

AZƏRBAYCAN VƏ İNGİLİS DİLLƏRİNDƏ SÖZ YARADICILIĞI PROSESİNDƏ SÖZDÜZƏLDİCİ ŞƏKİLÇİLƏRİN POLU VƏ ƏHƏMİYYƏTİ

Açar sözlər: sözdüzəldici şəkilçilər, keyfiyyət, qrammatika, suffiks, leksika, semantika
Key words: word–building suffıxes, quality, grammar, suffix, lexic,-semantics
Ключевые слова: словосочетание суффикс, качество, грамматика, суффикс,лексика, семантическа

Sözdüzəldici şəkilçilər söz kökünə artırıldıda onun semantik mənasını dəyişir, sözə yeni leksik semantik məna erir, yeni leksik vahid yaradır.

Sözdəyişdirici şəkilçilər əlavə etdikləri sözlərdə yeni leksik məna yaratmır, sözlərin təkcə formasını dəyişir, sözdə yeni qrammatik məna əmələ gətirir. .

Ingilis dilində yeni terminlər yaradılmasında bir çox suffıkslər iştirak edir. Belə sufhkslər aşağıdakılardan ibarətdir: ness,-ance, · ence, ·dis, ·in, ·age və s.

Azərbaycan dilində də sonu –-ik suffıksi vasitəsilə bitən söxlər imkanına görə geniş yayılmışdır. suffıkslə söz və yaxud termin əlamət və keyfiyyət xarakteri daşıyır. Bu suffıkslər söz və yaxud termin əlamət və keyfiyyət xarakteri daşıyır. Metamorfik təbii qaz (metamorphic natural gas), mexanik mühəndis (mechanical engineer), isometrik (monometrical), hidravlik perfarator (mud engine), qazometrik üsul(mud loggı'ng technı'que), orqanik süxur (organic rock), eksentrik boru açarı (exsentric tongs)və s. .

Azərbaycan dilində tərzi hərəkət zərfləri ilə sifətlər formaca eyni olurlar və yalnız işlədilməsinə görə bir – birindən fərqlənirlər. Belə ki, sifət ismə aid olub, ismi izah etdiyi halda, zərf felə aid olub feli izah edir.

Azərbaycan dilindən fərqli olaraq ingilis dilində tərzi hərəkət zərfləri həm işlədilməsinə görə, həm də formaca sifətdən fərqlənirlər. Ingilis dilində tərzi– hərəkət zərfləri əsasən sifətlərin sonuna – ly şəkilçisini əlavə etməklə formalaşır.

Poor-poorly sorted (pis seçilmiş)
Moderate (orta mülayim) — moderately firm ground (orta sıxlığı olan torpaq)

Chic -– chicly (qəşəng, zərif)
Chief– chiefly (əsasən, başlıca olaraq)
Nice – nicely (qəşəng)
quick-· quickly (tez, cəld)
rapid ·– rapidly (sürətlı)
bad ·baa'ly (PİS)
careful –carefully (diqqətli)
heavy — heavily (ağır, çətin)
slow -– slowly (yavaş)
perfect ··perfectly (mükəmməl) clearclearly (açıq. aydın, təmiz) serious seriously (ciddi)
jluent -fluently (səlist)
safe safely (təhlükəsiz)
exclusive exclusively (son dərəcə, yalnız)
Məsələn: 1. Many of the tools and techniques to explore for minerals have been advantageously used in academic studies on the Earth 's crust and its interior. 2. Portable rigs are relatively easy to move and quick to assemble in the oiljield. Qeyri müəyyən zaman zərfləri never, seldom, often, just, always, sometimes, ever və -ly şəkilçisi ilə əmələ gələn düzəltmə zərflərlə ifadə olunduqda xəbərin yanında olur.

Məs:– The operator suddenl stopped the machine. Operator qəflətən maşını dayandırdı. I have known him ever since he was a child. Mən onu lap uşaqlıqdan tanıyıram. This castle was built sometime in the eighteenth century. Bu qəsr vaxtilə on səkkizinci əsrdə tikilmişdir.

Araşdırmalardan görünür ki, suffıkslər öz mənşəyinə görə təsnif edilirlər. Sözdüzəldici suffıkslər leksik qrammatik və semantik sahələr üzrə təsnif olunmuşdur. Bir ilk növbədə sinxron yanaşmaya uyğun olaraq müasir ingilis dilində tez – tez işlənən suffıkslər aşağıdakı nitq hissələrinə uyğun olaraq təsnif olunur.

Fel düzəldən suffikslər. Fy/ ify (terrify,speechify, solidify); · ise/ize (equalise); ish (establish).

Zərf bir kəsin bir şeyi necə etdiyini və ya bir şeyin necə baş verdiyini bildirən əsas nitq hissəsidir. Leksik quruluşuna görə zərflər dörd yerə bölünür:
1. Sadə zərflər– (The simple adverbs)
Məsələn: here, there, fast, soon, now, hard etc
2. Mürəkkəb zərflər (The compound adverbs)
Məsələn: sometimes, nowhere etc
3. Tərkibi zərflər(The composite adverbs)
Məsələn : at all, at once, once upon a time etc

4. Düzəltmə zərflər– (the Derivative Adverbs)
Kök və şəkilçidən ibarət olur. Əksər tərzi– hərəkət zərfləri sifətin sonuna müəyyən şəkilçilər artırılmaqla düzəlir və bunlar aşağıdakılardır.

Zərf düzəldən suffikslər. ·ly[lı] · cloudy, cloudly, silently, slowly, directly, indirectly, equally, hardly, certainly, uniformly. · **wards, ward [wə.·d(z)]—** upward, backward, homewards, northwards. – wise [waız] · likewise way/ ways [weız] sideways – long [lən] –· headlong.

Məsələn: Screw conveyors can be operated with the path inclined upward but the capacity decreases rapidly as the inclination increases.

Zərfdüzəldici – ward / wards şəkilçisi əsasən zərf və isimlərin sonuna əlavə edilərək, istiqamət bildirən zərflər əmələ gətirir. Backward · geriyədoğru, foreward · irəli, homeward – evədoğru, southward – cənuba doğru, və s.

Məsələn: Flight conveyors will operate on an upward slope of 40” to 45 ”. As the element rotates, the material fed to it is moved forward and discharged.

Müasir ingilis və azərbaycan dillərində qrammatik ifadə vasitələri biri – birindən fərqlənir. Müasir ingilis dilində qrammatik inkar “not”inkar ədatı vasitəsilə, Azərbaycan dilində isə – ma, – mə,– m inkar şəkilçiləri ilə ifadə edilir.
I don*t know how to thank you.
Musa kişi bütün günü heç bir iş görə bilmədi.
Inkar leksik qrammatik ifadəsi isə hər iki dildə inkar əvəzlikləri və zərflər tərəfindən həyata keçir.
Müasir ingilis dilində cümləni inkara çevirmək üçün aşağıdakı zərflər də iştirak edir.
Seldom, rarely = not often
Hardly, scarecely, barely = almost not (hardly ever, scacerly ever).
N. A. Kobrina “ An English Grammar” kitabında qeyd edir ki, bu zərflər cümlədə işlənərkən:
Some, any və onlann törəmələri ilə əvəz edilir;
Sometimes və already ever və yet · ə çevrilir.
Məsələn: He hardly ever plays tennis now.
Onlar ayncı suallarda həmişə təsdiq cümlə ilə müşayət olunur.
She scarcely seems to care, does she?
Müasir ingilis dilinə nisbətən Azərbaycan dilində inkar əvəzlik və zərilərin işlənmə dairəsə daha geniş və zəngindir.

Ədəbiyyat

1) Aybəniz Məhərrrəmqızı. “Dil quruculuğunun yeni mərhələsi”. (söz yaradıcılığı). Bakı, 2004.
2) Dil vahidlərinin funksional struktur təhlili. BDU nəşriyyatı, Bakı .. 1988.
3)Amalya Bayramova. “Leksik alınmaların dilin zənginləşdirilməsində rolu”. Bakı-2009.
4) T.ƏAbbasquliyev “”ingilis dilindəki ərəb mənşəli sözlərin leksik tərkibinə dair”. Metodika və Dilçilik. Bakı-1984.

Z.KHalida,
M.Konul.

New grammatical meaning formation of word-building suff'ıxes in the english language

Summary

Words can be given extra meaning by prefixes at the beginning or suffixes at the end. In this article you can find the right addition to a word to build up the meaning.

Adding aflixes to existing words (the base or root) to form new words is common in academic English. Prefixes are added to the front of the base (like «») dislike), whereas suffixes are added to the end of the base (active –-> activate). Prefixes usually do not change the class of the base word, but suffixes usually do change the class of the word.

The most common prefixes used to form new verbs in academic English are: re·, dis-, over–, un·, mis-, out·. The most common sufüxes are: · ise, ·en, ·ate, (i)fy. By far the most common affix in academic English is · ise. The most common prefixes used to form new nouns in academic English are: ca– and sub-The most common suffıxes are: ·tion, ·ity, –er, · ness, –ism, -ment, -ant, -ship, -age, -ery. By far the most common noun affıx in academic English is -tion.

З.Халида,
М.Конуль

Новое грамматическое значение формирования словообразовающих суффиксов на английском языке

Резюме

Словам можно придавать дополнительный смысл префиксами в начале или суффиксами в конце. В этой статье вы должны найти правильное дополнение к слову, чтобы создать смысл.

Добавление аффиксов к существующим словам (база или корень) для формирования новых слов является распространенным явлением на академическом английском языке. Префиксы добавляются к передней части базы, тогда как суффиксы добавляются в конец базы. Префиксы обычно не меняют класс базового слова, но суффиксы обычно меняют класс слова.

Наиболее распространенными префиксами, используемыми для формирования новых глаголов на академическом английском языке, являются: повторное, -dis, -over, -un,-mis-,-out. Наиболее распространенными суффиксами являются: -ise, -en, -ate, (i)-fy. Безусловно, наиболее распространенным аффиксом в академическом английском языке является -ise.

Наиболее распространенными префиксами, используемыми для создания новых существительных на академическом английском языке, являются: сои вид-. Самыми распространенными суффиксами являются: -tion,-ity,-er,-ness,-ism,-ment,-ant,-ship,-age,-ery

Rəyçi: Adilə Zeynalova
Filologiya üzrə fəlsəfə doktoru,dosent.

.

AĞAXANIM QARAYEVA
Azərbaycan dövlət neft və sənaye universiteti
agaxanım.58 @ mail. Ru

LÜĞƏTLƏRİN TƏRTİBİNİN NƏZƏRİ VƏ ƏMƏLİ ƏSASLARI

Açar sözlər: lüğətlər, leksika, qrammatika, söz birləşmələri, müqayisə, izahatlar, tərcümə, mürəkkəb sözlər, xüsusiyyətlər, çətinlik, məna, amil, işarələr sistemi
Key words: dictionaries, lexics, qrammar, word combinations, comparison , explanations, translation, compound words, characteristics, difficulties, meaning, factor, sign`s system
Ключевые слова: словари, лексика, грамматика, словосочетание, сравнение, разъяснение, перевод, сложные слова, характеристика, трудности, значение, фактор, система знаков

Lüğətlər insanların müxtəlif mədəni ehtiyaclarını təmin edir. İkidilli lüğətlər xalqların bir-biri ilə əlaqə və dostluqlarını, bir-birinin dilinə bələd olmağa, bir-birinin dilini öyrənməyə xidmət edir. Bu və ya digər dilin lüğət tərkibini əhatə edən lüğətləri adətən iki böyük qrupa ayırırlar: ensiklopedik lüğətlər və filoloji lüğətlər. Ensiklopedik lüğətlərdə elm və texnikanın, iqtisadiyyatın, siyasətin, tarixin, incəsənətin və s. müxtəlif sahələrinə, dörkəmli və tarixi şəxsiyyətlərin həyat və fəaliyyətinə dair geniş və ya yığcam məlumatlar və izahatlar verilir. Filoloji lüğətlərdə isə sözlərin ancaq lüğəvi mənaları verilir. Filoloji lüğətlər sırasına tərcümə lüğətləri, izahlı lüğətlər, tarixi lüğətlər, etimoloji lüğətlər, frazeoloji lüğətlər, xarici sözlər lüğətləri və s. daxildir. Tərcümə lüğətlərinin ən çox yayılmış növü ikidilli, bir neçə dilli lüğətlərdir. Bu lüğətlərdə bir qayda olaraq, xarici dil sözlərinin ana dilinə tərcüməsi, yaxud əksinə, ana dili sözlərinin xarici dilə tərcüməsi və izahı verilir.

Tamamilə aydındır ki, hər bir elmdə olduğu kimi, lüğətçilikdə də iki cəhət vardır: elmi-nəzəri və əməli-tətbiqi. Əlbəttə, lüğətlərin yaradılması üçün lüğətçiliyin nəzəri və əməli aspektlərinin dərindən işlənməsi, müxtəlif tip lüğətlərin tərtibi prinsiplərinin elmi əsaslar üzrə hazırlanması vacib şərtdir. Şübhəsiz ki, hər hansı bir lüğətin yaranması üçün maddi bazadan başqa nəzəri baza da tələb olunur. Məsələn, izahlı lüğətlərin yaradılması ilə bağlı olan nəzəri bazanın əsas ünsürləri aşağıdakılardan ibarətdir:

1.Lüğətin sözlüyünün tərtibi prinsipləri köhnə sözlərin, məhəlli sözlərin, loru dildə (informal) işlənən sözlərin, terminoloji leksikanın, neologizmlərin (yeni meydana çıxan sözlərin), müxtəlif tip törəmə sözlərin və s. seçilib ayrılması;

2.Lüğətdə omonimlərin ayrılması problemi;

3.Lüğət maddələrinin quruluşu prinsipləri: mənaların izah və tərtib tipləri, mənaların, məna çalarlarının və sözün fərdi işlənmə hallarının bir-birindən ayrılması, məcazi mənaların müəyyənləşdirilməsi, çoxmənalı sözlərdə mənaların sıralanması prinsipləri.

4.Sözün bir-biri ilə bağlı, qrammatik, yaxud frazeoloji cəhətdən bir-birindən saılı olan mənalarının müxtəlif tipləri məsələsi.

5.Sözlərin leksik-qrammatik kateqoriyalarından asılı olaraq (müxtəlif nitq hissələri, köməkçi sözlər, ədatlar, prepozişinlər və s.), izah tiplərinin müəyyən edilməsi.

6.İzahlı lüğətlərdə üslubi işarələr və sözlərin uslub cəhətdən xarakteristikası üçün əsas götürülən meyarlar.

7.İzahlı lüğətlərdə frazeolofiya, frazeoloji vahidlərin seçilib ayrılması, onların izah üsulları, lüğətdə yerləşdirilməsi prinsipləri.

8.İzahlı lüğətlərdə əyani (illüstrativ) materialın seçılıb verilməsi və s. Özünəməxsus spesifikası olan ikidilli lüğətlər tərtibçidən, birinci növbədə, hər iki dili mükəmməl bilməyi, bir-biri ilə qarşılaşan dillərin qrammatik quruluşlarının lüğətdə əks etdirməyi bacarmağı, tərcümə olunacaq sözlərin qarşılığını ana dilində tapmağı və bu işdə orijinala əsaslanmağı, bir sözlə, ikidilli lüğətçiliyin nəzəri və əməli məsələlərini dərindən bilməyi tələb edirsə, izahlı lüğət qarşısında bir sıra daha spesifik və daha mürəkkəb nəzəri və əməli məsələlər durur.

Lüğətçilik , ümumən, dilin lüğət tərkibini təsvir etməklə, lüğət tərkibinin özünün hadisələrini, əlaqə və münasibətlərini sistemləşdirir, təsnif edir. Əgər lüğətçilik bir çox cəhətdən leksikologiyaya istinad edirsə, leksikologiya da bir çox cəhətdən lüğətçiliyin verdiyi materiala istinad etməlidir.

İkidilli lüğətlərin tərtibi ilə bağlı olan ümumi məsələlər sırasına aşağıdakılar daxildir:

a) lüğətin tipindən asılı olaraq ona daxil ediləcək sözlərin həm kəmiyyət, həm də keyfiyyətcə həcminin müəyyən edilməsi;

b) ikinci dildən asılı olaraq lüğətdə müəyyən qrammatik kateqoriyaların verilməsi məsələsi;

c) lüğətə daxil edilən xüsusi terminologiyanın hüdud və xarakterinin müəyyən edilməsi;

d) tərcümə olunacaq frazeoloji ifadələrin, onların tiplərinin, sabit və qeyri-sabit söz birləşmələrinin seçilib ayrılması prinsipləri;

e) lüğətin hazırlandığı ölkənin həyat, məişət, təsərrüfat və s. cəhətləri ilə bağlı xüsusi leksikanın onda əks etdirilməsi məsələsi;

f)qarşılaşdırılan iki dilin leksik ekvivalentləri, yəni tam, qeyri-tam, yaxud qismən qarşılığı olan və ya heç qarşılığı olmayan sözlərin verilməsi və necə verilməsi məsələsi;

g) ayrıca götürülmüş sözün tərcüməsi, ikidilli lüğətlərdə izah üsulundan hansı hallarda və nə şəkildə istifadə olunması məsələsi;

h) ikidilli lüğətlərdə qrammatik oçerk, sözdüzəltmə üsulları, tərcümə üsullarının əsasları haqqında məlumat əlavə edilməsi məsələsi.

Ümumiyyətlə, dilçilik elminin bölmələri arasında qarşılıqlı əlaqə o qədər sıx və çoxcəhətlidir ki, bunlar bir-birinə köməyi olmadan keçinə bilməzlər. Xüsusilə lüğətçilik ilə leksikologiya arasındakı əlaqə bu baxımdan səciyyəvidir.

Lüğətçilik işi leksikoloji tədqiqat tələb edir. Lakin nəzərdə tutmaq lazımdır ki, lüğət özü yalnız sistemli elmi təsvir və ümumiləşdirici tədqiq üçün əsas ola bilən müəyyən dərəcədə nizama salınmış və az-çox işlənmiş materialdan ibarətdir. Leksikologiyadan başqa lüğətçilik ilə qrammatika, üslubiyyət, xüsusilə semasiologiya arasında da çox sıx və mürəkkəb əlaqə mövcuddur. Lüğətdə söz və ifadələrin mənalarının müəyyənləşdirilməsi ayrı-ayrı mənalar arasındakı əlaqələrin aşkara çıxarılıb dəqiqləşdirilməsi, mənaların inkişaf və təkamülünün əks etdirilməsi və s. semasiologiya ilə bağlı olan məsələlərdir. Bununla əlaqədar olaraq lüğətdə mənaların düzgün ayrılması, verilən mənaların dildə olub-olmaması, müstəqil məna kimi ayrılmış bir mənanın digər bir mənanın caları kimi verilməsi, bir mənanın özündən əvvəlki mənadan doğması və s. kimi problemlər də ortaya çıxa bilər. Sözün mənasının özü dialektik dəyişikliyə uğrayır, inkişaf edir. Sözdə olan köhnə mənalar üzərinə yeni mənalar əlavə olunur, eyni bir söz özündə köhnə məlumatlarla yanaşı, yeni məfhumları da əks etdirə bilər. Ümumiyyətlə, dil və onun leksikasını təşkil edən sözlər daim inkişaf prosesi keçirir və müxtəlif ictimai, tarixi və s. səbəblər üzündən üslublar da dəyişə bilir. Vaxtilə dildə bu və ya digər söz, yaxud onun mənası, ya mənalarıbir leksik üsluba aid olduğu halda, müxtəlif tarixi dövrlərdə bu hal dəyişə bilir. Dilin leksikasında bu dəyişmə prosesi müxtəlif şəkildə cərəyan edir. Dildə bu cərəyan ikitərəfli olur. Bir tərəfdən lüğət tərkibi yeni sözlər hesabına zənginləşir, o biri tərəfdən isə köhnəlmiş sözlər dildən çıxır, unudulur, yəni arxaikləşir. Beləliklə, sözün üslubca səciyyəsi dəyişməz halda qalmır, əksinə, tarixi inkişaf prosesində dəyişikliyə və bəzən çox güclü dəyişikliyə uğrayır.

Məlum olduğu kimi dildə işlənən sözlərin əsas hissəsini neytral sözlər, yəni dilin bütün üslublarında işlənən sözlər təşkil edir. Lakin bununla yanaşı, dildə elə sözlər də vardır ki, onların işlənmə sahəsi digərlərinə nisbətən daha məhduddur. Buna görə də lüğətdə gedən sözləri üslub cəhətdən xarakterizə etmək, yəni sözün hansı üsluba aid olduğunu göstərmək

üçün müvafiq işarələr sistemi tətbiq edilir. Bu işarələr yalnız o sözlərin yanında qoyulur ki, bunlar digər sözlərdən bu və ya başqa cəhətdən fərqlənmiş olsun.

Lüğətin vəzifəsi oxucunu bəhs olunan əşya və hadisənin özü ilə tanış etmək deyil, ancaq sözün özünün başa düşülməsi üçün kifayət edəcək məlumat verməkdən, onun leksik mənasını izah etməkdən ibarətdir. Buna görə də oxucu lüğətdə sözlərin izahının mümkün qədər qısa və konkret verildiyini nəzərdə tutmalıdır.

Ədəbiyyat

1.Həsənov H. "Müasir Azərbaycan dilinin leksikası", Bakı 2001. səh. 265
2. Касарес Х. " Введение в современную лексикографию" Москва 1958, ст.85.
3. Бабкин А. М. " Лексикографический сборник " (по вопросам русской лексикологии и лексикографии) IV вып.-1960, ст. 8
4. Юлдашев А. А. " Принципы составления тюркско-русских словарей " Москва 1972. Ст.37
5. Orucov Ə. Ə. "Azərbaycan dili izahlı lüğətinin nəzəri əsasları " Bakı 1965 səh. 9

A..Garayeva

Theoretical and practical aspects in composition of dictionaries

Summary

Given article deals with importance of dictionaries in spheres as technics, science, economy, politics, history. Dictionaries give wide and concrete information and explanation of words, their translation, assimilation and etc.of learning language. It shoud be noted that there are two aspects in complication of dictionaries: theoretical-scientific and practical aspects.

The meaning of the words are subjected to the dialectical changes and progressed time by time. In this changing process the lexics of the language progresses in different ways. This development takes place in two aspects: in one hand dictionary content is enriched by means of new words, in the other hand old words are given out from the spoken language. The main duty of dictionary is not only connected with acquaintance objects or events but especially to explain direct meaning of word and give extended information for understanding it as a lexical unit.

А.Гараева

Теоретические и практические аспекты в составлении словарей

Резюме

Данная статья рассматривает особенности словарей в сфере технических наук, экономики, политики, истории. Словари дают широкий и конкретные информации и разъяснения слов, лексические значения и перевод данных слов. Надо отметить что, состав словарей бывает в двух аспектах\ научно-теоретические и практические.

Значение слов подвергается диалектическим изменениям и усовершенствуется время от времени. В лексике языка этот процесс изменения усовершенствуется различными способами. Это усовершенствование происходит в двух аспектах\ с одной стороны состав словаря обогащается значениями новых слов, а с другой стороны, старые слова исчезают из языка. Они становятся архаизмами. Главная обязанность словаря сочетается не знакомством читателя с предметом или событие, но объяснять лексическое значение слова и дать полную информацию, чтобы понимать как лексическая единица.

Rəyçi: Sevil Əliyeva
Filologiya üzrə fəlsəfə doktoru

SƏFA ŞƏRİFOVA
BDU
səfa@mail.ru

XARİCİ DİLLƏRİN TƏDRİSİNDƏ KOMMUNİKATİV YANAŞMANIN ROLU

Açar sözlər: təhsil , şifahi nitq, kontekst.
Key words: education, oral speech,context.
Ключевые слова: образование , устная речь,контекст.

Kommunikativ yanaşma 1960-cı illərdə Britaniyada mövcud olan ənənəvi dil təlimi metodlarının dəyişməsi ilə meydana çıxmışdır. Bu dövrə qədər geniş istifadədə olan Situasiyalı Dil Tədrisi və Audio-Linqual Metodun əsasında duran nəzəriyyələr artıq şübhə ilə qarşılanırdı ki, bu da onlardan istifadənin aradan qalxmasına və tezliklə kommunikativ yanaşmanın məhşurlaşmağına şərait yaratdı. Litlvud Kommunikativ yanaşmanı belə təsvir edir: "Kommunikativ dil tədrisinin əsas xarakterik xüsusiyyəti odur ki, o dilin funksional aspektlərinə də, struktur aspektlərinə də sistemli yanaşır və bunları vahid kommumikativ baxışda birləşdirir" [5,s.1]. Bu yanaşmanın əsas məqsədi kommunikativ cəhətdən səriştəli dilöyrənənlər hazırlamaq idi. Əslində, biz digər metodları da müzakirə edərkən onların əksəriyyətinin məqsədinin dilöyrənənlərdə kommunikasiya bacarıqları formalaşdırmaq olduğunu görürük. Lakin kommunikativ yanaşmada kommunikativ səriştə anlayışı daha geniş qeyd olunur.

Kommunikativ səriştə dil biliyinin aşağıdakı aspektlərini özünə daxil edir:1.Dildən bir sıra müxtəlif məqsədlər və funksiyalar üçün necə istifadə etməyi bilmək 2. İstifadə etdiyimiz dili yerinə və iştirakçılara görə necə dəyişdirməyi bilmək (məsələn, rəsmi və qeyri-rəsmi nitqdən nə vaxt istifadə etməyi və yaxud yazılı və şifahi kommunikasiyaya uyğun dildən istifadə etməyi bacarmağı bilmək 3. Müxtəlif mətnləri necə hasil etməyi və başa düşməyi bacarmaq 4.Dil biliklərində məhdudiyyətlər olmağına baxmayaraq kommunikasiyanı necə qoruyub saxlamağı bacarmaq (məsələn, müxtəlif növ kommunikasiya strategiyalarından istifadə vasitəsilə).Kommunikativ Dil Tədrisinin tətbiq edildiyi dərsdə müəllimin ilkin təqdimatından sonra şagird və tələbələr dili istifadəyə cəlb olunurlar. Onlar bunu oyunlar, rollu oyunlar, problem həllinə yönəlmiş tapşırıqlar kimi fəaliyyət növləri vasitəsilə edirlər. Tapşırıqlar dilin kommunikativ cəhətdən maksimum istifadəsinə şərait yaratmalıdırlar.

Bu yanaşmada istifadə olunan fəaliyyət növlərində autentik materiallardan tez-tez istifadə olunur. Tələbələrin yerli dil daşıyıcıları tərəfindən istifadə olunan dili işlədə bilmələri üçün strategiyalar inkişaf etdirmələrinə şərait yaradılır. Kommunikativ yanaşmanın xüsusiyyətlərindən biri də tələbələrin əksər sinif fəaliyyətlərini kiçik qruplarda işləyərək həyata keçirməsidir. Bu tələbələrin kommunikasiyasını maksimum səviyyəyə qaldırır və onlara məna üzərində işləməyə kifayət qədər imkan verir.Qiymətləndirmə kommunikativ fəaliyyətlər vasitəsilə həyata keçirilir. Bu yanaşmada müəllimin ilkin rolu şagirdlərin öyrənməyinə kömək etməkdir. Müəllim sinif fəaliyyətlərini idarə edir, məsləhətlər verir, öyrənciləri onlara lazım olan dillə təmin edir və digər bir halda Litlvudun göstərdiyi kimi "ko-kommunikasiyaçı" kimi çıxış edərək, onları kommunikasiya fəaliyyətlərinə cəlb edir [5, s.19].Kommunikativ yanaşma dil tədrisində bir sıra müasir metodların yaranmağına rəvac vermişdir. Buraya məzmun əsaslı təlimat, tapşırıq əsaslı təlimat, mətn əsaslı təlimat, sərištə əsaslı təlimat kimi müasir metodlar daxildir.XX əsrdə metodika elminin sürətli inkişafı əsrin sonlarına doğru bir metoddan ayrılıqda istifadənin əlverişli olmağına bəzi şübhələr doğurdu. Bununla da xarici dilin tədrisinə eklektik yanaşmanın təməl ideyaları meydana gəlməyə başladı. Keçən əsrdən başlayaraq muasir dövrə qədər gələn və hal hazırda, fikrimizcə, ən ideal yanaşma olan eklektism XXI əsrdə, post-metodika erasında ingilis dilinin tədrisində xüsusi əhəmiyyətə malikdir.1970-ci illərdən başlayaraq, müəllimlər və tədqiqatçılar anlamağa başladılar ki, bir elmi kəşf və yaxud bir dil tədrisi metodu ikinci dilin tədrisinin tam uğurla həyata keçirilməsinə imkan vermir. Lakin bu fikirlər 1990-cı illərdən başlayaraq öz təsdiqini tapmağa və inkişaf etməyə başladı. Bəzi tədqiqatçıların fikrincə, "metodlar sinifdəki davranışın təlimatlarıdır və xüsusi bir kontektsə uyğun olub-olmamasından asılı olmayaraq, dərslik naşirləri və akademiklər tərəfindən müəllimlərə təqdim olunur (Pennycook, 1989). Digərləri qeyd edirdilər ki, ən yaxşı metod axtarışı məsləhətə uyğun deyil (Prabhu, 1990; Bartolome, 1994), çünki müəllimlər dərslərini planlayarkən, metodlar haqqında düşünmürlər (Long, 1991). Digər bir səbəb isə odur ki, metodiki yazılar bizə əslində siniflərdə nə baş verdiyi haqda çox az məlumat verir (Katz, 1996) və müəllimlər metodikada mütəmadi gəlib gedən yeni dəbdən aydındır ki, yorulurlar (Rajagopalan, 2007). Həmçinin Hinkel (2006) qeyd edir ki, situasiyaya uyğun dil pedaqogikasına olan ehtiyac metodların tənəzzülünə gətirib çıxarmışdır. Müəllimlərin təcrübələri onlara kontekstə uyğun, öyrənənlərin ehtiyaclarını nəzərə alaraq yeni üsullar təklif etməyə imkan verir. S. Kraşen müəllimə etimadın əhəmiyyətini qeyd edərək yazırdı: "Yaxşı təhsil sistemi… o demək deyil ki, bütün və yaxud əksər müəllimlər təklif olunan eyni üsulları tətbiq etsinlər, yaxşı sistem odur ki, orada bütün və ya əksər müəllimlər istənilən üsulu icra etmək üçün

seçməkdə inamlı olurlar və hər bir müəllimin etimad hissi canlı və yaxud aktiv, həmçinin, gələcək inkişaf, dəyişiklik üçün ola biləcəyi qədər açıqdır" [1, s.106].Riçardsın sözləri ilə post-metodikanın xüsusiyyətlərini belə ümumiləşdirə bilərik: "Bu termin bəzən xüsusi bir metoda aid olan təlimatlar və üsullar və yaxud əvvəlcədən müəyyənləşdirilmiş sillabus əsasında qurulmayan tədris prosesini ifadə edir, bu termin müəllimin dil, dilöyrənmə və dilöyrətmə haqqında individual konsepsiyalarından, müəllimin təlim və təcrübədən əldə etdiyi praktik bilik və bacarıqlardan, onların öyrənənlərin ehtiyacları, maraqları və öyrənmə üslubları haqqında biliyindən, həmçinin, müəllimin tədrisin konteksini necə dərk etməyindən qaynaqlanır"[7,s.10] . Yuxarıda qeyd olunan mövqelərdən ikincisini qəbul edərək, öz işində tətbiq etmək, xarici dilin tərdrisinə eklektik yanaşma deməkdir. Eklektizm konseptual bir yanaşma olub, yalnız bir paradiqmanı və yaxud müəyyən fərziyyələri deyil, ümumilikdə müxtəlif çoxsaylı yanaşmaları, formaları, üsulları və ideyaları özünə daxil edir. Tədris prosesinə eklektik yanaşma o deməkdir ki, qarşıya qoyulan məqsədə nail olmaq üçün bizə məlum olan yanaşmalar, metodlar və nəzəriyyələrdən ən uyğun olanını seçirik və öz tədris metodumuzda tətbiq edirik. Bu gün xarici dilin tədrisinin inkişafı üçün təklif olunan yeni fikirlərin əsası məhz bu metodlara asaslanır. Keçmiş təcrübələrin üstünlükləri və çatışmazlıqları xarici dilin tədrisində yeni ideyaların yaranmasına və inkişafına təkan verir.Müasir dövrdə dünya təhsil sistemi üçün prioritet sayılan istiqamətləri nəzərə almadan təhsilin standartlara uyğun inkişafından bəhs etmək lüzumsuz olardı. Müasir informasiya cəmiyyətində tələbəyə lazımi məlumatı axtarmaq, seçmək, emal və təhlil etmək, yeni informasiya yaratmaq, bu əsasda mövqe formalaşdırmaq, qərar qəbul etmək və qərarı həyata keçirmək kimi səriştələrə yiyələnə bilir. İndi hər bir müəllimin vəzifəsi təhsilalanlara öyrənməyi öyrətmək, onlara yardımçı olmaq, bələdçi (fasilitator) rolunda çıxış etmək, informasiya mənbələri ilə tələbə arasında vasitəçi funkiyasını yerinə yetirməkdir. Bu baxımdan müəllim öz təşəbbüs və qənaətlərini aktiv tərəfindən-şagirdlərin fikir və fəaliyyətləri ilə birləşdirdikdə, "tədrisi interaktiv (birgəfəaliyyət, əməkdaşlıq, qarşılıqlı kollektiv iş) səmtə istiqamətləndirdikdə təlimin texnoloji səmərəsi daha üstün olur".Yəni texnoloji prosesə sistem halında yanaşdıqda, həm şagird və tələbə idrakının formalaşmasına, həm fəaliyyət çevrəsinin genişlənməsinə, həm də müəllimin novatorluğunun məkan və zaman daxilində yeni keyfiyyətlərlə görünməsinə əlverişli şərait yaradılmış olur. İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, XXI əsrdə təhsilalanların hər biri yaradıcı və müstəqil düşünən, tədqiqatçılıq bacarığını inkişaf etdirən bir şəxsiyyət kimi formalaşmalı və inkişaf etməlidir. Bizə belə gəlir ki, ölkəmizdə də təhsil islahatının əsas prinsipləri (tərbiyəyönümlülük, nəticəyönümlülük, tələbəyönümlülük, inteqrativlik və s.) təhsilalanların tədqiqatçılıq bacarıqlarının formalaşdırılmasına və inkişaf

etdirilməsinə yönəlməlidir. Xarici dillərin tədrisində bilik və bacarıqların möhkəmləndirilməsi, onların tətbiqi prosesi mühüm yer tutur. Bu prosesdə əsasən öyrənənlərin müstəqil fəaliyyətinin səfərbər edilməsi tələb olunur. Tədqiqat göstərir ki, tədrisin müvəffəqiyyətlə həyata keçirilməsi üçün ilk növbədə problemli yanaşma tərzi ön plana çıxarılmalıdır. Problemli təlimin spesifik xüsusiyyətləri vardır. Bu yanaşmanın üstünlüyü ondadır ki, şagird və ya tələbə tədris materialını qoyulan problem əsasında müstəqil həll etməyə çalışır. Bu təlimin əsasını situativlik təşkil edir. Təlimdə problemli situasiya yaradan zaman müəllimin və tələbələrin fəaliyyət xüsusiyyətləri xeyli fərqlənir. Problemli situasiyada ağırlıq mərkəzi şagird və ya tələbənin üzərinə düşür, onun fəallığı bir qədər artır. Dərsdə müəllim yeni mövzu ilə əlaqədar tələbələrin qarşısında problemli vəzifə qoyur, onlar qoyulmuş vəzifəni qavrayır və onun mümkün olan həlli yollarını düşünürlər; müəlim problemin həlli yollarını danışmağı təklif edir, onlar vəzifənin mümkün olan həlli yollarını sadalayırlar; müəllim öz fikirlərinin doğruluğunu əsaslandırmağı tələb edir; onlar öz mülahizələrinin həqiqiliyini isbat etməyə çalışırlar; müəllim daha düzgün olan mülahizəni müəyyənləşdirməyi tələb edir, tələbələr bu tapşırığın da öhdəsindən gəlirlər; müəllim düzgün ehtimaldan yeni biliklə əlaqədar müvafiq nəticə çıxarmağı onlara təklif edir; tələbələr müəllimin rəhbərliyi altında yeni biliklə əlaqədar nəticələr çıxarırlar; lazım gəldikdə müəllim onların aldıqları nəticələri ümumiləşdirir; tələbələr ümumiləşmiş yeni biliyi dərk edirlər; müəllim mənimsənilən yeni biliyi möhkəmləndirmək üçün sual və tapşırıqlar verir; tələbələr müxtəlif formalarda təkrarla məşğul olurlar; müəllim öyrənilmiş yeni biliyi tətbiq etmək məqsədi ilə tələbələrin əməli işini təşkil edir.

Ədəbiyyat

1. Krashen S.D. Principles and Practice in Second Language Acquisition. Pergamon Press Inc. 1982, 202 p.
2. Kumaravadivelu B. Towards a postmethod pedagogy. TESOL Quarterly, 2001, 35(4), pp. 537-560
3. Kumaravadivelu B. Understanding Language Teaching. From Method to Postmethod. London. Tylor & Francis e- Library, 2008, 276 p.
4. Lightbown P. M. and Spada N. How languages are learned. Oxford: Oxford University Press, 1993, 135 p.
5. Littlewood W. Communicative Language Teaching. Cambridge: Cambridge University Press, 1981, 108 p.
6. Long M. H. Native speaker/ non-native speaker conversation and the negotiation of comprehensible input. Applied Linguistics, Vol. 4, 1983, pp.126-141

7. Richards J.C. Curriculum approaches in language teaching: Forward, central, and backward design. RELC Journal, 44(1), 2013, pp. 5-33.

S.Sherifova

The role of communicative approach in FLT

Summary

The article deals with the ways of developing communicative approach in FLT . Today the main goal of teaching and learning foreign languages in the global world is developing language learners' ability to use the target language for communication. The main aim of State program is to form a unique national education by means of ICT and provide qualitative educative opportunity in order to integrate into worldwide education system.

The process of teaching English should be based on the communicative – functional approach to teaching languages. The whole process of teaching speech should be goal-oriented systematic. One of the main goals of language learning is to acquire the ability to communicate effectively.

С.Шерифова

Роль коммуникативных подход на преподавании иностранного языка

Резюме

В данной статье рассматриваются о роль коммуникативного подхода на преподавании иностранного языка.

Основной целью Государственной программы является формирование единой обшенациональной среды образования путём внедрения и использование современных информационно-коммуникативных технологий и обеспечением возможностью качественного образования, а также создания условий для интеграции государственной системы образования в мировую систему образовании. Процесс английскому языку в целом и процесс обучения речи должен базироваться на коммуникативно – функциональном принципе. Обучением устной речи должно носить целенаправленный, системный, поэтапный характер, что будет содействовать повышению еффективности данного процесса.

Одной из основных целей изучения языка является обладение умением эффективно общаться на изучаемом языке.

Rəyçi: Nuriyə Əliyeva
Filologiya üzrə fəlsəfə doktoru

YEGANƏ MİRZƏYEVA
BDU
yegane@mail.ru

XARİCİ DİLLƏRİN TƏDRİSİNDƏ LÜĞƏTLƏRDƏN İSTİFADƏ

Açar sözlər: ünsiyyət, nitq,kontekst.
Key words:communication , speech, context.
Ключевые слова: коммуникация, речь, контекст.

Müasir təlim konsepsiyası və prinsipləri təhsilalanlardan fəallıq, məntiqi düşüncə, müstəqil tədqiqatlar apara bilmə, konkret biliklərə yiyələnmə və fərdi inkişaf etmə bacarıqlarının formalaşdırılmasını tələb edir. Bu tələbləri nəzərə alaraq elə təlim metodlarından istifadə olunmalıdır ki, şagird və tələbələr özlərində fəal, yaradıcı dilöyrənmə və ünsiyyət qabiliyyətlərini aşılaya bilsinlər.

İxtisas dilindən ünsiyyət məqsədilə istifadə etmək və bu sahədə mütəxəssislərin hazırlanması ali məktəblər, xüsusilə də ali ixtisas məktəblərinin qarşısında duran əsas vəzifədir. Bu gün ali təhsil qarşısında duran ən önəmli vəzifələrdən biri müasir dövrün tələblərinə uyğun olan xarici dil müəllimlərinin hazırlanmasıdır. Dil sahəsində mütəxəssislərin günün tələblərinə cavab verən şəkildə hazırlanması, xarici, o cümlədən, ingilis dili müəllimləri, tərcüməçi və dilçilərin yüksək peşə keyfiyyətlərinə yiyələnməsi bu gün mühüm əhəmiyyətə malikdir. Qloballaşma dövründə Azərbaycanın dünya dövlətləri ilə mədəni, siyasi, iqtisadi əlaqələrinin bərqərar olması ilə əlaqədar qlobal səviyyədə əsas ünsiyyət dili statusunu qazanmış ingilis dilini öyrənən insanların sayı günü-gündən artmaqdadır. Müasir dövrdə isə biliyə münasibət tamamilə dəyişib. Çünki yaşadığımız yüksək texnologiyalar dövründə biliklər sürətlə köhnəlir, bacarıq və dəyərlər, kompetensiyalar isə öz əhəmiyyətini uzun illər boyu saxlayır. İndi biliklərdən istifadə etməyə – onların tətbiqinə daha çox önəm verilir. Ona görə də tələbələr daha çox gündəlik həyatda qarşılaşdıqları problemləri həll etməkdə, məsələlərə analitik yanaş-maqda, yaradıcı düşünməkdə yiyələndikləri biliklərdən istifadə bacarıqlarına malik olmalıdır. Bu gün yalnız bilikli deyil, daha çox müəyyən sahədə tənqidi təfəkkürə malik olan sərişteli mütəxəssislərin hazırlanmasından bəhs edilir. Göstərilən vəzifələri yerinə yetirmək üçün yeni metodiki iş üsulları və yanaşmalar işlənib hazırlanmalıdır. Bu prosesdə tələbələr müəllimin rəhbərliyi altında, xüsusi seçilmiş, asan başa düşülən və yaddaqalan, ən vacib təlim materialının öyrənilməsi prosesində fakt və hadisələrin səbəb-nəticə

əlaqələrini, qanunauyğunluqlarını aşkar etməyi, düzgün nəticə çıxarmağı, mühüm və dərin ümumiləşdirmələr aparmağı öyrənirlər. Eyni zamanda, nəzərə almaq lazımdır ki, xarici dillərin tədrisində kommunikativ-funksional yanaşma önəmlidir və hər bir tələbənin fəal ünsiyyət prosesində iştirakı vacibdir.Müasir dünyada əsas ünsiyyət dili olan ingilis dilinin yüksək səviyyədə mənimsənilməsi ölkəmizin orta və ali təhsil müəssisələri qarşısında qoyulan əsas tələblərdən biridir. Bu gün ingilis dilinin ünsiyyət vasitəsi kimi öyrənilməsinin vacibliyi danılmazdır.

İngilis dilinin lüğət tərkibinin öyrənilməsində və tətbiqində yoxlama zamanı aydın olur ki, öyrəncilərimiz bir çox çətinliklərlə üzləşirlər. Dilin lüğət tərkibi dilin mənimsənilməsində birinci və ən önəmli addımdır. Əgər tədris zamanı xarici dili öyrənən öyrəncilərə bu yad dili öyrənmək çətinlik, yaxud narahatlıq törədirsə, bu zaman interaktiv üsula əl atmaqla, bir neçə maraqlı dil tapşırıqları təqdim etməklə vəziyyəti dəyişmək olar.

Onu qeyd etmək lazımdır ki, dərslərin əksəriyyətində tərcümələrə daha çox yer verilir. Yəni dərslərdə bütün yeni sözlər tərcümələri ilə öyrəncilərə təqdim olunur. Bu üsul tələbələri çaşdırır və sərbəst işləməkdən yayındırır. Çünki elə sözlər var ki, verilən tərcümə mətnin mövzusu ilə uzlaşmır.

İngilis dilinin lüğət tərkibi ilə işləyərkən tələbələrin üzləşdiyi problemli məsələlərdən biri də təqdim olunan sözləri və onların mənalarını yadda saxlamaqdır. Bunu aradan qaldırmaq üçün bir neçə məhsuldar yollar var ki, müəllim və tələbələr onlardan istifadə etməlidirlər. Bu yollar aşağıdakılardır:

1) Diqqətlə dinləmək.Bu zaman müəllim yeni söz təqdim edərkən onu səsli şəkildə cümlə daxilində, yaxud ayrılıqda tələffüz etməlidir, eyni zamanda yaxşı olardı ki, çətin sözləri hecalara bölərək tələffüz etsin.

2) Sözü tələffüz etmək – tələbələr eşitdikləri, öyrəndikləri sözləri şifahi olaraq tələffüz etsələr, yaddaşlarına həkk olar.

3) Sözü izahlı şəkildə öyrənmək – bu yol sözlərin tam dəqiqliyi ilə yadda qalmasına kömək olur. Eyni zamanda sözləri izahlı şəkildə yadda saxlayanda istənilən xarici dil mətnini rahatlıqla anlamaq mümkündür. Çünki tərcümədən fərqli olaraq hər hansı bir mətni ifadə olunduğu dildə dərk etmək öyrənciyə daha rahat və asan gəlir.

Sözsüz ki, tələbələr çalışmaları ilk dəfə yerinə yetirəndə çətinliklərlə üzləşirlər. Çünki sözlərin bir çoxunun mənasından tam xəbərsiz olurlar. Əlbəttə ki, yeni sözlərə aydınlıq gətirilməli, tələbələr qeydlər aparmalıdırlar. Bu prosesdən sonra tapşırıq yenidən yerinə yetirilərkən böyük problemlər yaşanmır. Düzdür, tələbələr bir neçə yerdə səhvlərə yol verə bilərlər, lakin hamısına izahat verilməsi şərtdir.Çünki bəzən öyrəncilər yeni sözləri bu cür situasiyalarda daha yaxşı və uzunmüddətli yadda saxlayırlar. Sonra

tələbələrə ev tapşırığı kimi həmin sözləri cümlələrdə işlətmək tapşırılır və həmin mətnləri növbəti dərs danışsınlar.

Tədris prosesində tələbələrdə lüğət ehtiyatlarının zənginləşdirilməsi məsələsinin vacibliyi baxmayaraq, burada sözlərin mənimsənilməsi məqsəd yox, bir vasitədir. Ən vacibi isə anlama məqsədilə verilən suallar və onların cavablandırılmasıdır. Qeyd olunduğu kimi, mətnlə tanışlıqdan əvvəl verilən suallar tələbələrin diqqətini mətndə olan vacib problem və məsələlərə yönəltməlidir. Burada verilən suallar mətndə olan məzmunla əlaqəli olmalıdır. Bu mərhələdə, tələbələrə ingilisdilli mədəniyyətdə mövcud olan qayda və normalar, müxtəlif məsələlərə dair münasibətlər haqqında fikir və rəylərini bildirmək təklif edilir. İngilis dilli mədəniyyət dedikdə, yalnız ingilislərin mədəniyyəti deyil, həm də amerikalıların və Britaniyada yaşayan digər yerli xalqların mədəniyyətləri nəzərdə tutulur. Güman edilir ki, naməlum olan leksik vahidlər deyil, məhz kulturoloji xarakterli məlumatların tələbələrdə olmaması çox vaxt oxu prosesində problem və çətinliklərə səbəb olur. Onu da qeyd etmək lazımdır ki, verilən sualların heç də hamısı dərsdə cavablandırılmamalı, əksər sualların cavablarını tələbələr dərsdə deyil, auditoriyadan kənar şəraitdə, müstəqil şəkildə araşdırmalar apararaq tapmalıdır.Belə sual ortaya qoyula bilər: Yoxlama nə üçün lazımdır? Yoxlama müəllimlərə ona görə lazımdır ki, tələbələrinin ingilis dilini öyrənilməsində hansı nailiyyətlər əldə etdikləri, yaxud zəif tərəflərini müəyyən etmiş olurlar. Bu həm müəllimlərə, həm də öyrənclərə bilik səviyyələrini müəyən etməyə kömək edən vasitədir.İngilis dilini mükəmməl dərəcədə bilmək hər bir öyrənci üçün inanılmaz dərəcədə vacibdir. Xarici dili mükəmməl səviyyədə bilmək üçün tələbələrin həmin dildə lüğət tərkibləri ürəkaçan olmalıdır. Lüğət tərkibi sahəsində bilik səviyyəsini ancaq yoxlama yolu ilə müəyyənləşdirmək mümkündür. Yoxlama isə, əlbəttə ki, bir sıra tapşırıqların yerinə yetirilməsi ilə baş verir. Müəyyən tapşırıqlar vasitəsilə bütün növ lüğət tərkibini (aktiv şifahi, aktiv yazı, passiv dinləmə və passiv oxu) yoxlamaq mümkündür. Yoxlanılacaq lüğət fondunun məzmunu mütləq lazımı, bilik səviyyəsinə uyğun materiallardan seçilməlidir, eyni zamanda tələbələrin ehtiyaclarını ödəməlidir. Əgər “ placement ” yoxlama növü tələbənin bilik, bacarıq və vərdişini yoxlama yolu ilə tələbənin yerini müəyyənləşdirirsə, “ diagnostic ” yoxlama növü isə öyrəncilərin ingilis dilinin lüğət tərkibini öyrənərkən üzləşdikləri çətinlikləri ortaya çıxardır, bilik və bacarıqlarındakı çatışmayan cəhətləri araşdırır. Beləliklə, bu yoxlama yolu vasitəsilə öyrəncilərin ingilis dili lüğət fondunda üzləşdikləri problemlər araşdırılaraq onların aradan qaldırılması üçün işlər görülür.

Ədəbiyyat

1. Maclennan, S. 1987. " Integrating Lesson Planning and Class Management ELT Journal, 41,3,193-7.
2. MacCorquodale, Kenneth. 1970. On Chomsky's Review on Skinner's Verbal Behavior. Journal of the Experimental Analysis of Behavior 13: 83-99.
3. McCulloch, D. Languages hit the Grammar Gap. " Sunday Times" (25.05.94).
4. Morgan, J and M. Rinvolucri. Once Upon a Time, Cambridge: Cambridge University Press, 1983, pp. 14-18.
5. McGroarty, Mary. 1984. Some Meanings of Communicative Competence for Second Language Students. TESOL quarterly 18:257-272.

Y.Mirzayeva

On the use of vocabularies in FLT

Summary

The article deals with the use of vocabularies in FLT . Today the main goal of teaching and learning foreign languages in the global world is developing language learners' ability to use the target language for communication.

The process of teaching English should be based on the communicative – functional approach to teaching languages. The whole process of teaching oral speech should be goal-oriented and systematic. It will make the process of teaching oral speech more effective.

Today the main goal of teaching and learning foreign languages in the global world is developing language learners' ability to use the target language for communication.Speaking comprehension is one of the most basic and important of the four skills in language teaching&learning.One of the main goals of language learning is to acquire the ability to communicate effectively.

Й.Мирзаева

К вопросу об использовании словарей на преподавании иностранного языка

Резюме

В данной статье рассматриваются **об использовании словарей на преподавании иностранного языка.**. Здесь говорится о необходимости внесения радикальных изменений в существующую систему обучения устной речи на иностранном языке.

Процесс английскому языку в целом и процесс обучения должен базироваться на коммуникативно – функциональном принципе. Обучением устной речи должно носить целенаправленный, системный, поэтапный характер, что будет содействовать повышению ефективности данного процесса. В условиях глобализации основная цель обучения иностранным языкам и их изучения состоит в формировании у обучаемых способности использовать язык в целях коммуникации.

Умение адекватно воспринимать информацию в процессе “speaking” является одним из самых важных и необходимых умений которыми должен обладать человек, изучающий язык в тех или иных целях. Одной из основных целей изучения языка является обладение умением эффективно общаться на изучаемом языке.

Rəyçi: Nuriyə Əliyeva
Filologiya üzrə fəlsəfə doktoru

ZEMFİRA ƏHMƏDOVA
Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası
Zemfirahmad@hotmail.com

KİTABİ DƏDƏ QORQUD ƏSƏRİNDƏ EVFEMİZMLƏR

Açar sözlər: Kitabi Dədə Qorqud, tabu, evfemizm, doğum, ölüm, din.
Key words: The Book of Dede Korkut, taboo, euphemism, birth, death, religion
Ключевые слова: Китаби деде Коркуд, табу, эвфемизм, рождение , - смерть религия.

lnsanların ünsiyyət mədəniyyəti bəşəriyyətin min illər boyu yaratdığı müəyyən qaydalara əməl edilməsinə əsaslanır. Orta əsrlərin axırlarından etibarən bu qaydalar etiket adlanır. Müasir dilçilik elminin qarşısında duran linqivistik problemlərdən biri də nitq etiketinin, daha dəqiq desək, dildə ədəb–nəzakət anlayışının formal ifadə imkanlarının açıqlanmasıdır. Bu problemə dilçiliyin son inkişaf mərhələsində olan belə maraq birinci növbədə nitq fəaliyyətinin nəzərə çarpacaq dərəcədə fəallaşması ilə bağlıdır.

Müasir insanın nitq fəaliyyəti yalnız məişət çərçivəsində məhdudlaş-mayıb, teatr, kino, radio, televiziya, təhsil, hərb və s. kimi çox geniş auditoriyaya malikdir. Bu audiltoriyadan hər birinin ədəbli, nəzakətli, tikansız, kobud olmayan nitqə ehtiyacı var. Ümumiyyətlə, cəmiyyətdə yaşayan hər bir insanın ədəbli, nəzakətli nitqə ehtiyacı vardır. Çünki, nitq fəaliyyətində ədəb-nəzakət qaydalarına riayət edilməsi dil daşıyıcıları olan hər bir şəxsin və elmdə hər bir kollektivi, qlobal səviyyədə isə hər bir millətin mədəni səviyyəsi ilə ölçülür.

Etiket ünsiyyətin yalnız formalarını, texniki cəhətlərini deyil, müsahibin hisslərinə toxunmadan mübahisə etməyi, münaqişəsiz, uğurlu dialoqun yaradılması, stol başında necə davranmağı, hədiyyəni necə təqdim etməyi və s. məsələləri müəyyənləşdirir. Buna görə də, mədəni, tərbiyəli şəxs sayılmaq üçün etiket qaydalarını sadəcə bilmək heç də kifayət deyildir.

Cəmiyyət içərisində dil istifadələrinə baxdığımız zaman qarşımızda dilçilik elmi nöqteyi nəzərdən fərqləndirici olaraq qəbul edəcəyimiz bir çox növ vardır. Bunlar arasında ən yayılmışları jarqon, arqo, söyüş, dua, bəddua, tabu və evfemizmləri misal göstərmək olar.

Özünəməxsus dil xüsusiyyətləri olan evfemiya qavramı Azərbaycan dilində geniş istifadə olunan məna xüsusiyyətləri, yaranma növləri və funksiyası bu məqalənin tədqiqat obyektini təşkil edir. Evfemizmlər, ümumilikdə sosial psixoloji mənaları özündə cəmləşdirən tabu ictimai

nəzarətin həyata keçməsinə itaət, qorxu hörmət kimi qavramlardan da söz edəcəyik. Bəzi evfemizm növlərində isə cəmiyyət nəzarətinin və üstün eqonun birbaşa təsirinin görünmədiyini, hiss edilmədiyini görəcəyik.

Məqalədə ilk öncə evfemizmin tərifi açıqlanacaq sonra isə "Kitabi Dədə Qorqud" eposunda istifadə olunan evfemizm növlərinə dair misallar veriləcəkdir.

Tabu insanlığın ən qədim yazılmayan qanunu kimi yasaqlamalarla ortaya çıxan və həmin bu yasaqların pozulması ilə cəza sistemlərini doğuran müqəddəsliyi və ya qeyri müqəddəslikdən danışır. Məsələn, hər hansı bir hərəkətlərin edilməsi və ya o hərəkətdən bəhs edilməsi tabu sayıla bilir. Bir hərəkətin edilməsi tabu olduğu qədər onun haqqında danışılması da tabudur. Tabu və evfemizmlər sanki bir medalın iki üzüdür. Tabuların varlığı insanları evfemizlərdən istifadə etməyə sövq edir. Bu səbəbdən kobud olaraq qarşılanan vəziyyətlərdən bəhs etmək məcburiyyətində qaldığımızda onu daha yumşaq və zərərsiz kəlmələrlə ifadə etməyə çalışırıq. Buna bir növ senzura da deyə bilərik. Bu senzura ictimai normalardan, sosial nəzarətdən və bir arada yaşamaq məcburiyyətindən irəli gəlir.

Hər bir cəmiyyətin onun üzvlərini bir arada saxlamaq üçün xüsusi qanunları da vardır. A. İnkeles insanların cəmiyyət içərisində birlikdə yaşamaq üçün zəruri olan dörd başlıq altında toplarkən bunun ikincisini ortaq yaşamın tələb etdiyi qanunlar kimi təyin etmişdir. Bu reallığa əsasən insanlar arasındakı ən böyük ünsiyyət vasitəsi olan dil də sosial və mənəvi təzyiqləri nəzərə alaraq müxtəlif dəyişikliklərə uğrayır. Məsələn: Azərbaycan dilində *zibil daşıyan* dedikdə zibil daşıyan şəxslərin alçala biləcəyini nəzərə alaraq onlara *təmizlik işçisi*, *şikəst* və ya *əlil* əvəzinə *fiziki məhdudiyyəti olan şəxs* kimi ifadələrdən istifadə olunur. Ümumişlək olmalarına və istifadə dərəcələri dildən dilə fərqlilik göstərsə də ən yayılmış mövzular din (tanrı), maddiyat, sosial sahələr, irq, ölüm, doğum və s. mövzulardır. Din, mövhumat, tabu başlığı altında tədqiq edilən digər evfemizmlər ölümlə xəstəliklə fiziki və ya zehni qüsurlarla, sosial siniflərlə, irqlərlə, pulla siyasətlə əlaqədar olan evfemizlər. Xüsusilə ölüm və xəstəliklər kədərli bir hiss yaratdığından insanlar bununla əlaqədar ifadələri birbaşa söyləməkdən imtina edirlər. Məsələn: *xəstə* əvəzinə *naxoş olmaq, özünü yaxşı hiss etməmək, özünü pis hiss etmək* və s. İngilis dilində *xəstəxana* mənasındakı *hospital* sözü *to host* yəni *ev sahibliyi etmək, qonaq etmək* sözü ilə eyni kökdən gəlir. Burada evfemiyanın ən bariz nümunəsini görürük. Yəni *hospital* xəstələrin olduğu yer deməkdən qaçınaraq misafirliyə gedilmiş yer olaraq qavranılaraq xəstə olan insanlara psixoloji bir rahatlıq təmin etmək məqsəsi ilə istifadə edilir. Baxmayaraq ki bu yerlər "*sick house*" və ya *"ill house"* yəni xəstə evi kimi kəlmələrlə də ifadə edilə bilərdi. Amma bu misalda azərbaycan dilində eyni həssaslığa rast gələ bilmirik. Analoji hal

alman dilinə də alman dilinə də aiddi. Burada xəstəxana üçün *krankenhaus* yəni *kranken* xəstələr , haus ev, xana deməkdir.

Dövrümüzün müalicəsi çətin xəstəliklərindən olan *xərçəng* üçün birbaşa öz adı ilə deyil, *amansız xəstəlik, pis xəstəlik* kimi ifadələrdən istifadə edilir. Bu zaman bu xəstəliyə tutulmuş insan üçün duyulan üzüntü gizli saxlanılaraq adını çəkdiyimiz ifadələrlə kamuflyaj edilir. Eyni zamanda mənfi hadisələr, vəziyyətlər haqqında danışarkən də onların həyata keçmə ehtimalına olan inam da özünü göstərir. Bu zaman belə hadisənin adının birbaşa anılmaması yolu ilə mənfi vəziyyətin öz başlarına da gəlməyinin qarşısını almaq niyyəti vardır. *"Bizdən uzaq, bizdən iraq, evdən eşikdən uzaq"* ifadələrindən istifadə etməklə insan psixoloji olaraq başına gəlməyini istəmədiyi hal və hadisələri mümkün qədər uzaqlaşdırdığına inanır. Ölüm üçün bir çox dildə yumşaq ifadələrdən istifadə olunurr.

Azərbaycan dili də ölüm, ölmək , öldürülmək mənasına gələn ifadələr nöqteyi nəzərdən olduqca zəngindir. İstifadə olunan evfemizmlərin çoxu ölüm hadisəsinin əslində qorxulacaq ürküləcək bir şey olmadığı göstərməyə çalışır. Bu yolla kədərləndirən ölüm hadisəsinin ən gözəl kəlmələrdən istifadə etmək vasitəsilə yumşaltmağa və qəbul etməyə kömək edir. Məsələn: *"haqqın rəhmətinə qovuşmaq, haqqın dərgahına getmək, son mənilə getmək"* kimi ifadələr ölən insanın daha gözəl bir məkana getdiyini göstərməyə yönələn bir ifadədir.

Oğuz tarixinin, dövlətçiliyinin ən görkəmli əsərlərindən biri olan "Kitabi Dədə Qorqud" əsərində oğuz türklərinin inancları sosial həyat anlayışları, adət və ənənələri kimi müxtəlif mövzularda məlumat toplamaq mümkündür. Bu nöqteyi nəzərdən oğuz türkləri haqqında yazılmış ensiklopedik əsər olan Dədə Qorqud kitabında efemizmlər geniş yer tutur. Psixolinqvistik, entolinqvistik və sosiolinqvistik nöqteyi nəzərdən oğuz türklərinin hər hansı birhadisələrlə bağlı düşüncələri, danışıqları və davranışları haqqında dəyərli məlumatlar verən bu əsərdə efemizmlərin demək olar ki, çox hissəsini ölümlə, dinlə və sairə ilə bağlı ifadələr təşkil edir.

Ölümlə bağlı - *həyatın sona yetməsi, axirət yolçuluğu, əbədiyuxu, əmri haqq, yox olmaq, yoxa çıxmaq, vaxtı vədəsi çatmaq* və s. kimi bir çox ifadələr ölüm hadisəsini özündə ehtiva etməyi ilə birlikdə zənginliyi ilə də bu eposda xüsusi bir yer tutur. Hər bir canlı üçün qaçılmaz olanölüm hadisəsi insanın qədər qarşısında aciz qaldığı vəziyyətlərdən biridir. Bu əsərdə də nəinki ölüm hadisəsi hətta onun düşüncəsi belə insanlarda böyük bir qüssə və kədərə səbəb olur. Bamsı Beyrəyin öldüyünü düşünənlər bu xəbərə kədərləndilər. Belə ki, Beyrəyin tacirlərdən bacılarınıxəbər almasına cavab olaraq tacirin ona cavabındakı *getmək* ifadəsi diqqətimizi cəlb edir:

Ağ saqqallı atanı ağ birçəkli ananı soruşursan, sağdır, Bamsı!
Ağ çıxarıb qara geydilər sənin̂çin, Bamsı!

Yeddi bacını yeddi yol ayrıcında ağlar gördüm, Bamsı!
Payız almasıtək al yanaqlarını yırtar gördüm, Bamsı!
Gedib gəlməyən qardaş deyə inləyən gördüm, Bamsı!

Digər bir nümunəyə nəzər salaq:

Ozan qılığında bacıları ilə qarşılaşan Bamsı Beyrək öz ölümü haqqında: *sənin ağan yox olubdur* deyərkən rast gəlirik.

Oğuz türkləri ölüm hadisəsini alın yazısı qəza və qədər inancı ilə əlaqələndirirlər və həyatın sonlanması mənasında evfemizm olan *vədəsi çatmaq* ifadəsindən istifadə edirlər.

Əzəldən yazılmasa qul başına qəza gəlməz. Əcəl vədə yetməyincə (vaxt çatmayınca)kimsə ölməz. Ölən adam dirilməz. Çıxan can geri gəlməz.

Daha başqa misal:

"Sən sağ ol, xanım! Beyrək haqqa vasil oldu!" cümləsindən belə başa düşürük ki, sevilən bir insanın ölüm xəbəri ilə yaranan kədəri yumşaltmaq yollarından biri həmin insanın yaradıcısına qovuşmağı düşüncəsidir. Eynilə mübarizə və müharibədə həlak olan insanların da eyni həssaslıqla *şəhid*, *şəhidlik zirvəsinə qalxmaq* kimi ifadələri buna misal ola bilər. Salur Qazanın evinin yağmalanması boyunda İlək Qoca oğlu Sarı Qalmaş Qazan bəyin evi üstündə döyüşdə *şəhid* getdi. Dədə Qorqudda ölüm hadisəsini yüngülləşdirmək yollarından biri də bu hadisənin qaçınılmaz olduğuna inam, bu hadisəni qədər və qəza anlayışı ilə əlaqələndirilməsi, əzrayıldan görülməsidir. Əsərdə:

Allah Təaladan buyruq gəldi. Al qanadlı Əzrail ol igidin canını aldı, can bir əmanətdir, vaxtı gələndə verilən bu əmanət geri alınar.

Burada *can almaq* ifadəsi ilə yanaş *əmanəti geri almaq* evfemizmi də diqqəti cəlb edir.

Əzrayıl razılaşdı, qadının canını almağa gəldi. İgid Domrul ömür yoldaşına qıya bilmədi. Burada Allah-taalaya yalvarmış, görək necə yalvarmış. Dedi:

Ucalardan ucasan,
Kimsə bilməz necəsən!
Gözə ltanrı,
Çox cahillər Səni
Göydə arar, yerdə arzular.
Sən möminlərin könlündəsən,
Sən əbədi hökmransan,
Böyük yollar üzərində
İmarətlər yapım-qurum sənինçin.
Harda görsəm ac doyurum sənինçin.
Çılpaq görsəm don geydirim sənինçin.
Alırsanla ikimizin canını birgə al!
Sağ qoyursansa ikimizə də rəhm et! Kərəmi çox, Qadir tanrı!

Sonuncu misalda Allahın Əzrayıla tapşırığından sonra Əzrayılın qadının canını almağa gəlməsindən bəhs edir. Burada Allahın isimləri ilə əlaqəli evfemizmlərlə yanaşı fərqli sosial xarakterli *arvad* sözünün əvəzinə işlənən *yad qızı, ömür yoldaşı, xanim* evfemistik ifadəsi xalqımızın milli, mənəvi dəyərlərinin, qadına olan hörmətin köklərin minilliklər öncəsindən gəldiyinin bariz nümunəsini görürük.

"Kitabi Dədə Qorqud" əsərində istifadə olunan evfemimlərin demək olar ki, çox hissəsini din, ölüm və münasibətlər mövuları ilə əlaqədar ifadələr təşkil edir.

Ölümlə bağlı evfemizmlərə: *yox olmaq, getmək, can almaq, can vermək, Haqqa vasil olmaq, canı çıxmaq, şəhid olmaq həlak olmaq, ödü yarılmaq, qan qusmaq, qılıncdan keçmək, aradan götürmək, ayrılmaq, əcəl almaq, gəlimli gedimli dünya* kimi ifadələri göstərmək olar.

Əsərdə oğuz türkləri İslam dininin tələbi olaraq ölümü qəza və qədər kimi qəbul etməklərinə baxmayaraq yaşamağı sevən, həyatda qalmaq uğruna əllərindən gələni edərək mubarizə aparan qəhramanlar təsvir edilir. Onlar yaşamaq uğrunda aparılan mübarizənin mütləq sonu olan ölüm kəlməsinin məyusedici və kədərləndirici təsirindən bir az da olsa uzaqlaşmaq məqsədi ilə evfemizmlərdən istifadə etmişlər.

Azərbaycan dilində Allah əvəzinə *Cenab-ı Allah, Cenab-ı Hakk, Uca Yaradan* kimi isimləri, evfemistik xitabları misal göstərmək olar. "Dədə qorqud" əsərində dinlə bağlı evfemimlər sayı o qədər də çox deyil. Həmçinin Oğuz türklərinin yazılı yaddaşı olan "Kitabi Dədə Qorqud"da Allaha ithaf olunan *Ucalardan Uca, Allahu Samed, Qamu yerdə Ahed, Ulu Tanrı, Bəlli Tanrı, Qadir Tanrı* kimi evfemistik isimlər diqqəti cəlb edir. Onların istifadə olmasının səbəbi Allahin(Tanrının) isim və sifətlərinin bu kəlmələrlə ifadə olunmasının təsirinin böyük olmasıdır. Bununla yanaşı əsərdə disfemizm olan kafir sözünə də tez-te rast gəlmək olur.

Oğuz türklərinin ən görkəmli əsərlərindən biri olan "Kitabi Dədə Qorqud" əsərinin dilçilik nöqteyi-nəzərindən zənginləşdirən xüsiyyətlərindən biri də məhz evfemizmlərin istifadəsidir.

Z. Ahmadova

Euphemisms in "The Book of Dede Korkut"

Summary

In the given article taboo and phraseological euphemisms are investigated. "The Book of Dede Gorgud" (Kitabi-Dada Gorgud) is a heroic

epic poem of the Oghuz – a Turkic tribal group who were the ancestors of the Azerbaijani Turks.

One of the most prominent works of the Oghuz Turks, one of the features of the "Kitabi Dada Gorgud" enriching the linguistic aspect, is the use of euphemisms.The article will first describe the definition of euphemisms, and then will give examples of the types of euphemisms used in the epic "Kitabi Dada Korkud". The author, later, investigates the types euphemisms and taboos, also euphemisms about death and birth, religion, the names of God in “The Book of Dede Korkut”, commenting them by using examples.

З.Ахмедова

Эвфимизмы в «Китаби Деде Гогуд»

Резюме

Данная статья посвящена изучению табу и эвфемизмов. Произведение «Китаби-Деде Горгуд» является эпическо-героической поэмой огузо-туркских племенных групп, которые были предками азербайджанских турков. Именно использование эвфемизмов, является одним из аспектов, обогащающих лингвистические особенности выдающегося огузо-тюркского эпоса «Китаби Деде Горгуд».

В статье также описывается определение эвфемизмов, и даются примеры типов эвфемизмов, используемых в поэме «Китаби Деде Горгуд».

Кроме того, автор подвергает тщательному анализу типы табу и эвфемизмов. Статья изобилует примерами, раскрывающими особенности эвфемизмов, относящиеся рождения и смерти, религии и имен Бога в эпосе «Китаби Деде Горгуд».

Rəyçi: Əzizə Hacıyeva
Filologiya üzrə elmlər doktoru, professor

ƏDƏBİYYATŞÜNASLIQ

SONA VƏLİYEVA
filologiya üzrə fəlsəfə doktoru

İNQİLABİ MÜBARİZƏNİN MƏĞLUB QƏHRƏMANI – KNYAZ

Açar sözlər: Cavid, romantizm, faciə, cəmiyyət, Knyaz, Teymur, Anton, inqilab, bolşevizm, mühacirət
Key words: Javid, romanticism, tragedy, society, Prince, Timur, Anton, revolution. Bolshevism, immigration.
Ключевые слова: Джавид, романтизм, драма, общество, Князь, Теймур, Антон, революция, большевизм, эмиграция.

"Knyaz" pyesi yazıldığı dövrdə H.Cavidin ən mübahisəli əsərlərindən biri olmuşdur. Bu əsər ətrafında olan müzakirələrin xarakteri də romantik sənətkarın digər pyeslərinin müzakirəsi ilə müqayisədə seçilirdi. Məsələnin mühüm tərəfi ondan ibarət idi ki, "Knyaz" faciəsində H.Cavid yaradıcılığının səciyyəvi xüsusiyyəti kimi yaxın və uzaq tarixin deyil, məhz əsərin yazıldığı dövün problemləri qoyulmuşdur. Xüsusilə, ötən əsrin 20-ci illərində ədəbi tənqid dünyagörüşü və yaradıcılığı tam şəkildə formalaşmış bir sənətkar kimi H.Cavidin sosialist platformasına gəlməsinə daha çox cəhd göstərirdi və "Knyaz" pyesi bu məsələdə sanki bir fürsət kimi tənqidçilərin əlinə düşmüşdü. Elə bu, "Yeni yol" qəzetinin 6 aprel 1930-cu il tarixli sayındakı bir məqalədə açıqca deyilmişdir: "İndiyə qədər ancaq tarixi əfsanələr yazan Hüseyn Cavidin bu əsərində yeganə qiymət həyata yaxınlaşmaq istəməsidir" (2, s. 185).

Əslində H.Cavid yaradıcılığının əvvəlindən sonuna qədər qarşısına qoyduğu əsas ideyaya sadiq qalır. İnsan tarixiin müxtəlif inkişaf mərhələlərində şərə, zülmə, ədalətsizliyə qarşı mübarizədə xarakter mükəmməlliyi ilə qalib gələrək kamillik nümunəsi göstərməsi ideyası bütün dramatik əsərlərində romantizmin estetik xüsusiyyətləri əsasında öz həllini tapır. H.Cavidin əsərlərində ədalət və xaos, eləcə onun əsas ali müəllifləri olan Tanrı və İblis düşüncəsi mübarizədədir. H.Cavid müxtəlif tarixi dövrlərin qəhrəmanlarının təzadlı, mürəkkəb xarakterilərinin həllinə sənətkarlıqla nail olmaqla obrazı tarixləşdirir. "Ana"(1910) pyesindəki sadə, mərd, Tanrısına bağlı, dili dualı

Səlmadan başlayaraq "Maral" (1912) əsərindəki bədbəxt Maralın faciəsi, "Şeyx Sənan"da (1914) ilahi eşqin kamilliyi, ülviliyi, "Şeyda"da (1916) Şeyda və digərlərinin taleləri, "Uçurum"da (1917) saf, təmiz köylü qızı Gövərçin və Cəlal arasında yaranan uçurum, "İblis"də (1918) Yaradana ağ olub haqq dərgahından qovulan İblisin Adəm övladı ilə məşhərə qədər mübarizəsi, "Afət"də (1922) Afətin xəyanət faciəsi, "Peyğəmbər"də (1923) yer üzündə yeni, mütərəqqi din - islam intibah günəşinin müəllifi Məhəmməd Peyğəmbərin haqq yolunda tarixi mücadiləsi, "Topal Teymur" (1925) dramında iki tarixi türk fatehinin qarşıdurmasına qədər müraciət etdiyi mövzuların qəhrəmanları müxtəlif dövrlərə aid və ziddiyətli, zəngin xarakterli qəhrəmanlarıdır. "Knyaz" (1929) əsərində Knyaz obrazı bolşevik inqilabı dövrünün burjua-mülkədar sinfinə məxsus, başı eyş-işrətdən açılmayan tipik bir obrazdır. Əsərin sujet xətti ilə tanışlıq həm də H.Cavidin mövzunu real həyat hadiəsindən götürməsinə şübhə yeri qoymur. H.Cavidin gözünün təvadisi üçün Almaniyada olduğu müddətdə Sovet quruluşundan var-yoxunu xaricə qaçıran belə tipajlarla rastlaşması sözsüz ki, baş verə bilərdi. Knyaz XX əsrin əvvəllərində formalaşmış harın sahibkarlıq zümrəsinin öz faciəsini yetişdirən nümayəndəsidir. Əslində mənən kasıb, daim eyş-işrət içində itib bataraq, insanların talelərinə laqeydlik nümayiş etdirənlər hansı dövrdə olur olsun bir gün öz həyatlarının sonunu gətirirlər. Knyaz dövrünün onun özündən də namərd olan bir rejiminin – bolşevik rejiminin qurbanına çevrildi.

H.Cavidin əksər pyeslərində ilk pərdə dramatik hadisələrin gedişi barədə qismən də olsa, müəyyən informasiyanı canlandıra bilir. Bu baxımdan əsərin əvvəlində Knyazla dayısı Solomonun dialoqunda onların hər ikisini qarşıda nəyin gözlədiyi barədə müəyyən təsəvvür əldə etmək olur. Həmin sıhnədə Knyaz və Solomon böyük şövqlə şərab içir və həyatın mənasını yalnız onda görmələri barədə fikirlərini ifadə edirlər:

"K n y a z
İştə gulgun qədəh, ey xanəxərab!
Bulunur şey deyil əsla bu şərab.
Şimdi fursət var ikən ic!.. Bir gun
Gorəcəksin bu sonuk omru sərab.
S o l o m o n
İcəlim, bəlkə təsəlli buluruz,
Bəlkə qəmdən, acıdan qurtuluruz.
Bir gunun zevqinə dəyməz dunya
İcəlim, sonra peşiman oluruz" (1, s. 8).

Knyaz və Solomon kef-dimağ içində olduqları həmin günü sanki dünyanın axırı hesab edirlər. Ona görə də bir-birlərinə təsəlli verə-verə tutduqları əməli təqdir etməyə çalışırlar. Bu içki əhvali-ruhiyyəsinin arxasında yalnız eyş-işrət dayanmır, eyni zamanda burada ciddi bir içtimai

narazılığın da əlamətləri hiss edilir. Çünki bir az sonra Knyaz qarşıda əbədi bir dərin boşluğun görünməsindən irəli gələn narahatlığını da bildirir.

Knyaz son dərəcə mühafizəkar bir obrazdır. O, öz tabeliyində olan işçilərlə sərt davranır, onların vəziyyəti ilə maraqlanmır, onlara kömək etmək, yardım göstərmək düşüncəsindən tam uzaqdır. Hətta təbii iqlim şəraitinin törətdiyi fəlakətləri nəzərə alıb işçilərin vəziyyətini yüngülləşdirmək haqqında belə düşünmür, onların təkliflərini qəbul etmək istəmir. Şakro Knyaza deyəndə ki, bir kəndlinin üzüm bağlarını dolu vurmuş, artıq oradan tam məhsul almaq mümkün deyil və həmin kəndli məhsul verilməsinin yarıbayarı azaldılmasını istəyir. Bunu eşidən Knyaz həmin xəbəri çox soyuqqanlılıqla qarşılayır, nəsə tədbir görəcəyi barədə vəd versə də, bu vəd o qədər də inandırıcı görünmür. Yaxud bəzi işçilər üst qatda boş yer olduğu halda, yas və islaq zirzəmilərdə yataraq məhv olduqlarını bildirsələr də, Knyaz onlara qətiyyən əhəmiyyət vermir, hətta onlara "Paranız yoqsa əgər, ust qatda // Yer verilməz sizə əsla, əsla..."-söyləyir (1, s. 27). Knyazı "həyatın o biri üzü, istismar edib acınacaqlı, səfil bir görkəmə saldığı xalqın vəziyyəti düşündürmür" (6, s.122).

Yeridir qeyd edək ki, bu məqamlarda Knyaz "Topal Teymur" əsərindəki Topal Teymurdan tamamilə fərqlənir. Şakronun kəndlilərin vəziyyətindən xəbər gətirməsi "Topal Teymur"da – köylülərin Mamayxandan şikayətə gəlməsi, Dilşad xanımın onların vəziyyətini yüngülləşdirmək istəyi ilə bağlı Əmir Teymurla söhbətini xatırladır. Kəndlilərin problemlərinin həllinə ədalətlə yanaşan hökmdar Fateh Teymurdur. Teymur fateh olduğu qədər də əsgərdir, kəndlidir, zəhməti dəyərləndirən, bəzən əsgərləri ilə eyni süfrəni bölüşən sadə, adil rəhbərdir. Knyaz cılız var-dövlət, içki və qadın düşkünü olduğu üçün adillik göstərə bilmir. H.Cavidin müxtəlif zəngin obrazlar qalereyasında Knyaz öz faciəsi ilə üz-üzə durduğu bolşevizmin elə özünə bənzəyir. Əxlaqi, mənəvi keyfiyyətləri çürük, iradəsi zəif, ədalətdən xəbərsiz, psixoloji durumu etibarilə ruhi xəstə olan Knyaz bədbəxt faciəvi qəhrəmandır.

Knyazın bu hərəkətlərini Topal Teymurun işçiyə və əsgərə yönələn yanğısı ilə qətiyyən müqayisə etmək olmaz. Onlar bir-birinin tamamilə əksidir. Bu cür hiss və duyğularla yaşamaq, insanlara əzab verməkdən zövq almaq, heç kəsi saya saymamaq Knyazın məğlubiyyətə doğru aparan yollardır. Bu yollardan birinin də başlanğıcı Jasmenin Knyaza xəyanət etmək duyğusu ilə yaşamasından başlayır. Pyesin ikinci pərdəsində Jasmenlə Antonun qarşılaşması zamanı Jasmen ona qəlbindən keçən hissləri bildirmək istəyir. Sevgi macərasına bağlı bu hisslərin arxasında, heç şübhəsiz, Jasmenin Knyaza xəyanəti dayanırdı. Qəfildən bu mənzərənin şahidi olan Knyaz həddindən artıq qəzəblənir, özünə yer tapa bilmir və Antonla qarşılaşmasından sonra ikinci sarsıntısını keçirir:

"K n y a z

Sən Knyazı divanəmi sandın,
Yoq, yoq, gorunur bəndən usandın.
Əğyar əli koksundə, nə zillət!
Bir sozlə, nicindir bu xəyanət?
Anton sana munis ki, deyildi,
Birdən-birə doktormu kəsildi?!
J a s m e n
Knyaz! Sanırım, fəzlə bu şubhən.
Surətlə yururkən, urəyimdən
Dəhşət dolu bir vəlvələ qopdu.
Sandım qara bir zəlzələ qopdu" (1, s. 49).

Jasmenin bütün hiyləgər davranışı və saxtalığa bürünmüş yalvarıcı sözləri Knyaza təsir etmir, Knyaz "Ah, dunku mələk, şimdi bir İblis" (1, s.50), -deyərək onu daha da ittiham edir.

Jasmen Cavidin qadın obrazları içərisində özünəməxsus obrazdır. Erməni kənd müəlliminin qızıdır. Cavidin Tiflis mühitinə tanışlığı, yerli əhalinin həyat tərzini izləməsi mövzunu ona həyatdan götürməyə də imkan vermişdir. Jasmen erməni qadınlarının imkanlı, sahibkar mülkədarla rəsmi və ya qeyri-rəsmi həyat ilişkiləri qurması (həm də atası yaşında Knyazla) yeni rast gəlinən hadisə deyildir, o, erməni xislətindən irəli gələn əxlaq naqisliyi nümayiş etdirir, ailəli ola-ola Antonla görüşməyə oxucunu şahid edir. Əgər belə demək mümküsə, Antonu sevsə də pula-qızıla hərislik onu atası yaşda biri ilə ailə qurmağa razı salır. Erməni qılığına, erməni hiyləsinə tuş gələn Knyaz tək deyil. Real tarixdə o dövrün, XX əsrin əvvəllərinin neft mülkədarlarının pullarını Musa Nağıyevin "Qış sarayı"nda qumarxanada elə öz erməni soydaşlarına Azərbaycan sahibkarlarının pullarını uduzduran erməni qadınlarının qılıqları nəticəsində itirilən pullara alınan silah-sursatla 1918-ci il mart qırğınında Bakı əhalisinə divan tutuldu. Knyaz Gürcü xalqının erməni qadınına inanan, xəyanətə uğrayan məğlub obrazdır.

H.Cavid "Knyaz" əsərində romzantizmin poetikasına sadiq qalmaqla yeni dövrün qəhrəmanlarını yaradır. Amma bu, o demək deyil ki, Cavid bolşevik inqilabını qəbul etdiyi üçün bu əsəri yazıb. Əslində bu əsərin ideya məzmununa diqqətlə baxsaq hər şey aydın olur. Bolşevizmin çürük idealogiyasının mahiyyətini bildiyindən, H.Cavid onun xalqların taleyinə gətirəcəyi bəlanı çox gözəl anladığından ona rəğbət bəsləyə bilməzdi: "Cavid kəndli hərəkatından xəbərsizdir... Halbuki Gürcüstanın şuralaşamasından qabaqkı tarixi, kəndlilərin böyük inqilabi aktivliyini, üsyanını göstərir. Cavid başqa əsərlərində tarixdən istifadə etməyi lazım bildiyi halda, bu əsərdə tarixi unutmuşdur...

Dil etibarilə də Cavid Osmanlı ləhcəsindən əl çəkməmişdir" (2, s.187)

Bu, o demək deyildir ki, H.Cavid bu hadisələrin mahiyyətinin dərinliyinə vara bildiyi halda tarixi unutmuşdur. Xeyr, H.Cavid üçün

mahiyyətin mənbəyində insan durduğu üçün o, siyasiləşmiş, şuralaşdırılmış rejimdən çox üstünlüyü insan taleyinin təsvirinə verir. Bu həm də H.Cavidin milli məfkurəyə bağlılığının göstəricisi olaraq tənqidçilərin diqqətindən qaçmırdı. H.Cavid bolşevizmin ideologiyasını uğrunda qurban getdiyi türkçülük ideologiyasına heç zaman dəyişməzdi. Bu, Cavidin dahiliyinin sübutu idi.

Pyesdə Knyaz həm şəxsi, həm də ictimai maraqları çərçivəsində görünür və o istiqamətlərdə də tanınır. Məğlubiyyətə doğru hətəkətdə şəxsi və ictimai maraqlar həmişə bir-birini tamamlayır. Knyazın əvvəldən axıradək öz sabit xarakterini qoruyub saxlaması onun bir obraz kimi H.Cavidin digər qəhrəmanlarından fərqlənməsinə də şərait yaradır. "Knyazın özünün qalıbiyyət kredosu var. O, hər şeydə qalib olmaq və həmişə qalibiyyətlə yaşamaq arzusunu gizlətmir. Əslində bu həm də onun həyat idealıdır" (5, s.27). Nümunə üçün qeyd edək ki, Misafir obrazının bolşevik yürüşü barədəki informasiyası onu qətiyyən qorxutmur və belə bir xəbərin tam yanlış olduğu fikrinə gəlir:

"M i s a f i r
Hic zərər yoq, bıraq asılsınlar,
Daha əngəlli bir xəbər var, əvət.
Bizi sarmış da kinli bir qudrət.
Soylənənlər həqiqət olsa, yarın
Bolşevik pəncəsindəyik, aydın.
Soyluyorlar uzaqda dəhşət var,
Arabir patlayıb durur toplar.
K n y a z
(*qolundan tutaraq)*
Gəl canım, kim nə dersə həpsi yalan,
Bunu uydursa, uydurur duşman" (1, s.66).

Knyazın şəxsi və ictimai maraqlarının bir-birini tamamlaması Antona münasibətdə daha qabarıq şəkildə özünü büruzə verir. Belə ki, Antonun əqidə baxımında Knyaza qarşı olması, digər tərəfdən də Antonla Jasmenin bir-birinə yaxınlığının Knayız tərəfindən bilinməsi hadisələri daha da kəskinləşdirir. Bu məqamda şəxsi və ictimai maraqların üst-üstə düşməsi Knyazın daha kəskin hərəkəti - Antona atəş açması ilə nəticələnir:

"K n y a z
(oquduğu xəbərdən mutəəssir olaraq cılğın)
Ah, sus, yetər, cəkil, dəf' ol?
(Cibindən revolveri cıqarır.)
Soylənib durma, haydı, cıq, yoqsa
Cıqarırlar həmən cənazəni...
A n t o n
Ya...
Hanı, gostər də bir cəsarətini,

Gorəlim barı son məharətini.
(İki-uc adım ilərilər)
K n y a z
İştə al!..
Revolver patlar.
A n t o n
Ah, şərəfsiz, ah, cəllad!..
(*Aldığı yaradan bihal olub duşər)"* (1, s.79-80).

Böyük ədəbiyyatşünas M.H Türkəqul Anton surətinin təhlilinə başlarkən Stalinin kimliyini xatırladaraq çox maraqlı qarşılaşmalar yaradır.

Stalin Qori şəhərində Ernataşvili adlı zəngin şəxsin ailəsində çalışan dul qadının övladı kimi dünyaya gəlir, sənəddə babası yazılmayan, atası sorulmayan Stalinin Ernataşvili ailəsinin oğulları ilə bir sırada oxudulub ərsəyə çatdırılması, sonralar təhsil illərindən başlayaraq inqilabi təşkilatlara üzv seçilməsi prosesləri tarixi faktlardır. Hamı onu Ernataşvililərdən sanır. Türkəqul Antonun əqidə və həyat taleyini Stalinlə eyniləşdirir. Əslində o, bolşevizmin fəlsəfi-tarixi, ideoloji mahiyyətini göstərməyə çalışıb. Tarixi təməl dəyərlərin müəllifi ata-babalardır. Min illərin mənəvi dəyərlərini şəcərələrlə bir-birinə ötürərək təkmilləşdirib, saf-çürük edə-edə tarixi-fəlsəfi məqama yüksəltmişlər. Anton obrazını H.Cavid Türkəqulun yazdığı Stalinindən fərqli verməklə köy həyatında, Jasminlə eşq macərasının belə olduğunu göstərməklə, Stalinin Antonun prototipi olmasını açıq-aşkar göstərməkdən bəlkə də bilə-bilə yayınır. Atası-babası bilinməyən, böyüdüyü, yaşadığı ailəyə doğma olmayan uşaq kimi bolşevizm nə qədər vədlərlə xalqımızın qəlbinə girməyə, özünü doğma göstərməyə çalışsa da, milli məfkurəyə sadiqlik bütövlükdə ona yol vermədi. Türkəqul göstərməyə çalışır ki, müəllifin əxlaqi cəhətdən eyniləşdirdiyi Knyaz, Anton və eləcə də bolşevizm əxlaqı ayrı- ayrılıqda insanlıq üçün faydalı ola bilməz. Knyaz eyş-işrətdən baş açıb tərəqqi, inkişaf tərəfdarı, ədalətli, səxavətli, sahibkar kimi eləcə də, gənc qızla evlənib nümunəvi ər də ola bilrədi, fəqət insani keyfiyyətlərindəki naqislik onu insanların doğmalaşmağa, dürüst olmağa imkan vermir. Yaxud bu və ya digər mənada Antonu oxudub ona atalıq edənin namusuna göz ucu ilə baxmamalı olduğu halda, keçmişi yada salaraq Jasmenin hisslərini yenidən oyadır. Əsl kişiyə məxsus ərənlik, mərdlik hissləri Knyazda yoxsa da, Antonda da görünmür. Knyaz keçmişi, Anton yeni quruluşun nümayəndəsi olaraq üz-üzədirlər.

Knyaz itirdiklərinin müqabilində müvazinətini saxlaya bilmir, dəli olur. Bu surət Cavidin sovet rejimindən qaçaraq xarici ölkələrdə mühacir həyatı yaşayan mülkədarlar təbəqəsinin ümumiləşdirilmiş obrazıdır. "Həyatın ağırlıqlarına təhəmmül edilməyən altmışlıq Knyaz artıq aklını oynatmış, deli Knyaz olmuştur...

Knyaz yaşadığı həyata fazla tahammül edemeyerek, karısı Jasmeni öldürür, Ölmək yaşamaqdır, sarsaq yaşamaq ömrə yamaqdır,- deyərək intihar edir...” (7, s. 131).

Knyazla Anton arasındakı konfiliktin kəskinləşməsi Knyazı eyş-işrətdən çəkindirə bilmir. Onun qəlbində və düşüncəsində əsas yeri yüngül həyat tərzi, kef məclisləri, yeyib-içmək istəkləri tutur. Knyazın gündəlik həyatının əsasını təşkil edən bu vərdişlər ylnız Tiflisdə deyil, Berlində də yenidən canlanır və hadisələrin Tiflisdən Berlinə köçürülməsi mühüm əhəmiyyət daşıyır. Bu barədə prof. Kamran Əliyev yazır: “Əgər əhvalatlar Tiflisdə baş verən müddətlərlə məhdudlaşsaydı və Antonların qalibiyəti elə buradaca göstərilsəydi, bir çox mətləblər qaranlıq qalmış olardı. Onda Knyazın mənəvi puçluğu görünməzdi (o, hələ mqızına göz dikməmişdi). Antonun axıra qədər dözümlülüyü meydana çıxmazdı (onun sonadək mübarizə aparacağı qənaəti yaradılmamışdı)” (3, s.78). Berlinin, Knyazın özünün də dediyi kimi, mədəniyyət ocağı olmasına baxmayaraq, yenə əsas istək eyş-işrətdir. Dayısı Solomon onu bu yldan çəkindirmək istəsə də, qətiyyən bacarmır:

“K n y a z
İştə Berlin! Mədəniyyət ocağı,
Hər yeşil səhnəsi cənnət bucağı...
Hər tərəf dalğalı, hər mənzərə şən,
Fərqi yoqdur gecənin gunduzdən.
Hər salondan ucuşur zumzumələr,
Qadın-erkək guluşub rəqs eylər.
Gecə Berlində calışmaq bəncə
Sofuluqdur, var ikən əyləncə.
S o l o m o n
Bəndə əyləncəyə yoq meyl artıq,
İki yıldır ki, usandıq, bıqdıq.
İki yıldır ki, gedib var-yoqumuz,
Bəklədik, həp daşa dəydi oqumuz.
K n y a z
Hic sinirlənmə, yoruldun, enəlim,
Musiqi dinləyərək əylənəlim”(1, s. 83).

Məkan kimi Berlində baş verən dramaturji hadisələr yalnız Knyazın eyş-işrət içində yaşamasının deyil, Jasmenin xəyanətinin də yenidən təsdiqidir. Antonun Berlinə gəlməsi, Jasmenlə tapışması və onların yeni eşq macərası yaşamaq haqqında olan planları Knyaza məlum olanda Knyaz ən kəskin sözləri ilə çıxış edir:

“Əvət, əxlaqı sonuklər, bəlli,
Gostərir kəndini ismət modeli.

Bir duşun, sən nə idin koydə ikən?
Nə idin, sonra nə oldun, Jasmen!?
Kimsəsiz bir qız idin ac, mohtac,
Gəlib oldun oyunən başlara tac.
Səni sevdirdi də ismət az-coq...
Şimdi, əfsus, o da yoq, ah, o da yoq...” (1, s. 101).

Pyesin beşinci pərdəsi Knyazın sərsəm düşüncələri ilə başlayır. O, özünü “ulu Knyaz” adlandırır, böyük bir nəslin nümayəndəsi olsa da, indi quru heykəl kimi qalmasından gileylənir. Vulkan ikən sönməsindən, aslan ikən tülküyə dönməsindən bəhs edir. Beşinci pərdənin sonunu bu əhvali-ruhiyyənin davamı kimi də başa düşmək olar. Burada oxşar olan bir cəhət Knyazın əvvəldə başqa-başqa qadınlara hücum çəkməsidirsə, əsərin sonunda onun öz qızı Lenaya eşq elan eləməsidir:

“Bən gonlumu verdim sana ancaq,
Gəl, işvəli afət, bəni sən etmə oyuncaq.
Bir busə ver ancaq şu dodaqdan,
Guldən daha nazik o gozəl pənbə yanaqdan.
Aqşam da bərabər uyuruz, nazlı govərcin,
Əlbət, bu xoş əyləncə sənincin.
(Qaba və mohtəris bir tərzdə qucaqlayıb opmək istər.)
(1, s. 126)

Knyazın səciyyəvi xüsusiyyətlərindən biri öz saxta qürurunu, yalançı məğrurluğunu həmişə nümayiş etdirmək cəhdidir. Onun dayısı Solomonla dialoqunda Salomon da bunu qətiyyətlə söyləyir:

“K n y a z
(istehzalı qəhqəhəylə)
Nə xəbər? Gurcu xalqı iştə cəsur,
Carpışıb hər hucumu dəf’ ediyor,
Səndə lakin nədənsə yoq iman.
S o l o m o n
Nə yaparsın ki, sisli bir bohran
Daima bəndə şubhələr doğurur,
Sən fəqət həp fərəhli, həp məğrur” (1, s, 61).

Əsərdən də bəlli olduğu kimi Knyazın Antonla münasibətləri getdikcə kəskinləşir və üçüncü pərdədə müəyyən həddə çatır. Burada Knyaz Antona qarşı daha qəzəblidir və əsəblərin gərginləşməsi Knyazı təbdən daha da çıxarır və o, Antona atəş açmağa məcbur olur.

Knyazın Lena qarşısındakı məğlubiyyəti ilə özünü öldürmək cəhdi üst-üstə düşür. Əsərin sonunda laübalı vəziyyətdə belə Knyazın özünü öldürməsi onun sabit xarakterik xüsusiyyətə malik olmasının sübutudur. Bu məqam Knyazı romantik qəhrəman kimi də ucaldır:

"Lazım deyil əsla bana yardım,
Məhv olsa da Jasmen...
Yoq, onlara təslim olamam bən.
(*Əlindəki revolveri suzərək.*)
Atəş!..
Yenə atəş!..
Yenə atəş!..
(*kəndi alnını nişan alır, qurşun acıldığı kibi duşər.)*
(1, s. 134)

Dövrünün tənqidçiləri H.Cavidin öz yaradıcılıq əqidəsinə sadiqliyinə sözün əsl mənasında heyranlıqlarını gizlədə bilmirdilər. H.Cavidin böyüklüyü onda idi ki, o, əsl həqiqəti ilk yaradıcılıq dövrlərindən dərk etmişdi. Hər şeyin dəyişən, inkişaf edən, zamanın belə keçib gedən olduğunu əsərlərində qeyd edir. Qalan, əbədi var olan isə Tanrı və onun verdiyi istedadla həqiqət və məhəbbətin tərənnümünü yer üzünə çatdırmaqdır. Tənqidçi Əli Hüseyn yazırdı: "Cavid bu gün hardan mövzu alırsa alsın o, şərt deyil. Əsas məsələ mövzunun təhlili hadisələrlə olan əlaqəsi və nəhayət əsərin mündəricəsindəki qayənin sinfi üzərindədir. Bizcə Cavid yaradıcılığının "burjua ruhu və məfhumu" onun oraya əl-qol atmasındadır. Uzaq mühitlər və mövzular ətrafında dolaşmasında deyil, onun burjua ruh və məfhumundan dolayısı ilə romantizmdən, dünya görüşdən və nəhayət sənət və ədəbiyyat haqqında "sənət-sənət üçün" yapdığındandır" (4, s.200).

Bu o demək idi ki, H.Cavid həm yaşadığı dövrdə, həm də min illər sonra belə yaradıcılıq prinsiplərinə, milli məfkurəyə sadiqliyi və eləcə də dünya romantizminə gətirdiyi zənginliklərlə hər zaman oxucuların yaddaşında qalacaqdır.

Ədəbiyyat

1.Cavid Hüseyn. Əsərləri, beş cilddə, IV cild, Bakı, "Elm", 2007.
2.Cahangirov İ., Tahir Əsəd. Knyaz.-Cavidşünaslıq, II cild, Bakı, 2012, s.185-189.
3.Əliyev Kamran. Hüseyn Cavidin şəxsiyyəti və poetikası. Bakı, Yazıçı, 1997.
4.Hüseyn Əli. İki kitab.-Cavidşünaslıq, II cild, Bakı, 2012, s. 200
5.Rəhimova Ülviyyə. Romantik üslub və tərcümə problemi. Bakı, "Elm", 2005.
6.Sadıq Şəmil. Hüseyn Cavid yaradıcılığında qəhrəman konsepsiyası. Bakı, Hədəf Nəşrləri, 2011.
7.Türkəqul M.H. Azərbaycan şairi Hüseyn Cavid. İstanbul,1963.

S.Valiyeva

The defeated hero of the revolutionary struggle – the prince

Summary

The personage Prince in the play “Prince” by Huseyn Javid is a typical image related to the bourgeois landlord class of the period of the Bolshevik revolution. The Prince is extremely conservative. He treats strictly the employees in his subordination and does not even think about easing the situation of workers. In comparison with Timur, created in detailed form by playwright as conqueror and soldier, simple and fair leader, the Prince remains in the memory of readers as a weak an emaciated person having weakness for alcohol and women. With his own tragedy the Prince is like Bolshevism with whom he collided face to face.

In the play, the Prince is observed in the framework of both personal and public interests and is recognized namely in this direction. Personal and public interests always complement each other in the movement toward defeat. Preservation of his stable character from beginning to the end creates favorable conditions to distinguish the Prince as an image from other heroes of H. Javid.

It should be noted that Prince’s personal and public interests complement each other that is demonstrated more notably in comparison with Anton. The Prince and Anton described in the play correspondingly as representatives of the old and new systems come face to face. The Prince cannot keep his balance, goes mad because of losses exposed by him. This image is a generalized image of Javid, i.e. the layer of landowners leading emigrant life in foreign states, having escaped from the Soviet regime.

The prince's attempt to kill himself coincides with his defeat to Lena. At the end of the play, the suicide of the Prince in an atmosphere of impudence is a proof of the fact that he possesses stable characteristic properties. This moment elevates the Prince as a romantic hero.

С.Велиева

Побежденный герой революционной борьбы – князь

Резюме

Образ Князя в произведении «Князь» Гусейна Джавида – типический образ, относящийся к классу буржуя-помещика периода большевицкой революции. Князь чрезвычайно консервативен. Он строго обращается с находящимися в его подчинении работниками, он даже не думает об облегчении положения работников. По сравнению с созданным драматургом и таким же завоевателем солдатом, простым, справедливым руководителем Теймуром, Князь остается в памяти как слабый, падкий на богатство, спиртные напитки и на женщин. Своей трагедией Князь похож на сам большевизм, с которым он столкнулся лицом к лицу.

В пьесе Князь показывается в рамках как личных, так и общественных интересов и узнается в этом направлении. Личные и общественные интересы всегда дополняют друг друга в движении к поражению. Сохранение своего стабильного характера Князя сначала до конца, создает условия для отличия его как образ от других героев Г.Джавида.

Дополнение друг друга личных и общественных интересов Князя выпукло проявляет себя по отношению к Антону. Князь – как представитель старого устройства, Антон же, как представитель нового устройства сталкиваются лицом к лицу. Князь не может сохранить равновесие, сходит с ума перед потерянным. Этот образ является обобщенным образом Джавида -прослойки помещиков ведущих эмигрантскую жизнь в иностранных государствах, убежав от советского режима.

Попытка князя убить себя приходится на поражение напротив Лены. В конце произведения самоубийство Князя в обстановке бесцеремонности является доказательством того, что обладает стабильными характерными свойствами. Этот момент возвышает Князя как романтического героя.

Rəyçi: Kamran Əliyev
Filologiya üzrə elmlər doktoru, professor

ESMIRA FUAD (ŞÜKÜROVA)
Filologiya üzrə fəlsəfə doktoru, dosent
esmira.fuad@gmail.com

KLASSİK POEZİYANIN GÜNEYDƏ POEMA YARADICILIĞINA TƏSİRİ

Açar sözlər: Poema, klassik ədəbiyyat, Nizami, Şəhriyar, Səhənd, Sabir, Şirvan, S.Vurğun, M.Ə.Haray, "Yandırılan sazlar", "Səməd Behrəngi", poetika.
Key words poem, classical literature, Nizami, Shahriyar, Sahand, Sabir, Shirvan, S. Vurgun, M. Kharay "Burned Sazes", poetics.
Ключевые слова: поэма,классическая литература, Низами, Шахрияр,Саханд, Сабир, Ширван,С.Вургун, М.Харай «Сожженные сазы», поэтика.

Elmin və incəsənətin bütün sahələrində olduğu kimi, bədii ədəbiyyatda da sələflərdən öyrənmək, keçmişə nəzər salaraq müasirliklə vəhdət yaratmaq, tarixə istinad önəmlidir. Həmçinin xalqlar arasında ədəbi əlaqələr, bədii təsir məsələsi bütövlükdə ədəbiyyatın ən vacib elementlərindəndir.

Ustad Şəhriyarın da bədii irsinə klassik ədəbiyyatın güclü təsiri olmuşdur. Klassik ənənələrdən bol-bol qaynaqlanan şair bütün yaradıcılığı boyu Nizami, Xaqani, Füzuli, Rumi, Hafiz, Saib Təbrizi, Nəsimi, Xətai, Sabir, Möcüz kimi mütəfəkkirlərin poetik irsindən bəhrələnmişdir ki, onun bir çox əsərlərində həmin ruhu duymaq mümkündür. Bu da şairin ənənəvi ruhda əsər yazmağın parametrik xüsusiyyətlərinə birmənalı yanaşması səbəbi ilə daha çox əlaqədardır.

Şəhriyar "Səhəndim" poemasında İranda 1905-1911-ci illərdə baş vermiş Məşrutə inqilabı zamanında qələmilə böyük bir ordunun işini görmüş Mirzə Ələkbər Sabirin doğulduğu qədim Şamaxı şəhərinə gözəl misralar həsr etmişdir. Bir sıra əsərlərində sələfi Sabir kimi xurafata, cəhalət və nadanlığa, ölkənin və xalqın inkişafını ləngidən mənfur qüvvələrə qarşı çıxan, yenilik və çağdaşlaşmanın tərəfdarı olan Şəhriyar bu mövqeyində həm də görkəmli satirik şair Mirzə Əli Möcüz Şəbüstəri ilə eyni müstəvidə durur. Başqa cür ola da bilməzdi. "Türkünün də canın almışdı həyasız tağut; Mən həyat aldım ona, haqq üçün ehya elədim" iftixarını yaşayan, bu azmış kimi, "Elinin farsıca da dərdini söylər dili" olduğundan qürur hissi ilə duyan, xalqının, onu dünyaya bəxş etmiş anasının dilini yaşatdığına və inkişaf etdirdiyinə görə Şəhriyar Azərbaycanın, el-obasının qarşısında üzüağ, alnıaçıq idi. Vətənpərvər şair, təbii ki, Nəbati, Şükuhi və Ləlidən, Sərraf, Sabir və Möcüzdən mənəvi qida alırdı. Təkcə ustad Şəhriyarı deyil, Cənub

şairlərinin əksəriyyətini klassik irslə bağlayan ümumi cəhətlər çoxdur. Şairin yaradıcılığı bu nəhəng söz bahadırlarının yaradıcılıq ənənələri üzərində pərvəriş tapmışdır. Sələflərinin yaradıcılığının əsasını təşkil edən eşq-məhəbbət duyğuları, ictimai motivlər, fəlsəfi düşüncə tərzi Şəhriyar poeziyasında parlaq surətdə əks olunmuşdur. Ulu Xaqaninin "Mədain xərabələri" qəsidəsində Bağdadın cənub-şərqində, Dəclə çayı üzərində salınmış, qədim çağlardaİranın padşahları olmuş Əxşanilərin və Sasanilərin dövründə qışlaq paytaxtı olmuş qədim bir şəhərin təsvirini vermişdir. Bir zaman bağlı-bağatlı, hər tərəfi gülüstana çevrilmiş, əlvan naxışlarla eyvanları nigarıstan misali bəzədilmiş, Babil, Türküstan şahlarının illərlə nökər, qulam olduqları Mədainin xarabazara, tutidilli bülbüllərinin bayquşlara, nəğmələrinin növhələrə çevrilməsinin, insanın qəlbində "odlar qalayan" viranəliyinin səbəblərini nəzmə çəkmişdir. Təbii, Xaqani və Nizami ədəbi məktəbinin davamçısı olan və ustadlarından bəhrələnən Şəhriyar "Gecənin əfsanəsi" poemasının "Təxti-Cəmşid" hissəsini, məhz "Mədain xərabələri" və "İsgəndərnamə" əsərlərinin təsiri ilə qələmə almışdır:

Hər xaqan yadigarı bir müdhiş xərabədir.
Mədain xütbəsini car çəkmirmi Xaqani?-

deyən kamil sənətkar İran hökmdarları Dara//Dariyuşun şahlıq etdiyi sönməz növraqlı Təxti-Cəmşidin ərəb istilasına, Çingiz xanın, İsgəndər Zülqərneynin hücumlarına məruz qalaraq dağıdılmasını, sirlər qəbiristanlığına çevrilməsini, Dara ilə son döyüşdə isə məğlub edilərək yandırılmasını, bu ölməz sənət əsərinin alovlar içində yanıb kül olmasını parlaq boyalarla təsvir edir (Ətraflı bax: 1).

Lakin bütün poema boyunca öz didaktik şair mövqeyini, mütəffəkkir simasını, obrazını qoruyub saxlayır və son qənaətini - bütün Yer üzündə baş verən xəyanət və cinayətlərin, fəlakət və rəzalətlərin, müharibə və qırğınların əsas səbəbkarının nadanlıq, cəhalət, tamah və acgözlük olduğunu bir ismarış kimi bütün bəşəriyyətə ünvanlayır.

Şəhriyar sülhsevər, azadlıq sevdalı bir sənətkardır. Vətənin hər guşəsini gülüstan, xalqını, qarındaşlarını, təkcə ölkəsinin deyil, dünyanın bütün xalqlarının yaşadığı məmləkətlərdə firavan dolanmasını arzulayır, yumruq boyda ürəyinə yer kürəsinə, insanlığa ümman-ümman sevgi, məhəbbət sığdıra bilir. Şair "cənnəti də, cəhənnəmi də yaradan insanın özüdür", - düşüncəsi ilə bəşəriyyətə səslənir ki:

Cənnətdir, olursa sülh ilə səfa,
Dünya cəhənnəmdir etsəniz dava (2, s.444)…

"Təxti-Cəmşid"də o, sələfi mütəfəkkir şair Nizami Gəncəvinin yaratdığı obrazları da özünəməxsus tərzdə, yeni biçimdə, yeni ictimai məzmun müstəvisində canlandırır.

Dahi Nizami "İsgəndərnamə" poemasında ilk dəfə yaratdığı İsgəndər obrazının simasında ədalətli şah, insanların xoş rifahı, azadlıq və səadəti uğrunda mübarizə aparan haqsevər bir qəhrəman surətini təqdim etmək istəmişdir. Mütəfəkkir şairin əsas məqsədi, o dövr üçün utopiya olsa da, ədalətli, müdrik hökmdar obrazı yaratmaq və cəmiyyətlərə ondan nümunə götürməyi tövsiyə etmək idi. Nizaminin İsgəndər obrazı ilə Şəhriyarın yaratdığı şah obrazı bir-birindən fərqlənir. Sələfinin humanist, haqsevər, ədalətli bir şah – şəxsiyyət kimi qələmə aldığı qəhrəmanını bütün müharibələrə, qəsbkarlara nifrət edən, hər cür fitnəkarlığı, soyğunçuluğu pisləyən, bir insanın ölümünü bütövlükdə cahanın ölümünə bərabər tutan, dünyada ancaq sülh və əmin-amanlığın, mədəniyyətin qalibiyyətini görmək istəyən Şəhriyar isə İsgəndəri Əhrimən, Yer üzünü fitnə-fəsad yuvasına, savaş, dava-dalaş meydanına çevirən şər qüvvə kimi təqdim etmişdir. Bütün bunlarla bərabər, insanları, cəmiyyətləri Xaqani Mədain xərabələrindən, Şəhriyar isə odlar, alovlar içində yandırılmış "Təxti-Cəmşid"in viranə-liklərindən ibrət almağa, nəticə çıxarmağa çağırmışdır. "Mənim üslubum İraq səpkisindədir, lakin Türküstan və hind səpkilərinin də şeirlərimə təsiri vardır", - deyən Şəhriyarın misilsiz bədii lövhələr yaratmaq qüdrəti, əslində İraq və Türküstan səpkilərinin birləşməsindən pərvəriş tapmış Azərbaycan ədəbi məktəbindən qaynaqlanmışdır (1.2., s.230). Şair Azərbaycan elatının köçəri həyatının mərdlik və qəhrəmanlığını, şəhər həyatının isə qaynarlığını və müdrikliyini özündə birləşdirən Azərbaycan-Nizami ədəbi məktəbində müdrikliklə epik vüsətin qaynayıb-qarışdığını təqdir edir, müsbət cəhət kimi dəyərləndirirdi. O, hələ sağlığında ikən nəşr olunmuş "Divan"ının IV cildinə yazdığı müqəddimədə real həyat lövhələri ilə zəngin olan, özünün ictimai, ədəbi-fəlsəfi, əxlaqi-didaktik görüşlərini parlaq şəkildə əks etdirən "Gecənin əfsanəsi" poemasını məhz bu səpkidə yazdığını göstərmişdir.

Nizami təfəkkürünün işığı B.Q.Səhənd yaradıcılığına da aydın şəkildə sirayət etmişdir. O, poemalarında S.Vurğun, M.Ə.Sabir sözünün, şeirinin də təkcə özünün deyil, bütövlükdə əsl sənət nümunəsi yaradan sənətkarların bədii yaradıcılığına təsirindən, böyük şairin əsərlərindən bəhrələnməsindən qürur hissilə bəhs açmış və onlardan daim öyrənməyin, faydalanmağın, işığına, nuruna bələnməyin gərəkliliyini söyləmişdir. Ancaq şair bütün bu dahilər bir yana, onların yetişməsində ən mötəbər mənbə olan anaların laylasına, el folkloruna, şifahi xalq ədəbiyyatına, ata-babalarımızın yaratdığı müdriklik çeşməsinə-atalar sözlərinə, zərb məsəllərə bax:

Tarixlərin, qana batmış, Varaxların, varaxla bax!
Yox! Görüşən, bir kənd üçün, Bələdçilik, həmaqətdi!
Atropatdan, Xətaidən, Yağıları-düşmanları,
Bezikdirən, Babək kimi, Qəhrəmandan, danışmayaq.
Vaqiflərdən, Fizulidən, Nizamitək, mərifətdə,

Dünyamıza, ışıq salan, Bir insandan, danışmayaq.
Anaların, laylasına, Aşıqların–ozanların,
Könül açan, dastanına, Nəğməsinə, qulaq asaq,
Ataların - babaların, Sözlərini, duyub qanaq.
Aydan aydın, gündən duru, Kədər bilməz, bu güzgüdə,
Bu ellərin, obaların, Nə olduğun, görmək olar (3, 52-53).

Bəhruz Dövlətabadi Çayoğlunun (1948) "Azadlıq quşu" poemasında isə folklor naxışı ilə bərabər, Nizami və Füzuli ruhu da aşkar hiss olunur. "Şəmə pərvanə, gülə bülbül" nə qədər gərəkdirsə, "insana da azadlıq" o qədər gərəkdir inamında olan B.D.Çayoğlu Nizaminin "Xosrov və Şirin" poemasının baş qəhrəmanlarından birinin-Fərhadın eşqi yolunda dağ çapması motivinə işarə edərək bu məqamı Cənubi Azərbaycan xalqının azadlıq istəyinə, özgürlük, bağımsızlıq diləyinə bağlamışdır. O, təlmih üsulundan məharətlə istifadə etməklə əsərdə ənənəvilik prinsiplərini böyük ustalıqla gözləmiş, gerçək sevginin əbədiyaşar olduğuna diqqət çəkmişdir:

Yanmasaydı Qeys Leylanın fərağında, bala,
İstəsəydi rahət olub mahın kənarında qala,
Nə əsər qalmışdı Məcnundan, nə eşqin dəftəri,
Sizlərdə yer tutub olmazdı dillər əzbəri (4, s.122).

M.T.Zehtabi "Şahin zəncirdə" poemasında Şərqin əbədi şölələnən zəka məşəli sandığı Nizaminin "İsgəndərnamə" poemasının baş qəhrəmanı İsgəndərin dirilik suyu axtarması motivinə söykənərək dünyaca məşhur fatehin dirilik suyunu axtarmaq üçün zülmətə getməsini, lakin bütün bu səylərin boşuna, həyatın əbədi, insanların isə gəldi-gedər olduğunu göstərmişdir:

Şərqin əbədi məşəli, dahi, ulu İlyas
Əfsanə libasında deyibsə də, əfsanə sayılmaz.
Zülmətdir o dağlar, o demişdir: Qatı zülmət!
İsgəndər əgər tapmaq üçün "abi- həyat"ı
Zülmətlərə üz qoydu, məgər tapdı nəhayət? (5, s.140)

Səməd Vurğun İran irticaçılarının 1930-cu illərdə Cənubi Azərbaycanda Azərbaycan türkcəsində olan kitabları xüsusi vəhşiliklə yandırmalarından hiddətlənərək 20 yanvar 1947-ci ildə "Yandırılan kitablar" adlı bir şeir yazmış və vətəndaş şair bu hökmü imzalayanları da, hökmün icraçılarını da cəllad adlandırmışdı.

Bizə elə gəlir ki, Mənuçöhr Əzizi Haray (1936) "Yandırılan sazlar" poemasını 30-40 il sonra məhz bu şeirdən təsirlənərək qələmə almışdır. Bu

addımın atılmasının dərin kökləri vardır. Axı, "Tarım mənim", "Səbanın tarı", "Unudulmuş saz", "Suzi-saz", "Qəmli ney", "Saz və yanğı", "Tacbəxşin kamanı", "Yanıqlı saz" və s. qəzəllərində ustadı Şəhriyar da tar, saz və ney kimi musiqi alətlərini xalq mənəviyyatının, xəlqi xüsusiyyətlərin daşıyıcısı kimi qiymətləndirirdi. "Çaldığın sazda ötən mən yazığın naləsidir", – deyən şair saz və tarı insanın ürək yanğısının, dərdlərinin melodraması, məlhəmi kimi dəyərləndirir və dədə-babalarımızın günümüzədək qoruyub saxladığı bu qədim alətləri Azərbaycan milli varlığının təzahürü sayırdı. Beləliklə, tara, yaxud türkün qan yaddaşı olan saza şairin odlu məhəbbəti bir vaxtlar Quzey Azərbaycanda da tarın musiqi aləti kimi qadağan edilməsini gündəmə gətirən milli xəyanətkarlara cavab olaraq nakam şairimiz Mikayıl Müşfiqin "Oxu tar" şerini yada salır.

Oxu tar, oxu bir kadar!..
Nəğməni su kimi alışan ruhuma çiləyim.
Oxu tar, oxu tar!.. Səni kim unudar? (6, s. 77)

Təbii, bu misralar milli musiqimizə, milli çalğı alətlərimizə, bütövlükdə mədəniyyətimizə böyük sevgisi olan Şəhriyarın odlu qəlbini təlatümə gətirməyə bilməzdi. Quzeydə baş verən ədəbi prosesdən radio dalğaları vasitəsilə xəbər tutan şair qan qardaşının ürəyini yerindən oynadan səsinə, təbii ki, "Tarım mənim" kimi əsərlərilə səs verməli idi…

Tarix geri qayıtmır, sadəcə zaman-zaman təkrar olunur. Manuçöhr Əzizi Harayın uzun illərdən sonra "Yandırılan sazlar" poemasını yazması da 1980-ci illərdə İranın mürtəce din xadimləri - "qaranlığa məhkum olan köhnəbeyin adamlar" tərəfindən Cənubi Azərbaycanda milli musiqi alətlərinin qadağan olunmasına qarşı etiraz, xalqın qədim mədəniyyət nişanələrinin məhv edilməsinə, insan haqq və hüquqlarının tapdanmasına, bir millətin mənən şikəst olunmasına yönəldilmiş siyasətə qarşı protest idi. Poemadan bəzi misralara diqqət edək:

Camiədə hər bir eniş, hər bir yoxuş,
Şəraitdən, illətlərdən asılıdır.
Qaranlığa məhkum olan,
Köhnə beyin adamlar da minbir illət məhsuludur.
Lakin bu bir faciədir (7, s.210)...

İllər boyu dustaq həyatı keçirən, sürgünlərdə zillət çəkən ziyalıların milli və bəşəri düşüncələrini inkar edən mürtəceni insanlarısəfalət və zülmətlərdən xilas edən bir xilaskar kimi təqdim edən məmləkətdə bundan artıq nə gözləmək olar? Sanki bu ölkədə insanların bəstələdiyi minlərlə oyun havaları, yeddi muğam dəsgahı, xalq mahnıları, aşıq havaları çalınmayıb, heç bir vaxt ifa edilməyib və oxunmayıb. Elə bil hər şey zülmət qaranlıq

içində dərin və mənalı bir sükuta dalıb. Bu mənalı dərin sükutda M.Ə.Haray hərəkətsiz, musiqisiz bir yaşayış, səssiz-sədasız, musiqisiz, hərəkətsiz - dəhşətli, vəhşətli bir aləm duyur və mədəniyyət daşını döşlərinə döyəcləyən, ziyalı adını daşıyanların yaratdığı bu duruma etirazını bildirir (8, s.23). M.Ə.Haray "Yandırılan sazlar" poemasında klassiklərdən M.Ə.Sabir, Şəbüstərli Möcüz, Cəlil Məmmədquluzadə, Səməd Vurğun kimi söz xiridarlarının, hətta Avropanın elm korifeyləri Qaliley və Nyutonun da adlarını çəkməklə sanki onların da səsinə səs verir, özünün, biçarə xalqının halına acıyaraq qəzəblə, sözlərinə bir qədər də ironik tərz qataraqdeyir:

Bəlkə Sabir səhv eliyib ki, günü parlaq, günüzü ağ,
Gecəni tar, bədi bəd, əyrini əyri, düzü həmvar yazıb.
Bəlkə Sabir düşünməyib, gözü görüb, ağlı kəsib,
mavi göydə həqiqət tək işıq günü dananmayıb.
Şəbüstərli Möcüz necə? Məmmədquluzadə necə? Səməd necə?
Qalileylər, Niyotonlar,
Həqiqətin yollarında şirin canın təslim edən qəhrəmanlar,
Yenidənmi çəkilsinlər məhkəməyə? (7, s.213).

Şairin lirik qəhrəmanı bütün bunları dana, məqsədə, hədəfə yetmək üçün min bir incə, zərif işlərə əl qatan siyasətə milli dəyərləri sata bilmərəm, - deyir.

Mirməhəmməd Musəvinin "Göydərə" poeması forma və üslubuna görə Şəhriyarın "Səhəndim"ini, əhatə etdiyi məzmun və məna dairəsinə görə isə "Heydərbabaya salam"ı xatırladır. Lakin süjet və struktur quruluşundakı fərq bu poemaları bir-birindən ayırır:

Göydərə qızları ipdən corablar toxuyarlar,
İşvəli sevgililər - yar gələcəkdir – oxuyarlar (9, s.133).

Ustad Şəhriyarın təsvirində isə bu, bayram öncəsi nişanlı qızların gördüyü ən ilginc, sevimli işlərdən biridir:

Bayram idi, gecə quşu oxurdu,
Adaxlı qız bəy corabı toxurdu (10, s.159)…

Oxşar və fərqli xüsusiyyətlər hər iki şairin sənətkarlıq məziyyətlərini müəyyən edən arqumentlərdir.

Cənub şairləri klassiklərdən, korifey söz ustadlarımızın yaradıcılığından elə yüksək sənətkarlıqla bəhrələnirlər ki, nəticədə bütün parametrlərilə poema janrının tələblərinə cavab verən yeni səpkili orijinal əsərlər araya-ərsəyə gətirirlər. Etkilənmə qaynaqlarını açıq etiraf edən Cənub şairlərinin bu əsərlərdə hətta bəhrələndikləri şairlərlə, sənətkarlarla iftixar duyduqları da

aydın müşahidə olunur. İstedadlı şair olmaqla yanaşı, dəyərli elmi araşdırmaları ilə oxucuların rəğbətini qazanmış prof. Hüseyn Düzgünün dünyanın heç bir nemətinə aldanmayaraq yalnız söz sənətinə xidmət edən ölməz Səməd Behrəngiyə həsr etdiyi eyniadlı poemadan gətirdiyimiz örnəklə onun böyük fəxarətlə müraciət etdiyi obyektləri-sənətkarları göstərəcək və fikrimizi yekunlaşdırmağa çalışacağıq:

Qazi Burhanəddin nə oldu, ey yar!
Qanla qoruduğu hanı o diyar?
Hanı o döyüşkən Hurufilərim?
Namərdə satılır müqəddəs yerim.
Hanı Bəktaşilər, hanı Goranlar,
Hanı o qəməli yurda qurbanlar?
Hanı qanlı izli o Qızıl Başlar?
İllərin ardından, mən Vurğunların,
Sənə gətirirəm dərin salamın (269).

H.Düzgünün "Səməd Behrəngi" poemasındakı "Mənim babam yazan "Qara məcmuə", gərək ki, yol açа mədrəsələrə" misraları ilə demək istədiyi mətləb aydındır və fikrimizcə, şərhə ehtiyac yoxdur.Beləliklə, tədqiq olunan dövrdə Cənubi Azərbaycanda yaranan poemalara klassik ədəbiyyatın təsiri ancaq fəlsəfi düşüncə və sözdən ustalıqla istifadə etmək meyarı ilə şərtlənməmiş, ictimai həyata baxışda milli özünüdərk, azadlıq ideyası ilə xəlqiliyin sintezində yeni, orijinal ədəbi-bədii keyfiyyət qazanmışdır.

Qaynaqlar:

1. 1.Şükürova (Fuad) E. Məhəmmədhüseyn Şəhriyar (Həyatı, ədəbi mühiti, yaradıcılığı) , Bakı: "Maarif", 1999, 224s.; 2.Şükürova (Fuad) E. Söz sərrafı Şəhriyar. Avrasiya Beynəlxalq Mətbuat fondu, Bakı: 2010, 304 s.; 3. Şükürova (Fuad) E. Muhammet Huseyin Şehriyar (Yaşamı, ortamı, bedii irsi) ", İstanbul, "Peon Atlantic", 2014, 369 s.
2. Şəhriyar M.Seçilmiş əsərləri. Bakı: "Elm", 2000, 480 s.
3. Səhənd B.Q. Dədəmin kitabı. Stokholm, Durna och Tribun. 2001, 440 səh.
4. Dövlətabadi B. (Çayoğlu). Bayatı boyat olmaz. Təbriz: 1354//1975, 279 s.
5. Zehtabi M.T. Şahin zəncirdə. Təbriz: Əxtər, 1376//1997, 186 s.
6. Axundzadə D. Müşfiqli günlərim. Bakı: Gənclik, 1968, **274 s.**

7. Kafkasiyalı A. İran Türklerinin Edebiyyat Antolojisi, VI ciltte, VI c., Erzurum: Atatürk Üniversitesi Basımevi, 2002, 669 s.
8. Şükürova (Fuad) E. M.Ə.Harayın "Yandırılan sazlar" və "Tarçı Şulan" poemalarında tarixi həqiqətin poetik ifadəsi // Filologiya məsələləri, Bakı: Elm və təhsil, 2015, sayı 10, s.514-522.
9. Vətən nəğməsi. Şeir toplusu. Təbriz, 1358//1979, Əski əlifbada.
10. Şəhriyar M. Yalan dünya. Bakı: "Azərbaycan Ensiklopediyası" NPB, 1993, 496 s.

E.Fuad

The influence of classical poetry on the creation of the poem in the south.

Summary

As in all fields of science and art, it is important to have referance to history, to learn from the predecessors in literature and to look into the past and to establish unity with modernity.

The issue of literary relationships and literary influences among the nations is one of the most important elements of literature.Feelings of pride of the South Poets, who openly admit their sources of influence, are observed in their works . The literary heritage of the South Poets, led by Ustad Shahriyar, had a strong influence on classical literature.

Poets who have enjoyed a lot of classical traditions have been known for their creativity have benefited from the poetic heritage of the thinkers such as Nizami, Khagani, Fuzuli, Rumi, Hafiz, Saib Tabrizi, Nasimi, Khatai, Sabir, Mujuz and in many of their works that spirit can be clearly understood. This is more related to the fact that these poets are unambiguously approached in the traditional sense of the parametric features of writing a work.

Э.Фуад

Влияние классической поэзии на творчество поэмы на юге.

Резюме

Южные классические поэты получают преимущества поэтическое наследие мыслителей Низами, Хагани, Физули, Руми, Хафиз, Саиб Тебризи, Хатаи, Насими, Набати, Сабир,Вагиф,Моджуз и другие,в результате рождаются со всеми новые оригинальные произведения отвечающие параметрами требованиям жанра поэмы.

Стихотворения этих мыслителей оказали сильное влияние на творчества поэмы, в том числе художественное наследие Шахрияра, Б. Гахана, М.А.Харая, Б.Д. Чайоглу, М.Т.Зехтаби, М.Мусави и других.

Эта более заметна и ощущается в стихотворении «Саханддим» и «Легенда ночи» Шахрияра, «Слова саза» Б.Г.Саханда, «Самад Бахранги» Х.Дюзгюна, «Птицы свободы» Б.Д. Чайоглу, «Сожженные сазы» М.Харая, «Голубая долина» М.Мусави.

Rəyçi: Nadir Məmmədli
Filologiya üzrə elmlər doktoru, professor

TƏRANƏ RƏHİMLİ
filologiya üzrə fəlsəfə doktoru, dosent,
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Email: terane.turan@gmail.com

1960-70-Cİ İLLƏR NƏSRİNİN JANR XÜSUSIYYƏTLƏRİ ƏDƏBİ TƏNQİDDƏ

Açar sözlər: nəsr, bədii, ədəbi tənqid, yaradıcılıq, fantastik, ədəbiy-yatşünaslıq.
Ключевые слова: проза, художественная, литературная критика, произведение, фантастический, литератураведение.
Key words: prose, plot, artistic, literary criticism, art, fantastic,, literature.

1960-70-ci illərdə bədii nəsrin hekayə, miniatür povest və fantastik janrlarda yazılan örnəkləri ədəbi tənqidin diqqət mərkəzində olmuşdur. Xüsusilə, fantastik janrda əsərlər yazılması nasirlərimizin qarşısında tənqidin ciddi tələblərindən biri kimi qoyulurdu. 60-cı illərin əvvəllərində tənqid nəsrin janr yeknəsəqliyini onun üç başlıca nöqsanından biri (digər iki nöqsan mövzu yekrəngliyi və yazıçının həyatla əlaqəsinin zəif olması idi) kimi göstərdikdə, bu məhdudluğu elmi-fantastik, macəra, dedektiv roman və povestlərin yazılmaması ilə izah edirdi. Ümumiyyətlə, bu illərdə janr məsələsinə münasibətdəki qarışıqlıq həmin janrlarla bağlı fikir və mülahizələrdə də öz əksini tapırdı. Çox vaxt tənqid həmin janrların sərhədlərini, janrdaxili özəlliklərini müəyyənləş-dirməkdə belə çətinlik çəkirdi.

XX əsrin ikinci yarısının ilk illərində milli ədəbi tənqidimizi narahat edən başlıca məsələlərdən biri nasirlərimizin fantastik, macəra, dedektiv janrlarına fəal müraciət etməməsidir. Hələ 50-ci illərin başlanğıcında Məmməd Cəfər elmi-fantastik əsərlərin əhəmiyyətini vurğulayır, bədii nəsrin bu sahədəki boşluğundan narazılığını ifadə edirdi (1). Elçin nəsrin dünya ədəbi təcrübəsinin sınağından çıxmış ədəbi janrlara maraq göstərməməsi və tənqidin buna əksərən laqeyd münasibətini belə mənalandırır ki, "bədii nəsr əsasən ifrat "istehsalat prosesi" ilə məşğul olduğu kimi, ədəbi tənqid də "kənar məsələlərə" diqqət yetirməyə vaxt tapmırdı." (2, 325)

Ədəbiyyatımızda fantastik və dedektiv əsərlərin bir sıra dəyərli nümunələri 50-ci illərin ortalarında yazılsa da, 60-cı illərdə bu janrların xüsusi fəallığı ilə seçilməməsi, hətta onların yeni nəsrdə yoxluğu təəssüratını yaratması tənqidi ciddi düşündürmüşdür. Ümumiyyətlə, sözügedən janrların ümumittifaq miqyasında geridə qalması müşahidə olunur, onların aktuallığını artırmaq üçün silsilə məqalələr yazılır, ədəbi diskussiyalar,

dəyirmi masalar keçirilirdi. Fantastik janra – elmi fantastikaya, ekspressionist fantastikaya milli yazıçılarımızın maraq göstərməsində, 60-cı illərin sonlarında, 70-ci illərdə bu janrlarda diqqəti çəkən bədii örnəklərin yaradılmasında həmin məqsədyönlü ədəbi tədbirlər mühüm rol oynamışdır.

Anarın fantastik "Əlaqə" povesti də tənqidi ilk növbədə janr xüsusiyyətləri iə cəlb edib. Ədəbi-nəzəri fikir əsərdə fantastikanın "şərti - oyunvari" səciyyə daşımadığını, ciddi dramatik səciyyəsi ilə secildiyini vurğulayır. "İnsanı tamamilə öz stixiyasına daxil etmək" istəyən bu qeyri-təbii ahəng və harmoniyaya malik fantastikada qəribə, məchul bir aləm var. Tənqid "Əlaqə" qəhrəmanının tənhalığını şərtləndirən əlaqəsizliyə, ətraf aləmdən təcrid olunmağa münasibət bildirir, Anarın povesti ilə F.Kafkanın "Qüssə" novellası, yaxud X.Kortsarın hekayələri arasında yaxınlıq görür. Lakin "Əlaqə" ilə birbaşa səsləşən, ideya birliyi, bədii qəhrəman yaxınlığı ilə diqqəti çəkən A.P.Çexovun "Qılaflı adam" hekayəsi diqqətdən kənarda qalır. Halbuki, "Qılaflı adam" və "Əlaqə" qəhrəmanlarının hər ikisini məhvə sürükləyən səbəb onların özlərini sosial mühitdən, insanlardan təcrid etməsi, mühitlə öz aralarında bir çəpər çəkməsi, süni şəkildə özlərinə qılaf yaratması ilə bağlı idi.

"Əlaqə" povesti məişətdən uzaq, sosial həyatdan sərt şəkildə ayrılan fantastika nümunəsi hesab edilmir. "Bu ekspressionist fantastikada real şəhər, real adamlar iştirak edirlər, amma nə isə elə qəribə bir şey baş verirdi ki adamlar müdhiş vəziyyətlərə düşürdülər... Bu işıqla kölgə arasında tərəddüddən, yol üstündə maneənin, tinin, keçidin, pillənin peyda olmasından yaranan fantastikadır..." (6, 144) Y.Oleşanın fantastik nəsrə dair bu qənaətini Yaşar Qarayev Anarın "Əlaqə"sinə də aid edir, müqavimətə, əngələ reaksiya kimi yaranan, reallığa yabançı olmayan əsəri fantastik povest janrının ən mükəmməl nümunəsi kimi dəyərləndirir.

Anarın bədii nəsrində fantastik ünsürlərdən istifadə etməsi tənqidin diqqətindən yayınmamış, "Ağ liman", "Macal", "Əlaqə" povestlərinin bu aspekti nəzəri təhlil mərkəzinə çəkilmişdir. Tənqid həmin əsərlərdəki hadisələrin daha canlı, daha düşündürücü təqdimində fantastik ünsürlərə müraciətin əhəmiyyətini xüsusi vurğulayır.

Tənqid bioqrafik əsərlər, memuar ədəbiyyatı, epistolyar janr sahələrində də nailiyyətlərin azlığından şikayətlənir, müasirliyi ilə seçilən bu mühüm nəsr janrlarına fəal müraciətin vacibliyini vurğulayırdı.

Dövrün nəsrində roman janrının xüsusiyyətləri iə bağlı təhlillər də maraq doğurur. Bu illərdə roman janrında yazılan əsərlər nəsrin digər janrlarına nisbətən sayca azlıq təşkil etsə də, roman məsələsinə ədəbi-nəzəri münasibət öz aktuallığı və ziddiyyətli xarakteri ilə fərqlənirdi. Roman 70-ci illərdə ümumittifaq səviyyədə ədəbi-nəzəri fikri davamlı surətdə məşğul edən ciddi yaradıcılıq məsələlərindən biri olmuşdur. Romanın taleyi ilə bağlı bəzən sakitləşən, bəzən güclənən ədəbi mübahisələr bu dönəmdə yazıçı və

ədəbiyyatşünasları çox narahat edir, problemə dair silsilə yazılar çap olunur, "roman lazımdırmı?" sualı ətrafında düşüncələrin panoramı problemə "Romanın krizisi: Mif və gerçəklik" kontekstində yanaşma zərurətini yaradır. Rus ədəbiyyatşünaslığı "romanın krizisi mövcuddurmu?", "hansı sosial təzahürlər, fəlsəfi və estetik amillər bu janrın inkişaf prosesinə, bütövlükdə taleyinə təsir edir?" kimi vacib sualların cavabını axtarırdı. XX əsrin 50-ci illərindən başlayaraq romanın müasir dövrdə vəziyyəti və janrın ədəbiyyatda perspektivləri bütövlükdə dünya ədəbi-nəzəri fikrinin diqqət mərkəzində olmuş, beynəlxalq simpoziumlarda, konfranslarda, kollekviumlarda aparıcı mövzu kimi önəmli yer tutmuşdur. A.Rob-Qrillet "Yeni roman uğrunda" (1963), P.Alberes "Müasir romanın tarixi" (1962), Gerda Zeltner "XX əsrdə fransız romanının böyük macəraları" (1960), Jorj Jan "Roman" (1971), R.Burnef, R.Kelle "Romanın sferası" (1972) kimi dünya ədəbi ictimaiyyətində maraq doğuran fundamental tədqiqatlarını 1960-1970-ci illərdə yazıb nəşr etdirməklə, roman probleminin Avropa ədəbi-nəzəri elmini nə dərəcədə ciddi düşündürdüyünü təsdiqləmiş oldular. 70-ci illərin əvvəllərində rus ədəbiyyatşünaslığı rus və Avropa alimlərinin roman probleminə dair aparıcı nəzəri qənaətlərini bir araya gətirən "Romanın taleyi" (1975) kitabını ədəbi aləmə təqdim etməklə məsələ ətrafındakı mübahisələrə son qoymaq, janrın ədəbiyyatın janrlar sistemindəki mühüm yerini, əvəzolunmazlığını dərk edib dəyərləndirmək vaxtının gəlib çatdığını göstərdi. Romanın taleyi məsələsinə münasibət E.F.Truşenkonun qeyd etdiyi kimi, Şoloxovsayağı çözümünü tapdı: "Mixail Şoloxov bir vaxtlar deyirdi ki, sovet ədəbiyyatı üçün "roman olsunmu, olmasınmı?" sualı kəndli üçün "buğda əkməkmi, əkməməkmi?" sualı qədər sadədir. O, sualı başqa cür qoyurdu: romanı yaxşılığa doğru necə düzəltməli ki, o şərəflə xalqa, mənim oxucuma xidmət etsin?" (9, 20)

70-ci illərdə romanın imkanları və perspektivləri, janrın hərəkəti: təkamülü və yeni forma axtarışları, müasir romanın mövcud mənzərəsi və gələcək taleyi, roman problemi cəmiyyət, sənətkar və zaman kontekstində kimi məsələlər dolğun elmi izahını tapdı. Nəticədə roman janrının üstünlükləri barədə elmi təhlillər hətta bəzən ifrat həddə çatıb digər nəsr janrlarını onun kölgəsində təqdim etməklə, hekayə, povest və s. əhəmiyyətini azaltmaqla nəticələndi. 70-ci illərin sonu və 80-ci illərdə bu epik janra xüsusi həssaslıqla yanaşan, ədəbi mətbuatda roman haqqında mülahizələrə xüsisilə geniş yer verən Azərbaycan tənqidi bu cəhəti nəzərdən qaçırmadı. Tənqidçilərimiz rus ədəbiyyatşünasları M.Baxtin və D.Qranin tədqiqatlarında romanın dinamik inkişafda təkmilləş-məkdə və zənginləşməkdə olan, zamanla, əsrlə ayaqlaşan "yeganə janr", "müa-sirliyin ən aktual problemlərinin həll oluna biləcəyi meydan" kimi dəyərləndirilməsinə etiraz edir, bu dəyərləndirmənin digər nəsr janrlarına qarşı yanlış münasibət formalaşdırdığını vurğulayırdılar. Bəkir Nəbiyev haqlı

olaraq ədəbi janrlara belə münasibətin qeyri-obyektiv nəzəri qənaətlərə yol açdığını qeyd edirdi: "M.Baxtinin "yeganə janrdır ki" ifadəsi ilə qətiyyətini nəzərə çatdırmaq istədiyi mülahizə bizə çox mübahisəli görünür. İnkişaf etmək, təkmilləşmək və zənginləşmək kimi keyfiyyətlər nə zamandan təkcə romana xas keyfiyyərlər kimi tədqiq olunmuş, romanın monopoliyasına çevrilmişdir? Məgər nəsrin hekayə, novella, miniatür, xüsusən povest janrları inkişaf etmir, təkmilləşmir və zənginləşmir? Ç.Aytmatovu qısa bir müddətdə bütün dünyada tanıdan povest bir janr kimi, keçən əsrin povestlərini hələ bir yana qoyaq, iyirmi beş il bundan əvvəlki povestə nisbətən heç bir dəyişikliyə məruz qalmamışdır? ...D.Qranin nə haqla "müasirliyin ən aktual problemlərinin həll oluna biləcəyi meydan"ın qapılarını povestin üzünə bağlayır?" (7,104)

Tənqid bütün ədəbi janrların məvazi yaşamaq hüququnu xatırladır, ədəbiyyatımızda 60-cı illərdə xüsusi fəallıq qazanan hekayənin, 70-ci illərdə inkişaf yolunun zirvəsini fəth edən povestin ən mühüm nailiyyətlərini yada salmaqla bu janrların ədəbi inkişafda roman qədər vacib rolunu vurğulayırdı. Eyni zamanda, roman janrının Azərbaycan ədəbiyyatında dərin köklü ənənələri olduğunu da nəzərə çatdırır, 60-70-ci illərdə bu janrın "Pərvanə", "Dəli Kür", "Məhşər", "Gülyanaq", "Katib", "Sarıköynəklə Valehin nağılı", "Vicdan susanda" və s. kimi dəyərli örnəklərlə zənginləşdiyini vurğulayırdı. Ədəbi-nəzəri fikir yeni mərhələdə romanın gerçəkliyə, şəxsiyyətə, insan psixologiyasına və mənəvi-əxlaqi problemlərə dərin marağını müşahidə edir, janrın axtarışlarının ideya, mövzu, problematika ilə yanaşı, janr-üslub məsələlərinə də yönəldiyini vurğulayırdı. Himalay Qasımov janrın poetika və tipologiyasını araşdıran tədqiqatında 60-cı illərin əvvəllərindən başlayaraq romanın janr ölçülərinin nəzərə çarpacaq dərəcədə dəyişdiyini, yığcam romanlar yazıldığını göstərir, bunu "yazıçılarımızın roman təfəkküründə janr-üslub vəhdətinə nail olmaları"nın nəticəsi kimi qiymətləndirir. Tədqiqatçı haqlı olaraq qeyd edir ki, bu mərhələdə "zamanın ideyalar dramını tədqiq etməyə xüsusi meyl edən Azərbaycan romanı sənətlə gerçəklik arasındakı əbədi münasibətlərə daha çox üstünlük verməyə başladı." (5, 105)

1960-1970-ci illər tənqidində haqqında ən çox məqalə, resenziya yazılan, nəsr haqqında fundamental tədqiqatlarda yer alan əsər kimi "Dəli Kür"ün sənətkarlıq xüsusiyyətləri təhlil mərkəzində olmuşdur. Tənqid 60-70-ci illərdə nəsrin əldə etdiyi nailiyyətlərin yalnız kiçik janrlar üçün effektiv olmadığını qeyd edir, İ.Hüseynovun kiçik janrlara gətirdiyi yeniliklərin əhəmiyyətini, zəruriliyini aydın surətdə özündə göstərən "Dəli Kür" romanına diqqəti çəkirdi. Svetlana Əliyeva əsərin sənətkarlıq xüsusiyyətləri haqqında yazırdı: "İ.Şıxlı böyük həcmli nəsr formasının perspektivini, gərəkliyini tapmaqla təhkiyənin emosional zənginliyini daha geniş şəkildə meydana çıxardı, təsvir dərinliyi və lakonizm ilə müəyyən zaman və hərəkət

hüdudları daxilində Azərbaycan nəsrinin üslubi imkanlarını realist detallarla zənginləşdirdi. Bu əsərdəki psixologizm, dramatizm konkret insan taleyi ilə xalqın taleyinin daxili bağlılıqla təsviri Azərbaycan nəsrinin qazandığı yeni keyfiyyət kimi diqqəti cəlb edir." (3, 129)

2000-ci illərdə tənqid "Dəli Kür"ə epos ənənələri kontekstində yanaşır, romandakı milli ruhun, milli varlığın eposdan gəldiyini tutarlı arqumentlərlə əsasladıra bilir. Azərbaycan romanının milli mənbəyini eposda axtaran Nizami Cəfərovun "Dəli Kür"ə bu aspektdə münasibəti Cahandar ağanın xarakter əzəmətinin təməlində dayanan milliliyin tarixin dərinliklərindən, xalqın epos yaddaşından gəldiyini aşkarlamaq imkanı verir.

Fərman Kərimzadənin "Qarlı aşırım" əsəri yazıçının özünün müəyyənləşdirdiyi kimi povest janrının nümunəsi hesab edilib, ilk vaxtlar bu adla tənqid-təhlil materiallarında geniş yer alıb. Yazıldığı 70-ci illərin ədəbi mətbuatında elmi-nəzəri təhlillərdə əsərdən povest janrının mükəmməl örnəyi tək söz açılır, onun povestin hüdudlarını aşan epik vüsəti aşkar müşahidə olunsa da, nəzəri fikir bunu təsdiqləməyə tələsmirdi. 80-ci illərdən başlayaraq tənqid "Qarlı aşırım"ı roman kimi görüb dəyərləndirir. Əsəri "Dəli Kür"ün ən sağlam ənənələri əsasında yazılmış", "Azərbaycan eposunun bətnindən sıyrılmış" roman hesab etməklə Təyyar Salamoğlu "Qarlı aşırım"ın poetikasındakı epos təfəkkürü dayanıqlığını ilk dəfə isbata cəhd edir və buna uğurla nail olur. "Qarlı aşırım"la "Kitabi-Dədə Qorqud", "Koroğlu" arasındakı uyğunluqların, kəsişmələrin ciddi qanunauyğunluğa əsaslandığını göstərən tədqiqatçı 70-ci illərdə yazılmış romanın "eposda yaşayan qəhrəmanlıq ənənələrini yaşadan sonuncu zaman kəsimindən" söz açmasına diqqəti yönəldir. "Dəli Kür"ü də, "Qarlı aşırım"ı da epos təfəkkürünə bağlayan əsas bağ müəllif təfəkkürünün qəhrəmanlıq ənənələrinin yaşarı olduğu zamana istiqamətlənməsidir" (8, 186) fikri təhlilin məntiqini aydın ifadə edir. İsa Hüseynovun "Məhşər" romanına verilən təhlillərdə əsasən epik janrın kamilliyini əks etdirdiyi vurğulanır. Tənqiddə lirikliklə epikliyin çox vaxt qarşı-qarşıya qoyulduğu, birincinin köhnə, ikincinin müasir forma hesab edildiyi 60-70-ci illərdə "Məhşər" epik janrın imkanlarının genişliyini dolğun surətdə göstərdi. Tənqid hər iki formanın ümumilikdə bədii strukturun nəsrin zəifliyini və ya əksinə, gücünü göstərmək qüvvəsində olmadığını, hərhansı əsərin qüsur və çatışmazlığını janrın təbiətində yox, yaradanın – yazıçının istedad səviyyəsində, sənətkarlıq siqlətində axtarmaq zərurətini dərk etdi. Bu cəhətdən "Məşhər"də epikliyin gücü janrın imkanlarından daha çox yazıçının bu imkanlardan hansı səviyyədə istifadə etməsi ilə izah olundu. T.Hüseynoğlunun qənaəti də həmin məntiqin nəticəsi kimi qüvvətli səslənir: "Məhşər" kimi epik romanlar göstərir ki, epik əsər köhnəlməyib, onun imkanı məhdud deyil. Lakin epik nəsrin inkişafının bu günkü səviyyəsində öz xüsusi çətinlikləri var. İ.Hüseynov "Məhşər"də bu cür çətinliklərlə çox qarşılaşmış, lakin onların

müvəffəqiyyətlə bədii həllini də verə bilmişdir.” (4, 142) Tənqid süni epik vüsətin inkarını bu mərhələdə nəsrin əsas uğurlarından biri kimi təqdir edir, nasirlərimizin epikliyi “surətlər, hadisələr, problemlər bolluğu”nda deyil, insan psixologiyasına, mənəvi-əxlaqi problemlərə dərin nüfuzla çoxplanlı təsvirin vəhdətində gördüklərini aşkarlayır. Janrın “Dəli Kür”, “Məşhər”, “Qarlı aşırım” kimi ən uğurlu nümunələrində epikliyin bu tərzdə təzahürü əhəmiyyətli bir yenilik kimi vurğulanır. Tənqid materiallarından da göründüyü kimi, yığcam romanlar və psixoloji-dramatik povestlər 60-70-ci illər nəsrində son dərəcə önəmli yer tutur. Epik vüsətin kiçilməsinin ilk müşahidə edildiyi “Teleqram”, “Sərinlik”, “Körpüsalanlar” povestlərinin isə bütövlükdə nəsrin ümumi ruhunun, pafosunun, yeni nəslin – “altmışıncılar”ın yaradıcılıq üslubunun müəyyənləşməsndə zəmin rolu şəksizdir.

İstifadə olunan ədəbiyyat:

1. Cəfər M. Uşaqların tərbiyəsində elmi-fantastik əsərlərin əhəmiyyəti. İnqilab və mədəniyyət, 1952, N 9, s. 129-143.
2. Elçin. Tənqid və ədəbiyyatımızın problemləri. Bakı, Yazıçı, 1981.
3. Əliyeva S. Sənətkarlıq dərsləri. // Azərbaycan, 1979, № 12, s. 119-142.
4. Hüseynoğlu T. Söz – tarixin yuvası. Bakı: Azərnəşr, 2000.
5. Qasımov H. Müasir Azərbaycan romanı. Janrın poetika və tipologiyası. Bakı: APİ-nin nəşri, 1994.
6. Qarayev Y. Meyar – şəxsiyyətdir. Bakı: Yazıçı, 1988.
7. Nəbiyev B. Roman və müasir qəhrəman. Bakı: Yazıçı, 1987.
8. Salamoğlu T.Azərbaycan ədəbiyyatı: Mübahisələr, həqiqətlər. Bakı: “Orxan” NPŞ MMC, 2016.
9. Судьбы романа. Сборник сочинений. Москва: Прогресс, 1975.

Т.Рагимли

Особенности жанров Азербайджанской прозы 1960-1970-х годах в литературной критике

Резюме

В статье повествуется о концепсии художественный жанр современной азербайджанской прозы в национальной литературной критики, определено теоретическое отношение к романам Анар, И.Шихлы, Ф.Керимзаде, И.Гусейнов и др. Писателей относительно текучего национально-литературного процесса 1960-1970-х годов. В центре исследования находятся проблематика художественный жанр «новой прозы».

Современная азербайджанская проза оценена в контексте основных направлений развития критики и важных творческих склонностей того периода.

Как видно из критики, компактные романы и психо-драматические повествования имеют решающее значение в 60-х и 70-х годах. Корень основы в телеграмме, прохладе и мосту, новое поколение - «шестьдесят один», первое, что нужно наблюдать в эпической поляризации.Статья имеет применительное значение на научных семинарах филологических факультетов высших школ, посвящённых вопросам спецкурсов и спецсеминаров.

T.Rahimli

Features of the genres of Azerbaijan prose in the 1960s and 1970s in literary criticism

Summary

The article deals with the concept of the artistic genre of modern Azerbaijani prose in the national literary criticism, a theoretical attitude to the novels Anar, I. Shikhly, F. Kerimzade, I. Huseynov and others was written about the fluid national literary process of the 1960s-1970s. The focus of the research is on the artistic genre of "new prose". Modern Azerbaijani prose is evaluated in the context of the main directions of development of criticism and important creative inclinations of that period.

As can be seen from the criticisms, compact novels and psycho-dramatic narratives are of crucial importance in the 60s and 70s. The role of the groundwork in determining the creative style of the telegram, the coolness, and the bridges, the general spirit of the general prose, the new generation - the "sixty-one", is the first to be observed in the epic polarization.

The article is of practical importance at scientific seminars of philological faculties of higher schools devoted to questions of special courses and special seminars.

Rəyçi: Elma n Quliyev
Filologiya üzrə elmlər doktoru, professor

ŞAKİR CƏFƏROV,
filologiya üzrə fəlsəfə doktoru
ceferov.shakir@yandex.ru

M.C.PAŞAYEVİN «BİR GƏNCIN MANIFESTI» ƏSƏRİNDƏ SONA, MƏRDAN VƏ BAHARIN ACINACACAQLI TALEYİ

Açar sözlər: acınacaqlı taley, kəndli, xalça, oğul toyu, şaxta
Keywords: tragic fate, peasant, carpet, son's wedding, frost
Ключевые слова: трагическая судьба, крестьянин, ковер, свадьба сына, мороз

M.C.Paşayevin «Bir gəncin manifesti» əsərində Sona, Mərdan və Baharın acınacacaqlı taleyi çox böyük ustalıqla qələmə alınmışdır. Əsərdən görürük Mərdan hələ inqilabın əsil məqsəd və vəzifələrini dərk etmir, ayrı-ayrı dövlətliləri «plana salmaq», məhv etmək qənaətindədir. Doğrudur, o şəhərdə ikən kənddə qoyub gəldiyi anasını, körpə qardaşı Baharı xatırlayır. «Burada dünyanın düzəlməyi ilə məşğul olursan, öz doğma ana və qardaşının halından xəbər tutmursan»- deyə özünü məzəmmət edir. Həmçinin məslək dostu Bağır ona lazımı məsləhətlər verir. Əsərdə Mərdanın, Sonanın və Baharın kənddəki həyatını təsvir edərkən biz Mir Cəlal Paşayevin daha səmimiliyini duyuruq. Müəllif özünü sevimli qəhrəmanlarından kənarda duran adi müşahidəçi, seyrçi rolunda göstərmir, bəlkə onların sevincinə, kədərinə şərik olur. Dünyaya gəldiyi gündən ehtiyac və məşəqqətin sərt üzünü görən, «nəvazişi kötək, duyduğu əzab, son qisməti faciəli ölüm» olan körpə Baharın taleyi nə qədər kədərlidir. Düzdür, Mir Cəlal Paşayev onun sevinclərini, bir qədər zahirən qayğısız, əyləncəli görünən məşğuliyyətini də təfərrüatı ilə təsvir edir. Lakin burada onun sevinclərinin ötəri olduğu, bunun ailə asudəliyindən doğmadığı dərhal hiss olunur. Qeyd etməliyik Mir Cəlalın əsərdə məhəbbətlə təsvir etdiyi qəhrəmanlar içərisində Sona xüsusilə fərqlənir. O, həm qayğıkeş bir ana, həm də öz qürurunu, izzəti-nəfsini, insani ləyaqətini yüksək qiymətləndirən vətəndaş kimi nəzəri cəlb edir. Onun ehtiyac içərisində qalması, «Yusif - Züleyxa» xalçasını satması ilk baxışda adi bir vəziyyət kimi görünür. Əslində oğlunun toy günü üçün qiymətli bir hədiyyə kimi saxlanan bu xalça «əbədi və təmiz bir məhəbbətin» timsalıdır. Belə bir hədiyyəni satmaq onun qüruruna toxunur.

Ana ingilisin saydığı «sarı və buz kimi soyuq qızılların bir-bir əlinə toxunduğunu» hiss edərkən adi bir fəhlənin sözü onu sanki yuxudan ayıldır: «Verin, verin aparsın fahişələrə fərş eləsin. Qoy onu toxuyanlar quru yerdə

qalsın. Ay bədbəxt, qafil müsəlman» **(Əhəd Hüseynov, Mir Cəlalın bədii nəsri. Bakı,"Elm və təhsil", 2011, s.196).**

Bu işarədən sonra Sonanın keçirdiyi həyəcanlar ani görünsə də onun daxili monoloqundakı fikir və hisslərin dərin həyati əsası olduğu aşkar nəzərə çarpır: «Nədən doğma oğlumun dağdan ovladığı ceyran bizə yaraşmadı, nədən öz əllərimlə toxuduğum xalça mənə yaraşmadı, kimdir bunlar. Bu kəlləpaça kimi ütülmüşlər, qızıllı törənmiş çapqınçılar kimdir. Haradan basa-basa çapovula gəliblər. Nə üçün? Nə üçün qəşəng şeylər onların olsun? Nə üçün? Nə üçün?». Hələlik qəzəbi bildirən, lakin hələ qəti bir qərarı ifadə etməyən bu sözlərdə böyük ana qüruru hiss olunur **(Əhəd Hüseynov, Mir Cəlalın bədii nəsri. Bakı,"Elm və təhsil", 2011, s.196).**

Anaya elə gəlir ki, ingilis öz evində, rahat və firavan zamanında adi xalçaya deyil, Sonanın barmaqlarına baxır. Təbii olaraq Sonanın gözü qarşısında əvvəlcə öz oğlu Mərdanın məzəmmətlə dolu baxışı gəlib durur. Daha sonra xalça onun nəzərində bir ev əşyasından daha çox, vətənin ən gözəl nemətlərinin məcmuu kimi görünür. Burada lövhə də, daxili monoloq da, xəyal da, təbiətdə - hər şey ananın vətənpərvərlik hissini aşkara çıxarmağa kömək edir.

Mərdan günahsız döyülmüş və təhqir olunmuş kiçik qardaşının böyük günahını, hər şeydən əvvəl, kasıb olmasında görürdü: «Ana, Baharın böyük taxsırı var. Onun taxsırı kasıblıqdır. Bu zəmanədə kasıblıqdan böyük günah nədir? Yıxıl öl, kasıb olma!»- deyir (**Məmməd Arif. Seçilmiş əsərləri. 1-ci cild, Bakı, Azərbaycan SSR EA nəşriyyatı, 1967, 620 s.)**

Əlbəttə, bu sözlərdə Mərdanın mühitə, dövrana, haqsızlıq və ədalətsizlik dünyasına nifrəti, kəskin etirazı duyulur. Doğrudur, bu etiraz hələ kiçik kəndli daxmasının divarları arasında səslənir və ona əsaslanıb demək olmaz ki, Mərdan ictimai bərabərsizliyin mahiyyətini və tarixi köklərini başa düşüb dərindən dərk etmişdir. Belə bir hökm vermək, nəticə çıxartmaq yanlış olar, surətin indiki səviyyə və səciyyəsinə uyğun gəlməz. Hər halda Mərdan bəzi həqiqətlərdən xəbərsiz deyil, ümumi şəkildə olsa belə, kasıblığın bu zəmanədə «böyük günah» olduğunu anlayır. Onu eyni zamanda başqalarının da taleyi maraqlandırır və ciddi narahat edirdi. Bütün bunlar təbii olaraq Mərdanı mübarizə meydanına və qorxmaz insanlar cərgəsinə aparıb çıxarırdı.

Mərdanın ictimai fəaliyyətə başlaması, şəhərdə vərəqələri paylayarkən cürbəcür adamlarla qarşılaşması, aşıq-şair deyişmələrinə qulaq asması, həbsxana həyatı, habelə başqa amillər ona tədricən çox şey öyrədir, onun xarakterini möhkəmləndirirdi. Bu proses əsərdə təbii əks olunurdu. Mir Cəlal Paşayev yaxşı bilirdi ki, əgər obraz real, mürəkkəb, canlı varlıq kimi alınmayıb, qüsurlardan, ziddiyyət və səhvlərdən tamam «azad edilərsə» o, sxemə çevrilər və bayağılaşar.

Mərdanın kənd şəraitində, kəndlilər arasında fəaliyyəti əsərdə əhəmiyyətli yer tutur. Yazıçı onu fəal və bacarıqlı natiq, təbliğatçı kimi də canlandırmışdır. Doğrudur, Mərdan ciddi təhsil almış, xüsusi məktəb görmüş, hərtərəfli hazır-lanmış bir natiq deyildi. Bəzən kəndlinin çətin olmayan sualına düzgün və qəti cavab verməkdə çətinlik də çəkirdi. Bununla belə, onun sadə danışıq tərzi, aydın mühakiməsi, təsirli məntiqi vardır.

Yazıçı Sonanı yalnız övlada böyük məhəbbət və qayğı bəsləyən zəhmətkeş ana kimi canlandırmır, onun geniş qəlbinə dərindən nüfuz edir, milli keyfiyyətlərini ana-vətəndaş xarakterini üzə çıxarmışdır. Məsələn, ceyran və xalça əhvalatı surətlə əlaqələndirilib mənalandırılmış şəkildə əsərə daxil edilmişdir. Prof.C.Xəndan doğru demişdir ki, ceyran və xalça əsərdə xalqımızın ən sevimli, ən əziz nemətləri kimi verilmişdir. Əgər yaraşıqlı, məsum, qaragöz ceyran hələ balaca Bahardan ötrü əsasən əyləncə və təsəlli vasitəsidirsə, Sonanın mənəviyyatını, qəlbini, duyğu və düşüncə aləmini açmaq üçün bədii imkanlardan biridir. Əgər ceyran meşə yırtıcısının, vəhşi canavarın hücumuna məruz qalardısa, ana köksünü qalxana çevirər, bütün gücünü toplayıb onu qorumağa çalışardı. Lakin qarşıda işi qat-qat çətinləşdirən pristav, divan, mister kimi daha qorxunc qüvvələr və maneələr dayanırdı. Ana nə etməlidir?

«Onun dərdi üstünə dərd gəlmişdir. Yetim oğlunun yeganə sevinc vasitəsini alıb aparırlar. Misterin, vağzalda məskən salan o boz adamın uşaqlarını əyləndirmək üçün aparırlar. O uşaqların hər şeyi vardı, ceyranları da olmalıdır. Baharın heç nəyi yoxdur, ceyranı da olmamalıdır. Onun çöldən tutduğu ovu da saxlamağa haqqı yoxdur. Çünki Bahar yetimdir, Bahar yoxsuldur, Bahar adamsızdır» (**C. X.Hacıyev. Mir Cəlal. Bakı, "Bilik" cəmiyyəti, 1958, 48 s.).**

Sona uzun məsafələr keçərək özgə torpağına soxulmuş xarici qəsbkarlar, onların çirkin niyyət və qanlı əməlləri haqqında camaat arasında eşitdiyi söhbət-lərdən müəyyən şeylər öyrənmişdir. İndi isə bəzi həqiqətlərin bilavasitə canlı şahidi idi. Buna görə «Vətən torpağının şirəsini, fağır-füqaranın qanmı» soranlara qarşı nifrəti sonsuzdu. Onun «ingilis ağalara min belə ceyran balası qurbam sözlərində güclü daxili məna, acı istehza və kinayə vardır. Misterə «hədiyyə» olaraq apardığı ceyram yolda qaçırtması da həmin nifrətin bir təzahürü idi.

Hər qayğıkeş ana kimi Sona da oğul toyu görməyi ən xoş və şirin bir arzu sayırdı. Ancaq bu arzu hələlik anamn ürəyində qalmışdır. Oğlu ev-eşiyindən didərgin düşmüş, həbs olunmuşdur. Onun harayına çatmaq üçün, hər şeydən əvvəl, anaya pul lazımdır. Qabarlı əlləri ilə toxuduğu və qoruyub əziz gün üçün saxladığı «Yüsif-Züleyxa» xalçasından başqa gümanı heç nəyə gəlmirdi. Sona xalçanı bazara satmağa çıxartmışdır. Müəllif bunu insanın könül-qəlb dünyasını açmaq, məhəbbət və nifrət duyğularını, arzu,

ümid və xəyallarını əks etmək üçün güclü ideya-bədii vasitəyə çevirmişdir. Adi fakt sənətkar qələmi ilə mənalandırılaraq dərin vətənpərvərlik hissi doğurur, ədəbiyyata orijinal yolla həqiqi vətəndaşlıq pafosu və qüruru gətirirdi. Artıq xalça nə ağıllı Sonanın, nə də ayıq kəndlilərin nəzərində adi satlıq əşya deyildir. Buna görə də Sona Mərdanı xilas etmək, Baharı axtarıb tapmaq üçün pula böyük ehtiyac duysa da, xalçanı satmaq qərarmdan daşınır. Tacirin «quldurlara təslim olan qorxaq yolçular kimi» qollarını geniş açıb xalçanı göstərməsi, misterin həris, möhtəkir baxışları, çoxlu qızıl təklifi, ətrafdakı kəndlilərin atmacaları, eyhamları, prosesin özü Sonanı mənalı duyğu və düşüncələr aləminə aparırdı. Onun qeyrət və mübarizə duyğusunu yeni bir qüvvətlə çoşdururdu.

Bahar ömrü başdan-başa ehtiyac və iztirab içərisində keçən nakam uşaqların bir timsalıdı. Bir parça çörək onu çöllərə salmış, ana qayğısı və uşaqlıq fərəhindən məhrum etmişdir. Təsadüfi deyil ki, Bahar surəti təsvir edilərkən M.Ə.Sabirin

«Ey dərbədər gəzib ürəyi qan olan cocuq,
Başsız qalıb ayaqlara iftan olan cocuq» **(M.Ə.Sabir)**

misraları yada düşmüş və vəziyyətlə həmahəng işlədilmiş, uğursuz taleyinin sona çatdığına dair fəslə isə «Göz yaşı romanı» adı verilmişdir. Əsərdə günahsız Baharları ölümə məhkum edənlərə qarşı nifrət və qəzəb qüvvətlidir. Şaxta vurub dondurmuş, qanlı dövranın qanunları, amansız insanların əli ilə öldürülmüş balaca Bahar xalqın azadlığa çıxdığı güman edilən gündə bir daha hörmətlə xatırlanır.

Ədəbiyyat

1.Mir Cəlal Paşayev."Bir gəncin manifesti"əsəri. Bakı, Uşaqgəncnəşr, 1949, 230s.
2.Əhəd Hüseynov. Mir Cəlalın bədii nəsri. Bakı,"Elm və təhsil", 2011, s.196
3.Məmməd Arif. Seçilmiş əsərləri. 1-ci cild, Bakı, Azərbaycan SSR EA nəşriyyatı, 1967, 620 s.
4.Cəfər Xəndan Hacıyev. Mir Cəlal. Bakı, "Bilik" cəmiyyəti, 1958, 48 s.

Ш.Джафаров

Трагическая судьба Соны, Мардана и Бахара в произведении «Манифест молодого человека» М.Дж.Пашаева

Rezюme

Трагическая судьба Соны, Мардана и Бахара в произведении «Манифест молодого человека» М.Дж.Пашаева написана с большим

мастерством. Мы чувствуем искренность Мир Джалала Пашаева, когда он описывает жизнь Мардана, Соны и Бахара в деревне. Мы должны отметить, что среди героев, которых Мир Джалал почетно описывает, Сона особенно выделяется. Она заботливая мать и гражданка, который ценит свою гордость и человеческое достоинство.

Деятельность Мардана в сельских условиях и среди крестьян играет важную роль в романе. Писатель описал его в качестве активного и способного спикера, пропагандиста. Правда, Мардан не был полностью подготовленным спикером, который серьезно обучался и увидел специальную школу. Иногда ему трудно было ответить на сложные вопросы сельских жителей. Однако у него простой стиль беседы, четкое суждение и эффективная логика.

Ненависть и гнев сильны против тех, кто осуждает невиновную Бахара до смерти.

Sh.Jafarov

The tragic fate of Sona, Mardan and Bahar in the work "The Manifesto of a Young Man" by M.J. Pashayev

Summary

The tragic fate of Sona, Mardan and Bahar in the work "The Manifesto of a Young Man" by M.J. Pashayev is written with great skill. We feel the sincerity of Mir Jalal Pashayev when he describes the lives of Mardan, Sona and Bahar in the village. We should note that among the heroes, which Mir Jalal honorably describes, Sona is particularly distinguished. She is a caring mother and a citizen who appreciates her pride and human dignity.

The activities of Mardan in rural conditions and among peasants play an important role in the novel. The writer described him as an active and capable speaker, propagandist. True, that, Mardan was not a fully trained speaker, who was seriously studied and saw a special school. Sometimes it was difficult for him to answer difficult questions of rural residents. However, he has a simple style of conversation, a clear judgment and effective logic.

Hatred and anger are strong against those who condemn the innocent Bahar to death.

Rəyçi: Himalay Qasımov
Filologiya üzrə elmlər doktoru, professor

SAKİBƏ ƏLƏSGƏROVA
Filologiya üzrə fəlsəfə doktoru,
E mail- sakibaalesgerova@mail.ru

MILLİ HÖKUMƏT DÖVRÜ MƏTBUATININ TARIXİ ƏHƏMIYYƏTI (DEKABR 1945- DEKABR 1946-CƏNUBİ AZƏRBAYCAN)

Açar sözlər: Cənubi Azərbaycan, Milli-azadlıq hərəkatı, mübarizə, imperialist, siyasət, mürtəce
Key words: South Azerbaijan, National Liberation movement, fight, politics, imperialist, reactionary
Ключевые слова: Южный Азербайджан, Национально-освободительное движение, бой, империалистический, политика, реакционер

İran xalqlarının, ayrılıqda götürülmüş Cənubi Azərbaycan xalqının azadlıq və istiqlaliyyət uğrunda mübarizə tarixi faktlara söykənir. Xarici dövlətlər içərisində təkcə çar Rusiyası Cənubi Azərbaycana zaman-zaman siyasi və iqtisadi təzyiq göstərməmişdir. Birinci Dünya Müharibəsi ərəfəsində də, İkinci Dünya Müharibəsi dövründə də İran, eləcə də onun tərkibində olan Cənubi Azərbaycan imperialist dövlətlərin ucuz xammal mənbəyinə, satış bazarına çevrilmişdi. Siyasi vəziyyət gərginləşmiş, Ərdəbil, Təbriz, Zəncan kimi şəhərlərdə xarici imperialistlərə, çarizmin müstəmləkəçilik siyasətinə qarşı xalq üsyanları baş vermişdi. Əvəz Həbibov "Cənubi Azərbaycanda azadlıq hərəkatı" adlı əsərində yazır: "Çarizmin və mürtəce şahlıq üsul-idarəsinin əyalətdə yaratdığı qaydalara və terrora baxmayaraq, xalqın mübarizəsi davam edirdi. Əhalinin geniş təbəqələri konstitusiyaya riayət edilməsini, xarici qoşunların ölkədən çıxarılmasını.... tələb edirdilər" (1,4). Xalqın bu mübarizəsində demokratların böyük rolu olub. Birinci Dünya Müharibəsindən başlayaraq "Səadət əncüməni", "İranın ziyalı gənclər qrupu" kimi təşkilatlar gizli intibahnamələr yayırdı. Qeyri-leqal şəraitdə nəşr olunan "İnsaf" qəzetindəki siyasi pamfletlər xalqı mübarizəyə ruhlandırırdı. Baxmayaraq ki, İran müharibələrdə dəfələrlə öz bitərəfliliyini elan etmişdir, ancaq xarici qoşunlar onun ərazisini hərbi əməliyyat meydanına çevirmişdir. Həmin dövrlərdə ən çox zərər çəkən Cənubi Azərbaycan olmuşdur. Müharibənin bütün ağırlığı zəhmətkeş xalqın üzərinə düşdüyü üçün mövcud ziddiyyətlər artmış və Cənubi Azərbaycanın ictimai-iqtisadi inkişafına ciddi təsir göstərmişdir. Ə. Həbibov yazır: "İqtisadi həyatın pozulması nəticəsində xalq kütlələri-kəndlilər, fəhlələr, sənətkarlar , şəhər xırda burjuaziyası daha çox ziyan çəkdilər. İqtisadi pozğunluq fəhlələr arasında işsizliyi gücləndirdi. Bütün bu amillər isə

əhalinin geniş təbəqələri arasında narazılığı xeyli gücləndirdi, onlara inqilabiləşdirici təsir göstərirdi, şahlıq üsul-idarəsinə, feodallara və xarici imperialistlərə qarşı çıxışlar baş verdi" (1,5)

XX əsrin 20-ci illərindən Cənubi Azərbaycanda fəaliyyət göstərən Ədalət partiyası demokratlarla əlaqə saxlayır, xalq içərisində iş aparırdı. İngiltərə dəfələrlə Cənubi Azərbaycanı işğal etmək planları qurdu, ABŞ və Fransa imperialistlərindən dəstək aldı. Milli-azadlıq hərəkatına qarşı bundan istifadə etməyi düşünürdü. Cənubi Azərbaycana qarşı aparılan fitnəkar siyasətlər, planlar fədilərin və onları təşkilatlandıranların fəaliyyəti sayəsində puça çıxarıldı. XX əsrin əvvəllərindən başlayaraq Cənubi Azərbaycanda yaşayan (əksəriyyəti azərbaycanlılar olmaqla) xalqlar aşağı səviyyədə yaşayırdı. Hansı ki, Cənubi Azərbaycan ölkənin ən zəngin əyalətlərindən idi, iqtisadi cəhətdən daha çox inkişaf etmişdi. 1941-ci ildən Cənubi Azərbaycanda başlayan demokratik hərəkat özünü milli hüquqlar, milli mədəniyyət problemləri uğrunda mübarizə ilə göstərməyə başladı və əvvəlki illərlə müqayisədə təşkilatlanma daha mükəmməl idi.

1945-ci il sentyabr ayının 3-də Azərbaycan Demokratik Partiyası yarandı. Bu partiya Pişəvərinin rəhbərliyi ilə milli azadlıq və demokratik hərəkatın başında durdu. İran Xalq Partiyasının Azərbaycan təşkilatı da ona birləşdi. Həmin vaxt ADP xalqa müraciətində bildirdi ki, İranın ərazi bütövlüyü saxlanılsa, Cənubi Azərbaycanın mədəniyyət və təsərrüfatının inkişafı üçün azadlıq və ixtiyar verilməsi mütləqdir. Milli hökumət 1946-cı il yanvar ayının 6-da Azərbaycan dilini Cənubi Azərbaycanın dövlət dili elan etdi. Bu, "Dil haqqında Azərbaycan Milli hökumətinin qərarı" na əsasən həyata keçirildi. 1940-1945-ci illər Cənubi Azərbaycanda ictimai-siyasi fəallıq çox yüksək idi. Həmin dövr milli şüurun ən çox inkişaf etdiyi dövr kimi qiymətləndirilir. Mətbuat Milli Hökumətin hakimiyyəti illərində daha fəal oldu. 1945-46-cı illər Cənubi Azərbaycan tarixində bir çox məsələlərlə yadda qaldı: 21 Azər hərəkatı qələbə çaldı və muxtariyyət əldə olundu. Pişəvəri ölkə başçısı kimi çox sayda islahatlar həyata keçirtdi və s.

Cənubi Azərbaycan milli mətbuatının tarixini araşdırmaq uzun illərdir ki, gündəmdədir. Tədqiqatçı jurnalistlər, tarixçilər, ədəbiyyatşünas alimlər, bütövlükdə elmi ictimaiyyət tarixi mətbu irsimizi ardıcıl olaraq izləmiş, dəyərli monoqrafiyalar üzə çıxartmışlar. Aşırlı Akifin "Azərbaycan mətbuat tarixi", Vilayi M.P "Cənubi Azərbaycanda Milli azadlıq uğrunda demokratik mətbuatın mübarizəsi (1945-1946)", Əmirov S. Cənubi Azərbaycan Milli-demokratik ədəbiyyatı (1941-1990-cı illər), Ağayeva Gözəl "Təbriz ədəbi mühiti", Həsənli C. "Soyuq müharibənin başlandığı yer. Güney Azərbaycan" və s. onlarla bu kimi əsərlərdə 1945-1946-cı illər 21 Azər hərəkatı, Pişəvərinin apardığı islahatlar, "Qızıl səhifələr" toplusu haqqında məlumatlar, "Azərbaycan" qəzeti və onun milli ideologiya uğrunda

mübarizəsi, "Vətən yolunda" qəzetinin fəaliyyəti və b. məsələlər geniş şəkildə öz əksini tapmışdır.

Nəşr olunan onlarla qəzet və jurnal milli hökumət dövründə adını ADP MK-nın tarixinə yazdıra bildi. Azərbaycan Demokratik Partiya Mərkəzi Komitəsinin orqanı "Azərbaycan" qəzeti oldu. "Azad millət" qəzeti Azərbaycan Milli məclisinin orqanı idi. "Şairlər məclisi" jurnalı, "Azərbaycan ulduzu", "Yeni Şərq", "Fəryad" qəzetləri, Azərbaycan şair və yazıçılar cəmiyyətinin orqanı olan "Günəş" jurnalı, Azərbaycan Demokratik Partiyasının Təbriz şəhər komitəsinin orqanı olan "Demokrat" jurnalı, Azərbaycan Demokrat Cavanlar təşkilatının orqanı olan "Cavanlar" qəzeti, Zəncanda "Araz", Ərdəbildə "Cövdət", Urmuda "Urmiyə" qəzetləri, Ərdəbildə Azərbaycan fəhlə zəhmətkeşlərinin orqanı olan "Qələbə" qəzeti nəşr olundu. Mədəni əlaqələrin inkişafında "Vətən yolunda" qəzetinin böyük rolu oldu. Bu qəzet Cənubi və Şimali Azərbaycan ziyalılarının, mədəniyyət xadimlərinin ünsiyyət saxlaya biləcəyi mərkəzə çevrildi. 1941-1946-cı illərdə qəzetin üç baş redaktoru olmuşdur. Hər birinin dövründə qəzet öz planlı funksiyalarını artıqlaması ilə yerinə yetirmişdir. Əvvəl Mirzə İbrahimov və Həsən Şahgəldiyev və sonra Rza Quliyev qəzetin ətrafında güclü heyət birləşdirmiş, Şimali Azərbaycan şair və yazıçıları, jurnalist, elm və incəsənət xadimlərinin qələmindən güc almışdır. Tədqiqatçı G.Ağayeva "Təbriz ədəbi mühiti" monoqrafiyasında yazır: "Sovet qoşunları Cənubi Azərbaycana daxil olduqdan sonra oktyabr ayından etibarən Təbrizdə ərəb əlifbası ilə Azərbaycan dilində qızıl əsgər qəzeti "Vətən yolunda" nəşr olunmağa başladı. Onun redaktoru Mirzə İbrahimov, məsul katibi İsrafil Nəzərov idi. Bununla paralel olaraq vərəqlər şəklində Urmuda Zülfəli İbrahimovun redaktorluğu ilə Azərbaycan dilndə "Qızıl əsgər", Rəştdə isə Xasay Vəzirovun redaktorluğu ilə fars dilində "Sərbaze-sorx" qəzetləri buraxılmışdır" (2,11). Fars şovinizminin tuğyan etdiyi bir ölkədə Azərbaycan dilində qəzetlərin nəşri hakim dairələri narahat etdiyi üçün Sovet hökumətinin İrandakı səfirinə rəsmi surətdə etirazlarını bildirmişlər. İctimai-siyasi mühitin qarışıq olduğu bir dövrdə iki gündən bir 4000 nüsxə tirajla Azərbaycan dilində çıxan qəzetin etirazla qarşılanması normal idi. Təbriz xalqı və ədəbi mühiti "Vətən yolunda" qəzetinin nəşrinə rəğbətlə yanaşmış, çıxan hər nüsxə az bir zamanda satılmışdır. S.Rüstəm, M.Rahim, O. Sarıvəlli (şairlər); S.Rəhimov, Q. İlkin, Ə. Sadıq, Ə. Məmmədxanlı, Cabbar Məcnunbəyov, S. Dağlı (yazıçılar); İsrafil Nəzərov, Əsgər Ağayev, Cavanşir Şirinov, Q. Məmmədli, Mehdixan Vəkilov, C.Xəndan və s (elm və incəsənət xadimləri); rəssamlardan Salam Salamzadə, Kazım Kazımzadə, İsmayıl Axundov və b. qəzetin redaksiya heyətində olmuşdur. Cavanşir Vəkilov bütün bu məsələləri özündə geniş şəkildə əks etdirən və Azərbaycan və İran arasında mədəni əlaqələrin inkişafına xidmət edən "Azərbaycan

Respublikası və İran: 40-cı illər" adlı əsərində yazır: "Artıq 1945-ci ilin əvvəlində "Vətən yolunda qəzeti" Azərbaycanın poeziya mərkəzinə çevrilmişdi, onun səhifələrində 50-yə yaxın yerli şair öz şeirlərini çap etdirirdi. Təbriz şairləri adətən cümə günləri qəzetin redaksiyasında toplaşır, öz şeir və tərcümələrini oxuyur, ədəbi mübahisələr edirdilər" (3,79). Müəllif monoqrafiyasında öz nailiyyətlərini, uğurlarını Cənubi Azərbaycan xalqı ilə bölməyə hazır olan Azərbaycan Respublikasının rolundan danışır. Əsərdə 1941-1946-cı illərdə Sovet-İran mədəni əlaqələrində Azərbaycan Respublikasının rolunu işıqlandırır, bu əlaqələrin inkişafına təsir edən amillər üzə çıxarılır. C.Vəkilov əsəri 40-illərdə Azərbaycan Respublikası ilə İran arasında mədəni əlaqələrin iştirakçılarından biri olan atası Vəkilov Mehdixan Yusif oğlunun xatirəsinə həsr edib. Müəllif göstərməyə çalışır ki, xalqların mədəni əlaqələri beynəlxalq münasibətlərin yaxınlaşması nəticəsində mümkündür. Dünyada sülh, əmin-amanlıq ancaq bu əlaqə sayəsində təmin oluna bilər. Hətta Dostoyevskinin məşhur "Dünyanı gözəllik xilas edəcək" kəlamını dəyişərək "dünyanı mədəni əlaqələr xilas edəcək" şəklində işlədir. Ana dilində nəşr olunan qəzet insanları mənəvi cəhətdən sakitləşdirirdi. Qəzetdə faşizmin gətirdiyi bəlalar ifşa edildiyi üçün xalqın ruhunu oxşayırdı. Qəzetdə SSRİ-yə daxil olan xalqların tarixi, inkişafı, Azərbaycan xalqının ictimai və siyasi həyatı, müharibə haqqında məlumatlar verilirdi. SSRİ xalqları, İran, Azərbaycan və dünya ədəbiyyatından verilən nümunələr təbrizlilərin sevincinə səbəb olurdu. Xalqa gənc nəslin tərbiysində ana dilinin rolu haqqında, elm, maarif və mədəniyyətin necə inkişaf etdirilməsi barədə yazılar çatdırılırdı. Sovet Azərbaycanından Cənuba gələn alim, yazıçı, şair və tədqiqatçılar qəzetdə "Sovet Azərbaycanında" adlı rubrika da açmışdı. Eyni zamanda "Xarici xəbərlər", "İstirahət günlərində", "Rus dilini öyrənin", "Şifahi xalq ədəbiyyatı nümunələri" adlı rubrika və tədbirlər əhalinin geniş təbəqələrinin iştirakını təmin edirdi. Azərbaycanlıların qədim mədəniyyətə, tarixə malik olması qəzetdə ardıcıl olaraq faktlarla əsaslandırılırdı. Cavanşir Vəkilov yazırdi: "Azərbaycanlıların guya öz mədəniyyət və ədəbiyyatının olmaması haqqında İran mürtəce dairələrinin iddia etdikləri uydurma nəzəriyyənin əsassızlığına sübut olaraq, Azərbaycan xalqının zəngin ədəbiyyat və mədəniyyətinin parlaq nümayəndələri olan filosof Bəhmənyar, musiqişünas Səfiəddin Əbdülmömin, Şeyx Mahmud Şəbüstəri, Xətib və Saib Təbrizilər, Tusi, Tərzi Əfşar, Əzazülmülk, Heyran xanım, Ləli, Şekuhi, Aciz, Sərabi, Delsuz, Raci və bir çox başqaları haqqında məqalələr "Vətən yolunda" qəzetinin səhifələrində çap olunurdu" (3,48). "Vətən yolunda" qəzetində həm Cənubi Azərbaycan şairlərinin və publisistlərinin çoxunun, həm də Azərbaycan Sovet şair və yazıçılarının, qəzet əməkdaşlarının əsərləri və məqalələri nəşr olunurdu. Azərbaycan dilində nəşr işləri şah rejimi

tərəfindən qadağan olunduğu üçün bir qədər çətinlik var idi. Ona görə də qəzetin ana dilində nəşri böyük əhəmiyyətə malik idi. Cənubi Azərbaycanda ictimai mühit və həyatın demokratikləşməsi özünü hər sahədə göstərirdi. Milli şüur və düşüncə, vətənpərvərlik hissləri güclənirdi. Azərbaycanlıların tədricən milli hüquqlarının bərpa olunması onların özünə inamını daha da artırırdi. 1941-ci ilin noyabrından nəşr olunan "Azərbaycan" qəzeti 1945-ci ildə fəaliyyətinin ikinci mərhələsinə başladı və materiallar Azərbaycan türkcəsində nəşr olundu. Qəzetin fəaliyyət proqramında bütün İranda həqiqi demokratik üsulun bərpası, Azərbaycan xalqının daxili azadlığı, Azərbaycana muxtariyyət verilməsi, Azərbaycanın öz müqəddaratını təyin etməsi və s. məsələlər öz əksini tapırdı. Milli hökumətin rəsmi orqanı olaraq fəaliyyət göstərən qəzetin 371 sayı nəşr olunub.(həftədə 2 dəfə olmaqla-S.Ə) Qəzetə Hacı Əli Şəbüstəri, Əhməd Musəvi, Fəthi Xoşginabi və İsmayıl Şəms redaktorluq etmişlər. ADP-nin məqsəd və vəzifələri, xalqın azadlıq uğrunda mübarizəsinə rəhbərlik etməkdə qarşısına qoyduğu əsas qayə, siyasi-ictimai məsələlər, ölkədə baş verən gündəlik hadisələr Azərbaycan dilində xalqa çatdırılırdı. 1945-1946-cı illərdə qəzet gündəlik nəşr ounurdu. Xalqın azadlıq uğrunda mübarizəsi Yəhya Şeyda, Fəxrəddin Məhzun, Ə. Fitrət, M. Etimad, M. Çavuşi, Səhhaf, H. Cavan və b. əsərlərində poetik şəklində öz əksini tapırdı. Tədqiqatçı P. Məmmədli yazır: "O illərdə "Vətən yolunda" və "Azərbaycan" qəzetlərində folklorun toplanıb öyrənilməsi, yayılması işi geniş yayılmışdı. Uzun illər ana dilində təhsildən, mətbuatdan, kitab oxumaqdan məhrum olan azərbaycanlılar bəlkə də yalnız folklorun hesabına öz milli varlıqlarını qoruya bilmişdilər. Doğma dildə yazıb-oxuya bilməyən cənubluların el nəğmələri, atalar sözləri, bayatıları, nağılları, dastanları dildən-dilə, eldən- elə dolaşırdı" (4, 101). Həmin dövrdə "Azərbaycan" qəzetində Azərbaycanın milli dastanları haqqında yazılar verilirdi. Məhəmmədəli Fərzanə "Dədə-Qorqud" dastanının nəşrində böyük əmək sərf emişdir. Qəzetdə Azərbaycan xalqının qəhrəmanlıq tarixindən yazılar dərc olunur, fədailərin qəhrmanlığı Etimadın, Fitrətin, Nasirinin və s. yazdığı bədii nümunələrdə poetikləşdirilirdi. Bu qəzet Seyid Cəfər Pişəvərinin göstərişi ilə nəşr olunurdu.

Ədəbiyyat

1. Ə. Həbibov. Cənubi Azərbaycanda azadlıq hərəkatı. Bakı. 1988
2. G.Ağayev. Təbriz ədəbi mühiti. Bakı, 2004
3. C.Vəkilov. Azərbaycan Respublikası və İran: 40-cı illər. Bakı, 1991
4. P. Məmmədli. Cənubi Azərbaycan mətbuat tarixi. Bakı, 2009.

Алескерова Сакибе

Историческое значение периодических изданий национального правительства (Декабрь 1945 года - декабрь 1946 года - Южный Азербайджан)

Резюме

Газеты С. Дж. Pishavari 48, которые выступали за развитие в Иране и Южном Азербайджане, были объединены под названием «Джабраил-азади». Его идея заключалась в том, чтобы сосредоточиться на свободе. На азербайджанском языке издан еще есть трудности были запрещены для работы со стороны шахского режима. Поэтому на родном языке, издание газеты было иметь большое значение. В южном Азербайджане во всех сферах общественной жизни, проявил себя среды и демократизации.Он считал прессу самым простым средством общения. Аналогичная цель имела и Демократическая партия 1945 года. Реформы в Иране, особенно в Южном Азербайджане, продолжались. Эти реформы пугали такие великие государства, как Америка и Англия. Это привело к жестокой ликвидации демократического движения.

Alasgarova Sakiba

Summary

Historical importance of the national government periodicals (December 1945 - December 1946 - South Azerbaijan)

S.C. Pishavari who prefers media development in Iran and South Azerbaijan were merged 48 newspapers under the name of "Jabrail-azadi". His idea was concentrate freedom forces. He considered the press the easiest means of communication. Issued in Azerbaijani shah regime was banned, so there was some difficulty of work. Therefore, the publication of the newspaper in azerbaijani language was of great importance. Social environment and democratization of all spheres of life in Azerbaijan showed itself in the South. Democratic Party (ADF) which formed in 1945 also served the same purpose. Reforms were going on in Iran, particularly in Southern Azerbaijan. From these reforms were frightening by the great states like America and England. This led to the brutal abolition of the democratic movement.

Rəyçi: Teymur Əhmədov
Filologiya üzrə elmlər doktoru, professor

SƏBİNƏ NEMƏTZADƏ
İlahiyyat elmləri üzrə fəlsəfə doktoru
nematzadesabina@yahoo.com

AZƏRBAYCANIN MUSİQİ MƏDƏNİYYƏTİNİN ƏDƏBİ KÖKLƏRİ

Açar sözlər: Azərbaycan, musiqi, mədəniyyət, milli dəyərlər.
Key words: Азербайджан, музыка, культура, национальные ценности.
Ключевые слова: Azerbaijan, music, culture, national values.

"Musiqi əxlaqi qanundur. O bütün dünyanı ilhama gətirir, qəlbə qanad verir, insanı xəyalən göylərə ucaldır. Musiqi qayda-qanunun, nizamın əsasıdır. O, dünyadakı bütün əbədi ülvilik və gözəlliklərin təcəssümüdür"

Platon

Milli və dini dəyərlər tarixən bir-biri ilə vəhdətdə olmuş, sosial həyatın inkişafında yaxından iştirak etmişdir. Musiqi tarixinin öyrənilməsində mənəvi dəyərlər sisteminin məhz milli və dini aspektdə tədqiq olunması türk-islam mədəniyyətinin mühüm tarixi dövrünün araşdırılmasına işıq tutur. Bu səbəbdən qeyd etmək lazımdır ki, Azərbaycan türk-islam tarixində milli-mənəvi dəyərlərin inkişafı və musiqi mədəniyyəti incilərinin bütün dünyaya yayılmasında tarixən əhəmiyyət kəsb edən dövlət olmuşdur. Azərbaycanın zəngin musiqi sənəti çoxəsrlik inkişaf tarixinə sahibdir. Bununla bağlı ilk məlumatlar arxeoloji qazıntılar zamanı əldə edilən müxtəlif maddi-mədəniyyət abidələrindən, Qobustan (e.ə. XVIII-III minilliklər) və Gəmiqaya (e.ə. III-I minilliklər) qaya rəsmlərindən alınmışdır. Xüsusilə qədim və orta əsrlər Azərbaycan musiqi mədəniyyəti tarixinə dair tədqiqatların azlığı məhz bu istiqamətdə araşdırmaların yerinə yetirilməsinə və milli-dini dəyərlərin musiqi ilə qarşlıqlı əlaqələrinin öyrənilməsinin son dərəcə aktual olduğunu deməyə əsas verir.

Musiqi Gəmiqaya-Qobustan mədəniyyətinin tərkib hissəsi kimi, Tanrıçılığın, yaradılış ideyasının atributlarından birinə çevrilmişdir. Elmə ən qədim musiqi alətləri tək qopuz və arfa Cənubi Azərbaycanda, Cığamış şəhər yerindən tapılmış rəsmlərlə bəllidir. Amerika arxeoloqları həmin rəsmləri 1950-ci ildə aşkar etmiş və tapıntının e.ə.VI minilliyə aid olduğunu bildirmişlər. Qobustanda isə musiqi alətlərnin rəsmləri həm daha qədim, həm də müxtəlifdir. Bunlar zərb, nəfəsli və simli musiqi alətləridir:

1. Qaval; 2.Sur (Survan: Sumey); 3.Qopuz(Saz); 4. Ud (Tar); 5.Arfa.

Tədqiqatçılar Qobustanda yalnız bir "musiqi aləti"- Qavaldaş haqqında söhbət açmış, onu hətta "Azərbaycan xalqının milli musiqi aləti" kimi təqdim etmişlər. [5, s. 65]

Ortaq türk mədəniyyətinin yazılı abidəsi olan "Kitabi-Dədə Qorqud"da göründüyü kimi əsas musiqi aləti qopuz olmuşdur. Burada musiqi insan ruhunu qidalandıran mənəvi mədəniyyət olaraq verilmişdir. Yəni, dastanda milli-mənəvi dəyərlərin daşıyıcısı kimi qopuz musiqisi, şeir və mahnı oğuz igidlərinin döyüşə yola salınmasında, adqoyma mərasimlərində, toylarda ovqatın qaldırılmasında və hüzün məclislərində ağıların deyilməsində mühüm rola malik olmuşdur.

Azərbaycan musiqişünası Əbdülqadir Marağinin (XIV-XV ə.) risalələrinə istinadən qopuz alətinin quruluşu haqqında müəyyən təsəvvür yaratmaq olar. Ozanların qopuzu ayrı-ayrılıqda bağlanan üç simdən ibarətdir. Aşağı simlə orta sim kvarta (zil-ərbəa), orta simlə yuxarı sim bir ton (tanini) əmələ gətirir. Bəzi hallarda bir qısa sim də əlavə olunur. Onun çanağı digər simli alətlərin çanaqlarından daha uzundur. Mizrabı ağacdandır. Bu alətin müşayiəti ilə nəsrlə ifa olunan türk dastanları və ritmik melodiyalar çalınır. [11, s. 192]

Qeyd etmək lazımdır ki, qopuz musiqi aləti tarixi Azərbaycan ərazilərində həmçinin aşıq yaradıcılığını və mərasimlərini də tərənnüm etmişdir. Azərbaycan xalqının xüsusilə ağızdan-ağıza keçən şifahi xalq ədəbiyyatında, folklor nümunələrində, həmçinin yazılı ədəbiyyatında ozan-aşıqlar cəmiyyətin aparıcı qüvvələri kimi çıxış etmişlər.

Tarixi mənbələrə əsaslanaraq qeyd etmək lazımdır ki, ozanlar hələ Atilla dövründə (e. V əsri) və bu türk sərkərdəsinin srayaından başlayaraq səlcuqilər də daxil olmaqla XV əsrə kimi qopuzları ilə saraylarda, şənlik və toplantılarda bahadırları tərənnüm etmiş, onları tanıdıb yaşatmışlar... Qədim türk dövlətlərinin saraylarında, həmçinin Alp Ər Tonqa, Atilla kimi xaqan-sərkərdələrin, xalq qəhrəmanlarının ordusunda ozan-şairlər və musiqiçilər yaxından fəaliyyət göstərmişlər.[1, s. 6]

Yeri gəlmişkən qeyd etmək lazımdır ki, aşıq-ozan sənət nümunələrində ilahi eşqi və dini mistisizmi əks etdirən məqamlara da rast gəlmək mümkündür. Buraya dərviş və sufi anlayışlarını da daxil etmək olar. "Aşiq" istilahı da ilk əvvəl dərvişlərə və sufi şairlərə, sonra isə saz şairlərinə şamil edilməyə başlandı. Göstərilən mədəni-tarixi kontekstdə "aşiq" sözü "ilahi eşqin aşiqi" anlamını bildirir. Lakin "aşiq" sözünün etimilogiyasına dair digər fikirlər də mövcuddur ki, onlar əsasən "işıq" və "aşulə" (mahnı) sözləri ətrafında cəmləşir. [13, s. 206] Bizim günlərədək gəlib çatmış və ustad aşıqlar tərəfindən "məclis", yaxud "səmayi" havalar adlanan bu örnəklər çox güman ki, məhz təriqət ayinləri ilə bağlı yaranmışdır. Hal-hazırda aşıqlar

tərəfindən ifa olunan “”Urfani”, “Baş Divani”, “Mansırı” və digər havalar məhz “səmayi” havalar sırasına daxildir. Səciyyəvidir ki, səmayi havalarının əksəriyyəti (məsələn: “Heydəri”, “İbrahimi”, “Sultanı”, “Baş divani”) təsəvvüfi dünyagörüşünü dövlət ideologiyası səviyyəsinə qaldıran Şah İsmayıl Xətainin (1487-1524) adı ilə bağlıdır. [2, s. 7] Aşığın “işıq”, “aşiq” mənaları bir daha onu göstərir ki, qədim türklər islamdan əvvəl və sonr, hər zaman tanrının varlığını qəbul etmiş, səmaya yönələrək dualar etmiş və oradan gələn işığı, nuru aşıqlar vasitəsilə musiqi ilə tərənnüm etməyə çalışmışlar.

XVII, XVIII, XIX əsrlərdə Azərbaycanda mövcud olmuş musiqi alətləri barədə məlumatı Adam Olearinin, Engelbert Kempferin, Aleksandr Dümanın, Övliyə Çələbinin və başqalarının yol qeydləri və xatirələrindən əldə etmək mümkündür. XIX əsrdə Azərbaycanda olarkən Şirvan musiqi məclislərini təsvir etmiş tanınmış rus rəssamı Q.Qaqarinin əsərləri bu sahədə parlaq təsəvvür yaradır.[4, s. 22]

Orta əsrlər Azərbaycan şair və mütəfəkkirləri Nizaminin, Nəsiminin, Füzulinin əsərlərində dövrlərinin musiqi həyatı, musiqi növləri, musiqi alətləri ilə bağlı zəngin məlumat verilmiş, yazdıqları şeirlərə musiqilər bəstələnmişdir.

XII əsrdə yaşamış böyük Azərbaycan şairi Nizami Gəncəvi və onun “Xosrov və Şirin” poemasında orta əsrlərdə Azərbaycanın və ümumiyyətlə, bütün müsəlman Şərqinin musiqi həyatının aydın mənzərəsi verilmişdir. Bu əsərdə təkcə musiqi praktikası (məişəti) deyil, həm də musiqi nəzəriyyəsi və musiqi estetikası (musiqiyə münasibəti, onun dəyəri, qavranılması və i.a.) təmsil olunmuşdur. [6, s. 161]

Böyük Azərbaycan şairləri söz ustaları Xaqaninin, Nizaminin, Məhsətinin, Füzulinin, Vaqifin, Vazehin, Natəvanın və başqalarının dərin mənalı, gözəl və şirin sətirləri çoxsaylı muğamların ədəbi əsasları olmuşdur. [12, s. 7]

Həmçinin Azərbaycan mədəniyyət xadimlərinin (Nəsirəddin Tusi, Məhəmməd Naxçıvani, İmadəddin Nəsimi, Fəzlullah Nəimi, Səfiəddin Urməvi, Əbdülqadir Marağı və bir çox başqalarının) yaratldıqları əsərlər Yaxın və Orta Şərq dünya elminin, fəlsəfəsinin, ədəbiyyatının, musiqi nəzəriyyəsinin bənzərsiz örnəklərindəndir.[7, s. 193]

Bütün dövrlərdə və xalqlarda musiqi dini kultun formalaşmasındaəhəmiyyətli dərəcədə rol oynamışdır. Hələ İslama qədər Şərqin, həmçinin Azərbaycanın dini məbədlərində ayinlər musiqi və rəqsin müşaiyyəti ilə möhtəşəm bir şəkildə həyata keçirilirdi. İslam yarandığından etibarən milli xüsusiyyətlərə nüfuz etmiş, beləliklə dini musiqi müxtəlif yerli ayinlərdə, “şəbih” oyunlarında, dərviş zikrlərində, mərsiyələrdə yeni formada təzahür etmişdir.

İslam mədəniyyətində musiqi və musiqi estetikası, muğamat sənəti ətrafinda inkişaf etmişdir. Çünki, yeddi hərf üzərinə nazil olan Qurani-Kərimin tilavəti, yeddi məqam üzərindədir.

Azərbaycanın islam mədəni sisteminə daxil olması onun musiqi mədəniyyətini zənginləşdirmişdir. Milli musiqinin "təməl daşı, onun bünövrəsi, onun dayaq sütunu" olan muğamat XVI əsrdə geniş yayılmış sənət növü idi. [10] Muğam ifa olunarkən xanəndələr Nizami, Xaqani, Nəsimi, Füzuli kimi qüdrətli sənətkarların qəzəllərini oxumuşlar." Xanəndələr yalnız ifaçı kimi deyil, habelə mütəfəkkir şairlərin ictimai-siyasi, fəlsəfi ideyalarının təbliğatçısı kimi çıxış edirdilər.[9, s. 104]

Muğamın tarixi çox qədimdir. Şərq musiqisinin möhtəşəm sənət abidəsi olan muğamın yaranmasını alimlər hələ keçən minilliyə, islamaqədərki dövrə aid edirlər. Onun köklərini zərdüştiliklə bağlayırlar. Muğam sözünün mənası da Allah tərəfindən göndərilən musiqi kimi izah olunmuşdur. Muğamın İlahinin qüdrəti ilə insanların ruhunu təmizləməsi, saflaşdır- ması fikri də söylənilir. Təsadüfi deyil ki, qədim dövrün alimləri insanları muğam sədaları ilə müalicə edirdilər. Muğamları planetlərlə əlaqələndirirdilər: “Nəva” muğamı - Ay planetinə, “Busəlik” - Merkuri, “Rast” - Venera, “Əraq” - Günəş, “Üşşaq” - Mars, “Zirəfkənd” - Yupiter, “Rəhavi” - Saturn planetinə uyğundur.[8, s. 139]

F.Əmirovun dediyi kimi, Azərbaycan muğamı: Xalq musiqi sənətinin məzmunca ən zəngin, bədii fikir baxımından tamamilə yetkin və quruluşu etibarilə bitkin bir formasıdır. Bütünlükdə muğamlar və onlardan hər biri ayrılıqda özündə poetik obrazları təsəvvürlər və fəlsəfi ideyaların böyük dünyasını əhatə edir. [3, s. 167]

M.M.Nəvvaba görə Azərbaycan muğamlarının bir qismi kişilik xarakterinə malik olub insanı igidliyə ruhlandırır, bəziləri mötədillikləri səbəbi ilə sakitlik doğurur, bəzilədi də zərif olduqlarından kədərə yönəldir. [3, s. 168]

Bütün Şərqdə ilk operanın banisi, qəlbləri vətənpərvərlik hissi ili dolduran “Koroğlu” uvertyurasının bəstəkarı Üzeyir Hacıbəyov məna və xüsusiyyət etibari ilə olduqca dolğun dəyərləndirmişdir.

Azərbaycan muğamlarının mövzuları, xüsusiyyətləri, tərz və ahəngi ölkənin təbiəti, xalqın həyat tərzi, onun tarixi, dini-fəlsəfi, əxlaqi, estetik düşüncələri ilə bağlıdır.

Azərbaycanın Səfiəddin Ürməvi (XIII əsr), Əbdülqədir Marağai (XIV əsr), Mirzəbəy (XVII əsr), M.M.Nəvvab (XIX əsr) kimi məşhur alimlərinin risalələrində orta əsr musiqi mədəniyyətimizin yüksək inkişaf konteksti açıqlanmış, Azərbaycan musiqisinin nəzəri problemləri tədqiq edilmişdir.

Ədəbiyyat

1. Abbasov İ. Azərbaycan aşıqları və el şairləri: müqəddimə. 1-ci c., Bakı: 1983.

2. Abbasov M. Şah İsmayıl Xətai. Seçilmiş şeirləri. Bakı: 1964.
3. Abdullazadə G. Qədim və orta əsrlərin musiqi mədəniyyəti. Tarixi-fəlsəfi təhlil. Bakı: Qartal, 1996.
4. Azərbaycan musiqi alətləri. Bakı Musiqi Akademiyasının 80 illiyinə ithaf olunur / nəşr layihəsinin rəhbəri R.İsmayılov. Bakı: Yeni Nəsil, 2003.
5. Fərzəliyev Əjdər Əliş oğlu. Gənıiqaya-Qobustan Mədəniyyəti. Eramızdan əvvəl VIII-V minilliklər. Bakı: Nurlan, 2008.
6. Gəncəvi N. Xosrov və Şirin. Bakı: Azdövnəşr, 1947.
7. Qasımov X.S. Orta əsrlərdə Azərbaycan mədəniyyəti. Bakı: 2008.
8. Muğam Ensiklopediyası / redaksiya heyətinin sədri, baş redaktor: M.Əliyeva. Bakı: Musiqi dünyası, 2008.
9. Nemət M. Azərbaycanda pirlər (Sosial-ideoloji və iqtisadi siyasi mərkəzlər). Bakı: Azərnəşr, 1992.
10. Nemətova M.X. İslam ideyaları ilə bağlı yaranmış mərkəzlər // "Elm və həyat", № 4, 1990.
11. Агаев С. Музыкальные инструменты в трактатах А.Мараги. Народные музыкальные инструменты и инструментальная музыка. М.: 1987.
12. Асланов В. Врата древнего востока. Сборник поэзии азербайджанских поэтов XII-XX вв. Баку: 1980.
13. Гордлевский В. Избранные сочинения. Москва: 1960.

С. Нейматзаде

Литературные корни музыкальной культуры Азербайджана

Резюме

Музыкальная культура имеет древние исторические корни. Древние греки оценивали музыку как дар богов. Относились к музыке как чудесная сила, которая покорила сердца людей. В одной из греческих легенд Орфей прекрасными пениями восхищает богов и людей, усмиряет силы природы. С этой точки зрения в тюркско-исламской истории, музыкальная культура занимает особое место. Именно исследования национальном и религиозном аспекте, системы духовных ценностей, проливает свет в исследованию важного исторического периода в изучении истории музыки тюркско-исламской культуры. Азербайджан как часть этой культуры, внес значительный вклад в многовековую мировую музыкальную искусству.

В связи с этим первые данные различных памятников материальной культуры, обнаруженны в ходе археологических раскопок и наскальных рисунках в Гобустане (XVIII-III тысячелетия до н.э) и в Гемигая (III-I тысячелетия до н.э). В частности, меньшинство исследований по истории древней и средневековой музыкальной культуры Азербайджана, именно дает основание говорить о том, что выполнение в этом направлении исследований и изучения взаимных связей и религиозных ценностей с музыкой крайне актуально.

В древнем письменно-литературном памятнике Азербайджана, в эпосе «Китаби Деде Горгуд» упоминания музыкальных инструментов и в частности гопуз, сообщает о широком распространении музыкальной культуры на этих территориях. Также ссылаясь на произведении музыковеда Азербайджана Абдульгадира Мараги (XIV-XV вв.), можно создать определенное представление об устройстве инструмента гопуз. Гопуз озанов отдельно соединены с тремя струнами. Следует отметить, что гопуз как музыкальный инструмент, также воспевал ашугское творчество и обряды на исторических Азербайджанских землях. В частности, передающиеся устной народной литературой, в фольклорных образцах, а также письменной литературе азербайджанского народа, озан-ашуги выступили как ведущие силы общества. Глубоко содержательные, прекрасные и строки пресные великих Азербайджанских поэтов, мастеров слов Хагани, Низами, Мехсети, Вазеха, Физули, Вагифа, Натавана и других стали основами многочисленных литературных мугамов.

Во все времена и народов музыка сыграла важную роль в формировании нового религиозного культа. Ещё до Ислама в храмах Востока, также Азербайджана религиозные обряды, проводились грандиозным образом в сопровождении музыки и танца. В произведениях известных ученых Азербайджана как Сафиаддин Урмави (XIII в.) Абдулгадир Марагаи (XIV в.), Мирзабека (XVII в.), М.М.Навваба (XIX в.) раскрыт высокий контекст развития нашей музыкальной культуры средних веков, были исследованы теоретические проблемы музыки Азербайджана.

В статье в основном исследуется древние, а также литературные корни музыкальной культуры Азербайджана в современном периоде. Здесь широко освещается составление единое целое с религиозными ценностями, и магическое воздействие на человека за упокой души музыки в многовековой Азербайджанской культуре. Автор также отмечает, что в Азербайджане в области музыки развивались выдающиеся ученые, изучаются их научно-теоретическое наследие и пишутся новые произведении.

S.Nematzade

Literary roots of Azerbaijan musical culture

Summary

Music culture has ancient roots. Ancient Greeks regarded music as a contribution of gods and brilliant force that conquered the hearts of people. According to one of the Greek traditions, Orfey admired the gods and the people with the beautiful songs and embraced the forces of nature. From this point of view, music culture has a special place in Turkic-Islamic history. The investigation of moral values in the national and religious aspect has a great role in the illumination of the important historical period of Turkic-Islamic culture. As part of this culture, Azerbaijan has made significant contributions to the ancient world musical art.

The first information about this was taken from various material and cultural monuments and from rock paintings like Gobustan (XVIIII –III millennium BC) and Gamigaya (III-I millennium BC). In particular, the lack of research on the history of ancient and medieval Azerbaijan music culture create a great opportunity for leading investigation in this area.

We can see the name of the musical instruments, especially the Kopuz, in the epic " The Book of Dede Korkut", an ancient literary monument of Azerbaijan and this proves the ancient roots of music in these territories. Also, the poetries of Azerbaijan musician, Abd al-Qadir al-Maraghi b. Ghaybi (middle of 14th –1435 AD) could be a great source for learning the features of Kopuz. We have to mention that, in the oral folklore, as well as in the written literature, the Ozan- ashiks acted as the leading forces of the society. The deep, beautiful and graceful poetries Azerbaijani poets such as Khagani, Nizami, Mahsati, Fuzuli, Vagif, Vazeh, Natavan, and others, were literary bases of numerous mugams.

Music has played a significant role in the formation of a new religious cult of all times and nations. Rituals in the East, as well as in the religious temples of Azerbaijan, were performed in a magnificent way with music and dance. Famous scholars such as Safieddin Urmavi (XIII century), Abd al-Qadir al-Maraghi b. Ghaybi (XIV century), Mirzabek (XVII century), M.Mavavab (XIX century) have described the high development context of our medieval musical culture and theoretical problems of Azerbaijani music.

The article examines the ancient and modern literary roots of Azerbaijani music culture. Here, also widely investigated the ancient Azerbaijani music and its connection with religious values and its marvelous effects of the human soul are. The author also notes that outstanding scientists in music field have been trained in Azerbaijan and their scientific-theoretical heritage is the source for various researches.

Rəyçi: Kamandar Şərifov
Filologiya üzrə elmlər doktoru, professor

Bu iş Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun maliyyə yardımı ilə yerinə yetirilmişdir. Grant № EİF- KETPL-2-2015-1(25)-56/50/5

SEVDA İMANOVA
AMEA Folklor İnstitutu
filologiya üzrə fəlsəfə doktoru

"OYUN VƏ MAGİYA" PROBLEMİNİN NƏZƏRİ ƏSASLARI

Açar sözlər: Oyun, magiya, folklor, mif, mifologiya, folklorşünaslıq
Ключевые слова: игра, магия, фольклор, миф, мифология, фольклористика
Keywords: game, magic, folklore, myth, mythology, folklore

Məsələnin qoyuluşu: Mərasim folklorunun xüsusi layını təşkil edən **o**yunlar folklor-magiya əlaqələrinin semantik strukturu və tipologiyasının tədqiqi baxımından çox zəngin material verir. Bu gün daha çox uşaq və yeniyetmələrin "repertuaraını" təşkil edən oyunlar, əslində, çox qədim mərasimlərin qalıqlarıdır. Zamanla həmin mərasimlər öz aktuallığını itirdikcə uşaq oyunlarına çevrilmişdir. Epoxal transformasiyalar oyunların ritual strukturuna təsir edərək, bir çox cəhətləri yaddaşlardan silsə də, onlarda magik motivlərin izlərini görmək və bərpa etmək mümkündür.

İşin məqsədi: Məqalənin yazılmasında əsas məqsəd oyun və magiya probleminin nəzəri əsaslarını araşdırmaqdır.

Oyunların magiya ilə əlaqəsi tədqiqatçıları düşündürmüş, bu barədə ciddi araşdırmalar aparılmışdır. Həmin tədqiqatlar bizə oyun və magiya probleminin nəzəri mənzərəsini görməyə və ümumiləşdirməyə imkan verir. Füzuli Bayat "Şamandan səmazənə: oyun və oyunçu" adlı tədqiqatında uşaq oyunları və oyuncaqlarının magiya ilə bağlılığına diqqət yetirərək yazır: "Uşaqların oyuncaqları əski çağlarda ritual mahiyyətli olmuşdur. Belə ki, uşaqların oynadıqları kuklaların, oyuncaqların çoxu bir zamanlar kult xarakerli olmuş, ritualların əsas aləti kimi funksionallaşmışdır. Heyvan, quş və ya fantastik varlıqların təsvirini verən kuklalar əski çağlarda magiya, sehr ünsürü kimi işlədilmişdir. Məsələn, şamanlıqda emegetlər adlanan kuklalar şamanın yardımçı ruhlarının təsviri olub, sonradan uşaq kuklalarının düzəldilməsində model olmuşdur. Eyni şəkildə əski çağlarda ata evini tərk edən qızın özü ilə gətirdiyi yardımçı ruhlarının təsviri də uşaq bəbəklərinin əsas bazasını təşkil etmişdir. A.Reynson-Pravdinin də yazdığı kimi, yeni dinlərin meydana çıxması və sürətlə yayılması nəticəsində dini mahiyyət kəsb edən fiqurlar öz əhəmiyyətini itirir, əyləncəyə çevrilir (2, 80-81).

Göründüyü kimi, müəllif uşaq oyuncaqlarını ümumən ritual mənşəli hesab edir. Bu fikir əski mədəniyyət tarixnin qanunauyğunluqlarını əks etdirir. Bu gün oyuncaqlarla uşaqlar oynayır. Amma indinin özündə də cadu

edən, düyün vuran, yaxud fal açan subyektlər həmin "oyuncaqlardan" istifadə edirlər. Başqa sözlə, cadu edənin əlindəki predmet ("oyuncaq") cadu edilənin metaforası, məcazi varlığıdır və bu mataforik oyuncaq üzərində icra olunan "cadulama" isə sırf magik prosesdir.

F.Bayat daha sonra göstərir ki, m(2, 106-107).

Müəllif oyun-tamaşaların əski ovçuluq kult və ritualları ilə bağlılığı haqqında yazır: "Ovun uğurlu olması üçün əski çağlarda ovçuların ritmik hərəkətli oyun göstərmələri,... ov iyəsini məmnun etmək və ondan ov üçün icazə almaq məqsədi daşıyırdı. Bunun üçün ovçular heyvan maskaları taxır, yeni bir kimliyə girirdilər. Maska başqa ritual özəllikləri ilə bərabər həm də magik gücü göstərmək və ya simvolizə etmək üçün idi. Heyvan donuna girən ovçu ovlayacağı heyvanla bütünləşir, dilini və sirrini öyrənmiş olurdu. Ovçuların ovdan öncə heyvan qoruyucusu olan iyənin könlünü almaq üçün keçirdikləri ayin-oyunlarda ovlanacaq heyvanlar canlandırılır, beləliklə, onların ovlanması üçün, bir növ, icazə alınırdı. Sonralar Altay-Sayan türkləri və yakut ovçuları ov iyəsini razı salmaq ayi-oyunu gerçəkləşdirmək üçün ova şaman dəvət edirdilər və şamanın oyunu da teatrlaşdırılmış şəkildə ovlanacaq heyvanları canlandırmaqdan ibarət idi. Ovla bağlı oyunların bir çoxunda daha çox təmsili obrazlardan istifadə olunur. Belə ki, heyvan maskalarının və heyvan obrazlarının geniş yayıldığı bu oyunlarda eyni zamanda bir çox kuklalardan da istifadə olunduğu məlumdur. Hətta Altaylı ovçular ova özlərilə bərabər emeget deyilən və qoruyucu varlıqları təmsil edən kuklalar götürürdülər. Hər halda ov oyunları bir çox elementləri ilə mürəkkəb xarakterli idi" (2, 207-208).

Bu fikir bizə oyunu onun daxil olduğu magik sistem içərisində təsəvvür etməyə imkan verir. Məlum olur ki, ovçuların ovdan qabaq oynadığı oyunlar ov iyəsi, yəni ov yiyəsinin/sahibinin şərəfinə icra olunurmuş. Bu da öz növbəsində oyunun "məzmununu", funksional strukturunu müəyyənləşdirir.

İbtidai ovçuların icra etdikləri mərasimlərdə maskalardan istifadə etmələri bizə uşaq oyunlarında üzgizlətmə aktlarının haradan gəldiyini başa düşməyə imkan verir. Maska – üzgizlətmə, başqa obraza çevrilmə vasitəsidir. Bu cəhətdən magik predmetdir. Uşaq oyunlarında maskalardan istifadə olunması həmin oyunlarda magiyanın qalığı deməkdir.

Azərbaycan folklorşünaslığında oyunlar janr tipologiyasına görə uşaq folkloruna aid edilir. Ramazan Qafarlı özünün "Uşaq folklorunun janr siustemi və poetikası" adlı əsərində uşaq folklorunun mənşəyindən danışarkən bu janrları, o cümlədən oyunları əski mifik inanc və etiqadlar, magik təsəvvürlərlə bağlı olduğunu xüsusi vurğulayır. O yazır ki, Azərbaycan uşaq folklorunun tarixi kökləri ən əski inamlarla bağlanır. Birbaşa körpələrə ünvanlanan nəğmələr xalq poetik yaradıcılığının ilk ünsürləri – fallar, alqışlar, qarğışlar, dualar, yuxuyozmalarla yaşıddır. Ulu

əcdadlarımızın məişətinə daxil olan ayin və mərasimlər, inam və əqidəsinə hopmuş inanclar bədii yaradıcılığın inkişafına güclü təkan vermişdir. Dünyaya övladın gətirilməsi, körpənin qırxının tökülməsi, dilinin açılması, dişinin çıxması, yeriməsi, adının qoyulması ilə bağlı keçirilən mərasimlərdə, heç şübhəsiz ki, tilsimdən, əfsundan, duadan gen-bol istifadə edilmişdir. Deməli, uşaq folklorunun meydana gəlməsi bir tərəfdən ilkin etiqadlarla, təsəvvürlərlə bağlıdırsa, digər tərəfdən lap qədimlərdə sinifli cəmiyyət formalaşmamışdan qabaq uşaqları dövrün ələbinə uyğun şəkildə böyüdüb tərbiyələndirmək, körpəlikdən əməyə, işə alışdırmaq, mübarizəyə hazırlamaq, ovçuluq, əkinçilik, maldarlıq, toxuculuq peşələrinin sirlərini öyrətmək tələbatı ilə əlaqədardır. Uşaqlara təbii qüvvələrdən, fəlakətlərdən (soyuqdan, istidən, tufandan, yanğından), xəstəliklərdən qorunmağın, maddinemətlər əldə etməyin yollarını göstərmək; yırtıcı heyvanların və yağıların qəfil hücumları zamanı ov alətlərindən, silahlardan istifadə etmək bacarığı aşılamaq folklor vasitəsi ilə həyata keçirilmişdir (5, 16-17).

Buradan aydın olur ki, oyunlar bütün realistik məzmununa baxmayaraq, əski magik-mifik təsəvvürlərlə bağlıdır. Bu gün oyunlar ümumən realistik məzmuna malikdir. Lakin oyunu təşkil edən hər bir akt, istifadə olunan hər bir predmet, əslində, həm də əski mifik-magik təsəvvürlərin izlərini özündə daşıyır.

Biz əski mərasimlərin zamanla uşaq və yeniyetmələrin oyunlarına dönüşməsindən danışarkən qarşımıza, haqlı olaraq, belə bir sual çıxır: Bu, hansı vasitə və üsullarla baş verir?

R.Qafarlıya görə, burada iki əsas cəhət özünü göstərir: təqlid və yamsılama. Müəllif yazır ki, uşağın *yamsılaması təqlidçiliyindən* daha əvvəlki fəaliyyətidir:

– yamsılamada çox hallarda heyvan və quş səsləri, böyüklərin dedikləri sözlər uşaqların tələffüzünə keçir;

– təqliddə isə uşaqlar yaşlı insanların hərəkət, mimika və jestlərini olduğu şəkildə təkrarlayırlar (5, 52).

Elçin Abbasov Qarabağdan toplanmış nağıllarda oyun elementlərinin magik və didaktik aspektlərdən bəhs edən tədqiqatında "yamsılama" məsələsi haqqında yazır: "Oyunun bir yamsılama olması, magik təsəvvürlərdən qaynaqlanan "yalançı" mahiyyəti nağıllarda bəzən bir ədəbi priyom kimi istifadə olunur. Bu, məsələn, "Məlik Məmməd" nağılının Bərdə rayonundan qeydə alınmış variantında izlənə bilir. Məlik Məmmədin oğullarının ataları haqqında məlumat alması belə şəkildə baş verir (1, 185)

Oyunların məşhur növlərindən biri aşıq atmadır. Bu oyun magik təsəvvürlərlə də bağlıdır. E.Abbasov yazır ki, aşıqdan fal aləti kimi Azərbaycanda çox-çox əskilərdən geniş istifadə olunub. Əcdadlarımızın xüsusən hərbi məqsədli fal açmada heyvan sümüklərindən, o cümlədən aşıq sümüyündən istifadə etdikləri yazılı mənbələrdə əksini tapıb (1, 185).

Müəllif oyun aşıqlarının magiya ilə bağlılığı haqqında qeyd edir ki, Cənubi Sibir və Cənubi Rusiya çöllərində arxeoloji qazıntılar zamanı türk hegemonluğu dövrünə aid katakombalardan, kurqanlardan və başqa bu kimi yerlərdən təxminən e.ə. I minilliyin II yarısından – b.e. X əsrini əhatə edən dövrlərə aid, üzərində cızıq-işarələr olan çoxsaylı aşıq sümükləri aşkar edilmişdir. Bu cızıqları bəzi alimlər damğa və ya hesab işarələri saysalar da, onların magik işarələr olması daha məntiqlidir. Hətta aşıqdan qoruyucu həmail kimi istifadə olunması da istisna deyil. Məlumdur ki, qədim Çində Şan dövləti dönəmində (e.ə. XVIII – e.ə. XI əsrlər) üzəri yazılı və ya işarəli sümüklərindən fal aləti kimi istifadə geniş yayılmışdı. Fal açma verilən sualın müqabilində oda atılan, üzərində müxtəlif mənalı çoxsaylı işarələr olan sümüklərin yandırılmasından alınan nəticədən ibarət idi. Bu nəticə odun təsirindən sümük üzərində yaranan catların hansı işarələrdən keçməsi ilə müəyyən olunurdu. Oxşar falaçmadan monqol xanları da istifadə edirdilər. Lakin onlar çatların hansı işarələr üzərindən keçməsi ilə deyil, yanma nəticəsində sümüklərdə yaranan çatların düz, yaxud çəpəki olması ilə nəticə hasil edirdilər. Əgər yandırılan üç kürək sümüyündən heç olmasa birində sümük boyu uzanan düz çat yaranardısa, niyyət edilən işin uğurlu alınacağına inanırdılar. Qədim Yunanıstanda, Romada və Bizansda astraqallarla fal açmanın və qumar oyununun geniş yayıldığını da xatırlasaq, yazılı aşıqların fal alətləri ola bilməsi daha inandırıcı görünür. Əlavə edək ki, ingilis, rus və bir çox digər dillərdə indi də zər daşları "sümük" (bone, kost) adlanır. "Bəxtin alçı durub" kimi Azərbaycan xalq paremisinin də mövcudluğu həmin sümük falı ilə bağlıdır (1, 188-189).

Fərəh Cəlil türk və Skandinav eposlarının müqayisəli tipologiyasından bəhs edən tədqiqatında oyun-mərasimlərdə magik təsirin gülüş və təhdid üsullarından istifadə yolu ilə həyata keçirildiyini əsaslandırmışdır (3, 145-150).

Novruz bayramı mərasimlərində icra olunan məşhur "Kosa-kosa" oyun-tamaşasından "Kosa bir oyun eylər, // Quzunu qoyun eylər" misralarını yada salaq. Burada Kosanın oyun vasitəsilə quzunu qoyun eləməsi magik aktdır.

Əvvəla, hər bir quzu təbii yolla böyüyərək qoyuna çevrilir. Lakin bu prosesin oyun vasitəsilə baş verməsi artıq magik aktdır. Burada magiya gülüş yaratma yolu ilə baş verir.

F.Cəlil qışın rəmzi olan Kosaya pay verilməsini xosun gülüş yolu ilə aradan qaldırılması kimi şərh edir: "Xalq Kosanın torbasını müxtəlif təamlarla doldurmağa çalışır. Bunun semantik yozumunda obyektlə subyekt arasında əlaqəyə cəhd göstərilir. Məqsəd xtonik varlığın öncə obrazını yaratmaq və sonra onu müxtəlif hədiyyələrlə ələ almaqdır. Bunun vasitəsi ilə də Xaosu neytrallaşdırmaq nəzərdə tutulur. Butün mərasim aktının icrası zamanı sevinc səsləri və gülüş əsas ovsunlama əməliyyatı hesab olunur" (3, 146).

Qeyd edək ki, Novruz oyun və tamaşalarını araşdırmış Sevinc Qasımova da mərasimi gülüşün magik xarakter daşıdığını öz tədqiqatları ilə təsdiq etmişdir. O yazır ki, Novruz tamaşalarındakı gülüş günəşin, günəşlə başlanan yazın, yeni ilin gəlişinə xidmət edir. Burada gülüşün bol olması, bayram iştirakçılarının yekdilliklə gülüş prosesinə qoşulması günəşin gəlməsinə yönəlmiş kollektiv magik təsir gücünü nümayiş etdirir. Novruz mərasim tamaşaları yazla qışın mübarizəsinə həsr olunub və burada gülüş yaradıcı, törədici gücə malik magik təsir vasitəsi hesab olunur. Günəşin gəlişi özü ilə yeni həyat, bolluq, bərəkət, ruzi gətirir (6, 73). "Novruz mərasim kompleksinə daxil olan oyunlar çoxdur. Onlar keçmiş zamanlarda daha çox olub. Müasir dövrdə elektron uşaq oyunlarının meydana çıxması bu oyunların çoxunu unutdurmuşdur. Həmin oyunların hamısı bir ideya xətti ətrafında birləşir: köhnə ilin yola salınması (məğlub edilərək qovulması) və yeni ilin qarşılanması (çağırılması, dəvət olunması). Tamaşalar üçün əsas əlamət gülüş, oyunlar üçün əsas əlamət yarışma (mübarizə) olsa da, oyunlarda da gülüş ayrılmaz əlamət kimi iştirak edir. Çünki gülüş yazın rəmzi olub, qışı məğlub etmək üçün ən təsirli magik vasitədir" (6, 87).

F.Cəlil yazır ki, ayin və mərasimlərdə gülüşlə yanaşı təhdid faktoru da önəmli yer tuturdu. Skandinav folklorundan nümunə gətirmədən öncə türk folkloruna müraciət etsək, bu prosesin ilkin variantını görmüş olarıq. Nümunə üçün yenə də təbiət olayları ilə bağlı keçirilən bir ayinə nəzər salaq. Məsələn, günəşi çıxarmaq və dumanı qovmaq üçün belə bir ovsun xarakteri daşıyan şeir mətnindən istifadə olunurdu:

Duman qaç-qaç,
Pərdəni aç-aç,
Səni qayadan asaram,
Buduna damğa basaram.

Duman qaç-qaç,
Rübəndini aç-aç.
Yaralarını bağlaram,
Səni yoldan saxlaram.

Bu şeir mətnində subyekt obyektlə əlaqəyə cəhd göstərir. O, obyektdən istədiyini əldə edə bilmək üçün öncə onu təhdid edir. Daha sonra isə obyekti ələ almaq üçün ona xidmət edəcəyinə, qayğısına qalacağına söz verir (3, 148).

Burada təhdid, doğrudan da, var. Nəğməni oxuyan əgər duman çəkilməsə, onu qayadan asmaqla, buduna damğa basmaqla hədələyir. Ancaq gəlin görək, dumanı necə qayadan atmaq, yaxud buduna necə damğa basmaq mümkündür. Axı duman canlı bir varlıq deyildir ki, onu tutub qayadan atmaq, yaxud buduna damğa basmaq mükün olsun.

Əlbəttə, bu məsələyə magik-metaforik kontekstdə yanaşdıqda hər şey aydın olur və biz burada bu oyun-mərasimin magik təsəvvürlərlə necə sıx bağlı olduğu ilə üzləşirik.

Bizcə, dumanın qayadan atılması, yaxud buduna dağ basılması vaxtilə həmin mərasimdə icra olunmuş magik aktlardır. Əgər mərasim keçirldikdən sonra duman çəkilməzdisə, onda magik hədələmə magik akt kimi icra olunurdu. Dumanın kuklasını qayadan atır, yaxud onun buduna damğa basırdılar.

Xalq oyunlarının funksional strukturunu araşdırmış Sərxan Xavəri görkəmli ingilis etnoloqu Edvard Taylorun uşaq oyunlarının ibtidai hərbi fəndlər haqqındakı xatirələri özündə yaşatması, onların bəzən bəşəriyyətin uşaqlıq dövrünə aid olan mədəniyyət tarixinin qədim mərhələlərini təcəssüm etdirməsi haqqındakı fikrini (7, 68) mühüm metodoloji platforma kimi götürərək yazır: "Bu fikir bizim tədqiqatım baxımından açar rolunu oynamaq gücünə malikdir. Və özünə münasibətdə təhlil tələb edir. Taylorun fikri məhz funksional struktur anlayışına əsaslanır. Yəni burada oyunların dünəni və bu günü məsələsi var. Diaxron baxımdan oyunlar fərqli funksiyada görünürlər. Bu gün onlar sadəcə uşaq oyunlarıdır. Uşaqların əyləncəsinə və onların fiziki zövqünün ödənilməsinə xidmət edir. Lakin bu oyunlar öz tarixi mədəni mənşəyi baxımından qədim hərbi rituallar, əski ezoterik mərasimlərlə bağlıdır. Bu cəhətdən oyunların funksional struktur dinamikasında bu dialektik dəyişməni nəzərə almadan onları obyektiv elmi əsaslarla müəyyənləşdirmk mümkün deyildir" (4, 258).

Müəllif uşaqların sevimli oyunlarından olan "Bənövşə bəndə düşə" oyununu funksional struktur kontekstində təhlil edərək aşağıdakı nəticələrə gəlir: "Beləliklə, "Bənöşə" oyununun funksional strukturunu aşağıda kimi bərpa etmək mümkündür:

1. Kosmos: bu qarşı qarşıya duran iki komandanın start vəziyyətidir. Burada məkan zaman xronotopu tam harmoniya içərisindədir. Oyunçuların sayı bərabərdir, onlar bir birindən bərabər məsafədə dayanmışlar, oyuna birinci kimin başlaması da, kosmik üsulla püşkatma ilə həll olunur.

2. Kosmosdan xaosa keçid: oyun başlayan kimi. Yəni Bənövşə oyunun sükunət halında olan strukturu hərəkətə gələn kimi kosmik tarazlıq pozulur. Elə ilk aktdan ya bu, ya da o biri komanda güclənir.

3. Kosmosla xaos arasında mübarizə. Hər iki komanda arasındakı mübarizə mifik konsepsiya baxımından kosmosla xaos arasındakı mübarizəni əks etdirir. Yarıçın qalibi kosmosu, məğlub olan tərəf xaosu təcəssüm etdirir. Mifoloji mntiqə görə, xaos məğlubiyyətə məhkum edilir.

4. Xaos əsasında yeni kosmosun formalaşdırılması: İki bərabər sayda olan dəstədən biri məğlub olur. Və o biri dəstənin tərkibinə qatılaraq yeni kəmiyyət paradiqmasında təqdim olunan yeni kosmosu formalaşdırır.

Beləliklə, Bənövşə oyununun funksional strukturunu mifoloji kosmoqonik konsepsiyaya tabedir. Lakin bu təkcə bu oyuna aid deyil. Bütün oyunların funksional struktur sxemi mifik yaradılış sxemini özündə inikas edir. Bunu oyunların ölüb-dirilmə formulu ilə bağlılığı sübut edir" (4, 264).

Folklor nəzəriyyəçisi olan S.Xavərinin bu nəticələri "oyun və magiya" problemi ilə bağlı məntiqi nəticələr doğurur. O, göründüyü kimi, "Bənövşə" oyununda dörd funksional struktur səviyyəsini (1. Kosmos; 2. Kosmosdan xaosa keçid; 3. Kosmosla xaos arasında mübarizə; 4. Xaos əsasında yeni kosmosun formalaşdırılması) bərpa etmişdir.

Ədəbiyyat

1. Abbasov E. Qarabağdan toplanmış nağıllarda oyun elementləri: magik və didaktik aspektlər / Qarabağ xalq oyunları və meydan tamaşaları. Bakı: Elm və təhsil, 2015, s. 175-199
2. Bayat F. Şamandan səmazənə: oyun və oyunçu. Bakı: Elm və təhsil, 2017, 228 s.
3. Cəlil C.F. Türk və Skandinav eposlarının müqayisəli tipologiyası / Filologiya üzrə elmlər doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya. Bakı, 2013, 219 s.
4. Xavəri S. Xalq oyunlarının funksional strukturu / "İslam Coğrafiyası və Azərbaycanda xalq oyunları və meydan tamaşaları" beynəlxalq elmi konfransının materialları. Bakı: Elm və təhsil, 2016, s. 258-266
5. Qafarlı R. Uşaq folklorunun janr sistemi və poetikası. Bakı: Elm və təhsil, 2013, 540 s.
6. Qasımova S.A. Azərbaycanda Novruz ənənələri və inancları / Fil.üz.fəl.dok...dissertasiya. Bakı: 2015, 157 s.
7. Тайлор Э.Б. Первобытная культура. Москва: Политиздат, 1989, 574 с
.

С.Иманова

Теоретические основы проблемы «игра и магия»

Резюме

Игры, которые составляют особый слой обрядового фольклора, дают огромный материал для исследования семантической структуры и типологии связей фольклора и магии. Игры, которые в настоящее время большинстве случаев входят в репертуар молодежи и детей, в действительности остатки очень древних обрядов. Со временем эти обряды потеряли свою актуальность и превратились в детские игры.

Эпохальные трансформации, воздействуя на ритуальную структуру игр, удаляя многие особенности из памяти, оставляли многие следы. И по этим следам возможно их реконструировать. Каждая игра служит космогонии. Сотворение космоса бывает возможным благодаря функционированию по мифо-магическими принципами элементов составляющих космос. Иными словами, в играх процесс сотворения в играх происходит магическими средствами. В каждой игре между космосом и хаосом происходит борьба, и наконец, формируется космос. Это происходит путем смерти и воскрешения. В основе смерти и воскрешения в фольклоре стоит магия.

S.İmanova

Theoretical foundations of "game and magic" problem

Summary

The games that make up a special layer of ritual folklore give a huge amount of material for exploring the semantic structure and typology of the connections of folklore and magic. Games, which now most of the time are included in the repertoire of youth and children, are in fact remnants of very ancient rites. Over time, these rituals have lost their relevance and turned into children's games. Epochal transformations, influencing the ritual structure of games, removing many features from memory, left many traces. And on these tracks it is possible to reconstruct them. Each game serves cosmogony. Creation of the cosmos is possible due to the functioning of the elements of cosmic components according to the mythological and magical principles. In other words, in games, the creation process in games takes place by magical means. In every game between space and chaos, there is a struggle, and finally, space is formed. This happens through death and resurrection. The basis of death and resurrection in folklore is magic.

Rəyçi: Afaq Ramazanova
Filologiya üzrə fəlsəfə doktoru, dosent

İLAHƏ VƏLİYEVA
Filologiya üzrə fəlsəfə doktoru
Sumqayıt Dövlət Universiteti müəllim
ilahe.mariya@mail.ru

İBRAHİM TAHIRIN HƏYAT VƏ YARADICILIĞI BARƏDƏ

Açar sözlər: Şuşa, şair, şeir, məktəb, ədəbiyyat
Ключевые слова: Шуша, поэт, стихи, школа, литература
Key words: Shusha, poet, poem, school, literature

XIX əsrin sonları XX əsrin əvvəllərində yaşamış zəngin ədəbi irsə malik, yaradıcılığında klassik ədəbiyyatın ənənələrini yaşadan şairlərimizdən biri də İbrahim Tahir Musayev (1869-1943) olmuşdur. İbrahim Tahir Məşədi Əbdül oğlu Musayev 1869-cu ildə Qarabağın mərkəzi Şuşa şəhərində tacir ailəsində dünyaya gəlmişdir. Atası Məşədi Əbdül furqonçuluqla, sonra isə manufaktura alveri ilə məşğul olmuşdur. Atası öləndən sonra manufaktura ticarətini 1918-ci ilə kimi davam etdirmişdir.

Gənc İbrahim təhsilini Şuşa şəhərində, Molla Əli Xəlifənin məktəbində almış, ərəb, fars dillərini öyrənmiş, ədəbiyyata böyük maraq və həvəs bəslədiyindən fars şairlərinin əsərləri ilə tanış olmuş, iyirmi yaşından şeir yazmağa başlamışdır. Tədqiqatçı Nəsrəddin Qarayev «XIX əsr Azərbaycan ədəbi məclisləri» adlı monoqrafiyasında Mirzə Rəhim Fənanın xatirələrinə əsaslanaraq onun Şuşada 1872-ci ildən fəaliyyət göstərən «Məclisi-Fəramuşan» ədəbi məclisinin yığıncaqlarında iştirak etdiyini göstərir.(1,s.200). «Məclisi-Fəramuşan» ədəbi məclisinin başçısı Mir Möhsün Nəvvab «Təzkireyi-Nəvvab» təzkirəsində şairi şəxsən tanıdığını, təzkirə tərtib olunarkən onun 22-23 yaşlarında xoş əhvallı, düz əxlaqlı bir gənc olduğunu bildirmişdir: «Tahirin adı İbrahimdir. Bu təzkirə yazılan vaxt 22-23 yaşı var idi. Xoş əhvallı, düz əxlaqlı bir cavan idi. Məşədi Əbdül Qarabağinin oğludur. Şuşa şəhərinin Çuxur məhəlləsindəndir. Sənəti tacirlikdir. Farsca savadı var. Şeir deməyə çox həvəsi var. Təxəllüsi Tahirdir» (2,s,506). Nəvvab 1892-ci ildə tərtib etdiyi təzkirədə onun farsca 22, azərbaycanca isə 4 şeirini vermiş, həmin təzkirənin 1913-cü il çap nüsxəsində isə şair haqqındakı məlumatı qismən dəyişdirmiş, onun biri farsca, digəri azərbaycanca olmaqla 2 şeirini vermişdir.

İ. Tahir ömrü boyu tacir olaraq qalmamışdır. O, həm də ictimaiyyətdə yeni ruhlu müəllim kimi tanınmışdır. Əldə olan arxiv sənədlərindən məlum olur ki, şair 1920-ci ildə Şuşa qəzasının maarif müdirinə ərizə ilə müraciət edərək müəllim vəzifəsinə işə qəbul edilməsini xahiş etmişdir. Onun ərizəsinə Şuşa qəzasının maarif müdiri aşağıdakı məzmunda cavab yazmışdır.

«Bununla 11 kanuni-əvvəl tarixli verdiyiniz ərizəyə cavab məlum olunur ki, Şuşa qəzası maarif idarəsi 18 dekabr tarixli, 44 nömrəli iclası qətnaməsi möcübincə Siz həmin sənə kanuni-əvvəlin igirmisindən etibarən Şuşa «Nərimaniyyə», «Bünyadiyyə» və «Kəmaliyyə» zükur məktəbinə tarix müəllimi təyin olunsun. Ona binaən təklif olunur ki, müəyyən vəqtdə vəzifə başına şünu edəsiniz».

Şuşa qəzasının maarif müdiri: imza

İdarə katibi: imza.

1920-ci il 18 dekabr tarixində verilmiş göstərilən əmrdən üç gün sonra 21 dekabr tarixində İbrahim Tahirə həmin məktəblərdə tarix müəllimi vəzifəsində işləməsi barədə vəsiqə verilmişdir. Şair iyirminci illərin ortalarından daimi yaşayış yerini dəyişərək Bakıya köçmüş və ömrünün axırına kimi burada yaşamışdır. O, Bakıda yaşadığı müddətdə ədəbi ictimaiyyətlə sıx əlaqə saxlamış, dövrünün bir sıra görkəmli şəxsiyyətləri ilə yaxın dostluq əlaqələrində olmuşdur. İ. Tahirin həmin illərdə dostluq etdiyi ədiblərdən biri də Cəlil Məmmədquluzadə olmuşdur. Təsadüfi deyil ki, O, «Molla Nəsrəddin» jurnalında mütəmadi olaraq «Nofəl» təxəllüsü ilə çıxış etmişdir. Şairin arxiv sənədlərindən öyrənmək olur ki, «Molla Nəsrəddin»də «Nofəl» imzası ilə çıxış edən məhz o olmuşdur. Bundan başqa O, «Tərəqqi», «Sədayi-həqq», «Dəbistan», «Yeni kənd» və s. mətbuat orqanlarında «ağcaqanad», «Şişeyi» imzaları ilə də çıxış etmişdir. İbrahim Tahirin əsərlərinin əlyazmaları içində Cəlil Məmmədquluzadəyə ünvanladığı zarafatyana şeirləri vardır.

Bakı mühitinə düşən şairin yaradıcılıq diapozonu, əsərlərinin mövzu darəsi daha da genişlənmişdir. XX əsrin 30-cu illərində klassik Şərq, o cümlədən, Azərbaycan ədəbiyyatının nümayəndələrinin əsərlərinin tərcüməsinə böyük ehtiyac yaranmışdı. Fars dilini mükəmməl bilən İbrahim Tahir də bu prosesdə fəal iştirak edirdi. Həmin dövrdə dahi fars şairi Əbdülqasim Firdovsinin «Şahnamə» əsərinin ilk tərcüməçilərindən biri də İ. Tahir olmuşdur. «Şahnamə»nin iki dastanının - «Zöhhak və Gavə» və «Siyavus» dastanlarının hərfi təxəllüsü ilə yanaşı onların Azərbaycan dilinə tərcüməsi də İ. Tahirə tapşırılmışdır. O, bu məsuliyyətli işin öhdəsindən uğurla gəldi və 1934-cü ildə həmin dastanlar Ruhulla Axundovun elmi redaktorluğu ilə 5000 tirajla nəşr edildi. Professor Raqub Kərimov şairin tərcüməçilik fəaliyyəti barədə yazır: «Ömər Xəyyam, Əfzələddin Xəqani Şirvani, Nizami Gəncəvi, Hafiz Şirazi, Əlişir Nəvai, və başqa klassik Şərq şairlərinin əsərlərinin Azərbaycan dilinə tərcüməsi ona tapşırıldı. Şairin ömrünün son günlərinə qədər bu sevdiyi peşəni yaşatdı, ondan ayrılmadı» (3,s.8).

Dövrü mətbuatda şairin imzasına 1903-cü il tarixindən rast gəlmək mümkündür. Onun «Qarabağdan» adlı ilk məqləsi «Şərqi-Rus» qəzetinin 29

iyun 1903-cü il tarixli nömrəsində çap edilmiş, bir neçə gündən sonra qəzetin 6 iyul tarixli sayında isə İbrahim Tahirin «Şərqi-Rus» qəzetinin Şuşadakı vəkili olması barədə elan verilmişdir (4).

İbrahim Tahir xalqını, millətini sevən, onun maariflənməsi yolunda canfəşanlıq edən mütərəqqi düşüncəli ziyalı olmuşdur. Mütəmadi olaraq dövri mətbuatda çıxış edən şair həmişə ən aktual mövzulara, xalqı düşündürən vacib taleyüklü problemlərə toxunmuşdur. İ.Tahir elm, mədəniyyət və maarifin təbliğində dövrü mətbuatın rolunu yüksək qiymətləndirirdi. Onun «Füyuzat» jurnalının üçüncü sayında (1906, 26 noyabr) dərc edilmiş «Təbrik və izhari-təşəkkür» adlı şeirində xalqın elm, ədəb sahibi olmasında dərginin əvəzsiz rol oynayacağına ümid əksini tapmışdır.

Elmü ədəbə bizləri sövq eyləyəcəkdir
Kim, gəlməyəcək vəzndə meyari-füyuzat.
Gülzari-vətəndə açılıb bir güli-irfan,
Əkbər saçıyor millətə göftari-füyuzat.

«Füyuzat» jurnalının 8 dekabr 1906-cı il nömrəsində çap etdirdiyi şeirində şair xalqına azadlıq arzulayan, ölkədə qanunların işləməməsindən şikayət edir.

Verir hər yerdə qanun olsa insaniyyət insanə,
Cahanda ən gözəl nemətdir hürriyyət insanə.
Tərəqqidən qalır bibəhrə qanun olmayan kişvər,
Düşər izzü şərafətdən cəhlü qəflətlə dolan kişvər,
Tənəzzül kəsb edər nik ilə bəd yeksan olan kişvər,
Müsavat olsa vallahi olar mədhi-aman kişvər,
Fərəh əta edər qanda olsa əmniyyət insana!

İbrahim Tahir Musayevin əsərlərinin bir qismi itib-batsa da, əksər hissəsi mühafizə olunmuşdur. Hazırda onlar AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda və Salman Mümtaz adına Respublika Ədəbiyyat və İncəsənət arxivində saxlanılır.

İbrahim Tahir klassik poeziyanın əksər janırlarında - qəzəl, qəsidə, mürəbbe, müxəmməs, müsəddəs, təzmin, tərcibənd, tərkibbənd, məsnəvi və rübai, nəzm şəklində əsərlər, mənzum məktublar, sabiranə şeirlər yazmışdır. Tədqiqatçı Arif Əmrahoğlu onun yaradıcılığında müraciət etdiyi poetik janrlar barədə yazır: «İbrahim də əksər həmkarları kimi qəzəl yazmağa üstünlük veribdi. Doğrudur, onun başqa şeir şəkillərində tənqidi-satirik ruhda yazdığı əsərləri də vardır, amma qəzəl İbrahim Tahirin yaradıcılığında başlıca yer tutur» (6,s.41).Şair böyüyüb boya-başa çatdığı, təlim-təhsil aldığı dövrün, mühitin təsiri altında klassik ədəbi irsə bağlı bir adam olmuş,

əsərlərini də klassik üslubda yazmışdır. İbrahim Tahirin şeirlərini oxuduqca onun klassik poeziya ilə necə sıx surətdə bağlı olduğunu, ustad şairlərin əsərlərini mükəmməl bildiyini görürük.

Füzuli-saheyi-nəzmin ədibi-yektası,
Onunla başladı əşari-türkün əhyası (5,s.133)

-deyən şairin Füzulidən daha çox təsirləndiyini, onun şeirlərinə nəzirələr yazdığını görürük. İ.Tahir şeirlərindən birində hansı cəhətlərinə görə Füzuli yaradıcılığını yüksək dəyərləndirdiyini açıqlayır: «Füzuli qəzəllərindəki səmimiyyət, fədakar eşqi tərənnüm etməsi, sələflərindən fərqli, heç kimə bənzəməyən bir poetik üslub yaratması onun ədəbi irsinin bu qədər sevilməsinin səbəbləridir»:

Qəzəllərində səmimanə göstərib diqqət,
Kəmali-eşqilə ol şairi-giranqiymət.
Səbat gün kimi rövşən süluk seyrində,
Dərin bir eşq yaratmış dəruni-şeirində.
Hanı onun kibi bir sahibi-qərinəhəsaf,
Sözündə etməyə təqlidi-şiveyi-əslaf.
Əvəz,bu şair için başqa bir fəzilətdir,
Füzuliyi hamıya sevdirən bu xislətdir (5,s.134)

İbrahim Tahir böyük özbək şairi Əlişir Nəvainin təsiri ilə cığatayca da şeirlər yazmışdır. Ədibin yaradıcılığında bəhrələndiyi sənətkarlardan biri də Osmanlı saray şairi Əhməd Nədimdir(1681-1730). Bu barədə O, yazır:

Əsri-halın, Tahira, bir şairi-mümtazısan,
Şuxiyi-təb`in Nədimə eyləmiş həmta səni.... (5,s.175).

Şairin əsərlərində özünün klassik poeziyanın görkəmli nümayəndələri Həssan Sabit, Hafizə Şinezi ilə müqayisə edir. Şairin klassik poeziyaya rəsmi orqanlarda, yaradıcı birliklərdə marağın azaldığı bir dövrdə qəzəlxan olduğu ilə fəxr edərək yazırdı:

Qələmi göstərir ecaz yazan dəmdə qəzəl,
Söylə kimdir qəzəl ustadı ola Tahir tək?

Şairin yaradıcılıqda qəzəl dilinin sadələşməsi, müasir dilə yaxınlaşması prosesini davam etdirdiyini görürük. Qəzəlin ruhu saxlanılmaqla, əruz vəzninin tələblərinə riayət edilməklə mürəkkəb ərəb-fars mənşəli tərkiblərin yerini ana dilimizdən, danışıq dilindən gələn söz və ifadələr əvəz etməyə başlamışdır. Bu baxımdan şairi XX əsrin Əliağa Vahid kimi sənətkarları ilə

müqayisə etmək olar. İ.Tahirin qəzəl dilinin sadələşdirilməsi sahəsindəki fəaliyyətini göstərən bir şeirindən nümunə gətirək:

Səni gördükdə düşür yadə çəmənlərdə çiçək,
Sən gözəllikdə inanmam ola göylərdə mələk.
Cəlb edir aşiqi-bimarını qaş ilə gözün,
Xariqüladə gözəlsən, sən yox bir deyəcək.
Ruhum istər gögə pərvaz qıla şövqündən,
Sən baxarkən mənə hər ləhzə dönüb ceyran tək (5,s.37).

Filologiya elmlər doktoru Paşa Kərimovun haqlı olaraq dediyi kimi «Şeirlərinin mövzu dairəsi kifayət qədər geniş olsa da İbrahim Tahir ilk növbədə lirik şairdir». (7,s.8). Onun əsərlərində məhəbbət lirikasının diqqətəlaiq nümunələrini görürük. Qəzəllərindən birində şair sevgilisinin gözəlliyini təbiətlə, çiçəklərlə müqayisə edir:

Hər səhər yadə salıb gül yüzünü dərmədəyəm,
Açılan gülləri gülşəndə tabaqlar dolusu.
Yığaram sonra o zülfi-siyahin xatirinə,
Süsənü sünbülü reyhan qucaqlar dolusu.
Qanlı yaş tökməkdə Yəqubu buraxdın geridə,
Gözlərim yaşı axıb getdi bulaqlar dolusu (5,s.45).

İbrahim Tahir öz milli hislərini, doğma ana dilinə rəğbətini, soykökünə türkçülüyə, türkə olan məhəbbətini bir sıra publisist yazılarında olduğu kimi, şeirlərində də təcəssüm etmiş və bununla da gənc nəslin milli ruhda tərbiyə olunmasına xidmət göstərmişdir:

Saxladı türkü qaranlıqda xürfati-ərəb,
Ərəb oldum deyə fəxr etdi bütün əhli-ədəb.
Türk ikən baltaladıq kəndimizi ruzilə şəb,
Başladı əksi-ədəb şəxyisi sultanlar həb.
Türk olan nerdə isə doğruçu türk olmalıdır,
Yazısı türcə, sözü türkcə kullanmalıdır (5,s,271)

Şairin zahirdə millətin adından danışan, özünü millətsevər kimi qələmə verən insanlara üzünü tutub, onların «bica yerə millət-millət» deyə bağırmalarını ucuz söhbət düşkünlüyü kimi qiymətləndirir, onları heç olmasa, müsəlman adətinə uyğun olaraq möhtaclara əl tutmağa çağırır və bunun dinə görə də savab olduğunu söyləyir:

Möhtacə verənlər alı bin həcc səvabın,
Əmsak eləmək bir belə ehsanə nədəndir (5,s,137)

Şair sonda bütün dünya xalqlarının oyandığını,bizlərin isə yuxuda olduğunu sabiranə şəkildə göstərir, o da Sabir kimi, xalqını inkişaf etmiş sırasında görmək arzusu olduğunu bildirir:

Dünyalar oyandıqda gedib yatmadayız biz,
Gərm olmağımız səhvilə nisyanə nədəmdir (5,s.137).

Bir sıra müasirləri kimi İbrahim Tahir də şeirlərində İran məşrutə inqilabına münasibətini bildirmşdir. «Müxtibin Məhəmmədəli şahdan» adlı şeirində şair inqilabı qanla boğmaq istəyən şaha üz tutaraq deyir ki, dünya xalqları azadlığa çıxmaqdadır, İrana da azadlıq vermək lazımdır:

Nədir fikrin sənin hürriyyəti təriqə salmaqdan,
Yetib zinharə millət, gör nasıl can üstə qalmaqdan.
Kibari- millətə ver müjdə, hürriyyətlə yad eylə,
Müdaralar qılub ruhi-Müzəffər şahı şad eylə.
Ziyayi-şəmsi-hürriyyət bütün tutmaqda dünyanı,
Salıbdur gör nə halə tərzi- istibdad İran.
Ədalət sayəsində nam alıbdır başqa dövlətlər,
Ədalət olmadan dövlətdə fərqi-xeyrü şər (5,s.619).

İbrahim Tahir İran inqilabının düşmənlərinə, mürtəce mövqedə duran Mirhaşım, Mirzə Həsən kimi şəxslərə həsr etdiyi şeirlərdə birbaşa onlara müraciət edir, yalnız hürriyyətin deyil, xalqın, dinin düşməni olduqlarını deyir. Şair özünü din xadimi kimi adlandıran Mirzə Həsəni qeyri müsəlmanlıqda suçlayaraq deyir:

Zülmə tərəfdar olan insanmıdır?
Xaini-islam müsəlmanmıdır?
Sən kibilən sahibi- vicdanmıdır?
İstədiyin fitnəmidir, qanmıdır? (5,s.623).

Şairin bu kimi tənqidi ruhlu şeirlərində, bütün satirik əsərlərində Mirzə Ələkbər Sabirin güclü təsirini görürük. Təsadüfi deyildir ki, onun geriliyi, bir sıra mənfi cəhətləri tənqid etdiyi şeirlərinin birinin başlığında «Ruhun şad olsun, Sabir!» sözləri yazılmışdır. Müəllif burada sözdə xalqın yolunda hər şeyindən keçməyə hazır olduğunu bildirən, əməldə isə yalnız öz mənafeyini güdməklə məşğul olan «millət qəhrəmanları» barədə deyir:

Sözdə, söhbətdə coşub hey asarıq, hey kəsərik,
Zənn edər gendə duran Rüstəmi-Zaldan betərik,
Amma iş görməyə gəldikdə nəzərdən itərik,
Çünki hap gopdan ibarətdir bütün qüdrətimiz (5,s.631).

Şair millətin, xalqın geridə qalmasının, onun başına gələn müsibətlərin əsas səbəbini elmə, maarifə qarşı biganə münasibətdə görür və şeirlərindən birində

Bax bizə, gör cümlə nə halətdəyiz,
Elm bizim, cümlə cəhalətdəyiz (5,s.596)

-deyərək vətən övladıbıb cəhalətdə qaldığını «özgələrə taci-sən» olan elmin qədir-qiymətni bilmədiyini ziyalı yanğısı ilə qələmə alır və

Elmü ədəbdir kişinin hörməti,
Hər iki dünyada olan r əfəti (5,s.596)

-qənaətinə gəlir. Şairin şərəf və ləyaqətinin onun elmindən hasil olduğunu bildirərək elmsiz insanı insan belə hesab etmir:

Ükumdan olub hasil şərafəti-insan
Kim, elmsiz kəsə caizmidir demək insan?! (5,s.597)

Şairə görə dünyanın nizama salınması da elmlə bağlıdır. O, «Ülumə bağlıdır, ey bixəbər nizami-cahan» deyir, belə hesab edir ki, hər bir insan elmə rəğbətlə yanaşmalı cəhalətdən uzaqlaşaraq yeniləşməli, cəmiyyət üçün faydalı zümrəyə çevrilməlidir:

Nə yaxıdır, kişi elm əhli olsa dünyada
Gər olsa elmi, qalarmı zəlilü sərfəndan?
Əgər varımsa hünər, elmü fəzl kəsb eylə
Ki, böylə qalmayasan zar, bisərü saman.
Ədəb qazan, götürəl, qardaşım, çəhalətdən,
Həmişə cəhldən uğrar bahari-ömrəxəzan (5,s.433).

İ.Tahir bir maarifçi şair kimi şeirləri ilə insanların zehninə, şüuruna təsir etməyə, onları maarifə yönəltməyə çalışır, mülayim davranışın, həlim sözlərin, yumşaq rəftarın nəticəsini görə bilmədikdə qəzəblənərək satirik bir şairə çevrilir, cəmiyyət və mühitdə olan eybəcərlikləri-nadanlığı, cəhaləti, xüdpəsəndliyi, təkəbbürü və sair qeyri-insani keyfiyyətləri bütün çılpaqlığı ilə sabiranə bir dillə qamçılayır:

Ah, kim basdı bizləri qəflət,
Günü-gündən alır bizləri nikbəz.
Qaldıq avarə, elmdən məhrum,
Özgələr etdi bizsləri sifqət.
Baş kəsib gündə adam öldürmək,
Gör, olub müslimin üçün adət (5,s.218)

İbrahim Tahir bir vətəndaş kimi millilik, milli hiss, vətən, xalq məhəbbəti son dərəcə güclü olduğu üçün O, hər vasitə ilə cəhalətdə yaşayan həmvətənlərini oyatmağa, onları fəal həyata qovuşdurmağa çalışmaqla olduqca ağır bir işin altına girdiyini özüdə hiss edir, qələminə güc verərək min illərin ətalət hopmuş zehinlərdə inqilab etməyə çalışırdı. Bunun üçün ayrı-ayrı fərdləri deyil, bütün milləti hədəf seçir, insanların təbiətində olan neqativ halları, onların yaratdıqları neqativ mühiti, yaşadıqları cəmiyyəti Sabir cəsarəti və qeyrəti ilə tənqid edir. Yeri gəldikdə satira atəşinə tuturdu. Heç şübhəsiz, onun bu mövzuda yazdığı «Millətimiz» rədifli müxəmməsini tərəddüd etmədən ədibin satirik şeirləri içərisində şah əsəri hesab etmək olar. Yeddi bənddən ibarət olan bu şeirin hər bəndində millətimizin nümayəndəsi olub, lakin cəmiyyətdə, onun ictimai həyatında baş verən bütün neqativ halların daşıyıcısı və səbəbkarı olan zümrələrin ən mənfur xüsusiyyətləri bütün çılpaqlığı, kəskinliyi ilə tənqid atəşinə tutulur. Şair şeirin birinci bəndində yetənə qulp qoyub, başqalarına xor baxanları, hamıya kəc baxıb öz eybini görməyənləri, sözbazları, ikinci bənddə bir-birinin ayağından çəkib irəli getməyə mane olanları, başqasının malına, mənsəbinə göz dikənləri, üçüncü bənddə güclünün hər sözünü qəbul edib, gücsüzün ətini, sümüyünü canavartək yeyənləri, birinin yanında əjdaha, başqasının yanında isə ağciyər qorxaq olanları, dördüncü bənddə lüzumu olmayan işlərə əl qatanları, qurda gücü çatmadığı halda aslana sataşanları. beşinci bənddə yalan vədlər verib hap-gopla özünü şişirdən, lakin real bir iş görməyi bacarmayan insanları, altıncı bənddə yalançı, vətənpərvərləri, vətənin malını düşmən malıtək talan edənləri, öz mənafeyi bir qəpik xeyiri üçün məsləkini qurban verənləri, yeddinci bənddə boş-boş yalan sözlər danışıb başı çıxmayan işə qarışanları və başqalarını böyük məharətlə, sabiranə şəkildə kəskin bədii dillə tənqid etmişdir. Şair sanki sonuncu bənddə yuxarıda sadalanan mənfi keyfiyyətlərin təsvirinə yekun vuraraq bütün bunların cəmiyyətin müəyyən zümrələri içində mövcudluğunu qəzəblə yekunlaşdırır:

Müxtəsər, fitrə, yalan, hərzə danişmaq bizdə,
Başımız çıxmayan hər karə qarışmaq bizdə,
Varımızdır nə desən, yoxdu fəqət qeyrətimiz
Barəkallah, necə fəxr etməlidir millətimiz (5,s.566).

Şairin bu qəbil şeirlərində böyük satirik şairimiz Sabirin birbaşa təsiri aydın hiss olunur. Heç şübhəsiz, onun bir satirik şair kimi formalaşmasında və ona başda Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir olmaqla «Molla Nəsrəddin» jurnalının və onun ətrafında toplaşan mütərəqqi qüvvələrin ədəbiyyatımıza gətirdikləri tənqidi realist ədəbiyyatın böyük rolu olmuşdur.

Şairin külliyyatı içərisində tarixlərin sınağından çıxmış, ən qədim dövrlərdən süzülə-süzülə günümüzə qədər gəlib çatmış və ədəbiyyatımızda vətəndaşlıq hüququ qazanmış didaktik-tərbiyəvi şeirlərə də xüsusi yer vermişdir. Tarix boyu klassiklərimiz hər bir insanın yaşadığı cəmiyyətin faydalı, layiqli vətəndaşı olması üçün ədəbiyyatımızın əski dövrlərdən mövzusu olan didaktikanı ən düzgün tərbiyə üsulu hesab etmiş və bu üsuldan qədərincə bəhrələnməyə çalışmışlar. Bu ənənəyə sadiq qalan İbrahim Tahirin yaradıcılığında da didaktika nümunələrinə rast gəlirik. İbrahim Tahir Musayevin ədəbi irsi XIX əsrin sonları – XX əsrin birinci yarısında poeziyamızın istedadlı nümunəsidir. İnanırıq ki, son dövrlərdə şairin əsərlərini kitab halında nəşr edilməsi onun ədəbiyyat tariximizdə layiqli yerini tutmasına kömək edəcək.

Ədəbiyyat siyahısı:

1. Qarayev Nəsrəddin. «XIX əsr Azərbaycan ədəbi məclisləri», Bakı: «Nurlan» 2012
2. Nəvvab Mir Möhün. «Təzkireyi –Nəvvab». Bakı: «Azərbaycan nəşriyyatı», 1998
3. Kərimov Raqub. Ön söz / «Tahir İbrahim əsərləri». Bakı: «Elm və təhsil» 2012
4. «Şərqi-Rus» qəzeti. 1903, 6 iyul, №41, s.4.
5. Tahir İbrahim. Seçilmiş əsərləri. Bakı: «Elm və təhsil», 2012
6. Əmrahoğlu Arif. «Dünənimin sözləri». Bakı: «Elm» 2006
7. Kərimov Paşa. Ön söz / İbrahim Tahir seçilmiş qəzəllər. Bakı: «Elm və təhsil», 2017

И.Валива

От жизни и творчестве Ибрагима Тахира

Резюме

Ибрагим Тахир Мусаев (1869-1943) один из азербайджанских поэтов, живший в конце XIX –начале XX веков, и продолжавших традиции классической литературы.

Он родился в городе Шуше, занимаясь поэтическим творчеством работал в различных учреждениях. В начале XX века поэт переезжает

в Баку и начинает активно публиковать свои стихи и статьи в местной прессе. Он писал в основном лирические стихи, в то же время в своих произведениях критиковал отсталость своих соотечественников, звал к прогрессу, просвещению. Ибрагим Тахир является переводчиком произведений ряда выдающихся представителей восточной литературы.

I.Valiyeva

About the life and creation of Ibrahim Tahir

Summary

Ibrahim Tahir Musayev (1869-1943) was one of the Azerbaijani poets who lived in the late XIX – early XX centuries, and continued the traditions of classical literature. He was born in the city of Shusha, engaged in poetic creativity worked in various institutions.

At the beginning of the 20th century, the poet moved to Baku and began to actively publish his poems and articles in the local press.

He wrote mostly lyric poetry, while at the same time criticizing his backwardness inhis works, he called his compatriots to progress and enlightenment. Ibrahim Tahir is the translator of a number of outstanding representatives of Eastern literature.

Rəyçi: Paşa Kərimov
Filologiya elmlər doktoru

LOĞMAN ƏLİYEV
AMEA Nizami adına
Ədəbiyyat İnstitutunun doktorantı
loqman 01.04@mail.ru

HUMANİZM ƏLİ İLDIRIMOĞLU YARADICILIĞINDA MİLLİ-MƏNƏVİ ÖZÜNÜDƏRKİN ƏSAS XÜSUSİYYƏTLƏRİNDƏN BİRİ KİMİ

Açar sözlər (Azərbaycan dilində): mənəvi həyat, humanizm, milli-mənəvi özünüdərk, psixoloji yaşantılar, insan haqları, azadlıq, sosial ədalət
Ключевые слова (на русском языке): нравственная жизнь, гуманизм, национально-нравственное самосознание, психологические переживания, права человека, свобода, социальная справедливость
Key words: moral life, humanism, national-moral self-esteem, psychological experiences, human rights, freedom, social justice

Humanizm problemi, həmçinin onun milli-mənəvi özünüdərklə münasibətləri müxtəlif yazıçılar tərəfindən həmişə ön plana çıxarılıb. Əli İldırımoğlu əsərlərində bu problemə özünəməxsus şəkildə yanaşır, onun mənasını, məntiqini aşkara çıxarmağı başlıca məqsəd kimi qarşıya qoyur. Bu da onun ədəbi fəaliyyətinin nəticəsinə və yaratdığı obrazların hər birinin həyat tərzinə təsir göstərir. Ümumilikdə, yazıçı əsərlərində bütün obrazlara humanizmlə, ümumi mənafe – milli-mənəvi özünüdərk düşüncəsilə yanaşır. Onun əsərlərində milli-mənəvi özünüdərklə humanizmin vəhdəti belə bir ümumi nəticəyə gətirib çıxarır ki, onların hər ikisinin son məqsədi şəxsiyyəti hərtərəfli inkişaf etdirmək, milli-mənəvi dəyərləri qorumaq, Azərbaycan insanının qabiliyyətini və potensialını açmaq, ona özünü təsdiq etmək imkanı yaratmaqdır. Yazıçı ədəbi yaradıcılıqla bu məqsədə nail olmaq üçün müəyyən vasitələr və yollar axtarır, cəmiyyətin inkişafında, insan və təbiət münasibətlərində vacib olan ümumi cəhətlər tapmağa çalışır.

Əli İldırımoğlu yazır: "Qaş qaralır, bağ-bağatın yaşıllığı, təzəcə dənzərən gilasın qızartısı, suların maviliyi gözdən itirdi. Əkin-biçin adamları iki-bir, üç-bir çəkilib gedirdi. Qənşərdəki yamaclarda naxırı haraylayan çoban-çoluğun hənirtisi daha gəlmirdi. Çayın qıjıltısından, yaxınlıqdakı dəyirmanın uğultusundan, bir də ki, höcət Cahangirin külüngünün, düsərinin, belinin cingiltisindən başqa heç nə eşidilmirdi. Sinə yerdə hörüklənmiş sarı madyan lal-dinməz dayanıb sahibinə tərəf boylanır və sanki Cahangirin külüngünün, düsərinin, belinin səsini dinləyirdi. Sarı madyan bəlkə də balasının xiffətini çəkirdi. Neçə gün bundan qabaq Cahangir madyanı çidarlayıb, el yolundan yuxarıdakı örüşə buraxmışdı. Başı işə qarışdığından

madyan üçaylıq balasıyla irəlidəki dərəyə enmişdi. Və pusquda dayanan yalquzaq günün günorta çağı qulunu parçalayıb yemişdi. Cahangir onda duyuq düşmüşdü ki, leşin üstünə qarğa-quzğun tökülüb. At çidarlı olmasaydı, bəlkə də qaçıb birtəhər balasını canavarın ağzından qurtarardı. O gündən bəri sarı madyan düz-əməlli otlamırdı. Sakitcə dayanıb hara isə baxır, hey baxırdı. Bəlkə də balasından ümidini üzməmişdi. Ümidliydi ki, indi harda olsa üz-üzə dayanan dağların, qayaların arasından çıxıb qaça-qaça, hələ bərkiməmiş caydaq ayaqları bir-birinə dolaşa-dolaşa, kişnəyə-kişnəyə gəlib, acgözlüklə anasının dolu yelininə təpiləcək. Sarı madyan bir şıqqıltı eşidən kimi tez sağa-sola döyükür, qulaqlarını şəkləyib həmin səmtə baxırdı. Ancaq südəmər körpəsini görmürdü ki, görmürdü. Sarı madyanı dərd götürmüşdü. O gündən bəri xeyli də arıqlamışdı" (4, 331-332).

Burada yazıçı humanizmi həm Höcət Cahangirin işinə, gücünə, əməyinə münasibətində üzə çıxır, həm də təbiətə, ətraf mühitə məhəbbətində. Onun gördüyü işə şövqü, məhəbbəti, balasını itirmiş sarı madyana iztirab dolu münasibəti özünü dərk edən, ətrafını duyan, ictimai kolliziyaların içində yaşayıb onun fəal iştirakçısına çevrilən insanın yaşantılarıdır. Bundan başqa, sarı madyanın iztirabları, bala dərdi, bala həsrəti yazıçı tərəfindən çox səmimi, duyğulu və xəfif bir ağrıyla nəql edilir. Bu humanızm – insan qəlbinin fəlsəfi və estetik tərcümanı təbiətə, onun canlı varlıqlarına həssas münasibət sonrakı hadisələrdə və demək olar ki, bütün əsər boyu bədii təcəssümə çevrilir.

Milli-mənəvi özünüdərkin humanizmlə əlaqəsinin təhlili həm də mühüm elmi və praktiki maraq doğuran problemlərdəndir. Şəxsiyyətin sosial mahiyyətini əks etdirən mənəvi strukturunda milli-mənəvi özünüdərk kimi, humanizm də müstəsna dərəcədə böyük rol oynayır. Bunu araşdırarkən, onları sıx əlaqədə və qarışılıqlı təsirdə götürmək tələb olunur. Əks halda, həmin obyektiv və subyektiv istəklərin mahiyyətini, ictimai inkişaf baxımından əhəmiyyətini hərtərəfli araşdırmaq mümkün olmaz.

Ədibin nəsrində milli-mənəvi özünüdərklə humanizmin qarşılıqlı münasibətlərini araşdırarkən, öncə ikinci anlayışın məzmununa qısa da olsa nəzər salmaq lazım gəlir. Humanizm ümumbəşəri dəyər və əxlaq prinsipi olmaqla, insana hər cür qayğı göstərilməsinə, cəmiyyətin ümumi qaydaları ilə yaşayan hər bir fərdin mənəvi maraqlarının təmin olunmasına xidmət edir.

Ə.İldırımoğlunun "Dərd" kitabının ideya-estetik qayəsi də humanizmdir. Kitaba daxil olan povest və hekayələr gənclər və yeniyetmələrə mənəvi saflıq, əyilməzlik, mərdlik keyfiyyətləri təlqin etməklə yanaşı, cəmiyyətdəki riyakarlığa, bürokratizmə qarşı dərin nifrət hissi yaradır. Müəllif həyatda rastlaşdığı bu cür mənfilikləri özünə "dərd" edir və onu bədii, dramatik, komik lövhələrlə açıqlayıb qəzəblə car çəkir, həm də yeni nəsli mənəvi saflığa, mübarizəyə, humanizmə səsləyir.

““Dərd” kitabının dərdlərini yüngülləşdirən vasitələrdən biri də müəllifin obrazlı təfəkkür tərzi, özünə qarşı yüksək tələbkarlığıdır. O yaxşı bilir ki, ədəbi əsərlərin ilk gözəllik şərti bədiilikdir. Bədiiliyin isə imkanları məhdud olduğu qədər də çətin və mürəkkəbdir. “Dərd”in müəllifi bizi inandıra bilir ki, min dərdin min bir də dərmanı var. Bu kitaba yüklənmiş dərdlərin min bir dərmanından biri yumordur, bir başqası dağ çeşməsi kimi dupduru dildir. Üçüncüsü, xalq həyatının bitməz-tükənməz xəzinəsindən gələn müdrik kəlamlardır. Sənətin sehrli dünyası belədir” (1).

Hər şey Şərqdən başlayır. Küləklər, su axınları, fikir cərəyanları. İdeya və düşüncələr sisteminin Şərqdə formalaşması, artıq mübahisə mövzusundan çıxmışdır. Qərbin ideya və fikir cərəyanları, nəzəri və praktiki biliklər sisteminin təməl prinsipləri də oturuşmuş Şərq düşüncə tərzindən qaynaqlanır. Humanizm deyilən bəşəri düşüncə və dəyərlər toplusunun mənəvi vətəni də Şərqdir. Bu fikir və düşüncə sahəsi uzun əsrlərin yolçuluğunda formalaşmış və Qərbin müasir düşüncə sisteminin yaranmasında əsas özək rolunu oynamışdır. Bunun təsdiqi üçün uzağa getmək lazım deyil, eləcə müqtədir Qərb mütəfəkkirlərinin öz əsərlərinə nəzər yetirmək kifayətdir. Konkret Azərbaycan dünyagörüşünə, mənəvi-əxlaqi, elmi-fəlsəfi özünüdərkinə gəldikdə, humanizm ideyalarının qaynaqları qədim miflərimizə, nağıl və dastanlarımıza, başqa folklor nümunələrimizə, daha geniş mənada “Avesta”ya, “Kitabi-Dədə Qorqud”a və digər fəlsəfi, ədəbi-bədii fikir mənbələrimiz gedib çıxır. Xüsusən “Kitabi-Dədə Qorqud”da milli-mənəvi dəyərlər son dərəcə kamil və bitkindir. “İdeya baxımından da “Kitabi-Dədə Qorqud” dastanları zəngin mənəviyyat xəzinəsidir. Dastanda mərdlik, vətənpərvərlik, qəhrəmanlıq, insana sevgi, ata-övlad münasibətləri yüksək bədii səviyyədə ifadə olunmuşdur. Bu mənada “Kitabi-Dədə Qorqud” Azərbaycan xalqının zəngin və bütöv mənəvi simasını dünyaya təqdim etdi. Eyni zamanda bu dstanlarda öz əksini tapmış böyük əxlaqi-mənəvi dəyərlər dünyanın digər xalqlarının da ən yaxşı keyfiyyətlərini özündə əks etdirir. Dastanı oxuyan hər bir kəs, hansı coğrafiyada yaşamasından asılı olmayaraq, öz xalqına məxsus olan ali insani dəyərlərin “Kitabi-Dədə Qorqud” dastanlarında ibrətamiz həyat hadisələrinin və təsirli obrazların simasında bədii səviyyədə əks etdirildiyinin şahidi olur. Bu mənada “Kitabi-Dədə Qorqud” dastanları dünya miqyasında həmişə aktual səslənən ideyaları, müasir çağırışları, əbədi dəyərləri özündə əks etdirən böyük epos nümunəsi kimi mühüm əhəmiyyətə malikdir” (3).

Sonralar isə bu, böyük Azərbaycan şairi Nizami Gəncəvi yaradıcılığında tam orijinal və mükəmməl bir sistem kimi təzahür edir. XIII-XIV əsrlərdə meydana gəlmiş Avropa humanizminin formalaşmasında Nizami Gəncəvinin rolu tədqiqatçılar tərəfindən yekdilliklə dəstəklənir. Təsadüfi deyil ki, böyük alman şairi Höte də Nizami ideyalarının, poetik fikir və düşüncələrinin Avropa humanizminə ciddi təsir göstərdiyini səmimi şəkildə etiraf edərək

onun haqqında yüksək fikirlər soyləmişdir. “İran ədəbiyyatının heyranı böyük alman şairi Höte külliyyatının “Daş West-Ostlicher Diwen” adını daşıyan cildində İran ədəbiyyatının ustadlarını bir-bir incələyərək... belə yazmışdır: Nizami yüksək düha sahibi, incə bir zəkadır...” (7). Məhz Əli İldırımoğlu da belə bir ənənənin davamçısı olaraq əsərlərində humanizmi daim tərənnüm etmişdir.

Onu da qeyd etmək lazımdır ki, indiki vaxtda humanizmlə milli-mənəvi özünüdərkin vəhdətdə götürülməsi Azərbaycan ədəbi fikrində o qədər də yeni məsələ deyildir. Hələ XIX əsrin sonları, XX əsrin əvvəllərində Azərbaycan ədəbiyyatının mütərəqqi düşüncə sahiblərinin ideya irsində humanizmin milli-mənəvi özünüdərklə ayrılmaz formada təsəvvür olunması elmi-nəzəri fikrin əsas mənbələrindən birini təşkil etməyə başlamışdır. Müasir dövrdə də həmin anlayışların vəhdətdə mənalandırılması zəruri hal alır. Hər şeydən əvvəl, hazırda sosial proseslərin insanlıq ölçüləri baxımından mənalandırılmasının əhəmiyyəti durmadan artır. Bu, ölkəmizin daxili həyatında baş verən əsaslı dəyişikliklərin miqyasının genişlənməsi ilə yanaşı, onların xarakter və xüsusiyyətlərinin də yeniləşməsi ilə izah olunur.

“Ümumbəşəri şüur, ümumibəşəri özünüdərk əsrlər boyu insanların dünyaya münasibətinin rasionallaşmış ifadəsi olmuşdur. Lakin insanın dünya haqqında bilikləri cəmiyyətin müxtəlif inkişaf pillələrində təzahur edir. Deməli, fəlsəfə məhz ən ümumi biliklər əsasında, ən ümumi qanunların dərki sayəsində dünyanın ümumləşmiş mənzərəsini yaratmağa çalışır. Hər bir xalqın milli fəlsəfi fikri onun hər bir üzvünün fəlsəfi fikrindən yox, xalqı təmsil etmək səlahiyyəti olan, milli ruhun daşıyıcısı, milli özünüdərk səviyyəsinə qalxmış şəxsiyyətlərin – filosofların, yazıçıların fəlsəfi təlimlərindən ibarət olur. Ümumbəşəri özünüdərkdən fərqli olaraq milli özünüdərk millətin özü-özünü dərketməsidir, özünü tanımasıdır” (6).

Əli İldırımoğlu yaradıcılığında ədəbi anlam milli-mənəvi özünüdərk, humanizm və azadlığın mənası milli-mənəvi dəyərləri qoruyub saxlamaq, insanın əsas hüquqlarına təminat vermək, mövcud cəmiyyətdə ədalət hüdudları daxilində zəif insanları müdafiə etmək, milli ictimai dəyərlər əsasında şəxsiyyətə, özünüdərkə, özünütəsdiqə və özünürellaşdırmaya imkan yaratmaqdır. Heç bir mübaliğəyə yol vermədən demək olar ki, bu istiqamətdə Ə.İldırımoğlu əsərləri ilə cəmiyyətə böyük ximətlər göstərə bilir. O, yazır: “Cahangir üçatılana baxanda xəyalı çox uzaqlara getdi və özü ilə danışırmış kimi: “Kim bilir, bu silah neçə əldən-ələ keçib?! Kimləri qanına qəltan eləyib?! Şükür kərəminə, ilahi! Necə oldu ki, bu şeytan əməlini yaratdın?! Bax, bu düsər də, lom da, külüng də, üçatılan da hamısı dəmirdəndir. Biri ilə arx çəkilir, yol salınır, ev tikilir, torpaq becərilir, ruzi qazanılır... Biri də ki, qan tökür, anaların nə zillətlə dünyaya gətirdikləri, yuxusuz gecələrdə neçə dəfə yaş bələyini dəyişdiyi, aylarla döşündən süd

verdiyi, böyür-başına yastıq qoyub güclə oturtduğu, əlindən tutub yeriməkyüyürmək öyrətdiyi, nə müsibətlə ərsəyə yetirdiyi bir igidi göz qırpımında o dünyalıq eləyir. Atalar oğulsuz, gəlinlər ərsiz, körpələr sahibsiz qalır... Bəndəni yaradırdın, ölümsaçan bu şoğəribi neynirdin, ilahi?!" Cahangir tapdığı üçatılanı ikrahla bürüb-büküb belə qərara gəldi ki, tüfəngə ağır bir daş bağlayıb, alt tərəfdə qaynayıb coşan çayın dərin yerinə atsın" (4).

Bu sadə, təbii, real və ibrətamiz ifadələrin alt qatında dərin fəlsəfi məna, müdrik hikmət və böyük humanizm yatır. Dünyəvi fəlsəfə ayrı-ayrılıqda hər bir insanın dünyagörüşü, özünüdərk və özünüifadəsindədir. Höcət Cahangirin bu sadə kəndçi düşüncələrində, əslində vəsfə gəlməyən dərin fəlsəfi hikmətlər var. Dünyaya, yaşayışa, insanın ömür salnaməsinə, həyat məntiqinə yönəlik bu düşüncələr əslində sadə bir kənd adamının dilindən səslənən, yaranışın, həyatın gərdişi, mənası, "olum və ölüm" konsepsiyasının müqayisəli təhlilidir. Nə olsun ki, Höcət Cahangir adi savadsız bir kəndçidir, düsərdən, beldən, külüngdən, başqa heç nə tanımır. Özünü ki, tanıyır, dərk edir, ətrafını görüb bilir, insanın haradan gəlib hara getdiyini, nə üçün gəlib nə üçün getdiyini ki fəhm edir. Sadə kənd adamı sadə fəlsəfəsiylə həyatın ən dərin humanist mahiyyətinə işıq salır, sadə düşüncəsiylə bütün mürəkkəbliklərin kökünə gedib çıxa bilir. Ən böyük özünüdərk elə bu deyilmi? Bəli, humanist yazıçı bu məqamlarda qalib və yenilməzdir. Ə.İldırımoğlunun əsərlərində milli-mənəvi özünüdərk və humanizm arasında sıx əlaqə və qarşılıqlı təsir fundamental xarakter daşıyır, onların mənası, məzmunu real həyatı əks etdirir.

Ədəbiyyatın missiyası səmimiyyət və xeyirxahlıqdır. Ədəbiyyat özü başdan-başa humanizmdir. U.Folkner müsahibələrinin birində: "Sizə nə ad verməmişlər: naturalist, ənənəçi, simvolist və s. Maraqlıdır, bəs Siz öz fikrinizlə, hansı məktəbə mənsubsunuz?" – sualına, "mənsub olduğum və ya mənsub olmaq istədiyim məktəb humanistlər məktəbidir", – deyir (8). Əli İldırımoğlu da öz yazıçı məziyyətlərilə bu humanistlər nəslinin davamçılarındandır. Humanizm, xeyirxahlıq, canyananlıq və digər yüksək əxlaqi məziyyətlər xalqımızın ayrılmaz mənəvi sifətidir. Bu keyfiyyətlər Əli İldırımoğlunun əsərlərində ədəbi-estetik bir sistem kimi özünü göstərir. Bədii-estetik harmoniya onun hər bir əsərində özünəməxsus ahəngdə təzahür edir və milli-mənəvi özünüdərkin atributuna çevrilir. "Daş yağan gün" romanı da bu mənada özünəxas ştrixlərlə zəngindir. Əsərdəki hadisələr və insan taleləri humanizm və əxlaq prinsiplərinə tabe etdirilib və yazıçı himayəsinə sığınıb. Əsər belə başlayır: "İlıq yaz axşamı. Bağlı-bağatlı kənd alma, gilənar, gilas çiçəklərinə bürünmüşdü. Naxır örüşdən təzəcə qayıdırdı. Çiyni sənəkli qız-gəlin şən əhval-ruhiyyə ilə bulaq başına tələsirdi. Məscidlərin minarələrindən azan səsi gəlirdi. Möminlər axşam namazına hazırlaşırdılar. Güney məhəllələrdəki həyətlərin birində toy məclisi qurulmuşdu. Çal-çağır səsi

kəndi başına götürmüşdü. Aşıqların sazı-sözü qəlbləri ehtizaza gətirirdi. Bir neçə saatdan sonra gəlin atlanıb təntənə ilə bəy evinə yola salınmalıydı. Bu əsnada ara vermədən atılan top mərmilərinin qulaqbatırıcı uğultusu kəndi tələtümə gətirdi. Təpədən dırnağa qədər silahlanmış ermənilər dörd bir tərəfdən qara qarışqa kimi kəndi mühasirəyə aldı... Toy yasa döndü. Top mərmiləri evlərin külünü göyə sovurdu. Güllü-çiçəkli bağ-bağatların xoş rahiyyəsi yayılan həyət-bacaları barıt qoxusu bürüdü. Məscidlər, mədrəsələr yerlə-yeksan edildi. Qadınların məşum naləsi, uşaqların tükürpədici çığırtısı, mal-heyvanın mələrtisi, itlərin ulartısı ərşə qalxdı. Minlərlə insan bir gecənin içində ev-eşikli odlara qalandı. Kəsilən toy qoyunlarının qanı insan qanına qarışıb, balaca-balaca yumru daşları diyirlədirdi" (5).

Ədibin yaradıcılığına xas dəqiq, real və həm də obrazlı təhkiyə... Sözlə çəkiln tablo... Sadəlikdə mürəkkəb bədii təxəyyül... Sətirlər arasından süzülüb gələn və daxili bir harayla səslənən humanizm... Romana proloq təsiri bağışlayan bu giriş özlüyündə, sanki manifestdir. Haqqa, ədalətə, humanizmə bir çağırışdır.

Ümumiyyətlə, humanizmlə, mənəvi-əxlaqi dəyərlərlə yoğrulmuş Əli İldırımoğlu yaradıcılığı xalqımızın milli-mənəvi yaddaşı kimi boy göstərir.

Ədəbiyyat:

1. Azərbaycan Respublikası Konstitusiyası, Bakı: Qanun, 2009, 68 s.
2. Aristotel, Poetika, Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1974, 192 s.
3. "525-ci qəzet", Həbibbəyli İ., Qorqud müdrikliyi və müasirlik. Bakı: 3 iyun 2017-ci il
4. İldırımoğlu Ə., Aqibət, Bakı: Nurlan, 2007, 368 s.
5. İldırımoğlu Ə., Daş yağan gün, Bakı: Elm və təhsil, 2010, 240 s.
6. Orucov Ə., Azərbaycan xalqı milli özünüdərk yollarında: XIX əsrin sonu – XX əsrin əvvəlləri, Bakı: Avropa, 2012, 251 s.
7. Rəsulzadə M.Ə., Azərbaycan şairi Nizami, Bakı: Azərnəşr, 1991, 232 s.
8. Söz həmişə diridir, Sənət adamlarının sözü və əməli, Bakı: Yazıçı, 1993, 176 s.

Saytlar

1. http://www.aliildirimoglu.az

Логман Алиев

Гуманизм в творчестве Али Илдырымоглы как одна из главных черт национально-нравственного самосознания

Резюме

В этой статье, посвященной представлению гуманизма и человеческих идеалов как один из основополагающих принципов национально-нравственного самосознания в творчестве Али Илдырымоглы, автор справедливо отмечает, что эти литературно-философские принципы дополняют друг друга и не отделены друг от друга. В качестве доказательства всего этого автор обращаясь к творчеству Али Илдырымоглы приводит цитаты из этих источников, а также ссылаясь на мировой опыт, основывается на идеях ученых и философов, и пытается объяснить укоренившийся философский смысл гуманизма сделав экскурс в историю. В этом смысле автор анализирует творчество Али Илдырымоглы в синтезе национальных ценностей, гуманистических национально-нравственных качеств нашего народа. Это помогает ему получить логических результатов.

Loghman Aliyev

Humanism in the creativity of Ali Ildirimoghlu as one of the main features of national-moral self-esteem

Sammary

In this article dedicated to the role of humanism and human ideals as one of the fundamental principles of national-moral self-esteem in the creativity of Ali Ildirimoghlu, the author rightly points out that these literary-philosophical principles complete each other and do not exist separately . As proof of all this, the author cites the sources of the appeals to the creativity of Ali Ildirimoghlu and is based on the ideas of scholars and philosophers, referring to world experience, trying to explain the philosophical meaning of humanism, looking at history, as well.

In this sense, the author analyzes the creativity of Ali Ildirimoghlu in the synthesis of national values, human moral and ethical qualities of our people. This also helps to get logical results.

Rəyçi: Rəhim Əliyev
Filologiya üzrə elmlər doktoru, professor

MƏNSURƏ AĞAYEVA
Bakı Dövlət Universiteti
baku1001@mail.ru

U.FOLKNERIN HEKAYƏLƏRİNİN AZƏRBAYCAN DİLİNƏ TƏRCÜMƏSİ

Açar sözlər: U.Folkner, ədəbiyyat, tərcümə, yaradıcılıq , hekayə .
Key words: W.Faulkner, literature, translation , story, activity.
Ключевые слова: У.Фолкнер, литература, перевод, рассказ ,творчество.

XX əsr dünya ədəbiyyatının dahi yazarlarından olan U.Folknerin əsərlərinin bütünlüklə və peşəkarlıqla orijinaldan tərcümə olunması və Azərbaycan oxucusuna çatdırılması olduqca əhəmiyyətli və gərəklidir.

Folknerin həm hekayələri, həm də romanlarının sujet xətti real həyatdan götürülmüşdür. Folkner Yoknapatofa saqasını yaradarkən öz qarşısına xəyalında uydurduğu bu məmləkətin konkret tarixini yaratmağı məqsəd qoymamışdı. Ancaq məsələnin obyektiv cəhəti bundadır ki, Folknerin böyüdüyü diyara bənzəyən Yoknapatofanin tarixi bütün detallari ilə xronoloji ardıcıllıqla təsvir edilir və təsvir olunan hadisələr bu vilayətin təqribən bir əsrə yaxın tarixini əhatə edir.

K. Nəzirlinin tərcümə etdiyi "Həyətdə qatır" hekayəsi dil və üslub, təsvir və təhkiyə baxımından uğurlu hesab edilə bilər. Tərcüməçinin söz seçimi, fikrin axarını ahəngdarlıqla izləmək bacarığı bu hekayədə açıqca hiss olunur. "**Birdən inək qeyb oldu, elə bil küləkli havada kibrit çöpü söndü. Məntiqlə düşünmək olardı ki, inək yox olmadı; o, sadəcə tövlədə gizləndi. Çünki tövlədən elə bir qorxunc böyürtü gəldi ki, bunu təsvir etmək çətin idi; sanki kimsə arfanın, yaxud da liranın simlərini qopardırdı** "[1,5,6] .

" The cow's head likewise had a quality transient and abrupt and unmundane. It vanished, sucked into invisibility like a match flame, though the mind knew and the reason insisted that she had withdrawn into the shed, from which, as proof's burden, there came an indescribable sound of shock and alarm by shed and beast engendered, analogous to a single note from a profoundly struck lyre or harp [3]

Bu müqayisədə qara rənglə fərqləndirdiyimiz hissəyə - Azərbaycan dilindəki tərcüməyə diqqəti cəlb etmək istədik. **"Birdən inək qeyb oldu, elə bil küləkli havada kibrit çöpü söndü."** Məntiqlə düşünmək olardı ki, inək yox olmadı; o, sadəcə tövlədə gizləndi. Çünki tövlədən elə bir qorxunc böyürtü gəldi ki, bunu təsvir etmək çətin idi; sanki kimsə arfanın, yaxud da liranın simlərini qopardırdı" – parçasındakı cümlələr ayrı-ayrılıqda bitkin

fikir ifadə edən nitq parçası kimi görünsə də, əslində, nəinki bədii, obrazlı ifadə, hətta məna-məzmun baxımından da məntiqi tamamlanma hiss olunmur. "Məntiqlə düşünmək olardı ki, inək yox olmadı; o, sadəcə tövlədə gizləndi" – cümləsini müəllif sonrakı hissədə "çünki" səbəb bağlayıcısı ilə aydınlaşdırmaq istəyir, lakin dolaşıq və qeyri - məntiqi bir situasiya ilə qarşılaşmalı oluruq: "Çünki tövlədən elə bir qorxunc böyürtü gəldi ki, bunu təsvir etmək çətin idi; sanki kimsə arfanın, yaxud da liranın simlərini qopardırdı".

K.Nəzirli hekayədə obrazlılıq, mövzuya və ideyaya estetik yanaşma prinsiplərini ustalıqla reallaşdıra bilmişdir. Məsələn, "**Birdən inək qeyb oldu, elə bil küləkli havada kibrit çöpü söndü"-** kimi maraqlı bənzətmələr, demək olar ki, hekayədə çoxdur. Müəllif U.Folkner obrazlılığını dilimizin bədii imkanları çərçivəsində Azərbaycan oxucusuna hiss etdirə bilmişdir. U.Folknerin "Həyətdə qatır" hekayəsindəki kəskin dramatizm və sarkazm, insan xislətinin eybəcərliyindən doğan şiddət, qəzəb və rəzillik kimi psixoloji məsələlər U.Folknerin orijinalında olduğu kimi əks-səda verir: "O vaxt hadisədən qatırların yalvarışlı naləsi və böyürtüsü gəldikdə xəbər tutdu; qatırların kəsilmiş başları, xurd-xışıl olmuş cəmdəkləri, qırılan dırnaqların şaqqıltısı bədbəxtlikdən xəbər verirdi. Qatırları qovan adamların qəzəbli hay-küyü eşidilirdi. Snops özü sürünün lap arxasınca qayğılı-qayğılı, tövşüyə-tövşüyə gəlirdi. Şəhərdə danışırdılar ki, bu adam qatır sürüsündən dəhşətli dərəcədə qorxur, lakin onlardan çox məharətlə gəlir götürür" [1, 7] .

Aşağıdakı tərcümədə isə realilərin işlənməsinə fikir verək: "Soyuq, **melassa** (qara patka, mət - şəkəri çıxarılmış çuğundur tullantısı) kimi dadsız viski boğazına axdı. Viski şüşəsini yerinə qoydu, kamoda söykənib başını aşağı saldı, heç nə fikirləşmədən, bəlkə, özü də bilmədən gözləməyə başladı; bəlkə də, ümumiyyətlə, heç nəyi gözləmirdi. Sonra içdiyi viski bədənində qızışmağa, özü isə yavaş - yavaş başını bulamağa başladı, içi - içalatı tədricən qızışıb hallandıqca düşüncəsi də o cür yavaş - yavaş hərəkətə gəldi" [2,140].

"Əyalətdəki **butlegerlər** (qanuna zidd olaraq spirtli içki alveri ilə məşğul olan adam) də sənə "ser" deyir, sən özün də polisləri, sadəcə, öz adları ilə çağırırsan" [2,368].

"On ildən sonra Qərbdən Missuriyə gəlib çıxmışdı. Gələndən üç həftə sonra, Kentukki yolu ilə Karolinaya mühacirət edən **hugenot** (əsrin fransız protestantları –M.A.) ailəsindən bir qızla evlənmişdi" [2, 151].

"Yaxınlıqda **unitarian** (Unitarian – təriqət adı; unitarianlar Allahın üç sifətdə birləşdiyini inkar edir, onun tək olduğuna inanır, dini düşüncə oxuya bilmirdi" [2,151].

"1866-cı il idi. Ailə bir daha köçüb, Qərbə tərəf yüz mil aralıda məskən salmışdı, oğul isə oturacağının altında bir cüt köhnə ayaqqabı və

içərisi qızıl tozu, pul sikkəsi, külçə daş-qaşla dolu iki dəri kisə gizlədilən **tarantası** (üstü örtülü minik arabası - M.A.) Kanzas və Missuri boyunca irəli-geri qovaraq onları tapanacan iki ay vaxt itirmişdi" [2, 153]. "Axşam yeməkdən sonra Nataniel uşaqla arvadını yatmağa göndərib danışmağa başladı. Çırağın başına yığışmışdılar: ata, bacılar və axır ki, evə qayıdan oğul. Orada bir dənə olsun **anqlikan** (İngiltərədə protestant dininin bir qolu - M.A.) keşişi yoxudu, Nataniel izah etdi, hamısı katoliklər idi." [2,154], "Sabiq kölə sahibi olan Sartoris adlı bir **konfederat (**ABŞ-da Vətəndaş müharibəsi zamanı Cənub ştatlarının tərəfində döyüşən ordu mənsubları - M.A.) zabiti bu evdən iki mil aralıda – şəhərdə onu zəncilərin seçkilərdə iştirakı məsələsi üstündə tapança ilə vurub öldürəndə iyirmi yaşı təzəcə tamam olmuşdu."[2,155], "Sifətləri bir-birindən fərqlənməyən, həris gözlərində alovun sönük közü artıq tüstülənib alışmağa başlayan adamlar yavaş-yavaş şerifin, köməkçisinin və zəncinin ətrafına yığışdılar. Elə bil, onların beş hiss üzvünün hamısı, **apofeozda** (bəzi teatr tamaşalarında axırıncı təntənəli səhnə - M.A.) olduğu kimi, yalnız təkcə görmə üzvündə cəmləşmişdi, onların arasında gəzişən sözlər isə, sanki, küləkdən, havadan doğulurdu" [2,180]. Tərcüməyə cəlb edilən dilləri araşdırsaq görərik ki, buradakı dillərin özünəməxsus qrammatik və leksik fərqləri vardır. Tərcümənin birinci məqsədi orijinal mətndə və ya nitqdə olan fikri olduğu kimi auditoriyaya və ya oxucuya çatdırmaqla keyfiyyətli bir tərcüməyə imza atmaqdır. İstər şifahi, istərsə də yazılı tərcümədə ilk rastlaşdığımız problem dillər arasında cümlə və struktur fərqindən yaranan problemdir. Məsələn, ingilis dilində fikir feildən asılı olur və həmin feildən sonra gəlir. Bu problem daha çox şifahi tərcümədə özünü göstərir.

U.Folknerin hekayələrinin tərcümələrini romanlarının tərcüməsindən daha uğurlu, oxunaqlı hesab etmək olar. Müxtəlif dil ailələrinə və qruplarına daxil olan Azərbaycan və ingilis dilinin qarşılıqlı "anlaşması"nı bədii mətn çərçivəsində - U.Folknerin hekayələri timsalında aydınca görmək olur. Müəllifin "Quraq sentyabr" hekayəsinin tərcüməsində oxuyuruq: "Sentyabr ayında bir axşam, son altmış iki yağışsız günün doğurduğu qıpqırmızı, qanabənzər qürub çağında bu şayiəmi, xəbərmi, nə idisə, samanlığa düşən od kimi sürətlə yayıldı**.** Nəsə Mini Kuper və bir zənci barəsindəydi. Üstünə hücum çəkmiş, təhqir etmiş, qorxuzmuşdu: həmin şənbə axşamı bərbərxanaya toplaşanlardan heç biri həqiqətən nə baş verdiyini dəqiq bilmirdi; tavandan asılan ventilyator nə qədər bərk fırlansa da, içəridəki kəsif havanı heç cür təmizləyə bilmir, işlənmiş pomada və losyon iyi ,buradakı adamların nəfəsləri və tər iyləri ilə ağırlaşan havanı təkrar - təkrar qaytarıb onların üzlərinə vururdu.

– Bu heç cür Uill Meys ola bilməz, – bərbər dedi. O, ortayaşlı, qum rəngli saçları olan mülayim sifətli arıq kişi idi və həmin anda müştərinin

başını qırxırdı. – Uill Meysi mən tanıyıram. O, yaxşı zəncidir. Elə miss Mini Kuperi də tanıyıram.

– Onun barəsində nə bilirsən? – "ikinci bərbər" soruşdu.

– O kimdir? – müştəri dedi. – Cavan qızdır?

– Yox, – bərbər dedi. – Məncə, qırx yaşı olar. Ərə getməyib. Buna görə də inanmıram ki…

– Heç inanma, – tər ləkəli ipək köynəyi olan yekəpər, cavan oğlan hirslə dedi. – Bəyəm siz ağ qadını qoyub zəncilərin dediyinə inanacaqsınız?

– Mən inanmıram ki, bunu Uill Meys etmiş olsun, – bərbər dedi. – Uill Meysi tanıyıram.

– Bəlkə onda bunu kimin elədiyini də bilirsən. Bəlkə, sən, zənci məftunu əclaf, onu artıq şəhərdən də çıxarmısan?

– Mən, ümumiyyətlə, kiminsə kiməsə nəsə elədiyinə inanmıram. İnanmıram ki, belə bir hadisə olub. Bir özünüz fikirləşin, uşaqlar: bəyəm elə olmurmu ki, ərsiz qarıyan qadınlar birdən elə şeylər uydururlar ki, kişilər…

– Lənətə gələsiniz, onda siz necə ağ adamsınız?! – müştəri dedi. O hətta üstünə salınmış ağın altında qurcalandı da. Cavan oğlan isə sıçrayıb yerindən qalxdı " [2, 327] .

Bu parçada həm obrazların xarakter və səciyyəsi, həm də hadisənin məzmunu, əsərin mövzusu açıqca əks olunur. Bu sadə, özlərini çoxbilmiş göstərən insanlar adi, gündəlik dedi-qodularında belə macəra, kriminal notlar və həyəcan axtarırlar. U.Folkner bu hekayəsində həmin insanları sadəcə bir əhvalat – Mini Kuper və bir zənci barəsində quraşdırılan qeyri-etik hadisə (zənci kişinin ağ qadına küçədə təcavüzü) - fonunda tipikləşdirir. Ən əsası isə, ingilis dilində danışan bu adamların həyəcan, təşviş və sarsıntıları bizim dilimizdə olduğu kimi əks - səda verir. Həmin hekayədəki dialoqa diqqət yetirək:

"–Nədi, – dedi, – siz burda oturub gözləyəcəksiniz ki, hansısa bir qara zənci Ceffersonun küçələrində ağ qadını zorlasın?

Batç yenidən yerindən sıçrayıb qalxdı. Köynəyinin ipəyi onun enli kürəklərinə kimkip yapışmışdı. (Bu cümlədə də "köynəyinin ipəyi və "yapışmışdı" ifadələri leksik semantik baxımdan uyğunsuzdur –M.A.) Hər qoltuğunun altında ayparayaoxşar qara ləkə görünürdü.

– Mən də bayaqdan onlara elə bunu deyirəm! – Mən də elə…

– Doğrudan, elə bir şey olub? – üçüncü soruşdu. – Hokşounun da dediyi kimi, axı birinci dəfə deyil ki, o qadının gözünə kişi görünür. Bəyəm bir dəfə də belə olmamışdımı; guya, hansısa bir kişi mətbəxin damından onun necə soyunduğuna tamaşa edirmiş. Bir il olar hə, bu şayiə yayılmışdı?

– Nə? – müştəri dilləndi. – Necə olub?

Bərbər ehmalca onu basıb kresloya oturtmaq istədi, o isə müqavimət göstərirdi, kresloya yayxanıb başını dik tutmuşdu, bərbər yenə də onu aşağı basıb yerində oturtmağa çalışdı. Maklendon üçüncü danışanın üstünə düşdü.

– Doğrudanmı olub, deyirsən? Guya, bunun fərqi nəymiş? Bəyəm sən burda oturub gözləyəcəksən ki, o qara əclafların hansısa, həqiqətən, belə bir iş görsün?

– Mən də bayaqdan onlara elə bunu deyirəm, – Batç qışqırdı və ardınca birnəfəsə uzun, ünvansız bir söyüş söydü.

– Yaxşı, yaxşı, – dördüncü dedi. – Bu qədər bərkdən danışmayın.

– Elədir, – Maklendon dedi. – Ümumiyyətlə, danışmaq lazım deyil. Mən özüm də çox uzatdım. Kim mənimlə gedir? – o, dabanlarını qaldırıb, diqqətlə içəridəkilərin üzünə baxdı.

Bərbər kommivoyajorün başından aşağı basıb ülgücü əlində hazır tutmuşdu.

– Uşaqlar, əvvəlcə hər şeyi aydınlaşdırmaq lazımdır. Mən Uill Meysi tanıyıram. Bu o deyil. Gəlin şerifi çağıraq, hər şey qaydasında olsun.

Maklendon qəzəbli, sərt baxışlarla onu süzdü. Bərbər gözlərini də qırpmadı. Sanki, müxtəlif irqə mənsub adamlar idilər. O biri bərbərlər də öz müştərilərinin başı üstə donub qalmışdılar.

– Sən indi demək istəyirsən ki, – Maklendon dedi, – zəncinin sözünə ağ qadınınkından çox inanırsan? Deməli, sən zənci məftunu, əclaf…

Üçüncü danışan yerindən sıçrayıb Maklendonun qolundan yapışdı; o da vaxtilə müharibədə olmuşdu.

müharibədə olmuşdu.

– Sakit, sakit olun. Gəlin bu mübahisəni birdəfəlik aydınlaşdıraq. Həqiqətən nə baş verdiyi haqda kim dəqiq bir şey bilir?

– Cəhənnəm olsun aydınlaşdırmaq-zad, – Maklendon dartıb qolunu onun əlindən çıxartdı. – Kim mənimlədir, qalxsın gedək! Getməyənlərsə … – O, qolu ilə üzünü var gücü ilə silərək, diqqətlə bir-bir oturanların üzünə baxdı.

Üçü qalxdı. Kommivoyajör də kreslosunda dikəldi.

– Bura bax, – boynundakı ağı açaraq dedi: – Bu əsgini üstümdən götür. Mən də onlarla gedirəm. Burda yaşamasam da Allaha and olsun, analarımızın, arvadlarımızın və bacılarımızın… – O, əlindəki ağla sabunlu sifətini silib, onu yerə atdı. Maklendon qapının ağzında dayanıb, qalanları lənətləyirdi. Bir nəfər də qalxıb ona sarı getdi. Yerdə qalanlar, sanki, tikan üstündə oturmuşdular, bir-birinin üzünə baxmağa cəsarət etmirdilər. Sonra bir-bir qalxıb Maklendona qoşuldular.

Bərbər ağı yerdən qaldırdı. Onu səliqəylə bükməyə başladı.

– Uşaqlar, bunu eləməyin. Uill Meys heç vaxt belə iş tutmaz. Mən bilirəm ” [2,328].

U.Folknerin hekayələrində də romanlarında olduğu kimi süjet və kompozisiya dramatik sxem və maraqlı üslub, metod əsasında yaradılır. Məsələn, onun“Emili üçün qızılgül” hekayəsinin ekspozisiyasına diqqət edək. Tərcüməçi (T.Vəliyev) də bu emosionallığı və maraqlandırma nüansını qoruyub saxlaya bilib.

“Miss Emili Krirson vəfat eləyəndə qadınlı - kişili bizim bütün şəhər onun dəfninə getdi: kişilər sanki, uçub dağılmış qədim bir abidəyə hörmət və ehtiramlarını bildirmək, qadınların əksəriyyəti isə bu xanımın yaşadığı evin içərisini görməyə, axır ki, fürsət tapdıqları üçün; çünki malikanəyə həm bağbanlıq, həm də aşpazlıq edən qoca zənci qulluqçudan savayı, bu evə on il olardı ki, heç kəsin ayağı dəyməmişdi.

Divarları Nuh əyyamında ağardılan nəhəng, dördkünc bina yetmişinci illərin yüngülsayaq üslubuna müvafiq surətdə günbəzlər, uzun-uzun millər, naxışlı eyvanlarla bəzədilmişdi və bir vaxtlar şəhərin ən mötəbər ailələrinin yaşadığı ən kübar küçədə yerləşirdi. Lakin sonralar burada tikilən qarajlar və pambıqtəmizləmə zavodları ən hörmətli ailələri buradan sıxışdırıb çıxarmışdı və indi yalnız miss Emiligilin köhnə dəbli evi pambıq furqonları və benzindoldurma stansiyaları arasında əvvəlki kimi qürur və təkəbbürlə yüksəlirdi, sanki, ona meydan oxuyanlara özü meydan oxuyurdu. Budur, indi miss Emili də sidr kolluğu basmış şəhər qəbiristanlığında Cefferson uğrunda döyüşlərdə həlak olan federal ordu əsgərləri və konfederatların adlı-adsız qəbirləri ilə yanaşı uyuyan o mötəbər ailələrin nümayəndələrinə qoşulacaq, onların arasında öz yerini tutacaqdı”. Hekayənin sonunda isə kədərli və uzun illər insanın yaddaşından silinməyən təsvir və təhkiyə nüanslarını tərcüməçi o qədər ürəklə, həssaslıqla və əsərin ruhuna uyğun şəkildə işləyib ki, əsəri hətta doğma dildə yazılmış bir hekayə kimi oxuyuruq.

“Miss Emilinin cəsədini lazımi qaydada torpağa tapşırandan sonra həmin qapını sındırıb açdılar.

Sərt zərbədən uzun illərdən bəri yığılıb qalmış toz ərşə qalxdı. Bu otaq, sanki, bəylə gəlinin zifaf gecəsi üçün sahmana salınmış, buna uyğun mebellə təchiz olunmuşdu. Otağın havasından kəskin qəbir iyi gəlirdi; nazik toz qatı hər yanı bürümüşdü, rəngi solmuş çəhrayı bəylik taxtının qırçınları, çəhrayı abajurların lampaları, geyim masası (bu masanın üstündə büllur ətir şüşələri, rəngi solmuş üzqırxan ləvazimatları bir- birinə qarışmışdı və onların rəngi o qədər solmuşdu ki, üstlərindəki hərflər də oxunmurdu) toz içində itib-batmışdı. Yenə o masanın üstündə, sanki. əyindən indicə çıxarılmış yaxalıq və qalstuk vardı, onları ordan qaldıranda isə yerində tozdan aydın seçilən aypara şəkli qaldı. Kostyum səliqə ilə stulun çiynindən asılmışdı, çəkmələrsə döşəmədəydi, corablar da onların üstünə atılmışdı.

Kişinin özü çarpayıda uzanmışdı. Biz uzun müddət lal-dinməz qalıb, qorxunc bir səhnəyə – çılpaq kəllənin donmuş təbəssümünə, ağaran dişlərinə mat-mat baxdıq. Ölü, sanki kimisə qucaqlayıbmış kimi uzanmışdı, lakin məhəbbətdən çox yaşayan, zaman ötdükcə onun əyər-əskiyinə sığal çəkib hamarlayan əbədi yuxu onun sevgilisini əlindən almışdı. Haçansa onun gecə köynəyi olmuş bir şeyin cır-cındası ilə örtülmüş cənazəsi, elə bil, üstünə uzandığı çarpayıya əriyib qovuşmuşdu və o özü də, onun böyründəki balınc da buz kimi soyuq toz örtüyünə bürünmüşdü.

Biz yalnız indi ikinci balışın da üstündə aydın seçilən baş izi olduğunu gördük. Kimsə aşağı əyilib ordan nə isə götürəndə, özümüzü irəli verib, bu gözəgörünməz külün quru və kəsif iyindən udquna - udquna, onun duza bulaşmış istiot rəngli bir çəngə saç olduğunu aydın seçə bildik" [2,347] .

"On beş il bundan qabaq isə hər bazar ertəsi səhər tezdən Ceffersonun sakit, tozlu, kölgəli küçələri, şala bərk-bərk sarınmış başlarında mələfəyə bükülmüş pambıq tayası boyda iri paltar bağlamaları daşıyan zənci qadınlarla dolu olardı; özü də bu qadınlar ağların mətbəxləri qarşısından götürdükləri həmin iri paltar bağlamalarını başlarında elə sərbəst aparırdılar ki, zənci məhəlləsindəki daxmalarının önündə onları gözləyən qara qazanlara çatanacan əllərini o bağlamalara bircə dəfə də toxundurmurdular.

Nensi də bağlamanı qaldırıb başına qoyar, sonra yay - qış başından çıxarmadığı qara həsir şlyapasını tərsinə çevirib onun üstünə atardı. Nensi ucaboyluydu, uzunsov, sərt əzələli sifəti vardı, dişləri düşdüyündən ovurdları batıq görünürdü. Biz Nensinin bütün yol boyu barmağını belə toxundurmadan o boyda bağlamanı və o bağlamanın üstünə tərsinə atılmış şlyapanı başı üstündə necə düz və taraz apardığına tamaşa eləmək üçün bəzən dalanın yarısına qədər, bəzən isə çəmənliyi keçənəcən onun arxasınca gəlirdik: çünki o, xəndəyə düşüb çıxanda da, taxta hasarın barmaqlıqları arasından sivişib keçəndə də nə başındakı bağlama, nə də onun üstündəki şlyapa sürüşüb düşərdi; düşmək nədi, heç ləngər də vurmazdı. Hasardan keçəndə Nensi əllərini və dizlərini yerə qoyub çömələr, taxta barmaqlıqların arasından sivişər və o biri tərəfdə ayağa qalxıb yoluna davam edərdi, amma bu zaman başını dimdik tutar, ona görə də başındakı bağlamanı daş və ya hava şarı kimi tərpənməz saxlayardı.

Bəzən kirli paltarları zənci qadınlarının ərləri gəlib aparırdılar, amma İsus heç vaxt Nensiyə kömək eləməzdi; nə atam onu bizdən qovmamışdan əvvəl, nə də Dilsi xəstələndiyinə görə bizim mətbəx işlərimiz Nensiyə tapşırılandan sonra" [2,348-349] .

"Nensi bizə baxdı. Gözləri qəribə təlaş içindəydi, sanki, onların ömrü lap daralmışdı, sonra baxmağa vaxt tapmayacaqdılar, amma özü isə tələsənə oxşamırdı. O, üçümüzə də birdən baxmağa çalışırdı. "Yadınızdadır, bir gecə sizinlə bir yerdə yatdıq", – o dedi. Sonra sabahı gün yuxudan

oyananda necə oynaqlaşdığımızdan danışdı. O günü atam yuxudan oyanıb, bizi səhər yeməyinə çağıranacan Nensinin yatdığı həsir döşəyin üstünə çıxıb səssiz-səmirsiz xeyli oynaqlamışdıq. "Gedin ananıza deyin, qoysun bu gecə sizinlə yatım, – Nensi dedi. – Mənə heç həsir döşək də lazım deyil. Yenə də çoxlu-çoxlu oynayarıq".

Keddi anamdan xahiş elədi. Ceyson da onunla qalxdı. "Olmaz, biz zənci ilə bir evdə yata bilmərik", – anam dedi. Ceyson ağlamağa başladı. Amma anam deyəndə ki, əgər kiriməsən bir də sənə konfet verməyəcəm, o dəqiqə səsini kəsdi. Sonra Ceyson dedi ki, Dilsi ona şokolad tortu bişirməsə, yenə ağlayacaq" [2,355] **.**

U Folkerin T.Vəliyev, N.Səfərov, K.Nəzirli tərəfindən ustalıqla dilimizə tərcümə edilmiş "İki əsgər", "Quraq sentyabr", "Emili üçün qızılgül", "Həmin gün şər qarışanda", **"Qırmızı yarpaqlar",** "Həyətdə qatır**"** və s. hekayələri oxucularımıza tanışdır.

Istifadə edilmiş ədəbiyyat

1. Heç kim heç vaxt ölmür (Tərcümələr toplusu) Tərc. ed. K.Nəzirli. Bakı, Mütərcim,
2010, 228 s.
2. Folkner U. Roman və hekayələr. Bakı, Mütərcim, 2010, 408 s.
3.https://literaturesave2.files.wordpress.com/2009/12/william-faulkner-mule-in-the yard.pdf
4. https://az.wikipedia.org/wiki/Uilyam_Folkner
5. http://pdfbook.az/upload//pdf/2017/01/17/1484651850_3082442.pdf

М.Агаева

Перевод рассказов У.Фолкнера на Азербайджанский язык

Резюме

В последние годы количество произведений У. Фолкнера, переведенных на азербайджанский язык, резко возросло. Перевод работ У.Фолкнера не так то прост из - за трудного языка и стиля, а также подстрочных значений.

В этой сфере особенно велики заслуги Т.Валиева, К.Назирли, Н.Сафарова, которые сыграли особую роль при переводе таких произведений как «Красные листья», «В тот же день» «Засушливый сентябрь», «Два солдата», »Мул на дворе», «Роза для Эмили», «Садовник», «Уош», »Волосы», «Пожар» и другие. Азербайджанские читатели полюбили его произведений с момента их опубликований. У.Фолкнер сегодня в

Азербайджане уже известен как один из самых видных представителей Американской прозы XX века и почти все его переведенные произведения, создает особое оживление в литературном процессе. В этом статье даётся обзор научных взглядов на проблемы перевода произведений У.Фолкнера на азербайджанский язык (символы, подтекст, сложность языка произведений У.Фолкнера и др.)

M.Aghayeva

The translation of the W.Faulkner`s stories into Azerbaijani

Summary

The number of W. Faulkner`s works translations into Azerbaijani has been increased recently. W. Faulkner`s works translation into Azerbaijani is not so easy because of their language and style, interlinear meanings. In this sphere T. Valiyev`s, K. Nazirli`s, N. Safarov's role is very big for the translation of such works as "Red leaves", "Dry September", "Two soldiers" "On the same day"," A Mule in the yard", "A rose for Emily", "Gardener", “Wash”, "Hair", "Fire" and others. The Azerbaijani readers loved his works from the moment of their publications.

Today W. Faulkner is already known in Azerbaijan as one of the most prominent representatives of the American prose of the 20th century and almost all his works, created special activity in the literary process. This article deals with the scientific review of views about translation problems of W. Faulkner’s works into the Azerbaijani language (symbols, implication, and complexity of the language of W.Faulkner’s works).

Rəyçi **Cəlil Nağıyev**
Filologiya üzrə elmlər doktoru, professor

ХАДИДЖА ЮСИФОВА
Бакинский Славянский университет
доцент кафедры истории русской литературы
xadicayusifova@mail.ru

ПРИОРИТЕТНЫЕ НАПРАВЛЕНИЯ В СОВРЕМЕННОЙ РУССКОЙ ЛИТЕРАТУРЕ

Ключевые слова: литературная ситуация, течения, направления, «альтернативная проза», постмодернизм.
Açar sözlər: ədəbi hal, ədəbi axın, cərəyan, bənzər nəsr, postmodernism.
Keywords: literary situation, literary trend, direction, alternative prose, postmodernism.

С 1991-го - перестроечного года - в русской художественной литературе произошла коренная переоценка эстетических ценностей, непосредственно связанных с деконструкцией всей общественно-политической системы. С выходом в свет статьи В.Ерофеева «Поминки по советской литературе», в которой практически все прежние ценности и духовно-нравственные критерии поведения реальных людей и вымышленных героев подверглись сомнению, сам факт реконструкции искусства становится ясным и очевидным. Ряд русских писателей становится на новые позиции; каждый ищет индивидуальный угол зрения в деле фиксации определённых событий.

Ещё до перестройки модернисты указали на рубежи, к которым должна стремиться передовая литература. Однако постмодернисты разрушили эти рубежи. Резко изменившаяся общественно-политическая обстановка в России на рубеже XX-XXI веков принесла с собой различные формы ранее менее культивируемой художественной условности. Это фантастика, гротеск, мифологемы, сложнейшие сюжетные конструкции, открытые финалы или особенности письма (новые стилевые тенденции, пастиш, теории «смерти автора» и т.д.), что в целом было несвойственно литературе 1960-1980-х годов.

Характерно, что ряд течений и направлений в современной русской прозе возникает в качестве альтернативы не только перечисленных черт или признаков нового мышления, но и неореализму, постмодернизму в целом. Наступает время говорить и писать о так называемом в теории современного литературоведения «стихийном экзистенциализме». В нём время становится субстанцией неопределённого свойства, стихийное и нерешённое, когда в отдельных точках повествования совместно сопряжены раскритикованное прошлое, сомнительное настоящее и

проблематичное будущее. При проекции таких эпохальных времён на нынешние политические события в России становится ясным, что у писателей нет никаких чётких ориентиров, но лишь ощущение некоей духовной пустоты, вакуума. Эти качества, собственно, и породили в культуре XXI века необходимость поиска новой литературы, которую можно было бы противопоставить предыдущей. Последняя временами была хрестоматийной, наскучившей и потому неинтересной современным читателям. Так возникает насущная потребность писателей не столько частично вернуться к поиску традиционных норм и правил, но, скорее, к их новаторскому осмыслению.

Симптоматично, что и в середине второго десятилетия XXI века ведутся в филологии споры о том, как относиться к литературе с постмодернистской направленностью. Одни русские, азербайджанские и европейские учёные считают эту литературу настолько низкопробной, что вообще отказывают ей в художественности, как таковой. Другие, напротив, считают это направление чуть ли не веянием времени, знамением нашей эпохи. Третьи занимают как бы промежуточную позицию, становятся в своеобразную позу Р. Роллана («Над схваткой»). Веер различных суждений, предположений или гипотез до бесконечности широкий. По нашему мнению, следует не столько огульно критиковать, сколько с разумом и мерой естественной осторожности индивидуально подходить к каждому постмодернистскому сочинению. В XXI столетии от собственно терминологических понятий дискуссия отчасти перешла в область теоретического обзора накопленного в России и Азербайджане полезного исследовательского опыта. А именно: к выяснению этих вопросов в русской критической мысли вплотную подошли М.Липовецкий, М. Эпштейн, А. Колобродов и некоторые другие. Отрадно, что и в азербайджанском литературоведении этой теме посвящены примечательные труды (С.Гафарова «Актуальные проблемы современной жанрологии», «Современность истории и история современности»; Ф.Наджиева «Поэтика литературных направлений и течений», монографии Р.М. Новрузова и т.д.). В этих работах дана периодизация литературного процесса XX столетия, указано на использование метаязыка в современной русской прозе, ведётся поиск такой национальной субстанции, которая потенциально способна установить нравственные параметры произведений о сегодняшних событиях и т.д.

В дискуссии, разворачивающейся в современной русской филологической науке, речь прежде всего идёт о том, какие новые ценностные ориентиры появились в художественной литературе XXI столетия. Ведь «перестройка» – это отсчёт нового времени для литературы и политики, порождение общественного катаклизма не только в России. Она вскоре

перекинулась и на другие страны бывшего Союза, включая Азербайджан. И здесь «происходит борьба с рядом цензурных ограничений, вплоть до окончательного устранения самого его института – идеологической цензуры»[1,476]. Например, для очень многих прогрессивных русских и азербайджанских писателей знаменитый в своё время тезис А.И.Солженицына «Жить не по лжи» становится прерогативой уже современного творчества, то есть более поздних лет. К тому же он становится девизом первых перестроечных лет.

Потому и не удивительно, в какой степени резонансной явилась, к примеру, монументальная эпопея А.Солженицына «Красное колесо», романы В. Пелевина «Чапаев и Пустота», Б. Можаева «Изгой», В. Аксёнова «Московская сага», Б. Окуджавы, «Упразднённый театр» и другие. Лагерная тематика основных работ А. Солженицына была лишь своего рода предтечей русского колониального романа XX в. Важнее подчеркнуть, что названных писателей в этих произведениях в основном интересовала жизнь социума, присутствующий в них социально-критический пафос в известном смысле роднил современную литературу с критическим реализмом XIX века. Общим для многих художественных произведений, выдержанных в русле указанного направления, является пристальное внимание писателей к общественной проблематике.

Но эта проблематика для писателей «новой волны», отмечающейся на рубеже веков, вовсе не воспринималась одинаково. Она выражалась в самых разных жанровых формах, их ответвлениях, чётко отражая индивидуальную мировоззренческую позицию художника. Так, с началом нового тысячелетия в русской критической мысли развернулась острая полемика, приведшая к функционированию в теории литературы следующих терминов: «новая литература», «другая литература», «неореализм», «новый реализм», «постреализм», «христианский реализм», и как апофеоз – постмодернизм. Заметим, что некоторые термины по своему антропологическому фактору и функциональному назначению совпадают, и потому различия между ними носят локальный и условный характер.

Приоритетные направления, как было сказано выше, незамедлительно породили ответвления от центрального терминологического названия. Так, от «-измов» отпочковались «структурализм», «концептуализм», а также «необарокко», «соц-арт» и другие. Наиболее продолжительные научные дебаты оказались связанны с критериями определения постмодернизма. Очевидно, что начало XXI века повлекло за собой определение жанровых и стилевых особенностей русской прозы. Однако то обстоятельство, что границы между названными направлениями и течениями оставались подвижными и фиксация их

признаков соответственно не имела чёткости, это способствовало тому, что общая картина объективно оставалась расплывчатой.

По какой причине одни направления дублировали смежные, а в иных случаях, напротив, расходились в такой высокой степени, что сложно было отнести писателей к приверженцам конкретного направления? По нашему предположению, разгадка в том, что даже к приоритетным направлениям отношение авторов и критиков в наши дни далеко не однозначно. Так, упомянутое «Красное колесо» А. Солженицына либеральная российская пресса конца 1990-х годов в целом встретила с успехом. В западной критике оценки этого произведения были ещё более резкими и нелицеприятными. Так, видный французский писатель и теоретик Жорж Нива утверждал, что ««Красное колесо» – это грандиозная неудача русского писателя» [3,76]. Принципы такого расхождения для нас очевидны. Западного учёного в первую очередь интересует сам факт возвращения социально-политического романа на свою историческую родину. Он приравнивает его к европейской традиции, что, собственно, и отразилось в названии его монографии.

В свою очередь высокие оценки были прежде всего мотивированы состоянием идеологического вакуума, когда в расцвете были плюрализм и гласность. «Возвращённая», «Эмигрантская», «Потаённая» или «Забытая литература», исторические и политизированные романы приветствовались властями, так как возводились в официоз. Вместе с тем бытовало и противоположное мнение, суть которого заключалась в том, что массовый читатель ещё не подготовлен к ясному осознанию новаторского характера «Красного колеса».

Такие же разноречивые оценки наблюдались и при критическом подходе к некоторым образцам «Эмигрантской», или «Возвращённой» литературы. Так, «pra» и «contra» вызывали «Зона» С. Довлатова, продолжавшего лагерную тему А. Солженицына, Э. Лимонова «Священные монстры» с аналогичной проблематикой, а также произведения З. Прилепина, Р. Сенчина и некоторых других. Показательно, что в первых отзывах на эти романы критика почти всегда апеллировала к анекдотичным ситуациями в противовес настойчивым проповедям, отдельные мелкие случаи – эпической описательности, некую условность повествовательной манеры – избыточной конкретики. Однако уже со второго десятилетия XXI века эти признаки как бы поменялись местами, то есть предпочтению отдавались ранее выделяемые отрицательные ситуативные черты.

Самобытно и то, что вопрос о характере исторической правды также остаётся открытым. С одной стороны, документализм в названных и многих других произведениях русской эмигрантской литературы проявлялся в форме реально воссозданных авторами сцен, событий и

эпизодов. С другой, они легко, непринуждённо порою переплавляются в действительность искусства. Факты, объективно служащие основой реального отображения исторических событий, пересоздаются по законам творчества, вполне допускающего художественный вымысел в его широких границах. Они распространяются, уточняются, комментируются, дополняются. Словом, так расцвечиваются, что претерпевают метаморфозы, отражающие не реальную информацию, а вольную авторскую трактовку.

Необходимо отметить, что в 1990-е годы писатели всё ещё продолжают в некоторой степени культивировать русскую литературу с реалистической доминантой. В теории современного литературоведения и критике в целях обозначения или уточнения этого направления употребляют различные понятия, например: «реалистическая проза», «классическая проза», «неоклассическая проза», «альтернативная проза», «традиционализм» и т.п. Однако, по сравнению с предыдущим веком, в XXI столетии произошли существенные изменения. В литературной жизни России изменились способы творческой самореализации писателей. Спектр новаторских подходов к художественной культуре вызвал попытки такого теоретического осмысления литературной ситуации, которая явилась своеобразной и весьма острой и болезненной реакцией на человеческое общежитие. Постепенно отпала необходимость в выборе той активной жизненной позиции, которая являлась панацеей творчества видных русских писателей-реалистов.

По признанию ряда учёных (Т. Горичева, И. Яценко, В. Курицын, И. Ильин, А.Эвгемер, Д.Вико, А.Шеллинг, В. Мюллер, Д.Фрэзэр, К.Леви-Строс, Р.Рэглан, Б.Малиновский, Л.Леви-Брюль, Э.Кассирер, З.Фрейд, К.Юнг, М.Элиаде) наиболее подходящей и влиятельной оказалась концепция постмодернизма. Это сложный и неординарно воспринимаемый комплекс различных мировоззренческих установок. Но именно это направление в первые годы нового века всё чаще используется литературоведами в качестве термина для характеристики наиболее приоритетных направлений в литературе, равно как культуре и искусстве.

Постмодернизм – это такое широкое культуроведческое понятие, которое объемлет не только собственно литературу, но также философию, эстетику, искусство, словом, большой комплекс современных гуманитарных наук. Новое умонастроение начинает нести на себе печать тяжёлого разочарования в прежних ценностях и идеалах. В.Ерофеев признавался: «Новая русская литература засомневалась буквально во всём – без исключения: в детях, любви, в вере, красоте и благородстве, церкви культуре, институте материнства, народной мудрости. Её скептицизм –

это как бы двойная реакция на современную русскую действительность и чрезмерный морализм русской культуры» [2,237].

Действительно, русские писатели-постмодернисты разуверились в разуме, разошлись со своими соплеменниками в вопросах поступательного характера прогресса, торжестве традиционных нравственных ценностей и безграничности человеческих возможностей. Они фактически ставят знак равенства между «усталой», так называемой «энтропийной» культурой и современными запросами личности. Отсюда выраженные экзистенциальные мотивы тоски и уныния, эсхатологические настроения, эстетические мутации, диффузии стилей, эклектическое смешение языков. Постмодернизм без различия национальной окраски принципиально антисистематичен, адогматичен, чужд замкнутости и жёсткости концептуальных схем и построений.

Традиционная русская литература неизменно опиралась на каузальную (причинно-следственную) связь. И те писатели, которые находятся как бы на стыке нескольких направлений (реализм, неореалим) всё же в известной степени придерживаются этой логической цепочки. Но постмодернизм разрушает эту связь, существенно дистанцируется от неё. Что же предлагается взамен прежних мировоззренческих систем?

Во-первых, писатели выступают против любой иерархичности и проявления авторитарности. *Во-вторых*, в силу заметного нарушения повествовательных перспектив, смещены ракурсы изображаемых событий, что отражается на художественной системе образов в целом. В-третьих, решительное противостояние идеям и потенциям мировоззренческой цельности приводит к необходимости овладения реальностью с помощью единого метода или языка, включая разнообразные стили и описание мира в целом. Наконец, представители постмодернизма, считая литературу лишь фактом языка, подчёркивают её условность, ассоциативность форм, нечёткость сюжетных линий. Чаще всего произведения постмодернистской направленности могут сочетать в едином тексте стилистику различных жанров и эпох.

В результате возникает и с течением незначительного отрезка времени культивируется такая «онтологическая» трактовка литературы, культуры и искусства, в основе которой лежит сознательная направленность на непознаваемое и неопределённое. Решительно видоизменяется прежняя система символико-аллегорических противоположностей. Субъект, проще сказать характер героя в индивидуальном авторском восприятии или во всевозможных общественных связях рассеивается в этой аллегорической системе, а на его место заступают бессознательные новаторские *языковые структуры.* Высокий художественный эффект тем самым профанируется, потому что он по существу наслаивается наэклектизм. Некоторые учёные

(В. Курицын, И. Яценко, Ф. Лиотар, Т. Горичева и другие) называют этот эффект «эстетическим фристайлом».

Постмодернистский эклектизм не имеет ничего родственного с реализмом. Задача писателя отныне состоит не в точном и верном отражении реальной действительности, характера и обстоятельств, но в элементарном отходе от этих правил, законов и установок. И недаром в реалистических произведениях эклектизм приводит к окончательной внутренней спайке отдельных фрагментов в единое целое. Отсюда фрагментарность отдельных частей произведения, связь времён или содержательных структур почти всегда оказывается разорванной.

Хорошо это зафиксировал литературовед и философ М. Эпштейн: «Обыкновенно постмодернизм определяют как культурную формацию, совокупность художественных новаций и теоретических движений, которым присущи эклектизм и фрагментарность, отказ от большого, всеохватывающего мировоззрения и повествования. Разорванный в мелкие клочья мир мыслится писателями как текст, точнее, микротекст, представленный в виде бесконечной перекодировки знаков, за пределами которых крайне трудно узреть «означаемое», то есть «вещь» как она есть, или «истину» – саму по себе» [4,5].

Итак, бесконечное разнообразие достаточно существенных и актуальных для современной русской филологической науки проблем. Причём, фамилии писателей – представителей разных направлений и критиков можно множить; некоторые названные другие работы, бесспорно, внесли весомый вклад в развитие рассматриваемых в статье направлений. Поднятый нами вопрос актуален, так как его дальнейшее исследование позволяет говорить о состоянии литературной ситуации в России в общих чертах, а также помогает установить основные признаки современной художественной литературы.

Использованная литература:

1. Агеносов В.В., Бугров Б.С., Безносов Э.Л. Современная литературная ситуация. В кн.: Агеносов В.В., Бугров Б.С., Безносов Э.Л. Русская литература XX века. Часть II. Учебное пособие. Москва: Дрофа, 2001, 534 с.

2.Ерофеев В.В. В лабиринте проклятых вопросов. М.: Советский писатель, 1990, 431 с.

3.Нива Жорж. Возвращение в Европу. Статьи о русской литературе. А.И. Солженицын. М.: Высшая школа, 1999, 202 с.

4.Эпштейн М. Постмодерн в России: Литература и теория. М.: Изд-во Р.Элинина, 2000, 312 с.

X. Yusifova

Müasir rus ədəbiyyatında prioritet istiqamətlər

Xülasə

Yenidən qurma ili olan - 1991-ci ildən rus bədii ədəbiyyatında bütün ictimai siyasi sistemin dekonstruksiyası ilə birbaşa əlaqəli olan estetik dəyərlərin radikal qiymətləndirilməsi olmuşdur. Bir sıra rus yazıçıları yeni mövqe seçərək hər biri hadisələrin müəyyənləşdirilməsi işi üzrə fərdi nöqtə nəzərini axtarır. Modernistlər hələ yeni qurmadan əvvəl qabağcıl ədəbiyyatın istiqamətləndirici sərhədlərini vurğulasalarda, postmodernistlər bu sərhədləri məhv etmişdirlər. XX-XXI-ci əsrlərin keçid dövründə Rusiyada kəskin dəyişən sosial-siyasi vəziyyət, daha əvvəl az bəslənən bədii şərtlərin müxtəlif formalarına gətirmiş və bu da, 1960-1980-ci illərinin ədəbiyyatı üçün xas olmayan qeyri-adi olan fantastika, həqiqəti əks və təhrif edən komedik (qrotesk), mifoloqem, mürəkkəb sahə quruluşu, açıq final və ya yazılışın xüsusiyyətləri olmuşdur. Müasir rus nəsrində bir sıra cərəyanlar və istiqamətlər sadəcə qeyd olunan xüsusiyyətlərə və yeni düşüncə tərz əlaməti deyil, ümumiyyətlə neo-realizm və postmodernizmə alternativ olaraq yaranır. "Yeni ədəbiyyat", "digər ədəbiyyat", "neo-realizm", "yeni realizm", "postrealizm", "xristian realizmi" və postmodernizm kimi yeni ədəbiyyat nəzəriyyəsində aşağıdakı terminlərin işləməsinə gətirib çıxaran yeni minilliyin başlanğıcı ilə bağlıdır.

Postmodernizmin təmsilçiləri ədəbiyyatı yalnız dilin bir fəlsəfəsi kimi nəzərdən kezirərək, onun konvensiyallığını, forma birləşməsini, süjet xətlərinin qeyri-müəyyənliyini vurğulayır. Çox vaxt postmodern oriyentasiya işi bir mətndə müxtəlif janr və dövrün tərzini birləşdirə bilər.

Postmodernizm eklektizmin realizm ilə hez bir əlaqəsi yoxdur. Hazırda yazızının vəzifəsi həqiqi, dəqiq hallarrı, xarakteri və reallığın əks etdirilməsində deyil bilavasitə həmin qayda, qanunlardan elementar ayırılmasından ibarətdir.

Beləliklə, işin fərdi hissələrinin parçalanması, zaman və məzmun struktur bağlılığı demək olar ki, həmişə pozulur.

Kh. Yusifova

Priority directions in contemporary Russian literature

Summary

There has occurred a radical reassessment of aesthetic values in Russian literature since 1991 - the year of restructuring, which are directly related to the deconstruction of the entire socio-political system. A number of Russian writers are taking new positions; everyone is looking for an individual view in fixing certain events. Before the restructuring, the modernists pointed to the lines to which advanced literature should strive. However, postmodernists have destroyed these boundaries. The dramatically changed socio-political situation in Russia at the turn of the 20th and 21st centuries brought various forms of previously less cultivated artistic convention. This is a fantasy, a grotesque, mythologemes, complex plot constructions, open ends or features of a letter (new style trends, pastes, theories of the «author's death», etc.), which was generally unusual for the literature of the 1960s-1980s.A number of ways and directions in modern Russian prose appear as an alternative not only to the listed features of a new way of thinking, but also to the neo-realism and postmodernism in general as well.

With the beginning of new millennium, the acute polemic arises in Russian critical thought, leading to the following terms in the theory of literature:"new literature", "other literature", "neo-realism", "new realism, "" postrealism, "" Christian realism "and as apotheosis - postmodernism.

Representatives of postmodernism emphasize the conventionality of literature, the associativity of its forms and the fuzziness of the plot lines. Most often works of postmodern orientation can combine the styles of different genres and eras in one common text. Postmodern eclecticism has nothing to do with realism. The task of the writer now is not to reflect the reality, nature and circumstances exactly as they are, but to move away from generally accepted rules, laws and regulations. Hence, separate parts of the composition, time connections and connection of informative structures are almost always turns to be broken.

Rəyçi: **Telli İbrahimova**
Filologiya üzrə fəlsəfə doktoru, dosent

İSMAYIL AĞAYEV
Filologiya üzrə fəlsəfə doktoru
Sumqayıt Dövlət Universiteti
qara_ahmedov_66@mail.ru

İFADƏLİ OXUNUN MÜASİR TƏLƏBLƏR SƏVİYYƏSİNDƏ QURULMASININ ZƏRURİLİYİ

Açar sözlər: ədəbiyyatın tədrisi, ifadəli oxu, bədii əsər, bədii düşüncə, müəllif fikri, müasir tələblər, fəal təlim, təlim nəticələri, estetik zövq, məzmunun qavranılması.
The key words: teaching of literature, expressively reading, artistic work, artistic thought, author's opinion, modern demands, active training, interactive action, results of the training, esthetic, understanding of the content
Ключевые слова: преподавание литературы, выразительное чтение, художественное произведение, художественное мышление, позиция автора, современные требования, активное обучение, результаты обучения, эстетический вкус, восприятие содержания

XX əsrin sonlarında Azərbaycan xalqı dövlət müstəqilliyini bərpa etdikdən sonra cəmiyyətdə əsaslı dəyişikliklər, bir çox sahələrdə yeniləşmələr baş verdi. Müstəqil dövlət kimi beynəlxalq aləmdə özünü təsdiqləyən Respublikamızda ictimai-sosial sahələrin bir çoxunda, eləcə də təhsildə ciddi dəyişikliklərin aparılması üçün bir sıra qərarlar qəbul edildi və göstərişlər verildi. Azərbaycan Respublikasının inkişafının əsas göstəricilərindən biri təhsil sahəsində əldə etdiyi uğurlardır. Bu nailiyyətlər dövlətimizin təhsil siyasəti ilə birbaşa bağlı olub son dövrlərdə geniş şəkildə aparılan islahatların nəticəsidir. İllərin sınağından uğurla cıxmış mövcud təhsil sisteminin bir sıra prinsiplərinin saxlanılması ilə bərabər, yüksək inkişaf etmiş, dünya elminin irəliləməsində, elmi-texniki nailiyyətlərin əldə edilməsində rolu olan qabaqcıl ölkələrin təhsil və tədris təcrübəsindən yaradıcılıqla istifadə etməklə Azərbaycan təhsilinin dünya təhsil sisteminə inteqrasiyasına xüsusi maraq göstərilmiş, bu sahədə mühüm işlər görülmüşdür. Müasir dövrdə Azərbaycan özünün təhsil sistemini dünyanın mütərəqqi ölkələrinin təhsil sahəsindəki siyasətindən istifadə etməklə təkmilləşdirir, təhsilin daxili məzmununu və strukturunu yeniləşdirir.

Təhsil sahəsində İslahat Proqramı 1999-cu ildə qəbul edilmiş, təhsildə əsaslı dəyişikliyə start verilmişdir. Elmlərin əsaslarının öyrədilməsi ilə bərabər, şagirdlərin həyati bacarıqlarının formalaşdırılması və inkişafına, qloballaşan təhsil sisteminin prinsiplərinə müvafiq olaraq fənlərə daha çox bilik mənbəyi kimi deyil, onların inkişafetdirici, tərbiyəvi imkanlarının aşkarlanmasına ciddi diqqət yetirilir. Ədəbiyyat fənni təhsil proqramı

(kurikulum) ümumtəhsil məktəblərində ədəbiyyat təliminin məqsəd və vəzifələrini, ayrı-ayrı təlim pillələri üzrə məzmun xətlərini və standartlarını, onların reallaşdırılması üçün fəaliyyət istiqamətlərini müəyyənləşdirmişdir. Ədəbiyyat fənninin ümumi orta təhsil səviyyəsi (V-IX siniflər) üzrə təlim nəticələrinə əsasən şagird dərsliklərdə verilmiş bədii nümunələri onların məzmunundan irəli gələn məna çalarlarına uyğun ifadəli oxumağı bacarmalıdır. Tam orta təhsil səviyyəsi (X-XI siniflər) üzrə təlim nəticələrinə əsasən isə şagird oxuduğu bədii nümunələri bədii-emosional və obrazlı qavradığını nümayiş etdirməlidir. Ədəbiyyat fənninin məqsədinə və gözlənilən təlim nəticələrinə uyğun olaraq fənnin ədəbiyyat və həyat həqiqətləri məzmun xətti bədii ədəbiyyatda əks edilmiş milli-bəşəri dəyərlərin mənimsənilməsi, mənəvi-estetik problemlərin analitik şərhi, mürəkkəb həyat hadisələrinin, ziddiyətli gerçəkliyin aydınlaşdırılmasına imkan yaradır. Bundan əlavə, ədəbiyyatın incəliklərinin, obrazların fikir və baxışlarının, mürəkkəb psixologiyalarının mənimsənilməsinə şərait yaradır, mətnin ifadəli oxusu ilə bağlı bacarıqları inkişaf etdirir. Respublikada aparılan təhsil islahatları ilə bağlı olaraq fənlərin tədrisində yeni təlim üsullarından istifadə olunur. Ədəbiyyat fənninin tədrisində, ayrı-ayrı mövzuların və bədii əsərlərin öyrənilməsində də fəal təlim üsullarına müraciət geniş dairədə aparılır, bu təlim üsullarının fənnin tədrisində peşəkarlıqla tətbiqi və uğurlu nəticələrin əldə edilməsi məqsədilə bir çox tədqiqatçılar bir sıra araşdırmalar aparmışlar. Yazılan tədqiqat əsərlərində bədii əsərlərin öyrənilməsində fəal təlimin forma və üsullarından istifadənin zəruriliyi göstərilmiş, mövzunun yüksək səviyyədə dərk edilməsi, əsərin ideya və məzmununun dolğun şəkildə qavranılması üçün yeni təlim üsullarının verdiyi imkanlar praktik şəkildə, yəni mövzunun tədrisi prosesi əsasında göstərilmişdir. Bu istiqamətdə bir çox əsərlər nəşr edilmiş, ədəbiyyatın tədrisini müasir tələblər əsasında qurmağın vacibliyi qeyd olunmuşdur. Ş.Mikayılov və A.Bəkirovanın "Ümumtəhsil məktəblərinin V-XI siniflərində ədəbiyyatın tədrisi metodikası" (2008), S.Hüseynoğlunun "Ədəbiyyat dərslərində yeni texnologiyalar: Fəal/interaktiv təlim" (2009), F.Yusifovun "Ədəbiyyatın tədrisi metodikası" (2010), Y.Aslanovun "Ədəbiyyatın tədrisi: ənənə və müasirlik" (2011), B.Həsənlinin "Ədəbiyyatın tədrisi metodikası" (2012), S.Rəsulovanın "Ədəbiyyat dərslərində ifadəli oxu" (2012), B.Muradovun "Ədəbiyyat dərslərinin təşkili problemləri" (2012) kimi tədqiqatları və digər araşdırmaları qeyd etmək mümkündür. Ayrı-ayrı tədqiqat əsərlərini nəzərdən keçirdikdə bir daha aydın olur ki, müəlliflər ədəbiyyatın tədrisində yeni yanaşmanın, müasir təlim texnologiyalarından istifadənin zəruriliyinin zamanın tələbi olduğu qənaətinə gəlmişlər. Tədris prosesində yeni təlim texnologiyalarına üstünlük verilməsini ənənəvi tədrisin tamamilə inkarı kimi qəbul etmək doğru deyil, dərs prosesində, mövzunun şərhində və ya mövzunun mənimsədilməsində

ənənəvi tədrisin daim yeniliyini saxlayan və dəyərli iş üsullarından da yaradıcılıqla bəhrələnmək tədrisin məzmununu dərinləşdirən, keyfiyyətini yüksəldən amillərdəndir.

İstər ənənəvi tədrisdə, istərsə də yeni təlim texnologiyaları əsasında aparılan ədəbiyyat dərslərində fənlə bağlı biliklərin, elmi-nəzəri məlumatların mükəmməl şəkildə öyrənilməsi və öyrənilənlərin əsasında yüksək mənəvi-əxlaqi keyfiyyətlərə yiyələnmək, şəxsiyyət kimi formalaşmaq, cavabdehlik və məsuliyyət kimi dəyərlərə sahiblənmək əsas məqsəd kimi qarşıya qoyulur. Orta məktəbdə və ya digər tədris mərkəzlərində ədəbiyyat fənnindən öyrənilən əsər, onun mövzusu, ideya-məzmun xüsusiyyətləri, müəllifin niyyəti, aşılamaq istədiyi fikir, ayrı-ayrı obrazların düşüncələri, psixologiyaları oxucunun mənəvi-əxlaqi dünyasına, fikir və düşüncə tərzinə, həyat və yaşam üçün götürdüyü dəyərlər dünyasına ciddi təsir edir, dəyişilməsinə, daha da bəşəri, humanist məzmun kəsb etməsinə səbəb olur.

Müasir təhsil siyasətindəki ciddi dəyişikliklərlə bağlı olaraq dərs prosesində müəllim-şagird münasibətlərinin yenidən qurulması, qarşılıqlı ehtiram prinsipinin gözlənilməsi, fikir ayrılığına, münasibət bildirmədə sərbəst baxışların ifadə edilməsinə şəraitin yaradılması və hörmət göstərilməsi kimi cəhətləri qeyd etmək mümkündür. Müasir dərsdə iştirakçıların rolu ənənəvi təhsildəki rol və münasibətlərdən fərqlənir. Belə ki, ənənəvi təhsildə müəllim daha fəal, tam mənası ilə öyrədən idisə, şagird öyrənən, yalnız informasiyanı qəbul edən, müəyyən mənada passiv, dərs prosesinə, izah və şərhlərə münasibət bildirməyən, bilikləri sadəcə qəbul etməklə kifayətlənən tərəf idi. Müasir dərsdə isə tamamilə fərqli vəziyyətlər mövcuddur. Artıq müəllim dərs prosesində bələdçi kimi çıxış edir, mövzunun mənimsənilməsi və dərs zamanı qaldırılan problemli vəziyyətlərin araşdırılmasında istiqamətverici kimi fəaliyyət göstərir, problemin şərh və izahına şagirdləri cəlb edir. Şagirdlər tərəfindən aparılan təhlillər, verilən izahlar geniş müzakirə olunur, müəllimin istiqamətverici fəaliyyəti sayəsində zəruri olanlar ikinci dərəcəlilərdən fərqləndirilir və birbaşa şagirdlərin fəaliyyəti, axtarışları, təhlilləri ilə mövzu, problem elmi şərhini tapır. Dərsin bu cür qurulması, yəni kollektivin, bütün şagirdlərin axtarışa, fikir və münasibət bildirməyə cəlb edilməsi, mövzunun müxtəlif tərəflərdən və müxtəlif şəxslərin düşüncə və təfəkkür dairəsindən izahı fikir və münasibət bildirmədə demokratizmə, plüralizmə gətirib çıxarır. Bu isə qarşılıqlı anlaşmanın, fikir müxtəlifliyinə hörmət və dözümlülüyün, polemika mədəniyyətinin formalaşmasına, inkişafına ciddi təsir edir.

Göründüyü kimi orta məktəblərdə müasir tədris prosesində artıq avtoritar metodika deyil, əməkdaşlıq metodikası, qarşılıqlı fəaliyyət əsas yer tutur. Müasir dərsdə müəllim biliyi şagirdlərə hazır şəkildə mənimsədən mütəxəssis deyil, şagirdlərə öyrənməyi, sərbəst şəkildə araşdırmağı, müqayisə və təhlilər aparmağı öyrədən bələdçi rolunda çıxış edir. Artıq

müasir dərsdə müəllim subyekt, şagird isə təlim prosesinin obyekti deyil, müəllim bələdçi, istiqamətverici kimi, şagird isə bərabərhüquqlu iştirakçı, bilikləri müstəqil əldə etməyi bacaran tədqiqatçı rolunda çıxış edir.

Elmi araşdırmalarda və tədris prosesində təsdiq edilmişdir ki, ədəbiyyat dərslərində ifadəli oxunun özünəməxsus rolu vardır. Bədii əsərlərin ideya və məzmun xüsusiyyətlərinin mənimsənilməsində, əsərin mövzusunun qavranılmasında, müəllifin məqsədinin və oxucuya aşılamaq istədiyi fikrin aşkarlanmasında, əsərdəki hadisə və obrazların dinləyicinin təsəvvüründə canlandırılmasında ifadəli oxu xüsusi rola malikdir. Məhz ifadəli oxunun köməyi ilə dinləyici əsərin daha dərin qatlarına nüfuz edə bilir, ayrı-ayrı obrazların fikir və düşüncələrini, həyata baxışlarını, mənəvi-əxlaqi dünyalarını mükəmməl şəkildə qavrayır. Ədəbiyyat dərslərində ifadəli oxudan istifadə də bununla kifayətlənmək doğru deyil, çünki ifadəli oxu şagirdin fikir və düşüncəsinə ciddi təsir etməklə onun bədii əsəri özünün fərdi oxusundan fərqli şəkildə, mükəmməl qavramasına şərait yaradır. Mətndəki hisslər, obrazların yaşantıları, fikir və duyğuları, ruhi-mənəvi dünyaları emosionallıqla, qarşı tərəfdə yüksək hiss, həyəcan yaratmaqla çatdırılan zaman ifaçı dinləyicinin bütün fikir və düşüncəsini, duyğularını ifadə etdiyi əsərin fikir və hiss dünyası ilə qovuşdurur. Şagird və dinləyicinin düşüncəsi, təfəkkürü, hiss dünyası əsərin "daxili notları"na köklənmiş olur, ən yüksək təsirlilik halında isə əsərin ideya-məzmunu, obrazlar dünyası dinləyicinin idrak, dərk dünyasını özünün "cazibə dünyası"na salır, onu uzun müddət həmin əsərin idraki və psixoloji təsiri altında yaşamağa məcbur edir. Bundan əlavə, ifadəli oxu şagirdin şifahi nitqinin, nitq mədəniyyətinin inkişafına səbəb olur, estetik tərbiyəsinin, bədii zövqünün formalaşmasına və məzmun baxımından zənginləşməsinə ciddi təsir göstərir.

Ədəbiyyat dərslərində bədii əsərin ifadəli oxu vasitəsilə, səslənən sözlə dinləyiciyə çatdırılması üçün ifaçıdan tələb olunur ki, bədii mətni dərindən və şüurlu şəkildə qavrasın, müəllif fikri və niyyəti bütün incəliklərinə qədər aşkarlanıb üzə çıxarılsın. Ayrı-ayrı obrazların fikir və baxışları ilə müəllifin nə demək istədiyi, dinləyiciyə insan, həyat və cəmiyyətlə bağlı hansı informasiyanı verməsi müəyyənləşdirilsin. İfadəli oxuya başlamazdan əvvəl mükəmməl bədii-estetik təhlilin aparılması, əsərin yarandığı ictimai-siyasi şəraitin düzgün dəyərləndirilməsi müəllif niyyətindən əlavə, ifaçının da əsərlə bağlı müəyyən münasibətinin formalaşmasına səbəb olur. Blə olduqda isə ifaçı bədii əsəri ifadəli şəkildə oxumaqla təqdim edən zaman öz münasibətini də ifadə edir, bədii əsərin ifaçıda doğurduğu bu hisslər qarşı tərəfə-dinləyiciyə də özünəməxsus intonasiya ilə çatdırılır. Bu isə təsirsiz qalmır, həm ifaçının, həm də dinləyicinin həyata baxışında, dünyagörüşündə dəyişikliyə, inkişafa səbəb olur, mənəvi-əxlaqi dünyasının formalaşmasına və zənginləşməsinə ciddi təsi edir.

Ə.Qarabağlı "Azərbaycan ədəbiyyatının tədrisi metodikası"ında bədii mətnin oxunması prosesinə xüsusi bölmə həsr etmiş və göstərmişdir ki, ifadəli-bədii oxu mətnin ideya və məzmununun qavranılmasında əsasdır. Ə.Qarabağlı ifadəli oxunun xüsusiyyətlərindən bəhs edərkən bildirir ki, "Dinlədiyimiz bədii əsər bizə təsir edənə qədər üç mərhələ keçir: birinci sözləri eşidirik; ikinci, bu sözlərin məzmununu, məntiqi mənasını başa düşürük; üçüncü, əsərin daxili gözəlliyini duyuruq" (3.70). İfadəli-bədii oxunun sənətkarlıq məsələlərindən danışarkən qeyd edir ki, bədii əsər dinləyicinin fikir və xəyalını, duyğularını oxşayan zaman ona güclü təsir edir. Buna görə də ifaçı əsərdəki əhvalat və ya hadisənin daxili mahiyyətini, mənasını, təsvir edilən duyğuları, hissləri pafoslu səslə, düzgün tələffüz və məntiqi vurğu ilə ifadə etməyi bacarmalıdır.

Ə.Qarabağlı ədəbiyyatın tədris prosesində ifadəli oxuya üstünlük verilməsini, oxu zamanı birinci növbədə əsərin məzmununun və məfkurəsinin mükəmməl, dolğun şəkildə çatdırlmasının zəruriliyini göstəriridi. Bədii oxu işinə bütün il boyu həm dil, həm də ədəbiyyat dərslərində müraciət edilməsini, ciddi yanaşılmasını xüsusi qeyd edirdi. Tədqiqatçı alim bildirirdi ki, V-VII siniflərdə hər rübdə bir neçə dəfə olmaqla müvafiq dərslər üzərində ifadəli oxu dərsləri aparılmalıdır. V-VI siniflərdə əvvəlcə əsərin təhlili aparılmalı, oxunacaq bədii mətnin ideya və məzmunu qavranılmalı, bundan sonra əsərin ifadəli oxusuna başlanılmalıdır. O, məzmun və məna qavranılmadan ifadəli oxunun mükəmməl şəkildə aparılmasının mümkün olmadığı qənaətinə gəlir.

B.Muradov "Orta məktəbdə ədəbi əsərlərin öyrədilməsi"ndə ədəbiyyat dərslərində bədii əsərin məzmununun qavranılmasında oxunun rolundan bəhs edir, məzmunun mənimsənilməsində oxunun ayrı-ayrı növlərinin hər birinin özünəməxsus rolu olduğunu bildirir. Oxunun növlərinin əsərin məzmununun qavranılmasındakı xidmətlərindən bəhs edən müəllif izahlı və ifadəli oxuya daha çox diqqət yetirir, bədii mətnin məzmununun dərkində bu iki oxunun faydalılığından danışır. İfadəli oxu ilə bağlı bildirir ki, "Bu oxu növü şagirdlərdə əsərdən aldığı təəssüratı dolğunlaşdırmaqla bərabər, onun məzmununu daha dərindən qavramağa kömək edir" (5.31).

Ş.Mikayılov və A.Bəkirova "Ümumtəhsil məktəblərinin V-XI siniflərində ədəbiyyatın tədrisi metodikası"nda ifadəli oxunun ədəbiyyat dərslərində ən çox istifadə edilməli və lazımlı olduğunu qeyd edirlər. Bədii əsərlərin, bədii mətnlərin tam mənimsədilməsində düzgün oxunun özünəməxsus rolu olduğunu bildirirlər. Məntiqi dərk, emosional duyum, düzgün oxu olmadan əsərin məzmununun qavranılmasının, son detallarına qədər dərk edilməsinin mümkünsüzlüyünü göstərərək bu qənaətə gəlirlər ki, "bədii materialın məzmunundan, xarakterindən asılı olaraq təcrübədə yoxlanılmış, ədəbi əsərin öyrədilməsində faydalılığı sübut olunmuş ənənəvi təlim üsullarından yaradıcı şəkildə istifadə edilməlidir"(6.67). Tədqiqatçılar

ənənəvi təlim üsullarından bəhrələnməklə kifayətlənməməyi tövsiyə edib göstərirlər ki, təlim prosesində texnikanın imkanlarından, yeni təlim texnologiyalarından istifadə, dünya təhsil sisteminə inteqrasiya ilə bağlı olaraq qabaqcıl ölkələrin təhsil təcrübələrinə müraciət, onların təlim prosesində tətbiqi müasir təhsil sistemində ən zəruri məsələlərdəndir. Ədəbiyyatın tədrisi prosesində yeni təlim texnologiyalarından, inteqrasiya və interaktiv təlimdən istifadənin zəruri, həm də zamanın tələbi olduğu fikri irəli sürülür. O da qeyd edilir ki, yeni texnologiya kimi təqdim olunan üsulların mahiyyətinə nəzər salınanda həmin təlim texnologiyalarının ayrı-ayrı detallarının bu vaxta qədər tədris zamanı tətbiq edildiyi aydınlaşır. Tədqiqatçılar "Bədii mətnin ifadəli oxusu" adlı bölmədə bədii əsərin məzmununun qavranılmasında, ideya və mövzusunun mahiyyətinin aşkarlanmasında ifadəli oxunun rolundan bəhs edir, ədəbiyyatın tədrisində ifadəli oxuya verilən tələblərdən danışırlar. Müəlliflər bu qənaətə gəlirlər ki, "Düzgün-ifadəli oxunu şərtləndirən iki mühüm cəhət var: a) məntiqi cəhət; b) texniki cəhət. Bu cəhətlər oxu prosesində vəhdətdə çıxış edirlər" (6.92). Daha sonra göstərilir ki, bədii əsərin düzgün ifadəli oxusu üçün məntiqi və texniki cəhətlərin birlikdə mövcud olması vacibdir. Mətnin məzmunu ilə bağlı olan məntiqi cəhət əsasdır, çünki texniki komponentlərdən necə və nə zaman istifadə olunmasına istiqamət verən, zərurət yaradan bədii əsərin məntiqi dərki və məzmunudur.

İfadəli oxunun növlərindən danışılan zaman ifadəli oxunun fərdi oxu, dramatik oxu və kollektiv oxu növləri olduğu bildirilir, hər bir oxu növünün xüsusiyyətləri ənənəvi təlim üsulları əsasında aydınlaşdırılır. Bundan əlavə, göstərilir ki, müəllimin ifadəli oxusu nümunəvi olmalı, şagirdlərin ifadəli oxu vərdişlərinə yiyələnməsində istiqamətverici kimi çıxış etməlidir. İfadəli oxunun mükəmməl şəkildə aparılması üçün mətnin məzmununun qavranılması ilə bərabər, əsərin dil və janr xüsusiyyətləri də dərindən öyrənilməli, mətn dil baxımından araşdırılmalı, mənası çətin anlaşılan sözlər müəyyənləşdirilib aydınlaşdırılmalıdır, "hər hansı bədii parçanı ifadəli oxumaq üçün mətndə olan sözlərin lüğəti və poetik mənası üzərində düşünülməlidir" (6.99).

Tədqiqatçı alim S Hüseynoğlu "Ədəbiyyat dərslərində yeni texnologiyalar: fəal/interaktiv təlim" kitabında yeni təlim üsullarının mahiyyətini, xüsusiyyət və təşkili yollarını geniş şərh etmişdir. Ədəbiyyat dərslərində fəal təlim üsullarından istifadənin zəruriliyini müasir dövrün tələbi kimi dəyərləndirir, dünya təhsil sisteminə inteqrasiyaya çalışan təhsilimizin yeni təlim texnologiyalarından istifadə etməklə dünya təhsil sistemindəki uğurlardan bəhrələnəcəyini, bu günün tələblərinə cavab verən təhsil sisteminin qurulacağını bildirir. Fəal təlim üsulu ilə aparılan dərsin quruluşu, tədris prosesi, müəllim və şagird münasibətləri haqqında geniş məlumat verir. Fəal/interaktiv təlim üzrə dərsin quruluşu, mərhələləri haqqında bildirir ki, "Fəal dərsin mərhələləri bunlardır: sinfin təşkili; keçmiş

mövzunun soruşulması; motivasiya, problemin qoyuluşu; tədqiqatın aparılması; informasiya mübadiləsi; informasiyanın müzakirəsi və təşkili; nəticə, ümumiləşdirmə; yaradıcı tətbiqetmə; qiymətləndirmə və refleksiya; ev tapşırığının verilməsi" (2.15). Ənənəvi təlimlə yeni təlim texnologiyalarını müqayisə edən müəllif ənənvi təlimdən bütünlüklə imtinanı qeyri-mümkün hesab edir və bugünki təhsil siyasətində ənənəvi tədrisdən yaradıcılıqla bəhrələnməyin zəruriliyini göstərir. S.Hüseynoğlu göstərir ki, ənənəvi təlimdə bu gün və sabah üçün faydalı olan çox şey var. Lakin bunları yaşatmaq, yeni təlimi yanaşmalarla uzlaşdırmağı bacarmaq lazımdır. Bədii əsərin məzmununun qavranılmasında, ideya-məzmun xüsusiyyətlərinin dərkində ifadəli oxunun rolundan danışır, bildirir ki, "Ədəbiyyat təliminin spesfik metodu olan ifadəli oxunun tətbiqi həmişə labüd olacaq. Bir az da dəqiq desək, hansı texnologiyanın tətbiq edilməsindən asılı olmayaraq ifadəli oxu ədəbiyyat təlimində öz mühüm və əhəmiyyətli mövqeyini həmişə qoruyub saxlayacaqdır" (2.31).

Tədqiqatçı alim S Hüseynoğlu ədəbiyyat dərslərində bədii oxu aparılarkən yeni təlim texnologiyalarına müraciəti vacib sayır və yeni təlim texnologiyalarından istifadə yollarını praktik dərslər əsasında aydınlaşdırır. Bədii əsərin məzmununun qavranılması zamanı oxu prosesində istifadəsi tövsiyə edilən oxu növləri və yeni təlim üsulları aşağıdakılardır: ifadəli oxu, fasilələrlə oxu, proqnozlaşdırılmış oxu, zəncirvari oxu, iki hissəli gündəlik.

F.Yusifov "Ədəbiyyatın tədrisi metodikası" adlı dərs vəsaitində müasir dövrdə ədəbiyyatın tədrisinə verlən əsas tələblərdən danışır, məktəbdə ədəbiyyatın yüksək səviyyədə tədrisinin geniş dünyagörüşlü, dərin zövqlü, bədii-estetik duyumlu şagirdlərin formalaşmasında, mənəvi-əxlaqi zənginliklərə yiyələnmələrində xüsusi rol oynadığını bildirir. Bədii əsərin ideya və məzmununun, yazıçının əsərdə ifadə etdiyi fikrin mükəmməl şəkildə oxucuya çatdırılmasında yeni təlim üsullarına müraciəti, oxu prosesinin düzgün qurulmasını, oxunun müxtəlif növlərindən istifadə edilməsini, əsərlərin təhlilinin dolğun, məzmunlu aparılmasını vacib amillərdən sayır. Ədəbi əsərlərin öyrədilməsinin mərhələlərindən bəhs edərkən "Əsərin oxusu və məzmunu üzərində iş" mərhələsinin əsərin öyrənilməsində mühüm rol oynadığını bildirir. Əsərin oxusunun birinci sinifdən on birinci sinfə qədər həyata keçirilməsini məqsədəuyğun hesab edir və ədəbiyyat dərslərində oxunun müxtəlif növlərindən istifadənin öyrədilən proqram materialı və dərsin qarşısına qoyulan məqsədlə, bədii mətnin məzmunu, forma və janr xüsusiyyətləri ilə bağlı olduğunu göstərir. Müəllif klassik mətnlərin oxusunda izahlı oxuya üstünlük verir, əsərin ifadəli şəkildə oxunması üçün bədii mətnin mənasının tam anlaşılmasının vacibliyini bildirir. Müəllif göstərir ki, "İfadəli oxu da bədii mətnin məzmununun daha canlı və emosional çatdırılmasına imkan yaradan və məktəblərimizdə geniş tətbiq olunan iş üsullarındandır" (7.168). F.Yusifov fəal/interaktiv təlim üsulları

ilə bədii əsərin məzmununun öyrənilməsində oxunun müxtəlif növlərindən – proqnozlaşdırılmış oxu, fasiləli oxu, iki hissəli gündəlik və ziqzaqdan istifadəni zəruri sayır. B.Həsənli "Ədəbiyyatın tədrisi metodikası"ında orta məktəbdə ədəbiyyatın tədrisinin əsas məqsəd və prinsiplərindən geniş şəkildə bəhs etmişdir. Tədqiqatçı alim ədəbiyyatın, bədii oxu sənətinin özünəməxsus cəhətlərindən söhbət açır, tədris prosesində öyrədənin üzərinə düşən cavabdehlik və məsuliyyətdən, xalqımızın mənəvi-əxlaqi dünyasının zənginliyini yaşadan, xalqın tarixini özündə əks etdirən ədəbiyyatın öyrədilməsində zamanın tələbi olan yeniliklərdən yaradıcılıqla bəhrələnməyin zəruriliyindən danışır. Müəllif ədəbiyyatın tədrisi sahəsindəki qabaqcıl təcrübəni metodika elminin müasir dövrdəki nailiyyətləri ilə vəhdətdə götürmüş, ənənə və yeniliyin bir-birindən təcrid edilmiş deyil, daxili bağlılıqda olduğunu bildirmişdir. B.Həsənli qeyd edir ki, "Müasir ədəbiyyat dərsi yeni təlim texnologiyalarının məqsədyönlü tətbiq olunduğu dərsdir. Ədəbiyyat dərslərində informasiya-kommunikasiya vasitələrindən istifadə, fəal, interaktiv metodların tətbiqi müəllimin yaradıcı fəaliyyətinə, şagirdlərin tədqiqatçılığa cəlb edilməsinə, əməkdaşlıq metodikasına yol açır" (1.55). Müəllif "Bədii əsərin məzmununun öyrənilməsi" bölməsində bədii əsərin oxusunun təşkilindən geniş bəhs etmiş, bildirmişdir ki, əsərin ideya-bədii məzmununun mənimsənilməsində oxunun özünəməxsus rolu vardır. Oxunun düzgün təşkili əsərin ideya-məzmununun qavranılmasında, müəllif fikrinin aşkarlanmasında ciddi rol oynayır. İfadəli oxunun düzgün aparılması ədəbiyyat dərslərində ciddi məsələlərdən biridir, "Əsərin şagirdlər tərəfindən ifadəli oxusu təhlildən sonra aparılan oxudur. Bu mərhələdə yalnız bədii oxu ustasının ifasının dinlənilməsi, müəllimin nümunəvi ifadəli oxusundan söhbət gedə bilər" (1.155). B.Həsənli ədəbiyyat təlimində oxunun zəruriliyindən danışarkən tətbiq edilən oxu növlərini interaktiv metodlar əsasında aşağıdakı kimi müəyyənləşdirmişdir: fasilələrlə oxu, proqnozlaşdırılmış oxu, ikihissəli gündəlik.B.Muradov "Ədəbiyyat dərslərinin təşkili problemləri" adlı vəsaitində ədəbiyyatın tədrisində, bədii mövzuların öyrənilməsində yeni yanaşmanın vacibliyindən bəhs etmişdir. Müasir dövrdə ədəbiyyatın tədrisinə verilən tələblərdən söhbət açan müəllif tətbiq edilən yeni təlim üsullarının elmi-nəzəri əsaslarını araşdırmış, ədəbiyyatın tədrisində, bədii əsərlərin məzmunlarının öyrənilməsində yeni təlim texnologiyalarına üstünlük vermişdir. Ədəbiyyat dərslərində oxu üsulunun iki növündən istifadə edildiyini bildirən müəllif bunların izahlı və ifadəli oxu olduğunu göstərmişdir. Bədii əsərin məzmununun mənimsənilməsində izahlı oxunun rolundan bəhs edərkən izahlı oxunun mətni çətin qavranılan əsərlərin tədrisi zamanı istifadəsinin vacibliyi göstərilmişdir. Xüsusilə klassik poeziya nümunələrindəki alınma söz və ifadələr, çətin anlaşılan birləşmələr olduğundan həmin əsərlərin məzmununun öyrənilməsində izahlı oxuya müraciəti zəruri saymışdır. Oxu

üsulunun digər növündən bəhs edərkən bildirir ki, "İfadəli oxudan yazıçının fikrini, əsərdə ifadə olunmuş hiss və duyğuları mənimsəmək, dinləyicilərə dəqiq çatdırmaq üçün istifadə edilir" (4.10). İfadəli oxu zamanı həm müəllimin, həm də şagirdin ifadəli oxusunun mümkünlüyündən danışaraq göstərir ki, müəllimin ifadəli oxusu əsərin məzmununu dolğun çatdırmaqla bərabər, şagirdlər üçün nümunəvi oxu rolunu oynayır. Şagirdlərin ifadəli oxusunun müəllimin ifadəli oxusundan, əsərin məzmununun öyrənilməsindən, mətndəki çətin söz və ifadələrin izahından sonra təşkil edilməsinin məqsədəuyğun olduğu göstərilir. Daha sonra müəllif yaradıcı oxu üsulundan danışır və bildirir ki, mətn mexaniki deyil, şüurlu, emosional oxu ilə mənimsənilməli, qarşı tərəfə çatdırılmalıdır, "Mətnin oxusu müəyyən mənada yaradıcı olmalıdır. Yəni şagird mətni oxuyarkən təkcə onun məzmununu qavramamalı, həm də onun özündə yeni hiss və duyğular, fikirlər yaranmalıdır" (4.11).

Ədəbiyyatın tədrisində, ayrı-ayrı əsərlərin öyrədilməsində yeni təlim üsullarından istifadənin vacibliyini bildirən müəllif fəal/interaktiv təlimdə oxu üsuluna onun aşağıdakı növlərinin-fasilələrlə oxu, proqnozlaşdırılmış oxu, zəncirvari oxunun (ziqzaq) əlavə olunduğunu göstərmişdir. Tədqiqatçı göstərmişdir ki, fasilələrlə oxuda mətn hissə-hissə oxunur, şagirdlər hər hissədə nədən bəhs olunduğunu verilmiş suallar əsasında aydınlaşdırırlar. Proqnozlaşdırılmış oxuda isə mətnin hissələrə bölündüyü göstərilir, hər hissə oxunmazdan əvvəl hansı hadisənin baş verəcəyi və ya nə haqda danışılacağı şagirdlərdən soruşulur. Zəncirvari oxu (ziqzaq) zamanı isə qruplar yaradılır, bu qruplar əsasında ekspert qruplar təşkil edilir və mətn hissələrə bölünərək hər ekspert qrupa bir hissənin oxusu tapşırılır. Ekspert qrupunun hər bir üzvü öyrənilən mətnin məzmununu öz qruplarına bildirirlər.

Ədəbiyyatın tədrisi metodikası və ifadəli oxu ilə bağlı yazılmış son dövr tədqiqat əsərlərinin araşdırılması onu deməyə əsas verir ki, bədii əsərin məzmununun qavranılması və çatdırılması zamanı ifadəli oxunun rolunun vacibliyi tədqiqatçılar tərəfindən xüsusi qeyd edilmişdir. İstər ənənəvi təlimdə, istərsə də yeni təlim üsulları ilə aparılan dərslərdə bədii mətnin ideya-məzmununun mənimsənilməsində oxunun özünəməxsusluğu müəyyənləşdirilmişdir. Ədəbiyyatın tədrisində oxunun aşağıdakı növlərindən - ifadəli oxu, fasilələrlə oxu, proqnozlaşdırılmış oxu, zəncirvari oxu və iki hissəli gündəlikdən istifadənin zəruriliyi göstərilmişdir.

İstifadə edilmiş ədəbiyyat

1.Həsənli B. Ədəbiyyatın tədrisi metodikası. Bakı, Müəllim, 2012. 360 səh.
2.Hüseynoğlu S. Ədəbiyyat dərslərində yeni texnologiyalar: fəal/interaktiv təlim. Bakı, 2009. 200 səh.

3. Qarabağlı Ə. Azərbaycan ədəbiyyatının tədrisi metodikası. Bakı, Maarif, 1968. 350 səh.
4.Muradov B. Ədəbiyyat dərslərinin təşkili problemləri. Bakı, ADPU nəşriyyatı, 2012. 132 səh.
5.Muradov B. Orta məktəbdə ədəbi əsərlərin öyrədilməsi. Bakı, Maarif, 1992. 202 səh.
6. Mikayılov Ş. və Bəkirova A. Ümumtəhsil məktəblərinin V-XI siniflərində ədəbiyyatın tədrisi metodikası. Bakı, Naksuana, 2008
7.Yusifov F. Ədəbiyyatın tədrisi metodikası. Bakı, 2010. 236 səh.

I.Agayev

The importance of setting upexpressively reading on the base of modern demands

Summary

Establishment of the literature on the base of modern demands, usage of modern training methods in the creation help understanding of artistic work more deeply in teaching and training process, open wide opportunity understanding of moral worlds, thoughts and opinions of the images. Different reading on understanding of author’s opinion and idea-content types are used creatively at literature lessons. Performer has to understand in logical point of viewduring the lecture to the listeners. He should read the artistic text expressively. Then aim and goal, thought and opinion of the author should be clarified in detail and tried to revive by the performer for the students. In modern period, one of the teaching methods of the literature training is productive usage of new training methods, to establish relations between teachers and students on the inter-personality level.This form of training makes it possible to see the difference of opinions and points of view, a different vision of events and images, an objective awareness of reality based on research and exploration. The use of new learning technologies during expressive reading, access to various types of reading, the presentation of a work of art with the help of technical methods and the very performance of readers deepen the connection between the work and the listener's thinking.The special role of expressively reading of the artistic text in understanding of idea and content at the lessons that conducted on either traditional or modern methods was proved in most research works.

А.Исмаил

Необходимость построения выразительного чтения согласно современным требованиям

Резюме

Преподавание литературы согласно современным требованиям и творческое использование современных методов обучения дает широкую возможность лучшему освоению литературного произведения и осознанию духовно-нравственного мировоззрения в процессе обучения. На уроках литературы искусно используются различные виды литературного чтения для освоения идейного содержания художественного произведения и позиции автора. Во время выразительного чтения литературного произведения на уроках литературы чтец должен логически понимать литературный текст. После этого он должен раскрыть позицию автора, его идею и точку зрения и постараться воссоздать события в представлении учеников. Одним из современных требований к преподаванию литературы является эффективное использование новых методов обучения, установление отношений учитель-ученик на уровне межличностных отношений в процессе обучения. Такая форма обучения дает возможность видеть различие мнений и точек зрения, различное видение событий и образов, объективное осознание действительности, основанное на исследовании и поисках. Использование новых технологий обучения во время выразительного чтения, обращение к различным видам чтения, представление художественного произведения с помощью технических методов и само исполнение чтецов углубляет связь между произведением и мышлением слушателя. Слушатель переживает чувства и эмоции образов, словно сам является участником событий и духовно обогащается путем присвоения духовно-нравственных ценностей. Исследователи особенно отмечают значимость роли выразительного чтения при освоении и донесении содержания художественного произведения. Во многих исследовательских работах указывается особая роль выразительного чтения в освоении идейного содержания художественного текста, как на традиционных уроках, так и на уроках, где применяются новые методы обучения.

Rəyçi: Dəyanət Cümənov
Filologiya üzrə fəlsəfə doktoru

SEVİNC RƏSULOVA
pedaqogika üzrə fəlsəfə doktoru
ADPU
rasulova.s@mail.ru

"QORXULU NAĞILLAR"DA KİÇIK QƏHRƏMANLARIN FACİƏSİNİN MAARİFÇİ-REALIST ESTETİKANIN MEYARLARI ÇƏRÇİVƏSİNDƏ İNİKASI PROBLEMİ

Açar sözlər: S.S.Axundov, "Qorxulu nağıllar", realist nəsr, maarifçi-realizm, uşaq nəsri, estetik ölçülər
Keywords: S.S.Akhundov, "Scary tales ", realist prose, enlightenment-realism, children's prose, aesthetic dimensions
Ключевые слова: С.С.Ахундов, «Страшные рассказы», реалистическая проза, просветительский реализм, детская проза, эстетические измерения.

Azərbaycan uşaq ədəbiyyatının maarifçi-realist mərhələsi kimi xarakterizə olunan XIX-XX yüzilliklərin qovşağında uşaq nasirlərimiz yalnız "gülməli nağıllar" qələmə almaqla kifayətlənmirdilər. Onlar "qorxulu nağıllar" yazmaqla da uşaq nəsrimizi zənginləşdirirdilər. Başqa sözlə, böyüməkdə olan nəsil üçün mənəvi sərvət, mütaliə və tərbiyə vasitəsi yaradan qələm sahiblərini həyatın təkcə gülməli, əyləncəli, fərəhli tərəfləri deyil, qorxulu, dəhşətli, ağrı-acılı, kədərli tərəfləri də düşündürürdü. Onlar varlığa ayıq gözlə baxır və anlayırdılar ki, həyat yalnız nikbin, yumorlu, əyləncəli, şən-şux hadisələrdən, həqiqətlərdən ibarət deyil. Onun hüznlü, əzablı, sıxıntılı, iztirablı, bədbin, nisgilli, çətin, məşəqqətli, faciəli tərəfləri, əhvalat və gedişatları da vardır. Yəni həyat iki qütblüdür. Onun xeyiri, işığı, fərəhi, əyləncəsi, zövqü, səfası olduğu kimi şəri, zülməti, kədəri, səfaləti, ağrı-acısı da vardır.

Deməli, əsl vətəndaş, həyat adamı, ictimai və məişət gerçəkliklərindən xəbərdar, dünyanın və cəmiyyətin həqiqətlərinə bələd insan, cəmiyyət üzvü yetişdirməkdən ötrü həyatın hər iki üzünü gənc nəslə anlatmaq gərəkdir. Həyatda mətin, ayıq, açıqgöz, zirək, iradəli, dözümlü, səbrli, fəal, mübariz, cəsarətli, yenilməz, xeyirxah, insanpərvər və s. müsbət keyfiyyətlərə malik şəxsiyyət yetişdirməkdən ötrü gerçəkliyi bütün ziddiyyətləri, işığı və qaranlığı, nəşəsi və kədəri, sevinci və ələmi, fərəhi və dəhşətləri ilə vətən övladlarına başa salmaq lazımdır. Yalnız bu yolla kiçik nəsli əsl həyata, uğurlu gələcəyə hazırlamaq olar. Bu mənada XX əsrin əvvəllərində ərsəyə gələn uşaq nəsrimizdə "gülməli nağıllar" silsiləsinə paralel şəkildə "qorxulu nağıllar"ın da yaranması maarifçi-realist uşaq nəsrimizin mövzu-məzmun və

ideya axtarışlarının əhatə dairəsinin genişliyindən, sənət uğurlarından, bədii düşüncənin daha miqyaslı axtarış cəhdlərindən xəbər verirdi.

"Gülməli və qorxulu nağıllar" silsiləsinə daxil olan əsərlərdən söhbət açarkən ilkin olaraq nəzərə çarpan bir məsələni də xatırlatmaq yerinə düşər. XX əsrin əvvəllərində, əsasən, "Məktəb" jurnalı vasitəsilə intişar tapan "gülməli nağıllar" çoxmüəllifli, "qorxulu nağıllar" isə təkmüəllifli idi. Yəni birinci silsiləyə daxil olan hekayə və nağıllar bir neçə müəllifin qələminə mənsub olduğu halda, ikinci silsiləni təşkil edən bədii nümunələrin müəllifi təkcə Süleyman Sani Axundov idi.

Görkəmli pedaqoq və yazıçı S.S.Axundov (1875-1939) uzun illər müəllim işləmişdi. O, Azərbaycanın ictimai-pedaqoji və ədəbi-mədəni mühitində tanınmış bir ziyalı idi. Uşaq psixologiyasına, kiçiklərin zövqünə, maraqlarına, mənəvi dünyasına, istəklərinə, həyata münasibətlərinə yaxşı bələd idi. Eyni zamanda istedadlı, həyatı dərindən bilən, həssas şəkildə duymağı bacaran bir yazıçı idi. Hər iki uğurlu cəhət onun hekayələrində məharətlə sintez edilmiş, nəticədə "Qorxulu nağıllar"ın timsalında Azərbaycan uşaq nəsrinin, habelə maarifçi-realist ədəbiyyatımızın dəyərli nümunələri meydana çıxmışdır.

"Qorxulu nağıllar" silsiləsinə daxil olan hekayələr 1912-1914-cü illərdə "Məktəb" məcmuəsində hissə-hissə çap olunmuşdur. Silsiləyə beş hekayə daxildir: "Əhməd və Məleykə" (5, 1912, №1); "Abbas və Zeynəb" (5, 1912, №7-8); "Nurəddin" (5, 1912, №9-22); "Qaraca qız" (5, 1913, №1-4, 6-9, 12-22); "Əşrəf" (5, 1914, №8-17, 19).

Maarifçi-realist ədəbi cərəyanın prinsipləri əsasında qələmə alınmış bu hekayələrə birlikdə müəllif janr baxımından "qorxulu hekayələr" yox, "qorxulu nağıllar" adını vermişdir. Əlbəttə, bu, səbəbsiz deyil. Birləşmənin birinci istilahı, yəni "qorxulu" sözü real gerçəkliyin dəhşətlərinə, sıxıntılarına, mənhus işlərinə, zülmət və qaranlığa, qorxunc gedişatına, uğursuz oyunlarına işarədir. Müəllif həyatın həmin tərəfləri ilə oxucuları tanış edir və onlara demək istəyir ki, gerçəkliyin bu sınaqlarına da hazır olun. Həyat yalnız gözəlliklərdən ibarət deyil. Onun kifayət qədər çirkinlikləri də mövcuddur. Birləşmənin ikinci tərəfində "hekayələr" əvəzində, "nağıllar" istilahının işlədilməsi də səbəbsiz deyil və məqsədli seçiyyə daşıyır. Belə ki, kiçik oxucular nağılı dahaş çox sevirlər. Onların fikri-mənəvi dünyası da əslində nağıllar dünyasıdır. Xəyalları, fantaziyaları, düşüncələri etibarı ilə balacalar şirin bir nağıl aləmində yaşayır, həyata bir nağıl gözü ilə baxırlar. Deməli, müəllif təsirli, cəlbedici bir bədii priyom kimi bu nəsr nümunələrini kiçik oxuculara "nağıl" kimi təqdim etməyi daha məqsədəuyğun saymışdır. Digər tərəfdən ədib real həyat hadisələrini nağıl qiyafəsində, nağıl ahəngində və ritmində oxuculara çatdırmağı bacarmışdır. Əlbəttə, bu, yazıçının məxsusi sənətkarlıq bacarığıdır.

Onu da nəzərə çatdırmaq lazım gəlir ki, yazıçı 1936-cı ildə öz əsərlərini nəşrə hazırlayarkən bəzi əsərlərinin, o cümlədən "Qorxulu nağıllar" silsiləsinə daxil olan "Nurəddin" və "Qaraca qız" hekayələrinin mətnlərinə əl gəzdirmiş, onları obrazlı şəkildə desək, sovet ictimai-siyasi rejiminin ideoloji ütüsü ilə ütüləmişdir. Əlbəttə, bədii mətndə aparılan bu dıyişikliklər "burjua-mülkədar aləmində", "sinifli cəmiyyətdə", "feodal dünyasında" sinfi ziddiyyətləri qabartmaq, ictimai yuxarıların insanlıq hissindən büsbütün məhrum olduğunu, tamamilə neqativ, qeyri-insani əxlaq və mənəviyyat sahibi olduqlarını sübut etmək missiyasına xidmət göstərmişdir. Deyilən faktlar bu hekayələrin (əsasən, "Nurəddin" və "Qaraca qız" hekayələrinin) məzmun və ideya axarına da xeyli dərəcədə təsir göstərmişdir. Ona görə də biz təhlil zamanı bədii mətnlərin sovet dövründəki nəşrlərindən yox, "Məktəb" jurnalında işıq üzü görən ilk nəşrindən bəhrələnməyi məqsədəuyğun hesab etdik. Onu da əlavə edək ki, S.S.Axundova aid tədqiqatlarda adı çəkilən hekayələrin ilk nəşri ilə 1936-cı il nəşri arasındakı fərqlər barədə kifayət qədər təfərrüatı ilə məlumat verilmişdir (Bax: 9, 138-156; 1, 225-226; 4, 211-220). Ona görə də biz həmin məsələ barədə geniş danışmaq, deyilənləri bir daha təkrar etmək istəmirik.

"Qorxulu nağıllar"a S.S.Axundovun uşaqlıq həyatının acılı-şirinli xatirələri, təəssüratları, hətta müəyyən qədər şəxsi həyatının elementləri də qarışmışdır. Bu elementləri daha çox biz onun yetim uşaqların taleyinin, hisslərinin, daxili aləminin, nisgil və duyğularının təsvirində görə bilirik. Belə ki, yazıçı anadan doğulandan cəmi iki ay sonra onun atası, müflisləşmiş bəy olan Rzaqulu bəy vəfat etmiş, kiçik Süleyman atadan yetim qalmışdır. Yetimlik həyatını yaşamış ədib bu cür taleyə düçar olmuş uşaqların psixologiyasını, iztirablarını, batini aləmini yetərincə yaxşı duymuş, anlamışdır. "Qorxulu nağıllar"ın bütün hekayələrində (Əhməd, Məleykə, Abbas, Zeynəb, Nurəddin, Qaraca qız, "Əşrəf" hekayəsindəki Əşrəf də ata-anasından ayrı düşür və valideyn himayəsindən məhrum olur) yetim uşaq obrazları ilə üzləşirik. Bu uşaqlar ya atalarını, ya analarını, ya da hər iki valideynlərini itirmişlər. Yəqin ki, ədib yetimlik həyatı keçirdiyindən bu cür uşaqların iç dünyasına daha yaxından bələd olmuş, öz hekayələrində onların inandırıcı, sirayətedici obrazlarını yaratmış, belə obrazların daxili dünyasını, psixologiyasını sərrast şəkildə təsvir edə bilmişdir.

S.S.Axundovun "Uşaqlıq həyatımdan xatirələr" adlı memuarından bəlli olur ki, "Qorxulu nağıllar"dakı bəzi obrazların həyatda prototipi də olmuşdur. Məsələn, "Nurəddin" hekayəsindəki sınıqçı Qara Hüseyn obrazının prototipi yazıçının uşaqlıqda yaşadığı Seyidli kəndindəki məşhur sınıqçı Məşədi Yusifdir (1, 210). "Qorxulu nağıllar"dakı bəzi təbiət mənzərələrinin Seyidli kəndinin təbiət mənzərələri ilə oxşarlıq təşkil etdiyini

də xatırlatmaq lazım gəlir. Beləliklə, sənətkar öz nağıllarını həyati detallarla qovuşdurmuş, hekayələrdə nağıl, daha doğrusu, folklor ruhunu və elementlərini məharətlə maarifçi-realist düşüncə tərzi ilə sintez etmişdir.

"Qorxulu nağıllar" silsiləsinə daxil olan hekayələrin beşində də hadisələr nağılçı Hacı Səmədin dili ilə danışılır. Hacı Səməd müdrik, qayğıkeş, maarifpərvər bir ata və tərbiyəçidir. O, bu əhvalatları məktəbli övladlarına – oğlu Məmmədə və qızı Fatmaya söyləyir. Hər iki övlad uşaqların həmyaşıdıdır. Məmməd ibtidai şəhər məktəbinin, Fatma isə şəhər qız məktəbinin şagirdləridirlər. Yəni dinləyicilər müasir düşüncə və həyata yiyələnmək yolunun başlanğıcına qədəm qoyan kiçik yolçulardır. İndi onlara həyat və onun həqiqətləri barədə real bilgi vermək, maarifləndirmək, düzgün tərbiyə, dürüst həyati istiqamət vermək lazımdır. Hacı Səmədin timsalında müəllif deyilən missiyanı ləyaqətlə, müdrik və ağıllı bir surətdə yerinə yetirən tərbiyəçi-nağılçı obrazı yaratmışdır. O, nümunəvi bir nağılçıdır. Söylədikləri nağıllar real həyat hekayətləridir. Cəmiyyət və təbiətin gerçək hadisələri ilə bağlıdır. Ədib kiçik oxucular üçün daha maraqlı, cəlbedici olsun deyə hadisələri "nağıl"çının dili ilə söyləməyi lazım bilir. Daha doğrusu, uşaqların nağıla bənzər daxili dünyasına nağılçı obrazının dili ilə nüfuz etmək məqsədi güdür.

Bir məsələni də xatırlatmaq yerinə düşər. "Nağıllar"ın ilk nəşrində onların beşi də Hacı Səmədin dili ilə söylənilir. Lakin əsərlərinin 1936-cı il nəşrində S.S.Axundov "Qaraca qız" hekayəsinin əvvəlində Hacı Səmədlə əlaqəli epizodu ixtisar etmişdir. Yəni təhkiyəni nağılçının deyil, müəllifin dili ilə vermişdir. Belə bir əməliyyat "nağıllar"ın sonrakı nəşrlərində də təkrar edilmişdir. Deyilən prinsip belə bir təəssürat yaradır ki, "nağıllar"dan dördü nağılçının, biri isə müəllifin dili ilə danışılır. S.S.Axundova aid bəzi tədqiqatlarda hekayələrdən yalnız dördünün Hacı Səmədin dili ilə danışılması barədə yanlışlıq da buradan irəli gəlir (7, 245).

"Qaraca qız"ın əvvəlində ilk nəşrdə öz əksini tapan, lakin 1936-cı il nəşrində ixtisar edilən epizod belədir: Hacı Səmədin qızı Fatma atasına kiçik, lakin ibrətamiz bir əhvalat söyləyir. Əhvalatdan bəlli olur ki, məktəbdə Nabat adlı bir qız çox çirkin olduğu üçün heç kəs onunla oynamaq istəmir. Ancaq bir dəfə onların şagird yoldaşları Gövhər adlı bir qız yıxılır, başı daşa dəyib qanayır. Nabat hamıdan tez gəlib Gövhərə kömək edir. Onun bu alicənablığı, istiqanlılığı şagird yoldaşlarında ona qarşı rəğbət oyadır. Bu əhvalatdan sonra hamı ona səmimi münasibət göstərir. Qızı Fatmanın danışdığı bu epizodu dinləyən Hacı Səməd deyir: "Qızım, insanın zahirinə baxma, batininə bax. Türklərdə bir məsəl var, deyərlər ki, "Ətə baxma, dona baxma, içindəki cana bax" (5, 1913, №2). Bundan sonra Hacı Səməd çəkdiyi məsəlin məntiqinə uyğun olaraq Qaraca qızla bağlı əhvalatı danışmağa başlayır.

"Qorxulu nağıllar"ın əsas bədii qəhrəmanları kiçiklərdir: Əhməd, Məleykə, Abbas, Zeynəb, Nurəddin, Qaraca qız (Tutu), Ağca xanım, Əşrəf. Hekayələrin adları da kiçik qəhrəmanların adları ilə müvafiqdir. Belə bir seçimdə, bədii təqdimatda ədibin məqsədi kiçik oxucuların dünyasına onların öz həmyaşıdlarının taleləri, əməlləri, istəkləri, xəyalları, davranışları, həyata və insanlara münasibətləri, xeyiri və şəri idrak imkanları ilə daxil olmaqdır. Adını çəkdiyimiz kiçik qəhrəmanların hamısı əxlaq, mənəviyyat və insanlıq etibarı ilə saf, bakir, pak, büllurdurlar. Həyatın bərkində-boşunda, xeyir-şərində, yaxşı-yamanında bişib bərkiməmişlər. Mənəviyyatları həyatın çırkablarına bulanmamış, daxili aləmləri varlığın cəhalət, səfalət, mənfəətgirlik, mənsəbpərəstlik, imtiyazlılıq, ağa-qul, ixtiyarlı-ixtiyarsızlıq, mənəmlik, quldurluq, nadanlıq dəyirmanında üyünüb əzilməmiş, aşınıb qaranlığa bürünməmişdir. Ancaq, təəssüf ki, onları ictimai gerçəkliyin sadalanan rəzalətləri, sınaqları gözləyir. Bu rəzalət və sınaqların nəhayətində xilas da ("Əhməd və Məleykə", "Nurəddin"), ölüm də ("Abbas və Zeynəb", "Qaraca qız") var.

Yazıçı ideal təcrübəsiz gənc nəsli həyatın hər iki tərəfi ilə tanış etməyə, həm ictimai işığın, həm də sosial zülmətin həqiqətləri ilə uşaqları maarifləndirməyə yönəlir. S.S.Axundov irsinin tədqiqatçılarından N.Vəlixanov haqlı olaraq yazır: "Demək lazımdır ki, "Qorxulu nağıllar"ın süjeti də, əsasən, təzadlar əsasında qurulmuşdur. "Nurəddin" və "Qaraca qız" əsərlərində bu cəhət qabarıq şəkildə nəzərə çarpır. Burada ədib insanları iki hissəyə ayırır. Müsbət və mənfi surətlər. "Nurəddin" hekayəsində Hacı Nəsir, Nurəddin, İmamverdi, Cənnətəli, Bahar, Rəhim, Rəhimə həyatda gözəlliyi yaxşılıqda, xeyirxahlıqda görürlər. Onlar xeyirxah qüvvələrdir, mövcud quruluşun ağır qayda-qanunlarına məruz qalsalar da, öz müsbət qayələri ilə haqsızlıq quruluşundan üstündürlər" (9, 150).

"Qorxulu nağıllar" bu silsiləyə aid əsərlərdən həcmcə ən kiçiyi olan "Əhməd və Məleykə" hekayəsi ilə başlayır. Ümumiyyətlə, haqqında danışılan hekayələrdə folklorun, xüsusilə xalq nağıllarının ciddi təsiri duyulmaqdadır. Bu məziyyət onun təhkiyə ritminə, dil və üslubuna, ümumi ruhuna da aiddir.

"Əhməd və Məleykə" folklorda nağılçı obrazının alternativi olan Hacı Səmədin (bütün "nağıllar"ı danışan şəxsin) belə bir nağılvari təhkiyəsi ilə başlayır: "Qızım, biri vardı, biri yoxdu, şimal-şərqdə, meşə içində, çay kənarında Tatarcıq adında bir kənd vardı. Bu kəndin əhli əkinçilik və çarvadarlıqla güzəran edərdi. Qızım, həmin bu nağıl olunan kənddə Nurəddin adında bir kişi vardı. Bu Nurəddinin on yaşında Əhməd adlı bir oğlu, altı yaşında Məleykə adlı bir qızı və Xədicə adında bir arvadı vardı" (5, 1912, №1). Təhkiyənin axarında nağıl intonasiyası və ritmi qabarıq surətdə sezilir.

"Əhməd və Məleykə"də hadisələr nağılvari gedişatla başlayır, qorxulu məzmun və mündəricə ilə davam etdirilir, nikbin sonluqla yekunlaşır. Yəni

süjet yığcam olsa da, burada həm həyatın qorxulu, məyusedici, üzücü, həm də fərəhli, könülaçan, işıqlı tərəfləri vardır. Əkinçi Nurəddin kasıb olsa da, sadə, səmimi, halal yaşayışa malik pak bir ailəyə sahibdir. Baş verən quraqlıq, aclıq və qəhətliyin məişəti, yaşayışı çətinləşdirməsi, əkinçilik sənətində maddi gəlirinin əldən çıxdığını görən Nurəddinin at və araba ilə ətraf yerlərdə kirayəçiliyə başlaması, qəzaya uğrayıb ölməsi, onun arvad-uşaqlarının səfalətə, aclıq və ehtiyaca düçar olması hadisələrin (süjetin) qorxulu hissəsini təşkil edir. lakin Səyyah Cəmaləddinin Xədicənin sözlərini eşidib bacadan bir torbada yemək və pul atması, ana Xədicənin və onun yetim uşaqlarının aclıq, maddi səfalət təhlükəsindən qurtuluşu ilə süjetin nikbin hissəsi başlayır və hadisələr elə bu şəkildə, yəni nikbin bir nəticə ilə də yekunlaşır. Beləliklə, ədib hekayədə həyatın həm müdhiş, dəhşətli, həm də sevincli, fərəh doğuran, məsud həqiqətlərini ortalığa qoyur. Demək istəyir ki, varlığın kədəri, ağrı-acısı, qaranlığı olduğu kimi xeyiri, sevinci, nuru da mövcuddur. Sənətkar əsərdəki müsbət missiyanı, sevinci, nuru xeyirxah Səyyah Cəmaləddin obrazı vasitəsilə reallaşdırır. Hekayədəki Səyyah Cəmaləddin bizim folklor nümunələrində tanış olduğumuz xilaskar Xızır obrazını xatırladır. Daha doğrusu, onun real həyatdakı əvəzləyicisidir. Yazıçı bu obraz vasitəsi ilə həm də humanizmin, xeyirxahlığın, xilaskarlığın uca, ali insani hiss və əməl olduğunu da nəzərə çatdırır. Oxucularını da bu nəcib əmələ təşviq edir.

S.S.Axundovla bağlı monoqrafik tədqiqatın müəllifi M.Vəliyev (Əlioğlu) öz monoqrafiyasında "Əhməd və Məleykə" hekayəsinin təhlili zamanı razılaşmaq mümkün olmayan bir sıra subyektiv mülahizələr irəli sürür. Məsələn, o yazır: "Ədibin fikrincə o zamankı mövcud həyat uşağın təbiətindəki saflığı və zərifliyi pozurdu, odur ki, mümkün qədər həqiqi aləmdən uzaq olmaq, ümid, inam və xəyalla yaşamaq lazım idi" (8, 36). Əlbəttə, uşağın təbiətindəki saflığı və zərifliyi pozan həyatı təkcə o zamankı (sənətkarın yaşadığı) ictimai mühitlə məhdudlaşdırmaq əsla doğru görünmür. Zülmün, ədalətsizliyin, istismarın, cəhalətin, qayğısızlığın, bədxahlığın və s. olduğu bütün zamanlarda, bütün ictimai quruluşlarda, bir sözlə, hər yerdə və hər zaman uşağın təbiətindəki saflıq və zəriflik pozulur, kiçiklər mənəvi aşınmaya, maddi səfalətə, daxili və cismani zillətə məruz qalırlar. İkincisi, "ümid, inam və xəyalla yaşamaq" uşaqların təbiətində, fitrətindədir. Həm də bunsuz insan həyatı sönük, mənasız olardı, bəlkə də, tükənərdi. Bu hisslər insanı həyata bağlayır, ona yaşamaqdan ötrü stimul, optimist impuls verir. Tənqidçi daha sonra öz yanlış mülahizələrini daha da dərinləşdirir: "S.S.Axundovun nasir olaraq hekayələrinin bəzi sənətkarlıq xüsusiyyətləri görünürdüsə, digər tərəfdən onun pedaqoji nəzəriyyəsindəki primitivliyi, məhdudluğu meydana çıxırdı. Uşağı real həyatdan uzaqlaşdırmaq, işdən və əməkdən soyutmaq, daha çox təbiətə meyldəki bəzi ibtidailiyi idealizə etmək

şəklində özünü göstərən bu məhdud dünyagörüşü S.S.Axundovun ümumi yaradıcılığındakı nöqsanlı bir cəhətlə bağlı idi" (8, 36).

İrəli sürülən qənaətlərdəki qeyri-obyektivlik göz önündədir. Əvvələn, "Qorxulu nağıllar"a daxil olan heç bir hekayə, o cümlədən "Əhməd və Məleykə" S.S.Axundovun "pedaqoji nəzəriyyəsindəki primitivliyi, məhdudluğu" meydana çıxarmağa xidmət edən əsərlər kimi dəyərləndirilə bilməz. Əksinə, bu nümunələr sənətkarın pedaqoji ustalığını və fəhmini, ədəbi bacarığını, uşaq dünyasına və psixologiyasına bələdliyini sübut edən bədii faktlar olaraq qəbul olunmalıdır. Hekayələrin istər ideya-məzmun, istərsə də sənətkarlıq səviyyəsi bunu söyləməyə əsas verir. İkincisi isə hekayənin nə qayəsində, nə məzmun və siqlətində, nə obrazların baxışında, nə də dil-üslub elementlərində zərrə qədər də olsa, "uşağı real həyatdan uzaqlaşdırmaq, işdən və əməkdən soyutmaq", "ibtidailiyi idealizə etmək" meyli, "məhdud dünyagörüş"ə dəlalət edəcək faktor yoxdur. Sadəcə olaraq həyatın həm şər, qaranlıq, həm də xeyirli, nikbin tərəfləri ilə oxucuları tanış etmək məramı vardır. Bunu yazıçının yaradıcılığındakı "nöqsanlı bir cəhət" kimi qiymətləndirmək cəhdi də özünü doğrultmur.

Silsilənin ikinci hekayəsi "Abbas və Zeynəb"də "Əhməd və Məleykə"dən fərqli olaraq ictimai gerçəkliyin yalnız qorxulu, dəhşətli, fəlakətli üzü vardır. AMEA-nın Respublika Əlyazmalar İnstitutunda hekayənin bir avtoqraf əlyazması saxlanılır. 1906-cı ilə aid olduğu göstərilən əlyazma üzərində müəllif sonralar yenidən işləyərək mətnə bəzi dəyişikliklər etmiş və onu 1912-ci ildə "Məktəb" jurnalında (№7-8) çap etdirmişdir.

"Abbas və Zeynəb"in mövzusu uzun əsrlər boyunca şərqdə özünü göstərən vəhşi, cahil bir ənənə ilə bağlıdır: tayfa davası, qan intiqamı, qövmlərarası ədavət, intiqam hərisliyi və bunun faciəli nəticələri. Biz XIX-XX əsrlərin hüdudlarında aktual mahiyyət daşıyan, mütərəqqi düşüncəli milli ziyalıları narahat edən bu mövzunun mətbu və bədii təcəssümünü də publisistik əsərlərdə, bədii nümunələrdə tez-tez görürük. H.Zərdabinin bir sıra publisistik yazıları, N.Vəzirovun "Müsibəti-Fəxrəddin" faciəsi də eyni mövzudadır.

"Abbas və Zeynəb"in mövzu və ideyasını ədib hekayənin əvvəlində Hacı Səmədin dili ilə verir. O, qızı Fatmanın təklifi ilə quldurların əməl və rəfatrına aid söylədiyi bu əhvalatda həm quldurluğun dəhşətli əməl olduğunu, həm də onun səbəbini, nədən nəşət tapdığını izah edir. Hacı Səməd deyir: "Qızım, ancaq bunu bil ki, quldurlar elmsiz, tərbiyəsiz tayfadan çıxırlar. Heyvanın vəhşisi qurd, pələng və şir olan kimi insanın da vəhşisi bunlardır. Ancaq təfavütləri odur ki, quldurlar onlardan necə qat rəhmsiz, insafsız və zalımdırlar. Qulaq as, bu nağıldan özün bilərsən". Əlbəttə, bu izahat sənətkarın maarifçi idealına uyğundur.

Hekayədəki on yaşlı Abbas və yeddi yaşlı Zeynəb də yetimdirlər. Ataları vəfat etdiyindən bu iki qardaş-bacı anaları Fatmanın himayəsində qalmışlar. Fatma cəhrəçilik edib övladlarını çətinliklə də olsa, saxlayır. Bu saf uşaqlar hələ həyatın isti-soyuğunu, vəhşətini, nəhs gedişatını, quldur-qoçu əməllərini dadmamışlar, belə faciələrdən xəbərsizdirlər. Çətinliklə, kasıbçılıqla da olsa, adi, sadə, lakin qorxusuz-ürküsüz bir həyat yaşayırlar. Abbas anasına kömək məqsədilə meşədən odun qırıb satır, bəzən də qulançar yığıb sataraq cüzi pul qazanır. Lakin bu kimsəsiz uşaqları cəmiyyətin vəhşi, nadan, cahil ənənələrindən doğan mənhus fəlakəti gözləyir. Vaxtilə Qayadibi kəndinin camaatı tərəfindən öldürülmüş qardaşının intiqamını almaq hərisliyi ilə yaşayan quldur Səfər neçə il sonra öz qisasını almaqdan ötrü fürsət tapır. Başına yığdığı dəliqanlılarla birlikdə Qayadibi kəndini atəşə tutur. Nəticədə meşəyə getmiş günahsız yetimlər Abbas və Zeynəb də atılan güllələrin qurbanına çevrilirlər. Beləliklə, hekayədə paklıq, məsumluq, günahsızlıqla vəhşilik, nadanlıq, qudurğanlıq, quldurluq üzləşdirilir. Təəssüf ki, birincinin məğlubiyyəti, faciəsi ilə sona yetir. Nə qədər ağrılı olsa da, bu, həyatın real həqiqətidir. Ədib əsərdə məhz bu həqiqəti bədii şəkildə təcəssüm etdirir. B.Həsənli doğru olaraq qeyd edir: "Yazıçının qayəsi belədir ki, həyatdakı bir çox fəlakətlərin, eybəcərliklərin kökü nadanlıqda, cəhalətdədir. Heç bir günahı olmayan bu uşaqların quldur Səfərin gülləsinə tuş gəlməsi oxucunu mənfi adət-ənənələrin acı nəticələri barədə ciddi düşünməyə, nəticə çıxarmağa sövq edir" (4, 211).

"Abbas və Zeynəb"də dolğun təbiət təsvirləri ilə də rastlaşırıq. Bu cür təsvirlər əsərin sənətkarlıq səviyyəsini yüksəldir. Ona bir canlılıq, obrazlı təravət aşılayır. Belə lövhələrdən birinə nəzər yetirək: "Getdikcə dan yerinin qızartısı artırdı. Dərələrdən və çaylardan duman qalxırdı. Günəş dağın dalından ahəstə-ahəstə çıxırdı. Hələ özü görünmürdü. Amma şəfəqi qarşıdakı uca dağın başına düşmüşdü. Sonra yavaş-yavaş qalxıb dağın dalından göründü və ruh verən qızıl zərrələrini aləmə dağıdıb cümlə yatmışları oyatdı. Çəmənlərdə, seyrəngahlarda, çiçəklərin qönçələrində gizlənmiş pərvanələri və arıları oyatdı. Quşların cəh-cəhi havaya ucaldı. Bunların xoş avazları cütcünü şura gətirdi. O da ahəstə-ahəstə cütünü sürüb öz nəğməsini oxudu. Dağ döşündə sürüsünü otaran çoban da bayatı nəğməsini tütəyində ucaltdı". Müəllif demək istəyir ki, təbiətin bu gözəlliyi ilə cəmiyyətin baş verən şəri, kiçik qəhrəmanların taleyi, onların başlarına gələnlər arasında bir təzad vardır.

Ədəbiyyat

1. Axundov S.S. Seçilmiş əsərləri. 2 cilddə. II c., Bakı, 1968
2. Babayev Y. Azərbaycan uşaq nəsrinin inkişafı tarixindən (1905-1920). Filol.elm.nam.dis., Bakı, 1989
3. Qarayev Y. Realizm: sənət, həqiqət. Bakı, 1980
4. Həsənli B. Azərbaycan uşaq ədəbiyyatı. Bakı, 2013
5. "Məktəb" jur. (1911-1920)
6. Məmmədov Ə. Azərbaycan uşaq ədəbiyyatı. Bakı, 1977
7. Mir Cəlal, Hüseynov F. XX əsr Azərbaycan ədəbiyyatı. Bakı, 1982
8. Vəliyev M. Süleyman Sani Axundov. Bakı, 1956
9. Vəlixanov N. Süleyman Sani Axundovun elmi bioqrafiyası. Bakı, 1996
10. Vəlixanov N. Azərbaycan maarifçi-realist ədəbiyyatı. Bakı, 1983

С.Расулова

« Страшные рассказы» - отражение трагедии маленьких героев в рамках проблемы критериев эстетики реалистического просветления

Резюме

На перекрестке XIX-XX веков, охарактеризованной как просветительско-реалистическая стадия Азербайджанской детской литературы, наши детские писатели не довольствовались написанием только «смешных рассказов». Они также обогатили нашу детскую прозу., написав «страшные рассказы». Одним из детских писателей, написавших такие произведения, был С. С. Ахундов.

Рассказы, включенные в серию С.С.Ахундова «Страшные рассказы», являются классическими примерами Азербайджанской детской прозы. К этим произведениям сегодня относятся с любовью, и ценят их как прежде. Серия включает пять историй. Эти истории написаны в соответствии с принципами реалистического просветления. В этой статье мы попытались рассмотреть проблему сопоставления историй с измерениями реалистического просветления. Во время анализа мы сосредоточились на рассказах включенные в серию Аббаса и Зейнаба, Ахмеда и Малейки. Мы попытались прояснить их художественную ценность и место в нашей детской прозе.

S.Rasulova

"Scary stories" is a problem of small heroes' tragedy within the framework of the criteria of the enlightenment-realist aesthetics

Sammary

At the crossroads of the XIX-XX centuries, described as an enlightening-realistic stage of the Azerbaijani children's literature, our children's writers were not content with writing only "funny stories." They also enriched our children's prose., By writing " Scary tales ". One of the children's writers who wrote such works was S. S. Akhundov.

The stories included in the series of S.Akhundov's "Scary tales " are classic examples of the Azerbaijan child's prose. K these works today are associated with love, and they are valued as before. The series includes five stories. These stories are written in accordance with the principles of realistic enlightenment. In this article, we tried to consider the problem of comparing histories with realistic enlightenment measurements. During the analysis, we focused on the stories included in the series of Abbas and Zeynab, Ahmed and Maleyki. We tried to clarify their artistic value and place in our children's prose.

Rəyçi: Yaqub Babayev
Filologiya elmlər doktoru

AYNUR NƏSİROVA
BDU-nun Jurnalistika fakültəsinin
dosent əvəzi müəllimi,
filologiya üzrə fəlsəfə doktoru,
aynur.bsu@gmail.com

ELMİ ƏDƏBİYYATDA GİZLİ ÇƏKİLİŞ METODUNUN NƏZƏRİ ƏSASLARI

Açar sözlər: Ekran publisistikası, telepublisistika, gizli çəkiliş, efir, gizli kamera
Key Words: Screen publishing, teleposting, secret shooting, efir, hidden camera
Ключевые слова: Экранная публикация, телепоставка, секретная съемка, эфир, скрытая камера

Ekran publisistikasında bədii təfəkkürün xarakteri üslubla, tipi isə janrlarla müəyyən olunur və gerçəkliyə müəllif yozumunu ifadə edir. Telepublisistikada da gerçəkliyin obrazlı modelinin təqdimat forması janr şərtiliyi ilə bağlıdır. Ədəbi publisistikada olduğu kimi, hadisələrə münasibətdə müəllifin şəxsi keyfiyyətlərini aşkarlayan fərdi üslub özünün təkrarsızlığı ilə seçilrək müəllif yozumunu meydana çıxarır. Telepublisistikada da fərdi üslub əsərin ilkinliyini və özünəməxsusluğunu qorumaqla yanaşı, gerçəkliyə münasibəti dəyişdirməklə ictimai rəy formalaşdırır. Hadisələrə münasibətdə tutduğu ittihamçı və yaxud müdafiəçi mövqeyinə görə müəllifin fərdi üslubu onun iddia dərəcəsini də müəyyənləşdirir.

70-ci illərdə ekran kommunikasiyasında dijital sənətlərin - telereklam, videoklip estetikası, kompüter oyunları, elektron rok ritminin təsirindən kütlələrin audiovizual qavrayışında dəyişiklik yarandı. Ənənəvi dramaturgiyanın və avtoritarlığın təsirindən mədəniyyət aləmində formalaşmış ictimai uüslubu, demokratiyanın formalaşdırdığı peşəkar üslub əvəz etdi. Sanki gerçəkliyi təqdim edən müəllifin toxunulmazlığına zəmanət yarandı. Azadlığını hiss edən peşəkar müəllifin fərdi üslubu meydana çıxdı və bu avanqardizmin yeni mərhələyə çıxmasında əvəzsiz rol oynadı. Televiziya digər sənətlərin təqdimatında nəqliyyat vasitəsinə çevrilsə də, paralel olaraq özünün dramaturji strukturunu formalaşdırdı. Artıq telemüəllifin peşəkar üslubu kimi özünü təsdiq etmiş movizm ("move" fransızçca pis deməkdir) üslubunda hadisələrin özu sanki dramaturji strukturu idarə edir (4,s.147).

Audiovizual informasiya vasitələrinin şüura və mənəviyyata təsiri poststrukturalist dramaturji model hesabına fəallaşır. Kompüter qrafikası vasitəsilə təsvir strukturunun dağıdılması və yenidən müxtəlif variantlarda

yığılması sistemi audiovizual təhkiyənin dramaturji modelini proqramlaşdırmağa imkan verir. Və canlı insan fantaziyasını məhdudlaşdıran standart steriotipli dramaturji model müəllif məvhumunu arxa plana atır. "R.Bart, M.Fukon, J.Derrida kimi poststrukturalistlərin müəllifin "ölümü", "itməsi", "dağınıqlığı" fikirləri fəlsəfi metafora olsa da, həyati əsaslardan məhrum deyil" (12, 259).

Informasiya süjeti obyektivliyə söykənsə belə, gerçəklik haqqında tam təsəvvür yarada bilmir. Abraam Molun qeyd etdiyi kimi, "Bu fasiləsiz, nizamsız, ifrat və təsadüfi informasiyalarda təzahür edən mozaik mədəniyyət bizi saysız-hesabsız təsadüfi hadisələrin bol-bol təəssüratı ilə doydurmaqla nəsnələrin səthində dayanmağa və çox da dərinə getməməyə vadar edir" (16). İnformasiyanın sosial təsiri bilavasitə qavrayışla bağlı olduğundan texniki imkanlardan asılı deyil. İnformasiya nəzəriyyəsinin mütləq qanunları onu əsas götürür ki, birbaşa kanal vasitəsilə gedən informasiya heç vaxt genişlənmir. Əksinə azalır və yalnız nadir hallarda (əgər hər hansı bir maneə və xırıltı yoxsa) əvvəlki halında qalır. Beləliklə, informasiya gedən prosesdə informasiya yaranmır. O, bu prosesdə hissə-hissə zəifləyir (13,s.165). Odur ki, dramaturji model hesabına yaranan hadisəlilik informasiyanın aktivlik göstəricisi hesab olunur.

İnformasiya süjetinin dramaturji modelindəki sensasiyalıq - yəni hadisənin qeyri-adiliyi onun bədiiliyinə dəlalət edir. Sensasiyasız süjetin estetik emalı belə ona bədiilik, yəni sensasiya xarakteri verə bilmir. Hadisəli süjetlər canlı şəkildə televiziyanın operativ və analitik informasiya funksiyasında əsas yer tutur. İnformasiya nəzəriyyəçisi Zemanın qeyd etdiyi kimi, "Canlı informasiya insanın bu andaça istifadə etdiyi, ölü informasiya isə kitab oxunarkən yaranan informasiya deməkdir"(13, s.188). İnformasiya mənbəyi kimi qəzetlərə müraciət olunması ölü informasiyanın canlandırılması cəhdidir.

Canlı hadisə əvəzinə şərhlər, şahidlərin müsahibələri informasiyanın estetik bərpası deməkdir ki, bu da özlüyündə ölü informasiyanı meydana çıxarır. Yalnız müəllif—reportyor hadisənin şahidi və iştirakçısı olduqda, nəzəri biliklər mükəmməl informasiya süjetinin təqdimatına şərait yaradır. D.Vertovun nəzəri və peşəkar üslubunun yorulmaz tədqiqatçısı S.V.Drobaşenkonun yazdığı kimi "Əslində, "həyata müdaxilə" müasir kinodramaturgiyanın reportaj üsulu deməkdir (4, s.155).

Məşhur rejissor Drobaşenko gizli çəkiliş zamanı müşahidə prosesinin çox vacib olduğunu deyir. O öz kitabında müşahidənin yönəldiyi hədəfə uyğun olaraq bir neçə yerə bölündüyünü qeyd edi .

1. Ərazini müşahidə etmək;
2. Hərəkət edən obyekt üzərində müşahidə;

3.Məkandan və obyektdən asılı olmayaraq mövzunun izlənməsi (23. Səh 149.)

Bu üsullardan sənədli film çkilişində geniş istifadə olunur. Müəllif qeyd edir ki, bu kimi vasitələr filmin və ya telexəbərin emosionallığını artırır. Bu da öz növbəsində auditoriyada maraq yaradır. Əslində, həyat gözlənilməz hallarla doludur. Bəzən hər şey biz proqramlaşdırdığımız kimi getmir. Məsələn, müəyyən bir ərazidə müşahidə apara bilərik, amma istədiyimiz nəticəni alacağımıza heç kəs zəmanət verə bilməz. Odur ki, jurnalist hər vəziyyətə hazır olmalıdır. Bəzən sadəcə operatorun bəxti gətirmir və lazımı anda kamera və ya ümumi görüntü ilə bağlı problemlər ortaya çıxır. Əsas odur ki, jurnalist və onun komandası vəziyyətdən çıxmağı bacarsın.

Müşahidə günlər, həftələr, aylarla davam edə bilər, lakin bütün hallarda istənilən nəticə əldə etmək mümkün deyil. Həyatın monotonluğunu heç bir şey poza bilməz. Əgər məqsəd bu xüssusiyyətləri qeyd etmək deyilsə, o zaman məsələ həll edilməmiş qalacaq(10, s.149).

Uzun müşahidə üsullarını əsaslandıran Vertov 1924-cü ildə fikirlərini belə əsaslandırıb: "Gizli müşahidə yerlərindən çəkiliş, səbir və diqqət, döyüş nizamnaməsi". İki il sonra nəzəri "Kino göz" məqaləsində üç əsas kateqoriya təqdim edib:

- Iş yerindən müşahidə (məs, hər hansı bir oxu zalından);
- Hərəkət edən şəxs və yaxud əşyanın müşahidəsi (məs, öz müəllimini, həkimi və yaxud hərəkət edən avtobusu müşahidə etmək);
- Yerindən və yaxud kimliyindən asılı olmayaraq hər hansı müşahidə (məs, su, çörək, ayaqqabı, atalar və uşaqlar, şəhər və kənd həyatı, gülüş, göz yaşı və s.)

Həyat hadisələrinin, insan emosiyalarının müşahidəsi yaradıcının reallığa olan münasibətini bildirir (4, s.150). Vertov özünə xas olan terminologiya ilə gerçəkliyin xronikal-sənədli təqdimatının üç əsas istiqamətini göstərib:

"Kinogöz və öpüş - gizli kamera";

"Kinogöz və yanğın - müdaxiləli çəkiliş";

"Kinogöz və qarlı gecə - məkanın müşahidəsi" (11, s.18).

Gizli çəkilişin nəzəriyyəsi ilə bağlı əvvəlcə Vertov, daha sonra isə Tretyakovun qeyd etdikləri bu gün üçün də aktualdır. Vertovun öz sözləri ilə desək, "həyatı sürprizləri ilə" çəkmək o illər üçün yenilik idi. Bu üsul Vertovu qane etdiyindən, onu inkişaf etdirmək, yeni üsullar, yeni planlar o dövr üçün aktual olmayıb.

Müasir dünya televiziyasının informasiya dramaturgiyası gerçəkliyin xronikal sənədli təqdimatında "Kinogöz və öpüş - gizli kamera" üslubundan geniş istifadə edir. Çəkiliş texnikasının hadisələrin təbiiliyinə mane olmaması üçün "gizli kamera" metodundan və bu prinsipi həyata keçirən "çəkiliş anının gizlədilməsi" üslubundan istifadə olunur. A.Kurasava teleobyekttivin köməyi ilə kameranı çəkiliş obyektindən maksimum uzaqlaşdırmaqla iri planlar əldə

etmək üçün bu üslubdan bədii oyun kinosunda belə istifadə etmişdir. "Mənə iri plan lazım olanda mən teleobyektivin köməyilə aktyordan uzaqlaşıram. İri planla çəkildiyini ağlına belə gətirməyən aktyorun bütün bədəni oynayır. Əgər həmişə olduğu kimi biz yaxından çəksəydik, o, ancaq mimikaları ilə, sifətilə oynayardı və onun oyunu təbii çıxmazdı" (9, s.183).

Təsvir masştabında iri plan qəhrəmanın keçirdiyi hiss və həyacanların təqdimatında əsas rol oynamaqla yanaşı, dramaturji detalların diqqət mərkəzinə gətirərək onları fəallaşdırır. Orta plan insanı hadisələrin cərəyan etdiyi mühit daxilində təqdim etməklə onun plastikasını və hərəgətini göstərə bilir. Ymumi plan isə naturada və yaxud interyerdəki geniş fəaliyyət məkanını göstərir, kütləvi səhnələri əks etdirərək hadisələrin cərəyan etdiyi mühit barədə geniş təsəvvür yaradır. Rejissor ssenarisində bu təsvir şərtiliyi audiovizuallıq hesabına səssiz kinonun obrazlı həllini daha da dərinləşdirməyə imkan yaranır. Kinonun istehsal prosesinin ilkin mərhələsi olan rejissor ssenarisinin yazılış dövründə modelləşmə və eksperiment aparmağa imkan yarandı. Kağız üzərində film hesab oluna biləcək ssenari, kinolent kimi kinonun öz dəyərini bütünlüklə hazır mala keçirən, dövriyyə vəsaiti hesab olundu. Kinodramaturgiyanın ədəbiyyatın digər sahələri qarşısında hələ ki, uduzmasını fransız tədqiqatçısı Andre Berj "Kino və ədəbiyyat" məqaləsində belə şərh edir: "Ədəbiyyat sadəcə duyğular oyatmaqla kifayətlənmir, hissləri, fikirləri, şərti qənaətləri ifadə edərək bizim daxili fəaliyyətimizin tamamlanmış şəklini yarada bilir. Bu baxımdan ədəbiyyatın imkanı daha zəngindir"(4,s.157).

Ekranda plastikanı sıxışdıran söz canlı obrazların daşıyıçısı olan aktyorları tipajlıqdan çıxararaq onların aktyor olduqlarını - oynadıqlarını hər an tamaşaçıya xatırlatdı. Beləliklə, səssiz kinonun əsasında duran plastika və montajın yaratdığı fotoqrafik poeziya, ədəbiyyatdan gələn və artıq radioda möhkəmlənən ədəbi «rozaja çevrildi və eyni zamanda kino, texnika ilə təçhiz olunmuş teatra bənzədi. Ekranda özünə möhkəm yer tutmuş aktjor, teatr sistemindəki daxili monoloq prinsipinə əsaslandı və bu prinsipi inkişaf etdirən ekran dramaturgiyası meydana çıxdı. Daxili monoloq üzərində qurulan dramaturgiya kinemotoqrafı tamaşalıqdan çıxararaq radio-hekayətə doğru yönəltdi, təsvir hərəgətdən uzaqlaşaraq hekayətin — nəqlin illüstrasiyasına çevrildi. Bununla belə daxili monoloq prinsipi üzərində qurulan dramaturgiya assossasiv təxəyyülü canlandıran təsvirin yaranmasına təkan verdi. Ekranda yuxu, gözə görünmə, sayıqlama, elmi yaradıcı fantaziya kimi subjektiv traktovkalı zaman-məkan şərtiliyi özünə yer tutaraq, qismən də olsa dramaturji funksiya daşımağa başladı. Ekrandakı hadisələrin baş verdiyi məkanın təsviri sterilizə olundu. Kamera qarşısında baş verən hadisələrin horizontunu qapayan süni dekorativ fon və kamera qarşısına əlavə olunaraq yalançı "gizli kamera" prinsipi yaradan detallar,

canlı və cansız rekvizitlər get-gedə aradan çıxaraq aktyor oyununun yaratdığı hadisənin özünü tamaşaçının diqqət mərkəzinə gətirdi. Sözün yaratdığı dramaturgiya filmə klassik sadəlik gətirdi. "Səssiz qəhrəman öz fikir və hərəgətlərini müxtəlif assossasiv detalların və montaj qalmaqalının köməyilə ifadə edirdi. O, "Mən yemək istəyirəm" deyə bilmədiyindən susaraq boşqabda buğlanan şorbaya baxırdı, onun ac-yalavac gözləri, yalmanan dil-dodağı, boşqabdakı şorba ilə ahəngləşərək ayrı-ayrılıqda növbələşərək beş-on montaj kadrından ibarət olan bütün frazada tamaşaçıda uyğun emosiya yaratmalı idilər. Bu emosiya üçün montaj kadrları çatmadıqda cəsarətlə qapıda dayanan ac it və yaxud qonşu masada iştahla xörəyə girişən adam kimi əlavələr olunurdu" (5, s.24). Səssiz kinossenaridə obrazlılıq və montaj prinsipi həlledici rol oynasa da, səsli kinossenari artıq mükəmməl ədəbiyyat nümunəsi kimi oxunaqlığı ilə seçildi. Bu kinossenari audiovizual ünsiyyətin məntiqi tələblərinə çavab verdiyindən yeni yaradıcı model ön plana çıxdı. Tamaşaçı gözü — obyekttiv kamera ilə görünən təsvir bu modelin əsasını təşkil etdi. Səsli kinossenari real gerçəkliyi tam əks etdirdiyindən burada nağılvarı mifik obrazlar get-gedə kütlənin içərisindən çıxan adi adamlara bənzəməjə başladılar. İndi səssizlikdən qurtulmuş ekran qəhrəmanlarının həyatdakı kimi bir-biriylə danışıb söhbət etməsi nəticəsində real problemlərin bədii həllinə şərait yarandı. Lakin ədəbiyyatın digər sahələri kimi kinossenarilər də təbliğat funksiyası daşımağa məhkum oldu. Beləliklə, qarşısında siyasi vəzifələr qoyulmuş səsli kinodramaturgiyada "qəhrəmansızlıq" dövrü başlandı. Mövcud siyasətin diqtəsinə tabe olan kinossenarilərdə "bizimkilər"dən və "özgələr"dən - düşmənlərdən ibarət cəbhələşmə bərqərar oldu. Və onlar arasındakı ziddiyyət hər dəfə "bizimkilər"in xeyrinə həll olundu. Kinossenarilərdə "bizimkilər" gözəl, ağıllı, tədbirli, "özgələr" isə eybəcər, kütbeyin və maymaq təsvir olunurdular. Odur ki, ədəbi qanunlara deyil, siyasi diqtəyə tabe olan dramaturji strukturda "özgələr" həmişə məhvə məhkum idilər. Təbliğat funksiyası daşıyan bu kinossenarilər dramaturji qanunlara tabe olmadıqlarından "müsbət"lərin, "bizimki"lərin mənəvi dəyərləri və ideya saflıqları sübuta yetirilə bilmirdi. Odur ki, yeni ideologiyaya canla-başla xidmət edənlərlə onlara maneçilik törədən mənfi qəhrəmanlar arasında mövçud olan ziddiyyət əsas dramaturji hadisəjə xidmət etmirdi. Sadəcə müsbət qəhrəmanlar ütülü, ölçülüb-biçilmiş söhbətlər aparır, mənfilər isə ağızlarına gələni danışaraq gülüş hədəfinə çevrilirdilər. Personajlar yeni ideologiyaya münasibətlərinə görə çeşidləndiklərindən daxili məntiqdən uzaq, rəmzi obrazlara çevrilərək insani dəyərlərdən uzaqlaşırdılar. Bu isə şəxsiyyətə pərəstiş dovrü olan 30-50-ci illərin səsli kinossenari qəhrəmanları üçün xarakterik idi. Real həyat hadisələrini əks etdirməyən sovet ədəbiyyatında "konfliktsizlik nəzəriyyəsi" formalaşdı və digər ədəbiyyat nümunələri kimi ssenarilər də gərgin və

ziddiyyətli həyat hadisələri toplusunun zaman, məkan parametrlərinin ziddiyyətli həlli tapılır. Əslində emosional mövzunun dramaturji strukturda semantik qablaşdırılmasından yaranan ssenaridə sənət qanunlarından başqa riyazi bölgu sistemi də vacib rol oynayır. Tamaşaçı uçun mövzunun inkişaf prosesi, hadisələrin gedişi nəticədə maraqlı olduğundan fasiləsiz informasiyanın lazımi dozalarla zaman həddində təqdimatı onun maraqla izlənilməsinə şərait yaradır. İnformasiyanın hadisəli inkişaf prosesinin izlənilməsi tamaşaçını nəticədən çox maraqlandırdıqandan zamanı tələsdirmək də olmaz. Ziddiyyətin daşıyıcısı olan personajların təsvir təqdimatında da sifətlərin lazımi ana qədər gizlədilməsi və ifadəli iri planın yalnız dramaturji zirvədə verilməsi vacibdir. Zaman ziddiyyətini yaşamayan hadisəsiz informasiya tamaşaçının hiss-həyəcanlarına təsir etmək qüdrətinə malik olmadığından onun təqdimatı asan və gərəksiz işdir. Peşəkar ssenariçi cüzi informasiya hesabına belə riyazi cəhətdən qurulmuş strukturda zaman, məkan ziddiyyətləri hesabına tamaşaçı diqqətini idarə edir. Audiovizual təhkiyədə ədəbiyyatdan gələn söz və mətn kinodan gələn portret və peyzajla da, ziddiyyətlər sistemində qurularaq mövzunun bədii həllini əks etdirir. Ziddiyyətin tərəflərini müəyyənləşdirən personajlar arasında - kişi-qadın, qoca-çavan, uzun-gödək, arıq-kök, varlı-kasıb kimi kəskin fərqlə yanaşı, hadisələrin çərəyan etdiyi muhit, natura, peyzaj da dramaturji hadisələrlə kontrapunkt yaratmalıdır.

Gizli çəkiliş adi halda açıqlanmayan səbəbləri, həqiqəti üzə çıxarmağa kömək edir. Bu da bütün KİV-in ehtiyacı olduğu bir məsələdir. Hər bir televiziya, internet yayım daha çox auditoriya cəlb etmək istəyir. Bunun üçün üsullar axtarır. Gizli çəkiliş KİV-in arzusunu artıqlaması ilə həyata keçirir. Gizli çəkilişin daha bir üstün cəhəti insanların psixologiyasında əksini tapıb. Bəllidir ki, gizli iş həmişə maraqlıdır. İnsan instinktiv olaraq gizlədilənə həvəs göstərir. Bu sirrlər birdən birə açılanda, xüsusilə tamaşaçı onu gözü ilə gördükdə ekran qarşısından ayrılmır. Pultu əlinə alır və televizorun səsini qaldırır. Materialı efirə yenə versələr təkrar-təkrar baxır. Kənarda bir iş görən insanlar da bu an televizora yaxınlaşır. Bir sözlə tamaşaçı kütləsi artır. Bu da TV-nin xeyrinə işləyir.

Gizli çəkilişin elə cəhətləri də var ki, bu KİV-in "başına iş açır". Xüsusilə Azərbaycanda, gizli çəkilişin konkret hüquqi tənzimi olmadığından vəziyyət həm kadr qəhrəmanının, həm də jurnalistin əksinə işləyə bilər.

Həyat hər cür gözlənilməz hadisə ilə doludur. Gizli çəkiliş lentinə təsadüfən pornoqrafik material kimi dəyərləndirilən hadisələr daxil ola bilər. Və ya dövlət sirrinin təhlükəsizliyinə zərər yetirən kadrlar gizli kameraya yazıla bilər. Bütün bu faktlarla ehtiyyatlı olmaq lazımdır. Efirə verməzdən öncə düşünmək və doğrunu seçmək gərəklidir. Əks halda həm jurnalist, həm də onun xidmət etdiyi KİV zərər çəkəcək.

ƏDƏBİYYAT SİYAHISI

1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı. 2007
2. Azərbaycan Respublikasının "Kütləvi informasiya vasitələri haqqıda" Qanun. "Jurnalistika və hüquq" mərkəzi, Bakı. 2000.
3. Atilla Girgin, Haber Yazma Teknikleri, "Haberci Adayının El Kitabı". İnkılap Kitabevi. İstanbul. 1998,
4. Dadaşov A. Ekran dramaturgiyası (mövzu, struktur, üslub, janr), Bakı, "Maarif", 1999
5. Dadaşov A. Gerçəkliyin astanasında, Bakı, 1992
6. Qafarlı Ə. "Televiziya jurnalistikasının əsasları". Bakı.2009
7. Məmmədli Z. "A-dan Z-yə telexəbər"
8. Məmmədli Ə., Yusifova Z., Bayramov A., Hacılı R. Jurnalistin hüquq məsləhətçisi, Bakı, 2009
9. Акира Курасова, Секреты мастерства, М., 1973,
10. Дробашенко С. В. «Феномен достоверности». Наука. 1972
11. Дробешенко С.В. Теоритические вгляды Вертова, в.к. «Дзига Вертов» М., 1966, с.18
12. Ивбулис. «От модернизм и постмодернизму», ж., «Вопросы литературы», №9, 1989, стр.259
13. Земан И. «Познание и информация". М. 1966
14. Зингер Л.С. Очерки теории и истории портрета. М., 1986
15. http://platona.net/load/knigi_po_filosofii/kulturologija/mol_abraam_sociodinamika_kultury/16-1-0-834

A. Nasirova

The principles of the written background method in scientific literature

Summary

The theoretical aspects of metodolgy of the hidden camera shooting are considered in the article. Particularly it emphasizes the supportive fact of helping to uncover the truth, causes that can not be called during routine shooting. This is what all the media needs. Every television channel, or any Internet broadcaster wants to attract more viewers. On this occassion they look for ways to do this. Secret shooting completely provides the desire and purpose of the media. Another advantage of secret shooting is the impact on people's psychology. It is clear that the secrecy has always been interesting. Man instinctively shows enthusiasm for all that is called "secrecy". When these secrets disclosed suddenly, especially when the viewer sees it in front

of the screen, it works for the benefit and rating of the television. But there are also some aspects of secret shooting that work against the same TV channels. Especially in Azerbaijan, since there is no specific legal regulation of secret shooting, the situation can work in favor of the hero and the journalist, and sometimes even against.

Айнур Насирова

Принципы письменного справочного метода в научной литературе

Резюме

В статье рассматриваются теоретические аспекты метода съемки скрытой камеры. Особо подчёркивается факт помощи раскрытия правды, причины которые невозможно называть во время обычной съемки. Это то в котором нуждается вся СМИ. Каждый телевизионный канал, интернет-вещатель, хочет привлечь больше зрителей. Ищет способы сделать этого. Секретная съемка полностью обеспечивает желание и цель средств массовой информации. Еще одно преимущество секретной съемки – влияние на психологию людей. Понятно, что секретное дело всегда было интересной. Человек инстинктивно проявляет энтузиазм всему тому что является секретной. Когда эти секреты открываются внезапно, особенно когда зритель видит его перед экраном, это работает на пользу и рейтингу телевидения. Но есть и некоторые аспекты секретной съемки, которые работают против тех же телеканалов. Особенно в Азербайджане, поскольку нет конкретного правового регулирования секретной съемки, ситуация может работать в пользу герой и журналиста, а иногда даже против .

Rəyçi: Allahverdi Məmmədli
Filologiya üzrə elmlər doktoru, professor

ULDUZ QƏHRƏMANOVA
Filologiya üzrə fəlsəfə doktoru
ADPU
ulduz.qehremanova@mail.ru

M.Ə.SABİRİN KLASSİK IRSLƏ ƏLAQƏSI Ə.NAZİMİN TƏDQİQATLARINDA

Açar sözlər: irs, klassik, satira, şeir, ədəbiyyat, tənqid
Keywords: heritage, classical, satire, poetry, literature, criticism
Ключевые слова: наследие, классическая, сатира, поэзия, литература, критика

M.Ə.Sabirin klassik irslə əlaqəsi məsələsi onun ən yaxın dostları və həmkarları tərəfindən tez-tez xatırlanıb, göstərilmişdir. Ancaq bütün bunlar, əlbəttə, kifayət deyildir. Araşdırmalar göstəriri ki, şairin poetik irsinin tədqiqi və nəşri məsələləri sonrakı illərdə daha da canlanmışdır. Bütün bunlar isə səbəbsiz deyildi- tanınmış sabirşünas alim, professsor Tərlan Novruzov bu haqda danışarkən, haqlı olaraq yazır:

"Azərbaycan sovet ədəbiyyatşünaslığının milli klassiklərin tədqiqi sahəsində nailiyyətlərinin bir qismi Sabir irsinin öyrənilməsi ilə əlaqədardır. Sabir sosialist inqilabından sonra birinci öyrənilən, əsərləri nəşr edilən sənətkarlardandır. Bu isə təsadüfi deyildir. Sabir bütün yaradıcılığı ilə yeni həyat uğrunda, ictimai quruluş uğrunda mübarizə aparmışdı. Sabir inqilabdan əvvəl öz poeziyasını xalqın siyasi mübarizəsi ilə sıx bağlayan şairimizdir. Sabir öz sənəti ilə həmişə inqilabçı sinfin silahdaşı olmuşdur. Buna görə inqilabın ilk çağından Azərbaycan sovet dövlətinin gördüyü mədəni tədbirlərdə Sabirin xatirəsinə və irsinə dərin maraq böyük olmuşdur." (3, 55-56)

Doğrudan da, sovet hakimiyyətinin elə ilk illərindən Sabirin əsərlərinə yüksək dəyər verilməyə başlamışdır. Çünki onun satiraları cəmiyyətdəki köhnəlikləri və eybəcərlikləri amansızcasına ifşa edirdi. Bu tənqiddə istiqlal arzuları, gələcək xoşbəxt həyat da görünürdü. Ona görə sovet təbliğatçıları öz işində Sabirin əsərlərindən çox yaxşı şəkildə faydalanırdılar. Söz yox ki, həmin yararlanmadan M.Ə.Sabirin ədəbi fəaliyyətinə də müəyyən pay düşürdü. Yəni şairin həyat və yaradıcılıq yolu öyrənilir, əsərləri təkrar-təkrar nəşr edilir, haqqında elmi məqalələr və kitablar yazılıb çap etdirilirdi. Həmin elmi əsərlərdə M.Ə.Sabirin klassik irslə əlaqəsinin müxtəlif cəhətlərinə münasibət də bildirilirdi. Belə müəlliflərdən biri dövrünün görkəmli tənqidçilərindən olan Əli Nazim idi. O, "Sabir Tahirzadə" adlı elmi məqaləsində şairin yaradıcılığının ilk dövründə Şərq şeirinin köhnə

ənənələrinin təsiri altında yazıb yaratdığını önə çəkirdi. Tənqidçi göstəriridi ki, "Sabir uzun müddət köhnə həyatın girdablarından özünü qurtara bilməyərək, Şərq şairlərinin ənənələrinə özünü uydurmuşdur. O, yalnız 44 yaşlarında öz yaradıcılıq qanadlarını həqiqət üfüqlərinə doğru açа bilmiş və bizim tanıdığımız Sabir ola bilmişdir." (4, 8)

Göründüyü kimi, Əli Nazim M.Ə.Sabir və klassik Şərq poeziyası məsələsindən bəhs edəndə əvvəlcə şairin qəzəl, qəsidə şairi olduğunu, sonralar isə yeni və orijinal yaradıcılıq yoluna qədəm qoyduğunu önə çəkmişdir. O, Sabirin yeni yaradıcılıq yoluna 44 yaşından sonra, 1905-ci il rus inqilabından sonra başladığını da xüsusi vurğulamışdır.

Əli Nazimə görə, Sabirin gənclik illərində köhnə şeir ənənələrinin təsiri ilə vaxtı keçmiş mövzulardan şeirlər yazması onun M.F.Axundzadə ilə başlayan yeni ədəbi-ictimai hərəkatdan xəbərsizliyi ilə əlaqədar idi. Bundan başqa o, həm də S.Ə. Şirvaninin, hələ də tamamilə təsirindən çıxa bilmədiyi köhnə şeir ənənəsi ilə yazıb-yaratdığı dövrünün təsirindən qurtara bilmədiyi vaxtlarda yazıb-yaradırdı. Tənqidçi bu haqda fikrini belə izah edirdi:

"Sabirin belə gec özünü tanımağının səbəblərindən biri də onun Zaqafqaziyanın mədəni ocaqlarından uzaqlığı, Mirzə Fətəli ilə başlayan mütərəqqi Azərbaycan mədəni-fikri hərəkatından xəbərsizliyi, öz fəaliyyəti etibarı ilə çox yarımçıq prinsipsiz bir tərəddüdçü olan Seyid Əzimin məktəbinə mənsubiyyəti idi." (4,8)

Göründüyü kimi, müəllif Sabirin S.Ə.Şirvani ilə münasibətlərinə daha çox ideoloji nöqteyi-nəzərdən yanaşır. Bu zaman o, ifrata varır, poeziyanın sənət və yaradıcılıq meyarlarını bir yana qoyub az qala Seyid Əzim də bir proletar şairi olmadığına görə ittihama çalışır. Halbuki, yuxarıdakı təhlillərdən də aydındır ki, M.Ə.Sabirlə S.Ə.Şirvaninin qarşılıqlı ədəbi yaradıcılıq əlaqələri ideya-siyasi deyil, ancaq sənətkarlıq xarakteri daşımışdır. Sabirin Mirzə Fətəli və onun ideyalarından xəbərsizliyinin və ya bir qədər gec xəbər tutmasının səbəbləri barədə söylənilənlərlə isə müəyyən mənada razılaşmaq olar.

Ancaq son dövr araşdırmalarından məlum olur ki, M.Ə.Sabir XIX əsrdə də şeirin, poeziyanın ictimai mahiyyəti və məzmunu haqda kifayət qədər aydın təsəvvürə və yaradıcılıq mövqeyinə malik olmuşdur. Bunun haqqında sabirşünas alim, professor Alxan Bayramoğlu bəhs edərkən yazmışdır: "Səyahətdən qayıdıb ailə quran Mirzə Ələkbər Sabir ailə-məişət qayğıları ilə yanaşı, ölkənin sosial-mədəni həyatını sarmış olan mənəvi-psixoloji yeniləşmə və təmizlənmə burulğanının içində öz yaradıcılıq amalının hələ uzaqlardan parlayan üfüqlərinə doğru yol almaqda idi. O, belə bir qəti qənaətə gəlmişdi ki:

Şeir bir gövhəri-yekdaneyi-ziqiymətdir,
Salmaram vəsfi-düruğ ilə onu qiymətdən.

Deyərəm həcv, sözüm doğru, kəlamım şirin,
Əhli-zövqə verərəm nəşə bu xoş şərbətdən.

Göründüyü kimi, Sabir artıq öz yaradıcılıq yolunu müəyyənləşdirmişdi; o, həcv, yəni satira yazacağını, özü də bu fəaliyyəti ilə xalqa yeni ideya-əxlaqi keyfiyyətlər aşılayacağını bəyan edirdi." (1, 10)

Ə.Nazim M.Ə.Sabirdən danışarkən onun klassik şeir ənənələrinə tamamilə yeni münasibət bəsləməsi faktını, yəni əsrlərdən bəri poeziyada kök salmış, bayağılaşmış epitetlərə gülməsini təqdir etmişdir. Həmin münasibətdə də ideoloji yanaşma özünü göstərsə belə, müəllifin elmi fikirləri təqdirə layiqdir. Əli Nazim poeziyada Sabirin tamamilə yeni bir cığır açdığını belə təsvir və təqdim edir:

"...Şeir tariximizdə ən böyük cərəyanlar açan Füzuli və Vaqifdən sonra Sabir ən ictimai və demokratik-realist Azərbaycan şeirinin banisi, başçısı və klassiki olmuşdur. Sabir İran, Türkiyə, Orta Asiya sərhədlərini aşaraq, böyük ictimai-ədəbi bir rezonans buraxmış və həmin ölkələrdə bir sıra yeni mütərəqqi cərəyanların yaranmasında mühüm rol oynamışdır. Min birinci dəfə olaraq zülfi-pərişanları və qönçə dodaqları tərənnüm edən qəzəl ədəbiyyatına o, böyük bir zərbə vurmuş və "Ey annın ay, üzün günəş, ey qaşların kaman!" parodiyası ilə bütün o qəzəl epiqonlarının boşbeyinliklərini göstərmişdir." (2, 11)

Göründüyü kimi, müəllif M.Ə.Sabirin klassik ədəbi ənənələrdən gələn epiqonçuluğa, bayağılaşmış epitetlərə vurduğu zərbəni alqışlamışdır. Bu zaman o, böyük şairin Azərbaycan poeziyasında həm də sənətkarlıq cəhətdən böyük bir inqilab yaratdığını xüsusi vurğulamağı da lazım bilmişdir. Ə.Nazim bu yeniliyin böyüklüyünü və son dərəcə əhəmiyyətli olmasını Sabirin klassik ədəbiyyatda əsrlərdən bəri kök salan epiqon epitetlərə - "min birinci dəfə olaraq zülfi-pərişanları və qönçə dodaqları tərənnüm edən qəzəl ədəbiyyatına ...böyük bir zərbə vurmasında" görürdü.

Doğrudan da, M.Ə.Sabir öz yaradıcılığı ilə milli poeziyada M.Füzulidən və Molla Pənah Vaqifdən sonra yeni bir cığır açdı. O cığır inqilabi satira üslubu idi. Həmin yaradıcılıq üslubunun böyüklüyünü və təsir gücünü Cəlil Məmmədquluzadə "nərilti gurultu" kimi qiymətləndirmiş və göstərmişdi ki, Sabirin bu gəlişi ilə "Molla Nəsrəddin" jurnalında "Lisan bəlası" şairi səsini xırp kəsmişdir. Sabirin poeziya günəşi o qədər şəfəq saçdı ki, yuxarıda göstərdiyimiz kimi, onun adı ilə bağlı olan poeziya məktəbinin gələcək nümayəndələri - Ə.Nəzmi, Ə.R.Şəmsizadə, M.H.Zeynalov, Ə.Qəmküsar və başqaları öz ustadlarının yazı tərzini, poeziyada yaratdığı yeni yaradıcılıq üslubunu birdən-birə mənimsəyə bilmədilər. Bunun üçün onlara xeyli zaman lazım oldu.

İstifadə edilmiş ədəbiyyat:

1. Bayramoğlu A. Mirzə Ələkbər Sabir. Mirzə Ələkbər Sabir-150. Biblioqrafiya. Tərtibçilər Məlahət Həsənova, Gülbahar Misirova., Bakı: M.F.Axundov adına Milli Kitabxana. 2012.
2. Nazim Ə. Sabir Tahirzadə Sabir, (Məqalələr məcmuəsi), Bakı:1962.
3. Novruzov T., Sabirşünaslıq Azərbaycanda və xaricdə, Bakı: 2012.
4. Sabir (Məqalələr məcmuəsi), Azərb, SSR EA. nəşr.,1962, s.264.
5. Sabir M.Ə. haqqında tədqiqlər, Bakı: "CBS" nəş., 2012, 453 s.
6. Sabir Mirzə Ələkbər, Hophopnamə, Tərtib edən, müqəddimə və şərhlərin müəllifi Məmməd Məmmədov, Şərq-Qərb, Bakı: 2004, I cild, 478 s.
7. Sabir Mirzə Ələkbər, Hophopnamə, Tərtib edən, müqəddimə və şərhlərin müəllifi Məmməd Məmmədov, Şərq-Qərb, Bakı: 2004, II cild, 383 s.
8. Sabir Mirzə Ələkbər, Hophopnamə, Tərtib edən, müqəddimə və qeydlərin müəllifi Alxan Bayramoğlu, Bakı: Təhsil, 2012, 552 s.
9. Sabir Mirzə Ələkbər haqqında tədqiqlər. (elmi məqalələr toplusu), Toplayıb tərtib edən, ön sözün müəllifi və redaktoru Alxan Bayramoğlu (Məmmədov) Bakı: (CBS), 2012, 456 s.
10. Sabir Mirzə Ələkbər-150. Biblioqrafiya. Tərtibçilər. Məlahət Həsənova, Gülbahar Misirova. Bakı: M.F.Axundov adına Milli Kitabxana, 2012, s.384
11. Sabir xatirələrdə, Bakı: Gənclik, 1982, 164 s.

Gahramanova Ulduz Farhad

A.Nazim`s studies of the relationship between classical heritage Sabir
Summary

Sabir was brought up in a patriarchal-religious atmosphere. When he was twelve years old, Alakbar entered the school of Seyid Azim Shirvani, a poet and teacher. Personal contacts with this man greatly influenced formation of Sabir as a poet. Encouraged by Seyid Azim, Sabir began translating Persian poetry and wrote poems in Azeri. Sabir's best, most creative mature years are associated with this publication. His pen did not miss a single political event, a single problem typical for the still the feudal-patriarchal Azerbaijani society and he embodied his ideas in stirring, thought-provoking images. Sabir wrote about the arbitrariness of Tsarist officials, landowners and beys ignorant to their people, the backwardness of the clergy, the down-trodden status of women and the social situation of the working people. Sabir's poetry won him the people's respect and popularity,

at the same time, placing him in a very risky and dangerous position. He was exposed to persecution, attacks and insults of the officials, mullahs and qochus (bouncers), who threatened him with reprisals. That's why Sabir (this pen-name means patience) had more than fifty pen-names. But even this could not help him escape from persecution.

Гахраманова Улдуз Фархад

Исследования взаимосвязи между классическим наследием Сабира А.Назимом

Резюме

В социальных сатирах Сабира впервые в азербайджанской литературе ставился вопрос о классовом угнетении; люди труда слышали в них призыв к борьбе за свои права. В политических сатирах нашли отражение разгон Государственной думы в России, интриги самодержавия против освободительного движения в странах Ближнего Востока, деспотизм турецкого султана, происки международной реакции. Сабир призывал к просвещению, раскрепощению женщин, к свободе слова. В социальных сатирах «А что нам?», «Плач», «Попрошайка», «Что мне за дело?», «Жалоба старика» и других Сабир впервые в азербайджанской литературе поставил вопрос о неравенстве в обществе. Люди труда почувствовали в этих произведениях призыв к борьбе за свои попранные права. В стихотворении «Хлебороб» Сабиру не чужда светлая надежда, ему видится будущее сквозь тьму рабства и нищеты, он воспевает труд хлебороба, восхищается его любовью к земле-кормилице, утверждает право крестьянина на лучшую долю.Ряд произведений Сабир создал совместно с Джалилом Мамедкулизаде. Вместе с ним и другими передовыми писателями Сабир создал новую сатирическую школу в азербайджанской литературе реалистического направления. Несмотря на преследования со стороны духовенства, натравливавшего на писателя темные массы, Сабир продолжал настойчиво бороться за свои идеи, писал в различных журналах и газетах под разными псевдонимами («Мират», «Фазил», «Алгар-Гюлеген» и др.). Его стихи наряду с лучшими произведениями других молланасреддиновцев явились первыми образцами пролетарской литературы на азербайджанском языке и подготовили почву, на которой выросла затем азербайджанская советская литература.

Rəyçi: Tərlan Novruzov
Filologiya üzrə elmlər doktoru, professor

LEYLA BAYRAMOVA
AMEA Nizami Gəncəvi adına Milli
Azərbaycan Ədəbiyyatı Muzeyi
UOT 821.512.162
rafiyeva.leila@gmail.com

KİŞVƏRİN FARSDILLI ŞEİRLƏRINƏ DİNİ RƏVAYƏTLƏRIN TƏSİRİ

Açar sözlər: dini rəvayətlər, peyğəmbər obrazları, təlmih, Quran hekayələri, Orta əsrlər ədəbiyyatı
Key words: религиозные истории, образы пророков, аллюзия, Коранические истории, литература средних веков
Ключевые слова: religious stories, prophetic images, allusion, Quranic stories, literature of Middle Ages

Orta əsrlər dövründə xüsusən də İslam dinin Yaxın və Orta Şərq ölkələrində yayılmasından sonra İslam dini həyatın bütün sahələrində hakim mövqeyə malik olması heç kəsə sirr deyildir. Bu səbəbdən qələm sahiblərinin yaradıcılığında İslam dini və onunla əlaqdar mövzular üstünlük təşkil etməyə başlamışdı. Təbii olaraq, bu tendensiya Azərbaycan ərazisində yaşayıb-yaratmış söz sərraflarının irsinin ideya-bədii mənbələrindən biri də İslam dini və Quran rəvayətləri olmuşdur. Dövrümüzə qədər gəlib çatmış və elmə məlum olan əlyazmalarda kifayət qədər buna sübutlar mövcuddur. Bu məqalədə təxminən XV əsrin əvvəllərindən XVI əsrin ilk onilliyinə qədər yaşamış Azərbaycan şairi Nemətullah Kişvərinin farsca "Divan"ının iki əlyazma nüsxəsində rast gəlinmiş peyğəmbər obrazları, təlmihlər və digər şəkildə Quran rəvayətlərinin təsirləri araşdırılmışdır.

Türkcə şeirləri araşdırılısa da farsca şeirləri indiyə qədər araşdırılmamış Nemətullah Kişvərinin əlimizdə olan farsca şeirləri mövzu, bədii ifadə və təsvir vasitələrinə görə zəngindir. Orta əsrlər ədəbiyyatına xas olan ənənəvi motivlər, obrazlar sisteminə Kişvəri yaradıcılığında da rast gəlmək mümkündür. Adətən, bu obrazlar ya folklordan qaynaqlanmış, ya dini, ya da tarixi şəxsiyyətlərin obrazları olmuşdur ki, əsrlər boyu ədəbiyyatda dönə-dönə işlənmişdir.

Azərbaycan ərazisində yaşayıb-yaratmış söz sərraflarının irsinin ideya-bədii mənbələrindən biri də İslam dini və Quran rəvayətləri olmuşdur. Qurani-Kərimin ayələri və hədislər çox zaman mədrəsə şairləri üçün ilham mənbəyi olmuşdur. Digər qaynaq peyğəmbər hekayələridir ki, bunların da çoxu Quranda yer almaqdadır.(9,s.185-186) Şərq ədəbiyyatında peyğəmbərlərin qissəsi ilə əlaqədar mövzuların əks olunmasından bəhs edərkən bunun tarixinin hələ cahilliyət dövrü ərəb poeziyasına gedib çıxdığı qeyd olunmalıdır.(2,s.15)

Dövrümüzə qədər gəlib çatmış və elmə məlum olan əlyazmalarda buna kifayət qədər sübutlar mövcuddur. Nemətullah Kişvərinin əlimizdə olan farsca şeirləri mövzu, bədii ifadə və təsvir vasitələrinə, obrazlar baxımından zəngindir. Orta əsrlər ədəbiyyatına xas olan ənənəvi motivlər, obrazlar sisteminə Kişvəri yaradıcılığında da rast gəlmək mümkündür.

Adətən, bu obrazlar ya folklordan qaynaqlanmış, ya dini, ya da tarixi şəxsiyyətlərin obrazları olmuşdur ki, bu da əsrlər boyu ədəbiyyatda dönə-dönə işlənmişdir. Ədəbiyyatda byu xüsusi leksika vasitəsilə verilir ki, Aida Qasımova həmin söz və ifadələri aşağıdakı kimi qruplaşdırmışdır:

"1) İslam dininin əsas ehkamlarını, islam fəlsəfəsini, bir sıra islami təsəvvürləri əks etdirən sözlər; 2) Allah-Təalanın adları və Allah-Təalaya müraciətlə bağlı sözlər;3) Qurani-Kərim,onun surə və ayələrinin adları; 4) islam dini ilə bağlı toponimlər; 5) Qiyamət günü, cənnət və cəhənnəm, mələklərlə bağlı sözlər; 6) islam ayinləri ilə bağlı sözlər; 7)səhabələrin, şiə imamlarının, bəzi görkəmli sufilərin adları; 8) Qurani-Kərimdən, hədisi şərifdən, imam Əlinin kəlamlarından iqtibaslardan bəhs edir". (2 ,s. 39-40)

Kişvərinin farsdilli şerilərindən ibarət natamam "Divan"ında peyğəmbərlərdən Süleyman, Xızır, Yusif, Musa, İsa və Məhəmməd (s.ə.s) kimi peyğəmbərlərlə bağlı təlmihlərə və məcazlara rast gəlmək mümkündür. Bunu misallarla əyani surətdə sübut etməyə çalışacayıq. Xüsusi vurğulamaq lazımdır ki, Kişvəri Sam Mirzənin təzkirəsin-də mövlana adlandırılsa da, onu təriqət şairi adlandırmağı düz hesab etmirik. Çünki nə dövründə, nə sonra təriqət şairi kimi tanınmamış, nə də digər təzkirələrdə haqqında təriqət şairi kimi bəhs edilməmişdir. Kişvəri qəzəllərinin birində belə yazır:

روی ترا چو کشوری دید فتاد بی خبر
بی خبر افکند پلی نور خدا کلیم را(13,s.5)

(Kişvəri sənin üzünü görcək özündən bixəbər oldu.
Kəlim-əl Allahın nuru bixəbər saldı)

Bu Quran-i Kərimin Əraf surəsinin 143-cü məşhur ayəsinə işarədir: "Musa təyin etdiyimiz vaxtda gəldikdə Rəbbi onunla danışdı. (Musa) Dedi: "Ey Rəbbim! (Özünü) mənə göstər, Sənə baxım." O dedi: "Sən məni görə bilməzsən. Lakin (bu) dağa bax. Əgər o, öz yerində qala bilsə, sən də Məni görəcəksən" Rəbbi dağa göründükdə onu parça-parça etdi. Musa da bayılaraq yerə sərildi. Özünə gəldikdə isə dedi: "Sən pak və müqəddəssən! Sənə tövbə etdim və mən iman gətirənlərin birincisiyəm!" (1,Əraf 143)

Göründüyü kimi bu misrada şair dillər əzbəri olan Quran qissəsinə işarə edərək edərək özünü Musaya peyğəmbərə, sevgilisini isə Allaha bənzədərək gözəl bir poetik fiqur işlətmiş, sevgilinin gözəlliyini İlahın təcəllisi kimi təqdim etmişdir.

Həmçinin Kişvəri "Divan"ında bir neçə dəfə Süleyman peyğəmbərin adını çəkərək Quranda onun adı keçən rəvayatləri oxucunun yadına salır:

مرا ای هدهد راه هدایت رهنمایی کن
که چون موری به درگاه سلیمان آرزومندم (12, 38a)
Mənə, ey hüdhüd, hidayət yolunu göstər ki,
Qarışqa kimi Süleyman dərgahında arzusundayam.

Bu beytdə şair Qurani-Kərimin Nəml surəsi 20-40-cı ayələrində ismi keçən quş, hüdhüdü, xatırladaraq sevgilini nəzərdə tutulmuşdur. Həmçinin özünü qarışqaya bənzədərək təşbih işlədir və "Süleyman və qarışqa", "Süleyman və hüdhüd quşu" rəvayətlərindən bəhrələndiyini göstərir.(1,Nəml 20-40)

برون آ لب پر از خنده که دوعالم را
مطیع خویشتن زان نقش خاتم کن(12, 45a)
Dodaqlarında gülüş çıx çölə ki, xeyirxahlıqda Süleymansan
O üzüyün naxışı ilə hər iki aləmi özünə ram eylə.

Şair öz sevgilisini Süleyman peyğəmbərə oxşatmışdır. Bundan öncə Süleyman peyğəmbərin məşhur üzüyünə "Xatəmi-Süleymana" bağlı rəvayətə işarə edilir ki, həmin üzük peyğəmbərin qüdrət və hakimiyyət simovolu hesab edilirdi.

گر توام خوانی گدای خویش نامردم اگر (12, 28a)
گنج قارون آرم و ملک سلیمان در نظر
Əgər sən mənə öz gədan desən, namərdən əgər
Qarunun xəzinəsin və Süleyman mülkün nəzərimə gətirsəm.

Süleyman peyğəmərin mülkü haqqında Qurani-Kərimdə yazılır: "(Süleyman dua edib) dedi: "Ey Rəbbim! Məni bağışla və mənə elə bir mülk (səltənət) ver ki, məndən sonra (o cürəsinə) heç kəs nail ola bilməsin. Həqiqətən, Sən böyük ehsan (kərəm) sahibisən! (Allah Süleymanın duasını qəbul buyurdu. Ona həm peyğəmbərlik, həm də padşahlıq əta etdi)."(38:35) Burada da Kişvəri Sevgilini onu özünə qul seçsə, nə zəngiliyi ilə əfsanə olmuş Qarun xəzinəsi, nə də tayı-bərabəri olmayan Süleyman mülkünün onun üçün bir dəyəri olmadığı vurğulayır ki, bununla da sevgisinin böyüklüyünü göstərməyə çalışır.

Qəzəllərinin birində isə Kişvəri İslam dinin böyük peyğəmbəri Məhəmmədin (s.ə.s.) adını çəkməsə də onunla bağlı bu cür təlmih etmişdir:

امّی نارفته مکتب کاتب ننوشته خط
تا ابد علم ازل را حرف حرف آموخته(13,s.2)
Sən məktəbə getməmiş ümmisən,
Əzəl elmini hərf-hərf öyrənmisən.

Onu da qeyd etmək gərəkdir ki, şair Yusif, İsa, Xızır peyğəmbərlərə aid təlmih və məcazlara çox mürəciət etsə də, Musa və Məhəmməd peyğəmbərlə əlaqəli yalnız bir yerdə xatırlatmaya rast gəlinmişdir ki, burada da peyğəmbərin oxuyub-yaza bilməməsinə işarə vardır. Quranda bu hadisə bu cür verilir: "(Ya Peyğəmbər!) Oxu! Sənin Rəbbin ən böyü k kərəm

sahibidir! O Rəbbin ki, qələmlə (yazmağı) öyrətdi. (O Rəbbin ki) insana bilmədiklərini öyrətdi.” (96:3-5) Həzrəti Məhəmmədin “Ümmi” adlanması Əraf 157, Nəhl 103, Ənkəbut 48 surələrində rast gəlmək olar.

Şairin farsca şeirlərində ən çox rast gəldiyim bənzətmələr isə Xızır peyğəmbərlə bağlıdır. Düzdür, bir çox tədqiqatçıların yazdığına görə Quran-i Kərimdə Xızır peyğəmbərin adı çəkilməsə də, Kəhf surəsindəki “ilmun min ləduن”dan (dərgahımızdan olan elmdən) xəbərdar olan Allah bəndəsinin Xızır olmasının zənn edilir.(2, s.11)

گلی به عرض رنگین چراغ خانه فروزی
بتی گاه تکلم سروش خضر پیامی(13,s.54)
Bir gülsən al yanağının rəngi ilə evin çırağın yandırırsan
Bir gözəlsən(bütsən) ki,Kəlim Suruşun xəbərini hərdən Xızra gətirirsən.

ای خضر پی خجسته بنمای رخ که ما را
آب حیا ت بی تو زهری شده هلاهل(12, 36b)
Ey Xızır, Xocəstənin ardından bizə üzünü göstər ki,
Abi-həyat həlahel zəhəri oldu.

خضراگر دیدی نمودی راه بیرون شد مرا
در بیابان تمنّای تو سرگردانیم(13,s.30)
Xızrı, əgər gördünsə, yoluma çıx mənim
Biyabanda sənin təmannanla sərgərdanam.

Sözsüz ki, divan ədəbiyyatında yer alan ən məşhur əfsanə və rəvayətlərdən biri abi-həyatla bağlıdır ki, İskəndəri-Zülqərneyn Xızrın bələdçiliyi ilə qaranlıqlar ölkəsində axtardığı və tapdığını zənn edərkən də itirdiyi əbədilik suyudur. Bu motivi Nizami Gəncəvi də “İsgəndərnamə”sində istifadə etmişdir.Kişvəri də burada həmin rəvayətə işarə etmişdir ki, sevgilisinin üzünü göstərməməsi əbədilik suyunun zəhərə dönməsinə səbəb olmuşdur. Kişvərinin farsca şeirlərində özündən əvvəlki ənənəyə uyğun ədəbiyyatın ən məşhur və əvəzedilməz ilham mənbəyi olan Həzrəti Yusiflə bağlı hekayələri müraciət etmişdir.

Quranın 12-ci surəsi Yusif peyğəmbərlə bağlı olan 111 ayədən ibarətdir və şairin dönə-dönə müraciət etdiyi, bir-birindən gözəl bənzətmələrdə adını çəkdiyi, məhz, Yusif peyğəmbərdir. Kişvəri divanın müxtəlif yerlərində bu peyğəmbərin həyatı ilə bağlı ayrı-ayrı bağlı hadisələrdən bəhrələndiyini görürük:

مپوش ای یوسف از ما رخ که همچون کشوری ماهم
نهاده نقد جان بر کف خریدار تویم آخر(12,26a)
Ey Yusif, bizdən üzünü gizlətmə ki, Kişvəri tək biz də
Nəğd canımızı ovcumuza qoyub sənin alıcınıq.

چشم امید خریداران به راهت شد سفید
یوسف من بر سر بازار کی خواهی شدن(13,s.33)
Alıcılarının ümidli gözləri yolunda ağardı

Mənim Yusifim nə zaman bazara çıxacaq?

Burada Yusif peyğəmbərin bazarda qul kimi satıldığı rəvayətindən məcaz kimi istifadə edilmişdir. "Nəhayət, (Mədyəndən Misirə gedən) bir dəstə müsafir (karvan əhli bu yerə) gəlib suçularını (su dalınca) göndərdilər. (Suçu) qabını suya salan kimi: "Müjdə! Bu bir oğlandır! – dedi. Onlar (mü safirlər və ya qardaşları Yusifi) satdıq bir şey (ticarət malı) kimi gizlədib saxladılar. Allah onların nələr etdiyini (Yusifin başına nə oyunlar açdığını) biləndir! (Yusifi təqib edən qardaşları işin nə yerdə olduğunu bildikdə: "Bu bizim qaçmış köləmizdir! – deyə) onu dəyərsiz bir qiymətə - bir neçə dirhəmə satdılar və (bu işdə pul qazanmaq deyil, yalnız Yusifdən xilas olmaq, onu atası Yəqubdan ayırmaq məqsədini güddükləri üçün qardaşlarını baha məbləğə satmağa) tamah göstərmədilər."(1, Yusif 19-20) Göründüyü kimi də Yusifi qardaşları dəyərləndirməsə də Kişvəri sevgilisini Yusifə bənzədərək, onu əldə etmək üçün canını verməyə hazır olduğunu bildirir. İkinci nümunədə isə şair Yusifin atasının oğlunun yolunu gözləməkdən gözlərinin ağardığı söylənən ayədən bəhrələnmişdir. Belə ki, Quranda bu hadisə belə təsvir olunur: "(Bu sözlərdən sonra Yə'qub) onlardan (oğlanlarından) üz döndərdi. (Bin Yaminin başına gələn bu iş onun yadına sevimli oğlu Yusifin müsibətini saldı) və: "(Heyf sənə) yazıq Yusif!" – dedi. Dərd-qəmdən (həmişə ağlamaqdan Yəqubun) gözlərinə ağ gəldi."(1, Yusif 84)

زلیخا در قبا چون تاب نارد دیدن یوسف

کجا تاب آورد دیدن در آن پیراهن چاکش(12,32b)

Zülyexa Yusifi qəbada görəndə tab gətirmir,

Necə yaxası açıq köynəkdə görcək tab gətirsin?!

Züleyxanın Yusifə olan məhəbbətindən və onu necə tovlamaq istəməsi hekayəsi sözsüz ki, Kişvəriyə də məlum idi və bu misralarda da Quranda sözü gedən hadisə bu cür təqdim edilir: "Evində olduğu qadın (Züleyxa Yusifi) tovlayıb yoldan çıxartmaq (onunla yaxınlıq etmək) istədi və qapıları bağlayaraq: "Di gəlsənə!"–dedi. (Yusif isə:) "Mən (sənin bu hərəkətindən) Allaha sığınıram. Axı o (sənin ərin) mənim ağamdır. O mənə yaxşı baxır (və ya Allah mənim ixtiyar sahibimdir, mənə mərhəmət ehsan buyurmuşdur). Həqiqətən, (ağasına xəyanət etməklə, onun əhli-əyalına pis gözlə baxmaq və zina etməklə özlərinə) zülm edənlər nicat tapmazlar!"– deyə cavab verdi" (1, Yusif 23). Şair də bu hadisənin təsvirinin müxtəlif detallarında şeirində mərahətlə istifadə etmişdir.

یوسف من به هر کسی گشت مرد که کرده اند

گرگ صفت برادران هر طرفی کمین تو(13,s.43)

Mənim Yusifim hər kəslə mərd olmuşdur

Qurdsifət qardaşlar hər bir tərəfindən pusqundadırlar.

Burada isə məcaz edilərkən Yusif peyğəmbərlə baölı başqa bir hekayədən istifadə olunmuşdur: "(Qardaşları) onu (Yusifi) götürüb (çölə) apararkən onu quyuya atmaq üçün sözü bir yerə qoydular. Biz (Yusifə): "Sən (bir vaxt) onlara (qardaşlarına) özlərinin bu işi barəsində heç gözləmədikləri (səni tanımadıqları) halda xəbər verəcəksən!" – deyə vəhy etdik.(1, Yusif 15)

جوانا چون نشینی بر سریر مصر نیکویی

(13,s.34) ز کوه حسن را یک روز یاد پیر کنعان کن

Ey cavan, Misir yatağında oturmusan yaxşısan

Hüsnün dağından bir gün Kənan pirini yad eylə.

Burada isə Yusifin padşah tərəfindən onu özünə ən yaxın adamı etməsin, yəni onun yanında mövqe sahibi edib,etibarlı bir şəxs sayaraq Misirin xəzinələrinə məmur təyin olunmasından məcaz kimi istifadə edilmişdir. (1,Yusif 54-56) Sevgilisini Yusifə bənzədərkən, özünü də "Kənan pirinə", yəni Yusifin atası Yaqub peyğəmbərə oxşatmışdır.

Quranda İsa peyğəmbərlə bağlı nəql olunan hekayələrin böyük əksəsiyyətinin məzmunundan doğan bənzətmələrə Kişvərinin fasrca şeirlərində rast gəlmək mümükdündür. Belə ki, Maidə surəsində Alahın İsa peybərə əta etdiyi və onu digər insanlardan fərqli qılan xüsuslar bu cür verilir: "(Ya Rəsulum!) Xatırla ki, o gün (qiyamət günü) Allah (İsaya) belə buyuracaq: "Ya Məryəm oğlu İsa! Sənə və anana nemətimi yadına sal. O zaman səni müqəddəs ruhla qüvvətləndirmişdim. Sən beşikdə olanda da, yetkin çağında da adamlarla danışırdın. Sənə kitabı (yazıb-oxumağı), hikməti, Tövratı və İncili öyrətmişdim. O zaman sən Mənim iznimlə palçıqdan quşa bənzər bir şey düzəldib ona üfürürdün, o da Mənim iznimlə quş olurdu. Sən Mənim iznimlə anadangəlmə kora və cüzamlı xəstəyə şəfa verir. Mənim iznimlə ölüləri (qəbirdən çıxardıb) dirildirdin. Sən İsrail oğullarına açıq-aşkar möcüzələr gətirdiyin zaman Mən (onların bəlasını) səndən dəf etmişdim (səni öldürmək istədikdə onlara mane olmuşdum). Onlardan küfrə batanlar isə belə demişdilər: "Bu, açıq-aydın sehrdən başqa bir şey deyildir!" (5:110) Kişvəri isə sadalanan bu hadisələrlə bağlı müxtəlif qəzəllərin də işarələr etmişdir. Onlara nəzər salaq:

Növbəti nümunədə də İsa peyğəmbərin həyat vermək qabiliyyəti sevgiliyə aid edilmişdir :

همین شد مفجر عیسی که با خورشید همسایه است

تو خورشیدی لب جانبخش را عیسی مریم کن(12,45a)

Sübh vaxtı çıxan İsa o saat getdi ki, günəşlə qonşudur

Sən günəşsən, canbəxş ləbini İsa-yi Məryəm et.

Digər bir nümunədə isə sevgilinin ləbləri İsa peyğambərin ləbləri ilə qarşılaşdırılmışdır ki, ona İlahi vəhylərin gəlməsinə də işarə edən assosiativ bir obraz yaranmışdır.

از فلک بی خبر افتد به زمین گز خبری

از لب لعل تو بر عیسی مریم گذرد(12,23b)

Fələkdən xəbərsiz torpağa düşdü ondan bir xəbər

Sənin ləl ləbindən İsa-yi Məryəm keçər

Kişvəri farsca şeirlərində, xüsusən də qəzəllərində özündən əvvəlki ədəbiyyatdan xəbərdar olduğunu işlətdiyi məcazlarda müqayisə üçün müraciət etdiyi ifadələrdə aşkar göstərmişdir.Həmin ifadələrdə daha qabarıq şəkildə Quran və ondan qaynaqlanan hekayə, rəvayətlərə əsaslanan obrazlardan istifadə edilmişdir. Düzdür, süjetli bir yazı xarakteri daşımasa da təsvir və müqayisələrdə peyğəmbərin ya birbaşa adları çəkilmiş, ya da isimləri xatırladılmadan həmin müqəddəs şəxslərin həyatı ilə əlaqəli hadisələrə işarə edilmişdir.Həmçinin Quran rəvayətlərinin təsiri farsca şeirlərdə təşbih, təlmih, istiarə kimi poetik vasitələr şəklində öz əksini tapmışdır.

Ədəbiyyat:

1. Bünyadov Z., Məmmədəliyev V. Quran. Bakı: Azərnəşr, 1992, 721 s.
2. Qasımova Aida. Qur'an qissələri XIV-XVI əsrlər Azərbaycan ədəbiyyatının ideya-bədii qaynaqlarından biri kimi,Bakı: Nurlan, 2005, s.

Rus dilində:

3. Мифы народов мира. Москва: Советская Энциклопедия1980, 1147 с.
4. Рассказы о пророках - Кисас аль-анбийа / Пер. с ар. А. Нирша ;[ред. К. Кузнецов] ; комм. А. Нирша, К. Кузнецов. — 2-е изд., испр. М.: Умма, 2012, 1024 с
5. Akdemir H. Belağat terimleri ansiklopedisi. İzmir: Çağlayan A.Ş., 1999, 415 s.
6. Harman Ö. F., Kurnaz C. Hüdhüd / Türkiye Diyanet Vakfı İslam ansiklopedisi. Türkiye Diyanet Vakfı Resûlîler. Sak. Ankara: TDV. 1998, XVIII c., s.461-462
7. Karataş T. Ansiklopedik edebiyat terimleri sözlüğü. İstanbul: Sütun yayınları, 2011, 654 s.
8. Okuyucu C. Divan edebiyatı estetiği. Kapı yayınları, İstanbul 2011, 255 s.
9.Uzun T. Anlatımlı belağat. Konya: Sebat ofset Matbaacılık, 2008, 286 s.

Fars dilində

10. دیوان کشوری دیلمقانی. نسخۀ خطی کتابخانۀ مجلس شورای ملی. شمارۀ ثبت 9162 .

فوتو № 001 - 0067

11. دیوان کشوری . نسخهٔ از آرشیو شخصی محمد علی کریم زاده . 76 ص.

12. لغت نامه دهخدا، کتاب الکترونیکی CD

Байрамова Лейла

Влияние религиозных легенд на стихов Кишвери на персидском языке

Резюме

В период средних веков после появления Ислама во всех сферах жизни в странах Ближнего и Среднего Востока никому не секрет что религия начал занять ведущее место в обществе. По этой причине в творчестве всех поэтов и писателей начал преобладать темы связи с Исламом. Естественно, на фоне этой тенденции одним из источников идейно-художественной наследии мастеров слов, которые жили творили на территории Азербайджана стал религия Ислам и сказания Корана. Существует достаточно доказательств этому в рукописях, которые дошли до наших времен. В этой статье рассматривается влияние Коранических сказаний на творчество Нематуллаха Кишвери, поэта Азербайджана, кто жил с начала XV века до первой в десятилетие XVI века. Исследование проводилось на материале двух рукописных экземпляра «Диван»а Кишвери на персидском языке. Это влияние чувствуется при выборе образов в связи различных стихворных форм. Более того поэт демонстрирует свои знания в области поэтики с помощью различных тропов и стилистических фигур. Часто Кишвери использует имена пророков в сравнениях. Надо заметить, что поэт только один раз прибегает к аллюзии с историями о пророке Муса (Моисея) и Мухаммеда. Но в основном в сравнениях встречается имена пророка Юсуфа (Иосифа) и пророка Исы (Иисуса). Тексты стихов было рассмотрено с методом системного анализа, а выводы делались по индуктивному методу.

Bayramova Leyla

Influence of religious legends on Kishvary's verses in Persian

Sammary

During the period of the Middle Ages after emergence of Islam in all spheres of life in the countries of the Middle East and it is not a secret to

anybody that religion had begun to take the leading place in the society. For this reason in works of all the poets and writers had themes related to Islam. Naturally, on the background of this tendency one of the sources of ideological and art heritage of word masters who lived and created in the territory of Azerbaijan there was the Islam and legends of the Koran. There are enough proofs to it in manuscripts which have reached to our times. This article is dedicated to Prophetic images and influence of Qur'anic legends on Nimatullah Kishvary's who lived at the beginning of the XV century till the first decade of the XVI century Persian poems. The research was carried out on material of two manuscript copies Kishvary's "Divan" in Persian. The influence of religious legends is felt at the poet's choice of images in various genres of verses. Moreover the poet shows his knowledge in the field of poetics by various tropes and stylistic figures. Kishvary often uses names of prophets in comparisons. It is necessary to notice that the poet only once used allusion about stories related the prophets like Musa (Moses) and Muhammad. But generally in comparisons meets with the names of the prophet Yusuf (Joseph) and Isa (Jesus). Texts of verses have been examined with method of the system analysis, and conclusions were drawn by an inductive method.

Rəyçi: Rafael Hüseynov
Akademik

RUHLANƏ BAĞIROVA
Azərbaycan Dillər Universiteti
ruhlana@rambler.ru

PARTİSIPLƏRIN ƏSAS XÜSUSİYYƏTLƏRİ

(Alman və Azərbaycan dillərinin materialları əsasında)

Açar sözlər: morfoloji struktur, sintaktik funksiya, flektiv sistem, feili sifət
Keywords: morphological structure, syntactic function, inflected system, participle
Ключевые слова: морфологическая структура, синтактическая функция, флективная система, причастие

Dilin leksik layını təşkil edən sözlər dil daşıyıcılarının tələbatına uyğun yaranmış və zaman keçdikcə tədqiqatçılar tərəfindən müəyyən prinsiplər əsasında qruplaşdırılmış və sistemli şəkildə araşdırılmışdır. Qruplara bölünmə prinsipləri və mexanizmi eyni olmadığından problemlə bağlı müxtəlif fərqli fikirlər yaranmışdır [10, s.102].

Kəmiyyət baxımından da qruplar fərqli şəkildə şərh olunmuşdur. Dildə sözlərin siniflərə görə bölgüsündə əsasən üç xüsusiyyət əsas götürülmüşdür: sintaktik funksiya, sözün morfoloji strukturu, sözün abstrakt mənası [1, s.71].

Dillərin söz sinifləri içərisində feillər həlledici mövqe tutur və onlar digər nitq hissələri ilə müqayisədə zəngin flektiv sistemə malikdir. İstər alman, istərsə də Azərbaycan dillərində feillər cümlə strukturunda subyektlə müəyyənləşən hərəkəti ifadə edir. Onun qrammatik subyektlə əlaqəsi verbal prosesin yaranmasına səbəb olur. Bu cəhətdən feil dilin cümlə strukturunda həlledici əhəmiyyətə malikdir. Məs.: *Später trafen sie sich bei einem Abendessen bei Freunden wieder* ‘Sonra onlar dostlarıgildə axşam yeməyində yenidən görüşdülər’[7, s.31] - cümləsində **trafen** cümlənin nüvəsini təşkil edir. Feil özündən əvvəl və sonra işlənən aktantlarla əlaqədə fikrin ifadəsini tamamlamışdır. Hər bir nitq hissəsi kimi feillər də leksik, qrammatik əlamətlərinə görə digər nitq hissələrindən fərqlənir. Şübhəsiz ki, nitq hissələrini səciyyələndirən leksik, sintaktik və morfoloji əlamətlər mövcuddur.

Bu yazımızda biz feilin partisip formalarının əsas xüsusiyyətlərinə aydınlıq gətirməyə çalışacağıq.

Feil paradiqmasında, əsasən, söz formasının iki qrupu qarşılaşdırılır: təsriflənən formalar (verbum finitum, das finite Verb) və təsriflənməyən formalar (verbum infinitum, die Nominalformen des Verbs) [10, s.200]. Alman dilində verbum infinitum qrupuna partisip 1, partisip 2 və infinitiv daxildir. Bu qrammatik vahidlər Azərbaycan dilində feili sifət, feili bağlama

və məsdər kimi işlənir. Azərbaycan dilində feili sifətlər bəzən feildən əmələ gələn sifətlərlə qarışdırılır. Lakin bu, elmi cəhətdən öz təsdiqini tapmayıb.

F.R.Zeynalov qeyd edir ki, feili sifətləri feildən düzələn sifətlər kimi nəzərdən keçirmək olmaz, baxmayaraq ki, onların hər ikisi feildən düzəlir. Bunlar bir – birlərindən özlərinə məxsus səciyyəvi xüsusiyyətləri ilə fərqlənir. (Причастия нельзя называть отглагольными прилагательными, несмотря на то что они причастия и отглагольные прилагательные происходят от глагола, они отличаются друг от друга своими специфическими особенностями). Daha sonra F.R. Zeynalov qeyd edir ki, feili sifətlər feillər kimi hərəkət bildirir, özündə zaman və növ kateqoriyalarını və s. əks etdirir. Feildən düzələn sifətlər isə göstərilən xüsusiyyətləri əks etdirmir [12, s.14]. Dilçilik ədəbiyyatında bu cür vahidlərə müstəqil nitq hissəsi kimi yanaşılmasına dair fikirlərə də rast gəlinir (Вряд ли есть основание выделять в особые части речи причастия, деепричастия и инфинитивы) [11, s.11].

Feili sifətlər kimi xarakterizə olunan sözləri iki hissəyə ayırmaq olar: feil əsasından yaranan sözlər (feildən düzələn sifətlər), bunları sifətlərə aid etmək olar; feil əsasından yaranan ikinci qrup sözlər isə feilə aid edilir və feili sifət kimi nəzərdən keçirilir. Məs.: *yazılası məktub, yazılacaq məktub, yazılmış məktub və s.* Bu ifadələrdə **yazılası**, **yazılacaq** və **yazılmış** sözləri heç bir əlamət bildirmir, əksinə feili sifətlərə xas xüsusiyyətəri (zaman, vəziyyət və hərəkət) əks etdirir.A.K.Ələkbərovun fikrincə, hər bir feil leksik mənasında dəyişiklik edilmədən feili sifət, feli bağlama və məsdər formalarına malikdir (Между тем, любой глагол имеет все причастные, деепричастные, масдарные формы, причем без сдвигов в лексических значениях) [2, s.300]. Alman dilində feilin ikinci nominal (ad) forması kimi işlənən partisipləri səciyyələndirən özəl xüsusiyyətləri mövcuddur. Bu xüsusiyyətlər onları bir tərəfdən feillərə, digər tərəfdən sifətlərə yaxınlaşdırır. Ona görə də müasir alman dilində feilin tərkibində infinit (dəyişməz) forma kimi nəzərdən keçirilən bu vahidlər haqqında dilin müxtəlif inkişaf dövrlərində dilçilər arasında vahid fikir birliyi olmamışdır. Nəticədə bu cür sözlər həm ümumi dilçilikdə, həm də təhlil olunan Azərbaycan və alman dillərində bəzən ayrıca nitq hissəsi kimi götürülmüş, bəzən də feil və yaxud sifət kateqoriyasına aid edilmiş, müxtəlif terminlərlə ifadə olunmuşdur. Bu qarışıqlıq problemin öyrənilməsini, xarici dillərin öyrənilməsində müqayisələrin aparılmasını, tərcümə işlərinin yerinə yetirilməsini çətinləşdirir. Problemin sistemli şəkildə ayrıca tədqiqat işi kimi yerinə yetirilməsi mövzunun aktuallığını təmin edir. Müasir Azərbaycan dilində feili sifətlər feil mövzusunun tərkibində nəzərdən keçirilir və Azərbaycan dilinin morfologiyasına həsr edilmiş tədqiqat işlərində bununla bağlı müəyyən fikirlər irəli sürülmüşdür (M. Hüseynzadə, S.Cəfərov, Ə.Dəmirçizadə, Q.Kazımov və b.). Müqayisə olunan Azərbaycan və alman dillərində partisiplər (feili sifət) nə şəxs, nə də kəmiyyət ifadə

etmədiklərindən onlar cümlə yaratma və hökm etmə funksiyasına malik olmur. Elə buna görə də, bu feillər digərlərindən fərqlənir. Məs.:

schreibender (Schüler) 'yazan (şagird)'

geschriebener (Brief) 'yazılmış (məktub)' *və* s.

Nümunələrdən məlum olur ki, hər iki dildə bu feili sifətlər əşyanın hərəkətlə ifadə olunan əlamətini bildirir. Bu xüsusiyyətə görə də bu qrup feillər sifətə xas əlaməti bildirir və sifətə yaxınlaşır. Deməli, bu cür sözlər özlərində həm feillik, həm də sifətlik əlamətlərini ehtiva etdiklərindən onları feili sifətlər adlandırırlar (V.Yung, Duden, V.Admoni, M.Hüseynzadə, Q.Kazımov və b.).Unutmaq olmaz ki, eyni bir söz kontekstdən asılı olaraq müxtəlif sintaktik funksiyaların daşıyıcısı kimi çıxış edə bilir. Məs.:

Er sieht mich fragend an. 'O mənə sualedici nəzərlərlə baxırdı.'


Er fragt mich. 'O mənə sual verir.'

Der fragende Student ... .'Sual verən tələbə' və s.

Verilmiş cümlələrdə **fragend**, **fragt, fragende** müxtəlif sintaktik funksiyalar yerinə yetirsələr də, həmin feil (fragen-soruşmaq) öz ilkin leksik mənasını qoruyub saxlamışdır.Nitq hissələrinin monofunksionallığını qəbul edənlər sözlərin müxtəlif vəzifələrdə işlənməsindən asılı olaraq başqa nitq hissələrinə çevrildiyi ideyasını müdafiə edirlər. Məs., M.Hüseynzadənin "Müasir Azərbaycan dili" dərsliyi məhz bu prinsip əsasında yazılmışdır. Bu əsərdə demək olar ki, sifətlərin əksəriyyəti zərflik olarkən zərfə çevrildiyi qəbul olunur [3, s.16].Nitq hissələrinin çoxvəzifəliliyini müdafiə edənlər isə, vəzifədən asılı olaraq sözlərin əsasən bir nitq hissəsindən başqasına keçmədiyini qeyd edirlər [8, s.229]. "Müasir alman dilinin qrammatikası" (1962) kitabında Duden göstərir ki, alman dilində feilin 3 təsriflənməyən (infinit) forması (İnfinitiv, Partisip 1 və Partisip 2) təsriflənən feil formalarından onunla fərqlənir ki, onlar ayrılıqda, müstəqil şəkildə cümlə üzvü kimi xəbəri yarada bilmir [6, s.132]. Onlar əksər hallarda sintaktik cəhətdən isim və sifət kimi işlənir və onların funksiyasını yerinə yetirir. Bu qrup feillərin fərqləndirici xüsusiyyətlərindən biri də ondan ibarətdir ki, bunlar şəxslənən feillərdən fərqli olaraq substantivləşə bilir: məs.:

Das Erwachsen, die Erwachsenden, die Erwachten və s.

Alman dilində işlənən feilin ad formalarının bölgüsünü sxem şəklində də əks etdirmək mümkündür:



G.Helbig, Y.Buşa da müasir alman dilində morfoloji əlamətlərinə görə üç infinit (təsriflənməyən) formasının olduğunu qeyd etmişlər:

İnfinitiv, Partisip 1, Partisip 2 [9, s. 82]

Alman və Azərbaycan dilləri üçün xarakterik olan partisiplər feilə, sifətə və zərfə xas xüsusiyyətlərin daşıyıcısı kimi feil və sifət nitq hissələri arasında yerləşir və bu səbəbdən də "Mittelwort" (orta söz) və yaxud "Partisip" (feili sifət) termini ilə göstərilir. Partisip sözü latın dilindəki "participare" (iştirak etmək) sözündən yaranıb [6, s.133]. R.Konrad hesab edir ki, partisiplər təsriflənməyən feil olub, feilin forma tərkibinə (Formenbestand) daxildir, ancaq sifət kimi hallanır. Feillə ifadə olunan hərəkətin hansı zamanla əlaqədə olmasından asılı olaraq, partisiplərin 2 forması fərqləndirilir [4, s.173]:

1. Indiki zaman feili sifəti (Präsenspartizip)
2. Keçmiş zaman feili sifəti (Perfekpartizip)

Alman dilində partisip 1-in düzəldilməsi ilə bağlı fikirlərini müxtəlif tədqiqatçılar müxtəlif formalarda ifadə etmişlər. Bəziləri (Duden, L.R.Zinder, T.V.Stroyeva, Y.Şendels və b.) yazır ki, partisip 1 "-nd", " -(e)nd" şəkilçiləri ilə *(sage+nd, fieber+nd, tadel+nd* və s.), digərləri isə (V.Yung, G.Helbig, Y.Buşa və b.) alman dilində partisip 1-in feilin məsdər formasına "d" artırmaqla (məsdər + d) düzəldiyini (*schreiben+d, fragen+d, studieren+d, trinken+d, singen+d və* s.) qeyd edirlər. Bu qayda üzrə bütün feillər partisip 1 formasını düzəldir.

Cümlədə təsriflənən feillə əlaqədə işlənən partisip 1 formaca dəyişməz qalır. Bu zaman təsriflənən feil verbal kateqoriyaların daşıyıcısına çevrilir. Məs.:

Sie spricht /spräche/sprach usw. zögernd.

Nümunədən məlum olur ki, partisip 1–in sintaktik subyekti olmur. Onun məntiqi subyekti qaydaya uyğun olaraq təsriflənən feilin subyekti ilə ifadə olunur. Məs.:

***Heimkehrend** fand sie die Wohnung verschlossen* [9, s.86].

Cümlədə partisip 1 digər üzvlər vasitəsilə genişləndirilir. Məs.:

*Spät **heimkehrend** fand sie die Wohnung verschlossen.*

*Die am Abend in Baku **ankommenden** Züge ... .*

Feilin partisip 2 formasının düzəldilməsi partisip 1-in yaranma qaydası ilə müqayisədə mürəkkəbdir, çünki feillərin morfoloji təsnifatından asılı olaraq, onların partisip 2 forması fərqli şəkildə yaranır. Bu yazıda biz bütün bu formalar haqqında geniş izahat verməyi lazım bilmirik, çünki mövcud dilçilik ədəbiyyatında bu haqda geniş məlumat verilib [9, s.87-88].

Müasir Azərbaycan dili feili sifətləri əmələ gətirən şəkilçilərə görə daha zəngindir. Bunlar aşağıdakılardır:

-an², -mış, -dıq, -acaq², -asɪ², -malɪ², -ar², -maz² .

Bu şəkilçilərlə yaranan feili sifətlər hərəkətin hansı zamanla bağlı olduğunu göstərirlər. Məs.:

gələn qonaq- indiki zaman

olacaq hadisə -gələcək zaman

doğranmış ət- keçmiş zaman və s.

Alman dilində partisiplər sintaktik cəhətdən sifət kimi attributiv və predikativ işlənə bilir. Məs.:

Das spannende Buch 'maraqlı kitab'

Das Buch ist spannend. 'Kitab maraqlıdır.'

Verilmiş nümunələrdə **spannend** feili sifəti birinci vəziyyətdə təyin, ikinci vəziyyətdə isə predikativ funksiyasını yerinə yetirmişdir. Azərbaycan dilinə tərcümədə bu "maraqlı" sifəti kimi tərcümə olunmuşdur.

Alman dilində partisip 1 cümlə daxilində zərflik funksiyasını da yerinə yetirə bilir. Məs.:

Er sieht mich fragend an.

Bu cümlədə **fragend** feili sifəti "sieht ... an" feili ilə ifadə olunan hərəkətin tərzini göstərir. Partisip 1 cümlə daxilində isimlə əlaqədə birləşmə daxilində işlənərkən sifətə xas əlamətləri (cins, hal, kəmiyyət, hallanma növü və komparativlik) öz üzərinə götürür. Məs.:

Die entscheidende Verhandlung

Die entscheidenden Verhandlungen

Die entsheidendsten Verhandlungen

Alman dilində perfekt partisiplər feilin mürəkkəb zaman formalarının düzəldilməsində iştirak edir. Məs:

Die wichtigsten Fragen wurden besprochen.'Mühüm məsələlər müzakirə edilib.'Der Brief wurde geschrieben.'Məktub yazılıb.'

Dildə partisiplərin düzəldilməsinə və işlənməsinə dair fikirləri ümumiləşdirərək F.Y.Veysəlli "Dilçilik ensiklopediyası" əsərində qeyd edir ki, feili sifət feilə və sifətə xas xüsusiyyətləri özündə birləşdirən və feildən düzələn formadır. Feili sifət feillərə xüsusi şəkilçilər artırmaqla əmələ gəlir. Azərbaycan dilində isimdən və ya isimləşən sözlərdən əvvəl mövqe tutub onların əlamətini bildirir, təyin olunan sözlə yanaşma əlaqəsi əsasında birləşib, şəxsə və kəmiyyətə görə dəyişmir. Məs:

yazılan məktub\məktublar

yazılmış məktub\məktublar

işləyən cihazlar [5, s.141]

Partisip 1 hərəkətin, prosesin bitmədiyini, davam etdiyini, indiki zamana aid olduğunu bildirməklə yanaşı cümlənin xəbərinə münasibətdə eyni zamanı ifadə edir. Məs:

Wir sehen die aufgehende Sonne.'Biz çıxan günəşi görürük.'

Bu cümlədə **aufgehende** feili sifəti hərəkətin danışıq anında cümlədəki xəbərin (görmək) zamanı ilə eyni vaxtda baş verdiyini ifadə edir.

Dil materiallarının təhlilindən məlum olur ki, alman dilində təsirli feillərin partisip 1 forması bəzi hallarda "zu" hissəciyi ilə işlənir və məchul məna kəsb edir, vaciblik, mümkünlük bildirir. Məs:*Das zu lesende Buch* 'oxunmalı kitab'*Das Buch, das gelesen werden soll.* (..., das zu lesen ist.) 'kitab oxunulmalıdır'.Verilmiş bu ifadələrdən birincisində feili sifət vaciblik bildirir.

Ədəbiyyat

1. Admoni W. Der deutsche Sprachbau-M. Prosweschenie, 1986.
2. Алекперов А.К. Некоторые замечания о функционаально-семантическом критерии классификации слов по частям речи в азербайджанском языке //Вопросы тюркологии//№ 3, Баку: 1971, с.298-302.
3. Cəfərov C. Nitq hissəsi anlayışı məsələsinə dair. ADPU-nun Xəbərləri. Humanitar elmlər seriyası , 1998, №1, s. 11-19.
4. Conrad R. Lexikon sprachwissenschaftliher Termini.VEB, Leipzig, 1985
5. Dilçilik ensiklopediyası. Bakı: Mütərcim, 2008.
6. Der Grosse Duden. Grammatik- Leningrad, 1962.
7. Grjasnowa O. "Gott ist nicht schüchtern" Roman. Aufbau Verlag GmbH&Co. 3.Auflage. Berlin 2017.
8. Hüseynzadə M. Müasir Azərbaycan dili. Bakı: 1963.
9. Helbig G., Buscha J. Deutsche Grammatik. VEB, Leipzig, 1974.
10. Jung W. Kleine Grammatik der deutschen Sprache. VEB. Leipzig. 1953.
11. Жирмунский В.М. О природе частей речи и их классификации. В сб. Вопросы теории частей речи. Изд-во Наука. Ленинград,1968, с.7-12.
12. Зейналов Ф.Р. Принципы классификации именных частей речи. Автореферат, Баку: 1957.
13. Зиндер Л.Р., Строева Т.В. Современный немецкий язык. М.:1957.

R.Bagirowa

The mean feature of the participle

Summary

Among the parts of speech verb have affluent inflected system. Both in German and in Azerbaijani languages verbs express the action defined by the

subject in the sentence structure. As non-finite form of the verb the characteristic features of the participles approach them both adjective and verb.

Not indicating category of person and quantity they don't have function of creating sentence in German and Azerbaijani languages. As for this, it differs from other parts of speech. In both languages participles indicates the sign of the thing expressed by the action. Because of this features participle reflects itself the characteristic signs of the adjective.

As a result, such words as parts of speech sometimes separately, sometimes referred to in Azerbaijani and german, as well as in general linguistics which analyzed the various terms or face feil, was taken. This mess in the study of foreign languages, translation of works are difficult for the study of the problem, compared. The problem is in the form of the system provides the implementation of the relevance of the topic, in separate research.

Р. Багирова

Основные свойства партиципов (причастий).
Резюме

Среди частей речи глагол имеет богатую флективную систему. И в немецком, и в азербайджанском языках глаголы, в структуре предложения, обозначают действие определяемое субъектом. Характерная особенность партиципов (причастий), употребляемых как неспрягаемая форма глагола, приближает их и к глаголу, и к прилагательному.

Так как в азербайджанском и немецком языках партиципы (причастия) не выражают ни лицо, ни количество, они не обладают функцией построения и управления предложения. Именно из-за этой особенности они и отличаются от других. В обоих языках причастия обозначают признак предмета выраженное действием. А из-за этой особенности причастие отражает в себе признаки присущие прилагательному.В результате такие слова как общей, так и на Азербайджанском и немецком языках иногда отдельно взятых, а иногда относящихся к различным категориям или лицо, выражается терминами, как часть речи анализа, в языкознании. Этот бардак, проблемы изучения иностранных языков в изучении сравнения проведения работ осложняет выполнение перевода. Проблемы системного отдельный исследовательской работой обеспечивает актуальность темы, как выполнение.

Rəyçi: Fikrət Aslanov
Filologiya üzrə elmlər doktoru, professor

SEVIL JAFAROVA
Teacher in Agchabadi branch of ASPU
sevilceferova62@gmail.com

THE HEROISM THEMES IN "DON QUIXOTE" BY MIGUEL DE CERVANTES

Açar sözlər: roman, ədəbiyyat, təsir, qəhrəmanlıq, İspaniya, cəngavərlik
Key words: novel, literature, influence, heroism, Spain, chivalry
Ключевые слова: роман, литература, влияние, героизм, Испания, рыцарство

Miguel de Cervantes is one of the most famous and well-known writer of Spain in XVI-XVII century as well as of the world, he is certainly considered as the greatest and most influencing writer in Spain (to be more precisely, in Spanish language) and also one of the preliminary novelist of the world literature. Among his novels, there are some great and masterpiece traces which are "Don Quixote", "Journey to Parnassus", "Exemplary Novels", "The Travails of Persiles and Sigismunda" etc. but undoubtedly, his truly masterpiece and greatest work is "Don Quixote" novel. This novel is considered as a classic of Western literature and stands among the most notable fiction works. His overall influence in Spanish language and European literature is so huge that sometimes his language used in the novels always are referred to 'language of Cervantes'.As we and the whole world know, Cervantes' most notable, most famous novel is "Don Quixote" (the long name of the novel is "The Ingenious Nobleman Sir Quixote of La Mancha") which is published in two volumes, the first in 1605 and the second in 1615. "Don Quixote" has been published more than Bible in Europe since its firs publishing and it should be considered as a literary success when considering about the hard times and years of its issue (which is characterized with the total religious influence in the every sphere of art, including literature), that's why "Don Quixote" still is considered the most influential work of the entire Spanish literature.The literary techniques of the novel is also notable and beautiful, Cervantes uses realism, metatheatre and intertextuality methods to describe the events and those techniques made the work so unique and influencing (Alexandre Dumas and Mark Twain were also influenced by Cervantes in their works). The overall story follows the interesting adventures of a noble man named Alonso Quixano, he likes to read chivalric and breath-taking romances that in the end, he loses his sanity and wants to vivid the 'chivalry' and bring justice and peace to the world and chooses a name of "Don Quixote de la Mancha". In fact, Don Quixote does

not see the world as it is and decides to imagine it different, as he is going through the knightly and romantic story and unfortunately, his tragic death becomes a symbolic description of great hopes and ideals of the humanity. He is a hero for all times, not for only his current time and even today he is considered the most unforgettable and popular hero in the world literature. Why Don Quixote had become a heroic symbol after all and still make us think about heroism, the clash between realism and heroism and the malicious, sorrowful death of the great expectations? Before that, we should investigate the true meaning of the word 'hero'. A hero is not only the person who 'fights' against evil, hero is also a person who encourage the world to be more positive, daring, fearless and of course, better. They tend to make us believe that every evil side of the life has an undeniable ending and in the end, good wins over evil. All of the heroes that are known to the wide range of people worldwide represent the righteousness and goodness of society. A hero is a man of distinguished courage or ability, admired for his brave deeds. Don Quixote, who though was determined to save the world via chivalry because knights served society during all the medieval times. In his time, people do not recognize Don Quixote as a hero because his honesty, courage and naivety are no respected in society as before, because the deterioration of society hides the true goodness of humanity (3, 158) Don Quixote's visionary pursuit is misjudged by the changes in time and culture. On one of his first journeys, Quixote tries to save a servant boy from being tortured. He commands the farmer to stop flogging the boy in the name of knighthood and Quixote trusts that he will stop, but it is clear that the farmer is lying. Knowing this, the boy begs Don Quixote not to leave, but the knight assertively replies "[the farmer] will do nothing of the kind [because] he has sworn to me by the order of knighthood". Quixote absolutely trusts in the name of chivalry and he thinks everyone else does, too. He does this to create justice like a true knight, but as Quixote rides off, the farmer ties the boy "again to the oak tree and [gives] him such a drubbing that he [leaves] him almost dead" (1, 77). It seems Don Quixote's efforts are circumvented. Later on, the boy comes back to Don Quixote saying "if you ever meet me again, though you may see them cutting me to pieces, give me no aid, but leave me to my misfortune, which will [be worse] by being helped by your worship" (1, 489). After such an insult, Quixote has a rough start as reality impedes his far-fetched dreams of knighthood. His deeds seem to be worsening situations, but he is purely trying to save the world through the laws of chivalry. He means to defend the boy from being whipped, not to provoke it. If Quixote is living in the medieval times and commands the farmer to swear in the name of knighthood, the farmer would immediately

obey him. However, during the present time, people make a joke out of Don Quixote because his obsolete logic does not make sense to them.

Quixote is living in his own medieval world. When he meets an intelligent townsman, the townsman exclaims "What! Is it possible that there are knights-errant in the world these days?" (1, 688) The man furthermore realizes that "the countless stories of fictitious knights-errant, so much to the injury of morality and the prejudice and discredit of good histories, [have been driven] into oblivion" (1, 689). This townsman understands that moral corruption is forcing the beautiful and antique stories of knights-errantry to disappear. He is surprised by the intellect and eloquence of Don Quixote's speech on the literature of chivalry, yet he underestimates the value of Quixote's character because the knight's knowledge is anachronous to his own present-day knowledge. Don Quixote may be living in the past, but the classic character of chivalry should be treasured forever. Quixote is not the only one that faces these misunderstandings. When Sancho is made governor of a fake city and solves all the town's problems with his simple wit and wisdom, people "[can] not make up [their minds] whether to consider him a fool or a wise man" (1, 847). As the people are trying to make a dunce out of him, they are utterly impressed by his genuine aptitude and justice. While "the whole court [is in] astonishment at their new governor's judgments and decrees" (1, 849), the Duke ridicules him and consider Sancho a fool nevertheless. The Duke is so oblivious that he cannot recognize true wisdom. When Sancho saves the citizens of his new country, the citizens underestimate his brainpower because of his peculiarity. Intelligence is scoffed upon by their ignorance. People only see the surface of Quixote and Sancho's personalities, missing their inner beauty. Don Quixote tries to save the world according to the laws of chivalry and Sancho tries to be a wise governor, but no one recognizes their true intelligence because such culture of good judgment has diminished. The youthfulness of a child is understood and admired in every generation. Quixote sees a simple flock of sheep as a grand army, a few windmills as massive giants, and an ugly servant girl as a noble lady. He never stops believing. Through this innocence, he makes his world a true adventure. Quixote's "mind and heart express the archetype of hope to transform the world" (2, 50). When someone sees a child rolling down a hill, laughing loudly, he/she does not mind, but when an adult does something "silly" like that, people consider him/her bizarre, maybe because they essentially admire his/her innocence. Innocence can be a characteristic at any age, and at any time, and Don Quixote has the audacity to actually have that quality. For many, adventures lessen as they grow older, but for Don Quixote, every moment is an odyssey. Secondly, Don Quixote encompasses the unyielding values of a tenacious warrior. An archetypal

warrior is a “noble and relentless protector”. Quixote is willing to sacrifice his life and fight an army for his lady-love Dulcinea although he never sees her. He attacks puppets during a puppet show in order to create justice in the story. He continues after his chivalric goal despite his thoughts about abandoning his knighthood. Because of Quixote’s chivalric personality, he is a hero. Everyone could use a little chivalry in his/her life. Lastly, in a hero’s journey, a hero’s “primary purpose is to separate from the ordinary world and sacrifice himself for the service of the Journey at hand” (Christopher Vogler). Don Quixote is willing to be different regardless of the circumstances. He has the funniest-looking horse and a fake knight outfit with a bucket for a helmet! Quixote doesn’t care about the jokes people make about him because he has an everlasting vision to make the world a better place through chivalry. Quixote inspires many to believe in their dreams and be a hero by his/her simple existence and presence in someone’s life. Don Quixote is a part of every person because he is a child, a warrior, a visionary, and above all, an archetypal hero whether or not society will accept him (2, 68).

Literature

1. Migel de Servantes, “Lamançlı Don Kixot”. “Qanun” nəşriyyatı, Bakı, 2011
2. Anthony J. Close, The Romantic Approach to Don Quixote: A Critical History of the Romantic Tradition in Quixote Criticism, 1978
3. Anthony J. Close, A Comparison to Don Quixote, London 2008
4. Howard Mancing, Cervantes’ Don Quixote: A Reference Guide, Westport, CT 2006

Sevil Cəfərova

Migel de Servantesin “Don Kixot” əsərində qəhrəmanlıq motivləri

Xülasə

Dünya şöhrətli ispan yazıçısı Migel de Servantesin “Don Kixot” əsəri nəinki onun öz vətəni İspaniyada və Avropada, həmçinin bütün dünyada ən sabmallı romanlardan biri sayılır. XVI əsrin cəngavər həyatının təsvir edildiyi romanda istifadə etdiyi dil və üslub xüsusiyyətləri Servantesi ispandilli ədəbiyyatın klassikinə çevirmişdir. Bu romandan başqa “Parnassusa səyahət”, “Nümunəvi romanlar” və s. kimi toplıuların da müəllifi olan Servantesin şahəsəri “Don Kixot” romanı hesab olunur. Qərb ədəbiyyatının əfsanəvi klassiki hesab edilən bu roman əksər dillərə tərcümə olunmuş və sevilmişdir. Romanın bütöv adı “La Manşlı zadəgan Don

Kixot”dur, ilk hissəsi 1605, ikinci hissəsi 1615-ci ildə çap olunmuşdur. “Don Kixot” romanı ispandilli ədəbiyyatın ən nüfuzedici şahəsəri sayılır və burada əsasaən qəhrəmanlıq motivləri ön plana çıxır. Baş qəhrəman Don Kixot keçmiş cəngavərlik günlərindəki qəhrəmanlıq ab-havasının həsrəti ilə yaşayır və o da öz dövrünün qəhrəmanı olmaq istəyir. Deqradasiya olunmuş və qiymətləndirmə qabiliyyətini itirmiş cəmiyyət onun ideallarını qəbul etmir və ən böyük toqquşma məhz burda baş verir. Don Kixotun qəhrəmanlıqları və cəsarətinin birmənalı qarşılanmaması ilə birlikdə, onun ideallaşdırdığı həyatla real həyatın toqquşması sonda qəhrəmanın faciəsinə səbəb olur. Beləcə, realizm və idealizm arasındakı toqquşma dünyanın ən nəcib ruhlu qəhrəmanlarındna birinin məhvinə gətirib çıxarır.

Севиль Джафарова

Героические мотивы Мигеля де Сервантеса в «Дон Кихоте»

Резюме

Дон Кихот, известный во всем мире испанский писатель Мигель де Сервантес, является не только его родной страной, но и одним из самых изысканных романов в Испании и Европе. Стиль языка и стиля, используемый в романе, описанном в жизни рыцаря XVI века, превратил Сервантес в классику испанской литературы. В дополнение к этому роману «Путешествие в Парнас», «Образцовые романы» и так далее. Автор некоторых сборников - роман Сервантеса «Дон Кихот». Этот роман, считающийся легендарным классиком западной литературы, был переведен и любим на большинстве языков. Полное название романа - «Ла Френсис благородный Дон Кихот», первая часть была опубликована в 1605 году, а вторая часть была опубликована в 1615 году. Роман «Дон Кихот» считается одним из самых влиятельных людей в испанской литературе, и здесь это прежде всего героические мотивы. Главный герой Дон Кихот живет в долговечности героической погоды в дни прошлых рыцарей, и он хочет быть героем своей эпохи. Деградированное и дегенеративное общество не принимает своих идеалов, и самое большое столкновение здесь. Поскольку героизм и мужество Дон Кихота не соблюдаются однозначно, крах реальной жизни с его идеализированной жизнью в конечном итоге приводит к трагедии героя. Таким образом, столкновение между реализмом и идеализмом ведет к уничтожению одного из самых благородных героев мира.

Rəyçi: Fəridə Məmmədova
Filologiya üzrə fəlsəfə doktoru, dosent

MİNAXANIM MEHDİYEVA
M.Füzuli adına Əlyazmalar İnstitutu
minamehdiyeva@yahoo.com

ŞƏHRİYARIN FARSCA QƏZƏLLƏRİNİN DAXİLİ RİTMİK-MUSİQİ DÜZƏNİ

Açar sözlər: Şəhriyar, farsca qəzəllər, ritmik-musiqi düzəni, söz və leksik təkrarlar, sintaktik vahidlərin təkrarı, bədii məna incəlikləri
Ключевые слова: Шахрийар, персидские газели, ритмико-музыкальная структура, словесные и лексические повторы, синтаксические построения, художественно-смысловые тонкости
Keywords: Shahriyar, Persian ghazals, rhythmic-musical structure, words and lexical repetitions, syntactic formations

Giriş

Nəzəriyyə kitablarında ədəbi irsin mühüm bölməsini təşkil edən şeirin əsas xüsusiyyətləri, onun bədii-estetik məziyyətləri, ideya-məzmun tutumu, növləri və quruluşu haqqında müxtəlif baxışlar mövcuddur. Ancaq bütün hallarda ümumi olaraq şeirin təşəkkülündə bir-birilə bağlı olan üç mühüm tərəf tədqiqatçıların diqqətini cəlb edir:

1. Şeirin ümumi quruluşu və onu təşkil edən texniki ünsürlər;
2. Bədii təxəyyül və obrazlar sistemi;
3. Mövzu və ideya-estetik məzmun qatları.

Şeirin əsas xüsusiyyətlərindən biri onun quruluşunda olan ritmik və ahəngdar nizamdır. Həmin nizam bir neçə vasitə ilə yaradılır ki, bunlar arasında vəzn, qafiyə və rədif xüsusi yer tutur. Bundan başqa, şeirdə səs və söz təkrarı, yaxud onların müxtəlif növ sıralanması və yerdəyişməsi ilə yaranan ahəng, sintaktik paralellərlə yaranan ritmik düzən şeirin ahəngini tənzimləyən və musiqisini zənginləşdirən edən amillər kimi diqqəti cəlb edir.

Ədəbi əsər və onun növü olan şeir hər şeydən öncə dil ilə bağlıdır və onu da qeyd edək ki, şeirdə dil hadisələri bədii-estetik funksiya daşıyır. Bəlli olduğu kimi, şeir dili poetik prinsiplərə əsasən qurulur, onun ünsürləri estetik baxımdan müəyyən düzənə malik olmaqla bədii məna daşıyır. V. Jirmunskinin qeyd etdiyi kimi, poeziyanın dili bədii prinsiplər əsasında qurulur, onun ünsürləri estetik baxımdan mütəşəkkil olmaqla müəyyən bədii məna daşıyır, ümumi bədii tələblərə tabe olur. Dilçilikdə yer alan fonetikanın müqabilində ədəbiyyatda poetik fonetika gündəmə gəlir və burada səslərin keyfiyyət göstəricisi, səsli və səssizlərin xüsusi seçimi və sözün ahəngi böyük əhəmiyyət kəsb edir (12.s.29). Bunun kimi dilçilikdə olan leksika və

sintaksisin müqabilində poetik dilin bədii-estetik məna daşıyan özəllikləri ortaya çıxır.

Deməli, şeirin təşkilində ədəbi ünsürlərlə yanaşı, dil hadisələri də mühüm yer tutur və bu səbəbdən XIX əsrin sonu və əsasən XX əsrin əvvələrindən yaranan bir sıra nəzəri məktəblər poetika elmi ilə dilçilik arasında əlaqə qurmağa girişdilər. Bununla da poetika elminin yeni nəzəri konsepsiyaları struktur və linqivistik poetika şəklində meydana gəldi (15.s.4). Doğrudur, bəzi strukturalistlər formalizmə aludə olaraq mətnin təhlilini tarixi-mədəni şəraitdən və digər xarici amillərdən ayıraraq başqa istiqamətdə aparmağa üstünlük verdilər. Ancaq ədəbiyyat tarixi üzərində aparılan müşahidələr göstərdi ki, ədəbi mətn bu və ya digər dərəcədə müəllifin həyat və psixologiyası, dünyagörüşü, yaxud onu əhatə edən ictimai-iqtisadi, mədəni və sosial şəraitlə əlaqəlidir, hətta iqlim də şairin yaradıcılığına təsir göstərir. Bəzi formalistlərə görə, sənət və ədəbiyyatda tarix boyu əsasən forma dəyişir, məzmun və möhtəva dəyişməz qalır (6.s.20). Ancaq bu belə deyil, dəyişiklik və yenilik sənətin bütün tərəflərini əhatə edir.

Dilçilikdə olduğu kimi poetikada da söz əsas vahid kimi götürülür. Klassik Şərq nəzəriyyəçilərindən Əbdülqahir Cürcani şeirin əsasını sözlərdə görürdü, belə ki, mənalar onlar vasitəsilə ifadə olunur. O, sözlər dedikdə müasir dilçilikdə bəhs edilən dilin strukturunu nəzərdə tuturdu (7.s.21). Geniş mənada götürüdükdə isə şeirin formal tərəfləri ilə onun məna və bədii-estetik qütbü arasında dərin bağlılıq mövcuddur.

Şeirdə ritm və ahəngin əhəmiyyətinə keçməzdən öncə qısaca şeir ilə musiqi arasında olan əlaqəyə toxunaq. Şeir ilə musiqi arasında qırılmaz bir əlaqə vardır və bunu əksər mütəxəssislər təsdiq etmişlər. Daha dəqiq söyləsək, şeir ilə musiqi bir-biri ilə bağlı sənət növləridir. Bunlardan hansının daha öncə yarandığını söyləmək çətindir. Hələ qədim çağlarda yazıdan öncə ibtidai insanlar gündəlik həyatda bir iş görərkən zümzümə etmiş, müxtəlif sözləri fasilələrlə təkrarlamışlar (4.s.15-16). Analar isə körpələrini təkrarlanan avazla ovundurmağa çalışmışlar. Bu oradan irəli gəlir ki, insan təbiətən xoş səs və ahəngdən təsirlənir. Bununla da parallel olaraq ilkin şeir və nəğmə nümunələri yaranmışdır. Bəzi nəzəriyyəçilərə görə ilkin şeir nümunələrindən biri dini məzmunlu dua və münacatlardır. Bunların qədim örnəkləri sırasında Həzrəti-Davudun duaları və münacatları xüsusi olaraq qeyd edilir (4.s.22-23). Təsadüfi deyildir ki, İslam mədəniyyətində Hz.Davud xoş səsi və əfsanəvi avazı ilə qəlbləri riqqətə gətirən şəxsin simvolu kimi diqqəti cəlb edir. Təbii ki, onun münacatı İlahiyə ünvanlanan bədii və ahəngdar parçalar kimi dəyərləndirilir.

Şeirin ritm və ahəng əsasında qurulması barədə ilkin elmi fikrə Aristotelin "Poetika" əsərində rast gəlmək olar (10.s.149). O, şeirin iki əsas cəhətini ayırd edirdi: mimezis (təqlid) və ahəng (10.s.150-151).

Ritm və ahəngin insan psixologiyasına və duyğularına təsiri təbii və ümumi bir haldır. Ona görə şeirin ritm, ahəng və musiqisi demək olar ki, bütün ədəbiyyatlar və poetik məktəblər üçün ümumi qanun kimi çıxış edir, ancaq onun fərqli dillərdə qələmə alınmış ədəbi əsərlərdə və fərqli poetik sistemlərdə təzahürləri, ifadə üsulları və vasitələri də fərqli olur.

Şeir sənətində ritm və ahəng xüsusi yer tutur ki , bunlar bədii obraz və ifadə ilə yan-yana gəlir. Bu o deməkdir ki. bədii obraz və ahəng bir-biri ilə uzlaşan tərəflərdir və onları bir-birindən ayırmaq olmur. Hələ XX əsrin əvvəllərində rus strukturalistlərindən Viktor Şklovski "Sözlərin dirçəlişi" (Voskreşeniye slov) adlı 16 səhifəlik traktatında poeziyanı sözlərin dirçəlişi adlandırır (13.s.3). Müəllif digər məqaləsində səs ahənginin poeziyada rolundan bəhs edərək göstərirdi ki, şair sözlər olmadan belə səslərlə öz duyğularını ifadə edə bilir. Bunlar notla yazılan və melodiya yaradan musiqi səsləri deyil, sözlərin düzəldiyi səslərdir. Söz sənətini yaradanlar sözlərin bətnində iç aləmindən gələn duyğuları ifadə edirlər (14.s.13).

Hətta bəziləri təsdiq edirlər ki, onların hissləri çox zaman müəyyən məna bildirməyən xüsusi səs düzəni ilə daha yaxşı ifadə olunur və çevrədəkilərin duyğularına isə təsir göstərir. V.Şklovski digər müəlliflərə istinad edərək Puşkinin şeirində "u" səsinin qəmli ahəngə malik olduğunu göstərir və səslilələrin səs məxrəcindən asılı olaraq fərqli duyğular yaratdığını söyləyirdi (14.s.14). Puşkin və Lermontovun şeirlərinin səs strukturunu araşdıran O.Brik həmin hadisənin mühüm poetik fənd hesab edir və bildirir ki, poetik dil musiqili dildir və səs qrupları üzrə təkraralar iki, üç və daha çox komponent üzərində qurulur (11.s.60-62).

Deməli, şeirin texniki cəhətdən formalaşmasını təmin edən vəzn və qafiyə kimi mühüm ünsürlərlə yanaşı, onun musiqililiyini və emosional təsiririni gücləndirən səslərin yaratdığı ahəngin də poeziyada böyük əhəmiyyəti vardır.

Ərəb-müsəlman mədəniyyətində formalaşan poetik sistemdə şeirin musiqisi xüsusi olaraq diqqət mərkəzində yerləşir və bu sırada farsdilli poeziyanın özünəməxsus incəlikləri vardır.

Dr.Məhəmməd Rza Şəfii Kədkəni şeirin musiqisindən danışarkən onu bəzən üç, bəzən də iki qismə ayırır; ən çox ikili təsnif diqqəti cəlb edir (7.s.24):

a. Mətnin xarici ritmini təmin edən musiqi

b. Mətnib daxili ahəngini təmin edən musiqi.

Şeirin ritm və ahəngi dir neçə amil ilə bağlıdır ki, bunlar arasında aşağıdakı ünsürlər diqqəti cəlb edir (7. s.9):

1.Vəzn;
2.Qafiyə;
3. Rədif.

Bunlar şeirin xarici ritmik strukturunda əsas yer tuturlar. Bundan başqa, sait və samit səslərin mütənasib təkrarından doğan ahəng şeirin mətninə ritmik düzən və musiqililik bəxş edir. Biz burada şeirin daxili musiqisi ilə üzləşirik və həmin sırada cinaslar xüsusi əhəmiyyət daşıyır (7.s.9-10).

Ahəngdar səs təkrarı sözlərin musiqi ahəngini tənzimləyir və buna bənzər olaraq sözlərin müəyyən nizam üzrə təkararı da şeirin vəzn, qafiyə və rədifi ilə yan-yana gələrək onun ritmik-musiqi düzənini zənginləşdirir və gözəlləşdirir.

Ləngrudi öz sanballı monoqrafiyasında sözlərin mütənasib təkrarı üzərində qurulan musiqi ahəngini Nizamidən gözəl bir nümunə gətirməklə diqqətə çatdırır (5.s.220).

ای نموده ***تیره تیره*** سلسله بر ارغوان
وای بسوده ***خیره خیره*** غالیه بر ضمیران
هر زمان زآن ***تیره تیره*** تیره گردد ابر و میغ
هر زمان زآن ***خیره خیره*** خیره غالیه بر مشکدان
پسته داری ***بسته بسته*** زیر گوهر دّر ناب
بسته داری ***دسته دسته*** زیر سنبل ارغوان

Buna bənzər həmahəg sözlərin musiqli təkrarı Mövlananın qəzəllərində çox işlənir və bunun bir səbəbi irfanla müsiqinin əlaqəsindən irəli gəlir. Oxşar üsluba Şəhriyarın şeirlərində rast gəlmək olar (1.s.133):

خط زلب یار ***جسته جسته*** خورد آب
خیل غزال است ***ودسته دسته*** خورد آب

Xətt yarın dodaından damla-damla su içər
Cüyür dəstəsidir dəstə-dəstə su içir

Bütün hallarda şeirin musiqi ahənginin tənzimlənməsində səslərin və sözlərin təkrarı xüsusi yer tutur. Söz təkrarları o zaman bədii zövq yarada bilir ki, onların vasitəsilə həm də məna incəlikləri ifadə olunsun. Klassik şeirin əsas vahidi beytdir və şairin bütün poetik məharəti beyt daxilində özünün göstərir. Doğrudur, qəzəl və ya qəsidədə beytlər arasında müəyyən əlaqə mövcuddur, ancaq hər bir beyt eyni zamanda məzmunca bitkin və müstəqil şeir vahidi kimi tanınır (16.s.62). Şair öz hünər və məharətini həmin beyt daxilində gerçəkləşdirir. Sözlərin beyt daxilində təkrarı fərqli şəkillərdə olurvə müəyyən sıra və ölçülərlə tənzimlənir. Sözlərlə yanaşı, məna təkrarı da şeirin ümumi ahənginə estetik yön verir. Müəyyən ölçü və nizam qzrə sıralanma olmasa və məna incəlikləri ilə cilalanmasa, sözlərin adi təkrarı musiqi ahəngi və bədii-estetik zövq yarada bilməz.

Cem Dilçin divan ədəbiyyatının yüksək texnikasına tam sahib olan Füzulinin şeirlərində işlənən təkrarların şeirin ritmik düzənində necə mühüm yer tutduğundan bəhs edərkən onları ikili, üçlü, dördlü və beşli olaraq təsnif edir (8.s.62-65). Bundan başqa, hər bir qrupun daxilində müxtəlif variantları aşkar edir. Təbii ki, divan ənənəsinə tam yiyələnən sənətkarlar yaratdıqları qəzəllərdə beytlərin daxili musiqi ahəngini təmin edən poetik fəndlərdən bacarıqla faydalanırlar.

Mövzunun şərhi

Klassik fars ədəbiyyatında şeirin digər texniki cəhətləri ilə yanaşı, onun daxili musiqi ahənginin rəngarəngliyi və gözəlliyi baxımından Sədi, Hafiz və Ruminin qəzəlləri xüsusi olaraq diqqəti cəlb edir. Təbiidir ki, irfan əhli olan Mövlananın qəzəlləri musiqilik baxımından zirvədə yerləşir və şair öz batini aləmini musiqi dili ilə bəyan edir (2.s.12). Klassik ənənələrdən yaradıcılıqla və məharətlə bəhrələnən Şəhriyarın farsca qəzəlləri zəngin musiqili-ritmik bir düzənə malikdir. O da ustadı Mövlana kimi Şərq musiqisinə böyük dəyər verən, dövrünün musiqi sənətkarları ilə münasibət quran ədiblərdəndir. Məqalədə böyük şairin qəzəllərində geniş işlənən və onların daxili musiqi ahəngini estetik zövqlə tənzimləyənbədii-poetik vasitələr və təkrarlar sistemi araşdırılır.

Həmin sistemi aşağıdakı kimi təsnifləndirmək olar:

1.Bir sözün təkrarı üzərində qurulan musiqi ahəngi

a. Bir sözün iki dəfə təkarı və əlavəli cinasla yaratdığı musiqi ahəngi (1.s.154):

بغزل رام توان کرد ***غزالان*** رمیده
شهریارا ***غزلی*** هم بسزایش نسرودم

Hürkmüş cüyürləri qəzəl ilə ram etmək olar,
Ey Şəhriyar, onlara layiq bir qəzəl qoşmamısan

Beytdə “qəzəl” sözü təkrar olunmaqla yanaşı, “qəzal” (cüyür) sözü ilə əlavəli cinas olaraq həmahənglik təşkil edir və beytə musiqilik bəxş edir. Ancaq qəzal sözü burada gözəl sevgilinin istiarəsi kimi məna verir.

Bu beytdə “saz” sözü iki dəfə təkrarlanır. eyni zamanda həmin sözlə həmahənglik təşkil edən daha iki söz “baz” və “suz” beytin musiqi düzəninə yeni naxış vurur (1.s.261):

بزن که ***سوز*** دل من ***بساز*** میگویی
ز***ساز*** دل چه شنیدی که ***باز*** میگویی

Çal ki, ürəyimin yanğısını sazla deyirsən
Ürəyin sazından nə eşitdik ki, yenə deyirsən

Başqa bir beytdə isə “saz” sözü təkrarlanmaqla “suz” sözü ilə həmahənglik təşkil edir (1.s.261):

ترانه غزل شهریار و ***ساز*** صباست
بزن که ***سوز*** دل من ***بساز*** میگویی

Şəhriyarın qəzəlinin nəğməsi və Səbanın sazıdır
Çal ki, mənim ürək yanğımı sazla deyirsən

Bir sözün ikili parallel təkrarı və digər sözlə ahəngdar düzəninə aid bir misala müraciət edək (1.s.175):

جوانی خود مرا تنها امید ***زندگانی*** بود
دگر من با چه امیدی توانم ***زندگانی*** کرد

Cavanlıqdan xəcalət çəkdim ki, bu həyat deyil
Mənim həyatımda isə artıq cavanlıq fürsəti yoxdur

Beytdə "zendeqani" sözü paralel olaraq misraların sonuna yaxın təkrarlanır və digər sözlə (cəvani) həmahənglik təşkil edir.

b. Bir sözün beyt üzrə üç dəfə təkrarı üzərində qurulan söz ahəngi Şəhriyarın qəzəllərində mühüm yer tutur (1.s.99):

دل بـ***دریا*** زده ام بر لب ***دریای*** غمت
قطره ای خواهم از آن خوردن و ***دریا*** گشتن

Sənin qəm dəryanda ürəyi dəryaya vurmuşam,
Ondan içərək dərya olmaq üçün bircə qətrə istəyirəm

Bu beytdə "dərya-ye qəm" izafət birləşməsi olaraq qəmin dərya qədər çoxluğuna işarə edir.

Başqa bir misalda "kam" sözü fərqli söz tərkibində fərqli mənalarla üç dəfə təkrar olunur: "nakami" sözü iki dəfə təkrarlanır və "şadkami" sözü ilə həmahəng olur, "ülfət" sözü də hər iki beytdə təkrarlanaraq onun musiqi ahəngini gücləndirir. Beytdə eyni zamanda "hüsni-təlil" sənəti işlənmişdir (1.s.115):

بسکه با شاهد ***ناکامیم*** الفتها رفت
شادکامم دگر از الفت ***ناکامیها***

Nakamlığımın şahidi ilə bəs deyincə ülfət saxladım ki,
Artıq nakamlıqla olan ülfətdən kamım şad olub

Başqa bir misalda yenə "qərar" sözü fərqli məna incəliyi ilə üç dəfə təkrarlanır (1.s.260):

قرار خاطر من زلف ***بیقرار*** تو برد
بیا که با سپر زلفت ***قرار***ها دارم

Sənin qərarsız zülfün mənim xatirimin qərarını apardı
Gəl ki, sənin saçının sipəri ilə qərar tapa bilirəm

"Çıraq" sözünün söz tərkibində üç dəfə təkrarının yaratdığı söz ahəngi və məna incəliyinə diqqət yetirək (1.s.116):

خلوتم ***چراغان*** کن ای ***چراغ روحانی***
ای زچشمه نوشت چشم و دل ***چراغانی***

Ey ruhani çıraq xəlvətimi çıraqban et
Sənin nuş dolu çeşməndən ürək və göz çıraqban olub

Başqa bir misalda "bar" sözünün üç fərqli anlamlarda təkrarı (1.s.133)

من که از دوش تو ***باری*** نتوانم برداشت

باری ای جان نسزد زحمت ***بارم*** با تو

Mən ki sənin çiynindən yükü götürə bilmərəm

Bari ey can çəkdiyim yükün zəhməti sənə toxunmasın

Sözlərin beyt üzrə təkrarlanmasında söz sırası mühüm əhəmiyyət kəsb edir. Bir beytdə birinci misrasının əvvəlində işlənən söz ikinci misranın əvvəl və sonunda təkrarlanaraq beytin musiqi ahənginə gözəllik verir. Belə təkrarlarda təkcə söz ahəngi ilə məhdudlaşmaq doğru deyil, Şəhriyar söz ahənginə həm də məna incəliyi qatır. Aşağıdakı beytə nəzər salaq (1.s.175):

جوانی کردن ای دل شیوهٔ جانانه بود اما

جوانی هم پی جانان شد و با ما ***جوانی*** کرد

Ey ürək, cavanlıq etmək cananəyə xas cəhətdir, ancaq

Cavanlıq da cananın ardınca düşdü və bizimlə cavanlıq etdi

Bir sözün üç dəfə fərqli yönlərdə təkrarı ilə yanaşı, beytdə "canan" və "cavan" sözləri arasında da həmahənglik vardır, eyni zamanda "canan" və "cananə" sözləri əlavəli cinas kimi beytin musiqi düzəninə əlavə rəng qatır.

Digər beytdə "zar" sözü üç dəfə təkrarlanmaqla musiqi ahəngi yaradır və həmin sözlə həmahəng olan "azar" sözü qismən əlavəli cinas kimi özünü göstərir, eyni zamanda bu sözlərdə işlənən "r" səsi "əbr", "məra" və "sər" sözlərində gələn "r" səsi ilə beytin musiqi ahəngini zənginləşdirir (1.s.251):

چو پیش خنده گل ***ابر آزاری*** کند ***زاری***

مرا در سر هوای ناله های ***زارزار*** آید

Gülün gülüşü qarşısında bulud zar-zar zarıyırsa

Mənim başıma zar-zar nalələrin havası gəlir

2. İkili söz təkarı

Qeyd edək ki, klassik Şərq poeziyasında ikili söz təkrarı və ikili düzən daha geniş işlənir.Məsələ burasındadır ki, bədii sözün estetik yöndə məna və ahəng baxımından cilalanmasında ikili düzən mühüm yer tutur (9.s.274-279).

Şəhriyarın farsca qəzəllərində ikili söz təkaraının çeşidli variantlarına rast gəlmək olur.Onlardan bəzi nümunələri nəzərdən keçirək.

a. Misralararsı düz sıra üzrə sadə ikili təkrar(1.s.195):

چند کوشی که بفرمان ***تو*** باشد ***ایام***

نه ***تو*** باشی و نه ***ایام*** چه خواهد بودن

Nə qədər çalışacaqsan ki, əyyam sənin fərmanınla olsun

Nə sən olarsan, nə əyyam bəs onda nə olar

Başqa bir misalda iki həmahəng söz ardıcıl sıra üxrə təkrarlanır (1.s.174):

شهریار ***غزلم*** خوانده ***غزالی*** وحشی

بد نشد با ***غزلی*** صید ***غزالی*** کردیم

Şəhriyar, vəhşi cüyür mənim qəzəlimi oxumuş

Pis olmadı, bir qəzəl ilə bir ahu övladın.

Bu beytdə isə qəzəl və qəzal sözləri misralarda parallel olaraq təkrarlanır və oxşar məna incəliyi ilə diqqəti cəlb edir.

Düz sıra üzrə ikili təkrarın ümumi sxemini belə vermək olar:

1-ci misra: A→ B

2-ci misra: A→ B

b. Misralararsı əks sıra üzrə ikili təkrar

Yaxın mənalı sözlərin ikili təkrarı (“fəryad” və “fəğan” (1.s.141)

از تو کارم شده ***فریاد*** و ***فغان***

که ***فغان*** از تو و ***فریاد*** ازمن

Səndən mənim işim fəryad və fəqan oldu

Belə ki, fəqan səndən və fəryad məndəndir

“Cəvani” və “həvəs” sözləri (1.s.144):

من که با عشق نراندم بـ ***جوانی*** و ***هوسی***

هوس عشق و ***جوانی*** است به پیرانه سرم

Mən ki, eşq ilə cavanlıq həvəsi keçirmədim

Başımın qovğası eşq və cavanlıq həvəsindədir

“Cəvani” və “zendegani” sözləri (1.s.180)

خجل شدم ز ***جوانی*** که ***زندگانی*** نیست

بزندگانی من فرصت ***جوانی*** نیست

İki həmahəng sözün beyt daxilində əks şəkildə təkrarı(1.s.120)

اگر ***خدا*** طلبیدی و یافتی در ***خود***

امید هست که ***خود*** در ***خدا*** توانی یافت

Əgər Tanrı tələb edərək özündə tapdınsa

Ümid var ki, özünü Tanrıda tapasan

Əks sıra üzrə ikili təkrarın ümumi sxeminin belə vermək olar:

1-ci misra: A→ B

2-ci misra: B→ A

c. Birinci misradakı iki sözün ikinci misrada izafət şəklində cəmlənməsi (1.s.115):

بیگانه کند در ***غم*** ما خنده ولی ما

با چشم خودی در ***غم بیگانه*** بگرییم

Biganə bizim qəmimizə gülər ancaq biz

Öz gözümüzlə biganənin qəminə ağlayaq

Birinci misradakı sona yaxın sözün (“dəm”) ikinci misranın əvvəlində təkrarı və digər həmahəng sözlə (“qəm”)musiqili düzən yaratması (1.s.116):

در آمد یار و گفتم ***دم*** گرفتیم

دمم رفت و همه غم دارم امشب

Yar gəlib çıxdı dedim ki, hala gəldim (dəmə gəldim)

Dəmim getdi bu gecə bütövlükdə qəm varımdır

d. Bir söz (“aləm”) və bir izafət birləşməsinin(“konc-e məlal”) düz sıra üzrə parallel təkrarı (1.s.140):

ما در این ***عالم*** که خود ***کنج ملالی*** بیش نیست
عالمی داریم در ***کنج ملال*** خویشتن

Özü dərd qəm küncündən başqa bir şey olmayan bu aləmdə bizim
Öz dərd qəm küncümüzdə bir aləmimiz vardır

Daha bir maraqlı söz düzəninə digər beytdə rast gəlirik; birinci misrada yan-yana işlənən “çeşm” sözü və “çerağ-e del” izafət birləşməsi ikinci misrada “ləff ü nəşr” modelinə bənzər düz sıra ilə təkrarlanır (1.s.253):

آنکه رخساره او ***چشم*** و ***چراغ دل*** ماست
رفت از ***چشم*** من و کشت ***چراغ دل*** من

Rüxsarı bizim ürəyimizin gözü və çırağı olan kəs
Mənim gözümdən getdi və ürək çırağımı öldürdü

e. Digər beytdə maraqlı söz düzəni vardır: birinci misrada “raz-e del” izafət birləşməsi və “pərde” sözü ikinci misrada fərqli şəkildə işlənir; “del” sözü izafətdən çıxarılaraq ikinci misrada tək işlənir, “pərde” sözü isə ikinci misrada “raz” sözü ilə izafət təşkil edir (1.s.261)

کنونکه ***راز دل*** ما ز ***پرده*** بیرون شد
بزن که در ***دل*** این ***پرده راز*** میگویی

İndi ki, bizim ürəyin sirri pərdədən çıxdı
Çal ki, bu pərdənin ürəyində sir deyirsən

3. “Ləff ü nəşr” sənətinə uyğun ikili söz təkrarı

Bu sənətə görə beytin birinci misrasında verilən iki və daha çox söz ikinci misrada açıqlanır (3.s.125). Bu sənət də təkara üzərində qurulmuşdur.

Bu növ təkrarlar beytin söz ahəngi və paralellik əlaqəsi baxımından böyük maraq doğurur. Şəhriyarın qəzəllərində bu növ beytlərə çox rast gəlirik

a. Düz sıra üzrə ikili düzən (1.s.171):

من اگر ***تار*** سر زلف تو گیرم در ***چنگ***
تار در ناله رود ***چنگ*** در آید بخروش

Mən əgər sənin saçının telini əlimə keçirsəm
Tar nalə edər, çəng coşub daşar


Beytdə eyni zamanda saçın tükü çəngin simi, əl isə çənglə gizli bənzətmə təşkil edir.

Başqa bir misal (1.s.187):

عمر ما را مهلت ***امروز و فردای*** تو نیست
من که یک ***امروز*** مهمان توام، ***فردا*** چرا

Bizim ömrümüzün sənin bugün sabahına möhləti yoxdur
Mən ki, bugün sənin qonağınam sabah niyə?

Bu cür ikili düzəni sxemlə belə ifadə etmək olar:



b. Çarpaz (əks) sıra üzrə ikili düzən (1.s.149):

جوانی شمع ره کردم که جویم ***زندگانی*** را
نجستم ***زندگانی*** را و گم کردم ***جوانی*** را

Cavanlığı yoluma şam elədim ki, bir həyat tapa bilim
Həyatı tapa bilmədim və cavanlığı da itirdim

Başqa bir misal (1.s.171):


جوانی حسرتا با من وداع ***جاودانی*** کرد
وداع ***جاودانی*** حسرتا با من ***جوانی*** کرد

c. Beytin misraları üzrə əks sıra ilə ikili söz təkrarı, tənasüblük əlaqəsi və parallel düzən (1.s.206):

از ***زندگانیم*** گله دارد ***جوانیم***
شرمنده ***جوانی*** از این ***زندگانیم***

Mənim cavanlığım yaşayışımdan giley edir
Mənim bu yaşayışımdan cavanlığım utanır

Əks sıra üzrə ikili düzəni sxemlə belə ifadə etmək olar:



d. Digər beytdə ilk olaraq "Xütən","xəta" və "xətt" sözləri arasında olan ahəng diqqəti cəlb edir. Birinci misrada işlənən "Xütən" və "xəta" sözləri ikinci misrada əks sıra üzrə təkaralanır.

آن غزال ***ختنی خط بخطا*** شد یارب
بخطا رفته ما را ***بختن*** باز رسان

O Xütən ahusu xəta (yanlış) bir xəttə (yola) düşüb, ya Rəb
Bizim xətaya düşəni yenidən Xütənə qaytar

e. Həmahəng sözlərin ikili düzən üzrə təkrarı

Bir-birilə ahəngdar olan və əlavəli cinas kimi işlənən "bəla" və "bala" sözləri əks şəkildə "ləffü nəşr" kimi təkaralanır (1.s.192):

بر خاست بلا تا که ببالای تو ماند
ای فتنه ببالا تو ندانم چه بلائی

Başqa bir beytdə iki həmahəng sözün ("xan" və "nan") misralar üzrə əks şəkildə təkrarı, burada işlənən "xun" və "cahan" sözləri də həmin

təkarlanan iki sözlə oxşar ahəngə malik olmaqla beytin musiqi düzənini zənginləşdirir (1.s.198)

ای فلک ***خون*** دل از ***خوان*** تو ***نان*** ما را بس
نان بی منتی از ***خوان جهان*** ما را بس

Ey fələk sənin süfrəndən ürək qanı biziə çörək olaraq bəsdir
Dünya süfrəsindən bizə minnətsiz çörək bəsdir

Bəzən şeirin ahəngi məna incəliyi ilə təmin edilir və aşağıdakı beytdə əks sıra ilə gizli bənzətmə sənəti "ləff ü nəşr" modeli üzrə işlənmişdir: Birinci misrada işlənən "mah" və "zülf" sözləri ikinci misrada əks sıra ilə "əbr" və "aftab" sözləri ilə gizli istiarə təşkil edir (1.s.228).

بروی ***ماه*** نیاری حدیث ***زلف*** سیاه
که ***ابر*** از جلو ***آفتاب*** میگذرد

Ay üzərinə qara zülfün hədisini söhbətini gətirmə
Çünki, bulud günəş qabağından keçir

4. İzafət tərkibinin misralar üzrə ikili təkrarı

a. Sadə şəkildə qurulan təkrarlar(1.s.192):

مگشای در ***خانه دل*** جز برخ دوست
ای عشق تو در ***خانه دل*** خانه خدائی

Evin qapısın dostun üzündən başqasına açma
Ey eşq, sən ürək evində evin Allahısan (sahibisən)

Başqa bir misal (1.s.198):


زندگی ***بار گرانی*** است کشیدن تا گور
ای فلک زحمت این ***بار گران*** ما را بس

b. Birinci misrada izafət tərkibində işlənən sözlərin ikinci misrada ayrılması yolu ilə düz sıra üzrə təkrarı (1.s.198):

گوهر کان جهان دیدم و جان کندن آن
گر شما را نه بس این ***گوهر و کان*** ما را بس

Dünya mədəninin gövhərini, onda üzülən canı gördüm
Sizə bəs deyilsə bu gövhər və mədən bizə bəsdir

Bunu sxem ilə belə göstərmək olar:



Oxşar quruluşa malik digər nümunədə izafətin komponentləri əks sıra üzrə ayrılır (1.s.188):

جز ***دل تنگ*** من ای مونس جان جای تو نیست
تنگ میسند ***دلی*** را که در او جا داری

Ey canın munisi mənim dar ürəyimdən başqa sənin yerin yoxdur
Bu ürəyi ağır və çətinliklə bəyənmə çünki, orada yerin vardır

Başqa bir misal (1.s.228):

بآب و تاب جوانی چگونه غره شدی
که خود ***جوانی*** و این ***آب و تاب*** میگذرد

(Nə cür cavanlığın təravət və hərarətinə qürrələndin,
Çünki cavanlıq özü və bu təravət və hərarət geçib gedər)


Birinci misrada izafət birləşməsi kimi işlənən "ab o tab-e cəvani" ikinci misrada bölünərək əks sıra ilə "cəvani" və "ab o tab" kimi təkrarlanır.

c. Şəhriyar eyni zamanda beytdə işlənən sözlər arasında rəngarəng birləşmə və izafət tərkibi qurmaqla öz şeirinə həm yeni ahəng, həm də zərif məna verir. Bir beytdə birinci misranın əvvəl və sonunda gələn sözlər ("ruzigari" və "pərişan") ikinci misranın sonunda əks sıra ilə cəmlənərək izafət şəklində işlənir ("dəst-e pərişan-e ruzigari") (1.s.233):

روزگاری دست در زلف ***پریشان*** توام بود
حالیا پامالم از دست ***پریشان روزگاری***

Bir zamanlar əlim sənin pərişan zülfündə idi
İndi isə ruzigarın pərişan əlindən paymal olmuşam

Bu növü sxemlə belə vermək olar:



Başqa bir nümunədə isə birinci misrada işlənən "məhrəm" və "biganə" sözləri ikinci misrada əks qütblü izafət birləşməsi şəklində verilmişdir (1.s.260):

من ***محرم*** با یارم و ***بیگانه*** به اغیار
او ***محرم بیگانه*** و ***بیگانه محرم***

Mən yar ilə məhrəməm əğyara isə biganəyəm
O isə biganəyə məhrəmdir, biganə ona məhrəm

Bu beytdə isə birinci misranın əvvəlində işlənən "rah qom kərde" (yolunu itirmiş halda) birləşməsi ikinci misrada əks sıra ilə birləşərək "qomrah" şəklində işlənib, eyni zamanda "rah+mah+qomrah+rah" kimi ardıcıl musiqili söz sırası ilə üzləşirik (1.s.239):

راه گم کرده و باروی چو ***ماه*** آمده ای
مگر ای شاهد ***گمراه براه*** آمده ای

Yolunu itirərək ay kimi üzlə gəlmisən
Məgər ey yolunu itirən (şahid) gözəl, yola gəlmisən

Başqa bir variantda beytin birinci misrasında bir-birilə həmahəng olan "azar" və "zar" sözləri izafət tərkibində (azar-e mən-e zar) işlənərək ikinci

misrada əks sıra ilə başqa bir izafət tərkibi (del-e zar-e mən) təşkil edir (1.s.244).

هر کس ***آزار من زار*** پسندید ولی
نپسندید ***دل زار من آزار*** کسی

Hər kəs mənim ahu zarlı əzabımı bəyəndi lakin
Mənim zar (zarıyan) ürəyim kimsənin əzabını bəyənmədi

Birinci misrada səciyyəvi xüsusiyyəti ilə ayrılan iki söz ikinci misrada yanaşma yolu ilə təkrarlanır(1.s.198):

نه سر ***پیر*** خرد دارم و نه بخت ***جوان***
عشق جاوید تو از ***پیر و جوان*** ما را بس

Nə qoca başda ağlım var nə də cavan bəxtim
Sənin əbədi eşqin cavandan qocaya bizim üçün bəsdir

5. Üç söz təkarı üzərində qurulan musiqi ahəngi

Üç sözün beytdə parallel təkrarı

من دگر ***بار*** سفر بسته ام از ***یار و دیار***
گر تو خود ***بار*** دهی ***یار*** و ***دیارم*** با تو

Mən artıq öz yar və diyarımdan səfərə hazırlaşmışam
Əgər sən özün bir zəhmət versən yarım və diyarım səninlə olar (1.s.133)

Üç sözün ikili təkrarı: "quş" və "səngin" sözləri ikinci misrada əks şəkildə təkrar olunur, "fəryad" sözü isə misra sonunda parallel şəkildə təkrarlanır (1.s.188)

در ***گوش*** تو ***سنگین*** است، ***فریاد*** که ***فریاد*** از من
سنگین تر از آن لیکن، ***گوش*** تو که ***فریاد*** از تو

Sənin qulağına fəryad ağır gəlir çünki fəryad məndədir
Ondan daha ağır sənin qulağındır, səndən fəryad çəkirəm

Üç söz və ibarənin misralar üzrə fərqli məna incəliyi və sıra ilə parallel təkrarı ("sizdəh", "həme aləm" "bedər"(1.s.145)

سیزده را ***همه عالم بدر*** امروز از شهر
من خود آن ***سیزدهم*** کز ***همه عالم بدر***م

Bugün bütün aləm on üçü şəhərdən kənara çıxır
Mən özüm həmin on üçəm ki, bütün aləm məni kənara atıb

Bu beytdə yenə üç söz ("eşq"və "ümid", "səadət") ikinci misrada əks sıra ilə təkaralanır (1.s.266):

من بجز ***عشق*** و ***امید*** ت چه ***سعادت*** طلبم
که ***سعادت*** بجهان نیست بجز ***عشق*** و ***امید***

Mən sənin eşq və ümidindən qeyri nə səadət istərəm
Eşq və ümiddən başqa dünyada səadət yoxdur

6. Qəzəl adında işlənən ritmik düzən

Şəhriyar öz qəzəllərinə ad və ünvan verməklə onun məna tutumunu yığcam bir ifadə ilə nəzərə çatdırır və bəzən bu adın özü də musiqili ahəngə

malik olur. Məs, "Saz və suz" qəzəli kimi. Qəzəlin mətlə beyti belədir (1.s.198):

باز کن نغمه جانسوزی از آن ساز امشب
تا کنی عقده اشک از دل من باز امشب

Qəzəlin bu beytində isə üç söz - "saz", "dəst" və "mən" sözləri hər iki misrada əks sıra üzrə təkrarlanır:

ساز در ***دست*** تو سوز دل ***من*** میگوید
من هم از ***دست*** تو دارم گله چون ***ساز*** امشب

Sənin əlində saz mənim ürək yanğımı söyləyir
Bu gecə saz kimi sənin əlindən giley edirəm

Həmin qəzəlin digər beytində isə "pərde" və "raz" sözləri ikinci misrada yeni sıra üzrə təkrarlanır:

زیر هر ***پرده ساز*** تو هزاران ***راز*** است
بیم آنست که از ***پرده*** فتد ***راز*** امشب

Şair yenə həmahəng söz tərkibi ilə ad verdiyi başqa bir qəzəlinidə (دیوان و دیوانه) ahəngdar söz və məna oyunu üzərində təkrarlar qurmuşdur; beytdə dörd söz təkrarlanır: "pa", "dərd", "dərman" və "mən", söz sörası iki misrada fərqlidir, yalnız "mən" sözü sonda gəlir (1.s.194):

من چون ز***پا*** بیفنم ***درمان درد من*** اوست
درد آن بود که از ***پا درمان من*** بیفتد

Mən əgər ayaqdan düşərəmsə (yıxılaramsa) dərdimin dərmanı odur
Dərd odur ki, mənim dərmanım ayaqdan düşsün

Şəhriyar bir qəzəlinin adını "Lalə və piyalə" qoymuş, yenə ad seçimində poetik fənd işlətmişdir; lalə və piyalə arasında analogiya və bənzətmə vardır, bu sözlər eyni zamanda həmahəng olmaqla musiqili düzənə malikdir. Beytin ritmik quruluşuna diqqət yetirək: birinci misranın sonunda yanaşı gələn "lale" və "piyale" sözləri ikinci misrada ayrılaraq əvvəl və sonda təkrarlanmışdır (1.s.210):

گرفت ساقی گلرخ بکف ***چولاله پیاله***
پیاله از رخ ساقی گرفت پرتو ***لاله***

Gül üzlü saqi əlinə lalə kimi piyalə götürdü
Piyalə isə saqinin üzündən lalənin parıltısını götürdü

Başqa bir qəzəlin adında yenə ritmik ahəng vardır: "Şetab-e şəbab" (Cavanlığın tələsməsi). Beytdə həmahəng olan "şəbab" və "şetab" sözləri paralel olaraq əks sıra üzrə təkrarlanır (1.s.228):

شباب عمر عجب با ***شتاب*** میگذرد
بدین ***شتاب*** خدایا ***شباب*** میگذرد

Ömrün gəncliyi əcəb tələsiklə keçir
Bu tələsiklə ey Tanrı, gənclik keçir

Digər beytdə "şetab" sözü ikinci misranın əvvəl və sonunda rədiflə işlənir, "şəbab" sözü isə birinci misranın əvvəlində işlənərək həmin sözlə həmahəng olur və beytin musiqisinə əlavə çalar verir.

شباب و شاهد وگل مغتنم بود، ساقی
شتاب کن که جهان با ***شتاب*** می گذرد

Saqi gənclik şahid (gözəllik) və gül qənimət idi
Tələs ki, dünya tələsiklə keçir

7. Təzadlı düzən üzrə musiqi və məna ahəngi

Təzadlı sözlərin ("bigane" və "aşena" fərqli məna incəliyi ilə misralararası təkrarı (1.s.103):

بیگانه شد بغیر تو هر ***آشنای*** راز
هر چند ***آشنا*** همه ***بیگانهٔ*** تو بود

"Bav" (və) bağlayıcısı ilə yan-yana gələn iki təzadlı sözün "rəddül-əcz ələs-sədr" modelinə uyğun əks sıra üzrə təkrarı (1.s.133):

خار یا ***گل*** همه کیفیت ما با تو گذشت
ای سفر کرده به یکجا ***گل*** و ***خار***م با تو

Tikan və ya gül bizim bütün həyatımız (keyfiyyət) sənin lə keçdi
Mənim gül və tikanım sənin lə birlikdə səfər etdi

Digər beytdə "bahar" və "xəzan" təzadı ilə yanaşı, birinci misranın ortasında gələn "cəvani" (cavanlıq) sözü ikinci misranın sonunda təkrarlanır. Beytdə lalə al yanaqlı sevgilinin istiarəsidir, "dağ" sözü isə ikili məna daşıyır; lalənin ləçəyində olan xal və aşiqin sinəsinə çəkilən dağ. Burada eyni zamanda cavanlıq bahar ilə, ömrün keçməsi ilə xəzanla müqayisə edilir və "matəm" sözü "xəzan" ilə uzlaşır (1.s.206).

ای لاله ***بهار جوانی*** که شد ***خزان***
از داغ ***ماتم*** تو ***بهارجوانیم***

Ey lalə cavanlıq baharı xəzan oldu
Cavanlıq baharım sənin matəminin dağındandır

Başqa bir misalda "mehr" sözünün tək və təzadlı məna bildirən söz tərkibində üç dəfə təkrarı (1.s.140)

من ***مهر*** تو پروردم و تو کین من تا چون کند
نامهربانی های تو با ***مهربانی*** های من

Mən sənə mehr göstərdim mən sənə kin
Bəs necə olsun mənim mehribanlıqlarımla sənin namehribanlığım

Digər bir beytə nəzər salaq: təzad təşkil edən "kamal" və "nəqs" sözünün üç dəfə tək-tək və izafət birləşməsi tərkibində fərqli məna incəlikləri ilə təkrarı maraqlı bir bədii lövhə kimi zehində canlanır. Birinci misrada "kəmal-e nəqs" izafət birləşməsi əks sənətinə uyğun çevrilərək "nəqs-e kəmal" şəklində gəlir; ikinci misrada isə birləşmədən ayrılaraq işlənir (1.s.140):

بر ***کمال نقص*** و در ***نقص کمال*** خویش بین

گربه***نقص*** دیگران دیدی***کمال*** خویشتن

Əgər öz kamalını başalarının nöqsanında görürsənsə

Naqislikdə kamal və kamalda nöqsanını gör

Başqa bir nümunədə isə "cəm" və "pərişan" təzadı arasında maraqlı qarşılaşma verilir: birinci misranın sonunda işlənən "pərişani-ye cəm" izafət birləşməsi, ikinci misranın sonunda əks sıra ilə birləşərək şeirin məna və ritmik düzəninə xoş ahəng qatır (1.s.217).

دارم از زلف تو اسباب ***پریشانی جمع***

ای سر زلف تو ***مجموع پریشانیها***

Sənin zülfün topartanmış halımın dağılmasına səbəb olur,

Ey sevgili! Sənin saçının ucu, bütün pərişanlıqların məcmusudur

Bəzən beytdə söz təkarı deyil.vəzn baxımından həmahənglik təşkil edən sözlər beytin musiqililiyini təmin edir (1.s.264):

بـ***قهر*** رفتن و ***جور*** و ***جفا*** شعار تو بود

چه شد که بر سر ***مهر*** آمدی ***وفا*** کردی

Qəhrlə getmək cövr və cəfa sənin şüarın idi

Nə oldu ki, mehrlə gəldin, vəfa etdin

Beytdə "cəfa" və "vəfa" sözləri, həmçinin "qəhr" və "mehr" sözləri həmahənglik və eyni zamanda təzad təşkil edir. Başqa bir beytdə yenə həmahənglik və təzad təşkil edən sözlər ardıcıl sıra üzrə beytin quruluşuna tənasüblük verir: birinci misrada "cövr ü cəfa" ikinci misrada onun antonimi olan "mehr ü vəfa" ilə, "vəfa" sözü isə ayrıca "cəfa" ilə tənasüblük yaradır (1.s.264):

منم که ***جور و جفا*** دیدم و ***وفا*** کردم

توئی که ***مهر و وفا*** دیدی و ***جفا*** کردی

Mənəm ki, cövrü cəfa gördüm vəfa etdim

Sənsən ki, mehr və vəfa gördün və cəfa etdin

8. Musiqi ahəngi yaradan digər poetik fəndlər

Şəhriyar öz şeirinə gözəl ahəng verməklə yanaşı, onun zərif bədii naxışlarla və məna incəlikləri ilə cilalanmasını da əsla nəzərdən qaçırmır və nəticədə romantik ruh və estetik zövq aşılayan xəyal lövhələri yaradır.

a. Bir beytdə birinci misranın başlanğıcında gələn söz (bəndegi) və sonunda gələn izafət birləşməsi (dər-e dust) ikinci misrada vahid bir izafət birləşməsi (bəndeqan-e dər-e dust) təşkil etməklə təkrarlanır və cəmlənir, şairin təxəllüsü də məna fərqi ilə təkrarlanır (1.s.201)

تو ***بندگی*** بگزین ***شهریار***، بر ***در دوست***

که ***بندگان در دوست***، ***شهریار***انند

Bəndəlik qapısı seç, Şəhriyar, dost qapısında,

Ki (çünki) dost qapısının bəndələri şəhriyarlardır

b. Maraqlı təkrarlardan biri sintaktik vahidlərin təşkil etdiyi paralellikdir; bu beytdə birinci misrada işlənən iki izafət birləşməsi ("qəm-e

donya" və "tən-e tənha" ikinci misrada əks sıra üzrə paralel şəkildə təkarlanaraqbeytə misiqiahəngiverir (1.s.202)

چند بارد ***غم دنیا*** به ***تن تنهایی***
وای بر من ***تن تنها*** و ***غم دنیایی***

Nə qədər dünya qəmi mənim tənha bədənimə yağar
Mənim tənha tənimə və dünya qəmimə vay olsun

Bu beytdə isə sintaktik təkarın yaratdığı musiqi ahəngi ilə rastalaşırıq (1.s.230):

رونقی ***بی گل خندان بچمن باز*** نماند
یارب آن ***نوگل خندان بچمن باز*** رسان

Birinci misra: بی گل خندان بچمن باز
İkinci misra: نوگل خندان بچمن باز

Çəməndə o xəndan (gülən) gül olmadan rövnəq qalmadı
Yarəb o yeni xəndan gülü yenə (bir daha) çəmənə qaytar

c. Poetik və ritmik düzənə malik daha bir qəzəlin adı diqqəti cəlb edir: "Hər çe piş ayəd, xoş ayəd". Qəzəlin mətlə beytində qoşa rədif öz musiqi düzəni ilə maraq doğurur (1.s.256):

هر چه در ***پیشم*** از آن زلف ***پریش آیدخوش آید***
من دلی درویش دارم هر چه ***پیش آید خوش آید***

Başqa bir beytdə birinci misranın sonuna yaxın sözün ("yaran") ikinci misranın sonuna yaxın təkrarı ki, beytdə paralellik yaradır və ikinci misranın əvvəlində həmin kökdən olan "yari kon" (yardım et, dostluq et) ifadəsi beytin ümumi musiqi ahənginə rəng qatır.

دارم هوای صحبت ***یاران*** رفته را
یاری کن ای اجل که ***بیاران*** رسانیم

Keçmiş dostlarımın söhbətinin havası məndə var
Ey əcəl yardım et ki, dostlara yetişə bilim

d. Başqa növ paralellər:

"Rəddül-əcz iləs-sədr" sənəti, yəni beytin birinci misrasının əvvəlində işlənən söz və ya ifadə ikinci misranın sonunda təkaralanır (3.s.70). Bu misalda beytin əvvəlində gələn izafət birləşməsi ("təqdir-e İlahi") beytin sonunda təkaralanır və beytə musiqililik verir (1.s.229):

تقدیر الهی چو پی سوختن ماست
ما نیز بسازیم ***بتقدیر الهی***

İlahi təqdir bizi yandırmağın ardıncadır
Biz də gərək ilahi təqdirlə uzlaşaq

e. Təxəllüslə bağlı işlənən bədii fəndlər:

Şair təxəllüsünü beytin birinci misrasının əvvəlində və ikinci misranın sonunda təkarlayaraq "rəddül-əcz ələs-sədr" sənətinə uyğun həm musiqi ahəngi, həm də məna incəliyi yaratmışdır(1.s.233):

شهریاری غزل شایسته من باشد و بس

غیر من کس را در این کشور نشاید ***شهریاری***

Qəzəl padşahlığı (Şəhriyarlığı) mənə layiqdir və bəs

Məndən başqa bu ölkədə padşahlığa kimsə layiq deyil

"شهریاری من" adlı şeirdə şair yenə təxəllüsü üzərində zərif məna oyunu qurur (1.s.263):

جز من ***بشهر یار*** کسی ***شهریار*** نیست

شهری بشاه پروری ***شهر یار*** نیست

Yarın şəhərində məndən qeyri Şəhriyar yoxdur

Yarın şəhərindən başqa şahpərvər şəhər yoxdur

Beytdə "şəhr" sözü dörd dəfə, parallel olaraq təkrarlanır; birinci misrada "be şəhr-e yar" birləşməsi "yarın şəhərində" mənası bildirir, ardınca "şəhriyar" sözü "padşah" mənasında işlənir; ikinci misrada əvvəlcə "şəhr" sözü öz həqiqi mənasında işlənir, sonar yenə "şəhriyar" adı gəlir.

Başqa bir beytdə isə şair birinci misranın əvvəlində verdiyi təxəllüsünü ("Şəhriyar") ikinci misrada ikiyə ayıraraq ("şəhr" və "yar") zərif məna oyunu yaradır (1.s.241):

من ***شهریار*** ملک سخن بودم و نبود

جز گوهر سرشک، در این ***شهر***، ***یار***من

Mən söz mülkünün şəhriyarı (padşahı) idim və yox idi

Göz yaşının gövhəri kimi bu şəhərdə yarım mənim

Şərq poetikasında işlənən və beytə musiqililik və ahəng verən fəndlərdən biri əks sənətidir: birinci misrada verilən iki söz ikinci misrada əks sıra ilə verilir (3.s.75). Ancaq bu sənətin elə növü vardır ki, beytin birinci misrasının birinci parçası ikinci misranın əvvəlində, ikinci parçası isə ikinci misranın əvvəlində təkrarlanır və bu cür yerdəyişmə beytin ahəng və musiqi düzəninə tənasüblük gətirir. Aşağıdakı iki beyt bu şəkildə qurulmuşdur (1.s.251):

مرا هر گه بهار آید بخاطریاد یار آید

بخاطر یاد یار آید ***مرا هر گه بهار آید***

Mənim yadıma yar düşəndə sanki mənə bahar gəlir

Haçan mənə bahar gələndə yarın xatiri yadıma düşür

چو فریاد هزار آید شود دردم هزارای گل

شود دردم هزارای گل ***چو فریاد هزار آید***

Əgər bülbül (hezar) fəryad edərsə ey gül dərdim min olar

Ey gül dərdim min olar əgər bülbül fəryad edərsə

Şairin digər qəzəlindən gətirdiyimiz bir beytdə sintaktik parallelik yaradan oxşar bir düzən işlənmişdir (1.s.260):

من درهمه عالم بجز از ***دوست نخواهم***

تا***دوست نخواهد*** چو ***من در همه عالم***

Mən bütün aləmdə dostdan başqasını istəmirəm

Ancaq dost bütün aləmdə məni kimisini istəməz

Aşağıdakı beytin misraları daha geniş sıralı sintaktik parallel təşkil edir, sintaktik vahidin içərisində işlənən "cuş o xoruş" və "xom o xomxane" parçaları isə ahəngdar sözlərdən təşkil edilmişdir (1.s.114):

از جوش و خروش خم و خمخانه خبر نیست

با جوش و خروش خم و خمخانه بگرییم

Xüm və xümxanənin coşqu və harayından xəbər yoxdu

Gəl xüm ilə xümxanənin coşqu və harayı üçün ağlayaq

Digər beytdə "zar" sözü üç dəfə təkrarlanmaqla musiqi ahəngi yaradır və həmin sözlə həmahəng olan "azar" sözü qismən əlavəli cinas kimi özünü göstərir, eyni zamanda bu sözlərdə işlənən "r" səsi "əbr", "məra" və "sər" sözlərində gələn eyni səslə beytin ahəngini zənginləşdirir.

چو پیش خنده گل ***ابر آزاری*** کند ***زاری***

مرا در سر هوای ناله های ***زارزار*** آید

Gülün gülüşü qarşısında bulud zar-zar zarıyırsa

Mənim başıma zar-zar nalələrin havası gəlir

Başqa bir beytdə isə birinci misranın son parçası (باد سحر گاهی) ikinci misranın əvvəlində təkrarlanaraq quruluş cəhətdən "rəddül-əruz ələl-ibtida" sənətinə uyğun musiqi ahəngi yaradır(1.s.251):

مرا جان دگر بخشد دم ***باد سحر گاهی***

که از ***باد سحر گاهی*** نسیم زلف یار آید

Sübh çağında əsən yelin nəfəsi mənə başqa can bağışlar

Beləki, səhər çağının yelindən yarın saçının nəsimi gələr

Başqa bir beytdə birinci misranın əvvəlindəki tərkib (شادمانی بعدعمری) ikinci misranın sonunda "rəddül-əcz ələs-sədr" sənətinə uyğun, yalnız söz sirası dəyişilməklə təkrarlanır ki, bu da həm beytə yeni ahəng, həm də məna incəliyi bəxş edir ki, bu da Şəhriyarın qələminin poetik məharətini göstərir (1.s.267):

شادمانی بعد عمری خود به تبریک من آمد

راستی تبریک دارد ***بعد عمری شادمانی***

Şadlıq bir ömürdən sonra özü mənim təbrikimə gəldi

Doğrudan da bir ömürdən sonradan gələn şadlıq, təbrikə dəyər

Şairin bu beytində birinci misrada işlənən beş söz və tərkib ("mən", "həme aləm", "rəm" (hürkmək), "tənha" və "ram" sözləri ikinci misrada fərqli sıra üzrə təkrarlanır, "u" əvəzliyi isə öz sinonimi olan "vey" sözü ilə təkrarlanır (1.s.257):

من با همه عالم ***رم*** و ***تنها*** به ویم ***رام***

او ***رام*** همه عالم و ***تنها*** ز***من***ش ***رم***

Mən bütün aləmdən hürkürəm (qaçıram) təkcə ona ram oluram

O bütün aləmi ram edir yalnız məndən hürkür (qaçır)

Bir sözlə, Şəhriyar klassik ənənələrə söykənərək öz fitri istedadı ilə istər beytin misralarındakı leksik təkrarlarda yer alan ardıcıl və əks istiqamətli söz sırası, istər tək-tək sözlər və izafət birləşməsinin komponentləri arasında olan ahəngdar düzən, istər izafət birləşməsinin komponentlərini parçalamaqla həmin komponentlərlə beytdə işlənən digər sözlər arasında qrammatik və semantik əlaqə qurmaqla çeşidli variantlara əl atır və bununla həm öz şeirinin ritmik-musiqi ahəngini, həm ifadə olunan məna incəliklərini, həm də bədii təxəyyül çevrəsini və estetik təsir dairəsini genişləndirir.

Nəticə

Şəhriyarın fars divanından götürülmüş bir çox qəzəllər üzərində aparılan müşahidə və təhlillər göstərir ki, ustad sənətkar öz sələflərinin ənənələrini davam etdirərək klassik şeir sənətinin bütün formavə məna xüsusiyyətlərinin incəliklərini dərindən mənimsəmiş, xüsusilə də qəzəllərin quruluşunda zəngin daxili ritmik-musiqi ahəngi və düzəni yarada bilmişdir. Şairin qəzəllərində işlənən çeşidli söz təkrarları və paralellər bu baxımdan önəmli yer tutur. Onun qəzəllərində daha çox ikili söz düzəni diqqəti cəlb edir ki, bu da klassik ənənədən qaynaqlanır. Şairin işlətdiyi bütün fəndlər həm beytlərin ritmik-musiqi ahəngini, həm də onlarda verilən məna incəliklərini təmin etməklə gözəl bədii lövhələr kimi qarşıya çıxır və şairin qəzəllərinin estetik məzmunun zənginləşdirir. Şairin söz sənətində məharət və təxəyyül gücünü göstərən amillərdən biri bir beytdə bir neçə bədii vasitə və poetik fəndin fərqli məna incəlikləri ilə işlənməsidir.

Şəhriyar qəzəllərinə xas ritmik-musiqi düzəni yaradan amilləri yığcam şəkildə bu cür ümumiləşdirmək və təsnifləndirmək olar:

1. Beytlərin misraları arasında düz və əks sıra üzrə ikili ahəngdar söz təkrarı;
2. Söz təkrarlarında ritmik ahəngi gücləndirmək üçün həmahəng sözlərin

işlənməsi;

3. Komponentlərin həm izafətin tərəfləri kimi birləşməsi şəklində, həm də

birləşmədən ayrılaraq tək-tək sözlər kimi sıralanması;

4. Quruluş baxımından “ləffü nəşr” və “rəddül-əcz əlәs-sədr” modelinə uyğun

ikili söz düzəni və beytin ritmik-musiqi ahəngi;

5. Sintaktik paralellər və “qəlb” sənəti modelinə uyğun misraların parçalarının

əks istiqamətdə çevrilməsi;

6. Təzadlı söz qruplarının işlənməsi ilə yaranan ahəgdar düzən;

7. Söz və tərkiblərin təkrarlarında zərif məna keçidləri və semantik dəyişiklər.

Qaynaqlar

1. دیوان شهریار. سید محمد حسین شهریار. کنگره بزرگداشت استاد سید محمد حسین شهریار. جلد اول. تبریز، 1371
2. رباب رومی. گشتی در رفتار و آثار موسیقایی جمال آفرین جلال الدین محمد بلخی (مولوی). مهدی ستایشگر. تهران: انتشارات فرهنگ و هنر.جلد اول.1384
3. زیباشناسی سخن پاریی (بدیع). میر جلال الدین کزّازی. تهران: نشر مرکز، 1373
4. سیمای شعر. مجلد اول: تاریخ شعر در جهان. دکتر محمد جعفر جعفری لنگرودی. تهران: انتشارات کتابخانه گنج دانش. 1373
5. سیمای شعر. مجلد دوم: هنر و هنرشناسی. دکتر محمد جعفر جعفری لنگرودی. تهران: انتشارات کتابخانه گنج دانش. 1373
6. گزیده غزلیات شمس مولانا جلال الدین محمد بلخی. به کوشش دکتر محمد رضا شفیعی کدکنی. تهران: شرکت سهامی کتابهای جیبی. 1363
7. موسیقی شعر. دکتر محمد رضا شفیعی کدکنی. چاپ چهارم. تهران: انتشارات آگاه.1373
8. Prof.Dr. Cem Dilçin. “Fuzulinin şiirlerinde söz tekrarlarına dayanan bir anlatım özelliği”
Fuzulinin şiiri üzerine incelemeler. İstanbul: Kabalcı Yayınevi. 2010
9. Nəsib Göyüşov. Füzuli: Düşüncə və ruhun poetikası. Bakı: Elm və Təhsil. 2012
10. Аристотель. Риторика. Поэтика. М., Лабиринт. 2000
11. О.Брик. Звуковые повторы / Поэтика (Сборники по теории поэтического языка)/. Петроград. 18-я государственная типография. 1919
12. В.М. Жирмунский. Теория литературы. Поэтика. Стилистика. Л. «Наука».1977
13. В.Б.Шкловский. Воскрешение слова. Санкт-Петербург.1914
14. В.Б.Шкловский.О поэзии и заумном языке. /Поэтика (Сборники по теории поэтического языка)/. Петроград. 18-я государственная типография. 1919
15. Структурализм: «за» и «против». Сборник статей. Перевод с англ., пол., и др. М., Прогресс. 1975
16. И.М. Филбштинский. История арабской литературы V- начало X века.М., ГРВЛ. 1985

М.Мехтиева

Внутреняя ритмико-музыкальная структура персидских газелей Шахрийара

Резюме

В статье рассмотрены типы художественных приемов, обеспечиавющих внутреннюю ритмико-музыкальную структуру персидских газелей Шахрийара, который считается Хафизом XX века.

Еще русские структуралисты начала XX века заметили важную роль звуковых повторов в организации ритмико-музыкальной основы поэтической речи.Здесь огромное место отводится также лексико-словесным повторам и ситаксическим параллелам. Звуки и лексические единицы поэтического языка упорядочены и организованы сооразмерно, их расположение придает стихотерной речи ритмическую окраску.

Шахрийар будучи поэтом современного мира, творчески продолжал и развивал лучшие традиции классиков персидской поэзии. В его газеллах обнаруживаются богатые поэтические приемы словесного искусства, которые придает его стихам богатое ритмико-музыкальноеоформление и образно-эстетическую окраску.Здесь наряду с метрической композицией стиха, рифмы и строфы, которые являются основными элеметами внешнего оформления поэтической речи, выступают и другие словесные и синтаксические приемы, составляющие внутреннюю ритмико-музыкальную структуругазелей. Указанные приемы можно суммировать следующим образом:

1. Словесные повторы в строках байта по последовательному и обратному

чередованию слов;

2. Специальное расположение и расстановка слов;

3. Словесно-смысловая перестоновка слов по поэтическим категориям «лафф ва

нашр» и «радул-аджz алас-садр» (Epanalepsis and Epanastrophe)

4. Использование повторов с изменением семантического значения лексических

единиц и развертыванием их образно-метофоического переосмысления;

5. Ритмико-ситаксический параллелизм;

6. Словесно-семантическое сочетание отдельных слов в составе изафета и

расчленение компонентов изафета;

7. Жудожественные оппозиции и бинарные синтаксические построения.

M. Mekhdiyeva

Inherent rhythmic-musical structure of Shahriyar's Persian ghazals

Summary

The article analyses the types of the artistic methods, determining the inherent rhythmic-musical structure of the Persian ghazals of Shahriyar, who is considered Hafiz of the 20th century.

Still in the beginning of the 20th century, the Russian structuralists noticed the important role of the sound repetitions in the organization of the rhythmic-musical basis of the poetic speech. Here is also featured the lexico-word repetitions and syntactic parallels. The sounds and lexical units of the poetic diction are ordered and organized in proportion, their arrangement gives a rhythmic touch to the poetic speech.

Shakhriyar, a poet of the modern world, creatively carried on and developed the best traditions of the classical authors of the Persian poetry. In his ghazals are found rich poetic methods, which give to its verses rich rhythmic-musical appearance and figurative-aesthetic coloring. Besides the metric composition of the verses, rhymes and stanzas which are the main elements of the outward appearance of the poetic speech, here have also included other poetic and syntactic methods forming the inherent rhythmic-musical structure of the ghazals.

The indicated methods can be summarized as follows:

1. Word repetitions in the lines of a distich in consecutive and returning to the alternation of words;
2. Special order and arrangement of words;
3. Word-semantic shift of words on the poetic category "Laff va nashr" and "Radul-ajuz al-as-sadr";
4. Use of repetitions with the change of the semantic values of lexical units and expansion their figurative-metaphorical reconsiderations;
5. Rhythmic-syntactic parallelism;
6. The word-semantic combination of separate words as a part of the *izafet* and the partition of the components of the *izafet*;
7. Artistic oppositions and binary syntactic formations.

Rəyçi: filologiya üzrə e.d.Nəsib Göyüşov

Rəyçi: Nəsib Göyüşov
Filologiya üzrə elmlər doktoru

TAHİR PAŞAZADƏ
AJMVA-nın prezidenti
pashazade.tahir@mail.ru

HEYDƏR ƏLİYEVİN FOLKLORUN İNKİŞAFINDA KONSEPTUAL DAVAMLILIQ SIYASƏTİ

Açar sözlər: Heydər Əliyev, Folklor, Milli mənlik şüuru, Konsepsiya, Davamlılıq , İnstitutlaşma, mənəvi humanitar həyatı, özünə qayıdış siyasəti
Ключевые слова : Великий лидер Гейдар Алиев, Азербайджанская литература , концепция развития фольклора, наследие классики , годовщину юбилейных мероприятий. «Китаби-Деде Горгуд-1300».
Key words: Haydar Aliyev, folklore, national identity, consciousness, conception, durability, institutionalization, spiritual humanitarian life

Ümummilli Lider Heydər Əliyevin Azərbaycana siyasi rəhbərliyə təyin olunduğu ilk illərdən başlayaraq dövlətçilik işinin əsas istiqamətlərindən biri kimi ədəbi irsimizə, klassiklərimizə milli mənəvi dəyərlərimizin dvamlı konseptual olmasına diqqət və qayğı göstərməsi əvəzsiz xidmət idi. Azərbaycanın dahi şairiNizaminin 850, Füzulinin 500 illik yubileylərinin keçirilməsi ümumtürk ədəbiyyatına,mədəniyyətinə rəhbər töhfəsi idi:"Çoxəsrlik tariximizdə xalqlarımızı yaşadan,qoruyan və bugünkü günlərə gətirib çıxaran amillərdən biri, ola bilər ki, ən əsası, bizim mədəniyyətimiz, ədəbiyyatımız, deməli, şairlərimiz, yazıçılarımızdır" (2,19). Tanınmış alim Qalib Əliyev yazır ki, milli mənlik şüurunun inkişafi üçün Ulu Öndər Heydər Əliyev konsepsiyasının əsas xəttində xalqın tarixi yaddaşının və millətin mənəvi dəyərlərinin inkişafının və mədəni uğurlarının yaşadılması,kompleks inkişaf etdirilməsi durur. Bu istiqamət tarixi yaddaşlardan keçib gələn etno özünüdərkin bu günümüzdə yeni aktuallıq qazanmasından və təbliğinin təşkilindən ibarətdir. Bütün dünyanın humanitar siyasi kursunda da xalqın vəhdət halında birləşməsinin milli inkişafın aparıcı şərtlərindən biri kimi özünü bir tam olaraq göstərə bilir. "Milli mədəniyyətin və milli mənlik şüurunun inkişaf qanunauyğunluqlarından biri mənəvi irsin varisliyidir". Heydər Əliyev də bütün mənəvi dəyərlərin inkişafı siyasətində ilk növbədə "mədəniyyət və mənlik şüuru" ideallarına, mənəvi irsin varisliyinə arxalanmışdır (1, 110). Heydər Əliyev təkcə bu günü və sabahı düşünməklə kifayətlənməyib. O, eyni zamanda keçmişə, tarixə müraciət etməyi, onun dərslərindən müdrik nəticələr çıxarmağı tövsiyə edirdi: "Ümummilli lider Heydər Əliyevdən ötrü keçmişə müraciət özünəməqsəd deyildir. O, milli köklərə və tarixi dəyərlərə müraciət edərək burada milli şüuru və mənlik şüurunu formalaşdırmaq üçün mənbə və zəmin axtarır və görür. O, ulu babalarımızın adlarına, ideyalarına və suallarına müraciət edərkən, öz

